# ŞİRVANŞAHLAR DÖVLƏTİ

## Sara xanım AŞURBƏYLİ

**Sara xanım Aşurbəylinin işıqlı xatirəsinə**
**Və doğma bacıları - ona bütün həyatı boyu mənəvi dayaq və kömək olmuş Sitarə xanım, Məryəm xanım, Adilə xanım və Nazimə xanımın işıqlı xatirələrinə**

Artıq 300 ilə yaxındır Aşur xan Əfşarın nəsli öz talelərini qədim Abşeron torpağı ilə bağlamışlar.

Aşur bəyləri, Aşurbəyovlar, Aşurbəylilər, Aşurlular Azərbaycanın tarix salnaməsinə çoxlu işıqlı səhifələr yazmışlar.

Sara xanım Aşurbəyli - bu nəslin ən şöhrətli təmsilçilərindən biri - Azərbaycanın və onun paytaxtı Bakı şəhərinin tarixinin ümummilli səviyyədə dərkində özünün şəxsi, gerçəkdən misilsiz töhfəsini vermişdir.

Asan olmayan, bəlkə də faciəli bir tale nəsib olmuş Sara xanım orta əsrlər Abşeronunun fundamental araşdırıcısı olaraq Şərqdə yaxşı tanınır. Bu yolda ona təkcə parlaq analitik təfəkkürü və kamil təhsili deyil, həm də yeddi dil - ərəb, fars, fransız, alman, ingilis, rus və Azərbaycan dillərini bilməsi kömək etmişdir.

Sara xanım Aşurbəylinin elmi monoqrafiyaları - "Orta əsrlər Bakısının tarixi oçerki", "Şirvanşahlar Dövləti", "Azərbaycanın orta əsrlərdə Hindistanla iqtisadi və mədəni əlaqələri", "Bakı şəhərinin tarixi. Orta əsrlər dövrü" hələ müəllifin sağlığında Azərbaycan tarixinə dair klassik əsərlər sırasına daxil olmuşdular.

Bununla belə, öz əsilzadə mənşəyinə və tarixə sinfi baxış barədə o zamankı rəsmi elmi yanaşmaya şərik çıxmadığına görə, Sara xanım Vətənində heç vaxt hakimiyyətin hüsn-rəğbətini hiss etməmişdir. Lakin hər halda, o, doğma Bakıda, yaxud özünün dediyi kimi, Tanrının Şəhərində asan sayıla bilməyəcək olan mühacirət həyatı yaşadı.

Nəhayət, budur, 1996-cı il yanvarın 27-də - Sara xanım Aşurbəylinin 90 illiyi günündə yeni Azərbaycanın bütün elitası M.F.Axundov adına Opera və Balet Teatrına yubilyarı təbrik etmək üçün yığışmışdılar. Ağzına qədər dolmuş zalda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev yubilyarı şəxsən təbrik edərək, ona Şöhrət Ordeni təqdim edir. Sara xanım üçün bu yəqin ki, onun uzun illər ərzində gözlədiyi bir an idi. Bəlkə də bu anı bütün ömrü boyu gözləmişdi. Dövlətin və cəmiyyətin ona lap çoxdan layiq olduğu qiyməti verdiyi an idi.

Sara xanım Aşurbəylinin kitabları - tariximizin qədim çağlarının təməl daşıdır, onun Azərbaycan xalqına hədiyyə olaraq qoyub getdiyi misilsiz tarix xəzinəsidir.

***İqor Aşurbəyli***

27.01.2006-cı il

**Sara xanım Bala bəy qızı Aşurbəylinin anadan olmasının 100 illik yubileyi**

Yanvarın 27-də Sara xanım Aşurbəylinin anadan olmasının düz 100 ili tamam olur. Biz onun barəsində Azərbaycanın məşhur bəy nəsillərindən birinin təmsilçisi kimi söz açanda, ilk növbədə onu bizlərə zəngin tarixi irs qoyub getmiş görkəmli bir alim kimi xatırlayırıq.

Bu gün biz "Şirvanşahlar Dövləti" və "Bakı şəhərinin tarixi. Orta əsrlər dövrü" əsərlərini təqdim etməklə şərəf hissi duyuruq.

Hələ onun sağlığında, hardasa iyirmi il öncə nəşr olunmuş bu kitablar tezliklə nadir nüsxələrə çevrildilər və respublikada heç də hər bir kitabxananın fondu bu olduqca dəyərli kitablara malik deyildir.

Bizim yekdil rəyimizə görə, bu görkəmli qadının, Azərbaycan xalqının patriotunun, tarixçi-alimin xatirəsinin yaşarılığı üçün ən gözəl hədiyyə onun tarixi irsinin latın qrafikası ilə Azərbaycan dilində nəşridir.

İlk öncə hərtərəfli dəstəyinə görə, Sara xanımın əmizadəsi - İqor bəy Rauf bəy oğlu Aşurbəyliyə öz səmimi minnətdarlığımızı bildirirəm. Onun köməyi olmasaydı, bu sözügedən kitabları yubileyədək nəşr etməyimiz mümkün olmazdı.

Sara xanımın qohumları - Ramiz bəy və Yevgeniya xanım Aşurlu, Vaqif bəy Aşurbəyov, eləcə də kitablar nəşrə hazırlanarkən nadir foto materiallara görə Dövlət Kino-Foto Sənədləri Arxivinin direktoru N.Q.Fişşevayadan minnətdarlığımızı qəbul etmələrini rica edirəm. Fotomüxbir cənab Yaşar Xəlilovun şəxsində Azərtaca, tarix elmləri doktoru cənab Viktor Kvaçidzenin şəxsində Azərbaycan Tarix Muzeyinə, birgə işləmiş olduqları illər və elmi fəaliyyəti haqqında şəxsi xatirələrinə görə professor Rauf Hüseynova, eləcə də "Əbilov, Zeynalov və oğulları" nəşriyyatının bütün əməkdaşlarına və bu yubiley hədiyyələrini bizimlə bölüşmüş bir çox digərlərinə minnətdarlıq hisslərimizi ifadə edirəm.

Gəlin bir daha, nəfəsimizi içimizə çəkib, baxışlarımızı Azərbaycanın tarixi üçün bu qızıl kitabların üzərində gəzdirək, Azərbaycanın əməkdar elm xadimi, tarix elmləri doktoru, professor, Azərbaycanın Dövlət Mükafatı laureatı, A.Bakıxanov adına Dövlət Mükafatı laureatı, Xalqlar Dostluğu ordeni kavaleri - Sara xanım Bala bəy qızı Aşurbəylinin işıqlı xatirəsi önündə baş əyək.

Hörmətlə
Britaniya, Qazaxıstan və Azərbaycan
jurnalistlər assosiasiyalarının
üzvü, professor ***Eldar Günaydın***

27 yanvar 2006-cı il

**Şirvanşahlar dövləti**
ISBN- 5-87459-229-6
© "Əbilov, Zeynalov və oğulları". 2006
© Ələkbərov Azər, bədii tərtibat. 2006

Yığılmağa verilib 20.11.2005. Çapa imzalanıb 11.01.2006.
Format 60x841/18. MAESTRO PRİNT kağızı. Ofset çap üsulu.
Qarnitur A3 Arial AzLat. Həcmi 83 f.ç.v.
Tiraj 500 nüsxə. Sifariş 2222.

"Əbilov, Zeynalov və oğulları"
Nəşriyyat-Poliqrafiya Evinin mətbəəsi.
Bakı ş., M.İbrahimov 43,
Tel.: (+994 12) 497-36-23, faks.: (+994 12) 494-33-20
e-mail:azs@azdata.net, office@azs-itk.com
www.azs-itk.com

**MÜNDƏRİCAT**

I fəsil. Məxəzlərin və ədəbiyyatın qısa xülasəsi

II fəsil. Şirvanşahlar dövləti VI əsr-IX əsrin birinci yarısında
§1.Şirvanın tarixi-coğrafi xarakteristikası
§2. Şirvanın əhalisi
§3. Şirvanın şəhər və kəndləri
§4. Erkən Şirvanşahlar və Şirvanın ərəblər tərəfindən istila edilməsi
§5. Köçəri şimal tayfalarının Şirvan və Arrana gəlmələrinə dair
§6.Qədim Şirvanın incəsənəti

III fəsil. Məzyədi Şirvanşahlar dövləti (IX əsrin ikinci yarısı - XI əsrin birinci rübü
§1.Məzyədi Şirvanşahlar
§2.Şirvanın şəhər və kəndləri. İqtisadi vəziyyət (hasilat sənayesi, sənətkarlıq, ticarət)

IV fəsil. Şirvanşahlar dövləti XI-XIV əsrlərdə
§1.Şirvanşahlar XI-XIV əsrlərdə (Siyasi tarix-səlcuqların və monqolların hücumu)
§2. XI əsrin əvvəli - XIII əsrin birinci rübündə şəhərlərin inkişafı
§3.Şirvan şəhərləri monqol hökmranlığı dövründə (XIII-XIV əsrlər)
§4. XI-XIV əsrlərdə Şirvanın sosial strukturu və şəhər quruluşu
§5.Torpaq mülkiyyəti formaları və vergilər
§6. XI-XIII əsrin birinci rübündə Şirvanın mədəniyyəti

V fəsil. Dərbəndi Şirvanşahlar dövləti (XIV-XVI əsrlər)
§1.Dərbəndi Şirvanşahlar sülaləsi və onların müstəqillik uğrunda mübarizəsi
§2.Şirvanda Səfəvilər əleyhinə üsyanlar və Şirvanşahlar dövlətini bərpa etmək uğrunda mübarizə (1548-1578-ci illər)
§3.Şirvan türk işğalı dövründə
§4. Şirvanın şəhərləri XV-XVI əsrlərdə
§5.XV-XVI əsrlərdə Şirvanda feodal bəxşişləri

Nəticə
AŞURBƏYLİ SARA BALA BƏY QIZI;
ƏSİLZADƏ AŞURBƏYOVLAR NƏSLİ
AŞURBƏYOVLAR BU GÜN VƏ SABAH
SARA XANIM AŞURBƏYLİ MÜASİRLƏRİN XATİRƏLƏRİNDƏ

Mənbələr

# I FƏSİL

## MƏXƏZLƏRİN VƏ ƏDƏBİYYATIN QISA XÜLASƏSİ

Əsərin həcmi monoqrafiyada istifadə olunmuş məxəzlərin və ədəbiyyatın geniş təhlilinə imkan vermədiyi üçün onlardan yalnız ən mühümlərini qeyd edək.

Əsər antik (yunan, latın), Azərbaycan, erməni, gürcü, ərəb, fars, türk, Suriya, rus və Qərbi Avropa (fransız, ingilis, alman, italyan) mənbələrinin verdiyi məlumatlar əsasında yazılmışdır.

Yunan və latın müəlliflərinin (Plini, Sekund[1], Ptolemey və b.[2]) məlumatları, başlıca olaraq, Şirvanın tarixi coğrafiyasına aiddir.

VII əsr alban müəllifi Movses Kalankatlının 3 hissədən ibarət «Alban tarixi» əsərində Şirvanın təbii sərvətlərinə və xəzərlərin Zaqafqaziyaya hücumlarına dair əhəmiyyətli məlumatlar vardır. Əsərin birinci və ikinci hissələri təsvir olunan VII əsr hadisələrinin şahidi tərəfindən yazılmışdır. Üçüncü hissəsi isə X əsr müəllifi Movses Dasxuranlıya aid edilir. Həmin əsər dövrümüzədək erməni dilində gəlib çatmışdır. Əsər K.Patkanov tərəfindən rus dilinə, S.C.Dausett tərəfindən ingiliscəyə tərcümə olunmuşdur. Biz yeddi erməni əlyazması əsasında edilmiş daha dəqiq olan sonuncu tərcümədən istifadə etmişik.

Erməni müəllifləri (Yeğişe, Favstos Buzand, «VII əsr erməni coğrafiyası», Gevond və b.) Şirvanın tarixi coğrafiyasına, hunların, sabirlərin, xəzərlərin və digər türk tayfalarının, ərəblərin Zaqafqaziyaya hücumları ilə bağlı hərbi hadisələrə dair qiymətli məlumatlar vermişlər. «Erməni coğrafiyası» - «Aşxarasuys» S.T.Yeremyan tərəfindən erməni dilində nəşr edilmişdir. Biz K.Patkanovun müxtəsər kitabçasından və «Erməni coğrafiyası»nın Arsen Sukri tərəfindən buraxılmış mükəmməl nəşrindən (ermənicə mətni və fransız dilinə tərcüməsi), habelə Robert Hyuzenin geniş müqəddimə və şərhlərlə ingilis dilində nəşr etdirdiyi mətndən bəhrələnmişik.

XI-XVI əsrlərdə Şirvanda Şirvanşahlarla bağlı hərbi və digər hadisələrin tendensiyalı mövqedən təsvir olunmasına baxmayaraq, gürcü məxəzləri - «Kartlis tsxovreba» və «Hökmdarların vəsfi» də mühüm əhəmiyyətə malikdir.

Şirvan şəhərləri haqqında ərəb mənbələrinin verdiyi məlumat son dərəcə müxtəlif olub, əsasən ölkənin təbii sərvətlərinin və faydalı qazıntılarının - ipəyin, pambığın, zəfəranın, neftin, duzun təsvirindən və sənətkarların istehsal etdikləri malların, məmulatların siyahısından ibarətdir. Onlarda, həmçinin Şirvanda baş vermiş hərbi əməliyyatlar təsvir olunur. IX-XIII əsrlər ərəb müəllifləri əl-Bəlazuri, əl-Yəqubi, əl-İstəxri, əl-Məsudi, Əbu Düləf, Əbu Hamid, əl-Əndəlusi, əl-Qərnati, Yaqut Həməvi, Zəkəriyyə əl-Qəzvini və başqalarının məlumatları bu qəbildəndir. Əsərdə ilk dəfə olaraq, Azərbaycanda ərəb istilaları dövründə Şirvanda baş verən hərbi əməliyyatları obyektiv şərh edən əl-Kufinin[3] məlumatları tam şəkildə gətirilir. İzahların əhatəliyi və obyektivliyi baxımından həmin hadisələrin yaşıdı və

şahidi olan İbn əl-Əsirin monqolların basqını və Şirvanın şəhərlərini zəbt etməsinə dair məlumatları xüsusilə qiymətlidir. Əl-Məsudi, İbn Havqəl, Yaqut Həməvi, Zəkəriyyə əl-Qəzvini və başqalarının əsərlərində də Şirvanşahlar haqqında müəyyən məlumatlar var. Həmin müəlliflərin tərcümeyi halları və əsərlərinin xarakteristikası İ.Y.Kraçkovskinin[4] əsərlərində ətraflı işıqlandırıldığından biz onların üzərində dayanmayacağıq. Şirvanın şəhərlərinin tarixinə dair ən mühüm məxəzlərdən biri IX-XI əsrlərdə Şirvanşah Məzyədilər dövlətinin siyasi tarixində böyük bir boşluğu dolduran «Tarix əl-Bab» əsəridir. XI əsrin son rübünün əvvəlində yazıb-yaratmış müəllifin adı dövrümüzədək gəlib çatmamış, onun Şirvan və Dərbəndin tarixinə aid salnaməsindən isə yalnız türk tarixçisi Münəccimbaşının (1702-ci ildə Məkkədə ölmüşdür) ərəbcə əsərinə daxil etdiyi ayrı-ayrı fəsillər qalmışdır. Həmin fəsillər ingilis və rus dillərinə tərcümələri, geniş şərhlər və ərəbcə mətni ilə birlikdə V.F.Minorski[5] tərəfindən nəşr edilmişdir.

Əslən bakılı olub əl-Bakuvi kimi tanınan Əbdürrəşid ibn Salih ibn Nuri adlı müəllifin XV əsr ərəbdilli mənbədəki məlumatlarının da əhəmiyyətini qeyd etmək lazımdır. Bakuvinin «Təlxis əl-əsar və əcaib əl-malik əl-qəhhar» adlı tarixi coğrafi əsəri h.806 (1403)-cı ildə yazılmış və dövrümüzədək üzü 1614-cü ildə köçürülmüş və hazırda Paris Milli-kitabxanasında 5299 nömrəsi altında saxlanılan ərəb əlyazmasında gəlib çatmışdır. Bu əlyazması 1799-cu ildə de Gin tərəfindən bəzi ixtisarlarla fransız dilinə tərcümə olunmuşdur[6]. 1971-ci ildə Z.M.Bünyadov Bakuvinin əsərini ərəbcə mətni və rus dilinə tərcüməsi ilə birlikdə nəşr etdirmişdir. Bakuvi Şərqin müxtəlif ölkələri barədə məlumat verir, Arran və Şirvanın şəhərlərini, o cümlədən ehtimal ki, yaşadığı Bakını təsvir edir. Bakuvi şəhər, onun qala tikililəri, iqtisadiyyatı, neft və duz hasilatı, əhalisi haqqında olduqca qiymətli məlumatlar verir. Onun Bakı haqqında verdiyi məlumatlar orijinal olub, əvvəlki müəlliflərin əsərlərində təsadüf edilmir. XVI əsrin əvvəllərində Bakuvinin məlumatlarını İbn İlyas təkrar etmişdir. XVI əsrin Şirvan tarixi üçün mühüm məxəzlərdən biri də Şirvanşah Dərbəndilər sülaləsinin nümayəndələri haqqında məlumat verilən «Tarixe-cənnəti»dir. Münəccimbaşının (XVII əsr) əsərində Şirvanın və Şirvanşah Dərbəndilərin tarixinə dair daha erkən mənbələrdən maraqlı məlumatlar var. Sultanın katibi Şihabəd-din Məhəmməd ən-Nəsəvinin 1214-1231-ci illəri əhatə edən «Sirət əs-sultan Cəlal əd-din Mənguburni» adlı memuar tipli əsərində Şirvanın şəhər və vilayətlərinə xarəzmşah Cəlal əd-dinin Azərbaycanı işğal edərkən Şirvanşahın vəziyyətinə dair məlumatlar var. Nəsəvinin əsəri O.Udas tərəfindən iki cilddə (ərəb mətni və fransız dilinə tərcüməsi) və Z.M.Bünyadov tərəfindən rus dilinə tərcüməsi və şərhlərlə nəşr olunmuşdur. Qəvam əd-din ibn Əli əl-Bundari əl-İsfahani İmad əd-din əl-İsfahaninin Şirvanın səlcuqlara tabe edildiyi XI-XII əsrlərdə Şirvanşahlar haqqında məlumat verilən əsərinin müxtəsər variantı olan «Zübdət ən-nüsra və nüxbət əl-Üsra» əsərini yazmışdır.

Qafqaz və Şimali İran tarixinə dair mənbələrdən biri də Sədrəddin Əli əl-Hüseyninin 1194-cü ilə qədərki hadisələri əhatə edən «Zübdət ət-təvarix (fi) əxbar

əl-ümərа və-l-mülük əs-Səlcuqiyyə» («Səlcuqilər dövləti haqqında məlumatlar») əsəridir. Sədrəddin Hüseyninin əsəri (ərəb mətni, rusca tərcüməsi, izahlar və əlavələr) 1980-ci ildə nəşr olunmuşdur. Biz həmin əsərdən Şirvan ərazisində Azərbaycan atabəyləri ilə bağlı baş vermiş hadisələrin, atabəylərin səlcuq sultanları, şirvanşahlar və gürcülərlə qarşılıqlı münasibətlərinin işıqlandırılmasında istifadə etmişik.

Şirvanşah şəhərlərinin iqtisadiyyatına dair X əsr anonim müəllifinin «Hüdud əl-aləm», XIII əsr müəllifi Məhəmməd ibn Nəcib Bəkranın «Cahannamə», XIII əsrin anonim coğrafiyaşünasının əsərlərində, Həmdullah Qəzvininin (XIV əsr) «Nühzət əl-qülub»unda və s. irandilli mənbələrdə də çox maraqlı məlumatlar var. Həmin əsərlərdə Şirvanın faydalı qazıntılarından, sənətkarlıq və ticarətdən, burada istehsal olunan müxtəlif mallardan bəhs olunur. XIII-XIV əsrlərdə Elxanilər hakimiyyəti dövründə monqolların basqınları ilə əlaqədar Şirvanda baş verən hadisələr Elxanilərin baş vəziri, həkim və alim Rəşidəddinin «Cami ət-təvarix» adlı məşhur əsərində təsvir edilmişdir. Rəşidəddinin Yaxın və Orta Şərq ölkələri tarixinin və iqtisadiyyatının son dərəcə maraqlı abidəsi olan «Məkatibati-Rəşidi» əsərində Şirvanın təsərrüfat həyatına və Şirvanşahlar sülaləsinə dair müəyyən məlumatlar verilir. Köçəri rumlu tayfasından olan Azərbaycan tarixçisi Həsən bəy Rumlunun (d. 1531/32) «Əhsən üt-təvarix» («Tarixlərin ən yaxşısı») əsəri böyük əhəmiyyətə malikdir. Burada Səfəvi-türk müharibələri ilə əlaqədar Şirvanda baş vermiş tarixi hadisələr, Şirvan üsyanı ətraflı və obyektiv təsvir olunur, Dərbəndilər sülaləsinin XVI əsrin birinci rübünün sonundan 80-ci illərin sonunadək hakimiyyətinə dair məlumat verilir. Həsən bəy Rumlunun bu çoxcildli əsərinin yalnız iki cildi əlyazması halında dövrümüzədək gəlib çatmışdır. Həmin əlyazması Sankt-Peterburq kütləvi kitabxanasında saxlanılır. Əsərin Hindistanda nəşr olunmuş çap mətni də mövcuddur. I cild bizim istifadə etdiyimiz farsca mətn, II cild isə ingilis dilinə ixtisarla tərcümədir.

XVI əsr Səfəvi-türk müharibələri dövrünə aid mühüm mənbələrdən biri də III Sultan Muradın Azərbaycana bir neçə yürüşünün iştirakçısı Şərəfxan Bidlisinin Şirvandakı siyasi hadisələrə, Şirvanşah Dərbəndilərin hakimiyyət dövrünə dair məlumat verilən ikicildlik «Şərəfnamə» əsəridir. Onun ikinci cildi h. 689-1005 (1290-1596)-ci illərdə Azərbaycanda, İranda və Türkiyədə baş verən hadisələrdən bəhs edən salnamə şəklindədir. Əsərin V.Velyaminov Zernov tərəfindən nəşr edilmiş fars mətni, habelə fransız, türk və rus dillərinə tərcümələri mövcuddur. Şərəfxan öz əsərində Şirvanın siyasi hadisələrinə dair bir sıra qiymətli məlumatlar vermişdir.

Fəzlullah ibn Ruzbihan Xuncinin (ö. hicri 927/1521) iki əlyazma nüsxəsi qalmış və tərcüməsi V.Minorski tərəfindən ixtisarla nəşr edilmiş «Tarixi-aləm-arayi Əmini» adlı dəyərli əsərində Fərrux Yəsarın hakimiyyət dövrü və onun şeyx Heydər Səfəvi ilə müharibələrinə dair məlumatlara rast gəlirik. Əsərin müəllifi din xadimi, hərtərəfli bilik sahibi, çoxlu səyahət etmiş alim idi. Şah İsmayıl hakimiyyət

başına gəldikdən sonra sünnilik tərəfdarı olan Fəzlullah Orta Asiyaya mühacirət etməyə məcbur olmuş, burada müxtəlif hökmdarların saraylarında yaşamışdır. Uzun girişdən ibarət olan «Tarixi-Əmini»də Uzun Həsənin ölümündən - 1478-ci ildən 1490-cı ilədək olmuş hadisələr şərh edilir.

XVI əsrin əvvəllərində Şirvanda baş vermiş hadisələrə dair Xandəmir ləqəbli Qiyasəddin ibn Hüməməddin əl-Hüseyninin (XV əsrin tanınmış İran tarixçisi Mirxondun nəvəsi, d. 1475, ö.təqr. 1536, Hindistan) «Həbib əs-siyər fi əxbari əfrad əl-bəşər» («Görkəmli adamlar haqqında xəbərləri təsvir edən dost») əsərində də məlumat vardır. O, Şah İsmayılın Şirvana hücumunu, Bakının alınmasını məddahcasına təsvir edir. Xandəmir Həsən bəy Rumluya nisbətən qeyri-obyektiv olsa da, onun şərhləri faktik materialın bolluğu ilə seçilir. Onun əsərinin çoxlu əlyazması müxtəlif kitabxanalarda saxlanılır, daş basması üsulu ilə də bir neçə nəşri var. Xandəmir məlumatlarının bir hissəsini naməlum müəllifin tərcüməsini Denison Rossun ingilis dilində ixtisarla və şərhlərlə nəşr etdirdiyi «Şah İsmayıl Səfəvinin tarixi» əsərindən götürmüşdür.

Farsdilli tarixçi azərbaycanlı İsgəndər bəy Türkman Münşinin (1560/61-1633/34) dəyərli əsərində də I Şah Abbasın hakimiyyəti dövründə XVI əsr Şirvan tarixinə dair mühüm məlumatlar vardır. Siyasi hadisələrin şahidi və iştirakçısı olan İsgəndər Münşi girişdən və iki bölmədən ibarət olan, «Tarixi-aləm arayi Abbasi» («Dünyanı bəzəyən Abbasın tarixi») əsərində Şirvanda baş vermiş antifeodal üsyanları təsvir etmiş, ölkənin daxili həyatına, habelə türklər əleyhinə hərbi əməliyyatlara dair məlumat vermişdir. İsgəndər Münşinin əsərinin bizə çoxlu əlyazması gəlib çatmışdır. Biz onun Tehranda daş basması üsulu ilə çap olunmuş nəşrindən (h. 1314/1896/7), habelə L.Bellanın Münşinin əsərinin yığcam nəqli olan işindən istifadə etmişik[7].

Abdullah ibn Kiya əl-Mazandaraninin «Risaleyi-Fələkiyyə» əsərində XIV əsrin 60-cı illərindən XV əsrin birinci rübünədək Şirvan şəhərlərinin təsərrüfat həyatı barədə bəzi məlumatlar vardır. Burada XIV-XV əsrlərdə Yaxın Şərq ölkələrində və Zaqafqaziyada, o cümlədən Şirvanda dövlət və maliyyə idarəetməsinə, iqtisadiyyat və sairə məsələlərə dair geniş material verilmişdir. Müəllif Təbriz Divanının XIV əsrə aid işlərinin materiallarından istifadə etmişdir. «Risaleyi-Fələkiyyə» XV əsrin ikinci yarısında maliyyə məsələləri üzrə fars katibi tərəfindən təkmilləşdirilmiş şəkildə gəlib çatmışdır. Əsəri yenidən işləmiş şəxs müqəddimədə müəllif haqqında cüzi məlumat vermişdir. Bu nadir əlyazmasının farsca elmi-tənqidi mətnini V.Xints nəşr etdirmişdir. «Risaleyi-Fələkiyyə»nin əlyazmasını Ayasofiya kitabxanasında aşkara çıxarmış Ə.Z.V.Toğan onun faksimilesini İstanbulda dərc etdirmişdir.

Şeyx Səfiəddinin XIV əsrin ikinci yarısında dərviş Təvəkkül ibn Bəzzaz tərəfindən tərtib olunmuş «Səfvət əs-səfa» («Saflığın saflığı») adlı tərcümeyi-halında monqol hökmdarı Arqun zamanında Şirvanşahın vəziyyətinə dair məlumat vardır. Övliyaların həyatından bəhs edən bu sufi əsərinin əlyazmaları qalmış, onun

farsca mətni və türkcə tərcüməsi daş basması ilə çap olunmuşdur.

Kəmaləddin Əbd ür-Rəzzaq Səmərqəndinin «Mətlə əssə deyn və məcmə əl-bəhreyn» («İki xoşbəxt bürcün doğduğu və iki çayın qovuşduğu yer») əsərində Şirvanşahlar Şeyx İbrahimin və I Xəlilüllahın Teymur və Şahrux zamanındakı vəziyyətləri təsvir olunur. Əsərin əlyazma nüsxələri, daş basması, habelə Kartmerin fars və fransız dilinə tərcümə nəşrləri mövcuddur.

Şərəfəddin Əli Yəzdinin bir neçə əlyazması gəlib çatmış «Zəfərnamə» əsərində Teymurun Azərbaycana yürüşləri, Şahruxun hakimiyyət dövrü və onların Şirvanşah Dərbəndilərlə - Şeyx İbrahim və onun oğlu I Xəlilüllah münasibətlərinə dair müfəssəl məlumat verilir. Biz əsərin farsca mətninin iki cildlik Tehran nəşrindən istifadə etmişik. Əsərin farsca mətninin Kəlkətədə daş basması ilə çap olunmuş nəşri də var.

Türk tarixçisi İbrahim Pəçəvi (d. 1574, Cənub-Şərqi Macarıstan, Fünfkirxen şəhəri - ö.təqr.1651) XVI əsrin son rübündə Səfəvi-Osmanlı müharibələri hadisələrindən, osmanlıların Şirvanı zəbt etməsindən, türk sultanı qoşunlarının sırasında Səfəvilərə qarşı vuruşmuş sonuncu Şirvanşahlardan ətraflı bəhs etmişdir. Onun əsərinin Azərbaycan və Gürcüstanla bağlı hissələrini S.S.Cikiya gürcü dilinə tərcüməsi ilə birlikdə nəşr etdirmişdir. Pəçəvi macar qalalarının alınmasında iştirak etmiş, hamisi Lala Mehmet Paşanın ölümündən sonra (1615) isə əhalini siyahıyaalmaya görə Anadoluya göndərilmişdi. O, 1624-cü ildə Tokatın dəftərdarı təyin olunmuş, sonralar isə həmin vəzifədə Rumeliyə və Anadoluya dəyişilmişdir. 1641-ci ildə Pəçəvi qulluqdan çıxaraq, əvvəlcə Ofenə, sonra isə Fünfkirxenə köçmüş və burada öz tarix əsərini yazmışdır.

Şirvana, erkən dövr və inkişaf etmiş orta əsrlər Albaniyasına dair bəzi məlumatları Suriya mənbələrindən - Miletli Zəkəriyyə (VI əsr), Suriyalı Mixail (XII əsr) və Bar Ebreyin (XIII əsr) N.V.Piqulevskaya və R.Ə.Hüseynov tərəfindən dərc olunmuş əsərlərindən əxz etmişik.

Şirvan dövlətinin Rusiya ilə ticarət və diplomatik münasibətləri rus salnamələrində və səyyah Afanasi Nikitinin gündəliyində əksini tapmışdır.

Şirvan şəhərlərinin və digər yerlərinin təsərrüfat həyatına, ticarətinə, Azərbaycanda baş verən tarixi hadisələrə dair məlumatlara ingilis tacirləri Cenkinsonun, Deket Ceffrinin (XVI əsr), habelə ticarət və diplomatik məqsədlərlə Azərbaycana gəlmiş venesiyalı, genuyalı, italyan səyyahları - Marko Polo (XIII əsr), Barbaro, Kontarini, Anciolello, Donato da Leze (XV əsr) və başqalarının gündəlik və səyahətnamələrində rast gəlirik.

Əsərdə görkəmli alim və tarixçilər V.V.Bartold, İ.Y.Kraçkovski, İ.P.Petruşevski, K.V.Treverin tədqiqatlarından, tanınmış rus və xarici şərqşünasların - B.A.Dorn, N.V.Xanıkov, V.F.Minorski, Hadi Həsən, Bəkir Kütükoğlu və başqalarının əsərlərindən geniş istifadə olunmuşdur. Mövzumuzla əlaqədar S.T.Yeremyan, Ş.A.Mesxia, R.K.Kiknadze və N.N.Şengeliyanın, Dağıstan alimləri V.Q.Kotoviç, Ə.R.Şıxsəidov və A.A.Kudryavtsevin əsərləri

mühüm əhəmiyyətə malikdir[8].

Biz həmçinin Azərbaycan alimləri A.A.Bakıxanov, Y.A.Paxomov, Ə.Ə.Əlizadə, Z.M.Bünyadov, O.F.Əfəndiyevin əsərlərindən istifadə etmişik. Şirvan şəhərlərinin sosial-iqtisadi vəziyyətini öyrənmək məqsədilə İ.M.Cəfərov, S.M.Qaziyev, O.Ş.İsmizadə, H.Ciddi və başqa arxeoloqların əsərlərini nəzərdən keçirmişik. Şirvanşahların şəcərəsini və bir sıra digər məsələləri aydınlaşdırmaq məqsədilə Y.A.Paxomov, Ə.V.Rəhimov, M.Ə.Seyfəddini, Ə.M.Rəcəbli və S.A.Dadaşova tərəfindən dərc olunmuş numizmatik materialları tədqiqata cəlb etmişik. Amerika numizmatı D.K.Kuymcanın Amerika numizmatika cəmiyyətində saxlanılan nadir Şirvanşah sikkələrini dərc etdirməsi mövzumuz üçün böyük əhəmiyyətə malikdir. Bu bizə III Mənuçöhrün hakimiyyətinin sonunu və I Axsitanın hökmranlığının başlanğıcını dəqiqləşdirməyə imkan verdi.

Yığcam mənbələrə dair materiallar Ə.Ələskərzadə, M.S.Nemətova və S.D.Kərimzadənin əsərlərindən götürülmüşdür. Şirvanın memarlıq abidələrinin öyrənilməsində S.Ə.Dadaşova, M.Ə.Hüseynov, L.S.Bretanitski və Ə.Salamzadənin tədqiqatlarından istifadə olunmuşdur.

Azərbaycan ədəbiyyatı məsələlərini - görkəmli Şirvan şairləri nəslinin yaradıcılığını araşdırarkən, həmçinin, Y.E.Bertels, M.Rəfili və M.A.Dadaşzadənin əsərlərindən bəhrələnmişik.

Şirvanşahlar sülaləsinə dair ən ilk tədqiqat B.A.Dornun ərəb-fars mənbələri əsasında yazılmış «Şirvanşahların tarixinin öyrənilməsinə təşəbbüs» (1840, alman dilində) əsəridir. Numizmatika məlumatlarının azlığına və o vaxtlar «Tarix əl-Bab» salnaməsinin hələ məlum olmadığına baxmayaraq, B.A.Dornun əsəri bu gün də öz əhəmiyyətini itirməmişdir.

A.A.Bakıxanov 1840-cı ildə fars dilində yazdığı «Gülüstani-İrəm» əsərində Azərbaycan tarixi ilə bağlı Şirvanşahlar haqqında bəzi məlumatlar vermişdir. Bu mövzuya V.V.Bartold da «İslam ensiklopediyası»ndakı məqalələrində və 1924-cü ildə Bakıda «Xəzərsahili vilayətlərinin müsəlman dünyası tarixində yeri» adı ilə dərc olunmuş mühazirələrində toxunmuşdur.

Y.A.Paxomov 1923-cü ildə Şirvanşah Kəsranilərə həsr olunmuş kiçik, lakin əhəmiyyətli bir əsər çap etdirmişdir[9]. Burada həmin sülalə haqqında numizmatik dəlillər əsasında məlumat verilir. Lakin müəllif Şirvanşahlardan bəzilərinin hakimiyyət illərini düzgün göstərməmişdir.

1931-ci ildə İstanbulda Cahangir Zeynaloğlunun «Şirvanşahlar yurdu» adlı elmi-kütləvi kitabı nəşr olunmuşdur. Burada, əsasən, B. A. Dorn və Y. A. Paxomovun yazdıqları təkrar edilir.

Ə. Ə. Əlizadənin «Azərbaycanın XIII-XIV əsrlər sosial-iqtisadi və siyasi tarixi» kitabının (Bakı, 1956) sonuncu kiçik fəsli XIII-XIV əsrlərdə Şirvanda baş vermiş müharibələrlə bağlı hadisələrə və həmin dövrdə hakimiyyət sürmüş Şirvanşahların fəaliyyətinə həsr olunmuşdur. Lakin müəllif Şirvanşahlar dövlətinin sosial-iqtisadi tarixinə, dövlət idarəçiliyi, mədəniyyət və s. məsələlərinə

toxunmamışdır.

O. Ə. Əfəndiyevin «XVI əsrin əvvəllərində Səfəvilər dövlətinin yaranması» (Bakı, 1961) əsərində Şirvanın Səfəvilər dövlətinə birləşdirilməsi ilə əlaqədar Şirvanşahlar Fərrux Yəsar və II Şeyx İbrahimin (Şeyxşah) hakimiyyətindən bəhs edilir. R. Ə. Hüseynov və S. S. Əliyarovun Şirvan-gürcü münasibətlərinə dair müştərək məqaləsi dərc olunmuşdur.

M. X. Şəriflinin «IX əsrin ikinci yarısı - XI əsrlərdə Azərbaycan feodal dövlətləri» (Bakı, 1978) kitabının kiçik bir fəslində Şirvanşah Məzyədilər haqqında məiumatlar vardır. Həmin fəsil, başlıca olaraq, «Tarix əl-Bab» salnaməsi əsasında yazılmışdır.

Z. M. Bünyadov «Azərbaycan Atabəyləri dövləti» (Bakı, 1989) kitabının ayrıca fəslində Şirvanşahların XII əsr - XIII əsrin birinci yarısındakı hakimiyyəti dövründə Şirvanın siyasi tarixini araşdırmışdır. O, həmçinin, Şirvanşahların şəcərəsinə dair bir neçə məqalə dərc etdirmiş, onlardan bəzilərinin hakimiyyət illərini göstərmişdir[10].

İ. P. Petruşevski XV-XVII əsrlər Azərbaycan tarixinə dair bir sıra qiymətli əsərlər nəşr etdirmişdir ki, onların da müəyyən fəsilləri Şirvanşahlar dövlətinin tarixinə aiddir. «XIII-XIV əsrlərdə İranda əkinçilik və aqrar münasibətlər» kitabında o, İranda feodal rentasına, vergi xəraclara, torpaq mülkiyyəti kateqoriyalarına dair məlumat verərkən Şirvandan bəhs edir. İranın monqol hakimiyyəti dövründə sosial-iqtisadi inkişafının vəziyyətinə dair İ. P. Petruşevskinin məlumatları mövzumuz üçün böyük əhəmiyyətə malikdir.

Şirvanşahlar dövlətinin və onların şəcərəsinin öyrənilməsində «Tarix əl-Bab» adlı mənbəşünaslıq əsəri ilə bu sülalənin tarixindəki qaranlıq məqamları işıqlandıran V. F. Minorskinin, Fələki Şirvani və Xaqani haqqında, Şirvanın daxili həyatını, onun hökmdarlarının fəaliyyətini izləməyə imkan verən dəyərli tədqiqatın müəllifi Hadi Həsənin mühüm xidməti var.

Şirvanşah Fəribürzdən bəhs edən V. M. Beylisin əsəri də olduqca maraqlıdır. Bu əsərin müəllifi də «Orta əsr Bakısına dair oçerklər» (Bakı, 1964) kitabının müəyyən səhifələrini Şirvanşahlar dövlətinin tarixinə həsr etmişdir.

Bununla belə, qeyd etdiyimiz kimi, Şirvanşahlar dövlətinin tarixinə dair göstərilən tədqiqatlara baxmayaraq, həmin problem bütövlükdə kifayət qədər və hərtərəfli həllini tapmamışdır. Müəlliflər, başlıca olaraq, bu və ya digər dövrdə müharibələrlə bağlı hadisələrlə maraqlanmışlar. Biz Şirvanşahlar dövlətinin tarixini işıqlandırmaq üçün məhz onun bütün aspektlərini -VI əsrdən XVI əsrədək Şirvanın tarixi-coğrafi şəraiti, şəhərlərinin vəziyyəti, burada məskunlaşmış tayfa və xalqlar, sənətkarlıq və ticarət, sosial münasibətlər, dövlət quruculuğu və mədəniyyət məsələlərini araşdırmağı zəruri saydıq. Şirvanşahların şəcərəsini bu dövlətin yaranmasından süqutunadək izləyərək, bir sıra Şirvanşahın (III Mənuçöhr, I Axsitan, I Xəlilüllah, I Fərrux Yəsar və b.) hakimiyyət illərini numizmatika və epiqrafikanın son məlumatlarına əsasən dəqiqləşdirdik. Biz, həmçinin, indiyədək

elm aləminə məlum olmayan iki Şirvanşahı - II Fərrux Yəsarı, III Axsitanı üzə çıxardıq və sonuncunun oğlu Keykavus ibn Axsitanın adını dəqiqləşdirdik. Əsər yazılarkən burada adı çəkilən ən mühüm məxəzlərdən əlavə ikinci dərəcəli əhəmiyyət kəsb edən çoxlu miqdarda digər materiallar da tədqiqata cəlb edilmişdir. Bu monoqrafiyanın müəllifinin Şirvanın tarixi ilə bağlı bir sıra əsəri dərc olunmuşdur.

## II F Ə S İ L

## ŞİRVANŞAHLAR DÖVLƏTİ VI ƏSR - IX ƏSRİN BİRİNCİ YARISINDA

### § 1. Şirvanın tarixi-coğrafi xarakteristikası

Orta əsrlər erməni, ərəb və fars müəllifləri Xəzər dənizinin qərb sahilində, Kürdən şərqdə yerləşib, qədim Qafqaz Albaniyasının, yaxud erkən orta əsrlər Arranının bir hissəsi olan vilayəti Şərvan və ya Şirvan adlandırırdılar.



Şirvan toponiminə bir sıra ölkələrin yer adlarında - Türkiyə Kürdüstanında, Şimali İraqda, Cənubi Azərbaycanda (qərb hissəsi, Xoydan cənubda) və Xorasan yaxınlığında rast gəlinir. Şirvan İraq tayfalarından birinin adı kimi də çəkilir[1]. Lakin bütün ərəb mənbələrində Şirvan adı ilə yanaşı Şərvan formasına da təsadüf edilir. Bunu gürcü salnamələri də təsdiq edir[2]. Şirvan adının etimologiyasının müxtəlif yozumları (şirlər diyarı, süd ölkəsi, Ənuşirəvanın adının qısaldılmış forması və s.) məlumdur. Ən ağlabatanı Şirvan sözünün şir, yaxud şər tayfasının adından törəməsi ehtimalını irəli sürən V. F. Minorskinin fikridir. O, həmçinin yazır: «Şirvan adını Şərqi Qafqazın bir sıra yerlərinin Xəzərin cənub sahillərindən (Gilan, Deyləm) köçüb gələnlərin köhnə məskənləri ilə bağlılığını göstərən adlar sırasına daxil etmək mümkündür»[3].

Orta əsrlərdə Şirvan vilayətinin sərhədləri istilalar nəticəsində ölkənin inzibati bölgüsünün dəyişməsi ilə tez-tez dəyişikliyə uğrayırdı. Müəyyən dövrlərdə Şirvanın bir hissəsi Atropatenanın tərkibinə daxil olmuşdur[4]. Bir çox hallarda onun sərhədləri Cənubi Dağıstanın şəhər və kəndlərinə qədər gedib çatırdı.

Antik müəlliflər Şirvanın adını çəkmirlər. Bu ad Sasanilər dövründən məlumdur. Bəlazuri şirvanşah adını Xosrov Ənuşirəvanın Şərqi Zaqafqaziyaya təyin etdiyi xırda padşahlar sırasında çəkir[5]. İbn Xordadbeh ilk Sasani şahənşahı Ərdəşirin (224-241-ci illər) vilayət hakimlərinə verdiyi şiriyanşah (şiranın bir variantı) titulunun adını çəkir[6]. «Aşxaratsuys»da-«VII əsr erməni coğrafiyası»nda VII əsrin ikinci yarısında Albaniyanın mərzbanlar - Sasani canişinləri oturan 11 vilayəti arasında Bazkan (Balasakan), Dərbənd, Çola, Təvəspark (Təbərsəran), Şirvan (Şruan), Xoruan (Xsrvan? Ehtimal ki, Xursan - S. A.) və başqalarının adlarını sadalayır[7]. Bu vilayətlərin siyahısı, ehtimal ki, Albaniyanın Sasanilər vaxtında inzibati cəhətdən mərzbanlıqlara bölündüyü dövrdən qalmışdır. Ərəblərin

dövründə və sonralar həmin vilayətlər Şirvan dövlətinin tərkibinə daxil idi.

Şirvan ölkəsinin adı çəkilən ən qədim mənbə elə həmin «Erməni coğrafiyası»dır. Burada Şirvanın coğrafi mövqeyi verilmişdir: «Qafqaz dağları iki silsiləyə bölünür: biri düz istiqamətdə Şirvan ölkəsinə və Xsrvana tərəf ta Xorsvemədək gedib çıxır; ikincisindən isə şimala Atil çayına doğru axan Zərm[*] çayı başlanır. Bu silsilə sonra şimala doğru yönəlir... Əlgminon bataqlığına və dənizin içərilərinə qədər gedib çıxan və Əbzud Qubad adlanan uzun sədd onun davamıdır. Bu dənizin şimal tərəfində massagetlər (maskutlar - S. A.) yaşayır. Vardan düzündə Qafqaz sıra dağlarının gəlib çatdığı və Dəmirqapı Dərbənd divarının uzandığı Xəzər dənizinə qədər dənizin içində iri qala tikilmişdir. Şimal tərəfdə (Dərbənddən - S. A.) dənizin yaxınlığında hun məmləkəti yerləşir...»[9].







Bu lokallaşdırmaya görə VII əsrin əvvəllərində Şirvan vilayətinin ərazisi Dərbənddən Qafqaz sıra dağları boyunca Xorsvemə, yəni Xursan qalasına, xurs tayfası ölkəsinin (indiki Xızı rayonu) sərhədlərinədək və ehtimal ki, Abşeron da daxil olmaqla Kür çayının mənsəbinədək uzanırdı. «Əlgminon bataqlığı və dənizə qədər» sözləri, görünür, Kür çayının geniş bataqlıq və qamışlıqla örtülmüş mənsəbinə və deltasına işarədir[10]. Abşeron yarımadasından şimalda $40^{0}58,5^{/}$ - şimal en dairəsində dağlar dəniz sahilinə qədər uzanır. Bilavasitə qum təpələrindən və 1,75 km enində sahil düzənliyindən sonra yamacları sıldırımlı, zirvəsi bir neçə şiş uclu qayadan ibarət Beşbarmaq adı ilə tanınan dağ ucalır. Zirvənin lap başında qaya uclarının arasında «Xızır zində» pirinin xarabalıqları qalır. Qayanın ətəklərində, enişli yaylada və dağın yamaclarında möhkəm qala divar və bürclərinin qalıqları durur[11]. Yerli əhali arasında bu qaya və pir haqqında indiyədək müxtəlif rəvayətlər dolaşmaqdadır.

IX əsr bir ərəb mənbəyində Musanın yol yoldaşı Xızırla qala barədə söhbətindən bəhs edən Quran hədisindən danışılır. Müəllif əlavə edir ki, «bu qaya Şərvan qayası, dəniz - Cilan dənizi, şəhər Bacarvan şəhəridir». O, sonra deyir: «Farslar Musa qayasının yerləşdiyi Şəbran torpaqlarına qədər bütün ölkəni istila etmişdilər. Həmin qayada dirilik çeşməsi var»[12]. Görünür, Xızırın adı IX əsr mənbəyinin (İbn Xordadbeh) xatırlatdığı Beşbarmaq dağındakı pirlə qədimdən bağlı olmuşdur.

Burada sərhəd istehkamları - V əsrin sonu - VI əsrin əvvəllərində tikilmiş

[*] «VII əsr erməni coğrafiyası»nda Zərm çayının adı Ərmən kimi çəkilir. Markvart onu Tereklə eyniləşdirir .[8]

bir-birindən 220 *m* aralı iki divardan ibarət gil sədlər mövcud idi[13]. I Qubad (488-531) onları Xəzər dənizi ilə Qafqaz dağlarının qolları arasındakı keçiddə, Beşbarmaq dağının başında tikdirmişdi. Həmin istehkamlar Barmaq divarı adlanırdı. Ərəb tarixçisi Məsudi bunu xatırlayaraq yazırdı: «əl-Bab haqqında, Kəsra Ənuşirəvanın atası Qubad ibn Firuzun Məsqət deyilən yerdə daşdan tikilmiş şəhərə bənzər qəribə tikililər inşa etməsi haqqında - Şirvanda tikdirdiyi Sur ət-tın (palçıqdan hörülmüş hasar) adı ilə məşhur olan divarlar, Bərməki kimi tanınan və Bərdə vilayətinə bitişən daş divar haqqında çoxlu xəbərlər var...»[14]. Müəllif Məsqətdən danışarkən, ehtimal ki, indiki Quba rayonunu, Firuzun adını qoruyub saxlamış müasir Quba şəhərini nəzərdə tuturdu.

Çiy kərpicdən hörülmüş divar Sasanilər dövründə Xəzərsahili keçidin qabağını kəsən «uzun sədlər»dən ən cənubda olanı idi. Sonralar, I Qubad zamanında Şirvan ölkəsində müdafiə sədlərinin birinci hissəsindən 23 *km* şimalda Əbzud Qubad* adlanan ikinci hissəsi çəkildi. Bu sədd Gilgilçay boyunca uzanıb gedirdi. Şaporan (Şəbəran) şəhəri onun yaxınlığında yerləşirdi. Bu, X əsr müəllifinin Sur ət-tın adı ilə xatırladığı Gilgilçay, yaxud Şəbəran səddi idi[15]. Sasanilərin möhtəşəm müdafiə səddi olan Gilgilçay səddinin uzunluğu təqribən 30 km-ə (onun 20 *km*-i çiy kərpicdən, qalan hissəsi daşdan çəkilmişdi), divarlarının qalınlığı və hündürlüyü təqribən 8 m-ə çatırdı. Səddin qurtaracağında dağ zirvəsindəki nəhəng qaya üzərində müdafiə məqsədilə Çıraqqala qalası tikilmişdi. Baş bürcü hörmə üsuluna görə Bakıdakı Qız qalasını xatırladan nəhəng istehkam olan Çıraqqala təqribən V əsrdə tikilmişdir. Beşbarmaqdan şimala doğru sahil boyu, ehtimal ki, Sasani dövrünə aid qədim şəhər yerlərinin xarabalıqlarına və qalıqlarına rast gəlinir[16]. Onlardan biri, ehtimal ki, IX əsr müəlliflərinin adını çəkdiyi Beşbarmaq yaxınlığındakı Bacarvan şəhəri idi[17].

Üçüncü maneə səddi Samur çayından və Massaget hökmdarlığının paytaxtı Çora-Çoladan şimalda çəkilmişdi. Burada Rubas çayının düzənliyə çıxdığı yerdə dağlar yenidən dəniz sahilinə yaxınlaşır. «Uzun sədlər»in xarabalıqları Torpaqqala şəhər yeri yaxınlığında bu günədək qalmaqdadır[18]. Dördüncü sədd əvvəlkilərdən daha əzəmətli idi. Dərbənd təpəsinin şimal-şərq hissəsində tikilmiş bu istehkamın qalıqları arxeoloji qazıntı işləri nəticəsində e. ə. VIII-VI əsrlərə aid təbəqələrdə aşkara çıxarılmışdır. V əsrdə Sasani hökmdarı II Yəzdəgird (438-455-ci illər) zamanında bu istehkamlar əsasında Dərbənd qalasından dənizə qədər bütün keçidin qabağını kəsərək, təpənin zirvəsinə qədər uzanan qala divarları ucaldılmışdı[19]. Qala divarları təpə üzərində salınmış möhkəm içqalaya bitişirdi[20]. Sonralar çiy kərpicdən olan divara lap yaxın, sanki ona üzlük kimi şimal daş divarı tikilmişdi[21]. Dərbəndin daş divarı I Xosrov Ənuşirəvan (531-579-cu illər) dövründə tikilməyə başlamış və 567-ci ildə, başqa bir fərziyyəyə görə isə, 547-ci ildə başa çatdırılmışdır[22]. Sasani inşaat sənətinin misilsiz qiymətə malik abidələrindən olan

---

* Göylərə ucalan (şah) Qubad.

Dərbənd divarlarının üzlüklərində 20-dək Pəhləvi kitabəsi vardır[23]. Sasanilər dənizdən başlayaraq, əzəmətli daş tikililər - şəhərin şimal və cənub divarları, içqala və Dərbənd qala divarının davamı olub, dağlar boyu qərb istiqamətində 40 km-dək uzanan Dağ səddi inşa etmişdilər. Bu sədd dənizdən başlayaraq, Qafqaz sıra dağlarının düşmən üçün keçilməz çıxıntılarınadək qırılmaz müdafiə xətti kimi düşünülmüşdü. Ərəb mənbələrinin verdiyi məlumata görə divarlar dənizin içərilərinədək gedib çıxırdı[24]. Dərbənd divarı tikildikdən sonra şəhərdən şimala doğru qalıqları Oqni stansiyasından 6-7 *km* aralı indiyədək duran bir divar da ucaldılmışdı[25].

Sasanilər şərqi Ön Qafqaz çöllərində yaşayan köçəri şimal tayfa və xalqlarının - maskutların, alanların, hun, sabir, xəzər və başqa türk tayfalarının Zaqafqaziyaya və İrana keçmələrinin qabağını kəsən belə istehkamların tikilməsində maraqlı idilər. Bizans da Dərbənd keçidinin və Sasanilərin şimal sərhədlərinin onun üçün təhlükə törədən köçəri tayfalara qarşı möhkəmləndirilməsinə çalışırdı. VIII əsr tarix əsərində xəbər verilir ki, V əsrdə imperator Markian (450-457-ci illər) Dərbənd divarlarını tikmək üçün maddi yardım göstərmiş «bu işə öz xəzinəsindən çoxlu talant sərf etmişdi»[26].

VI əsrdə Sasanilər dövlətinin şimal sərhədindəki ən mühüm strateji əhəmiyyətli məntəqələri Dərbənd və Dər-i alan (Alan qapısı) keçidləri idi. Beləliklə, Sasanilərin Dərbənd bölgəsində möhkəmləndikləri bir əsr ərzində - V əsrin ortalarından VI əsrin ortalarınadək fars padşahları Şirvan ərazisində İran torpaqlarına ardı-arası kəsilməyən hücumlar edən köçəri tayfalardan müdafiə məqsədilə nəhəng istehkamlar tikmişdilər. Buna görə də, Şirvan ərazisi böyük strateji əhəmiyyətə malik idi.

Ərəb tarixçisi Məsudi (943-cü il) bu istehkamların əhəmiyyəti haqqında aşağıdakıları yazırdı: «Əgər allah hər şeyi görməyi, böyüklüyü və mərhəməti ilə İran şahlarına (mülük ül-furs) əl-Bab şəhəri, onun quru, dəniz və dağlarda olan divarları və digər qalalarının tikilməsinə, həmçinin, müxtəlif xalqlardan olan adamların yerləşdirilməsinə, müxtəlif dərəcəli hökmdarlar təyin etməsinə kömək göstərməsəydi, onda xəzərlər, alanlar, sərirlər, türklər və adları çəkilən digər xalqlar, şübhəsiz, Bərdə, ər-Ran, (Arran), Beyləqan, Azərbaycan, Zəncan, Əbhər, Qəzvin, Həmədan, Dinavər, Nihavənd vilayətlərinə və digər yerlərə gəlib çıxardılar»[27].

Nəhəng sərhəd istehkamlarının tikilməsi, əsasən, Albaniyanın ən varlı vilayəti olan Şirvanın hesabına təmin olunan böyük maliyyə vəsaiti və insan qüvvəsi tələb edirdi.

VII əsr müəllifi «Böyük Çoğa (Dərbənd) şəhərinin əzəmətli divarlarından, fars hökmdarlarının Qafqaz dağları ilə Şərq dənizi* arasındakı keçidi tutmaq məqsədilə möhkəm istehkamlar tikmək üçün memarlar toplanmasına və çoxlu

* Alban və erməni müəllifləri Xəzər dənizini Şərq dənizi adlandırırdılar.

materiallar axtarılıb tapılmasına böyük vəsait sərf edərək, ölkəni əldən salmasından» danışır[28].

Ərəblər dövründə (X əsr və sonralar) Şirvanın sərhədləri şimalda Qafqaz dağlarının cənub-şərq ətəkləri, cənub-qərbdə onu Arrandan və Muğandan ayıran Kür çayı, şimal-qərbdə Qanıx (Alazan) çayı, şərqdə Xəzər dənizi idi.

XIV əsrin birinci yarısında (1340-cı il) Həmdullah Qəzvini yazırdı: «Şirvan ölkəsi Kür sahillərindən Dərbəndə (Bab əl-Əbvab)[29] qədər uzanır. Şirvan ərazisi Qafqaz dağlarının şimal yamaclarından axıb gələn aşağıdakı altı çayla suvarılır: cənubda Bakı ilə Kürün mənsəbi arasında Xəzər dənizinə tökülən Pirsaat, Ağsu, Girdiman, Göyçay, üstündə Qəbələ yerləşən Türyançay və Şəkinin suvarıldığı Əlicançay, şərqdə Cənubi Dağıstan (Dərbənd) və Şirvan ərazisindən Rubas, Gülkəri, Samur, Qudyalçay, Qaraçay, Vəlvələçay, Gilgilçay, Ataçay, Sumqayıt çayları axıb Xəzər dənizinə tökülür.

Min il ərzində (VI-XVI əsrlər) qədim Şirvanşahlar sülaləsinin hakimiyyət sürdüyü Şirvan vilayətinə bərəkətli məhsuldar düzənliklər, gözəl otlaqları, çəmənlik və meşələri olan ovalıqlar daxil idi. Burada heyvan bəsləyir, taxıl becərirdilər. Kənd təsərrüfatı inkişaf etmişdi. Meyvə bağları var idi. Kür çayının və dənizin yaxınlığı əhalini qiymətli balıq növləri ilə təmin edirdi. Şirvan torpağı neftlə, duzla, müxtəlif faydalı qazıntılarla - qiymətli metallarla, minerallarla, gillə zəngin idi.

Alban tarixçisi Movses Kalankatlı «Alban tarixi» əsərində VII əsr Albaniyasından bəhs edərək yazırdı: «Qafqazın hündür dağlarının qoynunda yerləşən Albaniya ölkəsi təbiətin bəxş etdiyi əlvan nemətləri ilə gözəl və füsunkardır. Bu torpaqdan sakit-sakit axan Kür çayı özü ilə külli miqdarda iri və xırda balıq gətirir və Xəzər dənizinə tökülür. Onun çöllərində bol taxıl və şərab, neft və duz, ipək və pambıq, saysız-hesabsız zeytun ağacları var. Dağlarında qızıl, gümüş, mis və oxra çıxarılır. Vəhşi heyvanlar: şir, pələng, bəbir, gur, cürbəcür quşlar, qartal, şahin və s. yaşayır»[30]. Göstərilən məlumatlar, şübhəsiz, Şirvana da şamildir. Belə ki, Abşeronda ta qədimdən neft və duz hasil olunur, Şamaxıda çəkil, pambıq və üzüm becərilir, arpa, buğda və s. əkilirdi. Vəhşi heyvanlara dair mənbələrdə verilən məlumatları Bakı yaxınlığındakı üzərində şir, pələng, gur, kulan və sair heyvanlar təsvir olunmuş Qobustan və Abşeron qayaüstü təsvirləri də təsdiq edir. Kənd təsərrüfatı və heyvandarlığın, habelə dağ-mədən işinin və onunla bağlı metal emalının inkişafı əhalinin rifahını təmin edirdi. Şirvanın tarixini tədqiq etmiş A.A.Bakıxanovun təbirincə, «Şirvan Qafqaz ölkəsinin ən gözəl və ən geniş vilayətlərindəndir»[31].

## § 2. Şirvanın əhalisi

Şirvan qədimdən Dərbənd və Dəryal keçidləri vasitəsilə şimaldan, eləcə də şərqdən və cənubdan (İran vasitəsilə) gəlmiş oturaq və köçəri tayfalarla məskunlaşmışdı. Min illər boyu Şirvan torpağı bir-birini əvəz edən Qafqaz və türkdilli tayfalar arasında rəngarəng əlaqələr meydanı olmuşdur. Bunu təkcə yazılı mənbələr deyil, arxeoloji və toponimik məlumatlar da təsdiq edir.

V əsr müəllifi Favstos Buzand IV əsrin birinci yarısı ilə bağlı hadisələrdən danışarkən maskut hökmdarı Sanesanın «müxtəlif köçəri tayfalardan» ibarət qoşunu sırasında hunların, təvəsparların, xeçmatakların, ijmaxların, balasaçılərin və i. a. adını çəkir. Ehtimal ki, müəllif Balasakanın əhalisini balasaçı adlandırmışdır[1].

VII əsrin əvvəlinə aid anonim bir mənbədə Cənubi Dağıstanda, Şirvanda və Xəzər dənizinin qərb sahillərində məskunlaşmış tayfalar sadalanır. Mətndə adları çəkilən və ehtimal ki, bəziləri istisna olmaqla, ölkənin avtoxton əhalisi olan ləklər, hunlar, xəzərlər, zekenlər (tsekanlar), xenuklar (xenavilər), kaspilər, şərvanlar, xsranlar, təvəsparlar, xeçmataklar, ijmaxlar, bakanlar, pikonaklar (peçeneqlər), maskutlar[2] Dərbənd, Şəki, Muğan düzü, Şirvan, Siyəzən, Xızı, Beşbarmaq, Təbərsəran, Xaçmaz, Şamaxı, Bakı və Quba zonaları hüdudlarında yayılmışdılar.

Bu tayfalardan bəziləri «Qafqaz dağları qollarının gəlib çatdığı və Dərbənd divarının, dənizdə əzəmətli qalanın ucaldıldığı»[3] Xəzər sahillərində yaşayırdılar. İndiki ləzgilərin əcdadları olan ləklər bu gün də Quba rayonunun şimal hissəsində, Dərbəndin yaxınlığında yaşayırlar. Bir sıra erkən orta əsr müəllifləri hunların, sabirlərin, xəzərlərin Albaniyaya keçib gəlmələrindən, basqınlarından bəhs etmişlər. Hunlar Qafqazda ilk dəfə eramızın II əsrinin ikinci yarısında görünmüşlər. Aqafangelə görə, hunlar Albaniyaya Dərbənd (Çor) keçidindən III əsrin birinci yarısında və sonralar, IV əsrin birinci yarısında və axırında (395-ci il)[4] girmişlər. Hunların Albaniyaya-Dərbəndə, Şirvana, Muğana və başqa vilayətlərə basqınları V-VI əsrlərdə də davam etmişdir. Həm də, hun ordası konqlomeratında bulqarlar, xaylandurlar, V-VI əsrlərdə isə sabirlər də var idi[5].

VII-IX əsrlərdə Qəbələyə, Muğana girən sabirlər, xəzərlər və bulqarlar bu vilayətlərin toponimikasında öz izlərini qoymuşlar[6]. «Erməni coğrafiyası»nda adı çəkilən zekenlər (tsekanlar), ehtimal ki, Şəki vilayətinin əhalisi - şəkililərdir. Erməni mətnindəki xenukların (antik müəlliflərdə genioxlar) adları Şəki rayonundakı Yuxarı və Aşağı Göynük və Bozdağın ətəyində balaca Göynük çayının adlarında həkk olmuşdur. Kaspilər Abşerondan cənubda, Kür və Araz çaylarının arasında və Xəzər (Kaspi) dənizinin sahillərində yaşamışlar. Şərvanlar Şirvan vilayətində yaşayırdılar. Bu, Şirvanın qədim etnotoponim formasında rast gəlinən ilk adıdır. Xsranları anonim X əsr mənbəyində adı çəkilən Xursan (Xunsar) vilayəti ilə əlaqələndirmək mümkündür. Bu vilayət Dərbənd rayonunun cənub hissəsində, Beşbarmaq[7] dağına qədərki ərazidə yerləşirdi. Təvəsparlar erkən orta

əsrlərdə Şirvanşahlara tabe olan Cənubi Dağıstanda Təbərsaranda lokallaşdırılır. Xeçmataklar tayfasının adı Vartaşen (indiki Oğuz - S. A.) rayonundakı Xaçmaz kəndi və qalasının, habelə Xəzər dənizi sahilindəki Xaçmaz şəhərinin adında qalmışdır. Ehtimal ki, Favstos Buzandın (V əsr) xatırladığı ijmaxlar IV əsrdə Şamaxı ətrafında, bakanlar isə Bakıda və Abşeronda yaşamışlar. Pikonaklar (peçeneqlər) etnonimi Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonundakı Biçənək kəndi və aşırımının adında mühafizə olmuşdur. Buna bənzər toponim VII əsrdə Şirvanda da mövcud ola bilərdi. Maskutlar indiki Quba rayonunda və Abşeronda yaşamışlar. Bu toponimlərin adı IV əsrin birinci yarısında Maskut hökmdarı Sanesananın erməni hökmdarı ilə müharibəsini təsvir edən V əsr müəllifinin əsərində çəkilir. Bu mənbədə «böyük Kür çayı»[8] maskutların sərhədi kimi göstərilir. Massaget-maskut tayfaları Şabran səddindən şimalda, dəniz sahili boyunda yaşayırdılar. VII əsrə aid anonim mənbədə aşağıdakılar bildirilir: «Xəzər dənizinin şimal tərəfində, Qafqaz sıra dağlarının gəlib çatdığı dənizə qədər Vardanian düzənliyində maskutlar yaşayır. Dərbənd səddi buradadır»[9]. Erməni və ərəb mənbələrinə görə irandilli maskutların - Qafqaz massagetlərinin ölkəsi indiki Dağıstanın Dərbənd rayonunun Xəzərsahili ərazisində, eləcə də Azərbaycan Respublikasının Quba, Qusar və Dəvəçi rayonlarında[10], Abşeron və Muğan düzündə yerləşirdi. Massagetlər Baş Qafqaz silsiləsi ilə dəniz sahili arasında, Dərbənddən Abşerona və Muğan düzünə qədərki bərəkətli vilayətdə məskun idilər. Bu ərazilər Samur çayının aşağı axını və cənuba doğru axan başqa çaylar vasitəsilə suvarılırdı[11].

VII əsr məxəzində Samur və Gilgilçay çayları arasındakı düzənlik Mazkutk[12], IX-X əsrlər ərəb mənbələrində Məsqət[13], sonralar, orta əsrlərdə isə Müşkür[14] adlanmışdır. Artıq eramızın I əsrində maskutların öz hökmdarlığı var idi. Hökmdarlığın paytaxtı adı ehtimal ki, Xosrov Ənuşirəvan tərəfindən məğlub edilmiş (VI əsr) çol adlı türk tayfasının adından götürülmüş Çor, yaxud Çol şəhəri idi[15]. V.Q.Kotoviç bu toponimi başqa cür yozur: «Məlumdur ki, Cor və ondan törəmə Çor, Çoğa, Çola, Sul və s. adlar Dərbənd keçidinin ən qədim adlarından biridir. Markvartın fikrincə, o, İran mənşəlidir, müasir fars dilində cer yerdə yarıq, yarğan, çat deməkdir. Cor adının bu cür yozumunu Xəzəryanı yolda ən dar keçid olan Dərbənd keçidinə tətbiq etmək tamamilə məqbuldur»[16]. Çor (Çoğa, yaxud Çol) şəhəri Torpaqqala şəhər yerində Bilici stansiyasından 1 km aralı, Dərbənddən 25 km cənubda Rubas və Gülgəri çaylar arasında yerləşirdi[17]. Maskutlar Xəzər dənizi boyunca Dərbənddən Kürün mənsəbinədək olan ərazini tuturdular[18]. Bakan vilayəti - ehtimal ki, Bakı və Abşeron yarımadası da bu hökmdarlığın tərkibinə daxil idi. Massagetlərin-maskutların adı metatezaya uğramış halda Abşerondakı Maştağa kəndinin adında mühafizə olunmuşdur[19].

Massaget Arşakiləri hökmdarlığı 510-cu ildə Sasanilər tərəfindən məhv edildikdən və Albaniyada hökmdar hakimiyyətinə son qoyulduqdan sonra Şirvan vilayətində Şəbərançay və Gilgilçay çayları arasındakı ərazidə Şirvanşahlar dövləti

adlanan kiçik siyasi qurum meydana gəldi[20]. X əsrdə Massaget Arşakiləri hökmdarlığına məxsus torpaqlar Şirvan ərazisinə daxil idi. Onun şimal sərhəddi Dərbənd idi. Sonralar Məsqət vilayəti, X-XI əsrlər ərəb müəlliflərinə görə, Samur çayı, Xəzər dənizi, ləkzlər ölkəsi və Şəbəranla[21] məhdudlaşır, başqa sözlə, indiki Quba rayonunun cənub və şimal hissələrinə müvafiq gəlirdi.

Şirvan ərazisində qədimlərdə müxtəlif tayfalar məskunlaşmışdı. Onların arasında Qafqaz qatı ilə yanaşı, irandilli qat da var idi. Ehtimal ki, irandilli əhali bu rayonda eramızdan əvvəl I minilliyin birinci yarısında peyda olmuşdu. Məlumdur ki, skif tayfaları Azərbaycandan keçmiş və şübhəsiz, onların müəyyən hissəsi bu bölgədə məskən salmışdı. Bunu arxeoloji materiallar da təsdiqləyir[22]. Quba rayonunun, Abşeronun və Muğanın bir sıra toponimləri irandilli leksikaya mənsubdur[23]. Erməni, ərəb və fars mənbələrinin verdiyi məlumata görə, Sasani hökmdarları, I Qubad, I Xosrov Ənuşirəvan V-VI əsrlərdə özlərinin şimal sərhədlərini köçəri türklərin basqınlarından qorumaq üçün bir sıra istehkamlar və Dərbənd divarını tikdirmiş[24], Lahican, Təbəristan, Gilan və s. yerlərdən bəzi irandilli tayfaları Şimal-şərqi Azərbaycana, daha doğrusu, Şirvan vilayəti bölgəsinə köçürmüşdülər. Bu adlar həmin zonanın toponimikasında da əksini tapmışdır. (Şirvan, Lahıc-İsmayıllı rayonunda, Ləhəş-Abşeronda, Təbərsəran-Cənubi Dağıstanda, Gürgan-Abşeronda və s. Bəzi tədqiqatçıların (A. A. Bakıxanov[25], M. H. Vəliyev-Baharlı[26]) fikrincə, Xəzər dənizinin qərb sahili boyunca Abşerondan Dərbəndədək məskunlaşmış tatlar buraya köçürülmüş qədim iranlıların qalıqlarıdır. Tatlar, heç şübhəsiz, Şirvan ərazisinin ən qədim etnik təbəqələrindəndir.

Ərəb müəlliflərinin məlumatına görə, Muğan əyalətində körfəzdən aralı maqların yaşadığı böyük kənd var idi[27]. Bəzi alimlərin fikrincə, Muğanda qədim maq tayfası yaşamış, Sasanilər dövründə və daha əvvəl onların arasında kahinlər təbəqəsi yaranmışdı. Muğan sözü bir çox şərq, o cümlədən Muğan düzü[28], Muğan şəhəri toponimik terminlərinin əsasını təşkil edir.

Ərəb müəllifləri Şirvanda kürd məskənlərinin olduğunu göstərmişlər. X əsr mənbəyində kürdlərin yaşadıqları yerlərin adları sadalanaraq deyilirdi: «Onlar pərakəndə halda Azərbaycanda və Ermənistanda, Arranda, Beyləqanda və Bab əl-Əbabda yaşayırdılar»[29]. İsmayıllı rayonundakı Kürdüvan, Kurdmatı, Abşerondakı Kürdəxanı kəndləri və Kürdəmir şəhəri kürdlərin həmin yerlərdə məskunlaşmasına sübutdur.

Şirvanda Qafqaz və İran mənşəli toponimlərlə yanaşı, bu ölkənin qədim sakinlərinin dilləri ilə bağlı olmayan və etimoloji mənsubiyyəti türk tipli dillər zəminində müəyyənləşdirilən etnonimlər və antroponimiya faktları ilə təmsil olunan kənd adları da mövcuddur. Narrativ (təhkiyə xarakterli) mənbələrlə yanaşı, lapidar (yığcam) mənbələrin toponimikasının öyrənilməsi köçəri türklərin Şirvana hələ erkən orta əsrlərdə gəldiklərini göstərir. Panili Priskin verdiyi məlumata görə erkən orta əsr mənbələrində türklərlə eyniləşdirilən hunlar[30] V əsrdə Abşerona hücum etmişdilər[31]. Hunların, sabirlərin, xəzərlərin və başqa türk tayfalarının

Şirvan vilayətinə soxulmalarını və basqınlarını erməni müəllifləri Yeğişe, Favstos Buzand (V əsr) və Gevond (VIII əsr) da qeyd etmişlər[32]. Yeğişeyə görə, hunlar artıq V əsrin ikinci yarısında Şimali Qafqaza gəlmiş, Xəzər dənizi və Qafqaz dağları boyunca uzanan vadini Dərbəndədək tutmuşdular. 503-cü ildə sabirlər Zaqafqaziyaya və Albaniyaya hücum etmişdilər[33].

VII əsrin əvvəli anonim müəllifinin məlumatına görə Xəzər dənizinin şimal-qərbində Atil (Volqa) çayınadək türkdilli savir - sabir tayfaları yaşayırdı[34]. İbn Xordadbeh (IX əsr) qeyd edir ki, Bab əl-Əbvabdan o yana Suvar (Savir) səltənətidir[35].

Mitilenli Zəkəriyyə 555-ci ilə aid salnaməsində qeyd edir ki, qapının, yəni Dərbəndin arxasında, Dağıstanda və Şimali Qafqazda «avqar (auanqur), sabir, burqar, alan, kurtarqar, avar, xəzər, dirmar, sirurqur, baqrasik, kulas, abdel, eftali tayfaları yaşayır. Bu on üç xalq çadırlarda yaşayır, mal-qara, balıq və vəhşi heyvan əti ilə dolanırlar»[36]. VI əsrə aid bu salnamədə adı çəkilən tayfalar çadırlarda yaşayan köçərilər kimi xarakterizə olunur. Onların əksəriyyəti türkdilli tayfalardır. On üç addan doqquzu *ar, ər, ur, ir* sonluğu ilə bitir. Onlardan burqarlar (bulqarlar), sabirlər, avarlar, xəzərlər, abdellər, eftalilər, saraqurlar (sirurqurlar), onoqurlar (auanqurlar) və başqalarının türkdilli olmaları digər mənbələrdən məlumdur[37]. Türkdilli tayfalarla yanaşı, burada VI əsr mənbəyi müəllifinin maskutlar, yaxud massaketlər hesab etdiyi irandilli olanların da adı çəkilir[38].

Beləliklə, mənbələrə əsasən erkən orta əsrlərdə Cənubi və Şimali Dağıstanda və Şimali Qafqazda müxtəlif türkdilli tayfalar yaşamışlar. Göstərilən türk tayfalarının yayıldığı ərazi Şirvan vilayətinə yaxındır. Ehtimal ki, türk tayfalarının ayrı-ayrı qrupları cənuba, Şirvana da gəlib çıxmış, Dərbənd keçidindən keçib gələn hunlar, sabirlər, xəzərlər və digər köçəri ordalarla birlikdə burada məskunlaşmışdır. Sabirlərin adı Şirvanın toponimikasında bir sıra yaşayış məntəqəsinin adlarında qalmışdır. Mənbələr təsdiq edir ki, I Xosrov Ənuşirəvan (531-579) xəzərlər üzərində qələbə çaldıqdan sonra üç min əsir türk ailəsini (50 min nəfər adam) Arrana və Azərbaycana köçürmüşdü. İbn Misqəveyhin sözlərinə görə, türk əsirlərinin cərgəsi on fərsəxə (təqribən 60 km) qədər uzanırdı[39]. Başqa mənbələrə görə, köçürülən ailələrin sayı 10.000-ə çatırdı[40].

Beləliklə, VI əsrdə türklərin Arrana, Şirvana və Muğana güclü miqrasiyası baş verirdi. Bu ölkələrin toponimikasında türk ünsürlərinin mövcud olmasını - (Qobu Türkan-Abşeronda, Qala, Suvar, Sabiroba-Xaçmaz rayonunda, Balisakan, Biləcəri, Biləsuvar, Biçənək, Qıpçaq Xəzəryurd, Xəzəryaylaq, Xəzər - Salyan rayonunda) müxtəlif türkdilli tayfaların Şirvan zonasına və qonşu vilayətlərə gəlmələrinə dair narrativ və lapidar mənbələrin verdiyi məlumatları da təsdiq edərək, ölkədə erkən orta əsrlərdən - III-IV əsrlərdən (hunlar) başlayaraq, VI-VIII əsrlərdə daha intensiv şəkildə (sabirlər, xəzərlər, peçeneqlər və b.) türkləşmə prosesi getdiyini göstərir. Eramızın əvvəlindən Şirvanda, Arranda oturaq həyata keçən həmin türk tayfaları Azərbaycan xalqının təşəkkülündə iştirak edən mühüm

komponentlərdən olmuşlar. Bu tayfaların yayılmasının öyrənilməsi qədim Azərbaycanın türkləşmə məsələsi ilə sıx bağlı olan azərbaycanlıların etnogenezi probleminin işıqlandırılmasında mühüm əhəmiyyətə malikdir.

Mənbələr göstərir ki, Şirvanda nəzərdən keçirdiyimiz Qafqaz, İran və türk mənşəli qədim əhali ilə yanaşı, VI-IX əsrlərdə və sonralar ərəblər də yaşamışdır.

X əsr ərəb müəllifi Məsudinin yazdığına görə, «Haydaqla əl-Bab arasında ərəb dilindən savayı heç bir dildə yaxşı danışa bilməyən müsəlman ərəblər yaşayır. Onlar meşələrdə, cəngəlliklərdə, vadilərdə, iri çayların sahilində, hələ vaxtı ilə ərəb səhralarından qaçıb gələnlərin tutduqları kəndlərdə yaşayırlar. Onlar Haydaq məmləkəti ilə sərhəddə yaşayır, lakin ondan cəngəllik, iri çaylar vasitəsilə qorunurlar. Onlarla əl-Babın arasında məsafə üç milə (bir fərsəx) qədərdir. Əl-Babın əhalisi onlara kömək göstərir»[41].

Əl-Bəlazuri (IX əsr) və əl-Qərnatinin (XII əsr) məlumatına görə ərəb sərkərdəsi Məsləmə ibn Əbd əl-Məlik (VIII əsr) Dərbənddə, onun ətraf kəndlərində və Təbərsaranda Mosuldan, Dəməşqdən, Tədmurdan, Hələbdən, Suriya və əl-Cəzirənin digər şəhərlərindən 24 min ərəb əsgəri (Qərnatidə - ailəsi) yerləşdirmişdi; Dərbəndin dörd məhəlləsi müvafiq olaraq, Dəməşq, Hims, Kufə və əl-Cəzirə adlandırılmışdı[42].

XII əsrdə İbn əl-Əzraq dağlarda və Dərbəndin ətrafında, hələ ölkənin Xilafət tərəfindən istila edildiyi vaxtdan burada yaşayan ərəblərə rast gəldiyini göstərir[43]. Ərəblər Şirvanda sonrakı əsrlərdə də yaşamışlar. Şirvanın toponimikasında vaxtilə ərəblərin yaşadıqları bir sıra yaşayış məntəqəsinin adında «ərəb» sözü qalmışdır: Quba rayonunda - Ərəbəli, Ərəbkeymuraz, Ərəbdəhnə, Ərəbhacı; Şamaxı rayonunda - Ərəblər, Ərəbuşağı, Ərəbqədim, Ərəbşamlı, Ərəbşahverdi; Kürdəmir rayonunda - Ərəbqiyaslı, Ərəbçəltikçi, Ərəbsarvan; Salyan rayonunda - Ərəbbəbirxan, Ərəbqardaşxan və i. a.[44].

Abşeron toponimikasının təhlili eyni ərazidə bir neçə toponimika qatının mövcud olduğunu göstərir. Bu baxımdan Əmircan kəndi səciyyəvidir. Onun müasir adı ilə yanaşı, heç bir dəyişikliyə uğramadan köhnə adı - Xilə də qalmışdır. Bu ada Azərbaycanın digər rayonlarında (məsələn, keçmiş Xıllı rayonu və rayon mərkəzi, Qazıməmməd rayonunda Dağ Xıllı kəndi) rast gəlmək olar. Zeydlits keçmiş Cavad qəzasında Xile və Xilu adlı iki kəndin adını çəkir[45], 13 əsr ərzində dəyişikliyə uğramadan dövrümüzədək saxlanıb qalmış Xilə adının tarixi Azərbaycanın ərəblər tərəfindən istilasına gedib çıxır. İraqda müstəqil əmirliyə malik olduqları Hillədən buraya köçüb gəlmiş rəbiə tayfaları kompakt halda Bərdədə, Şamaxıda və Şirvanın digər yerlərində məskən salırdılar[46]. Ehtimal ki, Abşerondakı Xilə kəndi İraqdakı Hillənin adı ilə adlandırılmışdır. Belə ki, burada məhz həmin yerdən gəlmiş və sonralar türklərlə qaynayıb-qarışmış ərəblər məskən salmışdılar. Lakin ərəblər bu yerin ilk sakinləri deyildilər. Abşerondakı Xilənin qədim əhalisi haqqında burada skiflərin yaşadıqlarını təsdiq edən arxeoloji tapıntılar xəbər verir[47].

Şirvanın toponimikasının təhlili bizi aşağıdakı nəticələrə gətirib çıxarır. Qədim zamanlarda Şirvan ərazisində buranın toponimikasında iz qoyan müxtəlif tayfalar məskən salmışlar. Mənbələr və toponimik məlumatlar göstərir ki, Qafqaz, irandilli və türkdilli tayfalardan ibarət yerli əhali eramızın əvvəlindən etibarən köçəri türklərlə intensiv surətdə qaynayıb-qarışmışdır. Türk tayfalarının burada dərin kök salması Azərbaycan xalqının etnogenezində mühüm komponentlərdən biri olmuşdur.

Azərbaycanda məskunlaşmış ərəb tayfaları yerli əhali ilə qaynayıb-qarışmış, dilləri aradan çıxmış, onun izləri yalnız toponimikada və məhəlli leksikada qalmışdır. Bu, ərəb istilasınadək Azərbaycanda türk və İran ünsürlərinin davamlı və sabit olduğunu göstərir[48].

## § 3. Şirvanın şəhər və kəndləri

«Erməni coğrafiyası»nın müəllifi Albaniyada şəhər və kəndlərin mövcud olduğunu qeyd edir: «Burada bərəkətli çöllər, şəhərlər, qalalar, kəndlər, çoxlu çay və qamışlıqlar var»[1].

Şirvan ərazisində aparılan qazıntı işləri nəticəsində burada Mezolit və Tunc dovrlərinə aid qədim yaşayış məskənləri, I-II əsrlər antik müəlliflərinin verdikləri məlumatların da təsdiq etdiyi qədim və erkən orta əsrlərə aid şəhərlər aşkara çıxarılmışdır.

Böyük Plini (23-79-cu illər) yazırdı ki, Albaniyanın əsas şəhəri Kabalakadır[2]. Yunan coğrafiyaşünası Ptolemey (70-147-ci illər) Qafqaz Albaniyasında 29 şəhər və kənd olduğunu xəbər verirdi. O, bunların arasında Xabala, Moseqa, Albana, Samexiya, yaxud Kamexiya, Ketara, Baruka və başqalarının adını çəkir[3]. Bəzi alimlər (d'Anvil, Tomaşek, Tsellari, Barbye və b.) həmin adları Qəbələ (Cabalaca, Chabala), Dərbənd (Albana), Şamaxı (Samechia, Camechia), Bakı (Gaetara, Baruca) şəhərləri ilə eyniləşdirirlər. Ptolemeyin xatırladığı Moseqa (Mosega) toponimində ola bilər ki, Quba rayonunda və Abşeronun cənub sahillərini əhatə edən ərazidə yaşamış massaget - maskut tayfasının adı əks olunmuşdur.

Mitilenli Zəkəriyyənin (555-ci il) salnaməsində aşağıdakı məlumat verilir: «...bu şimal məmləkətində iyirmi dörd yepiskopu olan beş mömin xalq yaşayır. Qurzan da Ermənistan dilləri yunan dilinə bənzəyən bir yerdir, onların İran şahına tabe olan xristian hakimi var. Arran da həmin Ermənistanda öz dili, xaçpərəst xalqı olan bir diyardır. Onların İran şahına tabe olan hökmdarları var... Bazqun öz dilinə malik olub, hunlar ölkəsi hüdudlarında yerləşən Xəzər qapısına və sahilinə qədər uzanan bir ərazidir...»[4]. Yuxarıda adı çəkilən mətndə VI əsrdə hökmdarları fars, yəni Sasani şahlarına tabe olan Gürcüstan və Arrandan - Albaniyadan danışılır. Onların öz dilləri gürcü və Arran dilləri var idi və xristian dininə etiqad edirdilər. Beləliklə, Z. M. Bünyadovun haqlı olaraq göstərdiyi kimi, «...nə Qurzan, nə Arran,

etnik və ya siyasi cəhətdən Ermənistanın bir hissəsi olmamışlar. Bu birlik təkcə dini birlikdir...»[5]. Sonra Zəkəriyyə dili Arran dilindən fərqlənən Bazqun ölkəsini qeyd edir. Markvarta görə, mətndə göstərilən ərazi hüdudları Xəzər sahili boyunca Xəzər qapısına (Dərbənd keçidi) qədər uzanan Maskut ölkəsinə məxsusdur[6]. Bazqunun Kürün Xəzər dənizi boyunca uzanan sağ sahil vilayəti Balasakanın adının təhrif edilmiş şəkli (Bazkan-Bazqun) olmasına dair N. Adontsun fərziyyəsi daha inandırıcıdır[7]. Maskut-alanlar artıq eramızın 1-ci əsrində burada özlərinin dövlətini yaratmış irandilli tayfalar idi[8]. Ona görə də, Böyük Plini 1-ci əsrdə Albaniya ilə yanaşı «Massagetlər ölkəsi»nin də Arran - Albaniyadan fərqlənən ayrıca siyasi və etnik birlik kimi adını çəkir. Bunu Ravenli Anonimin IV-V əsrlərə aid olan məlumatları da təsdiq edir. Zaqafqaziya ölkələrinin siyasi qurumlarından danışarkən onlar (patria Siunia Caucasorum (Siunik), patria Albania, patria Masageton, patria Caspiae (Balasakan - C.A.) və i. a. adlarını çəkirlər. Göründüyü kimi, patria Masageton Zaqafqaziyanın siyasi qurumları sistemində müəyyən yer tuturdu[9].

VI əsrin əvvəlində Massaget Arşakilər hökmdarlığı Sasanilər tərəfindən aradan qaldırıldıqdan sonra Şabrançay və Gilgilçay hövzələri arasındakı ərazidə Şirvanşahlar adlı kiçik feodal məlikliyi yarandı[10]. Sonralar X əsrdə Şirvanın ərazisi xeyli genişləndi. Şimali-şərqdə Dərbənd, şimal-qərbdə Şəki və cənubda Muğan müəyyən vaxtlarda onun tərkibində olmuşdur. «VII əsr erməni coğrafiyası»na görə Şirvana aşağıdakı şəhərlər daxil idi: Şirvan, Xsran, Dərbənd, Təvəspar, Xeçmatak, Xenok, Xenuki, İjamax, Bakan, Maskut[11]. Bütün bu toponimlər etnonim formasında verilmişdir. Sonra Şirvanın da daxil olduğu Albaniya bölməsində Şake, şərq tərəfdən Vostani-Martspan (yəni fars canişini-Mərzbanın paytaxtı) adlandırılan Kavaqak (Qəbələ) şəhərlərinin adı çəkilir. «Erməni coğrafiyası»nda və Gevondda adı çəkilən Geqavu - Gelavu toponimi, ehtimal ki, Şamaxı şəhərinin yaxınlığındakı Kalva kəndi ilə lokallaşdırılır[12].

«VII əsr erməni coğrafiyası» Xəzər dənizi sahillərində və Araz çayının şimalında* bərqərar olan Paytakaran əyalətini Arsaxın yaxınlığında, Utidən şərqdə yerləşdirir[13]. Bu lokallaşdırmaya əsasən IV-V əsrlərdə, Abşeron yarımadası da daxil olmaqla, Şirvanın Xəzər sahili boyunca cənub-şərq hissəsi və Muğanın bir hissəsi Kür və Araz[14] çaylarının aşağı axarları arasındakı eyniadlı mərkəzi şəhəri olan Paytakaran əyalətinə daxil idi* Bunu həmin əyalətə aid bəzi toponimlər də təsdiq edir.

«Erməni coğrafiyası»na görə Paytakaranın tərkibinə aşağıdakı qavarlar (kantonlar, mahallar) daxil idi: «1. Xrakot-Peroj, 2. Vardanakert, 3. Yeotnporakian-Bagink, 4. Rotibaqa, 5. Bağanroq, 6. Arospijan, 7. Qani, 8. Atli, 9.

* Mətndə Araz çayının qərbində getmişdir. Görünür, müəllif Arazın aşağı axarı istiqamətindən çıxış edərək, çayın sol sahilini nəzərdə tutmuşdur.

* Bir sıra müəlliflərin (J.Sen-Marten, K.P.Patkanov, Ə.Kəsrəvi Təbrizi, R.Hyuzen, K.V.Trever və b.) fikrincə, Bakı və Abşeron Paytakaran əyalətinin tərkibinə daxil olmuşlar.

Bağavan, 10. Spandaran-Peroj, 11. Hürmüz-Peroj, 12. Alevan»[13]. Bu mahalların bəziləri Şirvanın tərkibinə daxil idi.

Paytakaran adına yalnız «Erməni coğrafiyası»nda rast gəlinir[17]. Antik məxəzlərdə o, Kaspiana-Kasniane, yaxud patria Casnia, qalan erməni mənbələrində isə Kaspk, Kazbk, Kaspits ölkəsi, Parsits ölkəsi, sadəcə Parsk, yaxud Balasakan adlanır[18]. Balasakan adı III əsrdən, Sasani hökmdarı I Şapurun (243-təqr. 273-cü illər) kitabələrindən[19] məlum olub, ehtimal ki, ərəb mənbələrindəki Beyləqanın ən qədim yerli adıdır. Balasakan toponiminin birinci komponenti bala, yaxud bağa allah, səcdəgah, ikinci komponenti-sakan isə fars dilində cəm halda saklar (tayfa) deməkdir. Balasakan sakların allahı, səcdəgahı mənasını bildirir. Ehtimal ki, bu şəhər Zərdüştiliyin ibadət mərkəzi olmuşdur. Paytakaran iki komponentdən ibarətdir: paytak-paytaxt (fars dilində) sözünün təhrif olunmuş şəkli və Arran - Albaniyanın yerli adı. Paytakaran Arranın paytaxtı deməkdir. IV-VII əsrlərdə Mil düzündə yerləşən vilayət və onun mərkəzi şəhəri belə adlanırdı. Ərəblərin dövründə o, Beyləqan adlandırıldı[20].

Xrakot-Peroj iki komponentdən ibarətdir: Xrakot, K. P. Patkanovun fikrincə, erməni dilində od, atəş[21], Peroj isə İran adı Perozun (ehtimal ki, Sasani hökmdarının, 459-484-cü illər) erməni formasıdır. Ola bilsin ki, adı sonralar vilayətə və şəhərə keçmiş məbəd-atəşgah belə adlanmışdır. S. T. Yeremyanın fikrincə, Paytakaranın indiki Mil düzünü tutan bu ilk qavarı həm də Paytakaranın şəhər ərazisi idi[22].

Vardanakert Muğan düzünün bir hissəsini tuturdu. Onun eyniadlı mərkəzi şəhəri (ərəb müəlliflərində Varsan)[23] Araz çayının sağ sahilində, Qarasu çayının ona töküldüyü yerdən aşağıda, Altan qalasının xarabalıqlarının qaldığı yerdə idi[24].

Biz K. P. Patkanovun[25] fikrinin əksinə olaraq, belə hesab edirik ki, Rotibağa və Bağanrod semantik baxımdan ayrı-ayrı toponimlərdir. Rotibağanı[26] Rude-bağa izafəti kimi transkripsiya etmək mümkündür ki, bu da allah çayı, yaxud ilahi çay deməkdir. Maraqlıdır ki, indiki halda bağa sözü qədim formasında verilmişdir[27]. Məlumdur ki, ölkə VII əsrdə ərəblər tərəfindən istila edildikdən və burada islam dini yayıldıqdan sonra Arranda, Şirvanda və Zaqafqaziyanın digər ölkələrində qədim məbədlər müsəlmanlaşdırılmağa, ərəb-müsəlman dini adları ilə adlandırılmağa başladı[28]. Qədim məbədlərin, bütxanaların yerində pirlər, xanəkahlar, türbələr, məqbərələr və i. a. meydana gəldi. Adı çəkilən Rotibağa Rude-bağa toponiminin adı çay və allah sözlərindən yaranmışdır. Həmin çay Abşerondan cənubda, Kürün yaxınlığından axan Pirsaat çayı ola bilərdi. Onun birinci komponenti pir-məbəd, ibadətgah, ikinci komponenti-saat isə, ehtimal ki, təhrif olunmuş ərəbcə-səad (yüksək, ülvi, xoşbəxtlik bəxş edən) sözü, yaxud Səid şəxs adıdır. Beləliklə, Pirsaat, ola bilər ki, müqəddəs pir, yaxud Piri-Səid (Səidin piri) deməkdir. Həmin çay Paytakaran əyalətində olmuşdur. Orta əsrlərdə (XII əsrdə) Pirsaat çayının aşağı axarındakı sıldırımlı sahilində ibadətxana-xanəgah tikilmişdi[29]. Bu abidə yarım-dağılmış halda dövrümüzədək gəlib çatmışdır. İndi

həmin yerdə, ehtimal ki, qədim bütpərəstlik məbədinin, yaxud Rude-bağa səcdəgahının yerində salınmış Xanəgah adlı yaşayış məntəqəsi vardır. Rude-bağa Pirsaat çay xanəgahı ərazisindəki, Pir-Səid kəndinin yerində yaşayış məntəqəsinin adı idi.

Bağanrod allahların çayı, daha doğrusu, allaha (günəşə, oda) sitayiş edənlərin çayı deməkdir. Məlumdur ki, bir sıra yaşayış yerlərinin adında hidronimlər iştirak edir. Bu adlar mənşəcə ən qədim adlar sayılır, belə ki, insan bu və ya digər yerdə məskən salarkən, ilk növbədə, çay qırağında, su başında ev tikirdi[30]. Ehtimal ki, Bağanrod Muğan düzündəki Bağanrod çayının (indiki Bulqarçay) həndəvərində yerləşən eyniadlı vilayətin mərkəzi idi.[31]. Bağ[*] tayfasının vilayəti «Alban tarixi»ndə də xatırlanır: «Bağların (bağk) vilayəti kafir Babanın (Babəkin) əleyhinə üsyana qalxdı. Və o, İrandan gələrək ölkəni tutub viran qoydu, Bağların qadınlarını və uşaqlarını qılıncdan keçirtdi»[32].

Paytakaran əyalətinin vilayət və şəhər adları içərisində bizi aşağıdakı ikisi də maraqlandırır: Atli Bağavan və Yeotnporakian - Bagink. Biz də K. P. Patkanov[33] və S. T. Yeremyan[34] kimi belə hesab edirik ki, Atli Bağavan Atşi-Bağavan - Atəşi-Bağavan adının təhrif olunması nəticəsində meydana gəlmişdir. Həmin toponimi sonralar, VIII əsrdə Gevond Atşi-Baquan[35] şəklində xatırlamışdır. Atəşi-Bağavan toponimi Bağavanın odu, allah şəhərinin odu demək olub, Bakının ərazisi ilə lokallaşdırılır. Gürcü salnaməsində Bakının «VII əsrerməni coğrafiyası»nda qeyd edilmiş qədim adı - Baravan qorunub saxlanmışdır ki, bu da hər iki adı eyniləşdirməyə imkan verir[36].

Məlumdur ki, Bakı bölgəsi hələ erkən orta əsr mənbələrində sönməyən odların yandığı yer kimi xatırlanır. Bu barədə ilk məlumata V əsr Bizans müəllifi Panili Priskdə rast gəlinir. Skifiyadan Midiyayadək yolu sonralar «ittifaq bağlamaq üçün Romaya gəlmiş» hun başçılarının dilindən təsvir edən Panili Prisk nəql edir ki, farslar tərəfindən təqib olunan hun qoşunları ölkəni qarət edərək Midiyadan Skifiyaya «... sualtı qayalarından alov qalxan... (ex petra maritim tlamma ardet)» başqa yolla qayıtdılar[37]. N. Xanıkovun fikrincə, bu məlumat «şəksiz, əbədi Bakı odlarına aiddir»[38]. Abşeron yarımadasında Pirallahı adasında, Suraxanı kəndində, Bakı buxtasında, Qız qalası yaxınlığında sahildə, Şubanı dağında yanar qazların yer səthinə çıxmasını orta əsr müəllifləri qeyd etmişlər.

Neft və yanar qaz mənbələri ilə zəngin olan Abşeron da Paytakaran əyalətinə daxil idi. Ehtimal ki, Atəş-i Bağavan adı qədim zamanlarda Bakı həndəvərində, yaxud Abşeronda mövcud ola bilən qədim atəşpərəstlik məbədləri

* «Erməni coğrafiyası»nda «bakan» tayfasının adına Asiya Sarmatiyası tayfaları sadalanarkən rast gəlinir. «Bakanlar Xəzər dənizi sahilində Dərbənd həndəvərində yaşayırdılar» (səh. 38). S. T. Yeremyanın xəritəsində («Ermənistan Aşxaratsuysa» görə) onlar bir qədər cənubda, Abşeronun yaxınlığında göstərilirlər. Sukranın nəşr etdirdiyi «Coğrafiya»da (səh. 37) bu tayfanın adı «bağanlar» kimi verilmişdir.

ilə bağlıdır. Təsadüfi deyildir ki, Bakı əhalisi arasında indiyədək belə bir rəvayət dolaşır ki, İçərişəhərdəki Cümə məscidi qədim atəşpərəstlik məbədinin yerində tikilmişdir. 1873-cü ildə Bakıda Cümə məscidini görmüş səyyahların təsvirinə görə məscidin ortasında üstləri örtülməmiş dörd tağ ucalırdı. Bu tağlar məsciddən qədim olub, müsəlmanların məscidə çevirdikləri qədim atəşpərəstlik məbədinin qalıqları idi[39].

Gətirilən toponimik məlumatlar və yazılı mənbələr, ehtimal ki, Zaqafqaziyada Zərdüştiliyin mərkəzi olan Abşeron bölgəsində və Bakıda ta qədimdən oda sitayişin mövcud olduğunu göstərir.

IX əsrdən etibarən və sonralar ərəb, fars və türk mənbələri Bakıdan atəşpərəstlərin yaşadığı əbədi odlar şəhəri kimi bəhs etmişlər. 862-ci ildə Xilafətin uyğur xaqanı Bögü xanın yanına göndərdiyi səfir yolüstü Bakıda olmuş və xaqana Bakı haqqında əbədi odlar diyarı kimi danışmışdır[40].

«VII əsr erməni coğrafiyası»nda Paytakaran əyalətində-Yeotnporakian-Bagink toponiminin adı çəkilir[41]. Yeotnporakian-Bagink qədim erməni dilində «yeddi oyulu məbəd» deməkdir. Bu toponimin adı, görünür, atəşpərəstlərin ibadətgahı, yaxud Abşeronda məşhur yanar qazların çıxması ilə bağlıdır[42]. Burada söhbət məzdəgizmin sitayiş abidəsindən kənd adına çevrilmiş atəşpərəstlik məbədindən gedir[43]. Abşerondakı Suraxanı kəndində bir çox yerdə yanar qaz üzə çıxırdı. Bu barədə orta əsr mənbələrində məlumat verilir. 1863-cü ildə səyyah Kempfer Suraxanı odlarının təsvirini vermiş, bu yeri «yanan çöl» adlandırmışdır. Kempfer xəbər verir: «...qədim fars tayfası nəslindən olan iki nəfər, gəlmə atəşpərəst hindlilər tikdikləri divarın ətrafında hərəkətsiz halda oturaraq, əbədi tanrıya dua oxuyur, yerdən çıxan alova baxaraq ona səcdə edirdilər». O, sonra yazır: «...əvvəllər buradan beş yüz metr kənarda aralarında bir vaxtlar bu alovun yandığı yan-yana yeddi oyuq görünürdü. Həmin alov sönəndən sonra od mənim təsvir etdiyim yerdən üzə çıxmışdır»[44]. Kempferin təsvirinə əsasən həmin yerdə XVII əsrin sonundan və XVIII əsrdə Suraxanıda ibadətgahdan və hind atəşpərəstlərinin hücrələrindən ibarət Atəşgah tikilməsindən (həmin atəşgah dövrümüzədək gəlib çatmışdır) xeyli əvvəl atəşpərəstlərin «yeddi oyuqlu ibadətgahı» olmuşdur. Yeotnporakian - Bagink - yeddi oyuqlu məbəd adı altında Kempferin yeddi sönmüş oyuq kimi təsvir etdiyi od məbədinin gizləndiyi də ehtimal edilə bilər. Bunu Suraxanı adı da təsdiq edir.

Suraxanı adı tat (İran) leksikasına mənsubdur. Məlumdur ki, Suraxanıda qədimdən irandilli tatlar məskunlaşmışlar. Suraxanı toponimi iki komponentdən ibarətdir: surax - fars və tat dillərində çala, çuxur, oyuq, deşik[45], xanı isə mənbə, qaynaq, çeşmə, fəvvarə deməkdir. Beləliklə, Suraxanı oyuqdan, deşikdən qaynayıb daşan, fəvvarə vuran deməkdir. Məsudi Suraxanıdan od püskürən mənbə kimi bəhs etmişdir. Bütün bunlar bizə onu Yeotnporakian - Baginklə - yeddi oyuqlu ibadətgahla eyniləşdirməyə imkan verir.

«VII əsr erməni coğrafiyası»nda Dəşti-Bazkan[46] (Dəşti - Balasakanın[47]

müxtəsər variantı), yəni Bazkan çölü, yaxud Balasakan çölü toponiminin də adı çəkilir. Mənası sakların allahının çölü demək olan Dəşti-Balasakan Muğan çölündə lokallaşdırılır. Qeyd olunan coğrafiyada haqqında bəhs olunan xalqların adlarının öyrənilməsi göstərir ki, bir sıra şəhər və vilayətlərin adları bu yerlərdə qədimdən məskunlaşmış qəbilə və tayfaların adından götürülmüşdür. Bu fərziyyəni Şirvan toponimikasının öyrənilməsi də təsdiq edir. Bəhs edilən coğrafiya kitabında Albaniyada Yexni-Xeni toponiminin və Şəki rayonundakı Baş Göynük, Aşağı Göynük kənd adlarının nəşət etdiyi xenok, xenuk, xenut[48] tayfalarının adları çəkilir. Bunu Xeni mahal və şəhər toponiminin «İberiyanın və Aquan (Alazan)[49] çayının, yəni Şəki rayonunun adları çəkilən kəndlərinin yerində lokallaşdırılması da təsdiq edir. Xeni toponimi və xenok, xenuk etnonimlərində Strabonun[50] qeyd etdiyi və ehtimal ki, Albaniyaya Qara dənizin şərq sahillərindən köçüb gəlmiş qədim Qafqaz tayfası genioxların adı əksini tapmışdır.

Paytakaranda Spandaran - Peroj və Hürmüz - Peroj[51] terminlərinin də adları çəkilir. Bu toponimlərdəki ikinci söz adı Şirvan, Arran və Muğan vilayətlərinin toponimikasında qalmış Sasani hökmdarı Peroz - Firuzun (V əsr) adındandır. Spandaran-Peroj (İsfəndiyar Perozun təhrif olunmuş şəkli) və Hörmüz - Peroj adları, ehtimal ki, məbədlər olan vilayətlərlə, Zərdüştilik kultu - oda sitayişlə bağlıdır. Hürmüz-Peroz toponiminin adı Sasanilər dövlətində Zərdüştiliyin yeddi əsas məbədindən biri kimi VII əsrin əvvəlinə aid «Sasani qanunnaməsi»ndə adı çəkilir[52]. Bizcə, o Muğanda lokallaşır. «Coğrafiya»nın müəllifi Paytakaranda Mil və Muğan düzlərində, Şirvan və Arranın bir sıra rayonlarında bol pambıq və dəmyə arpa yetişdiyini qeyd edir. Arran və Şirvanda Firuzun adı ilə bağlı Perozapat (Partav-Bərdə)[53], habelə indiki Quba rayonunda lokallaşdırılan Firuz-Qubad[54] şəhərləri məlumdur. Adları əvvəlcə çəkilən iki toponimin harada yerləşdiyi müəyyənləşdirilməmişdir, yalnız onların Zərdüştiliyin nüfuzunun xüsusilə güclü olduğu Şirvan bölgəsində, Muğanda olmaları ehtimal edilə bilər.

Paytakarana aid edilən son termin Alevan, görünür, Quba rayonundakı Alpan kəndinə müvafiqdir. Ehtimal ki, Alpan-Albana öz adını albanlardan götürmüşdür.

Albaniya əyalətinə daxil edilən Şake toponimi, çox güman ki, sakların adı ilə bağlı olub, müasir Şəki rayonunda lokallaşan həm vilayət, həm də şəhər bildirmişdir.

«Alban tarixi»ndə bizim Şirvanda lokallaşdırdığımız aşağıdakı məskən və şəhərlərin adı çəkilir: Çoğa (Çola, Tçor, Zur) - Dərbənddən cənubda Torpaqqala şəhər yerinin yerində qala və şəhər; Kapaqa (Qəbələ) - vilayət və şəhər; Aqven (Alven, ehtimal ki, antik müəlliflərdəki Albana); Baqasakan - vilayət və şəhər (Mil düzü, Beyləqan şəhəri); Şake, Dərbənd-şəhər-qala[55].

Gevondun (VIII əsr) «Xəlifələrin tarixi» əsərində Baqasan çölünün (Dəşti-Beyləqan), Dərbəndin, Maskutlar məmləkətinin (Quba rayonu), Aşti-Baquan (Bakı odları), Spatar-Peroz, Hürmüz-Peroz vilayətlərinin adları çəkilir. Gevond Kürün

şimal tərəfində Xecar (Ucar), Kaqa (Qala), Ostani-Mərzpanyan (Qəbələ), Geqavu (Gelavu-Kalva), Şəki, Xeni (Göynük), Xozmas (Xaçmaz; keçmiş Vartaşen, indiki Oğuz rayonunda) kənd və qala[56] yer adlarını qeyd edir.

Şirvanın adları çəkilən şəhərləri Şirvanşahlar dövlətinin mühüm inzibati və siyasi mərkəzləri idi. Orta əsr ərəb və fars mənbələri Şirvan şəhərlərinin qədimliyini və müxtəlif köçəri tayfaların şimaldan Sasanilər İranının və sonralar Xilafətin zəngin vilayətlərinə talançı basqınlarının qarşısında sipər olan bu vilayətin mühüm iqtisadi və siyasi əhəmiyyətini qeyd etmişlər.

Şirvanın əhalisi ta qədimdən sıx olmuşdur. Onun ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində burada Mezolit (Qobustan), Tunc dövrlərinə və erkən orta əsrlərə aid inkişaf etmiş təsərrüfat həyatına malik bir sıra məskənlər aşkara çıxarılmışdır. Bu bölgədə məskunlaşmış qədim tayfalar maldarlıqla, əkinçiliklə, balıqçılıqla və müxtəlif sənət növləri ilə məşğul olurdular. Bu tayfalar qonşu Qafqaz və Şərq əhalisi ilə iqtisadi və mədəni əlaqə saxlayırdılar. Məhsuldar qüvvələrin və mübadilənin inkişafı ibtidai icma münasibətlərinin dağılmasına, tayfa daxilində mülki bərabərsizliyin inkişaf etməsinə, siniflərin yaranmağa başlamasına səbəb oldu. Eramızın ilk əsrlərində erkən feodal münasibətlərinin meydana gəlməsi üçün zəmin yarandı. Bu münasibətlərin sonrakı inkişafı erkən orta əsr şəhərlərinin yaranmasına gətirib çıxardı. Azərbaycanda belə şəhərlər, başlıca olaraq, hücum qorxusu və hərbi təhlükə ilə əlaqədar müdafiə bürcləri olan qala divarları ilə əhatə edilmiş qədim məskən yerlərində meydana gəlirdi. Həmin şəhərlər vilayətlərin inzibati və siyasi mərkəzləri idi. Bəzi şəhərlər möhkəmləndirilmiş düşərgələrdən yaranır, bəziləri isə təbii sərvətlərin (mis və dəmir filizi, neft, duz və digər faydalı qazıntılar) istismarı ilə əlaqədar salınırdı. Məlumdur ki, sosial-iqtisadi kateqoriya kimi orta əsrlər feodal şəhərinin meydana gəlməsində həlledici amil məhsuldar qüvvələrin (sənətkarlıq) və ticarətin inkişafıdır. Erkən orta əsr Şirvan şəhəri kənd mühiti - əkinçilik və bostançılıqla bağlı idi. Mənbələrdə Şirvanın şəhərləri haqqında olduqca dağınıq və cüzi məlumat verilir, onların arxeoloji tədqiqi isə hələlik kafi deyildir. Ona görə də bu şəhərlərin yaranması və inkişafı məsələsi gələcək arxeoloji kəşflərlə bağlı olan öyrənilməmiş problem olaraq qalır.

Sasanilər dövründə Şirvanda erkən orta əsr şəhərlərinin intensiv surətdə yaranması və inkişafı qeyd edilir. Pəhləvi və ərəb mənbələri (İbn Xordadbehin «Şəhristan hayi-İran» əsəri, Qudama, Bəlazuri, İbn Havqəl və b.) mövcud Şirvan və Azərbaycan şəhərlərinin möhkəmləndirilməsindən, İranın Sasani hökmdarlarının yeni şəhərlər saldırmasından xəbər verirlər. Belə ki, Qəbələ, Beyləqan və Bərdənin salınmasını I Qubadın (488-531-ci illər), Şəbəran, Kərkər*, Bab əl-Əbvab və Məsqət şəhərlərinin salınmasını isə Ənuşirəvanın (531-579-cu

* Yaqut Həməvinin verdiyi məlumata görə, Kərkər şəhəri Beyləqan yaxınlığında olmuşdur və onu Ənuşirəvan saldırmışdır.

illər) adına çıxırlar[57]. Lakin məlumdur ki, Azərbaycanın bir sıra şəhərləri V-VI əsrlərdən xeyli əvvəl mövcud olmuşdur.

Şirvanın ən qədim şəhərlərindən biri ən azı eramızın 1-ci əsrindən başlayaraq, paytaxtın VI əsrdə Partava (Bərdəyə) köçürülməsinə qədər Qafqaz Albaniyasının əsas şəhəri olan Qəbələdir. Qəbələ Böyük Plinidə (23-79-cu illər xatırlanan Kabalaka (Cabalaca)[58] və Ptolemeydə (70-147-ci illər) adı çəkilən «Alban və Kaysi (Alazan və Samur-S.A.) çayları arasındakı»[59] Xabala (Chabala) hesab olunur. Onun adı VII əsrdə Movses Kalankatlıda Kavalaka[60], «Erməni coğrafiyası»nda Kavaqak (Kavalak) və Ostani-Mərzpan[61] kimi çəkilir. VIII əsrdə Gevond Kaqadan (Qala) - Ostani Mərzpanyandan (mərzbanların iqamətgahı) danışır[62] ki, bu da Qəbələyə uyğun gəlir. 1959-cu ildən bu günədək möhtəşəm qala divarlarının xarabaları qalan Çuxur Qəbələ kəndinin [Azərbaycan Respublikasının keçmiş Qutqaşen (indiki Qəbələ) rayonu] həndəvərində aparılan arxeoloji qazıntılar nəticəsində antik dövrə aid qədim Qəbələ şəhər yeri aşkara çıxarılmışdır. Qəbələnin xarabalıqları orta əsrlər şəhər yerindən 2 km cənub-şərqdə, Çuxur Qəbələ kəndinin yaxınlığında, Qafqaz dağlarının ətəklərində, Qaraçay və Covurluçay arasındakı geniş təpədədir. Hər tərəfdən qala divarları və bürclərlə əhatə olunmuş iki böyük hissədən - Səlbir və yerli əhalinin Govurqala adlandırdığı Qaladan ibarətdir. Onlardan şərqdə, Covurluçayla, Qoçalançay arasındakı geniş düzənlikdə məbəd yeri nekropolu və tikinti qalıqları vardır. Qəbələnin ətrafı meşə və vadilərlə zəngindir. Şəhər onu əhatə edən dağ kəndləri ilə yaxşı müdafiə olunurdu. Ən yaxın keçidlər olan Savalanda və Alvanda (yaxud Ağvanda) istehkamlar və bürclər tikilmişdi. Səlbirin qala divarları, dördkünc və yarımdairəvi bürcləri daha çox dağılmışdır. Divarlardakı və bürclərdəki mazğallar düzbucaqlı formasındadır. Şimal və qərb hissələrdə darvaza yerlərinin qalıqları durur. Səlbirin ərazisindən, ümumiyyətlə, bütün şəhəri dövrələyən dərin xəndəklə ayrılan Qala hissəsində divarlar, bürc və darvaza yerləri daha yaxşı qalmışdır. Qalanın cənub tərəfində hündürlüyü təxminən 7-8 m, diametri 5-6 m olan dairəvi və yarımdairəvi bürclər vardır. Hücum təhlükəsi zamanı xəndək su ilə doldurulurdu. Divarlar və bürclər çiy kərpicdən, çaydaşlarından və əhəng məhlulundan istifadə edilməklə bişmiş kərpicdən hörülmüşdür. Şəhər istehkamlarının bünövrəsinin qoyulmasında iri yonulmuş yerli tuf daşlarından istifadə olunmuşdur[63].

Qəbələnin şəhər yerində və antik dövrə aid qəbiristanında aparılan arxeoloji qazıntı işləri nəticəsində şəhər yerinin ən alt təbəqəsinin eramızdan əvvəl III minilliyin ikinci yarısına (erkən Tunc dövrü) aidliyi aşkar edilmişdir. Həmin təbəqədə itilənmiş dəvəgözü daşı, çaxmaq daşı və dəvəgözü daşı qırıntıları, keramika məmulatı parçaları və s. materiallar tapılmışdır. Bu təbəqədən üstdə antik dövr təbəqələri gəlir. Onlarda alt təbəqəsi eramızdan əvvəl IV-III əsrlərə aid olunan üç tikinti dövrü ayırd edilir. Burada təsərrüfat oyuqları, bəzi novşəkilli kirəmitlər, yastı kirəmit parçaları, müxtəlif gil qablar, bəzək şeyləri, habelə möhür-bəndli fərman tapılmışdır[64]. Yuxarı təbəqə numizmatik tapıntılara [Makedoniyalı

İsgəndərin (e. ə. 336-323-cü illər) draxma və tetradraxmalarına oxşatma olan yerli sikkələr, Parfiya hökmdarı III Fraatın (e.ə. təqribən 70-58-ci illər) draxmaları] və digər materiallara əsasən e. ə. II-I əsrin ikinci yarısına aid edilir. Bu təbəqədə daş divar bünövrələri, yastı və novşəkilli dam örtüyü kirəmitləri, çoxlu miqdarda gil qab qırıqları, bəzək əşyaları, gildən qayırılmış insan və heyvan fiqurları, habelə möhürbəndlərində istər Şərq, istərsə də antik gemmaları üçün səciyyəvi süjetlər olan fərmanlar aşkar edilmişdir[65]. Tədqiqatçıların fikrincə, Makedoniyalı İsgəndərin tetradraxmalarına oxşatma sikkələr e. ə. II əsrdə Qəbələ sikkəxanasında zərb olunurdu[66].

Qazıntının e. ə. I - eramızın I əsrinə aid edilən üst təbəqəsində qazıntı sahəsinin hüdudlarından belə kənara çıxan (qazıntının sahəsi 1100 kv. metrə çatdırılmışdır), böyük bina kompleksinin xarabalıqları aşkar edilmişdir. Binanın 2,1 m qalınlıqları olan divarları çiy kərpicdən hörülmüşdür, döşəməsi də çiy kərpicdəndir. Binanın damı iri yastı və ikiçatlı kirəmitlə örtülmüşdü. Bina şərq və qərb hissələrindən ibarətdir. Giriş qapıları cənubdan və şərqdəndir. Bütün qazıntı sahəsində yanğın izləri nəzərə çarpır. Sahəsi 56, 87, 118 kv. m. olan üç zal və bir neçə xırda otaq ayırd edilmişdir. Böyük otaqların hər birinin ortasında iki ağac sütun üçün daş sütunaltı qalmışdır. Binanın şərq və cənub tərəflərindəki 2 m enində dəhlizlərdən başqa otaqlara keçid vardır. Otaqlarda az miqdarda gil qab qırıntıları tapılmışdır. Yalnız kompleksin qərb hissəsindəki balaca otaqlarda saman külü, yanmış buğda və arpa sünbülləri qalmışdır[67]. Tədqiqatçıların fikrincə, aşkar edilmiş kompleks e. ə. I - eramızın I əsrinə aid ictimai-inzibati bina olub, Qafqaz Albaniyası ərazisində bu qəbil tikililərin nadir abidəsidir. Bizcə, həmin kompleks İranda-Parfiya padşahlığı və Sasanilər dövründə mövcud olmuş od məbədlərindəndir.

Sütunlu zalların və bir neçə kiçik otağın, habelə dolama dəhlizlərin mövcudluğu[68] həmin binanın Zərdüştiliyin oda sitayiş kultu ilə bağlı ictimai-dini ayinlərin icrası üçün nəzərdə tutulduğunu ehtimal etməyə imkan verir. Bunu həmin ərazidən tapılan məbəd təsviri, od mehrabı və ibadət səhnələri həkk olunmuş daşlarla bəzədilmiş gümüş üzük də təsdiq edir[69].

V əsrdə yepiskopun iqamətgahı Qəbələdə yerləşirdi. Movses Kalankatlı 488-ci ildə Aluen şəhərində çağırılmış məclisdə qəbul edilmiş kanonik qanunların altındakı imzalardan danışarkən hökmdar Vaçaqandan və Partav arxiyepiskopundan sonra Qəbələ (Kapala) yepiskopu Manasenin imzasının durduğunu bildirir. Həmin müəllif VII əsrdə xalkedonit katolikos Nerseslə əlaqədar hadisələrdən bəhs edərkən ondan ayrılmış Kapalak yepiskopu İoannın adını çəkir. Məclis iştirakçılarının imzaları arasında da Albaniya katolikosundan sonra ikinci yerdə həmin Kapalak katolikosu İoannın imzası dururdu[70].

I-V əsrlərdə Qəbələ alban Arşakiləri sülaləsi hökmdarlarının iqamətgahı idi. Lakin V əsrlərdən o, Sasanilərin təyin etdikləri mərzbanların iqamətgahına çevrildi. VI əsrdə xəzərlərin basqınları ilə əlaqədar mərzbanların iqamətgahı

Partava köçürüldü. Qəbələ 737-ci ildə ərəblər tərəfindən işğal edilənədək Xəzər torpaqlarının tərkibinə daxil idi[71]. Covurluçay və Qoçalançay çayları arasındakı ərazidə aparılan arxeoloji işlər nəticəsində məbədlər və ticarət şəhərinin qalıqları aşkara çıxarılmışdır.

Qəbələ şəhər yerinin xarabalıqlarında və onun ətrafında I əsrə aid xeyli miqdarda Arşaki və Roma sikkələri, III əsrə aid 200-dən çox Sasani sikkəsi və digər sikkələr tapılmışdır. Qəbələdən, həmçinin, Böyük İsgəndərin və Parfiya padşahı III Fraatın draxmalarına oxşatma olan yerli sikkələr tapılmışdır ki, bu da e. ə. I əsrdə və eramızın əvvəllərində bir sıra ölkələrlə qızğın ticarət getdiyini göstərir[72]. Alvan (ehtimal ki, Alban) və Savalan keçidlərindən keçən ticarət yolları Qəbələni cənub-şərq və cənubla bağlayırdı. Həmin ticarət yolu elçi yolu adlanırdı. Ticarət yolları Qəbələni Gürcüstan vasitəsilə Qərblə, Atropatena vasitəsilə İranla və Böyük Qafqaz vasitəsilə Şimalla əlaqələndirirdi[73]. Qəbələ ticarət əhəmiyyətini VIII-IX əsrlərdə də itirməmişdi. Arxeoloji qazıntı materialları göstərir ki, Qəbələdə şəhər həyatı I əsrdən başlayaraq XVIII əsrədək davam etmişdir. Binalar daşdan, çiy və bişmiş kərpicdən tikilir, bayırdan və içəridən bəzən üstü mina ilə örtülmüş gildən hazırlanan relyefli həndəsi ornamentlərlə bəzədilirdi. VIII-IX əsrlər mədəni təbəqəsində tikintidə, ehtimal ki, evlərin damını örtməkdə istifadə olunan qır parçalarına təsadüf olunur. Göründüyü kimi, neft Bakıdan gətirilirdi. Şəhərə su Qəbələnin 5-6 kilometrliyindəki bulaqlardan, kəhrizlərdən gil boru-tünklər vasitəsilə gətirilirdi. Şəhərin həndəvərində dulus kürələri aşkara çıxarılmışdır. VII əsrə qədərki külli miqdarda müxtəlif saxsı qab və VIII əsrdən etibarən qab qırıqlarının tapılması burada dulusçuluğun inkişafından xəbər verir. Şirli qablar müxtəlif ornamentlərlə, bitki, heyvan və insan təsvirləri ilə bəzədilirdi[74] ki, bu da ornamentçi rəssamların mövcud olduğunu göstərir. VII əsrdə Qəbələdə hazırlanan gil məmulatlar arasında üzərində neft izləri olan çıraqlar, qırmızı gildən sferokonuslar aşkar edilmişdir. VIII-IX əsrlərə aid mədəni təbəqədə şüşə məmulatları, muncuq, qolbağ, üzük və s., habelə qızıl, gümüş, bürünc və sədəfdən yüksək sənətkarlıqla hazırlanmış bəzək əşyaları tapılmışdır. Qəbələdə şüşə məmulatı istehsalı I əsrdən məlumdur. Qəbələdəki I-IV əsrlərə aid küp, torpaq, daş qutu, V-VII əsrlərə aid katakomba qəbirlərdə deformasiyaya uğramış uzunsov kəllələr tapılmışdır ki, S. M. Qaziyev onları şimaldan gəlmə qəbilə və tayfalara aid edir[75]. Buna bənzər adət hunlarda və xəzərlərdə məlumdur. Aparılan arxeoloji işlər nəticəsində toplanan materiallar Plininin «Albaniyanın əsas şəhəri»[76] adlandırdığı Qəbələdə antik dövrdə və orta əsrlərdə intensiv şəhər həyatının mövcud olduğunu göstərir.

Şirvanın qədim şəhərlərindən biri Bakıdır. Müasir Bakının yerləşdiyi Abşeron yarımadası ta qədim zamanlardan məskunlaşmışdı. Bunu Bakının 50 km cənub-qərbindəki Qobustanın qaya təsvirləri də sübut edir. Onların ən qədimləri daş dövrünə - Mezolitə (təqribən 10 min il bundan əvvəl) aiddir[77]. Bakı zonasının qədimdən məskunlaşdığını Abşeronun materiki Pirallahı adası ilə birləşdirən

damba tikilmiş sahilboyu rayonunun bir sıra kənd yerlərində, Gürgan şəhər yeri, Zığ gölü, Şüvəlan, Mərdəkan, Binəqədi, Əmircan qəsəbələri rayonlarında, Qala kəndi yaxınlığında aşkara çıxarılmış Tunc dövrünə (e. ə. III-I minilliklər) və daha erkən dövrlərə aid çoxlu arxeoloji materiallar da təsdiq edir, Qobustandakı Böyükdaş dağının ətəklərindəki eramızın I əsrinə aid kitabə Roma qoşununun Bakı yaxınlığında olduğunu və burada düşərgə saldığını göstərir[78]. Roma legionunun burada yerləşməsi onun yaxınlığında iri yaşayış məntəqəsinin mövcudluğuna dəlalət edir. O dövrdə belə bir yer Bakı ola bilərdi. Təpəlikdə yerləşən köhnə Bakı qəbiristanlığında (Murtuza Muxtarov, Ə. Qarayev, Qasım İsmayılov və Nizami küçələri arasındakı ərazi) aşkara çıxarılmış arxaik (torpaq) qəbirlər haqqında məlumatlar[79] göstərir ki, onun yaxınlığında, sonralar orta əsr Bakısının salındığı təpədə qədim yaşayış məskəni olmuşdur. Həmin qəbiristanlığa bilavasitə yaxın olan köhnə Bakı qalası ərazisi eramızdan bir çox əsr əvvəllərdən məskunlaşmışdı. Bunu Şirvanşahlar sarayı ərazisindəki qayada və sarayın zirzəmilərində su, qurban kəsilən heyvanların qanının yığılması üçün oyulmuş dairəvi və dördkünc formalı kasavarı çalalar da təsdiq edir. Sarayın yuxarı həyətində aparılan arxeoloji qazıntılar zamanı e. ə. III-I əsrlərə aid edilən kuzə tapılmışdır[80].

Yazılı mənbələr erkən orta əsrlərdə Bakının yerində, yaxud buxtanın içərisində yaşayış məskəni və şəhər olduğunu ehtimal etməyə imkan verir. Bakının coğrafi mövqeyi, ehtimal ki, II əsr antik müəllifi Klavdi Ptolemeyin qeyd etdiyi Baruka şəhərinin coğrafi mövqeyi ilə üst-üstə düşür[81]. Bakı bölgəsindəki sitayiş obyekti olan yanar qaz məbədləri məskənlərin yarandıqları mərkəzlər ola bilərdi. Sonralar onlardan ən əhəmiyyətlisi orta əsr şəhəri kimi böyüdü. VII əsr məxəzində Kür zonasında neft və duz çıxarılmasından[82] xəbər verilir ki, bu da, şübhəsiz, Bakıya və Abşerona aiddir. Bakı ta qədimlərdən əhalini özünə cəlb edən neft və duz kimi iqtisadi bazaya malik idi. Neft çıxarılması bu təsərrüfat sahəsi ilə bağlı olan bir sıra sənətlərin inkişafını tələb edirdi. Əvvəllər məişət ehtiyaclarına sərf olunan neft tədricən ixracat məhsuluna çevrildi. VII əsrin birinci yarısında neft Qəbələyə[83], Dərbənd və başqa şəhərlərə[84] aparılırdı. Hasil olunan neft və duzun istər karvan, istərsə də dəniz yolu ilə İrana və müxtəlif Şərq ölkələrinə ixracı, sənətkarlığın və ticarətin inkişafı Bakının şəhər kimi böyüməsinin başlıca səbəbləri idi. E. ə. VI-IV minilliklərdə Bakı bölgəsində gəmiçiliyin mövcud olmasını Qobustandakı Neolit və Eneolit dövrlərinə aid avar çəkən adamlar oturmuş qayıq təsvirləri də təsdiq edir[85].

Orta əsrlər Bakısı haqqında VIII-IX əsrlər ərəb və fars tarixçi və coğrafiyaşünasları məlumat vermişlər. Bəlazuri xəlifə Mənsurun hakimiyyəti dövründə - h. 136-158 (754-775-ci illər) - Şirvanda neft və duz istehsalından, neft quyularının və duz mədənlərinin sahiblərindən vergi tutulmasından xəbər verir[86]. 733-cü ildə Dərbənddə hərbi texnikada işlədilən neftin saxlanması üçün anbarlar tikilmişdi[87]. Xəlifələr Dərbənd keçidini köçəri şimal tayfalarının hücumlarından qoruyan ərəb qarnizonunun saxlanılmasına Bakının gəlirindən böyük məbləğdə pul

ayırırdılar. Orta əsr müəllifləri Bakıdan bəhs edərkən, adətən, onun adını neft fontanları, Bakı və Abşeron bölgəsində qaz püskürmələri və palçıq vulkanları ilə bağlayırdılar.

Yazılı mənbələrdən əlavə, əlimizdə maddi mədəniyyət abidələri - həm arxeologiya, həm də numizmatika materialları vardır. Bakı təpəsinin üstündə, İçərişəhərdə, Şirvanşahlar sarayı ərazisində və onun ətrafında aparılan arxeoloji qazıntılar zamanı VIII əsrə aid çoxlu miqdarda keramika qırıntıları, bir sıra məişət əşyaları, xeyli təndir, sənətkarlıq məmulatı, VII-VIII əsrlərə aid edilən orta əsr feodal şəhərinin əhalisi sıx olan məhəlləsinin tikililərinin və evlərinin qalıqları aşkara çıxarılmışdır[88].

Qədim qala (İçərişəhər) ərazisindən VIII, IX və sonrakı əsrlərə aid sikkələr tapılmışdır. Bakı bölgəsində tapılmış V-VII əsrlərə aid iki böyük Sasani sikkələri dəfinəsini də qeyd etmək lazımdır[89]. Həmin sikkələrin Bakı ərazisində üzə çıxması erkən orta əsrlərdə burada Azərbaycanın bir sıra şəhərləri ilə və başqa ölkələrlə daxili və xarici ticarətin inkişaf etdiyini göstərir.

Bakıda VIII-IX əsrlərə aid yerüstü memarlıq abidələri qalmamışdır. Lakin İçərişəhərdə aparılan qazıntılar zamanı 6 m dərinlikdə divar hissələri və tikililərin qalıqları, evlərin bünövrələri, təpənin zirvəsindən dənizin sahilinədək bir sahəni tutan orta əsr Azərbaycan şəhərinə məxsus təndiri və su quyusu olan həyətlər aşkara çıxarılmışdır. Bu tikililər, ehtimal ki, daha erkən dövrə aiddir. VIII əsrə aid edilən çoxlu miqdarda keramik qab qırıntıları, sənətkarlıq məmulatı və digər materiallar Bakı qalası sahəsinin öz dövrünə görə inkişaf etmiş təsərrüfata malik, əhalisi sıx olan orta əsr şəhəri ərazisi olmasına dəlalət edir. Bəzi arxeoloji məlumatlar göstərir ki, Bakı və Abşeronun əhalisi ərəb istilasınadək, ehtimal ki, Zərdüştiliyə sitayiş etmişdir[90].

İçərişəhərdə aparılan qazıntılar burada feodalizmə qədərki şəhər, yaxud yaşayış məskəni aşkara çıxarmamışdır. Güman edilə bilər ki, qədim Bakı bir sıra əfsanələrdə[91] işarə vurulduğu kimi, Qız qalasının yaxınlığında, su altında qalmış buxtanın yerində, yaxud Bibiheybət və ya Şıx kəndi rayonunda olmuşdur. Gələcəkdə aparılacaq arxeoloji işlər onun yerini aşkara çıxara bilər.

Baş Qafqaz dağlarının şərq ətəklərində yerləşən Şamaxı Azərbaycanın ən qədim şəhərlərindəndir. Ola bilsin ki, Şamaxı toponimi Favstos Buzandın (V əsr) IV əsrin birinci yarısında baş verən hadisələrlə əlaqədar adını çəkdiyi köçəri ijmax tayfasının adı ilə bağlıdır. Şamaxı bir neçə əsr ərzində Şirvanşahlar dövlətinin paytaxtı olmuşdur. Fars mənbələrinin məlumatına görə o, VI əsrdə Sasani şahı I Xosrov Ənuşirəvan tərəfindən salınmışdır[92]. Lakin e. ə. II əsr yunan müəllifi Ptolemey 29 alban şəhəri içərisində bəzi alimlərin Şamaxı ilə eyniləşdirdikləri Kamexiya, yaxud Mamexiyanın adını çəkir[93]. Son onilliklərdə Şamaxının həndəvərində, müasir Şamaxı şəhərindən 2 km qərbdəki Xınıslı deyilən yerdə 2000 m sahədə aparılan arxeoloji qazıntılar nəticəsində qədim Şamaxı olduğu ehtimal edilən çoxtəbəqəli qədim yaşayış məskəni aşkara çıxarılmışdır. Bu məskən, demək

olar ki, minillik bir dövr ərzində bir neçə dəfə dağılmış və yenidən bərpa olunmuşdur. Dağılmış yerdə qəbiristanlıq əmələ gəlmiş və o, yenidən abadlaşdırılmışdır. Əldə edilmiş materiallar hal-hazırda Xınıslı məskənində dörd əsas tikinti dövrünü ayırd etməyə imkan verir. Birinci dövr e. ə. IV-II əsrləri əhatə edir. Aşkar edilmiş evlər gil palçıqla çay daşından və çapıq daşdan tikilmişdir. Döşəmələr saman qarışdırılmış gil suvaqla suvanmışdır. Bu mədəni təbəqədə əldə qayırılmış, bəzən qırmızı şirlə örtülmüş müxtəlif formalı gil kasalar, bardaqlar, vazalar, manqal hissələri, həmçinin, gildən düzəldilmiş heyvan fiqurları, təkər modelləri, daş həvəngdəstə, kirkirə və digər məişət əşyaları tapılmışdır. Çoxlu miqdarda heyvan sümüklərinin və daşlaşmış buğda dəninin tapılması təsərrüfat həyatından xəbər verir. Qəbir quyularında bir adam dəfn olunmuş, oraya gil qablar və bir sıra digər əşyalar qoyulmuşdur.

E. ə. II - eramızın II əsrlərini əhatə edən ikinci dövrdə antik dövr Şamaxısının səciyyəvi şəhər əlamətləri nəzərə çarpır. Bu təbəqədə daş və çiy kərpicdən inşa edilmiş tikililərin, iri binaların, ola bilsin ki, məbədlərin divar qalıqları, əhəngdaşından yonulmuş sütunların bünövrələri aşkar olunmuşdur. Qırmızı və qara gildən düzəldilmiş çoxlu müxtəlif məmulat, zoomorf qablar, gil insan heykəlcikləri, oyma üsulu ilə maral şəkli həkk olunmuş möhür tapılmışdır. Bir sıra daş alətlər, kobud şəkildə qayırılmış daş heykəllər də bu dövrə aiddir. Dəfn abidələri içərisinə müxtəlif əşyalar qoyulmuş küp və torpaq qəbirlərlə təmsil olunmuşdur ki, bu da həmin məskənin sakinlərinin ideologiyasında dəyişikliklər baş verdiyini göstərir.

Üçüncü dövr eramızın II əsrinin sonu - III əsri əhatə edir. Bu mədəni təbəqədə xeyli bina, divar və ocaq qalıqları aşkar edilmişdir. Sahəsi 14x5 *m* olan binalardan biri gil palçıqla çay daşından və çapıq daşdan tikilmişdir. İçəridən divarlara saman suvaq çəkilmişdir. Döşəmə torpaqla, qismən daşla örtülmüşdür. Bina yanğından məhv olmuşdur. Aşkar olunmuş gil səhənglərdən yanıb kömürə dönmüş qoz, zeytun, buğda və arpa dənləri tapılmışdır. Binanın şimal hissəsindəki otaqda kürə olmuşdur. Mədəni təbəqədə külli miqdarda müxtəlif formalı boz və çəhrayı rəngli gil kasalar, bardaqlar, süd qabı, parç, boşqab və s. tapılmışdır. Onlardan bəziləri dulus çarxında hazırlanmışdır. Mədəni təbəqədən tapılmış materiallar son dövr küp qəbirlərindən və eləcə də torpaq qəbirlərdən tapılmış əşyalara uyğun gəlir. Təqribən eramızın III əsrinin sonunda məskənin əhalisi onu tərk edərək başqa yerə, ehtimal ki, qərb tərəfə, müasir Şamaxı şəhərinin 300-400 metrliyinə köçmüşlər. Yerüstü abidələr erkən orta əsrlərə aiddir.

Eramızın IV-V əsrlərinə aid olan sonuncu - dördüncü dövr üçün yalnız dəfn abidələri - IV əsr küp və torpaq qəbirləri və IV-VII əsrlərə aid daş qutu qəbirlər səciyyəvidir. Xınıslıda xristian qəbirləri aşkar edilməmişdir. Dəfn mərasimindəki dəyişiklikləri əhalinin həyatında baş verən müxtəlif siyasi hadisələr, ideologiyadakı dəyişikliklər, Sasanilərin Zərdüştiliyi yayması və onların yerli əhalinin dini görüşlərinə qarşı mübarizəsi ilə izah etmək mümkündür. Qəbirlərdə yanğın izlərinə

rast gəlinir. Məskənin ərazisindən e. ə. IV əsrdən 70-57-ci illərə aid 300-dən çox antik sikkə, eləcə də, e. ə. I əsrə aid yerli zərb sayılan Selevki və Makedoniya draxmalarına oxşatma sikkələr tapılmışdır[94].

Qədim Şamaxı məskəni xarabalıqlarından və qəbirlərdən başqa maddi mədəniyyət qalıqları ilə yanaşı, yerli ustaların əməyinin məhsulu sayılan müəyyən miqdarda şüşə məmulatı, qab və bəzək şeyləri də aşkar olunmuşdur. Xammal kimi, ehtimal ki, Abşerondakı Xırdalan qumundan istifadə edilmişdir. Burada şüşə istehsalı eramızın ilk əsrlərinə aiddir[95]. Göstərilən materiallar qədim Şamaxı məskəninin beynəlxalq ticarət yolunda mühüm iqtisadi mərkəzlərdən biri olduğunu ehtimal etməyə imkan verir. Xınıslıda aparılan arxeoloji qazıntılar zamanı bir sıra gətirilmə əşyalar: minalı Roma toqqaları, şüşə qablar, bəzək şeyləri, möhürlər, Sasani gümüş qabları, sikkələri və i. a. tapılmışdır ki, bu da bir sıra Avropa və Şərq ölkələri ilə iqtisadi əlaqə saxlanıldığını göstərir. Şamaxı yaxınlığından qızıl sikkə* ilə birlikdə, ehtimal ki, Roma dövründə bura gətirilmiş eramızın II-III əsrlərinə aid nadir sənət nümunəsi, üzərində yunan mifologiyası səhnəsi - dənizatı üstündə oturmuş Nereidanın təsviri həkk olunmuş gümüş nimçə tapılması da bu əlaqələrin mövcudluğunu bir daha təsdiq edir[96].

Xınıslı yaşayış məskəni VII-VIII əsrlərdə ya ərəblərin hücumu, yaxud da dağıdıcı zəlzələ nəticəsində süquta uğramışdı[97]. Onu tərk edən əhali yeni əraziyə - Gülüstan qalasına və ondan şimal-qərbə - xarabalıqları qalmış Binə-Şirvan tərəflərə köçmüşlər.

Şamaxıda kəsilmiş ilk sikkə VIII əsrə aiddir. Bu, h. 140 (757/8)-cı ildə xəlifə əl-Mənsurun (754-775-ci illər) hakimiyyəti dövründə əl-Yəzidiyyədə zərb olunmuş ərəb mis sikkəsi fəlsdir. Sikkənin üzərindəki yazıda deyilir: «Bu fəls allahın şərəfinə yüz qırxıncı ildə əl-Yəzidiyyədə vurulmuşdur»[98]. Əl-Yəzidiyyədə h. 149 (766)-cu və h. 150 (767)-ci illərdə zərb olunmuş fəlslər də vardır"[99].

Yaqutun verdiyi məlumata görə, «əl-Yəzidiyyə Şirvan vilayətində şəhər adıdır. Qədim zamanlarda o, Şamaxı kimi də tanınmışdı[100]. «Dərbəndnamə»də Yəzidiyyəni Ərminiyyənin ərəb canişini Yəzid ibn Usaydın saldırdığı göstərilir[101]. Yəzid ibn Usaydın hakimiyyət illəri əl-Yəzidiyyədə kəsilmiş sikkələrin tarixinə uyğun gəlir[102]. Y. A. Paxomov və H. Ə. Çiddinin[103] fərziyyəsinə görə, bu şəhər Gülüstan qalasının xarabalıqlarının həndəvərində, indiki Şamaxının 15 kilometrliyində olmuşdur. Göründüyü kimi, əvvəllər Xınıslıda yaşayan əhali buraya gəlmişdir.

---

* Sikkə tapılan kimi itdiyindən, müəyyənləşdirilə bilinməmişdir. Şamaxı şəhəri ərazisində son vaxtlar əldə edilmiş antik dövrə, e. ə. IV-III əsrlərə aid arxeoloji tapıntılar şərh olunan nöqteyi-nəzəri şübhə altına alır və qədim Şamaxı ilə Xınıslının eyniyyətinə yeni işıq salır. Antik dövrə aid materialların diqqətlə öyrənilməsi, ola bilər, Şamaxı şəhərinin salınma tarixinə yenidən baxmağa vadar etsin. Həmin materiallar 1917-ci ildə Şamaxının Şəhidlər məhəlləsindəki pirin yaxınlığında islamaqədərki daş qutu qəbirlər tapıldığına dair yerli camaatın verdiyi məlumatı təsdiq edir. Skeletin yanında xəncər, bəzək şeyləri, keramika və digər əşyalar olmuşdur.

Orta əsrlərdə Şirvanın tərkibinə daxil olan ən qədim şəhərlərdən biri də Dərbənd idi. O, iri iqtisadi mərkəz, Şimali Qafqazı Cənubi Qafqaza və Yaxın Şərq ölkələri ilə bağlayan qovşaq məntəqəsi idi. Dərbənd mühüm strateji əhəmiyyətə malik idi. E. ə. VIII-VI əsrlərdə burada artıq müdafiə istehkamları mövcud olmuşdur[104]. Sonralar, Sasani hökmdarlarının hakimiyyəti dövründə köçəri şimal tayfalarının hücumlarının güclənməsi ilə əlaqədar burada nəhəng müdafiə qurğuları tikildi. V əsrdə Dərbənd Şərqi Qafqazın iri sənaye və iqtisadi mərkəzi, Sasanilər dövlətinin tərkibinə daxil olan (461-ci ildən sonra) canişinliklərdən birinin paytaxtı idi. Erməni tarixçiləri və alban salnaməsi «Alban tarixi» Sasanilərin Şərqi Qafqazdakı ən nəhəng tikinti abidələrindən birinin-Dərbənddən 25 *km* cənubda, Torpaqqala şəhər xarabalığının yerində lokallaşdırılan, ətrafında bürcləri və darvazaları olan iri qala divarlarının qalıqları qalmış, Çoğa, Çor, Çol şəhərinin də adını çəkirlər. Bu şəhər yerini qısaca təsvir edən Dağıstan arxeoloqu M. İsakov onun orta hissəsindəki binaların cərgələrlə tikilməsinə diqqət yetirmişdir. O, aşkar olunmuş çoxlu qalın və nazik keramika qırıqlarını eramızdan əvvəlki son əsrlərə və eramızın ilk əsrlərinə aid edir. M. İsakovun fikrincə, bu xarabalıqlar Ptolemeyin Kaysiya və Alban çaylarının mənsəbləri arasında qeyd etdiyi[105] Albana şəhərinin qalıqlarıdır. K.V.Treverə görə, VII əsrdə şəhərin əsas əhalisi xristian albanlardan ibarət olmuşdur. Çor eramızın əvvəllərində Massaget hökmdarlığının paytaxtı idi. V-VI əsrin ortalarında o, Qafqazda xristianlığın mərkəzlərindən biri olmuşdur. Yepiskopluq burada yerləşirdi. VI əsrin ortalarında xəzərlərin hücumları ilə əlaqədar yepiskopluq Partav şəhərinə köçürüldü. Sonralar, Dərbəndin möhkəmlənməsi və bölünməsi ilə bağlı Çoğa tənəzzülə uğrayır və adını tamamilə itirərək, Dərbəndlə əvəz olunur. VII-IX əsrlərdə o, Xəzəryanı ticarətin inkişafı ilə əlaqədar Xəzər dənizi sahilində ən böyük şəhərə və limana çevrildi. Ətraf kəndlərdə yetişdirilən taxıl və boyaqotu bir sıra ölkələrə, Hindistana qədər belə aparılırdı. Dərbənd özünün toxuculuq məmulatı, xüsusilə bir sıra ölkələrə ixrac olunan kətan paltarları ilə şöhrət qazanmışdı. Şirvanın başqa şəhərlərində olduğu kimi burada da müxtəlif sənətkarlıq sahələri - dulusçuluq, dəmirçilik, tökmə, zərgərlik, bənnalıq və s. yüksək səviyyəyə çatmışdı. Bağçılıq və üzümçülük inkişaf etmişdi. VII-IX əsrin əvvəllərində Yaxın Şərq ölkələrini Cənub-Şərqi Avropa, Aşağı Volqaboyu və Şimali Qafqazla birləşdirən ticarət yolları Xəzər dənizi hövzəsinə keçdi. Volqadan, yaxud Xəzəryanı ölkələrdən gələn gəmilərin dayanması üçün reydi olan Dərbənd Xəzər dənizində mühüm limana çevrildi. Limana giriş dənizin içərilərinədək uzanan iki paralel divar arasında çəkilmiş zəncirlə bağlanmışdı. Limana gəmilər yalnız şəhər hakimiyyət dairələrinin icazəsi ilə daxil olurdu[106].

Xaçmataki, Xozmas toponimi, ehtimal ki, Oğuz (keçmiş Vartaşen) rayonunda, yaxınlığındakı Qaladağın zirvəsində Govurqala adlandırılan əlçatmaz Xaçmaz qalasının yerləşdiyi indiki Xaçmaz kəndi ilə lokallaşır. Govurqala adı onun islamdan əvvəl tikildiyini göstərir ki, bunu mənbələr və aşkar olunmuş

arxeoloji materiallar, adi, cilalanmamış və şirli saxsı qab qırıqları da təsdiq edir. Xaçmaz qalası VII-XVI əsrlərdə mövcud olmuşdur[107]. Dəmiryol stansiyasının yaxınlığındakı şəhərin də adı Xaçmazdır. Burada içərisində skelet və əşyalar tapılmış Tunc dövrünə aid qəbirlər aşkar edilmişdir[108]. Yəqin ki, bu yer uzaq keçmişlərdə erkən orta əsr mənbələrinin yaşayış məntəqəsi, yaxud şəhər kimi qeyd etdikləri qədim məskən olmuşdur. Göründüyü kimi, Abşeron yarımadası ilə Dərbənd arasındakı sahilboyu yerlər tunc dövründə, yəni eramızdan iki min il əvvəl belə səviyyəsi tez-tez dəyişən dənizin altında qalmamış və daha qədim zamanlarda məskunlaşmışdı. Şirvanın bu zonasında mühüm məskənlər, şəhərlər mövcud olmuş və müxtəlif tayfalar (skiflər, maskut-alanlar, türklər və b.) həmin yolla şimaldan Azərbaycana, İrana və Ön Şərqin digər ölkələrinə girmişlər.

Şirvanın qədim şəhərlərindən biri IX-X əsrlər ərəb müəlliflərinin qeyd etdikləri Şəbəran şəhəri idi. Ptolemeydə (II əsr) bu şəhərin adı Sapothrenae kimi çəkilir[109]. Onun qalıqları Dəvəçi rayonunun Şahnəzərli kəndinin yaxınlığındadır. Burada şumlama zamanı gil və saxsı qab qırıqları, Sasanilər dövrünə aid kərpiclər, təknə qəbirlər və erkən orta əsrlər şəhərinə məxsus digər maddi mədəniyyət əşyaları üzə çıxır.

Şəbəran qalası müasir Qubadan cənuba doğru axan eyniadlı çayın üstündə idi[110]. Şəhər yerinin arxeoloji tədqiqi bu qədim şəhərin erkən dövr həyatı haqqında bir söz deməyə imkan vermir. S. T. Yeremyanın fikrincə, Şəbəran şəhəri erkən orta əsrlərdə Şərvan vilayətinin mərkəzi və massaget Arşakilərinin siyasi mərkəzi olmuşdur[111].

Mənbələrdə Şəbəranın yaxınlığında eramızın əvvəlində eyniadlı vilayətin mərkəzi olan Şərvan, yaxud Şirvan şəhərinin adı çəkilir[112]. Bəlkə də, bu şəhərin xarabalıqları Şamaxının 4-5 kilometrliyində olub, Binə-Şirvan adlanır[113].

Şirvanın əhalisi hələ eramızın əvvəlində çox sıx olmuşdur. Burada çoxlu yaşayış məskəni və şəhərlər var idi. Onların bir çoxu qalmamışdır. Son onilliklərdə aparılan arxeoloji işlər nəticəsində Şirvan bölgəsində Şamaxı yaxınlığındakı küp qəbirlər mədəniyyətinə aid şəhər yeri, Şamaxıdan 1 km şimalda Kür-Araz mədəniyyətinə aid Pirdirəyi məskəni, İsmayıllı rayonunun Mollaisaqlı kəndində antik dövrə aid zəngin abidələr, Muğanda, Qusar və Dəvəçi rayonlarında erkən orta əsrlərə aid bir sıra şəhər yerləri aşkar edilmişdir. Bütün bunlar qədim dövrlərdə və erkən orta əsrlərdə həmin yerlərdə və bütünlüklə Şirvan vilayətində məhsuldar qüvvələrin, maddi mədəniyyətin yüksək səviyyəsini, şəhər həyatının inkişafını təsdiq edir.

## § 4. Erkən Şirvanşahlar və Şirvanın ərəblər tərəfindən istila edilməsi

Ərəb istilasına qədərki erkən Şirvanşahlar haqqında məlumatımız yoxdur. Rəşidəddin (1247-1318-ci illər) «Məkatibat»ında oğlu Əli üçün nişanladığı Şirvanşahın qızı haqqında danışarkən göstərirdi ki, Şirvanşahlar Dərbənd hökmdarları nəslindən olan qədim xanədandır. «[Artıq] iki min ilə yaxındır ki, sultan taxtı onların nəslinə məxsusdur...»[1]. Onun hesablamasına görə Şirvanşahlar hələ Əhəmənilər dövründən hakimiyyət sürmüşlər.

Rəşidəddinin müasiri olan digər müəllif Kəmal əd-Din ibn əl-Füvati Şirvanşah III Fəribürz ibn Gərşəsbdən bəhs edərkən göstərirdi ki, o, «qədim xanədan nəslindəndir. Onların nəsli Bəhram Çubindən[*] başlayır. Onların Şirvan və Şamaxı məmləkətinə sahib olduqları vaxtdan iki min ildən çox keçir. Onlar Xosrovların [Sasanilərin] sərkərdəsi [kand əl-əsakir] Bəhram Çubinin nəslindəndirlər...»[3]

Şirvanşahlar haqqında dürüst məlumata IX-X əsrlər ərəb müəlliflərində rast gəlirik. Şirvanşahların hakimiyyətinin ilk dövrunə dair ətraflı məlumatı ayrı-ayrı parçaları Münəccimbaşının (XVII əsr) əsərində gəlib çatmış «Tarix əl-Bab»dan öyrənirik.[4].

V. F. Minorski «Şirvan və Dərbəndin tarixi»nin, ingiliscə mətnində Şirvanşahların dörd sülaləsini ayırd edir: 1. Sasanilərin dağ keçidlərini mühafizə üçün təyin etdikləri qədim Şirvanşahlar; 2. Məzyədi ərəblər; 3. Kəsranilər; 4. Üçüncü sülalənin bir qolu olan Dərbənd Şirvanşahları.

Həmin əsərin rusca nəşrində V. F. Minorski göstərir ki, əvvəlki baxışlarına rəğmən Məzyədilərlə Şirvanşahların üçüncü sülaləsi arasında genealoji qırıqlıq görmür: «...Lakin görünür ki, Fəribürzdən sonrakı qarmaqarışıq səlcuq basqınları zamanı Məzyədilərin tarixi yolunu dumanlandıran hökmdarsızlıq dövrü olmuşdur...»[5]. Beləliklə, V. F. Minorskinin fikrincə, Şirvanşahlar sülaləsi fasiləsiz olaraq 1000 ilə yaxın hakimiyyət sürmüşdür.

Şirvanşahlar sülaləsinin bütün dörd hakimiyyət dövrünü nəzərdən keçirək. IX əsrdə İbn Xordadbeh xəbər verir ki, ilk Sasani şahənşahı I Ərdəşir (224-240-cı illər) Şərqi Zaqafqaziyanın bir sıra hakimlərinə şah titulu bağışlayırdı: Azərbazkan şah, Baraşkan şah (ehtimal ki, Balasakan şah - S. A.), Allan şah (Muğan), Ərmin şah, Filan şah. İbn Xordadbeh onların arasında Azərbaycanda[6] Şiriyanşahın (variantı: Şiran) adını çəkir. Ölkənin şimal sərhədlərini köçəri türk tayfalarının hücumlarından qorumaq üçün yerli hökmdarlardan vassal mülklərinin təşkilini və xüsusilə Xəzəryanı vilayətlərdən köçürülmüş təbəələrin çoxlu məskənlərinin salınmasını Sasani hökmdarı I Xosrov Ənuşirəvanın adı ilə bağlayırlar. Ərəb

[*] Bəhram Çubin (VI Vərəxran - 590-591)-Sasani şahı IV Hürmüzdün qüdrətli sərkərdəsi, Arşakilərə gedib çıxan iri mülkədar Mehranilər nəslindən olan Vərəxran Guşnəsbin oğlu. IV Hürmüzdü taxtdan salıb öldürtdürərək, özünü şah elan etmişdi".

tarixçiləri şah titulu bağışlanmış hakimlər sırasında Təbərsaran şah, Xursan şah, Vardan şah, Vaxrarzan şah və Şərvan şahın[7] adlarını çəkirlər. X əsr müəllifi əl-Məsudi Şirvanşahların Sasani hökmdarı Bəhram Gurun nəslindən olduğunu göstərirdi[8]. IX əsr ərəb müəllifi əl-Bəlazuri xəbər verir ki, Xosrov Ənuşirəvan hökmdarlar seçdi və onları ayrı-ayrı vilayətlərə şahlığa təyin etdi. «Qabh dağının xaqanı, yəni, Sərir ölkəsinin (taxtının) sahibi (Sahib əs-Sərir) Vəxrarzan şah (ehtimal ki, Vərazan şah - S. A.) Filan, həmçinin Təbərsəran şahı Filan şah, Curcanşah (Xursanşah - S. A.) titullu Ləkz şahı, hal-hazırda mövcud olmayan Məsqət hökmdarlığının[*] şahı, Liranşah titullu Liran şahı və Şirvanşah adlanan Şirvan şahı onların arasında idi. O, Buxxa (ehtimal ki, Türyançay və Əlciançay) çayları arasında yerləşən Bəlx nəzərdə tutulur - S. A.) və Zirihgəranın hakimlərini təyin etdi. Qabh dağı ölkələrinin şahlarını təyin edərək, onlarla sülh bağlayaraq, üzərlərinə vergilər qoydu»[10]. X əsr müəllifi əl-Məsudi deyir: «Ənuşirəvanın Bərdə ölkəsində islam torpaqları ilə həmsərhəd olan bu yerlərə təyin etdiyi hökmdarlardan biri Şirvan adlanırdı. Onun məmləkətinə isə adına uyğun olaraq Şirvanşah deyilirdi[*]. [Ümumiyyətlə], bu ölkəni idarə edən hər bir hökmdar Şirvan adlanırdı»[11]. Qaffari və başqa müəlliflərin tərtib etdikləri şəcərədə Şirvanşahlar sülaləsinin banisi I Xosrov Ənuşirəvan göstərilir[12].

Dərbəndin şimal divarında aşkar olunmuş Pəhləvi kitabəsində qala divarlarının inşasından danışılır. Onların tikintisinə ölkənin müxtəlif yerlərində vergi toplayan məmur və xəzinədar, yaxud Adurbadəqanın (İran Azərbaycanı) maliyyə nəzarətçisi (ataçkaç, ataçdaç) Bərzniş başçılıq edirdi. Kitabədə divarların tikilmə tarixi də göstərilir - I Xosrovun 37-ci ili. Y. A. Paxomovun fikrincə, bu, eramızın 568-ci ilinə uyğun gəlir[13]. Müsəlman ənənəsi Dərbəndin salınmasına dair rəvayət də qoruyub saxlamışdır. Həmin rəvayətə görə, şəhəri və qala divarlarını Xosrov Ənuşirəvanın (531-579-cu illər)[*] tapşırığı ilə onun canişini, Dərbənd hakimi, Şirvanşahların əcdadı Nərs ibn Cəməsp tikdirmişdir[15]. XVI əsr müəllifi Şərəf xan Bidlisi xəbər verir ki, «Ənuşirəvanın hakimiyyəti dövründə Sasanilər sülaləsinin beşinci hökmdarı Piruzun oğlu Cəməsin Qubadın canişini sifəti ilə Ərminiyyəni və Şirvanı idarə edirdi. O, öləndə üç oğul qoyub getdi: Nərs, Surxab və Bəxvat. Nərs atasının yerini tutdu və bu işdə [Ə]nuşirəvan ona lazımi yardım göstərdi... Surxab Şirvanda hakimlik edirdi. Şirvan canişinlərinin şəcərəsi ondan başlayır»[16]. Fəzlullah ibn Ruzbixan Xuncinin (XV əsr) əsərində Şirvanşahın şirlər şahı (şiranşah) şah nəslindən olması göstərilir. («Alicənab səltənəti-intisab maliki-möhtəşəm cəlal əs-səltənə»)[17]. Bir sıra orta əsr müəllifləri - Beydəvi (XIII əsr), Dövlətşah (XV əsr), Xandəmir (XVI əsr) və başqaları da Şirvanşahlar sülaləsinin

---

[*] Məsqət, yaxud massaget Arşakiləri hökmdarlığına 510-cu ildə Sasanilər tərəfindən son qoyulmuşdur.
[*] Görünür, mətndə səhvə yol verilmişdir. Belə ki, ölkə Şirvan, onun hökmdarı Şirvanşah adlanırdı.
[*] Son illərdə A. A. Kudryavtsevin rəhbərliyilə aparılan arxeoloji işlər nəticəsində Dərbənddə e. ə. VIII-VI əsrlərə aid qədim divarlar və tikililər aşkara çıxarılmışdır.

mənşəyini Sasanilərlə bağlayırlar.

Sasanilərin dağ keçidlərini mühafizə etmək üçün təyin etdikləri ilk Şirvanşahlar sülaləsi haqqında əlimizdə məlumat yoxdur. Çox ola bilər ki, bu ilk Şirvanşahlar yerli əhalidən deyil, Sasani şahlarına qohum olub, onlara tabe olan və sonuncuların ölkənin şimal sərhədlərinin qorunmasını etibar etdikləri adamlar idilər. Ehtimal ki, Cənubi Dağıstanda və Qafqaz Albaniyasında bir sıra feodal məlikliklərinin meydana gəlməsi feodal münasibətlərinin inkişafı və ölkədə get-gedə feodalizmin bərqərar olması ilə bağlı idi. Cənubi Qafqazda Sasani şahlarına tabe olan vassal məlikliklərindən xəbər verən VI əsr (555-ci il) müəllifi Arran torpağının adını çəkərək yazır: «...onların İran şahına tabe olan hökmdarları var. Öz dili olan Bazqun torpağı Hun ərazisindəki Xəzər qapıları və dənizinə qədər uzanır»[18]. Yuxarıda qeyd etdiyimiz kimi, Bazqun torpağının ərazisi qismən Şirvan ərazisinə müvafiq idi. Erkən orta əsr salnaməsinin verdiyi bu məlumat İranda və Qafqazda feodalizmin təşəkkül prosesinə yardım göstərən bir sıra islahatların isnad edildiyi Xosrov Ənuşirəvanın hakimiyyəti dövründə Sasanilərdən asılı olan Arranşah, Şirvanşah və s. vilayət məlikləri haqqında IX-X əsr ərəb müəllifinin xəbərlərini təsdiqləyir.

Xosrov Ənuşirəvanın sərhəd vilayətlərinin hakimlərinə verdiyi «şah» titulu iri torpaq mülkiyyətinə sahib olan bu feodalların xeyli dərəcədə müstəqil olduqlarını göstərir. Bu qüdrətli feodallar qrupu Sasani hökmdarı-şahənşahın seçdiyi şuralarda iştirak edirdilər. Saraya gəlməyə məcbur etməklə Xosrov Ənuşirəvan onların mərkəzi hakimiyyətdən asılılığını nəzərə çarpdırır, onları itaətdə saxlayırdı. Onun oğlu və varisi IV Hürmüzd isə hərbi zadəganlığın müstəqilliyə can atmasının qarşısını çətinliklə ala bilirdi[19]. Qeyd etdiyimiz kimi, VI əsrin ortalarında Arranda Sasani hökmdarından vassal asılılığında olan şah hakimiyyət sürürdü. VI əsrin sonlarına doğru ölkənin daxili muxtariyyəti ləğv olundu və asılı (vassal) şahın yerini Arranda yeni hakim sülalənin əsasını qoyan Mehranilər nəslindən olan mərzban tutdu[20].

X əsr ərəbdilli tarixçi Həmzə İsfahani Bəlazuri və Məsudinin məlumatları ilə əsasən uyğun gələn maraqlı məlumatlar verir. O, deyir: «Kəsra (Nuşirəvan) Xəzər dənizindən dağlara qədər Bab əl-Əbvab adlandırılan 20 fərsəx uzunluğunda Dərbənd səddini tikdirdi və hər yerdə bir sərkərdə təyin edərək, onlara qoşun dəstələri və yaşayış üçün zəruri miqdarda və kişi nəsli üzrə miras keçən torpaq sahəsi ayırmışdı; həmin sərkərdələrin nəsilləri indiyədək (961-ci il) şəhər divarlarının qarşısındakı ərazini qoruyurlar. Bundan başqa o, xüsusi fəxri geyim nümunəsi müəyyən etmişdi. Məlik səviyyəsinə qaldırılmış bu sərkərdələr həmin geyimlərin üzərində nəqş edilmiş xüsusi rəsmlərə görə Vəxranşah (qabanlar şahı), Şirvanşah (şirlər şahı), Filanşah (fillər şahı), Alanşah (qarğalar şahı) adlanırdı. Onlardan birinə isə gümüş tağ bağışlamışdı. Sərirşah adı da buradan gəlir...»[21]. Bütün bu hakimlər irsi mülk və iqta sahibləri idi. Onların başlıca vəzifəsi Sasani dövlətini düşmənlərdən - köçəri şimal türk tayfalarından müdafiə etmək idi.

«Alban tarixi»nin müəllifi banisi Ənuşirəvanın, başqa versiyaya görə, Bəhram Çubinin İrandan Albaniyaya köçmüş qohumu Mehran olan Mehranilər sülaləsinin nümayəndələrindən danışarkən Varaz Qriqor, Varaz Peroj, Varaz Trdat, Varazman və başqalarının adını çəkir. Bu adların ilk hissəsi Pəhləvi dilində qaban deməkdir. Cavanşir adının özü cavan şir mənasına gəlir. Ehtimal ki, bu onun ləqəbi idi. Bundan başqa Cavanşirin qardaşı oğlu Varaz Trdat alban hökmdarı seçilərkən bütün əyanlar şeypur sədaları altında «qaldırılan bayraqlardakı *vəhşi heyvan* (kursiv mənimdir - S. A.) gerbini bir səslə alqışladılar, onu qızıl qalxanın üstünə qoyaraq tərif nidaları altında üç dəfə göyə qaldırmışdılar». Əsərin başqa bir yerində «Aranşaxik tayfasından Varaz Peroj adlı bir məlik»[22] xatırlanır. Ehtimal ki, VI əsrdə Albaniyada - Arranda Sasani mənşəli Mehranilər sülaləsi hakimiyyətdə olduğu kimi, Şirvanda da Sasanilərlə qohum olan Şirvanşahlar sülaləsi hökmranlıq edirdi.

Şirvanşahlar haqqında İran və Azərbaycanın ərəblər tərəfindən istila edilməsi ilə bağlı hadisələri təsvir edən ərəb müəlliflərinin əsərlərində məlumatlar var. H. 18 (639)-ci ildə İran və Azərbaycanı zəbt edən ərəb qoşunlarının bir hissəsi Bükayr ibn Abdullahın başçılığı ilə şimal-qərb istiqamətində hərəkət edərək, bir neçə döyüşdən sonra h. 21 (641/2)-ci ildə Muğanı tutdu, əhali üzərində cizyə vergisi qoydu[23]. Muğanlılarla müqavilə bağlandı və əhalinin, onların əmlakının, din və qanunlarının təhlükəsizliyinə və toxunulmazlığına təminat verən fərman verildi. Bunun müqabilində «həddi büluğa çatmış hər kəs bir dinar, yaxud onun dəyərini verməli, hər bir müsəlmana səmimi münasibət bəsləməli, ona bələdçilik etməli və bir gecə-gündüz qonaq saxlamalı idi». Ərəb qoşunları Muğandan Xəzər dənizi sahili boyunca şimala doğru hərəkət edərək elə həmin il Bab əl-Əbvaba (Dərbəndə) çatdılar[24].

Ət-Təbərinin (X əsr) məlumatına görə Şirvan sərkərdə Suraqə ibn Əmraya Dərbəndi zəbt etmək əmri vermiş xəlifə Ömər ibn əl-Xəttabın hakimiyyəti dövründə - h. 22 (642/43)-ci ildə fəth olunmuşdur. Suraqə Bükayr ibn Abdullahı və Əbdürrəhman ibn ər-Rəbiə əl-Bəhilini qabaqda göndərərək Şirvana doğru hərəkət etdi[25]. Onlar Dərbəndə yaxınlaşarkən bu vilayətin irsi hakimi-şah, ehtimal ki, Şirvanşah adlanan Şəhriyar itaət göstərdi, lakin cizyə verməmək, onu sərhədləri şimaldan gələn köçərilərin hücumlarından qoruyan qoşunun saxlanılmasına sərf etmək şərtilə sülh istədi. Şəhriyar aşağıdakıları bəyan etdi: «Mən adları belə çəkilməyə layiq olmayan qəddar düşmənlərlə və müxtəlif xalqlarla üz-üzə dayanmışam. Ləyaqətli və ağıllı adamlar nəcabətlilər əleyhinə onlara yardım göstərməməlidir. Mənim nə Qafqaz dağlarının əhalisi, nə də ermənilərlə heç bir əlaqəm yoxdur. Siz [ərəblər] mənim ölkəmi və xalqımı istila etmisiniz və bu gün mən sizlərdən biriyəm, mənim əllərim sizin əllərinizdədir, mən sizə cizyə verməliyəm, mən sizə kömək etməyə və sizin istəklərinizi yerinə yetirməyə borcluyam. Ona görə də bizi cizyə qoymaqla alçaltmayın, zira siz bizi düşmənlərinizin əli ilə zəiflədərsiniz. Onu hər il ödəməli olduğunuz xəracın

hesabına yazın»[26].

Şəhriyarın şərtlərini nəzərə alan Suraqə cizyəni evdə qalıb düşmənlə vuruşmağa getməyənlərdən almaq qərarına gəldi və bunu xəlifə Ömərin ixtiyarına buraxdı. Xəlifə Ömər Şirvan hakimlərinin vergidən azad olunmasına razılıq verdi. Bunun müqabilində Dərbəndin və onun ətrafının əhalisi kafirlərlə vuruşmalı və onları müsəlmanların ərazisinə buraxmamalı idilər. Beləliklə, sülh müqaviləsinə görə ərəblərin həmin bölgələrdə qoşun saxlamasına lüzum qalmadı[27].

Mənbənin verdiyi bu məlumat diqqətəlayiqdir, belə ki, o, həmin qaydanın Sasanilər dövründə də mövcud olduğunu ehtimal etməyə imkan verir. Müəllif sonra nəql edir ki, Əbdürrəhman Şəhriyarın barmağında par-par yanan yaqut qaşlı üzük gördü. Daşın haradan gətirildiyi barədə suala cavabında Şəhriyar xidmətçilərindən birini göstərərək dedi: «Ey əmir, həmin daşı mənə bu adam Yəcuc və Məcuc divarlarının olduğu yerdən gətirmişdir. Onların arasında çoxlu məmləkət var. Lakin daş onların birindən - həmin divarların yerləşdiyi məmləkətdən gətirilmişdir. Mənim xidmətçim bu məmləkətlərin hamısını gəzərək, mənim hədiyyələrimi onların hökmdarlarına çatdırmışdır. Lakin bu divarların sahibi olan hökmdara daha çox bəxşiş aparmışdır. Xidmətçim hədiyyələrlə birlikdə hökmdara mənim məktubumu da çatdırmışdır. Məktubda ondan mənə möhürlü üzük üçün yaqut göndərməsini xahiş etmişdim. Xahişimə cavab olaraq o, bu üzüyü mənə göndərmişdir. Xidmətçi bu daşın necə tapılmasından Əbdürrəhmana ətraflı danışdıqdan və onun başqa suallarına cavab verdikdən sonra Əbdürrəhman onun qiymətini soruşdu. Şəhriyar cavab verdi ki, daşın əsl qiymətini heç kəs bilmir. Lakin o, həmin daş üçün divarların sahibi olan hökmdara yüz min dirhəm vermişdir. Bir o qədər də torpaqlarından keçib getmək lazım gələn məmləkətlərin hökmdarlarına göndərilən hədiyyələrin qiyməti edir. Beləliklə, daş ona xidmətçinin zəhmət haqqı və xərcləri nəzərə alınmadan iki yüz min dirhəmə başa gəlmişdir. Bundan sonra Şəhriyar üzüyü barmağından çıxarıb Əbdürrəhmanın qabağına qoydu, lakin o, üzüyü yenidən Şəhriyarın barmağına keçirdi. Bu vaxt Şəhriyar heyrətlə qışqıraraq dedi ki, əgər İran şahları bu üzükdən xəbər tutsaydılar, çoxdan onun əlindən alardılar. Və ərəblər öz nəciblikləri sayəsində bütün dünyanı fəth edə bilərlər»[28]. Hacı Xəlifənin məlumatına görə Şəhriyar Şirvanın hakimi idi. Bəhs etdiyimiz müəllif isə onu Dərbənd hakimi adlandırır. Ehtimal etmək olar ki, söhbət eyni bir şəxsdən gedir. Göründüyü kimi, ərəblər Şirvana gələnədək Şirvanşahların torpaqları Dərbəndədək uzanırdı və sonralar gördüyümüz kimi, bu şəhər müxtəlif dövrlərdə Şirvanşahlar dövlətinin tərkibinə daxil olmuşdur.

Sasanilər Dərbənd keçidinə böyük əhəmiyyət verirdilər. Onlar V-VI əsrlərdə və ondan daha əvvəllər özlərinin şimal sərhədlərini köçəri türk tayfalarının hücumlarından qorumaq məqsədilə burada dəfələrlə istehkamlar tikmişdilər[29]. Sasanilər Dərbənddə müxtəlif xalqların nümayəndələrindən ibarət olub, onların etimadını qazanmış böyük qarnizon saxlayırdılar. Bunların arasında şirvanlılar da var idi[30]. VII əsrin birinci yarısında onlar Volqanın mənsəbində və Şimali

Qafqazda güclü dövlət yaratmış və Şirvana tez-tez hücumlar edən xəzərlərdən müdafiə olunurdular. Son Sasani hökmdarları və ilk ərəb canişinləri dövründə[31] Şirvan bir neçə dağıdıcı basqınlara məruz qalmışdı. Ərəblər VII-VIII əsrlərdə əldən-ələ keçən Şirvan ərazisinə dəfələrlə hücum edən xəzərlər və digər türk tayfaları ilə bir sıra müharibələr aparmışdılar.

Ərəb ordusu xəlifə Ömər ibn Əffanın (644-656-cı illər) dövründə cənub-qərbdən hücum edərək Arran və Şirvanı tutmuşdur. Naxçıvan zəbt edildikdən sonra Həbib ibn Məsləmənin ordusuna daxil olan bir dəstə Səlman ibn Rəbiənin komandanlığı ilə Biçənək aşırımından keçərək Şəkiyə və Gorusa doğru hərəkət etdi və Arrana çataraq, h. 25-ci il (28. X. 645-16. X. 646-cı illər) sülh müqaviləsinə əsasən Beyləqanı zəbt etdi. Həmin müqavilədə əhalinin həyatının, əmlakının, şəhər divarlarının qorunub-saxlanılmasına təminat verilir, əhali üzərində xərac və cizyə vergisi qoyulurdu. Sonra Səlman Bərdəyə gəldi və Turtur (Tərtər) çayının sahilində şəhərdən azı bir fərsəx aralı düşərgə saldı. Bərdə sakinləri ilə sülh bağlayıb şəhərə daxil olan Səlman bir müddətdən sonra qoşunlarla hərəkət edərək Şakşin (Şakaşen), Meskuan (Metskuenk), Ud (Uti), Mesiran (Metsarants)*, Xarxilyan (Xarcilank), Təbər (Tri) vilayətlərinin kəndlərini və Arranın digər yerlərini tutdu[32].

Qədim Şəmkir şəhərini ələ keçirən Səlman ibn Rəbiə-əl-Bəhili on minlik qoşunla Bərdicin arxasından Arazla Kürün qovuşduğu yerə gedərək, Kür çayını keçib Qəbələni tutdu, Şəkkan (Şəki) və Kamibəran (Kambizena) hakimləri ilə xərac vermələri şərtilə sülh bağladı.

Xeyzan (Haydaq?) əhalisi də onunla (Səlmanla) bu cür müqavilə bağladı. Sonra o, Şirvana yaxınlaşdı, Şirvanşahı yanına çağırdı və onunla da dağlı hakimlər, Məsqət, Şəbəran və Bab (Dərbənd) şəhəri sakinləri kimi, sülh sazişi bağladı. Lakin Səlman şəhərdən çıxan kimi əhali qapıları onun ardınca bağladı. Xəzər xaqanı isə çoxminli ordunun başında Bələncər çayının arxasında onun qabağını kəsdi. Burada Səlman öldürüldü və ərəblərin dörd minlik dəstəsi məhv edildi. Səlmanın ölümündən sonra [h. 32-ci il (12.VIII.652 - 1.VIII.653-cü illər)] Xəlifə Osman Xuzeyfə ibn Yəmanı Azərbaycana və Arrana vali təyin etdi. O, xəlifə canişinlərinin oturduğu Bərdəni özünün iqamətgahına çevirdi[33].

VII-VIII əsrlərdə ərəblər Şirvan və Arrana hücumlar edən türkütlər və xəzərlərlə şiddətli müharibələr apardılar. VIII əsrin əvvəllərində ərəblər şimala - Dərbəndə və daha sonra Xəzərə qarşı işğalçı yürüşlərə başladılar. Burada onlar tərkibində müxtəlif türk tayfaları - sabirlər, türkütlər, bulqarlar və b. - olan çoxsaylı Xəzər ordusu ilə üz-üzə gəldilər. Həmin köçəri türk tayfaları artıq IV-V əsrlərdə və ondan daha əvvəl dəfələrlə Albaniyaya və Şirvan vilayətinə hücum edərək onların qala və şəhərlərini tutub dağıtmışdılar. Xəlifə I Validin hakimiyyəti illərində (705-715) ərəblər xəlifə Məsləmə ibn Əbd ül-Məlikin oğlunun başçılığı ilə Azərbaycan, Arran və Şirvana bir neçə dəfə yürüş etdilər. Məsləmə tabe olmayan bütün qala və

* Şakaşen - Gəncə rayonu, Metskuenk - Şahdağ rayonu. Uti - Kür və Araz çaylarının arası, Metsarants - Dağlıq Qarabağ.

şəhərləri zəbt etdi və türklərlə vuruşa-vuruşa Əl-Baba (Dərbənd) gəlib çatdı[34]. Məsləmənin Dərbəndi alması barədə X əsr ərəb müəllifi Əbu Məhəmməd Əhməd ibn Əsam əl-Kufi məlumat verir. Dərbənd istehkamlarının möhkəmliyi Məsləməyə uzun müddət şəhəri tutmağa imkan verməmişdi. Yalnız əlçatmaz dağ tərəfdən divardakı keçid yerini Məsləməyə göstərən xəzər döyüşçüsünün xəyanətindən sonra ərəblər şəhərə soxularaq onu tutdular. Xəzərlər qaçdı. Divarların bir hissəsini uçurub dağıdan Məsləmə Dərbəndi tərk edərək qənimətlərlə Ərminiyyə* torpaqlarının mərkəzində oturan əmisinin yanına qayıtdı. O gedəndən sonra xəzərlər geri dönərək yenidən Dərbəndi tutdular[35].

Xəlifə Yəzid ibn Əbd ül-Məlikin hakimiyyəti dövründə (720-724-cü illər) Azərbaycanda xəzərlərə qarşı mübarizəni 722/23-cü ildə Azərbaycanın valisi təyin olunmuş əl-Cərrah ibn Abdullah əl-Həkəmi davam etdirmişdir. O, Kür çayını keçərək Dərbəndə çatdı, iyirmi beş minlik ordu ilə buradan keçərək ər-Ran çayı yaxınlığında xaqanın oğlu Barsbəyin başçılıq etdiyi Xəzər qoşunlarını məğlubiyyətə uğratdı. Əl-Cərrah çoxlu əsir alaraq, onları Qəbələ rustaqında xəzərlərin məskəni olan Qaniyyə* kəndində yerləşdirdi. Sonra o, şimal tərəfə gedərək Bələncəri zəbt etdi. Dağlı hakimlər onun əleyhinə qalxdılar. O, qənimətlərlə Şəki vilayətinə qayıtdı, burada qışlayaraq Suriyadan kömək gözlədi[36]. Lakin 724-cü ilin yanvarında xəlifə Yəzid öldü. Onun yerinə qardaşı Hişam ibn Əbd ül-Məlik keçdi (724-743-cü illər). H. 107-ci ildə xəlifə Hişam əl-Cərrahı valilikdən çıxararaq onun yerinə öz qardaşı Məsləmə Əbd ül-Məliki Ərminiyyəyə və Azərbaycana vali, əl-Xaris ibn Əmra ət-Tayini isə onun müavini təyin etdi. Yəqubiyə görə, onun qoşun rəisi Səid ibn Əmr əl-Hərəşi idi. Xəlifənin kənizdən doğulub, taxt-taca sahiblik hüququ olmayan oğlu Məsləmə iyirmi ildən çox bir müddət ərzində Əməvilərin əzəmətinin dayağı və ərəblərin Qafqazda xəzərlərlə mübarizəsinə başçılıq edən sərkərdə olmuşdur. Məsləmə 727 və 728-ci illərdə iki dəfə Azərbaycandan xəzərlərə hücum edərək, onların ərazilərinədək irəliləmişdi. O, yaşayış məntəqələrinə basqın edərək əsir və qənimətlərlə geri qayıdırdı[37]. 729-cu ildə Xəlifə Hişam yenidən Cərrah ibn Abdullahı geri çağırdığı Məsləmə ibn Əbd ül-Məlikin yerinə «Ərminiyyə və Azərbaycan» valisi təyin etdi. Cərrah tezliklə şimala yeni hücuma başladı. O, Şəkidən hərəkət edərək, Bərdəyə gəldi, sonra Beyləqan, Varsan və daha sonra Bacərvandan keçərək Ərdəbilə çatdı. Xaqanın oğlu Barsbəy 300 minlik ordu ilə Ərdəbilə yetişdi və Şəhrizad kəndinin yaxınlığında ərəbləri əzdi. Əl-Cərrah döyüşdə öldürüldü (730/31 -ci il). Xəzərlər Ərdəbili tutdular və Azərbaycana dağıdıcı yürüş keçirdilər[33]. Bu yürüş haqqında

---

* Ərəb müəllifləri Ərminiyyə adı altında cənubi Qafqazın ərəblər tərəfindən Əməvilər xilafətinin bir (dördüncü) canişinliyinə daxil etdikləri bütün ölkələrini nəzərdə tuturdular.

* Qəbələ rustaqında Qaniyyə kəndi - «Şirvan və Dərbəndin tarixi»ndə adı çəkilən Kuni adlı yerdir. Orada deyilir ki, «1067-ci ilin şaban (iyun) ayında şirvanşahın dayısı oğlu Ləşkəristan Qəbələ darvazasının qarşısında kunililər tərəfindən öldürülmüşdür». Kuni adı, ehtimal ki, bu vilayətdə hələ VII əsrdə məskən salmış hunlarla bağlıdır.

Gevond belə məlumat verir: «...sərkərdə topladığı qoşunla Cor (Dərbənd) keçidindən keçərək, Maskutlar ölkəsinə getdi və Paytakaran (Beyləqan) ölkəsinə basqın etdi. O, Araz çayından keçərək İrana [Azərbaycana] adladı, Artaveti [Ərdəbili], Qandzakı [Gəncə], Şahastanı [Təbriz], Atiş-Baquan [Bakı və Abşeron] adlanan vilayəti, Spatar-Perozu [İsfəndiyar-Peroz] və Hürmüzd-Perozu [Muğanı] dağıtdı[39]. Türklərin Azərbaycana və Şirvan vilayətinə hücumları sonralar da davam etmişdir. Əl-Cərrahın ölümündən sonra xəlifə yenidən Məsləməyə müraciət etdi və o, Cənubi Qafqaza gələnədək xəzərlərlə mübarizə aparmaq üçün Səid ibn Əmra əl-Həraşini Azərbaycana göndərdi. Səid Suriyadan hərəkət edərək Xilata getdi, sonra Bərdəni tutaraq Beyləqana yetişdi. Barsbəy xəzərlərə təslim olmayan Varsanı mühasirəyə aldı. Səid Varsana yaxınlaşdı, xəzərləri mühasirədən əl çəkməyə və qaçmağa məcbur etdi. Sonra Səid Varsandan Ərdəbilə getdi və Bacərvana gəlib çatdı. Burada Rustaq deyilən yerdə xəzərlərə qalib gələrək 10 min əsir müsəlmanı, o cümlədən, Cərrahın arvad və uşaqlarını azad etdi. Sonra Səid Muğan vuruşmasında xəzərlərin böyük ordusunu darmadağın etdi, Barsbəyi isə atdan yerə salaraq başını kəsdi və xəlifəyə gondərdi. Səid xəzərləri Şirvana çatana qədər təqib etdi. Xəzərlər öz ölkələrinə çəkildilər. Xəlifənin Məsləmə ibn Əbd ül-Məlikin Azərbaycan və Ərminiyyə valisi təyin olunmasına dair əmri h. 112 (730/31 )-ci ildə Səidə çatdı[40]. Məsləmə Bərdəyə yetişən kimi Səidi öz yanına çağırdı və əmri pozduğuna, xəzərlərlə müharibədə özbaşınalığa yol verdiyinə görə həbs etdirdi. Tezliklə xəlifə Hişamın əmri ilə Səid azad edilərək paytaxta çağırıldı və mükafatlandırıldı. Məsləmə xəzərlərə qarşı hücuma keçdi. O, Kürdən keçərək Şirvana yaxınlaşdı. Əhali onu sülhlə qarşıladı. Buradan Məsqətə yollanan Məsləmə oranın əhalisi ilə sülh bağladı, süvari dəstələrini isə ləkzlər ölkəsinə göndərdi[41].

IX əsr ərəb müəllifi əl-Bəlazuri xəbər verir ki, «Məsləmə Xeyzan (Haydaq?) əhalisi ilə sülh bağladı və şəhər qalasını dağıtmağı əmr etdi... Dağlı hakimlər onunla (Məsləmə ilə) sülh bağlamağa tələsdilər və ona xərac verdilər, beləliklə, Şirvanşah, Liranşah, Təbərsəranşah, Filanşah və Carşanşah (Xursanşah - S. *A.),* habelə Məsqət hakimi onun yanına gəldi. Bundan sonra Məsləmə Bab (Dərbənd) şəhərinə yollandı və onu tutdu. Bu vaxt Bab qalasında min xəzər ailəsi var idi. Məsləmə onları mühasirəyə alaraq üstlərinə daş, sonra isə daş formasına salınmış dəmir yağdırmağa başladı. Lakin bunun köməyi olmadı...» Məsləmə Dərbəndi hiylə ilə aldı: ona yerli sakinin - Xəzər qarnizonu döyüşçüsünün xəyanəti kömək etdi[42]. Dərbəndi aldıqdan sonra burada 24 min Suriya əsgəri yerləşdirərək, onlara yüksək məvacib vəd etdi. Şəhəri dörd sahəyə bölərək Dəməşq, Hims, Fələstin, Suriya və əl-Cəzirə sakinlərinə verdilər. Məsləmə Dərbənddə ərzaq, taxıl və silah anbarları tikdirdi; o, şəhərin su çənini təmizləməyi əmr etdi, şəhərin uçulub-dağılmış yerlərini təmir etdirdi, onu bəzədi. Xəzərlərə qarşı Məsləmə ilə yanaşı, Mərvan ibn Məhəmməd də şücaətlə vuruşmuşdu. Məsləmə h. 114 (732)-cü ildə valilikdən azad olunduqdan sonra Xəlifə Hişam Səid ibn Əmranı Şirvan və Arranın hakimi təyin etdi. Ondan iki il sonra valiliyə keçən Mərvan ibn

Məhəmməd h. 117 (735/36)-ci ildə xəzərlərin ölkəsinə soxuldu. Lakin islamı qəbul etdiyinə görə xaqanı hakimiyyətdə saxladı. Bundan sonra Mərvan 40 min xəzər əsirini Samur və Şəbəran çayları arasında yerləşən Ləkz vilayətindəki düzənlikdə məskunlaşdırdı. Sonralar Mərvan Şimali və Cənubi Dağıstanın bir sıra vilayətlərini zəbt edərək, onların hakimlərini öz hakimiyyətinə tabe olmağa, habelə, hər il xəlifənin canişininə 1500 gənc oğlan və 500 qara saçlı, qara gözlü, uzun kirpikli gənc qız və Babın taxıl anbarına taxıl göndərməyə məcbur etdi[43]. Bir sıra vilayətlərdən toplanan vergilər Dərbənd taxıl anbarında saxlanılırdı. «Sonra Mərvan Şirvan hakiminin dəniz sahilində yerləşən və Xirş, yaxud Xurs* adı ilə tanınan qalasına doğru hərəkət etdi. Qalanın hakimi Mərvanın hakimiyyətinə tabe olduğunu dərhal bildirdi və düzənliyə endi. Mərvan Şirvan əhalisi üzərinə hər il on min müdd taxıl vergisi qoydu və Şirvan hakimini müsəlman ordusu Xəzər torpaqlarına hücuma keçəndə onun ön sıralarında, geri qayıdanda isə arxa sıralarında olmasını əmr etdi. Ərəb-Xəzər müharibələrində ərəblərin tərəfində dağlıq vilayətlərin hakimləri - xəlifənin vassalları, o cümlədən Şirvanşah və Arranşah da iştirak edirdi. H. 123 (741)-cü ildə Mərvan Azərbaycana yollandı və tezliklə bütün ölkəni və erməni torpaqlarını zəbt etdi. Xəlifə III Yəzid ibn əl-Valid (744-cü ildə hakimiyyətdə olmuşdur) Mərvanı Azərbaycan və Ərminiyyənin valisi təsdiq etdi. Yəzidin qardaşı İbrahimi (744-cü ildə hakimiyyətdə olmuşdur) devirdikdən sonra Mərvan ibn Məhəmməd Əməvilər sülaləsinin sonuncu xəlifəsi oldu (744-750-ci illər). O, Azərbaycanda və Ərminiyyədə hakimiyyətə keçən kimi Beyləqanda üsyanlar və iğtişaşlar meydana gəlməyə və bütün ölkəyə yayılmağa başladı. Xəlifə Mərvan h. 132 (750)-ci ildə öldürüldükdən sonra Abbasilər sülaləsinin ilk xəlifəsi Əb-ül-Abbas əs-Səffah (750-754-cü illər) Məhəmməd ibn Sulu Azərbaycana və Ərminiyyəyə vali təyin etdi. 100 minlik qoşunla gələn Məhəmməd ibn Sul üsyanı yatırtdı[45]. Ərəb mənbələri Şirvan və Arran şəhərlərində ərəb ağalığına qarşı sonralar olmuş üsyanlar haqqında da xəbər verirlər. Ən böyük üsyan xəlifə Harun ər-Rəşidin hakimiyyəti dövründə Beyləqan əhalisinin xariciliyin nümayəndəsi Əbu Müslümün başçılığı ilə Xilafətə qarşı üsyanı idi. Bu üsyanlar vergilərin ağırlığı, istila edilmiş ölkələrin əhalisinin zülm və istismar altında saxlanılması, habelə, Ərəb-Xəzər müharibələri dövründə şəhər və kəndlərin dağılması ilə bağlı idi. Bu və ya digər əyalət xəlifəyə itaətsizlik göstərdikdə, yaxud ərəb canişini ilə bağlanmış sazişi pozduqda ərəblərə qarşı üsyanlar amansızcasına yatırılırdı. Ərəb-Xəzər müharibələri sonralar - Abbasi xəlifələri dövründə də davam edirdi. Xəlifə əl-Mənsur (754-775-ci illər) Yəzid ibn Üseyd əs-Suləmini Azərbaycan, Arran və Şirvan valisi təyin etdi. O, xəlifənin məsləhəti ilə xaqanın qızı Xatınla evlənərək onunla qohumlaşdı. Ehtimal ki, bu dövrdə Xəzər dövləti

---

* A. N. Genko Xursanı Xırd-Zində və Beşbarmaq dağının yaxınlığında yerləşdirir. V. F. Minorskinin fikrincə, Quba rayonunun cənub hissəsində, Məsqətdən (Müşkürdən) cənubda idi[44]. Ehtimal ki, Xurs qalası - Çıraqqaladır. Xursan Dərbəndlə Beşbarmaq arasında mahaldır.

güclənmiş, daxili çəkişmələr nəticəsində zəifləmiş Xilafət isə Yəzidi böyük hərbi qüvvə ilə təmin etmək iqtidarında deyildi. Xaqanın qızı Yəzidə iki oğlan doğdu, lakin 2 il 4 ay Bərdədə yaşadıqdan sonra həyatdan köçdü. Bundan sonra onun hər iki oğlu da öldü. Xatının məkrlə öldürüldüyünü qət edən xaqan 200 min döyüşçü ilə Dərbənddən hərəkət etdi. Yəzid 60 minlik qoşunla Kürü keçib Şirvana çatdı. Burada baş verən vuruşmada xeyli ərəb öldürüldü, Yəzid isə qaçaraq Bərdədə gizləndi. Yəqubiyə görə, Yəzid Xirs (Xurs? Çıraqqala) qalasına qaçmışdı. O, sonra İraqa gedib hərbi yardımla Bərdəyə qayıtdı. Kürü keçərək Dərbəndə çatan Yəzid şəhəri və dağ keçidlərini möhkəmləndirdi. Bundan sonra xəlifə onu canişinlikdən azad etdi[46]. Əl-Yəqubi, ət-Təbəri və İbn əl-Əsirin h. 145 (763/64)-ci ilə aid etdikləri bu hadisələri Gevond (VIII əsr) belə təsvir edir: «Güclü qoşun toplayan xaqan onu Eltəbərin nəslindən olan sərkərdəsi Raş Tərxanın sərəncamına verib, Yəzidin hakimiyyəti altında olan ölkəmizə göndərdi. Böyük Kür çayının şimal tərəfinə səpələnmiş xəzərlər bir çox alban vilayətini - Xecar, Kaqa, Ostani-Mərzbanyan, Xaband, Gelava, Şake, Bies, Xeni, Kambexçan, Xozması*, gözəl Beyləqan düzünü (Dəşti-Beyləqani - S. *A.)* tutdular, çoxlu sürü və ilxı qovub apardılar»[47]. Xəzərlər bir neçə gürcü vilayətini talan edib öz ölkələrinə çəkildilər. Sonrakı otuz il ərzində onlar Ərminiyyəyə və Azərbaycana basqınları dayandırdılar. Xəzərlərin bu ölkələrə son hücumu 796/7-ci ildə Səid ibn Səlm ibn Qüteybə əl-Bəhilini Ərminiyyə və Azərbaycan valisi təyin etmiş Xəlifə Harun ər-Rəşidin (784-809-cu illər) dövründə olmuşdur. Ərəb tarixçiləri xəbər verirlər ki, xəzərlər itaət göstərmədiyinə görə ərəb canişini Səid ibn Səlm tərəfindən 797/8-ci ildə qətlə yetirilmiş Dərbənd əmiri ən-Nəcm ibn Haşimin oğlu Həyyun ibn Nəcmin dəvəti ilə hücum etmişdilər. Səidin zülmündən narazı olan yerli feodallar onun Dərbənddəki naibinə hücum etdilər. Atasının edamından sonra Həyyun Səidin Dərbənddəki naibini öldürdü və xəlifənin canişininə qarşı üsyan qaldırdı[48]. «O, xaqanla - xəzərlərin hökmdarı ilə danışığa girdi, xaqan ona yardım göstərdi, böyük ordunun başında müsəlmanlara hücum edərək onları qırdı və çoxlu əsir aldı»[49]. Xəzərlər 799-cu ildə böyük ordu ilə Dərbənd mahalındakı əs-Sul (Çul) keçidindən keçərək Şirvan və Arranın içərilərinədək irəliləyib Kürün sahillərinə çatdılar. Xəzərlər yetmiş gün ərzində ölkəni dağıtdılar, qadınları zorlayaraq, saysız-hesabsız adam qırdılar, 100 mindən çox əsirlə geri döndülər. Bu, xəzərlərin ərəblər üzərinə son böyük hücumu idi. Təbərinin təbirincə «xəzərlər islamda indiyədək misli görünməmiş dəhşətli bir iş tutdular»[50]. Səid qaçdı, Harun ər-Rəşid Əli ibn İsa ibn Məhanı Ərminiyyəyə və Azərbaycana vali təyin etdi. Lakin Yəqubinin sözləri ilə desək, «buraya gələn Əli özünü pis apardı, buna görə də Şirvan əhli onun əleyhinə üsyan qaldırdı və ölkədə çaxnaşma düşdü». Belə olduqda xəlifə 799-cu ildə yenidən Yəzid ibn Məzyəd əş-Şeybanini Ərminiyyəyə və Azərbaycana hakim təyin etdi. O, üsyanı yatırtdı və ölkədə qayda-qanun yaratdı[51]. Yəzid Şirvanşahlar

---

* Ucar, Qala - Qəbələ, Kəlbənd, Kalva, Şəki, Bəlx, Göynük, Kambizena, Xaçmaz (S.A.).

sülaləsinin banisi və xilafətin məşhur sərkərdələrindən biri idi. O, h. 185 (801)-ci ildə Bərdədə ölmüş və orada da dəfn olunmuşdur. Mənbə onun ölümünün təfərrüatını belə nəql edir: «Söyləyirlər ki, bir qonaqlıqda ona gözəl bir qız bağışlayırlar; o, məclisi tərk edərək qızla intim əlaqəyə girir və onun ağuşunda ölür. Bu, Bərdədə olmuşdur...»[52]. Numizmatik məlumatlara görə, Yəzidin ölümündən sonra onun oğulları Əsəd ibn Yəzid, Məhəmməd ibn Yəzid[53] və xəlifənin h. 205 (802)-ci ilə qədər bir-birinin ardınca Azərbaycana, Arrana və Ərminiyyəyə təyin etdiyi bir sıra əmirlər hakimiyyət sürmüşlər. H. 205-ci ildə xəlifə Məmun Yəzd ibn Məzyəd əş-Şeybaninin oğlu Xalidi həmin ölkələrə vali göndərdi. Xalid Şəkidə, Gürcüstanda və Sənariyyədə üsyanları yatırtdı[54]. H. 212-217 (827/8-832/3)-ci illərdə Xalidin adı «Mədinət Arran»da (Arran şəhəri) kəsildiyi qeyd edilən dirhəmin üzərində yazılmağa başlayır[55]. Bəlazurinin məlumatına görə xəlifə Xalidi ermənilərdən bəxşiş almaq üstündə hakimiyyətdən salmışdır[56]. Xəlifə Mötəsim bu vilayətləri iqta kimi Babəklə vuruşmuş sərkərdə Afşinə vermişdi. Xalid Mötəsimin ölümünə [h. 227 (842)-ci il] və onun oğlu Vasiq hakimiyyət başına gələnə qədər vəzifəsiz qalmışdı. Xilafətin zəiflədiyi bu dövrdə Cənubi

Qafqazın bir sıra vilayətləri müstəqilliyə və Xilafətdən ayrılmağa can atırdı. Vasiq Tiflis valisi İshaq ibn İsmayılın üsyanı ilə bağlı baş verən iğtişaşlarla əlaqədar Xalidi çağıraraq Ərminiyyə, Azərbaycan və Arranın valisi təyin etdi və onu 12 minlik süvari ilə göndərərək İshaqla mübarizəyə girib, üsyanı yatırtmağı əmr etdi. Xaliq Ərminiyyəyə daxil oldu və burada 20 minlik erməni qoşunu ilə birləşərək, Curzana (Gürcüstana) doğru hərəkət etdi. O, Cavax (Cavaxeti) adlı yerdə xəstələndi və iki gündən sonra öldü, Dəbilə (Dvin) gətirilərək, bir məlumata görə h. 230 (844)-cu, digər məlumata görə isə h. 228 (842)-ci ildə dəfn olundu. Xalidin ölümündən sonra Xəlifə Vasiq onun böyük oğlu Məhəmmədi Azərbaycan, Ərminiyyə və Arrana vali qoydu və İshaqın üzərinə getməyi əmr etdi. H. 230 (844)-cu ildə hakimiyyətə başlayan Məhəmməd İshaqla müharibədə məğlubiyyətə uğradı və elə həmin il Dərbənddə Buğa əş-Şərabi tərəfindən devrildi. Xəlifə Mütəvəkkil Dərbənd şəhərini və onun həndəvərindəki torpaqları iqta kimi Məhəmməd ibn Xalidə verdi. Sonralar Şirvanşahlar, xəlifənin hədiyyəsi kimi, daim Dərbənd torpaqlarının iddiasında olmuşlar. Xəlifənin əmri ilə Məhəmməd türk Əbu Musa ilə birgə İshaqın üzərinə yürüdü. Çoxlu vuruşmalardan sonra İshaq məğlub edildi və öldürüldü. Məhəmməd Dərbəndə qayıtdı. Onun sonrakı fəaliyyəti Dərbəndin qonşuluğunda və Sünikdə yaşayan «gavurlara» qarşı yürüşlərlə bağlı olmuşdur[57]. H. 242 (846)-ci ildə o, Buğa əl-Kəbirin köməyilə yenidən Azərbaycan, Ərminiyyə və Arranın valiliyinə qaytarılmışdır. Bir mənbədə onun h. 245 (859)-ci ildə Arran vilayətində Cənzə (Gəncə) şəhərini saldırdığı göstərilir. Şəhər, xəlifənin ona hədiyyə etdiyi mülklərlə birlikdə, onun irsi sahibliyinə keçdi. Məhəmməd Ərminiyyə hakimliyini buraxıb Gəncəyə qayıtdı[58].

Bəlazuri, Yəqubi və əl-Kufinin məlumatlarına əsasən bu nəticəyə gəlmək

olar ki, Şirvanın ilk istilası dövründən IX əsrin birinci yarısınadək ərəblər Şirvanşahları xəlifəyə xərac verən və onun xəzərlərə qarşı yürüşlərində iştirak edən vassallar kimi hakimiyyətdə saxlamışlar. Bəlazuri 797/8-ci ildə Ərminiyyənin valisi olan Səid ibn Səlm əl-Bəhili ilə bir dövrdə hakimlik etmiş əş-Şəmax ibn Şücanın adını Şirvanın məliki kimi çəkir. Ehtimal ki, o, ərəblərin hakimiyyətdə saxladıqları islam dinini və ərəb adını qəbul etmiş şirvanşah olmuşdur. Lakin o, xəlifə tərəfindən Şirvana vali təyin edilmiş ərəb canişini də ola bilərdi. Şirvanşahlar Xilafətin inzibati bölgüsünə görə Şirvanın daxil olduğu Azərbaycan və Ərminiyyə valisinə tabe idilər. Bəlazuri xəbər verir ki, yerli feodallar öz mülklərində yaşayır və hər biri öz vilayətini müdafiə edirdi. Canişinin göndərdiyi vilayət rəisi (amil) bu ölkəyə gələrkən yerli feodallar onu saya salmamağa çalışırdılar. Rəisin dəyanətli, sərt və hərbi gücə malik olduğunu gördükdə vergi verir və itaət göstərirdilər. Əks təqdirdə isə ona böhtan atmağa çalışırdılar. Onlar çox vaxt rəisə saymazcasına yanaşırdılar. Ərminiyyədə və Arranda Xilafət əleyhinə üsyanlarla əlaqədar xəlifə Mütəvəkkil Buğa əl-Kəbiri həmin ölkələrə vali göndərdi. O, «Curzanı yenidən fəth etdi, itaət etməyənləri Arran, Ərminiyyənin dağlıq vilayətləri və Sisəcandakı (Sünik) iğtişaşın bütün günahkarlarını - istər xristian, istərsə də başqaları - əsir tutub xəlifənin hüzuruna göndərdi. Beləliklə, indiyədək görüşmənin qayda-qanun bərqərar edən Buğa h. 241 (855/6)-ci ildə Samirəyə qayıtdı»[5Ə]. Buğa gedəndən sonra Məhəmməd ibn Xalid üçüncü dəfə Ərminiyyə və Arranın valisi təyin olundu. Onun ölüm ili məlum deyil.

## § 5. Köçəri şimal tayfalarının Şirvan və Arrana gəlmələrinə dair

Köçəri türk tayfalarının eramızın ilk əsrlərində Qafqaz Albaniyası ərazisinə gəlmələri məsələsi Azərbaycan xalqının etnogenez probleminin araşdırılması üçün mühüm əhəmiyyətə malik olub, qədim Azərbaycanın türkləşməsi məsələsilə sıx bağlıdır. Şimali Qafqazda və Dağıstanın dənizsahili ərazilərində yaşayan bu tayfalar artıq eramızın ilk əsrlərindən Dərbənd keçidindən Albaniyaya keçib gəlirdilər. Sonralar - V-VI əsrlərdən tarixi ənənəyə görə Sasani hökmdarları yalnız Zaqafqaziya ölkələrinin deyil, İranın da təhlükəsizliyini hədələyən köçəri türk tayfalarının axınının qarşısını almaq üçün burada möhtəşəm istehkamlar tikmişdilər[1]. Türk tayfalarının Albaniya ərazisinə ilk dəfə nə vaxt gəlmələrinin aydınlaşdırılması üçün Dərbənd səddinin tikilmə tarixi məsələsi mühüm əhəmiyyət kəsb edir.

Artıq eramızın ilk əsrlərindən etnolinqvistik proseslərin ən mühüm komponentlərindən olan türk etnosu qonşu Albaniyanın tarixi inkişaf mənzərəsini xeyli dərəcədə dəyişdirdi. Məlumdur ki, Azərbaycan xalqının təşəkkülündə müxtəlif - türk, İran, Qafqaz etnik ünsürləri iştirak etmişlər. Türk ünsürləri azərbaycanlıların etnogenetik inkişafında mühüm rol oynamış, onlara etnosun başlıca təyinedici əlaməti olan dil vermişdir[2].

Erkən orta əsr mənbələri Şimali Qafqazda, Dağıstanın sahilboyu rayonlarında Dərbəndə qədər Qafqaz dağları ətrafında yerləşdirilən və artıq eramızın əvvəllərindən Şimali Albaniya ərazisinə axışan müxtəlif türk tayfaları haqqında məlumat verirlər. Lakin bizim əlimizdə köçəri türk tayfalarının III əsrdən əvvəl Albaniyada olmasına dair məlumat yoxdur. Arxeoloji dəlillər Albaniya ərazisindəki qədim türklər haqqında qiymətli məlumat verir. 1935-ci ildə Y. İ. Qummel Gəncəçay bölgəsində Xanlardan cənub-qərbdəki 7 nömrəli kurqanda qazıntı aparmışdır. Qarətçilər altı qədim qəbirdən yalnız birinə - 3-cü sərdabəyə toxunmamışdılar. Nisbətən iri olan bu qəbirdə ağ gildən 10 sm qalınlığında düzəldilmiş xüsusi döşənəkdə uzadılmış iki adam və bir tısbağa dəfn olunmuşdu. Skeletdən aydın olur ki, onlardan biri arxası üstə boyaboy, digəri isə sağ böyrü üstə, ayaqları bükülü halda birincinin baş tərəfində uzadılmışdı. Tısbağa qəbirin qərb küncündə arxası üstə idi. Görünür, tısbağa müqəddəs heyvan sayılmış və onu öldürmək qadağan imiş. Bu günə qədər də Azərbaycanda tısbağanı öldürmək günah sayılır. Azərbaycanın bir sıra bölgələrində - Gəncədə, Mingəçevirdə, Abşeronda və başqa yerlərdə qədim torpaq, katakomba və kurqan qəbirlərində məzarın küncündə tısbağa qınına rast gəlinir.

Abşeron yarımadasının şərq hissəsində, Mərdəkan, Şüvəlan qəsəbələri sahəsində Tunc dövrünün sonu və Dəmir dövrünün əvvəlinə aid bir sıra qədim abidələr aşkar edilmişdir. Arxeoloq Q. M. Aslanovun apardığı arxeoloji qazıntılar zamanı içərisində avadanlıq olan bir neçə qəbir üzə çıxarılmışdır. Buradakı çoxlu əşyalar - keramika məmulatı, silah, bəzək şeyləri ilə yanaşı, tısbağa qını və sümükləri də diqqəti cəlb edir. Həmin dövrə aid Mingəçevir qəbirlərində də tısbağa qını və sümükləri tapılmışdır. Qəbirlərdə tısbağa qını və qalıqlarının olması, görünür, burada yaşamış qəbilələrin dəfn mərasimi ilə bağlı olmuşdur. Tısbağa qədim zamanlarda Çində əbədiyyət rəmzi idi. Qədim türklərin qəbir əşyaları arasında tısbağa da vardır. Şimali Monqolustanda türk xaqanı Kül-Tiginə 731-ci ildə imperator Syuantszunun göndərdiyi çinli ustalar tərəfindən tikilmiş yaraşıqlı abidədə arxasına runik kitabəli stela bərkidilmiş çox iri (uzunluğu 2,25 m) mərmər tısbağa tapılmışdır.

Qədim türklər bu adəti çinlilərdən götürmüşlər. Ehtimal ki, Abşeronda, Mingəçevirdə, Gəncədə və digər yerlərdəki, tısbağa ilə dəfnetmə qədim türklərə məxsusdur. Bu göstərir ki, e. ə. birinci minilliyin əvvəllərində Albaniya ərazisində irandilli və qafqazdilli tayfalarla yanaşı, qədim türk tayfaları da yaşayırdı. Burada onların sayı eramızın əvvəllərində və sonralar Dərbənd keçidi vasitəsilə şimaldan gələn köçəri türklər hesabına artırdı. Biologiya elmləri namizədi R.M.Qasımovanın Azərbaycanın qədim əhalisinin antropoloji tiplərinin respublikanın müasir əhalisinin antropoloji tiplərinə uyğun gəlməsinə dair tədqiqatları da fikrimizi təsdiqləyir və müasir Azərbaycan türkləri ilə qədim türklər arasında varislik əlaqələrinin olduğunu təsdiq etməyə əsas verir. Mil düzündə, Üçtəpə kurqanında aparılan qazıntı zamanı VII əsrin əvvəlinə, yaxud birinci yarısına aid edilən adlı-

sanlı Xəzər döyüşçüsünün qəbri aşkar edilmişdir. Dərbənd və Qəbələ ətrafında xəzərlər və hunlar üçün səciyyəvi olan deformasiyaya uğramış uzunsov kəllələr tapılmışdır. Məlumdur ki, Qəbələ bölgəsi VI əsrdə türk tayfaları ilə məskunlaşmışdı və bu şəhər sabir tayfalarının mərkəzi sayılırdı. Qədim türk tayfalarının Albaniyada olması barədə arxeologiya ilə yanaşı, «etnik mənsubiyyətin müəyyənləşdirilməsində qiymətli material, çox vaxt yeganə və başqaları ilə müqayisədə ən doğru mənbə»[3] olan toponimika da məlumat verir. Əgər bir dilə mənsub coğrafi ad uzun müddət ərzində qorunub-saxlanırsa və böyük ərazidə yayılırsa, inamla demək olar ki, orada məhz həmin dildən istifadə olunmuş və o dildə danışan əhali yaşamışdır.

Azərbaycanlıların etnogenlərində iştirak etmiş türk tayfa qruplarının adları Azərbaycanın bir sıra yaşayış məntəqələri, kənd və yer adlarında mühafizə olunmuş etnonimlərdə (yaxud antroponimlərdə) əksini tapmışdır. Qədim türk dillərinin leksikası ilə bağlı olan bir sıra toponimlər də mövcuddur. Bu toponim və etnonimlərin öyrənilməsi türk tayfalarının Albaniyaya axınının və azərbaycanlıların mənşəyi məsələsinin tədqiqi baxımından mühüm maraq doğurur. Coğrafi adların bir sıra toponimləri qədim dövrə və eramızın ilk əsrlərinə gedib çıxır. Onlardan biri yunan-latınca Albaniya formasının müvafiq gəldiyi Arrandır. Məlumdur ki, antik və yunan - Roma tarixçiləri, coğrafiyaşünasları qədim və erkən orta əsrlər Azərbaycan ərazisinin mühüm bir hissəsini Albaniya adlandırmışlar[*]. Arran ölkəsinin adının ilk dəfə çəkilməsi III əsrdən, İranda, Nəqşi - Rüstəm dərəsindəki Kəbeyi-Zərdüşt abidələrində Sasani hökmdarı I Şapurun (242-272-ci illər) zəbt etdiyi ölkələr sadalanan kitabədən məlumdur.

Təqribən 262-ci ildə üç dildə (Parfiya, yunan və fars) həkk olunmuş kitabənin mətnində Şapura tabe olan ölkələrin sadalandığı uzun siyahıda Zaqafqaziya ölkələri də (Parfiya versiyasında) qeyd edilmişdir.

| | |
|---|---|
| (t'r] pt (k) n | Atrpatakan Atropatena |
| 'rmny | Ərmini Ərminiyyə |
| wyrsn | Virşi İberiya |
| sykn | Sikn Maxeloniya |
| 'rdn | Arran və Albaniya qapıları |
| bl'skn | Balasakan Balasakan |

Kitabənin yunan versiyasının bu hissəsində 2-3-cü sətirlər aşağıdakı şəkildə oxunur: «Atropatenanı, Ərminiyyəni, İberiyanı, Maxeloniyanı (ölkəni ta) Kapkoxa (Qafqaz dağlarına) və Alban (qapılarına) qədər»[4]. Beləliklə, Arranın ekvivalenti Albaniya olmuşdur. Həmin Albaniya formasını ermənilər yunan-Roma mənbələrindən, erməni dilinin fonetikasına uyğun olaraq, Alvank- Ağvank[5]

[*] «Albaniya» və «Arran» adları məsələsindən Y. B. Yusifov daha ətraflı bəhs etmişdir. Onun fikrincə, Arran sözünün mənşəyi bilavasitə, yaxud dolayısı ilə İber-Qafqaz dillərinə gedib çıxır. Lakin onun istifadə olunan materialların filoloji təhlilinə əsaslanan nəticələri inandırıcı deyil.

şəklində götürmüşlər.

«VII əsr erməni coğrafiyası»nda deyilir ki, İran dörd inzibati vahidə (əyalətə) bölünür; onlardan Kusti-Kapkox Qafqaz tərəfdədir. Kusti-Kapkoxun (Qafqazın) tərkibinə daxil olan otuz ölkə arasında «Azərbaycan, Ərmən, Varacan, yaxud iberlər, Ran, yəni aqvanlar, Balasaqan, Sisaqan, Gelan və i. a.» xatırlanır[6]. Lakin erməni mənbələri Ağvan və Ran adları ilə yanaşı, Arran adını da hifz etmişlər. Bu ad V-VI əsrlərin ayrıcında Moisey Xorenliyə artıq məlum idi. O, Arranı Albaniyanın əfsanəvi hökmdarı adlandırır[7]. Arran sözünə mürəkkəb toponimin tərkib hissəsi kimi «Erməni coğrafiyası»nda bir neçə yerdə rast gəlinir: «Arsaxda Mets-Arrank (Böyük Arran), Arran-rot (Arran çayı, ehtimal ki, Araz), Utidə Arran-cnak vilayəti, Paytak-Arran-vilayət və şəhər adı»[8]. VI əsr (555-ci il) Suriya mənbəyində, ehtimal ki, fars və ya erməni mənbələrindən keçmə Arran[9] forması qeyd olunmuşdur. Orta əsrlər gürcü mənbələrində- Cuanşerdə (V-VII əsrlər), Leonti Mrovelidə (XI əsr), Matiane Kartlisdə (XI əsr) və b.[10] - Arranın qısaldılmış forması olan Rani adı qalmışdır. Arran və Albaniya formalarına isə heç bir yerdə rast gəlinmir. IX-X əsr ərəb yazılı mənbələrində Albaniya adı ərəblərin onu zəbt etdikləri vaxtlardan etibarən Əlran (əl-Ran) və Ərran (ər-Ran)[11] kimi qeyd olunsa da, hər ikisi eyni cür – Ərran tələffüz edilir*. Çəkilən adlara əsasən hesab etmək olar ki, Arran sözü Şirvan ərazisinin də daxil olduğu Albaniyanın - qədim Azərbaycanın qədim yerli adıdır. I Şapurun (242-272-ci illər) kitabəsinin Parfiya versiyasında mühafizə olunmuş Arran sözü «isti yer, düzənlik» mənasında bu günədək yalnız Azərbaycan dilində qalmışdır. Arran sözünə qədim türk dillərindən savayı Şərq dillərinin heç birində rast gəlinməmişdir. Qədim türk dillərində isə onun aşağıdakı mənaları vardır:

*Aran (aran)* - mal-qara saxlanılan yer, tövlə[12].

*Aran (aran)* - ağıl (arxac), tövlə, pəyə, örtülü yer, külək tutmayan və dağətəyi yer, vadi, çöl və i. a.[13] (kursiv mənimdir - S. *A.).*

Göstərilən mənalar qədim türk qəbilələri üçün səciyyəvi olan maldarlıq təsərrüfatı və köçəri həyat tərzi ilə bağlı olub, qədim türk və oğuz dilləri qrupuna (Azərbaycan dili də bu qrupa daxildir) mənsub olan salar dilinin sözləri ilə izah edilir. Salar, salır, yaxud sala (Çin dilində salatszu) etnonimi oğuz etnik adlarına aiddir. Mahmud Kaşqaridə (XI əsr) oğuz tayfa adlarından birinin ən qədim forması - salqur - göstərilir. Azərbaycan və Cənubi Qafqaz ərazisində 241 oğuz tayfa etnonimindən mühafizə olunmuş 18 etnonim arasında salur adı da var[14].

Qədim zamanlarda salqurlar (salurlar, salorlar) oğuz tayfalarının tərkibində qərbə doğru hərəkət edərək, Sırdərya çayına qədər gəlib çatmış və qismən Səmərqənd yaxınlığında məskunlaşmışlar. Sonra daha da irəliləyərək, müasir Türkmənistanın ərazisinə çatmış, bir qədər sonra türkmən xalqının tərkibinə daxil olmuşlar. Bundan sonra salarların dalğası Kiçik Asiyaya yetişmişdir. Burada onlar

---

* IX əsrdən başlayaraq ərəb mənbələrində Ərran kimi yazılır və tələffüz olunur.

tədricən türklərlə qaynayıb-qarışmış və öz izlərini Şərqi Anadolunun toponimikasında saxlamışlar[15]. Məlumdur ki, qədim türk tayfaları Şirvan və Arrana eramızın ilk əsrlərindən gəlməyə başlamışlar. III əsrin birinci yarısında hunlar, sonra IV-VI əsrlərdə onoğurlar, bulqarlar, sabirlər, xəzərlər və bir sıra digər tayfalar Dərbənd keçidi vasitəsilə Şimali Qafqazdan və Dağıstandan Şirvana və Arrana gəlib çıxırdılar[16]. Ehtimal etmək olar ki, III əsrdən xeyli əvvəl salarların böyük bir dəstəsi Zaqafqaziyaya, Albaniya və Arrana keçərək, buranın avtoxton əhalisi tərəfindən assimilyasiyaya uğramış və ölkənin toponimikasında iz salmışdır. Köçəri türk tayfalarının V-VI əsrlərdə xüsusilə güclənmiş basqınlarının qarşısını almaq üçün Sasani hökmdarları dövlətin şimal sərhəddində - Dərbənd keçidində möhtəşəm qalalar tikirdilər. Son illərdə Dərbənddə aparılan arxeoloji qazıntılar nəticəsində eramızdan əvvəl VIII-VI əsrlərə aid müdafiə divarlarının qalıqları aşkara çıxarılmışdır. VI əsrdə həmin divarların üzərində köçəri türklərə qarşı, mənbələrin I Xosrov Ənuşirəvana isnad etdikləri, daha son dövr divarları tikilmişdir[17]. Arxeoloji məlumatlar göstərir ki, türk tayfaları Dərbənd keçidi vasitəsilə Albaniyanın canubuna - Arrana XI əsrdən xeyli əvvəl, eramızın ilk əsrlərində keçib gələ bilərdilər. Arran toponiminin etimologiyasının aydınlaşdırılması Albaniyanın hələ eramızın əvvəllərində qədim türk tayfaları tərəfindən məskunlaşdığını ehtimal etməyə imkan verir. Həmin köçəri tayfaların başlıca təsərrüfat məşğuliyyəti düzənlik və çöllərdə maldarlıq etmək idi. Sözün ilkin dar mənası - «mal-qara saxlanılan yer, ağıl (arxac), pəyə, tövlə», - sonralar daha geniş məna - «külək tutmayan yer, dağətəyi, vadi, çöl» - kəsb edir.

Gətirilən materiallar şəksiz təsdiq edir ki, Arran Albaniya ölkəsinin - qədim Azərbaycanın III əsrdə I Şapurun kitabəsində təsbit olunmuş ən qədim yerli adıdır. VII əsrdə Azərbaycanı istila etmiş ərəblər ölkə və şəhərlərin eşitdikləri yerli adlarını sonralar - IX-X əsrlərdə öz əsərlərində çox dəqiq şəkildə əks etdirmişlər. Ərəb mənbələrində xatırlanan bu adların bir çoxu dövrümüzədək gəlib çıxmışdır. Maraqlıdır ki, Albaniya adına heç bir ərəb müəllifində rast gəlinmir. Yaqut Həməvi göstərir ki, Arran geniş vilayətin və çoxlu şəhərin ərəbcə adı deyil[13]. Avtoxton əhali tərəfindən assimilyasiyaya uğrayan köçəri türklərin yerli oturaq əhalinin həyat tərzinə təsiri yalnız dildə deyil[19], həm də, kənd təsərrüfat işlərinin, xüsusilə, onun başlıca sahəsi olan maldarlığın aparılmasında, habelə, dini görüşlərdə və incəsənətdə də nəzərə çarpır. Məlumdur ki, Azərbaycanda qədimdə olduğu kimi, orta əsrlərdə də oturaq və köçəri maldarlıq formaları aparıcı rol oynayırdı. Lakin mütəxəssislər yarımköçəri maldarlığın artıq erkən orta əsrlərdə yarandığını və tədricən inkişaf etdiyini göstərirlər. «Əgər bu son forma başqa ölkələrdə, xüsusilə, Orta Asiyada ta qədim zamanlardan yayılmışdısa, Azərbaycanda onun yayılmasını erkən orta əsrlərə aid etmək lazım gəlir. Hərçənd, ola bilər ki, o, bir qədər əvvəllər də mövcud olmuşdur. Şübhəsiz, burada yarımköçəri maldarlığın yayılmasında gəlmə köçəri tayfalar mühüm rol oynamışlar. Belə ki, hələ e. ə. IV-V əsrlərdə Azərbaycan türkdilli tayfaların hücumlarına məruz qalmışdı...»[20] Azərbaycanda

son vaxtlara qədər davam edən bütün əhalinin öz sürüləri ilə yeni otlaqlar axtardığı yarımköçəri maldarlığın, başlıca olaraq, qoyunçuluğun meydana gəlməsi, ehtimal ki, köçəri türklərin eramızın əvvəllərində Şirvana, Arrana, Qarabağa, Mil, Muğan və Şirvan düzlərinə köçməsi ilə bağlıdır.

Demək olar ki, il boyu şirəli yem otları ilə zəngin olan çöl rayonlarının isti iqlim şəraiti qoyunçuluq və mal-qara üçün əlverişli idi. Buna görə də qədim türk qəbilələri əsrlər boyu əlverişli otlaqlar sorağı ilə, habelə orta əsrlər Albaniyasının varlı şəhər və kəndlərini qarət etmək məqsədilə Şirvana və Arrana can atmışlar. Köçəri türklərin Albaniyanın aborigen əhalisinə təsiri dini görüşlərdə və incəsənət əşyalarında müşahidə edilir. Şamaxı rayonunda, Xınıslı və Çıraqlı deyilən yerlərdə aparılan arxeoloji qazıntılar zamanı üslubi baxımdan qədim türk daş heykəllərini xatırladan və əcdadlara sitayiş kultunu əks etdirən iyirmidən çox monumental (adam boyundan hündür) daş heykəl aşkar olunmuşdur. Bu heykəllərin tarixi indiyədək dəqiqləşdirilməmişdir; e. ə. birinci minilliyin sonundan V-VI əsrlərinədək aid olduğu fərz edilir[21]. O vaxtlar Qafqaz Albaniyasında Yeddi su və Qazaxıstan, cənubi Sibir, Tuva və Monqolustan daş heykəltəraşlığını xatırladan monumental heykəltəraşlığın meydana gəlməsi, ehtimal ki, oxşar bədii ənənəyə malik müxtəlif köçəri tayfaların - hunların, sabirlərin, bulqarların, xəzərlərin miqrasiyası ilə bağlıdır. Həmin tayfalar ölkədə iri kompakt kütlələrlə oturaq həyata keçir, yerli əhali ilə qaynayıb-qarışaraq türk dilini, öz məişət tərzini və mədəniyyətini yayırdı. Lakin bütün bu məsələlər xüsusi tədqiqata möhtacdır.

Toponimik məlumatlarla yanaşı, Albaniya ərazisindəki və qonşu Dağıstandakı köçəri türk tayfaları haqqında müəyyən məlumat verən erkən orta əsrlərə sinxron yazılı mənbələri nəzərdən keçirək.

Klavdi Ptolemeyin (II əsr) «Coğrafi təlimnamə» əsərində Qafqaz və Kerav dağları[*] arasında yaşayan tayfalar sadalanır: «tusklar (türklər?)[**] və didurlar (didolar)[***], Xəzər dənizi boyunca udlar (udinlər), olondlar (alanlar), isondlar (svanlar) və gerlər...» Sonra Ptolemey «Albaniya boyunca Kirkan dənizinə - Soana çayının mənsəbinədək uzanan ölkənin» adını çəkir. Bu çayın ardınca Alonta, Udon və Ra[25] (Volqa - S. *A.)* çaylarının mənsəbi gəlir.

«Erməni coğrafiyası»nda[26] Xəzər dənizi, ona tökülən çaylar, hövzəsində yaşayan tayfa və xalqlar haqqında qiymətli məlumatlar vardır. Bu mənbədə, Zaqafqaziya ölkələri, o cümlədən, Albaniya, onun vilayətləri və şəhərləri haqqında da mühüm məlumatlar verilir. S. T. Yeremyanın tədqiqatları göstərir ki, «Erməni

---

[*] Antik müəlliflər Baş Qafqaz silsiləsinin Xəzər dənizi sahillərindəki şimal-şərq hissəsini Kerav adlandırırdılar. Ptolemey onu Qafqaz dağlarından şimal-şərqdə, daha doğrusu, şimali Qafqazda yerləşən ayrıca dağ hesab edir[22].

[**] Latışevin fikrincə, bu ad Pomponi Melin xatırladığı və Donda[23] lokalizə edilən Tiçsae, yaxud Tuçsae tayfasının adı ilə eyniyyət təşkil edir. Ehtimal ki, bu tayfa Dağıstanda lokalizə edilir.

[***] Bu tayfa Qafqaz və Kerav dağları arasında, yəni Şimali Dağıstanda yaşayan tayfa kimi xatırlanır. Tomaşek onları gürcü mənbələrində adları çəkilən son dövr ləzgi «dido»ları ilə tutuşdurur[24].

coğrafiyası»nın müəllifi öz mətnini təfsir edərkən, əsasən, Ptolemeyin xəritələrinə istinad etmiş və xəritələrini onların əsasında tərtib etmişdi[27]. Lakin bu mənbədə Ptolemeydə olmayan bir sıra qiymətli məlumatlar vardır. Belə ki, Albaniya Xəzər dənizinin şimal-qərbində Kesius (Samur?) çayının yaxınlığında lokalizə edilir. Sonra Ptolemeyin qeyd etdiyi çayların - Qafqaz dağlarından başlanıb, Xəzər dənizinə tokülən Kerras, Sontas, Alonta və Udon çaylarının mənsəbi göstərilir. Daha sonra deyilir ki, bu dörd çayın adlarını daşıyan xalqlar (yəni tayfalar - S. *A.)* skif və apaxtara[*] - türk xalqlarına mənsubdur. «Erməni coğrafiyası»nın müəllifi daha sonra izah edir ki, «Apaxtaralar, yəni türklər Skifiyada yaşayır»[28].

Əgər Udonu Kuma, Alontanı isə Terek[29] kimi qəbul etsək, onda ehtimal ki, Suntas (Ptolemeydə Soana) Sulak, Kerras isə Gülçəriçaydır[**]. Udon, Udin və əsas alban tayfalarından olan udlar, yaxud udinlər arasındakı səs uyarlığı xüsusilə diqqəti cəlb edir. Udona türk sözü kimi yanaşsaq, o, ahəng qanununu saxlamış daha qədim formaya malikdir. Udin, ehtimal ki, Qafqaz mühitində dəyişikliyə uğramış və təhrif olunmuş daha yeni formadır. «Azərbaycan və udin dillərinin qarşılıqlı əlaqələri»nə həsr olunmuş əsərdə geniş linqvistik materiala əsaslanaraq, udin dilində külli miqdarda qədim türk sözlərinin olduğu sübut edilir»[30]. Ptolemeydə və «Erməni coğrafiyası»nda qeyd olunan dörd çayın hövzəsində yaşayan türklər haqqında verilən xəbərlərdə udonların adının çəkilməsinə əsasən ehtimal etmək olar ki, Plini (I əsr)[31] və Strabona (e. ə. I əsr - eramızın I əsri) da məlum olan udinlər eramızın ilk əsrlərində Albaniya ərazisində qonşu alban tayfaları tərəfindən assimilyasiyaya uğrayaraq, öz dillərində çoxlu qədim türk sözləri qoruyub saxlamış türk tayfalarından biri olmuşdur. Lakin, şübhəsiz, Markvartın göstərdiyi kimi, türkdilli tayfalarla təmasda olan udinlər onlardan çoxlu qədim türk sözləri əxz etmişlər[33].

Bu günədək Dağıstanda, Kuma çayı yaxınlığında yaşayan qumuqlar, ehtimal ki, həmin müəlliflərin qeyd etdikləri Qafqazda məskunlaşmış qədim köçəri türklərin nəsilləridir.

Hunların, onoqurların, bulqarların, savirlərin və xəzərlərin Albaniyaya gəlmələri və buraya hücumları haqqında bir sıra erkən orta əsr müəllifləri bəhs etmişlər. Hunlar Qafqaza ilk dəfə II əsrin ortalarında, Albaniyaya isə III əsrin əvvəllərində və IV əsrin sonlarında (395-ci il) gəlmişlər[34].

V əsr Bizans müəllifi Panili Prisk 448-ci ildə Atillanın düşərgəsində görüşdüyü Roma səfiri Romulun dilindən hun dəstələrinin bundan xeyli əvvəl Midiyaya, yəni Cənubi Qafqazdakı Sasani torpaqlarına - Albaniyaya hücum etdiklərini xəbər verir. Meotis gölündən (Azov dənizi) 15 gündən sonra dağları (Böyük Qafqaz) aşaraq, Midiyaya gəlib çatan hunlar buranı qarət etdilər. Geri dönərkən düşmənin - farsların həmləsindən yaxa qurtarmaq məqsədilə onlar «sualtı

[*] Apaxtara - fars sözü olub, şimal xalqları deməkdir (Sukrinin qeydidir).
[**] Sulak çayı Mahaçqaladan şimalda Xəzər dənizinə tökülür. Gülçəriçay - Dağıstanda çaydır.

qayalarından alov qalxan (ex petra maritima flamma ardet)» başqa yolla gedərək, dağları aşıb öz ölkələrinə qayıtdılar[35]. Panili Priskin Abşeron yarımadasına və onun yanar qazlarına aid olan bu məlumatı göstərir ki, V əsrdə və sonralar hunlar, başqa köçəri türklər kimi, dəfələrlə gəldikləri bu ölkənin yolunu tanıyırdılar, hətta, ehtimal ki, burada yerli əhali ilə qaynayıb-qarışaraq məskunlaşırdılar.

Hunların, sabirlərin, xəzərlərin və başqa türk tayfalarının Albaniyaya dəfələrlə hücum etmələri barədə V-VIII əsr erməni müəllifləri Yeğişe, Favstos Buzand və Gevondun əsərlərində məlumatlar vardır. Yeğişe Artamonovun və başqalarının hunlarla eyniləşdirdikləri xaylandurların V əsrin 40-cı illərində və 460-462-ci illərdə sərhəd qalası Çoradan (Dərbənd bölgəsi) keçərək, Albaniyaya hücum etdiklərini xəbər verir[36]. Favstos Buzandda hunların adı IV əsrin 30-cu illərində Kürü keçərək, Albaniyanı və Ermənistanı tutan Masqut hökmdarı Sanasenin qoşunları* sırasında çəkilir[37]. Ehtimal ki, «Ağvan tarixi»ndə də həmin hücumdan bəhs olunur və onun 440-cı ildən az sonra baş verdiyi göstərilir. Sonuncu əsərdə deyilir ki, rosmosokların (massagetlərin - masqutların) hökmdarı «öz qoşunlarını və quzğun dəstələrini, eləcə də, bütün hun qoşunlarını toplayıb Kürü keçdi, utilərin vilayətinə səpələnərək Xalxal şəhəri yaxınlığında düşərgə saldı»[38] (müasir Qazax-Ağstafa bölgəsində). Ehtimal ki, burada hun adı altında Albaniyaya, oradan da Ermənistana və Gürcüstana hücumlar edən şimal köçəriləri - savirlər nəzərdə tutulur. Hələ Ptolemeyin (II əsr) adını çəkdiyi savirlər Volqadan şərqə və qərbə doğru Xəzər sahili çölləri tutan aorslarla qonşuluqda yaşayırdılar[39]. Ehtimal ki, onlar elə həmin vaxtlarda Dərbənd keçidindən keçərək, Arrana (Albaniyaya) girirdilər. Savirlər V əsrin ikinci yarısından Dağıstanda Kuma çayı rayonunda, Xəzər dənizi və Qafqaz dağları boyunca Dərbəndədək olan ərazidə məskunlaşdılar[40]. Bizans yazıçıları dəfələrlə «sabir adlandırılan hunlardan» bəhs etmişlər[41]. 503-cü ildə savirlər fars qarnizonunun mühafizə etdiyi Dərbənd keçidini yarıb keçdilər və şərqdən Qafqaz sıra dağlarındakı keçidləri aşaraq, Albaniya və İberiyaya soxulub, zəngin şəhər və kəndlərini tutdular. Savirlərin Sasani dövlətinin şimal əyalətlərini işğal etməsi xəbərini Bizansla müharibə zamanı qoşunları ilə birlikdə Dəclə çayındakı Kallinik yaxınlığında eşidən Sasani şahı Qubad sərkərdə Şapuru 12 minlik süvari ilə türklərin üstünə göndərdi. Şapur Arrana daxil olan savirləri Araz çayı ilə Şirvan arasındakı vilayətlərdən (Mil, Muğan və Şirvan düzləri) sıxışdırıb çıxardı. 508-ci ilə qədər davam edən hərbi əməliyyatlar nəticəsində Qubad savirləri Qafqaz dağlarının arxasına sıxışdırdı, Dərbənd və Dəryal keçidlərində möhkəmləndi[42]. VI əsrdə Dağıstanda, Albaniya ilə sərhəddə savirlərin sayı təqribən 100 min nəfərə çatırdı[43]. Həmin vaxtlar və ondan əvvəllər onlar Dərbənd keçidindən keçərək dəfələrlə Albaniyaya, oradan Ermənistana, Gürcüstana və Bizans vilayətlərinə basqınlar edirdilər. VI əsrin ortalarında Qafqazda ən güclü və sayca ən böyük xalq olan savirlər öz məskənlərinin mərkəzi

---

* M. Artamonov Sanasenin bu yürüşünü V əsrə aid edir.

sayılan Dərbənd-Qəbələ bölgəsində bütün şimali Albaniyanı (Şirvan və Arran) tutaraq, 100 ildən çox burada qaldılar[44]. Bu hadisələrlə əlaqədar Alban katalikosluğunun iqamətgahı Çordan-Dərbənddən Partava-Bərdəyə köçürüldü[45]. Görünür, bu zaman savirlərin bir hissəsi oturaq həyata keçərək, ölkənin yerli əhalisi ilə qaynayıb-qarışmışdı[46].

Türklərin şimaldan etdikləri aramsız hücumlardan və onların qüdrətindən qorxuya düşən Sasani hökmdarları I Qubad və I Xosrov Ənuşirəvan özlərinin şimal sərhədlərini köçəri türklərin basqınlarından müdafiə məqsədilə bir sıra iri istehkamlar və məşhur Dərbənd səddini[47] çəkdirdilər, çoxlu qala və şəhər saldırdılar, Xorasandan, Lahicandan, Təbəristandan, Gilandan və başqa yerlərdən bir sıra irandilli tayfaları şimal-qərbi Albaniyaya, yəni Şirvan zonasına köçürdülər[48]. Həmin yerlərin adları bu bölgədə iz buraxmışdır. Mənbələr (VI əsr pəhləvi məxəzindəki məlumatları hifz etmiş İbn Misqəveyh, IX əsr) təsdiq edirlər ki, I Xosrov Ənuşirəvan (531 -579-cu illər) savirlərə qalib gəldikdən sonra Şimali Qafqazın dörd türk tayfasından olan 50 min nəfərdən ibarət 3 min ailəni Arrana və Azərbaycana köçürdü. İbn Misqəveyhin dediyinə görə türklərin qafiləsi (dəstəsi) on fərsəxədək uzanırdı[49] (təqribən 60 km). Başqa məlumatlara görə, Azərbaycanda yerləşdirilən əsirlərin sayı 10 min nəfərə çatırdı[50] Savirlərin bir hissəsi könüllü surətdə Arrana köçərək, Bələncər, Gəncə, Qazax və başqa yerlərdə məskunlaşdı. I Xosrov Ənuşirəvan Bizansla müharibədə istifadə etmək məqsədilə onların Sasani dövlətinə keçmələrinə imkan verdi. Onlar torpaq payı aldılar, Arran və Azərbaycan mərzbanlarına tabe edildilər.

Bizans tarixçisi Menandrın verdiyi məlumata görə, savirlər 575-ci ildə Kür və Araz çayları arasındakı və Kür boyunca şimal-qərbdə yerləşən torpaqlara köçürüldülər[51]. Görünür, savirlərin çoxu avtoxton əhali ilə qaynayıb-qarışaraq oturaq həyata keçmişdi. Bu əlaqələr Arran və Şirvanda türk dilinin yayılmasına əlverişli şərait yaradırdı. Azərbaycan toponimikasında savirlərin adı Qala Suvar, Bilə Suvar (birinci komponent - Bilə - şəhər, yer bildirirdi) yer adlarında əksini tapmışdır.

«Erməni coğrafiyası»nda Xəzər dənizindən şimal-qərbdə Atil (Volqa) çayınadək ərazidə yaşayan savirlərdən başqa çayların adları ilə adlandırılan türk və bulqarların: kufi (Kuban) bulqarlarının, duçi (Dunay) bulqarlarının, oqxondor (Bizans yazıçılarında onoqur, onoqundur-S. A.) bulqarlarının[*], çidar bulqarlarının (?) da adları çəkilir; müəllif bu adların Ptolemeyə məlum olmadığını qeyd edir. Ehtimal ki, bulqarlar da savirlərlə birlikdə Azərbaycana gəlmişlər, belə ki, onların adı Azərbaycan toponimikasında Bolqar çayının (Cəlilabad rayonu) və Lənkəran rayonunda mövcud olmuş Bolxar yaşayış məntəqəsinin adında qalmışdır. «Erməni coğrafiyası»nda, həmçinin, şimalda, Kür çayının yaxınlığında varazmanavar

[*] Erməni mətnində bu ada «yekn» sözü əlavə edilmişdir ki, bu da, ola bilər, «gəlmələr» deməkdir. (Patkanovun qeydi).

etnoniminə də rast gəlinir; bu sözün ikinci komponenti - avar, ehtimal ki, avarların Albaniyada sakin olduqlarını göstərir[52].

Müxtəlif türkdilli tayfaların Albaniyaya gəlmələri VI əsrdə, xüsusilə intensiv şəkil almışdır. Məlumdur ki, türklər (türkütlər) şərqdə Çinə, qərbdə isə Qafqaza və Bizansa qədər uzanıb gedən imperiya yaratmışdılar. VI əsrin ikinci yarısında türklər Qafqaza lap yaxınlaşmışdılar. Artıq bu vaxta qədər Qafqazdan keçən yol onlara bəlli idi. Belə ki, Bizanslı Menandrın (VI əsr) verdiyi xəbərə görə türküt xaqanı Dizavul (İstəmi) İranla, sonra isə Bizansla ipək ticarəti yaratmaq məqsədilə 568-ci ildə Altaydan səfirlik göndərmişdi. Həmin səfirlik «Qafqaz dağlarının özünü aşaraq» Bizansa gəlib çıxmışdı[53]. Ehtimal ki, səfirliyin yolu türklərə məlum olan Dərbənd keçidindən və Şimali Albaniyadan keçib Gürcüstana gedirdi. Bu ərəfədə türk tayfalarının Albaniyaya axını güclənmişdi.

VII əsrin ortalarında ərəblərin Zaqafqaziyaya hücumu və onların Dərbənddən şimalda Xəzər vilayətlərinə soxulmaq cəhdləri ilə əlaqədar Albaniyada, o zamanlar Şimali Qafqazda və Volqanın mənsəbində güclü səltənət yaratmış xəzərlər zahir oldular. Onlar 662-ci ildə Dərbənddən Albaniyaya soxuldular, lakin Albaniya hökmdarı Cavanşir tərəfindən geri oturduldular[54]. 664-cü ildə xəzərlər yeni, daha güclü hücuma keçərək, Kürü adlayıb Araz sahillərinə çatdılar, çoxlu əsir tutdular və Muğan düzündən külli miqdarda mal-qara qovub apardılar[55]. 684-cü ilin hücumu da Albaniya üçün belə dağıdıcı oldu[56]. Həmin vaxtdan etibarən ölkə kütləvi surətdə Albaniyada məskunlaşan və yerli əhali ilə qaynayıb-qarışan xəzərlərin hakimiyyəti altına düşdü. Alban hökmdarı soydaş tayfa məliklərini və katalikosu çağıraraq, xəzərlərə tabe olduğunu və «onlarla qohum olmağı rüsvayçılıq» saymadığını bildirdi[57].

Türk tayfalarının Dərbənd keçidindən Qafqaz Albaniyasına miqrasiyası sonralar-VIII əsrdə də davam edir. VIII əsrin əvvəllərində ərəblər şimala - Dərbəndə, daha sonra Dağıstana istilaçılıq yürüşlərinə başladılar. Onlar burada dəfələrlə Albaniyaya basqın edərək, onun qala və şəhərlərini tutub dağıdan xəzər və digər türk tayfalarının çoxsaylı ordusu ilə qarşılaşdılar[58]. 729-cu ildə xəlifə Hişam (724-743-cü illər) Cərrah İbn Abdullanı ikinci dəfə geri çağırdığı Məsləmə ibn Əbd əl-əl Məlikin yerinə «Ərminiyyə və Azərbaycan» hakimi təyin etdi. Cərrah tezliklə şimala qarşı yeni hücuma başladı[59].

VIII əsr müəllifi Gevondun verdiyi məlumata görə, xəlifə Hişamın vaxtında xəzərlər xaqanın oğlunun başçılığı altında 300 minlik ordu ilə ərəblərə qarşı əks hücuma keçdilər. Xəzərlər hun torpaqlarından və Cor (yəni Dərbənd) keçidi ilə Masqut torpaqlarından keçərək, Paytakaran ölkəsinə basqınlar edirdilər. Onlar Araz çayından İrana keçərək Ərdəbili, Təbrizi, Aşti-Baquan adlanan vilayəti, Spatar-Perozu, Hürmüzd-Perozu dağıtdılar[60]. Gevondun göstərdiyi marşrut çox dəqiqdir. Xəzərlər Şimali Qafqazdan keçərək, Xəzər dənizi boyunca və Dağıstanla irəliləyirdilər. Onlar Dərbənd keçidi vasitəsilə indiki Quba rayonu ərazisindən keçərək Albaniyaya basqın edirdilər. Xəzərlərin çoxsaylı ordusu Albaniyanın və

Cənubi Azərbaycanın bir sıra qala və şəhərlərini - Təbrizi, Ərdəbili dağıtdılar və viran qoydular.

Gevond «Atşi-Baquan», yəni Baqavanın odları adı altında, şübhəsiz, Bakı, Abşeron vilayətini nəzərdə tutur[61]. Ərəb müəllifləri Bəlazuri (ö. 892-ci il), Yəqubi (IX əsr), əl-Kufi (X əsr), Təbəri (X əsr) və başqaları ərəblərin dəfələrlə Albaniyaya soxulmuş xəzərlərə qarşı yürüşlərini kifayət qədər müfəssəl təsvir etmişlər. Ərəb müəllifləri Gevondun təsvir etdiyi yürüşü 725/26, yaxud 730-cu ilə aid edirlər. Həm də qeyd edilir ki, Xəzər ordusunun başında xaqanın oğlu-Barxebəy Təbəriyə görə, X əsr müəllifi əl-Kufiyə görə isə Barsbəy dururdu[62].

Ərəblərin köçəri türklərlə apardıqları müharibələrə dair maraqlı məlumatlar verən XII əsrl Suriya tarixçisi Suriyalı Mixail ərəb sərkərdəsi Məsləmə ibn Əbd əl-Məlikin yürüşündən bəhs edir. Görünür, söhbət xəzərlərin Gevondun təsvir etdiyi basqınından gedir. «1039-cu ildə (eramızın 728-ci ili) Məsləmə böyük qoşunla yenidən türklər ölkəsinə soxuldu. Vuruşma 40 gün davam etdi Tayayelər (ərəblər - S. *A.)* türkləri məğlub edə bilmədiklərini görüb, hər şeylərini ataraq qaçdılar. Bu vaxt türklər oraları tərk etməyə başladılar. 1042-ci ildə (e. 731-ci ili) türklər tayaye torpaqlarına girdilər. Onlar Azərbaycan ərazisində çoxlu şəhər və kənd ələ keçirdilər. Türklərin tayaye torpaqlarındakı digər şəhərləri tutmasına imkan verilmədi. Onlar zəbt etdikləri şəhərlərdə məskən saldılar»[63]. Suriya tarixçisinin bu məlumatında türk tayfalarının və xəzərlərin Azərbaycanın şəhər və kəndlərində kütləvi şəkildə məskunlaşdığı göstərilir. Şirvanın və Arranın ərəb hakimi Mərvan ibn Məhəmməd h. 117 (735/6)-ci ildə xəzərlərin ölkəsinə soxularaq, 40 000 xəzər əsirini Samurla Şəbəran arasındakı düzənlikdə yerləşdirdi. Külli miqdarda türklərin Albaniyada məskunlaşması ölkədə türk dilinin yayılmasına əlverişli imkan yaradırdı. Mil düzündəki Üçtəpə kurqanında aparılan arxeoloji qazıntılar zamanı VII əsrin əvvəlinə, yaxud birinci yarısına aid edilən adlı-sanlı Xəzər döyüşçüsünün qəbri aşkar edilmişdir[64]. Qəbələdə və onun həndəvərində hunlar və xəzərlər üçün səciyyəvi olan deformasiyaya uğramış uzunsov kəllələr tapılmışdır[65]. Məlumdur ki, Qəbələ ərazisində VI əsrdə türk qəbilələri məskun olmuş və bu şəhər sabir məskənlərinin mərkəzi sayılmışdır.

Beləliklə, göstərilən mənbələrə əsasən, artıq eramızın ilk əsrlərində Azov və Xəzər dənizləri arasındakı çöllərdə, Şimali Qafqazda, Şimali və Cənubi Dağıstanda müxtəlif türk tayfaları yaşayırdılar. Həmin dövrdə onlar Şimali Albaniyaya, Şirvan, Arran və Muğan vilayətlərinə gələrək, Dərbənd və Alan (Dər-i-alan) keçidindən keçib gəlmiş hunlar, bulqarlar, sabirlər, xəzərlər, qıpçaqlar və digər köçəri dəstələrlə birlikdə burada məskən salmışdılar. Daha sonrakı müəlliflər (Yaqut, Zəkəriyyə Qəzvini)[66] çoxlu kəndi və türkmənlərin sürülərini otardığı çəmənlikləri olan Muğan vilayətindən, buranın əhalisinin əsasən türkmənlərdən ibarət olmasından xəbər vermişlər.

VI əsrin ikinci yarısında türklərin Albaniyaya axını daha da gücləndi, türk dili isə albanlar arasında geniş yayıldı. Belə ki, VI əsr Suriya salnaməsinin verdiyi

məlumata görə Arran yepiskopu Kardost VI əsrin 20-ci illərində yeddi din xadimi ilə xristianlığı yaymaq məqsədilə sabirlərin arasına getmiş, sabirlərin dili üçün əlifba tərtib etmiş, kilsə kitablarını onların dilinə çevirmişdi[67]. VII əsrdə Alban yepiskopu İsrail sabirlərin vassal məliki Eltəbərin («Alban tarixi»ndə Alp İlitver) xahişi ilə Cənubi Dağıstana gedərək, burada sabirlərə müqəddəs kitablardan moizələr oxumuş, kahinlər və cadugərlərlə mübahisələr aparmış, məlikə və sabirlərin bir çoxuna xristianlığı qəbul etdirmişdir. Göründüyü kimi, artıq o zaman türk dili Albaniyada geniş yayılmışdı, əks təqdirdə, yəni dilin fonetikasına və quruluşuna yaxından bələd olmadan, sabirlər üçün əlifba tərtib etmək mümkün olmazdı. Türk dilinin VII-VIII əsrlərdə Albaniyada yayılması barədə Movses Kalankatlının «Alban tarixi»ndə və ərəb mənbələrindəki türkizmlər də fikir yürütməyə imkan verir. Onlarda qədim türk titulları ilə yanaşı, Azərbaycan dilində də işlənən avçı, çöpçü, tanrı, atma və s. sözlərə də rast gəlinir[68]. Azərbaycan (türk) dili leksikası nümunələri ilk dəfə Bəlazurinin (IX əsr) əsərində təsbit olunmuşdur. O, Azərbaycanın 646-cı ildə ərəblər tərəfindən istila olunmasını təsvir edərək, ərəblərin Azərbaycan dilində eşitdikləri «hannan-hana» ifadəsini ərəbcəyə tərcümə etmədən vermişdir. Bəlazuri yazır: («Valid») gedəndən sonra əhali üsyan qaldırdı və əl-Aşas Validdən yardım istədi. Valid ona Kufə əhlindən yığılmış böyük ordu göndərdi. Həmin ordunun köməyilə o, yenidən bütün ölkəni çətinliklə, tədricən (hannan-hana) tabe etdi». Sonra Bəlazuri onun bilmədiyi dildəki «hannan-hana» ifadəsini yanlış izah edir: (Azərbaycanlıların dilində han «bağ» deməkdir). Bəlazurinin mötərizədə verdiyi bu izahat tərcüməçilərin mətni yanlış şərh etməsinə səbəb olmuşdur. P. K. Juze həmin parçanı belə tərcümə edir: «...O, bağdan-bağa keçə-keçə bütün ölkəni yenidən tabe etdi»[69] (Hannan-hana). Türk-Azərbaycan dilində indiyədək qalmış arxaik «hannan-hana» ifadəsi bu kontekstdə «tədricən, çətinliklə» kimi başa düşülür.

Arran toponiminin semantik mənasının açılması, Şirvan və Arran ərazisində erkən orta əsr türk toponimlərinin (Aran, Sabir, Biləcəri, Türkan, Ağsu, Qarasu, Türyançay, Qarayazı, Bozdağ və s.) aşkara çıxarılması Azərbaycan xalqının etnogenezi məsələsinin tədqiqi, qədim azərbaycanlıların dilinin müəyyənləşdirilməsi üçün əhəmiyyətlidir. IX-X əsrlər ərəb müəllifləri Azərbaycanda və Ərminiyyədə əhalinin bir qisminin fars və ərəb dillərində danışdığını göstərirlər. İbn Havqəl yazır: «Azərbaycan və Ərminiyyə əhalisinin əksəriyyətinin dilinə gəldikdə isə onlar fars və ərəb dillərində danışırlar. Lakin ərəb dilində danışanlar azdır. Farsca danışanlar isə ərəb dilini başa düşmürlər. Ərəb dilində təmiz danışanlar tacirlər və mülk sahibləridir (feodallardır - S. *A.).* Ərminiyyənin ucqarlarında və ona yaxın yerlərdə yaşayan əhali zümrələri üçün başqa dillər mövcuddur. Dəbil (Dvin - S. *A.)* və onun nahiyələrinin əhalisi erməni dilində, Bərdə əhalisi isə Arran dilində danışır»[70]. Bu məlumatlar İstəxridə də vardır, lakin İbn Havqəl onları tamamlamışdır. Görünür, fars dilində Azərbaycanın irandilli əhalisi - tatlar, talışlar, kürdlər danışırdı.

Müqəddəsi göstərir: «Ərminiyyədə ermənicə, Arranda isə arranca danışırlar; onlar farsca danışanda başa düşmək olur, buranın farscası bəzi cəhətlərdən Xorasan farscasını xatırladır»[71]. Burada, ehtimal ki, söhbət Xəzər dənizinin qərb sahilində yaşayan tatlardan gedir. Arran dili haqqında eyni məlumatları İstəxri (X əsr) də təkrar etmişdir. Deyilənlərdən ehtimal etmək olar ki, eramızın əvvəllərində Şirvanda və Arranda irandilli əhali ilə yanaşı, türkdilli tayfalarda məskən salmışlar. Onlar burada uzun müddət ərzində (bir neçə yüz il) iri kompakt kütlə şəklində yaşayaraq, Azərbaycanın əsl yerli əhalisinə çevrilmişlər və «Arran dili» dedikdə onuncu əsrədək formalaşmış Azərbaycan - türk dili başa düşülmüşdür. Azərbaycanın toponimikasında və hidronimikasında türk ünsürlərinin mövcudluğu və arxeoloji məlumatlar müxtəlif türk tayfalarının Şirvana və Arrana gəlmələri haqqında mənbələrin verdiyi xəbərləri təsdiq edir və ölkədə erkən orta əsrlər dövründən, eramızın ilk əsrlərindən başlayaraq və VI-VIII əsrlərdə daha intensiv şəkildə türkləşmə prosesinin getdiyini göstərir. Azərbaycanın Səlcuqlar tərəfindən istilası ölkənin türkləşməsi prosesini tam şəkildə başa çatdırdı.

## § 6. Qədim Şirvanın incəsənəti

Son onilliklərdə Şimali Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar Şirvanın qədim incəsənət və mədəniyyətini üzə çıxarmışdır. Müxtəlif bədii sənət növlərini əhatə edən incəsənət qədim sənətkarların gerçək aləmi estetik qavrama qabiliyyətinə malik olduqlarını göstərir. Qədim dövrdə və erkən orta əsrlərdə inkişaf edən və kökü əsrlərin dərinliyinə gedib çıxan plastik incəsənət də buraya daxildir. Qədim insanın onu əhatə edən canlı təbiət əşyalarını daşda, gildə, tuncda və digər materiallarda təcəssüm etdirmək səyi plastik incəsənətin inkişafına təkan vermişdir. Şirvan incəsənətinin ən qədim abidələri Qobustanda, Abşeronda və ölkənin digər yerlərindəki daş dövrünə (eramızdan on min il əvvəl) aid qaya təsvirləridir. Qobustan dağları Xəzər dənizi sahilindən 2-2,5 km aralı, Səngəçal və Duvannı dəmiryol stansiyaları rayonunda, Bakıdan 50 km cənub-qərbdə yerləşir. Cənub-şərqi Qobustan qayalarında, Böyükdaş, Kiçikdaş, Cingirdağ dağlarında və Yazılı təpəsində 4 mindən çox insan və müxtəlif heyvan təsvirləri aşkar edilmişdir. Qaya rəsmlərində tropik paltarda kişi və qadınlar, şiş buynuzlu keçi, şir, vəhşi öküz, maral, at, gur, it, iri balıq və s. təsvir olunmuşdur. Burada ov, qurbankəsmə, yallıya bənzər mərasim rəqsi, taxıl biçini səhnələri geniş təmsil olunmuşdur. İçərisində avar çəkənlər oturmuş qayıq rəsmləri var. Qayıqların burun tərəfində Günəş şəkli çəkilmişdir[1]. Qayıq rəsmləri ta qədim dövrlərdən Xəzər dənizində gəmiçiliyin inkişaf etdiyini göstərir. Mütəxəssislərin fikrincə, qayıqlar qamışdan düzəldilir və bitumla kəpitkələnirdi, Günəşin təsviri, görünür, ya ona sitayişlə bağlıdır, yaxud yolun səmtini - şərqi göstərir. Nizə ilə silahlanmış süvarilər, dəvə karvanları təsvir olunan rəsmlər və s. vardır. Qobustanda yaşamış qədim tayfaların

həyatından bəhs edən müxtəlif süjetli bütöv kompozisiyalı rəsmlər aşkar olunmuşdur. Görünür, burada Daş dövründə Abşeronun Binəqədi, Digah, Keşlə və bir sıra digər kəndlərində yaşamış nəsli kəsilmiş heyvanlar təsvir olunmuşlar. Vəhşi heyvanları ovlayan qədim insan, onların şəklini daşda və qayada təsvir etmişdir.

Qobustan qayalarında irəli çıxan iri döşləri, yoğun bud və ayaqları olan çoxlu qadın və qəddi-qamətli, beli kəmərli, inkişaf etmiş güclü ayaqları, xüsusi nəzərə çarpdırılan baldırları olan kişi rəsmləri vardır. Kontur şəklində işlənmiş bu rəsmlər daş alətlərlə həkk olunmuşdur. Şəkillər, bütöv kompozisiyalar olduqca bəsit və bayağı işlənmiş, heyvanlar ekspressiv və dinamik şəkildə təsvir olunmuşdur.

Qədim Qobustanın təsviri sənəti - qaya təsvirləri öz-özlüyündə bədii yazı növüdür. Qədim rəssam onlarda tayfaların həyatındakı mühüm hadisələrdən söhbət açmışdır. Çox vaxt qəbilə icma quruluşunun dini və digər ayinləri təsvir edilirdi[2]. Qobustanda aparılmış arxeoloji qazıntılar zamanı Kiçikdaş ərazisində Mezolit dövrünə aid qədim «Firuz» düşərgəsi, içərisində müxtəlif əşyalar olan kurqanlar, tunc dövrünə aid yaşayış məskəni aşkara çıxarılmışdır. Böyükdaş dağının yuxarı hissəsində qırmızı oxra ilə üstünə şirə bənzəyən vəhşi heyvanın hücum çəkdiyi buynuzlu maralın mütəhərrik vəziyyətdə həkk olunmuş təsviri tapılmışdır[3]. Qobustan qaya təsvirlərinin mövzu və süjet rəngarəngliyi, habelə onların orta Daş dövründən (Mezolit) başlayaraq, yeni Daş (Neolit), bütün Tunc dövrünə və son orta əsrlərədək yaşını müəyyənləşdirməyə imkan verən arxeoloji məlumatlarla birlikdə, xronoloji təbəqələşməsi qədim insanın düşərgə və yaşayış məskənləri olan bu yerlərdə uzun müddət yaşadığını göstərir. Qaya təsvirləri, Şıxqaya və Şonqardağ dağları ərazisində, Abşeron yarımadasında, Mərdəkan, Şüvəlan, Zirə, Suraxanı, Ramana qəsəbələri zonasında, Qala qəsəbəsi yaxınlığında, Xəzər dənizi sahilindəki Dübəndi deyilən yerdə materiki Pirallahı adası ilə birləşdirən dambanın ön tərəfində də aşkar olunmuşdur. Daş dövrünə aid bu rəsmlər dünyanın ən qədim incəsənət örnəkləri – qrafika, boyakarlıq, rəqs, musiqi nümunələri olub, incəsənətin varisliyindən və dərin köklərindən xəbər verir.

Şirvan ərazisində insanı təsvir edən monumental daş heykəlin meydana gəlməsi böyük maraq doğurur. Arxeoloq Q. Aslanovun Abşerondakı Türkan kəndi yaxınlığında üzə çıxardığı bir sıra kurqanlardan Tunc dövrünün əvvəlinə aid edilən kobud formalı daş heykəllər tapılmışdır[4]. Zirə qəsəbəsindən şərqə, Gürgan qədim yaşayış məskənində qəbirdən tapılmış heykəl maraq doğurur. Yerli əhəng daşından düzəldilmiş bu heykəl quruluşca Abşeronda əvvəl tapılmış heykəllərdən fərqlənir. Heykəldə baş, sinədə çarpazlaşmış əllər, bel aydın seçilir. Abşeron heykəlləri son Tunc dövrünə aid olub, ehtimal ki, dini sitayiş məqsədi daşımışdır[5].

Qobustanda aparılan arxeoloji qazıntılar zamanı Tunc dövrünə məxsus abidələr aşkara çıxarılmışdır. Onların arasında daşdan təbii ölçüdə sxematik və kobud formada yonulmuş kişi büstü vardır. Ehtimal ki, o, qəbilə başçısına[6] məxsus

olub, onun qəbri üstündə qoyulubmuş. Bu, qədim Şirvan plastik sənətinin dairəvi heykəltəraşlığına aid ilk xatirə abidələrindən biridir. Böyükdaş dağının yuxarı terrasındakı «Kənizə» düşərgəsinin qayaaltı sığınacağının mərkəzi kamerasında qədim səthdən 2,2 metr dərinlikdə əhəngdaşından kobud formada yonulmuş qadın heykəli aşkara çıxarılmışdır. Həmin kameradan Qobustan qayalarında təsvir olunan qadın rəsmlərinə bənzəyən əhəng daşından səliqə ilə yonulmuş iki qadın heykəlciyi də tapılmışdır. Bu heykəllər Mezolit dövrünə aid edilir[7].

Azərbaycanın bir sıra rayonlarında aparılan arxeoloji qazıntılar zamanı başsız və əl-ayaqsız qadın və kişi heykəlcikləri aşkar edilmişdir. Ehtimal ki, onlar ibadət mərasimi ilə bağlı sındırılmışlar. Molla İsaqlı kəndindən (İsmayıllı rayonu) tapılmış qadın heykəlcikləri, daşdan yonulmuş kişi başı, heyvan fiqurları son dərəcə maraqlıdır. Qadın heykəlciklərinin birində əllər və döşlər nəzərə çarpdırılmır. Yuxarıya doğru zərifləşən uzun boyun, balaca baş və çiyinlərə tökülən saçlarla tamamlanır. Üzü dimdikvarı çıxıntı şəklində təsvir olunmuşdur. Boynunda beş cərgə yapma muncuq, yaxud metal boyunbağı təsvir edilmişdir. Kiçik kişi başı Şirvanın avtoxton sakininin antropoloji cizgilərini - uzun sifət, iri və uzun burun, batıq gözləri aydın əks etdirir[8]. Bu heykəlciklər e. ə. birinci minilliyin sonlarına aid edilir. Bu cür tip indiyədək də istər Abşeronda, istərsə də Şirvan rayonlarında movcuddur. Şirvanın Ağsu rayonunun dağlıq hissəsindəki Nuran kəndində qırmızımtıl gildən qadın heykəlciyi tapılmışdır. Onun zərif daranmış saçları pariki xatırladır. Çılpaq döşləri bir qədər uzunsovdur. Boynunda iri medalyonlu həmayil var. Ayaqları sanki hamar paltarla örtülmüşdür. Bu heykəlcik e. ə. II minilliyin sonu - I minilliyin əvvəllərinə aid edilir[9].

Azərbaycanda küp qəbirlər dövrünə aid 5 sm-dən 20 sm-dək hündürlükdə olan bir sıra son dərəcə maraqlı heykəlciklər tapılmışdır. Bunlar, əsasən, qırmızı gildən hazırlanmış və yaxşı bişirilmiş çılpaq qadın fiqurlarıdır. Bir neçəsinin boyunbağıları və ayaqlarındakı xal-xal aydın seçilir. Bəzilərinin aşağıya doğru relyefli qatlar, yaxud nöqtəli naxışlar şəklində işlənmiş paltarları ayırd edilir. Rəssam qadın fiqurunun ölçülərini mümkün qədər realistcəsinə təcəssüm etdirməyə çalışmışdır. Heykəlciklər kobud və sxematik şəkildə düzəldilmişdir. Ehtimal ki, heykəlciklər məhsuldarlıq ilahəsinə sitayişlə bağlıdır. Onlar e. ə. birinci minilliyin sonu-eramızın ilk əsrlərinə aid edilir. Bu heykəllərin minlərlə insan rəsmi olan Qobustan qaya təsvirlərindəki qadın fiqurları ilə oxşarlığı son dərəcə maraqlıdır. Həmin rəsmlər Mezolit dövründən tutmuş, inkişaf etmiş orta əsrlərədək müxtəlif dövrləri əhatə edir. Ola bilsin ki, Azərbaycanın müxtəlif rayonlarındakı istər qrafik, istərsə də heykəl qadın təsvirlərinin bəziləri eyni bir şəxsə - bir sıra Yaxın Şərq və Orta Asiya ölkələrində, Zaqafqaziyada və İranda geniş sitayiş olunan məhsuldarlıq ilahəsi Anahidə aiddir. Strabonun (e. ə. I əsr - b. e. I əsr) verdiyi məlumata görə, bu ilahənin şərəfinə məbədlər ucaldılır, qurbanlar kəsilirdi. «Bu ilahənin məbədi olan hər yerdə adət üzrə Vakx bayramına bənzər Sak bayramları keçirilirdi...»[10]. Anahidə midiyalılar və ermənilər də sitayiş edirdilər.

«Onlar burada kölə kişi və qadınları ilahənin xidmətinə verirlər. Burada təəccüblü heç bir şey yoxdur. Lakin tayfanın adlı-sanlı adamları da öz qızlarını hələ qız vaxtlarında ilahənin xidmətinə verirlər...»[11]. Məhsuldarlıq ilahəsinə sitayiş qədim Şirvanın yerli tayfaları arasında da geniş yayılmışdı. «Alban tarixi»ndə Afrodita[12] adlandırılan bu ilahəyə sitayiş edildiyi qeyd olunur, lakin onun yerli adı çəkilmir. Orta Asiyada, Dağıstanda, Ermənistanda, Gürcüstanda, İranda çoxlu gil qadın və kişi fiqurları tapılmışdır. Lakin onlar Azərbaycanda tapılmış heykəlciklərdən üslubi cəhətdən fərqlənir. Azərbaycandakı heykəlciklərdə realist duyum tərzi ilə yanaşı, formaca ifrat mücərrədlik və bəsitlik müşahidə olunur[13]. Burada vahid üslub yoxdur. Tədqiqatçı bu materialda ifrat naturalizmdən tutmuş, ən inkişaf etmiş formalizmə, ekspressionizmə və impressionizmə qədər müasir estetik kateqoriyaların hamısına rast gələ bilər. E. Xertfeld İranda tapılmış heykəlcikləri ev allahları adlandıraraq, onları uzaq dövrlərin dini təsəvvürləri ilə bağlayır[14]. O hesab edir ki, əhali «ev allahları»nın başını insanlara kömək etməyi bacarmadıqları, yaxud kömək etmək istəmədiklərinə görə vurmuşlar. Qadın heykəlciklərini o, matriarxat dövrü ibtidai-icma cəmiyyətində ana-ilahənin təcəssümü sayır.

Azərbaycanın bir sıra rayonlarından tapılmış başı və əl-ayağı sındırılmış heykəlciklər qurban ayinləri ilə də bağlı ola bilər. Strabon qədim Albaniyada insan qurban verilməsi adətinin mövcud olduğunu göstərirdi[15]. Ehtimal ki, sonralar qurbankəsmə ayinlərində insan gil heykəlciklərlə əvəz edilmişdir. Movses Kalankatlının alban salnaməsində bu mərasimə işarə vardır: «Müqəddəs baş kahin Gisə gəldi və cansız qurban gətirdi». Albaniyada «bütpərəstlərin qurbangahları» var idi. «Yaman bütlərə qurban verməklə sitayiş etmək» yaxud «bütlərin yaramazlıqlarına» sitayiş etmək adəti qeyd olunur[16]. Heykəlciklərdən ölü duası ibadətində istifadə olunması da mümkündür. Heykəlciklərin forma və üslubi xüsusiyyətlərinin müxtəlifliyi onları düzəltmiş tayfalar arasındakı etnik fərqlərlə bağlıdır.

Eramızın hüdudlarında və ilk əsrlərində Şirvanda insanı realist formalarda əks etdirən monumental daş heykəltəraşlıq meydana gəlir. Lakin bu heykəllərin semantik mənası başqadır. Bu heykəllər ayin təyinatlı heykəlciklərdən fərqli olaraq, qədim Azərbaycanın plastik sənətinin inkişafında yeni - insanı, onun fəaliyyətini təbiətdən ayırmaq mərhələsi demək idi. Bəlkə də insanı təsvir edən monumental heykəltəraşlığın yeni formalarının meydana gəlməsi burada incəsənətin inkişafı ilə bağlı olmaqla bərabər, cəmiyyətin sosial-iqtisadi inkişafındakı irəliləyişi, onun sinfi təbəqələşməsini, yeni formasiyaya - feodalizmə keçidini də əks etdirirdi. Monumental heykəllər nikbin incəsənətin yeni formaları idi. Sonralar, IV-V əsrlərdə xristianlığın bütpərəstliklə mübarizəsi və VII əsrdə insan fiqurlarının təsvir olunmasını qadağan edən islam dininin yayılması ilə əlaqədar monumental heykəltəraşlıq inkişafdan qaldı. Mənbələrdə belə heykəllərə işarə var. Ərəb mənbələri Şirvan ərazisində bəzi nümunələri dövrümüzədək gəlib

çıxmış insan və heyvanları təsvir edən dairəvi heykəllərin mövcud olduğunu göstərir. Ərəb müəllifi İbn əl Fəqih əl-Həmədaninin təqribən eramızın 903-cü ilində yazılmış «Kitab əl-buldən» («Ölkələr kitabı») əsərində maraqlı məlumat verilir: «Bab (Dərbənd - S. *A.)* şəhərində Bab əl-Cihaddakı (cihad qapıları) divarın üstündə iki daş sütun var; hər sütunun üstündə ağ daşdan qayırılmış şir heykəli durur. Onlardan aşağıda iki daş var və həmin daşların üstündə də şir təsvir olunmuşdur. Qapının yaxınlığında daşdan yonulmuş insan heykəli var. Onun ayaqları arasında ağzında üzüm salxımı tutmuş tülkü təsvir edilmişdir. Şəhərdən kənarda «Məsruf hovuzu» adı ilə tanınan ovdan var. Ovdana düşmək üçün pilləkən qayırılmışdır. Su az olanda həmin pilləkənlə ovdana enirlər. Pilləkənin hər iki tərəfində daşdan iki şir qayırılmış, onlardan birinin başı üstündə isə daşdan insan heykəli qoyulmuşdur. Hökmdar evinin üzərində də daşdan qayırılmış və divardan bir qədər aralı iki şir heykəli boylanır. Bab sakinləri onlara divarın tilsimləri deyirlər...»[17]. Şübhəsiz, bu heykəllər daha əvvəlki, islamaqədərki dövrə, ehtimal ki, Dərbənd səddinin tikildiyi V-VI əsrlərə aiddir. Dərbəndin qala divarları üzərindəki qədim heykəllər bu günədək qalmışdır. Şir heykəlləri Qırxlar qapısı və Orta qapı qala darvazalarının üstündə və Dərbənd diyarşünaslıq muzeyindədir.

Son onilliklərdə Şirvan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində 20-dən çox monumental insan heykəli aşkara çıxarılmışdır[18]. 1946-cı ildə Şamaxı şəhərindən 3 km aralı, Xınıslı kəndində tapılmış iri daş kişi heykəli böyük maraq doğurur. Onun hündürlüyü 2,26 m, ən enli yeri 0,47 m-dir. Yerli əhəngdaşından yonulmuş bu heykəl kiçik pyedestala bitişikdir. Başı yoxdur, əl və ayaqları yaxşı qalmışdır. Sol əli sağ sinəsinə sıxılmışdır, aşağı sallanan sağ əli qarnının üstündədir. Əllər çox diqqətlə işlənilmişdir. Sol əlin üstündə altıləçəkli ornament var. Görünür, bu xatirə abidəsi, tayfa başçısının əcdada sitayişi əks etdirən portret təsviridir. Heykəlin e. ə. sonuncu - eramızın ilk əsrlərinə aid olduğu ehtimal edilir[19]. 1959-cu ildə elə həmin yerdə eyni cür heykəlin qalıqları tapılmışdır. Çılpaq bədən arxa tərəfdən yaxşı işlənmişdir. Cinsiyyəti aydın deyil. Bu tapıntı birinci heykəlin tarixini müəyyənləşdirməyə kömək edir. Belə ki, ondan təqribən eramızın V-VI əsrlərinə aid daş qutu qəbirinin üstünü örtmək üçün istifadə olunmuşdur. Deməli, heykəl daha əvvəllərə aiddir. 1960-cı ildə buradaca içərisinə 593/4-cü ildə, II Xosrovun hakimiyyəti dövründə (590-628) kəsilmiş gümüş Sasani draxması qoyulmuş daş qutu qəbirlərini örtən daha iki daş heykəl aşkar edilmişdir. Onlardan birinin arxa tərəfi yaxşı qalmışdır, kürəyində belinə qədər tökülən hörük bildirən qabartma vardır. Qabarıq ombalı çanaq hissəsi kəskin nəzərə çarpır. Cinsiyyəti aydın deyil, ehtimal ki, qadındır. Kobud yonulmasına baxmayaraq, bu heykəl heykəltəraşın realist manerasından və sənətkarlığından xəbər verir. 1961-ci ildə Şamaxı rayonunun Dağkolanı kəndi yaxınlığındakı Allahəkbər adlı yerdə, qədim yaşayış məskəninin ərazisində eramızın birinci minilliyinin birinci rübünə aid edilən müxtəlif saxsı qabların və digər əşyaların arasında daş insan heykəli tapılmışdır. Başı yaxşı yonulmuş, çiyinləri enlidir. Boynu mütənasib deyil, sifəti

monqolaoxşar, yastı burnu çapıqdır. Qulaqları hündürdədir. Göz çanağı dərindədir. Ağız yeri və saqqalı aydın seçilir. Sol əli sinəsində, ürəyinin başındadır, sağ əli isə düzbucaqlı şəklində bükülmüş halda qarnının üstündədir. Ətəkləri aydın seçilən paltarı kaftana, yaxud çuxaya oxşayır. Sağ tərəfdən aşağıda bülöv daşına bənzər uzunsov bir əşya asılıb. Kürəyində şaquli çökək var. Kürəyinin yuxarı hissəsində, ehtimal ki, hörük şəklində çiyinlərə tökülmüş kişi saçını bildirən dördkünc qabarıq çıxıntı var. Pyedestalı dairəvi çapılmış çıxıntı əvəz edir. Ayaqlarının yalnız yuxarı hissələri təsvir olunmuşdur. Oturaq vəziyyətdədir. Heykəlin e. ə. I minilliyin sonu - eramızın I minilliyinin əvvəllərinə aid olduğu ehtimal edilir[20]. Heykəldəki saç formasından Dərbəndə soxulan xəzərlərin antropoloji tipinin təsvir olunduğu VII əsr mənbəyində bəhs edilir. «Saçları dağılmış qadın sifətində üstlərinə şığıyan iyrənc, enlisifət, qaşsız eybəcər kütlənin dəhşətli təhlükə olduğunu görən əhali, xüsusilə, onların sərrast və güclü atıcı olmalarından qorxub lərzəyə düşdü...»[21]. Həmin mənbədə türklər, həm də, «hörük saxlayan xalq» adlandırılır. Bu cür saça Tuvada, Şərqi və Cənubi Qazaxıstanda, Tyan-Şanda tapılmış heykəllərdə də rast gəlinir[22]. Kişi heykəllərindəki hörüklər, yaxud çiyinlərə tökülmüş dağınıq saç türklərin Çin salnamələrində təsvir olunan saç formasına tam uyğun gəlir[23]. Kiçik saqqal da səciyyəvidir. Pirsaatçay çayının sol sahilindəki Çıraqlı kəndinin yaxınlığındakı Çaxnax ərazisində ondan çox belə heykəl tapılmışdır. Onların bəziləri başsızdır. Bəzilərinin isə başı sınmışdır. Onlar yerli əhəngdaşından yonulmuşdur. E. ə. son əsrlərə-eramızın ilk əsrlərinə aid edilən bu heykəllərdən də qəbirlərin üstünü örtmək üçün istifadə olunmuşdur. Xınıslı heykəlləri başqalarından böyük ölçülü olmaları ilə seçilir[24]. Pirsaatçay rayonu qədim məbəd yeri olmuşdur. Ehtimal ki, bu heykəllər allahların, yaxud tayfa başçılarının mücəssəməsi olub, əcdada sitayiş ayinini əks etdirir. Bəlkə də, çoxlu miqdarda heykəl tapılması burada emalatxana olduğunu göstərir.

Bəhs edilən Şirvan heykəlləri ümumi ikonoqrafik əlamətlərlə bağlı olan böyük qruplarda birləşdirilir. Bu heykəllərdəki təsvir xüsusiyyətləri (kanonik poza, əllərin və bütün fiqurun vəziyyəti) onların sitayiş xarakteri daşıdığını göstərir. Şamaxı rayonundan tapılmış bütün daş heykəllər iri daş parçalarından çapılmış, kobud şəkildə yonulmuşdur. Bədən üzvləri dəqiq təsvir olunmamışdır[25]. Salamat qalmış hissələr qədim heykəltəraşın realist manerasına və bəsit sənətkarlığına dəlalət edir.

Bu cür heykəllər bir sıra Orta Asiya ölkələrində, cənubi rus çöllərində də geniş yayılmışdır. Lakin monumental Şirvan heykəltəraşlığı üslubi baxımdan onlardan fərqlənir. Həmin heykəllərin Şamaxı rayonunun ərazisində aşkara çıxması burada müxtəlif tayfaların məskun olduğunu göstərir. Bir rayonda kiçik gil və terrakotadan ibtidai heykəlciklər düzəldən tayfalar yaşayırdılar. Digər alban tayfaları isə dairəvi monumental heykəllər qayırırdılar. Belə heykəllərin eramızın hüdudlarında və onun əvvəllərində qədim Şirvan torpağında meydana gəlməsi, ehtimal ki, oxşar qədim ənənəyə malik müxtəlif köçəri tayfaların - skiflərin,

hunların, bulqarların, sabirlərin, xəzərlərin, kanqlıların və başqalarının miqrasiyası ilə də bağlıdır. Lakin bu məsələ öyrənilməmişdir.

Ta qədimdən yerli Alban tayfalarının və köçərilərin birgə yaşadıqları bir ərazidə 20-dən çox böyük monumental heykəlin tapılması adlı-sanlı adamların, tayfa başçılarının, sərkərdələrin dəfn mərasimi ilə əlaqədar yaradılan və əcdadlara sitayiş əks etdirən belə heykəllərin geniş yayıldığını göstərir. Əsrlərin dərinliklərinə gedib çıxan qədim Şirvan plastik sənəti müxtəlif gil, terrakota və daş heykəl nümunələrində təzahür edərək, Mezolit və Tunc dövrlərindən eramızın əvvəllərinə qədər gəlib çıxmışdır. Ehtimal ki, Şirvanda monumental heykəltəraşlıq e. ə. II minillikdə meydana gəlib, eramızın ilk əsrlərinədək mövcud olmuşdur. Bu heykəllərin zədələnmiş halda tapılması göstərir ki, onlar xristianlığın və islam dininin «bütləri» qadağan etməsi ilə əlaqədar sındırılmışdır.

Nəzərdən keçirdiyimiz insan və heyvan heykəl təsvirləri qədim azərbaycanlıların dini etiqad və totemizm baxışları ilə bağlıdır. Şirvan və Arranın bu incəsənət və maddi mədəniyyət abidələrinin tədqiqi Azərbaycan xalqının etnogenezi probleminin aydınlaşdırılmasında mühüm əhəmiyyətə malikdir.

## III FƏSİL

## MƏZYƏDİ ŞİRVANŞAHLAR DÖVLƏTİ
## (IX əsrin ikinci yarısı - XI əsrin birinci rübü)

### § 1. Məzyədi Şirvanşahlar

Məhəmməd ibn Xamidin ölümündən sonra onun qardaşı Heysəm ibn Xalid Şirvanın hakimi oldu. H. 247 (861)-ci ildə xəlifə Mütəvəkkil öldürüldükdən sonra Xilafətdə baş vermiş iğtişaşdan istifadə edən Heysəm özünü müstəqil elan etdi. O, tək hakimiyyətliyə nail oldu və Şirvanşah titulunu qəbul etdi[1]. Ehtimal ki, Heysəm ərəblərin təyin etdiyi Şirvanşahın hakimiyyətinə son qoymuşdur, beləliklə, Heysəm ibn Xalid Şirvanın Şirvanşah titulu daşıyan ərəb mənşəli Məzyədilər sülaləsindən ilk müsəlman hakimdir. Həmin vaxtdan etibarən V. F. Minorskinin haqlı olaraq qeyd etdiyi kimi, «...Yəzidilər sülaləsinin tarixi öz xarakterini dəyişir: onun əvvəllər Bağdaddan əmir vəzifəsinə təyin edilən nümayəndələri indi öz iqta torpaqlarında irsi vassallara çevrilirlər...»[2]. Şirvanda sonralar baş verən hadisələr Məzyədi Şirvanşahlar dövlətinin tarixinə dair son dərəcə qiymətli mənbə olan «Tarix əl-Bab»da işıqlandırılır. Mənbələrdə Heysəm haqqında məlumat çox cüzidir. Onun Sərirdə «kafirlərlə» vuruşduğu xəbər verilir. Heysəmin ölüm ili məlum deyil. Görünür, o, az müddət hakimiyyət sürmüşdür. Heysəmdən sonra onun oğlu Məhəmməd ibn Heysəm ibn Xalid Şirvanşah olmuşdur. Deyildiyinə görə o, «atasının vəsiyyətlərinə əməl edərək, ədalətli olmuş və kafirlərlə müharibə aparmışdır. O, habelə bu diyarda özü haqqında yaxşı ad qoyub getmişdir»[3].

Onun varisi - oğlu Heysəm ibn Məhəmməd ibn Heysəm də, ehtimal ki, Cənubi Dağıstanda «kafir» qonşuları ilə vuruşmuşdur. O, bir neçə kəndi Dərbənd qazilərinə vəqf vermişdi; bütün məhsulu daşıyıb yığmaq və əl-Babın korluq çəkən sərhəd vilayətlərinin sakinləri və qazilər arasında paylamaq üçün paytaxtında anbarlar tikdirmişdi. O, əmir kimi mərhəmətli, ədalətli, [kafirlərlə] mübarizədə qeyrətli idi; o, uzun ömür sürmüşdür...»[4].

Onun ölümündən sonra şirvanşahlığa oğlu Əli ibn Heysəm ibn Məhəmməd gəldi. Şirvanda baş verən bir sıra hadisələr onun adı ilə bağlıdır. Əli ibn Heysəm əl-Babın əmiri ilə birlikdə qonşu Şəndana, «kafirlər» üzərinə yürüş etmişdir. Lakin onlar Şəndanın qapıları qarşısında məğlub oldular, Əli və əl-Babın əmiri 10 min müsəlmanla əsir düşdü. Onların hamısı Şəndan, Sərir əhalisi və xəzərlər arasında bölüşdürüldü. Üç aydan sonra sərirlilər əsirləri Əli ibn Heysəmi və əl-Bab əmirini əvəzində heç nə almadan azad etdilər, şəndanlıların və xəzərlərin tutduqları əsirlər isə satıldı və onların yalnız çox az bir qismi xilas ola bildi. «Tarix: əl-Bab» da göstərilir ki, «Əl-Bab sərhəd vilayətinin (səqr) kafir tayfaları içərisində müsəlmanların ən qəddar düşməni Şəndanın əhalisi idi». Adı çəkilən döyüş h. 309 (412)-cu ildə baş vermişdir[5]. Əli ibn Heysəmin hakimiyyəti dövründə Məsudinin

bəhs etdiyi başqa hadisə də olmuşdur. Xəzərlərlə yanaşı, Şirvana ruslar da dəfələrlə dənizdən basqınlar edirdilər. Şirvanşahlar və Dərbənd əmirləri bu basqınlara qarşı mübarizə aparırdılar. Xəzər dənizinin əhalisi sıx olan cənub-qərb sahilləri yadelli işğalçıların diqqətini çoxdan cəlb edirdi. Ticarət məqsədilə öz gəmilərində Xəzər dənizinin sahillərinə üzüb gələn rus tacirləri bu diyara yaxşı bələd idilər və xəzərlər kimi Azərbaycanın, xüsusilə Şirvan vilayətinin zənginliyi barədə məlumatları yayırdılar. Ruslar təqribən 914-cü ildə Bakı sahillərinə hücum etdilər. «Rus drujinaları buraya ilk dəfə gəlmirdilər. Onlar qədimdən Şərqi Avropa ölkələri, Qafqaz və İran arasında qızğın ticarət gedən yaxşı bələd olduqları yolla irəliləyirdilər»[6]. Rusların bu səfərini Məsudi ətraflı təsvir etmişdir. O göstərir ki, h. 300 (912-13)-cü ildən sonra rusların hərəsində 100 adam olan təqribən 500 gəmisi Don çayı ilə Xəzər kanalına qədər gəldi. Rusların gəmiləri kanalın ağzını qoruyan Xəzər gözətçi dəstələrinin durduğu yerə çatdıqda, ruslar bu dənizin ətrafında yaşayan xalqlardan zəbt etdikləri qənimətin yarısını Xəzər xaqanına verməyi vəd edib, ondan bütün ölkəni keçərək, Volqa çayına, sonra isə üzüaşağı üzüb çayın mənsəbinə və Xəzər dənizinə çıxmağa razılıq aldılar[7]. «Xaqan onların bu qanunsuz işi etməsinə icazə verdi və ruslar körfəzə girib, çayın [Donun] mənsəbinə yetişdilər və onun vasitəsilə üzüyuxarı üzməyə başladılar. Nəhayət, Xəzər çayına [Volqaya] çatdılar və bu çayla Atil* şəhərinədək endilər, onun yanından ötərək, çayın Xəzər dənizinə töküldüyü yerdə mənsəbinə yetişdilər, oradan isə [Təbəristandakı] Amul şəhərinə doğru [üzdülər]. Rusların gəmiləri dənizə səpələndi və Gilana, Deyləmə, Təbəristana, Curcan sahilindəki Abeskuna neft verən vilayətə [biləd ən-nəffətə - Abşeron] və Azərbaycan istiqamətində yerləşən [bütün torpaqlara] basqın etdilər... Bu dənizin ətrafında yaşayan xalqlar özlərini itirdilər, çünki keçmişdə onların üzərinə dənizdən basqın edən düşmən görməmişdilər. Dənizdə yalnız ticarət və balıqçı gəmiləri üzərdi. Ruslar gilanlılarla, deyləmlilərlə və İbn Əbu əl-Sacın sərkərdələrindən biri ilə vuruşdular. Sonra onlar Şirvan şahlığının Bakuh adı ilə tanınmış neft verən sahilinə gəlib çıxdılar. [Sahilboyundan] qayıdarkən ruslar neftverən [vilayətdən] cəmi bir neçə mil aralı olan adalarda** daldalandılar. O vaxtlar [təqr. 914-cü il] Şirvanın şahı Əli ibn əl-Heysəm idi. Əhali hazırlıq gördü, qayıqlarına [kəvarib] minib, həmin adalara qədər üzdü. Ruslar onların qarşısına çıxdılar. Minlərlə müsəlman öldürüldü və dənizdə boğuldu. Məsudi xəbər verir ki, Azərbaycanın cənubunun, Arranın, Beyləqanın, Bərdə vilayətinin və başqa şəhərlərin, habelə onlarla birlikdə Deyləm, Gilan və Təbəristanın əhalisi qaçmağa üz qoydular, çünki onlar dənizdən hücum gözləmirdilər və qəfil basqına məruz qalmışdılar. Ruslar bu dənizdə bir neçə ay qaldılar, belə ki, dənizlə qonşuluq edən heç bir xalq bir ölkədən başqasına gedib-gələ bilmirdi. Ruslar böyük qənimət əldə etdikdən sonra yenidən Xəzər torpaqlarına qayıtdılar. Lakin burada onlar

* Yəni Azov dənizindən Dona qədər, sonra isə gəmiləri sürüyə-sürüyə çəkib Volqaya salaraq üzüaşağı.
** Bakı buxtasının girəcəyindəki Böyük Zirə, Çilov, Pirallahı və s. adalar.

müsəlmanların hücumuna məruz qaldılar. Onların böyük hissəsi (30 000 minə yaxın) qırıldı və yalnız cüzi bir qismi (5 minə yaxın) xilas olub vətənə qayıda bildi[8]. Məsudinin dediklərindən belə nəticəyə gəlmək olar ki, rusların basqınları dövründə Xəzər dənizinin qərb sahilləri, yəni Bakı şəhəri ilə birlikdə Abşeronun da daxil olduğu Şirvan ərazisi əhalisi sıx olan zəngin diyar idi. Həmçinin, Şirvanın hakimi Əli ibn Heysəm olduğu aydınlaşır ki, bu da «Tarix əl-Bab»ın məlumatına tamamilə uyğun gəlir. Böyük qoşunu olmasına baxmayaraq, Şirvanşahın dəniz donanması yox idi və dənizdə onun yalnız ticarət gəmiləri üzürdü. Məsudinin dediyinə görə, o vaxtadək dənizdən düşmən gəlməmişdi. Xəzər dənizi sahillərini və Şirvan vilayətini viran qoyan xəzərlərin gəmiləri yox idi. Ehtimal ki, bu, Əli ibn Heysəmin hakimiyyəti dövründə rusların Abşerona mənbələrdən məlum olan ilk hücumu olmuşdur. Göstərilən hadisələr, hərbi uğursuzluqlar Şirvanşah Əli ibn Heysəmin nüfuzuna sarsıdıcı zərbə vurdu, böyük miqdarda qoşunlarının məhv olması isə onun dövlətini zəiflətdi və h. 305 (917)-ci ildə özünün devrilməsinə gətirib çıxardı. «Əli 305 (917)-ci ilədək - qohumu (babasının əmisi oğlu - S. *A.)* Layzan hakimi Tahir Yəzid ibn Məzyəd əş-Şeybani ona qarşı üsyan qaldıranadək - hakimiyyətdə qaldı»[9].

V. F. Minorski rusca tərcümədə ərəb mətnindəki İran (Aran) sözünü Layzan kimi şərh və təshih etmişdir. Məlumdur ki, X-XI əsrlər ərəb coğrafiyaşünaslarının əsərlərində, eləcə də «Hüdud əl-aləm»də bu ərazinin adı Layzan, Liran, yaxud İran kimi çəkilir, onun hakimi isə İranşah adlandırılır. Bu, hələ Markvartın diqqətini cəlb etmiş və o, İran - Aran sözlərini eynimənalı saymışdır[10]. V. F. Minorski İstəxrinin lokallaşdırmasına əsasən mətndə rast gəldiyi Liran, Lazyan adlarını Laycan (indiki İsmayıllı rayonundakı ətraf kəndlərlə birlikdə Lahıc qəsəbəsi) kimi təshih etmişdir. İstəxriyə görə, Layzan Şirvan, Muğaniyyə və Qəbələ (Ənbasiyə, yəni Ənbasi məlikliyi)[11] ilə həmsərhəd idi. Məsudi isə təsdiq edir ki, Qəbələ Muğanla qonşu idi[12]. Ehtimal ki, Kürdən şimalda, Girdiman, Göyçay və Türyançay çaylarının aşağı axarlarında yerləşirdi. Ola bilsin ki, Kürlə Alazan arasındakı ərazini tutub, gürcü mənbələrindəki Movakaniyaya uyğun gəlirdi[13]. Təbəridə Muğandan əl-Qabh (Qafqaz) dağlarına mənsub yer kimi danışılır[14]. Məsudi yazır: «Şirvan torpağına Qabh dağı yanında başqa bir məmləkət də həmsərhəddir. Bu yer Layran, onun hökmdarı isə Layranşah adlanır. Hal-hazırda bu ölkəni Şirvan şahı tutmuşdur. O, həmçinin Muğaniyyə adlanan məmləkəti də zəbt etmişdir». Məsudi daha sonra qeyd edir: «İndi Şirvanşah kimi tanınan Məhəmməd ibn Yəzid əvvəllər Layzanın[*] şahı idi. Şirvanın şahı isə Əli ibn Heysəm idi. O, həlak olduqdan sonra[*] Məhəmməd, dediyimiz kimi, əmilərini öldürüb Şirvanı tutdu. Məhəmməd, həmçinin, adlarını çəkdiyimiz məmləkətləri də zəbt etdi. Onun Qabh dağında dünyada misli-bərabəri olmayan Niyal (mətndə Tiyal) adlı qalası var...»[15].

---

[*] V. F. Minorski mətndə Layran və L-İranı Layzan, Layranşah və L-İranşahı isə Layzanşahla əvəz etmişdir.

[*] «Tarix əl-Bab»a görə (§ 9) onu Əbu Tahir Yəzid öldürmüşdür.

V. F. Minorski Şirvana dair şərhlərində aşağıdakıları qeyd edir: «Bizim müəllif Məhəmməd b. Xalidin ölümündən sonra bütün diqqətini Şirvan qoluna yönəldir və biz Arranda və onun paytaxtı Cənzədə (Qanzada) baş verən hadisələrdən xəbərsiz qalırıq. Bu boşluq yüzillik bir dövrdə h. 245 (859)-ci ildən, təqribən h. 344 (955-Arran)-cüilədək deyləmli Müsafirilər, h. 360 (971 )-cı ildə isə kürd Şəddadilər tərəfindən işğal olunanadək - əhatə edir. Arranda Məhəmməd b. Xalidin nəsil şəcərəsinin davam edib-etmədiyi, yaxud Xəlifənin öz idarə və təyinetmə sistemini bərpa etməyə nail olub-olmadığı naməlumdur. Yalnız 371 (982)-ci ildə biz Şirvanın Bərdəni tutduğunu öyrənirik. Göründüyü kimi, Məhəmməd ibn Xalidin idarə etdiyi ərazi, cənub sərhədləri Kürdən keçən son dövr Şirvan hökmdarlarının hakimiyyəti dövründəki ərazidən xeyli geniş olmuşdur...»[16].

Göstərdiyimiz kimi, «Tarix əl-Bab»a görə Məhəmməd ibn Xalid Gəncənin əsasını qoyan, yəni Arran şəhərlərindən birinin hakimi olmuşdur. Onun qardaşı Heysəm ibn Xalid həmin vaxt Şirvanın hakimi idi və müstəqillik qazanaraq, Şirvanşah titulu qəbul etmişdi. «Tarix əl-Bab»da sonra deyilir: «...Heysəm ibn Xalid Şirvanda müstəqillik əldə edəndə onun qardaşı Yəzid ibn Xalid də Layzanda müstəqillik qazandı. Heysəm Şirvanşah, onun qardaşı Yəzid isə Layzanşah adlanırdı». Bu mətndən aydın olur ki, Cənzənin (Gəncənin) əsasını qoyan Məhəmməd ibn Xalid «Tarix əl-Bab»ın göstərdiyi kimi, yalnız Cənzənin hakimi olmuşdur: o, Ərminiyyə* hakimliyini öz üzərindən götürdü, Cənzə şəhəri və mülklərinin mədaxili ilə kifayətləndi. Sonrakı hadisələr «Tarix əl-Bab»da belə nəql edilir: «Bir müddətdən sonra Yəzid öldü və onun yerinə oğlu Məhəmməd ibn Yəzid keçdi. O, uzun müddət hakimiyyət sürdü, ləyaqəti ucaldı, əməlləri çiçək açdı. Onun ölümündən sonra [təqr. h. 305 (917)-ci il - S. *A.]* oğlu Əbu Tahir Yəzid ibn Məhəmməd hakimiyyətə gəldi. O, Şirvana da sahib olmaq üçün səbrlə məqam gözlədi. Adamlarının əksər hissəsi əsir alınıb öldürülən Əli ibn Heysəmin zəifləməsindən istifadə edən Yəzid qəflətən Mərzuqiyyədə onun üzərinə hücum çəkərək özünü, oğlu Abbası və nəvəsi - Abbasın oğlu Əbu Bəkri əsir aldı. Yəzid Heysəmi və Abbası edam etdi. Əbu Bəkr qaçdı. Beləliklə, xoşbəxtlik Heysəmin evini tərk edib, onun qardaşı [əminəvəsi Yəzidin] evinə köçdü...». Gətirilən parçadan aydın olur ki, IX əsrin ikinci yarısında Xilafət zəiflədikdən sonra bir sıra vilayətlərin hakimləri, o cümlədən Şirvanşah və Layzanşah müstəqillik əldə etmişdilər. Şirvanın zəifləməsindən istifadə edən Layzan hakimi öz qohumunu öldürmüş, Şirvanı tutaraq Layzana birləşdirmişdi.

«Tarix əl-Bab»a görə, Əbu Tahir Yəzid ibn Məhəmməd ibn Yəzid ibn Xalid ibn Yəzid ibn Məzyəd ibn Zaidə əş-Şeybani h. 305 (917)-ci ildə Şirvanı zəbt etmiş, h. 306 (918)-cı ildə isə Şirvan torpağında Yəzidiyyə şəhərini saldırmışdır. Göstərdiyimiz kimi, Yəzidiyyə qədim yaşayış məskəninin yerində tikilmişdir.

* Ərminiyyə-Cənubi Qafqaz ölkələrinin inzibati bölgüsü - ərəblərdə Albaniya, Gürcüstan və Ermənistanın ümumi adı.

Ehtimal ki, Əbu Tahir Yəzid onun tikintisini başa çatdırmış, möhkəmləndirmiş və öz şərəfinə Yəzidiyyə adlandırmışdır. O, Layzanı [iqta] şəklində oğullarından birinə - Məhəmmədə vermişdir. Əbu Tahir Yəzidin hakimiyyəti dövründə Dərbəndlə bağlı bir sıra hadisələr baş verdi. H. 318 (930)-ci ildə Şəbəranın qapıları qarşısında onun oğlu Məhəmmədlə əl-Babın əmiri Əbu əl-Malik əl-Haşimi arasında vuruşma oldu. Lakin tərəflərin heç biri qəti qələbə çala bilmədi və onlar arasında barışıq bağlandı. Bu dövrdə Dərbənddə «Tarix əl-Bab»a görə, əsası h. 255 (869)-ci ildə Haşim ibn Süraqə tərəfindən qoyulmuş Haşimilər sülaləsi hakimiyyət sürürdü[17]. Lakin əl-Kufi və Yəqubi xəbər verirlər ki, Harun ər-Rəşid [h. 170-193 (786-809)-cü illər] Səid ibn Səlma əl-Bəhilini Ərminiyyə, Şirvan və Arrana göndərərkən əl-Babın hakimi [sahibi] Nəcm ibn Haşim idi. Bir neçə aydan sonra Dərbənd əhalisi Səidə qarşı üsyan qaldırdı, onun maliyyə məmuruna (amil) hücum etdi. Səid Nəcmi edam etdirdi, lakin sonralar Nəcmin oğlu Həyyun Səid əleyhinə üsyan qaldıraraq, xəzərlərin xaqanı ilə əlaqəyə girdi.

Xaqan böyük qoşunla hərəkət edib bir sıra yerləri dağıtdı, əhalini qarət edib Araz çayına çatdı. Xəlifə Səidi hakimiyyətdən götürdü. Şirvana və Arrana bir-birinin ardınca üç hakim göndərildi. Ancaq Yəzid ibn Məzyəd hakim təyin olunandan sonra üsyanlar yatırıldı və ölkə sakitləşdi[18]. Həyyunun sonrakı taleyi məlum deyil. Lakin onun ailəsi Dərbənddə qalırdı. Onun nəvəsi h. 255 (864)-ci ildə müstəqil Haşimilər sülaləsinin əsasını qoymuşdu[19].

Əbu Tahir Yəzidin hakimiyyəti dövründə bir sıra mühüm hadisələr baş verdi. Azərbaycanda Sacilər sülaləsinin hakimiyyətinə son qoyuldu. Onları Deyləmi Müsafirilər əvəz etdi. Onlardan Müsafiri Mərzuban Bərdəni tutmuş ruslarla müharibələr apardı. H. 333 (944)-cü ildə Dərbənd əhalisi Əbdülməlik əl-Haşiminin oğlu əmir Əhməd əleyhinə üsyan qaldırdılar və onu şəhərdən qovdular. Onlar Şirvanşah Əbu Tahir Yəzidin yanına adamlar göndərərək, onu əl-Bab hakimliyinə dəvət etdilər. «Əbu Tahir Yəzid oğlu Əhmədi əl-Baba göndərdi və əhali ona öz əmiri kimi sədaqət andı içdi. Əhməd bir qədər orada qaldıqdan sonra əhali onu qovub, Əhməd əl-Haşimini hakimiyyətə qaytardı. Əbu Tahir Yəzid əl-Babın ətrafına (savad) hücum çəkib, oraları qarət etdi»[20]. Sasanilər dövründən ənənəvi olaraq Dərbəndi özünün irsi mülkiyyəti sayan Şirvanşahlar bu iddia ilə dəfələrlə hücum edib oranı tutmuşdular. Lakin həmin vaxt Dərbənddə artıq başqa sülalə - ərəb Xilafəti tərəfindən təyin edilmiş, eyni zamanda, ərəb mənşəli Haşimilər hakimiyyətdə idi. Ancaq yadelli işğalçıların və başqa feodalların hücum təhlükəsi olduqda Şirvanşahlar ümumi düşməni dəf etmək üçün Dərbənd hakimləri ilə birləşirdilər. «Tarix əl-Bab»da bu barədə söhbət gedir: «Bundan azacıq sonra deyləmlilər Şirvana girdilər. Yəzid əl-Bab əhalisi ilə sülh bağlamağa və onlardan kömək istəməyə məcbur oldu. O, Şəbəranda və kəndlərdə onlardan tutub aldıqlarını, neft mədənlərindən və duz karxanalarından toplanan rüsumları [rüsum ən-nəffatə vəlməllaxə] geri qaytardı. Əl-Bab əhalisi Yəzidə kömək göstərdi və o, deyləmliləri qovdu, sonra isə onlarla sülh bağladı»[21]. Xəlifələr, Sasanilər dövründə

olduğu kimi, sərhəd məntəqəsi olan Dərbəndə böyük əhəmiyyət verərək, onu varlı Şirvan vilayətinə aramsız basqınlar edən xəzərlərdən, türklərdən və digər xalqlardan müdafiə məqsədi ilə möhkəmləndirirdilər. Onlar Dərbənddəki ərəb qarnizonunun saxlanmasına külli miqdarda vəsait sərf edir, bu xərcləri isə neft hasilatından böyük gəlir götürən Bakıdan və duz mədənlərindən çıxarırdılar. Şirvanşahlar neft quyularının və duz mədənlərinin mədaxilini toplamaq üçün xüsusi vergi yığanlar təyin etmişdilər. Toplanan gəlir xəlifənin fərmanı ilə vəqf kimi Dərbəndin müdafiəçilərinə ənam verilmək üçün oraya göndərilirdi. «Dərbəndnamə»nin verdiyi məlumata görə xəlifə Mütəmid h. 276 (883/4)-cı ildə Məhəmməd ibn Əmmarəni həmin mədənlərin rəisi təyin etdi ki, o, toplanan bütün gəliri keçidləri qoruyan əsgərlərə paylamaq üçün Dərbəndə göndərsin.

«Tarix əl-Bab»ın göstərdiyinə görə, mərkəzi hökumət zəiflədikdə və Xilafət tənəzzülə uğradıqda yerli hakimlər - istər Şirvanşahlar, istərsə də Dərbənd əmirləri - neftdən və duzdan əldə edilən gəliri mənimsəyirdilər.

Şirvanşahlar qısa bir müddət (908/9-cu ildən 918/9-cu elədək) tabe olduqları Cənubi Azərbaycanın feodal, hakimləri - Sacilərlə yaxşı münasibətləri qoruyub saxlamağa çalışırdılar. Belə ki, Yəzid xatadan qurtarmaq üçün h. 320 (932)-ci ildə Yusif ibn Əbu Sacın Azərbaycan əmiri Balduyədən qaçaraq, ondan sığınacaq istəyən qulamı Müflihi həbs edib Balduyəyə göndərmişdi. Deyləmlilərlə sülh bağladıqdan sonra Şirvanşah onlarla birgə bizanslılara (Rum), gürcülərə və digər «kafir» xalqlara hücum etməyə razılıq verdi. Şirvanşah Əbu Tahir Yəzid otuz üç ilə yaxın hökmranlıq etmiş, h. 337-ci ilin rəbiül-əvvəl (948-ci il, sentyabr) ayında ölmüşdür. Onun yerinə atasının vaxtında Layzan* hakimi olmuş oğlu Məhəmməd ibn Yəzid keçdi. O, bir oğlu Əhmədi Layzana, o biri oğlu Heysəmi isə babası Məhəmməd ibn Yəzidin vaxtında özünün əmir olduğu Təbərsərana hakim təyin etdi. Görünür, Təbərsəran da Şirvana daxil olub, onun irsi torpaqlarından idi. Şirvanın hakimi kimi onun ilk tədbiri həbsxanaya salınmış qardaşı Əhməd ibn Yəzidi aradan götürmək oldu[23]. Sasani şahlarına xas olan bu qaydanı görünür, şirvanşahlar onlardan əxz etmişdilər.

Əsərini h. 332 (943)-ci ildə tamamlamış Məsudi xəbər verir ki, bu vaxt Şirvanın hakimi h. 318 (930)-ci ildə[24] aralarında toqquşma olmuş kürəkəni Əbd əl-Məlik ibn Haşimin ölümündən (h. 327 (939)-ci il)[25] sonra Xursanı, Vardanı və Dərbəndi zəbt etmiş Məhəmməd ibn Yəzid idi. Məhəmməd ibn Yəzid bütün bu torpaqları Şirvan və Layzanla birləşdirdi. Məsudi daha sonra deyir ki, «onun məmləkəti hal-hazırda, yəni h. 332 (943)-ci ildə bir aylıq yol qədər uzanır. Bu ondan irəli gəlir ki, o öz torpaqlarına, Ənuşirəvanın* titul verməməsinə (vəsm) baxmayaraq, zəbt etdiyi torpaqları da qatmışdır[26]. Məsudinin dediklərindən aydın

* Mətndə Layzan şəklində getmişdir. Lakin «Tarix əl-Bab»ın əvvəlki üç nüsxəsində İran (Aran? - S.A.) kimi göstərilmişdir.
* Burada söhbət, mənbələrin məlumatına görə, Ənuşirəvanın torpaq verdiyi erkən Şirvanşahlardan gedir.

olur ki, Məhəmmədin hakimiyyəti dövründə Şirvanşahlar dövləti böyük bir əraziyə malik idi. Məhəmmədin h. 337 (948)-ci ildə atası Əbu Tahirin ölümündən sonra hakimiyyətə keçdiyini nəzərə alsaq, belə bir nəticəyə gəlmək olar ki, o, ya hələ atasının sağlığında şərikli hakimiyyət sürmüş, yaxud Məsudinin əsərində Məhəmmədin adının çəkilməsi mətnə sonradan əlavədir[27]. İbn Havqəlin h. 344 (955)-cü ildə Müsafir Mərzubana vergi verən məlikliklər haqqında məlumatı da Şirvanşah Məhəmməd ibn Yəzidin hakimiyyəti dövrünə aiddir. İbn Havqəlin dediyinə görə, «Şirvanşahın (yəni, Şirvanın) şahı və hökmdarı Məhəmməd ibn Əhməd Əzdiyə» qoyulan təzminat bir milyon dirhəm idi[28]. V. F. Minorskinin haqlı olaraq qeyd etdiyi kimi, bu mətndə əl-Əzdi nisbəsi Yəzidinin yanlış eşitmə nəticəsində təhrif olunmuş formasıdır. Müsafir Mərzubanın vaxtında yalnız Məhəmməd ibn Əbu Tahir Yəzid var idi. «Ola bilsin də əsərini h. 378 (988)-ci ilə yaxın bitirən İbn Havqəl əsl adın əvəzinə h. 370-81 (981-91)-ci illərdə hökmranlıq etmiş öz müasiri olan hökmdar Məhəmməd ibn Əhmədin adını vermişdir. İbn Havqəlin verdiyi siyahı Mərzubanın məhz h. 344 (956)-cü ildə əl-Bab ətrafında olması ilə bağlı ola bilər»[29]. Məhəmməd ibn Yəzidin zəbt etdiyi məlikliklər daha sonralar, Məhəmməd ibn Əhməd vaxtında - h. 372 (928)-ci ildə də Şirvanın tabeliyində qalırdı[30].

Məhəmməd ibn Yəzid səkkiz il hökmranlıq sürmüş, sələflərinin ənənəsini davam etdirərək, «kafirlərə», özünün şimal qonşularına hücumlar etmişdir. O, h. 345-ci il, səfər ayının 21-də (4 iyun 956-cı il) çiçək xəstəliyindən (cüdari) ölmüşdür. «Tarix əl-Bab»da maraqlı bir əhvalat nəql olunur: «...deyirlər ki, onu öz vəziri İbn al-Mərağı zəhərləmişdir. Səbəbi bu olub ki, Məhəmməd ibn Yəzid çiçək xəstəliyindən ölüm ayağında olarkən, hakimiyyət hərisliyi İbn əl-Mərağini başqa yolla hasilə gətirilə bilməyəcək bir işə sövq etmişdir. O, Məhəmmədin iki qulunu Əhməd ibn Yəzidin işgəncə çəkdiyi həbsxanaya göndərib, onu öldürmək əmri vermişdir. Onlar əmri yerinə yetirmiş və cənazəni gizlətmişlər. Bir neçə gündən sonra yaxşılaşmağa başlayan Məhəmməd sağaldıqdan sonra allaha minnətdarlıq əlaməti olaraq İbn əl-Mərağiyə qardaşı Əhmədi həbsxanadan buraxmağı əmr etmişdir. Həyatından qorxuya düşən İbn əl-Mərağı vaxtı ilə Məhəmməd ibn Yəzidin atasını məhv etdiyi kimi, bu dəfə də zəhərli içki verib onun özünü öldürmüşdür».

Məhəmmədin Əhməd və Heysəm adlı iki oğlu, boğulub öldürülmüş qardaşı Əhmədin isə Əbu-l-Heysəm ibn Əhməd adlı oğlu qalmışdır. Ölüm yatağında olan atasını yoluxmağa gələn Layzan əmiri Əhməd ibn Məhəmməd atasının ölümündən sonra onun varisi oldu. Dövlətin əyanları ona sədaqət andı içdilər. Lakin o, tezliklə xəstələndi[31]. «Tarix əl-Bab»da yenə də vəzirin Əhməd ibn Məhəmmədi baş tutmayan zəhərləmək cəhdi ortaya gətirilir. «Əhməd xəstəlikdən durandan sonra öz qulamlarını göndərdi, onlar qəfildən İbn əl-Mərağinin evinə girib onu dəyənəklə ölüncə döydülər. Təbərsəran əmiri olan Heysəm Şirvanda öz hakimiyyətini möhkəmləndirən və məkrli vəzirindən xilas olan qardaşından qorxuya düşərək

ləzgilər (ləkz) ölkəsinə aaçdı. Vaxtı ilə o da atasına baş çəkməyə gəlirdi. Onun əmisi oğlu, Əhmədin oğlu Əbü-l-Heysəm də Şirvanşahın təqibindən ehtiyat edərək Bərdəyə qaçdı, burada az bir müddət yaşadı və tezliklə öldü. Onun cənazəsi Kürdiyana* gətirilərək orada dəfn olundu. Şirvanda hakimiyyətin son mümkün iddiaçısı Əhməd ibn Məhəmməd ibn Yəzidin əmisi Əbü-l-Bədr ibn Yəzid də həmin ildə öldü və Əhməd Şirvanın şəksiz hakimi oldu[32].

Kiyev knyazı Svyatoslavın 965-ci ildə Volqaya və Şimali Qafqaza səfəri barədə İbn Havqəlin h. 358 (969)-ci ildə verdiyi məlumat da Əhməd ibn Məhəmmədin hakimiyyət vaxtına təsadüf edir. İbn Havqəlin sözlərindən görünür ki, ruslar, Səməndər də daxil olmaqla, bütün Xəzər torpaqlarını tutmuş və vaxtı ilə qüdrətli olan Xəzər dövləti ehtimal ki, bu sarsıntıdan sonra bir daha özünə gələ bilməmişdi. Xəzər xaqanlığından qaçanlar Abşeron və Manqışlaq yarımadalarında sığınacaq tapdılar. İbn Havqəlin dediyinə görə, bəzi qaçqınlar Şirvanşah Məhəmməd ibn Əhməd əl-Əzdinin* köməyilə Xəzər paytaxtlarına (İtil, Xəzəran) qayıtmağa başlamışdılar. Şirvanşah onlara öz qoşunu və adamları ilə yardım göstərmişdir[33].

Lakin Əhməd ibn Məhəmmədin Təbərsəran hakimi olan qardaşı Heysəm Şirvana hökmranlıq iddiasından əl çəkməmişdi. H. 357 (968)-ci ildə o, ləkzlər ölkəsini tərk edərək, Salar İbrahim ibn Mərzuban Deyləminin yanında sığınacaq tapdı, onunla birlikdə yürüş edib Şirvan torpağına girdi. Salar ölkəni və Dərbəndin ətrafını qarət etdi. Şirvan hakimi Əhməd onunla sülh sazişi bağladı və ona xərac verdi. Salar Şirvanı tərk etdi və Heysəmi də özü ilə aparmaq istədi. Lakin Heysəm əl-Məsqətə qaçdı və ona siyasi sığınacaq verən, ehtiram və rəğbət göstərən əl-Bab əmiri Əhməd ibn Əbd-ül-Məlik əl-Haşiminin yanında qaldı. Əhməd ibn Əbd-ül-Məlik Heysəmin adından Şirvan hakimi ilə danışığa girərək, Şirvanın bir hissəsinin ona güzəştə gedilməsini tələb etdi. Lakin Şirvanşah bu tələbi rədd etdi və hədə-qorxu gəldi. Dərbənd Əmiri Əhməd ibn Əbd-ül-Məlik əsasən Sərir vilayətindən qoşun toplayaraq Şirvana soxuldu. Şəbəran şəhərini hücumla alıb yandırdı, talan edib böyük qənimət götürdü. Geri qayıdarkən sərirli döyüşçülər əl-Baba əmirdən bir gün əvvəl daxil oldular. Lakin şəhərdə iğtişaş və qarışıqlıq başlandı. Yerli əhali yüz sərirli hərbi rəisi öldürüb onların Şirvanda ələ keçirdikləri qəniməti çapıb taladılar. Şirvanşah Əhməd iyirmi beş ilə yaxın hökmranlıqdan sonra h. 370-ci ilin zilhiccə ayında (iyun 981-ci il) vəfat etdi[34].

Əhmədin ölümündən sonra taxta onun oğlu Məhəmməd ibn Əhməd çıxdı. O, qonşu feodallara qarşı təcavüzkar siyasət yeridir və öz ərazisini bir sıra şəhərləri ilhaq etmək hesabına genişləndirməyə çalışırdı. H. 371 (981/2)-ci ildə o, Qəbələ şəhərini onun əmiri Əbd ül-Bərr Ənbəsədən tutub aldı. Təqribən h. 372 (982)-ci

* İndi Lahıcın 12 kilometrliyindəki Kürdüvan kəndi.

* Şirvanşahın adı Əhməd ibn Məhəmməd əl-Yəzidi kimi oxunmalıdır. Ehtimal ki, müəllif onun adını sonralar hafizəsində qaldığı kimi əlavə etmişdir.

ildə isə Bərdəni işğal edib Musa ibn Əlini özünün canişini təyin etdi. Məhəmməd öz şəhərlərini də möhkəmləndirirdi. Belə ki, h. 373 (983)-cü ildə o, Şəbəranın, görünür, hərbi əməliyyatlar nəticəsində dağıdılmış hasarlarını bərpa etdirdi. Göründüyü kimi, Şirvanın ən zəngin və qədim şəhər-mərkəzlərindən olan Şəbəran qonşu feodalların diqqətini cəlb edirdi. Onlar aramsız olaraq şəhərə basqınlar edir, onu çapıb talayırdılar. Ehtimal ki, Şəbəran qədim zamanlardan Şirvanın paytaxtı olmuşdu. H. 372 (982)-ci ildə babası Məhəmməd ibn Yəzidin Layzana (V. F. Minorskiyə görə Lahıc)[35] birləşdirdiyi Xursan və Şirvan məliklikləri Məhəmməd ibn Əhmədin mülklərinə daxil idi.

H. 378 (988)-ci ildə ət-Tuzi Dərbəndi onun əmiri Əhməd Haşiminin oğlu Məymundan aldı və onu şəhərdən qovdu. Sonra o, şəhəri Şirvanın hakimi Məhəmməd ibn Əhmədə təslim etdi. O, bir neçə ay şəhərdə hökmranlıq etdi, lakin Məymunun qulamlarından Balid (Baldu?) adlı birisi tərəfindən yaralanan Məhəmməd ibn Əhmədi ona tabe olan feodallar Şirvana apardılar. Balid onun iqamətgahında üstünə atılaraq təbərzinlə boynunun ardından vurub yaralamışdı. Qulam Təbərsəranda gizlənən və bu hadisələrdən sonra Dərbəndə qayıdan ağası Məymunun yanına qaçmışdı. Məhəmməd tezliklə sağaldı. Lakin bu zaman onun Bərdədəki canişini Musa ibn Əli açıqca qiyam qaldıraraq, yalnız öz adından xütbə oxunmasını Şirvanşah Məhəmmədin adının xütbədən çıxarılmasını əmr etdi. Sonra «Tarix əl-Bab»da xəbər verilir ki, h. 380 (990)-ci ildə Dərbənd əhalisi öz əmirləri Məymuna qarşı üsyan qaldıraraq onu hakimiyyətdən qovdular. Onlar Şirvanşah Məhəmməd ibn Əhmədi Dərbəndə dəvət etdilər. Dərbəndə gələn Məhəmməd qalanı yenidən tikdirdi, daha doğrusu, bərpa etdirib möhkəmləndirdi və orada öz adamlarından ibarət qarnizon yerləşdirdi. Bundan sonra o öz paytaxtına, ehtimal ki, Yəzidiyyəyə qayıtmış, on bir il səkkiz ay və iyirmi bir gün səltənət sürdükdən sonra h. 381 (991)-ci ilin ramazan ayında (noyabr) ölmüşdür[36].

Onun yerinə hakimiyyətə qardaşı Yəzid ibn Əhməd keçdi. Bu hadisələrdən və hakimiyyətin dəyişilməsindən istifadə edən Əmir Məymun yenidən Dərbəndi tutaraq, ehtimal ki, cəmi bir il beş ay əvvəl, Şirvanşah Məhəmməd ibn Əhmədin vaxtında tikilmiş orta (köndələn) divarı (əs-sür əl-vəstani) dağıtdı. Yəzidin hökmranlıq illəri onun öz dövlətinin ərazisini qonşularının hesabına genişləndirmək məqsədilə apardığı feodal ara müharibələri ilə əlamətdardır. H. 382 (992)-ci ildə Qəbələ rustağında şirvanlılarla şəkərlilər* arasında şiddətli vuruşma baş verdi. Döyüşdə Şirvanşahın vəziri Müsəddin ibn Həbəşi öldürüldü, onunla birlikdə Şirvan qoşununun adlı-sanlı 400 süvari əsgəri həlak oldu. Şirvanşah Yəzid ibn Əhmədin hakimiyyəti onunla əlamətdar idi ki, o, dövlət işlərini təkbaşına idarə etmir, bütün dövlət işlərini bərdəli Abbasın oğlanları Əbd ül-Əziz və Əbd ül-Səmədə həvalə edir, yalnız onların məsləhəti ilə qərar çıxarırdı. H. 389 (999)-cu ildə Şirvanşah Yəzid Qəbələnin hakimi, Gürzül* qalasının sahibi Əbd ül-Bərr

* Ehtimal ki, şəkililər.

* Gürzül Göyçay çayının qərb sahilindəki Girdədül kəndi ilə eyniləşdirilir.

Ənbəsə ilə müharibə edərək, Gürzül qalasını onun əlindən aldı. Bundan sonra elə həmin il Şirvanşah Zirkiyyə (daha doğrusu, Rizkiyyə?) mülkünə sahib olmaq üstündə Dərbənd əmiri Ləşkəri ibn Məymunla vuruşdu, lakin uğur qazana bilmədi. Ləşkəri Şəbərana yürüş etdi. Lakin şirvanlılar onlarla şəhərin qapıları qarşısında vuruşdular. Dərbənd qoşunu ağır məğlubiyyətə uğradı, döyüşdə Ləşkərinin qardaşı Əbu Nəsr ibn Məymun əsir alındı. Şirvanşah onu həbsxanaya saldırdı, barışıq bağlandıqdan sonra o, girov saxlandı. H. 391 (1001)-ci ildə Ləşkərinin ölümündən sonra Dərbənd əhalisi Şirvanşah Yəziddən özlərinə əmir seçmək istədikləri Əbu Nəsrin azad olunmasını tələb etdilər. Lakin Yəzid qızını Əbu Nəsrə ərə vermək istəməsi bəhanəsilə bundan boyun qaçırdı və şərt qoydu ki, Əbu Nəsri o zaman buraxar ki, Dərbənd camaatı Dərbənd və Sul (Çul) qalalarının tikilməsinə (daha doğrusu, bərpa olunmasına) razılıq versinlər. Dərbəndlilər bu təklifi rədd etdilər və Yəzid heç bir günahı olmayan Əbu Nəsri edam etdi. Əbu Nəsr Şəbəran qalasının həbsxanasında saxlanırdı və Şirvanşah onu həmin şəhərin qapıları qarşısında dəfn etdirdi. Bu, h. 392 (1002)-ci ildə olmuşdur. Dərbənd əhalisi Əbu Nəsrin qardaşı Mənsuru əmir seçdi. Şirvanşah Dərbəndi tutmaq üçün müharibəni davam etdirirdi. Döyüşlər gah bu, gah da digər tərəfin üstünlüyü ilə gedirdi. H. 410 (1019)-cu ildə sərhəd vilayətinin (səqr), ehtimal ki, Dərbəndin əhalisi öz əmiri Mənsurun əleyhinə üsyan qaldırdı, onu şəhərdən qovub hakimiyyəti Şirvanşah Yəzid ibn Əhmədə təslim etdi. Yəzid ibn Əhməd Dərbənd qalasını bərpa etdi və orada öz qarnizonunu yerləşdirdi. Lakin Səririn hakimi Mənsuru müdafiə etdi. Dərbənd sakinləri Şirvanşaha xəyanət edərək Mənsurun tərəfinə keçdilər. H. 412 (1021)-ci ildə Mənsur Dərbəndə daxil olaraq onu Yəziddən aldı. Sonra Mənsur Şəbərana hücum etdi. Şirvanlılarla Mənsurun qoşunları arasında bir neçə vuruşma oldu. Lakin düşmən tərəflərin heç biri qələbə qazana bilməyib aralandılar. Dərbənd əhalisi h. 414 (1023)-cü ildə yenidən əmir Mənsuru şəhərdən qovdu, Şirvanşah Yəzidi dəvət edib, Dərbəndi ona təhvil verdi. Yəzid qalanı bərpa etdi. H. 415-ci ilin ramazan ayında (noyabr (1024) Mənsur qayıtdı və iyirmi gündən sonra yenidən qalanı ələ keçirdi. H. 416 (1025)-cı ildə Şirvanşah Yəzidin qardaşı Heysəm Təbərsəranda, ehtimal ki, şirvanşahların ailə üzvlərinin irsi mülkü olan «Məhəmməd mülkü»ndə öldü. Elə həmin ildə Sərracilərlə - ehtimal ki, sərraclar zümrəsinin tərəfdarları ilə şirvanşahlar arasında şiddətli mübarizə başladı (və şirvanşahlar qalib gəldilər)[37].

«Tarix əl-Bab»da Şirvanşah Yəzidin hökmranlıq dövrünə dair maraqlı məlumatlar verilir: «Həmin il [ehtimal ki, h. 416 (1025)-cı il] şirvanşahın Yəzidiyyə canişini olan oğlu Ənuşirəvan ibn Yəzid atasının əleyhinə qiyam qaldırdı. Bu vaxt atası [ailə üzvlərindən olan] bir neçə qadınla Gürzül [Girdədül] qalasında əylənir və ov edirdi. Bundan istifadə edən Ənuşirəvan ibn Yəzid açıq-aşkar qiyam qaldırdı. Qara camaatdan [aybaş ən-nas] çoxları onun ardınca getdi. O, atasının vəziri Əbd ül-Əziz ibn Abbasın əmlakını müsadirə etdi, evini talayıb

özünü həbsxanaya saldırdı. Sonra onun tərəfdarları arasında təfriqə düşdü. [Onlardan bəziləri] tutduqları işdən, onun ardınca getmələrindən peşman oldular. Onlar Yəzidi gizlincə dəvət edərək, onu tezliklə qayıtmağa razı salmağa çalışdılar. Yəzid təcili [evə] hərəkət etdi, əhali şəhərin qapılarını açdı, onun oğlundan üz döndərdi. Qiyamçı oğul sığınmaq üçün Kastan [Gülüstan?] qalasına qaçdı, lakin vəzir onun arxasınca düşərək, yolda yaxaladı və atasına verdi. Yəzid oğlunu bir müddət həbsxanada saxladı, sonra orada ac və susuz qalıb öldü. Şirvanşah Yəzid ibn Əhməd özü otuz yeddi il səltənət sürdükdən sonra h. 418 (1027)-ci ildə öldü[38]. Yəzid ibn Əhmədin hökmranlığı dövründə bu səltənət xanədanında ilkin mənbələrdə əksini tapmayan hansısa hadisələr baş vermişdir. Lakin bir şey şəksizdir: Şirvanşahların adları dəyişmişdir - Yəzid ibn Əhməddən sonra ərəb adlarından qədim Sasani adlarına dönüş başlamışdır (Yəzidin oğulları Ənuşirəvan, Mənuçöhr adlanırdı). Çox ola bilər ki, artıq X yüzilliyin birinci yarısında Məzyədi Şirvanşahlar Sasani mənşəli yerli əsilzadə ailələri ilə qohumluq əlaqələrinə girir və həmin ailələrin qadın nümayəndələri köhnə ənənələri dirçəldirdilər. Məsudi h. 332 (943)-ci ildə Şirvan şahı Məhəmməd ibn Yəzidin Sasani Bəhram Gurun nəslindən olduğunu göstərirdi[39]. Şirvanşahların Sasani Bəhram Gurun əsilzadə nəslindən olmalarını iddia etmələri faktının özü artıq erkən dövrlərdə yerli şahlardan biri ilə, ehtimal ki, Sasani mənşəli Şirvanşahlarla nikah bağlanması ilə izah edilə bilər.

Ola bilər ki, Xilafətin tənəzzülü və Şirvanşahların hakimiyyətinin möhkəmlənməsi ilə bağlı «xanədan yenidən dirçəlməyə başladıqda ona öz nüfuzunu əsilzadə nəslinə mənsubluğu ilə hər vəchlə əsaslandırmaq lazım gəldi və onda Şirvanşahların Sasanilərlə qohumluğu barədə köhnə nəzəriyyə ortaya çıxdı, onların Şeyban ərəb tayfası ilə bağlılığı isə arxa plana çəkildi...»[40].

Yəzid ibn Əhməd h. 418 (1027)-ci ildə öldükdən sonra hakimiyyətə oğlu Mənuçöhr ibn Yəzid keçdi. Onun hakimiyyət dövrü üçün feodal ara müharibələri və yadelli basqınlara qarşı mübarizə səciyyəvidir. XI əsrin birinci yarısında Şirvanşahlar qonşu feodallarla ara müharibələri, habelə, yadelli işğalçılara, dəfələrlə onların torpaqlarına basqınlar edən müxtəlif tayfalara - alanlara, sərirlilərə, ruslara və başqalarına qarşı müdafiə müharibələri aparırdılar. H. 420 (1029)-ci ildə Mənuçöhr Məsqətə məxsus olan Mücəkabad malikanəsi üstündə əl-Bab əmiri ilə müharibəyə başladı. Şirvanşah bu müharibədə məğlubiyyətə uğradıqdan sonra əl-Bab hakimi h. 421 (1030)-ci ildə Şirvanşah torpaqlarına basqın edərək, onun ərazisindəki bir çox yaşayış məntəqəsini dağıtdı[41]. Həmin il, bir qədər sonra, ruslar Şirvana basqın etdilər. H. 421 (1030)-ci ildə Bakı yenidən otuz səkkiz gəmi ilə yürüş edən rusların hücumlarına məruz qaldı. I Mənuçöhr ibn Yəzid onları Bakuya (Bakı) yaxınlığında qarşıladı. Ruslarla vuruşmada çoxlu şirvanlı, o cümlədən zadəganlardan Əhməd ibn Xasskin (ehtimal ki, Xasstəkin) həlak oldu. Sonra ruslar Kürlə üzüyuxarı üzərək Araza çatdılar. Mənuçöhr rusların hərəkətini dayandırmağa çalışaraq, Arazın qabağını bəndlə kəsib, onların irəliləməsinə mane olmağa cəhd göstərdi. Lakin ruslar şirvanşahın dəstəsini batıra

bildilər. Bununla belə, onların Arazla irəliləməsi dayandırıldı[42]. Həmin ildə Gəncə hakimi Şəddadi Musa ibn Fəzl rusları dəvət etdi, onlara çoxlu pul verərək, əhalisi üsyan qaldırmış Beyləqanın üzərinə göndərdi. Musa ibn Fəzl feodalların ara müharibələrində dəfələrlə muzdlu əsgər kimi tutduqları rusların köməyilə Beyləqanı ələ keçirdi, öz atasına və qardaşına qarşı qiyam qaldırmış qardaşı Əskəriyyəni öldürdü. Sonra ruslar Arranı tərk edərək, Ruma getdilər və oradan vətənlərinə qayıtdılar. Mənbədə göstərilir ki, ruslar tezliklə - h. 421-ci ilin zilhiccə ayında (noyabr 1031) yenidən gəldilər. Bu dəfə Şirvanşahın qaynı olan Arran hakimi Əbü-l-Fəth Musa ibn əl-Fəzl ibn Məhəmməd ibn Şəddad ruslara hücum etdi. Bakuya yaxınlığında onlarla vuruşdu, ölkədən sıxışdırıb çıxararaq xeyli hissəsini qırdı[43]. «Tarix əl-Bab»da xəbər verilir ki, h. 423 (1032)-cü ildə alanlar və sərirlilər ruslarla birlikdə Şirvana hücum edərək, Yəzidiyyəni[44] zorla ələ keçirdilər. Mənbədə sonra göstərilir ki, onlar Şirvanı qarət edib, əsirlərlə birlikdə öz ölkələrinə qayıdarkən əl-Babın taxta (əl-xəşab) qapılarına çatdılar, lakin sərhəd vilayətlərinin əhalisi əmir Mənsurun başçılığı ilə onlara hücum etdi və çoxunu məhv edərək, Şirvandan qarət etdikləri hər şeyi əllərindən aldı. Alanların cüzi bir hissəsi əmirləri ilə birlikdə xilas ola bildi. H. 424 (1033)-cü ildə alanların dəstəsi əl-Bab sakinlərindən qisas almaq məqsədilə yenidən basqın etdi və bu dəfə də məğlubiyyətə uğradı. H. 425 (1034)-ci ildə Şirvanşah Mənuçöhr yeddiillik hökmranlıqdan sonra öz evində qardaşı Əbu Mənsur ibn Yəzid tərəfindən xaincəsinə öldürüldü. Səbəb bu idi ki, Əbu Mənsur özü Şirvanşahdan qorxur və ondan gizlənirdi. «Tarix əl-Bab»da Şirvanşahın öldürülməsi hadisəsi müfəssəl təsvir olunur. Şirvanşahlar sarayının dəb və adətlərini, hökmdarların şəxsi həyatını səciyyələndirən həmin mətni bütövlükdə veririk: «[Əbu Mənsur] Yəzidiyyə əhalisinin sayıqlığını azaltdığı gecələrin birində şəhərə girdi və bu barədə qardaşının arvadına - Fəzlin [Şəddadi] qızı Sittə [xəbər] göndərdi. Sitt ona ürəkdən vurulmuşdu. Əbu Mənsur öz vəziyyətini xəbər verdi və Sittin tapşırdığı kimi, onun qulamlarından birinin evinə düşdüyünü bildirdi. Bu xəbəri alan həmin qadın yaxın adamlarından olan bir qadını mətbəx sandığı ilə onun yanına göndərdi. Həmin qadın onun sandıqda qalaya girməsinə kömək etdi. Əbu Mənsur [Sittin] evinə çatanda Sitt adam göndərərək, əri Mənuçöhrü öz yanına dəvət etdi. Mənuçöhr gəlib [onun qabağında dayananda] Sitt qardaşından, Arran hakimi Fəzlin oğlu Musadan aldığı məktubu ona göstərdi. Mənuçöhr oxumağa başladı. Mənuçöhr məktuba baxa-baxa onun məzmununu arvadına izah edərkən, Əbu Mənsur qəfildən evin uzaq küncündən sıyrılmış qılıncla içəri daxil oldu. Mənuçöhr soruşdu: «Səni mənim evimə kim buraxmışdır?» Lakin Mənuçöhr sözlərini deyib qurtarmamış Əbu Mənsur qılıncla onun boynunun ardından vurdu. O, zərbəni təkrar eləmək istədi. Lakin ürəyini bürümüş qorxudan qılınc onun əlindən sürüşüb düşdü. Bu vaxt məlun qadın yaxın adamlarından [birinə] qətli başa çatdırmağı əmr etdi. Sonra Əbu Mənsur çıxıb qala qapılarını bağlamağı əmr edəndə o, Mənuçöhrün [cəsədini] palaza [ziliyyə] bükdü. H. 425 (1034)-ci ildə taxta çıxan Əbu Mənsur Əli ibn

Yəzid ibn Əhməd qardaşının dəfn olunmasını əmr etdi və adət üzrə bir ildən sonra - h. 426-cı ilin rəbiyül əvvəl ayında (yanvar 1035) onun dul arvadına evləndi[45]. Əl-Babın əhalisi cümə axşamı, rəbüyül əvvəlin 17-də (9 fevral 1034) öz əmirləri Əbd ül-Məliki qovduqdan sonra Şirvanşah Mənsura tabe oldular. O, içqalanı bərpa etdirdi və orada öz qoşunlarının qarnizonunu yerləşdirdi. Göründüyü kimi, Şirvanşahlar Şirvan dövlətinə birləşdirməyə cəhd göstərdikləri əl-Baba iddialarından əl çəkmirdilər. Şirvanşahların əl-Baba iddiaları onunla izah edilirdi ki, xəlifə Mütəvəkkil h. 237 (851)-ci ildə əl-Bab şəhərini ondan asılı olan torpaqlarla birlikdə ikta şəklində Ərminiyyə, Arran və Azərbaycan valisi Məhəmməd ibn Xalidə bağışlamışdı. Şirvanşah Əbu Mənsur da, öz sələfləri kimi, əl-Baba sahib olmaq üçün bu şəhərin əmiri ilə müharibə aparmışdır. Sonra Şirvanşah vəziri Mənsur ibn Müsəddidi əl-Babda öz canişini təyin edərək onu «hökumət binası»nda yerləşdirdi, özü isə h. 426 (1035)-cı ildə paytaxtı Yəzidiyyəyə qayıtdı. Lakin əmir Əbd ül-Məlik elə həmin il qəflətən əl-Babda şirvanlılara hücum edərək, Mənsur ibn Müsəddidi öldürdü. İçqalanı mühasirəyə aldı və rəis Əli ibn Həsən ibn Ənakın vasitəçiliyilə h. 426-cı il rəcəb ayının 1-də (12 may, 1035) onun təslim edilməsinə nail oldu. Bundan sonra o, şəhəri və qalanı tutdu, Şirvan qoşunları isə Şirvana qayıtdı. Sonra Əbd ül-Məlik Şirvanşahla sülh sazişi bağladı və h. 427-ci ilin səfər ayında (1035-ci ilin dekabrında) onun bacısı, Yəzidin qızı Şəmkuyyə ilə evləndi. Əl Babın hərbi rəisləri öz təhlükəsizliyi üçün qorxu keçirməyə başladılar. Buna görə də onlar tabeliklərindəkilərlə birlikdə Əbd ül-Məlikə hücum edib, onun vəzirini evindəcə öldürdülər. Əbd ül-Məlik ailəsi ilə Şirvana qaçdı. Rəislər onu paytaxta qaytarıb gətirmək üçün Şirvana iki ağsaqqal göndərdilər. Lakin Şirvanşah elçiləri həbs etdi, onları qandallayıb qalalardan birinə saldı. Bundan sonra o, əmirə əl-Babda öz hakimiyyətini bərpa etməyə kömək göstərdi[46]. Omir Əbd ül-Məlik doqquz illik hakimiyyətdən sonra h. 434-cü il rəcəb ayının 25-də, cümə axşamı (10 mart 1043-cü il) öldü[47]. Əbu Mənsur Şirvanda on il - h. 435 (1043)-ci ildə ölənə qədər hakimiyyət sürdü. Həmin vaxtdan Şamaxı rayonunun Çuxuryurd həndəvərində tapılmış aşağı əyarlı gümüş sikkə qalmışdır. Sikkənin üzərində aşağıdakılar təsvir olunmuşdur: 1 - səthində bir neçə kiçicik dairələr, sağ tərəfdən oxunmayan söz var, sol tərəfi budanmışdır. Çevrə boyu budanmış yazı nəzərə çarpır. II [Məhəm]məd rəsulullah, [əl]-Məlik əl-adil... əd-dövlə Əbu [Mənsur Əli ibn Yəzid] [şir]vanşah, müvali əmir [əl-Möminin]; çevrə boyu hər şey budanmışdır[48].

Əbu Mənsurun hökmranlığı dövründə şirvanşahla hərbi rəislər arasında çəkişmələr davam edirdi. Onun ölümündən sonra şirvanşahlığa qardaşı Qubad ibn Yəzid keçdi. H. 436 (1044)-cı ildə əl-Bab əmiri ilə hərbi rəislər arasında nifaq düşdü. Onlar əmirin üstünə hücum çəkdilər, onun arvadı Şəmkuyyəni ələ keçirib qardaşı Şirvanşah Qubadın yanına göndərdilər. Qubad Şəmkuyyəni qalaya saldı, lakin sonra azad etdi və h. 437 (1045)-ci ildə ərinin yanına qaytardı. Elə həmin il Qubad türk-oğuzların hücumundan qorxaraq, paytaxtı Yəzidiyyənin ətrafına

yonulmuş daşdan möhkəm qala divarı çəkdirdi və dəmir qapı qoydurdu. Qubad altı il səltənət sürüb h. 441-ci il səfər ayının 24-də (28 iyul 1049) öldü.

Qubadın öldüyü ilk gündən hakimiyyətə onun qardaşı oğlu Buxtnəssar Əli ibn Əhməd ibn Yəzid ibn Əhməd ibn Məhəmməd ibn Yəzid keçdi. Təqribən bir ildən sonra o, hakimiyyətdən salındı və onun əmisi Salar ibn Yəzid şirvanşah elan olundu. Qala təslim olunduqdan sonra Buxtnəssar Şirvandan qaçdı, lakin Saların onun dalınca saldığı dəstə Beyləqan yaxınlığında onu yaxalayıb öldürdü[49].

Münəccimbaşının məlumatına görə, Salar h. 445 (1053)-ci ildə Malu* (Maluğ) qalasını tutaraq möhkəmləndirmiş, orada qarnizon yerləşdirmiş, ərzaq və silahla təchiz etmişdi. O, qalanın yaxınlığında ətrafında istehkamlar qurulmuş şəhər (mədinə) saldırmış, oraya əhali köçürmüş və cümə məscidi tikdirmişdi. Salar «kafirlərlə», ehtimal ki, (Dağıstanın islamı qəbul etməyən əhalisi ilə) müharibəni davam etdirmiş və Şirvanı onların basqınlarından qorumuşdur. O, on beş il hökmranlıq etdikdən sonra h. 455-ci il, şənbə günü səfər ayının 18-də (20 fevral 1063) ölmüşdür. Salar Şəddadi Əbü-l-Əsvar Şavur ibn Fəzllə qohumluq münasibətlərində olmuş, onun qızı ilə evlənmişdir[51]. Onun adına üzərində dörd sətirlik yazı olan sikkə zərb edilmişdir. Məhəmməd rəsulullah! Kömək edən şah, Əbu... -... Salar ibn Yəzid, Şirvanşah[52]. Salar ibn Yəzidin adı Qəffarinin «Cahan ara» əsərində də yad edilir. Bütün bu məlumatlara əsasən A.A.Bakıxanov onun adını çəkir[53]. Lakin Şirvanşahların Qəffari tərəfindən verilmiş şəcərəsi səhvdir, belə ki, burada Saların atasının adının Yəzid ibn Əhməd deyil, Yəzid ibn Məzyəd olduğu göstərilir[54]. Abşerondakı Buzovna* kəndində, qədim qüllənin xarabalıqlarında üzərində yarım silinmiş kitabə olan daşlar tapılmışdır. İ. Berezin onun məzmununu belə oxumuşdur: «Bu binanı böyük və nəcabətli insan, hər şeyin dərin bilicisi, etiqadın parlaq ulduzu, müsəlmanların ən yaxşısı, padşah Məlik Salar 53-cü ildə tikdirmişdir»[55]. Hal-hazırda Sankt-Peterburqda Şərqşünaslıq İnstitutunda saxlanılan həmin iki daş kitabədən Y. A. Paxomov da bəhs edərək, onun aşağıdakı oxunuşunu vermişdir: «İqamətgahın və binanın sahibi, sədr ... müdrik, alicənab, kamil... icmanın və dinin məşəli, islamın kamilliyi Şah Məlik Salar h. 53-cü ilin [Dörd] yüz üç və beşinci* ilin rəcəb ayı»[56]. İ. Berezin qeyd edir ki, «görünür, yüzlük rəqəmi pozulmuşdur və Məlik Salar haqqında mənə heç kim doğru bir söz deyə bilmədi»[57]. İ. Berezin mətni dəqiq oxumamışdır. Münəccimbaşının məlumatına görə, Məlik Salar [ibn Yəzid] şirvanşah olmuş və təqribən h. 441 (1049)-ci ildən 455 (1063)-ci ilədək, yəni 15 il hakimiyyət sürmüşdür[58]. Beləliklə, Y. A. Paxomovun oxuduğu h. 53-cü il tarixi h. 453 (1061)-

---

* V. F. Minorskinin fikrincə, Malu Şəki vilayətində yerləşirdi[50].

* K. Spasski-Avtonomovun fikrincə, bu daşlar Buzovna kəndindəki qüllənin xarabalıqlarından tapılmışdır. Lakin İ. Berezin yazır ki, həmin qüllə Mərdəkan kəndində olmuşdur. Bu fikir ayrılığı həmin kitabəni müəyyən konkret tikili ilə inamla bağlamağa imkan vermir.

* Rusca tərcümədə 5 (50?) rəqəmi buraxılmışdır.

cü il kimi düzəldilməlidir ki, bu da həqiqətə uyğundur.

Şirvanşahların siyasi tarixi araşdırılarkən aşağıdakılar müşahidə olunur. Şirvanşahlar İrandakı Sasani ənənələrini davam etdirərək, taxta oturarkən rəqib və hakimiyyət iddiasında olmasın deyə öz qardaşlarını öldürtdürürdülər. Şirvanşahlar ilkin hökmranlıqları dövründə böyük əraziyə malik idilər. Buraya təkcə Şirvanın qədim torpaqları deyil, bir sıra hallarda, Arranın, Dağıstanın cənub vilayətləri, Təbərsəran və Mavakaniyayadək Dərbənd də daxil olmaqla, Baş Qafqaz dağlarına qədər şimal vilayətlərinin, Gürcüstanla həmsərhəd şərq vilayətlərinin əraziləri də daxil olmuşdur. Şirvanşahlar Arranın paytaxtı Bərdəni, cənubda Muğanı da tez-tez ələ keçirirdilər. Görünür, Şəbəran Şirvanın mərkəzi şəhəri, hətta erkən dövrlərdə, ehtimal ki, paytaxtı olmuşdur. Şirvanşahların bir çox ailə üzvlərinin Şəbəranda və onun həndəvərində dəfn edilməsi də bunu göstərir. Zəngin və inkişaf etmiş bu şəhər ölkənin iqtisadiyyatında mühüm rol oynamışdır. Mənbələrdə onu zəbt etməyə can atan qonşu feodalların basqınlarına dair məlumatlara tez-tez rast gəlinir. Şirvanşahlar keçmiş ənənəyə əsasən Dərbəndi də özlərinin qədim torpağı sayırdılar: hərçənd o, artıq IX əsrdən müstəqil Haşimilər sülaləsi tərəfindən idarə olunan şəhər-dövlət idi. Bununla belə, Şirvanşahlar daim Dərbəndin işlərinə qarışır, dəfələrlə onu zəbt edərək, Haşimiləri sıxışdırıb aradan çıxarmağa və Dərbəndi öz torpaqlarına birləşdirməyə çalışırdılar. Məzyədilərin səltənət dövrü «kafirlərə», yəni aralarında islamın hələ geniş yayılmadığı, qədim bütpərəstlik ayinlərinin mövcud olduğu bir sıra Dağıstan tayfalarına qarşı yürüşlərlə səciyyələnir. IX əsrdə ərəblər Şirvanda islamı bərqərar etdilər. Lakin onlar burada xristianlığı, eləcə də, qədim din və ayinləri tamamilə məhv edə bilmədilər. Məsələn, Şirvan rayonlarında bu günədək astral ayinlər, müqəddəs ağaclara, daşa, oda və s. sitayişin qalıqları qalmaqdadır.

Şirvan əhalisi islamı qəbul etdikdən sonra VIII-X əsrlərdə qədim pirlər müsəlmanlaşdırılmağa, müsəlman ənənələri ilə müqəddəsləşdirilməyə, ərəb-müsəlman adları ilə adlandırılmağa başladı. Lakin mənşəcə ərəb olan Məzyədi Şirvanşahlar qatı mömin müsəlman olduqlarından «kafirlərlə» müharibə aparmağı özlərinin müqəddəs vəzifəsi sayırdılar. Ərəb və erməni mənbələri ərəblərin VII-VIII əsrlərdə apardıqları müharibələrə, şimala - Dərbəndə və daha sonra Dağıstan ərazisinə istilaçı yürüşlərinə, burada artıq VII əsrdən Şirvan və Albaniyaya dəfələrlə hücum edərək, onun qala və şəhərlərini tutub dağıdan xəzərlərin böyük ordusu ilə toqquşmalarına[59] dair məlumat verirlər. Ərəb mənbələrində Şirvanın şəhərlərində və başqa yerlərində əhalinin ağır vergilər, dözülməz zülm və istismarla əlaqədar ərəb ağalığı əleyhinə üsyanları haqqında məlumatlar vardır. Bu və ya digər əyalət xəlifəyə itaətsizlik göstərərək, istila dövründə ərəb canişinləri ilə bağlanmış sazişləri pozaraq, üsyan qaldırdıqda onlar amansızcasına yatırılırdı[60].

X əsrin I yarısına aid ərəb mənbələrində Şirvanın iri feodalların idarə etdikləri və böyük gəlir götürdükləri varlı şəhər və kəndlərindən bəhs olunur. Belə ki, İbn Havqəl böyük malikanələrə sahib olan iri feodalları xırda hökmdarlar

(məlik) adlandırır. «Tarix əl-Bab»da Təbərsarandakı Məhəmmədiyyə, Rizkiyyə (ehtimal ki, Mərdukiyyə) və digər malikanələrin adı çəkilir. Feodalların möhkəm qalaları, böyük sürüləri, ilxıları, çoxlu nökərləri, şəhər, vilayət və nahiyələri, onlara böyük qazanc gətirən məhsuldar torpaqları var idi. İbn Havqəl daha sonra xəbər verir ki, feodalların gözəl xidmətçiləri, müğənni cariyələri, kişi və qadın aşpazları vardır... Onlar qızıl və gümüşdən qayırılmış qablardan, tabaqlardan, taslardan, dolçalardan, gildən (şirli keramika - S. *A.)* və qiymətli metallardan düzəldilmiş satıllardan, bununla yanaşı, nəfis şüşə qablardan, qiymətli büllurdan və əla cəvahiratdan istifadə edirlər»[61]. Şirvan ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış külli miqdarda maddi mədəniyyət əşyaları ərəb mənbələrinin verdiyi məlumatları təsdiq edir.

IX əsrin ikinci yarısından Abbasilər xilafətinin zəifləməsi və tənəzzülə uğramağa başlaması, habelə onda mərkəzdənqaçma meyllərinin güclənməsilə əlaqədar bəzi vilayətlər ayrılaraq müstəqil məlikliklər yaratmağa başladılar. Bu dövrdə Şirvanda feodal torpaq sahibliyi möhkəmlənir və feodalların siyasi əlahiddəlik cəhdləri nəticəsində daha da güclənirdi. Şirvanın əhalisi feodal zadəganlarından, neftverən və şumluq torpaq, duzlu göl, bağ və üzümlük sahiblərindən, şəhər məmurları, tacir və ruhanilərdən, sənətkarlardan, şəhər rəiyyətindən, kəndlilərdən və qullardan ibarət idi.

Məzyədilər ilk müsəlman Şirvanşahlar sülaləsi idi. Onlar Bərdədə oturan ərəb canişininə - əmirə tabe idilər[62]. Əmirlər xəlifələr tərəfindən təyin olunurdular və tam mülki və hərbi hakimiyyətə malik idilər. Onlar ərəblərin qoyduqları yerli hakimlərin fəaliyyətinə, şəhər və kənd əhalisinin üzərinə qoyulan vergilərin (cizyə, xərac və s.) yığılmasına nəzarət etməli idilər[63]. Şirvanşahlar bütün tarixləri boyunca istiqlaliyyət uğrunda mübarizə aparmış və əsasən müstəqil hakimiyyət sürmüşlər. Lakin Şirvan bu və ya digər işğalçının hakimiyyəti altına keçdikdə Şirvanşahlar vassal asılılığına düşür və öz süzerenlərinə xərac verirdilər. X əsrin ortalarında Şirvanşah Salar Mərzuban ibn Məhəmməd ibn Müsafirə ildə 1 000000 dirhəm xərac ödəyirdi[64]. İbn Havqəlin yazdığına görə, vergi kimi qul, pul, təsərrüfat ləvazimatı, qatır, yük heyvanları və bəzək əşyaları alınırdı[65]. Şəhər sənətkarları işğalçılara və şirvanşahın xəzinəsinə böyük miqdarda vergi verməklə ərəblərin və yerli feodalların ikiqat zülmünə məruz qalırdılar. Abşeronun neftverən torpaqları, neft quyuları, duzlu gölləri, eləcə də Şirvanın şum üçün yararlı torpaqları istər dövlətin, istərsə də ayrı-ayrı feodalların mülkiyyəti olub, adətən, vergi verən əhalini qəddarcasına istismar edən icarədarlara icarəyə verilirdi.

## § 2. Şirvanın şəhər və kəndləri. İqtisadi vəziyyət (hasilat sənayesi, sənətkarlıq, ticarət)

IX-X əsrlərdə Şirvanın şəhərləri və digər yerləri haqqında ərəb mənbələrinin məlumatları natamam və cüzidir. İbn Xordadbeh və digər ərəb müəllifləri Qafqazın şərq hissəsində öz məmləkəti olan 11 «dağ şahı»nı qeyd edir, həmin məmləkətlər sırasında Qəbələ, Şirvan, Məsqət, Şəbəran, Ləkz, Bab Firuz Qubad və başqalarının adını çəkirlər[1]. Bəlazuri Arran hakimi Məsləmə ibn Əbd əl-Məlikin VIII əsrin birinci yarısında Cənubi Dağıstanda xəzərlərlə müharibəsindən bəhs edərək yazır: «Dağ şahları onunla (Məsləmə ilə) saziş bağlamağa tələsdilər. Şirvanşah, Miranşah, Təbərsəranşah, Xursanşah*, habelə Məsqət hakimi onun hüzuruna gəldi[2]. Göstərilən vilayətlər VIII əsrdə «şahlıq» adlandırılan ayrıca feodal məlikликləri idisə, artıq IX əsrdən onlar tədriclə Şirvan tərəfindən zəbt edilərək müstəqilliklərini itirirlər. Bu məlikliklər IX-XI əsrlərdə müxtəlif vaxtlarda Şirvanşahlar dövlətinin tərkibinə daxil olmuşlar. Eyniadlı şəhərlə birlikdə Qəbələ mahalı Şəkidən şərqdə, Türyançay çayı hövzəsində yerləşirdi. Onun cənub sərhədləri isə Kürə qədər gedib çatırdı. Qəbələ şəhərinin xarabalıqları indiki Qəbələ (keçmiş Qutqaşen - S. *A.)* rayonunun Çuxur-Qəbələ kəndi yaxınlığında, Qocalançay və Qaraçay çaylarının qovuşduğu yerdədir. Orta əsrlər Qəbələsinin qala divarları və bürclərinin qalıqları bu günədək durur[3]. Ərəblərin gəlməsindən, Dərbəndədək bütün Albaniyanın Sasanilər tərəfindən işğal edilməsindən xeyli əvvəl Qəbələ türklərin, hun-sabirlərin hakimiyyəti altında olan ərazinin mərkəzi olmuşdur. Bəlazurinin məlumatına görə, Qəbələ Xəzər şəhəri idi[4]. Mənbələr xəbər verirlər ki, Qəbələ 646-cı ildə ərəblər tərəfindən zəbt olunduqdan sonra da türk tayfaları... bu vilayətə gəlməkdə davam etmişlər. Cərrah ibn Abdulla əl-Həkəmi h. 104 (722)-cü ildə Dərbənddən keçərək, Xəzər şəhərlərini zəbt edərkən, xəzərləri Qəbələ mahalının kəndlərinə köçürmüşdür[5]. Məsudinin məlumatına görə, Şəkidən sonra «Qəbələ ölkəsi gəlir, buranın şəhər əhalisi, müsəlman, ətraf qəsəbə və kəndlərdə (əl-Əmair vəldiya) isə xristianlardır. Hal-hazırda oranın hökmdarının adı Taygöz Ənbəsədir. O, oğru, quldur və pozğunlara sığınacaq verir»[6]. Müqəddəsi aşağıdakıları xəbər verir: «Qəbələ istehkamlarla möhkəmləndirilmiş şəhərdir; çay şəhər divarlarının kənarından axır. Cümə məscidi şəhərdən aralı təpənin üstündədir»[7]. «Hüdud əl-aləm»də deyilir: «Qəbələ Şəki, Bərdə və Şirvan arasında firavan, səfalı, şəhərdir. Buradan çoxlu miqdarda qunduz xəzi ixrac olunur»[8]. «Tarix əl-Bab»da da Qəbələ və onun nahiyələri xatırlanır. H. 371 (981/2)-ci ildə Qəbələnin hakimi həmin Taygöz Ənbəsənin oğlu Əbd əl-Bərr idi. Şirvanşah Məhəmməd ibn Əhməd Qəbələni onun əlindən tutub almışdı. Şirvanşah Yəzid ibn Əhməd h. 389 (999)-cu ildə Gürzül (Göyçay çayı üstündəki Girdədül) qalasını da

* Bəlazurinin əsərinin ərəbcə mətnində Xursanşah əvəzinə, səhvən «Carşanşah» getmişdir. Bu səhv mürəttibin diakritik işarələri düzgün qoymaması üzündən baş vermişdir.

həmin hakimdən almışdı. Sonralar və XI əsrin birinci rübündə də Qəbələ və Gürzül qalası Şirvanşahların əlində olmuşdur. «Tarix əl-Bab»da Qəbələ kunililərin h. 459 (1067)-cu ildə Şirvanşahın dayısı Fəribürzün oğlu Ləşkəristanın şəhər darvazasının qarşısında öldürülməsilə əlaqədar xatırlanır. Bundan bir il sonra Şirvanşah dayısı oğlu Ləşkəristanın qisasını almaq üçün Kuni əhalisinə hücum edərək çoxlu adam qırdı, sürüləri aparıb, kəndləri yandırdı[9].

IX-XI əsr ərəb və fars mənbələrinin məlumatına görə, möhtəşəm müdafiə istehkamları olan Qəbələdə müsəlman məmurları, habelə tacirlər və sənətkarlar, ətraf kəndlərdə isə ehtimal ki, mənbələrdə «quldur, avara və dələduz» adlandırılan hun və xəzər məskunlarının qalıqları yaşayırdılar. Qəbələdə aparılan arxeoloji qazıntılar zamanı hun və xəzərlər üçün səciyyəvi olan deformasiyaya uğramış uzunsov kəllələr tapılmışdır[10].. Qəbələ inkişaf etmiş yerli mədəniyyətə malik mühüm orta əsr qala və şəhərlərindən biri idi.

Qəbələ şəhər yerində aparılan arxeoloji qazıntılar nəticəsində üç orta əsr mədəni təbəqəsi aşkara çıxarılmışdır. Burada çıraqlar, təkinə möhür basılmış şirli qab-qacaq, saxsı və çini qablar, ox ucluqları və s. əşyalar tapılmışdır. Şirli qablar əsasən VIII-XII əsrlərə aiddir. X əsrdən sonra bəzi şirli qabların altında ustaların müxtəlif nişanələri müşahidə edilir. Ehtimal ki, İrandan gətirilmə zərnaxışlı saxsı qab parçaları tapılmışdır. Artıq X əsrdə şəhərdə gil borularla - tünglərlə çəkilmiş su kəməri olduğu müəyyənləşdirilmişdir. Külli miqdarda kərpic tapılması burada çox iri binaların olduğunu sübut edir. Çoxlu dəmir əşyalar dəmirçiliyin inkişaf etdiyini göstərir[11]. Gil çıraqlarda Bakıdan gətirilən neftdən istifadə olunurdu[12]. Qəbələdə, həmçinin şüşə qablar, qolbaqlar və digər bəzək şeyləri də istehsal edilirdi[13]. Qəbələdən IX-XII əsrlərə aid çoxlu Arran sikkəsinin tapılması[14], onun ticarət əlaqələrinin inkişaf etdiyini göstərir. Bütün bunlar Qəbələnin inkişaf etmiş orta əsr şəhəri - Qəbələ feodal vilayətinin mərkəzi olduğunu sübut edir.

Qeyd etdiyimiz kimi, IX əsr ərəb mənbələri digər feodal vilayətləri - «səltənətləri» arasında hakimi Şirvanşah adlanan Şirvanın da adını çəkirlər. X əsrin sonlarında Şirvanşahlar bir sıra vilayətləri zəbt edərək, Şirvanşahlar dövlətinin tərkibinə qatdılar. «Hüdud əl-aləm»də Şirvan, Xursan və Lizan (Layzan) vilayətləri haqqında maraqlı məlumatlar verilir. Həmin əsərdə yazılır: «Şirvan, Xursan və Lizan üç nahiyədir ki, padşahı birdir. Bu padşah Şirvanşah, Xursanşah və Lizanşah adlanır. O, Şamaxıdan bir fərsəx (6 km) aralı ordugahda yaşayır. Onun Kürdüvanda yüksək zirvəsi geniş və hamar olan bir dağı vardır. Dağın eni ilə uzunluğu dörd fərsəxdir. Ona yalnız bir tərəfdən çətin və ağır keçilən yol çəkmişlər. Burada dörd kənd vardır. Bu padşahın (yəni Şirvanşahın - S. A.) xəzinəsi və bütün sərvətləri orada saxlanılır. Onun bütün adamları - kişili-arvadlı da orada qalır. Onlar orada bir yerdə əkin əkər və [öz məhsullarını] yeyərlər. Bu qala Niyalqala adlanır. Ondan bir fərsəx aralıda daha möhkəm bir qala vardır, [şahın] zindanı oradadır». Daha sonra Dərbəndlə Şirvan arasındakı Qabh (Qafqaz) dağına bitişik Xursan nahiyəsindən danışılır. «Burada yun parça istehsal edilir.

Bütün dünyada tanınan məhfuri xalılar bu üç nahiyədə toxunur». Bundan sonra «firavan və səfalı Kürdüvan qəsəbəsindən» xəbər verilir[15].

«Hüdud əl-aləm»in həmin parçasında Şirvanşahın yaşadığı Şamaxıdan bir fərsəxlik (6 km) məsafədə yerləşən ordugahdan danışılır. Şirvanşahın bu ordugahı, ehtimal ki, Qız qalası adı ilə tanınan Gülüstan qalasına uyğun gəlir. Onun xarabalıqları Şamaxıdan üç km şimal-qərbdə indiyədək qalmaqdadır. Gülüstan qalası sıldırım dağın zirvəsində, ətraf ərazidən 190-200 m hündürlükdə tikilmişdi. Qalada aparılan arxeoloji qazıntılar zamanı qala divarlarının, müxtəlif binaların qalıqları aşkar edilmişdir. Habelə, IX-XI əsrlərə aid materiallar-başlıca olaraq Gülüstanın* təkcə müdafiə qalası yox, həm də Şirvanşah və onun ailəsinin iqamətgahı olduğunu göstərən keramika, saxsı, çini və seledon qablar və digər məişət əşyaları aşkara çıxarılmışdır[17].

Kürdüvan sahəsi Lahıcdan təqribən 12 km cənubdadır. Girdiman çayının aşağı axarında yerləşən Kürdiyan, yaxud Kürdüvan kəndinin adı bu günədək qalmaqdadır[18].

Kürdüvan kəndi İsmayıllı rayonunda Basqalın yaxınlığındadır. Uca zirvəsi düz səthli (təxminən 25X25 km) olan və bir tərəfdən cığır qalxan Niyaldağ dağı Girdiman* ərazisindədir. Buradakı, çox güman, indiki Basqal, Tircan, Muci və Zərnəva kəndlərinə müvafiq gələn dörd kənddə Şirvanşahın rəiyyəti olan əkinçilər yaşayırdılar. Şirvanşahın xəzinəsinin saxlandığı əlçatmaz Niyalqala qalası da bu dağda idi.

Məsudi Şirvanşahın Qabh dağındakı Niyal adlanan qalasını xatırladır və onun «dünyada misli-bərabəri olmayan qala» olduğunu göstərir. Niyalqaladan bir fərsəx aralı, ondan 7-8 km şərqdə şahın zindanının yerləşdiyi daha bir möhkəm qala, ehtimal ki, Sulut qalası yerləşirdi[19].

«Hüdud əl-aləm»də Xursan vilayətindən də danışılır. Xursan-Xrsan[20] adına ilk dəfə V əsr müəllifi Yeğişedə rast gəlirik. «Erməni coğrafiyası»nın qədim nüsxəsində Asiya Sərmatiyasının* xalqları sırasında xsranların da adı çəkilir. Həmin coğrafiyanın yeni nüsxəsində deyilir: «Qafqaz iki dağ silsiləsinə bölünür. Onlardan biri düz istiqamətdə Şirvan və Xsrvandan keçərək Xorsvemədək uzanır...»[22] Xsranlar, xsrvan adları, görünür, təhrif olunmuş xursanlar, xursan, eləcə də, Xors-Xurs qayası demək olar, Xorsvem Beşbarmaqdır. IX əsr ərəb müəllifi əl-Yəqubi XIII əsrdə xəzərlərin xəlifə ordusu ilə müharibəsi barədə məlumat verərkən ərəb sərkərdəsi Yəzid ibn Üseydin geri çəkildiyi Ərminiyyədəki Xurs vilayətinin adını qeyd edir[23]. Xursanın adı Bəlazuridə Sasani I Xosrov Ənuşirəvanın (VI əsr) Cənubi Dağıstanda al-ləkzlərin Xursanşah titullu şahını və

---

* Gülüstan qalasının adı Minorskinin "Şirvanın tarixi" əsərində və XI əsrdə Məsud ibn Namdarda çəkilir[16].

* İndiki İsmayıllı rayonu.

* Müəllif Azərbaycanın şimalını, Dağıstanı və Şimali Qafqazın digər bölgələrini Asiya Sarmatiyası adlandırırdı.

«hal-hazırda mövcud olmayan Məsqət məmləkətinin şahını» təyin etməsi münasibətilə çəkilir. Sonra müəllif xəbər verir ki, Mərvan ləkzlərin müqavimətindən sonra (VIII əsrin birinci yarısının sonunda) sülami ərəbi Həşrəmi onlara hakim təyin etdi, özü isə Şirvan hakiminin «dəniz sahilindəki Xirş (Xurs?) adı ilə məşhur olan qalasına yollandı*. Qalanın hakimi [Mərvanın] öz üzərində hakimiyyətini dərhal tanıdı və düzənliyə endi»[24]. Maraqlıdır ki, Bakının qədim adı Xursanı xatırladan Xunsar olmuşdur[25]. Ehtimal ki, müəyyən dövrlərdə, Abşeron da daxil olmaqla, Xıdır-Zində və Beşbarmağa qədər cənuba doğru dənizboyu yerlər Xursanın tərkibinə daxil olmuşdur[26]. Xursan vilayəti geniş ərazini tuturdu və görünür, Məsqətdən[27] (Müşkürdən) cənubda Dərbənd bölgəsinin cənub hissəsinə müvafiq olub, artıq Şirvanın tərkibinə qatılmış ləkz ərazisinin bir hissəsi idi. X əsrin sonunda Cənubi Dağıstandakı ləkz vilayətləri artıq şirvanşaha tabe edilmişdilər[28]. Ehtimal ki, şirvanlılardan başqa ləkz və tat tayfalarının məskun olduğu Xursan vilayəti Qafqaz dağlarının şimal yamaclarınadək Lahıcla Quba arasında yerləşirdi. Həmin tayfaların qalıqları indiyədək buradakı Buduq, Xınalıq, Qrız və Haput kəndlərində yaşayır. Sulut, Məlhəm, Qonaqkənd, Zarat, Dəmirçi və s. ətraf kəndlərlə birlikdə Lahıc da Xursan vilayətinin tərkibində idi.

V. F. Minorskinin fikrincə, Layzan vilayəti Girdiman çayının yuxarı axarındakı müasir Lahıc vadisində yerləşirdi. O, erkən orta əsrlərdə Sasanilərin vassal məlikliklərindən biri, X-XI əsrlərdə isə Şirvanın tərkibində idi[29]. Məsudinin[30] və «Tarix əl-Bab»ın verdiyi məlumata görə, Layzan vilayəti X əsrin əvvəlində Layzanşahın əcdadından irs qalmış mülkü idi. O, h. 305 (917)-ci ildə Şirvanı tutdu, öz qohumlarını öldürərək, Şirvanşah titulunu da qəbul etdi. Layzan məlikliyinin inzibati mərkəzi Lahıc idi. Beləliklə, V.F.Minorskiyə görə, Layzan vilayəti müasir İsmayıllı rayonundakı Lahıc şəhəri və ətraf kəndlərin və Layzan məlikliyi dairəsinə daxil olan bölgələrin (Məlhəm, Qonaqkənd, Zarat və s.) ərazisinə müvafiqdir[31]. Lahıcın əhalisi - tatlar İrandan, Gilanın Lahican vilayətindən gəlmə olub, ehtimal ki, VI əsrdə Sasani hökmdarı I Xosrov Ənuşirəvan tərəfindən Sasanilər dövlətinin şimal sərhəd əyalətlərinə köçürülmüşlər[32]. Lahıc adlı yaşayış məntəqələri hal-hazırda Zaqatala, Xanlar rayonlarında, Abşeronda (Ləhəş kəndi, təhrif olunmuş Lahıc) da vardır.

Lahıcın öyrənilməsi bu orta əsr şəhərinin yüksək abadlıq səviyyəsinə - daş döşənmiş küçələr, meydanlar, daxili həyətlər, atmosfer yağıntılarının axması üçün ölçülüb-biçilmiş şaquli planlaşdırma, kanalizasiya sistemi, dağ çeşmələrindən içməli su ilə yaxşı təchiz edilməsi-malik olduğunu göstərir[33]. Lahıcın planlaşdırma strukturunun, memarlıq görünüşünün, eləcə də, abadlığının xüsusiyyətləri, yəqin ki, onun Layzan məlikliyinin inzibati-siyasi mərkəzi kimi əhəmiyyətindən irəli gəlirdi. Lahıc, eyni zamanda, orta əsrlərdə Şirvanın mis sənayesinin məşhur sənətkarlıq mərkəzi olub, Cənubi Qafqaz ölkələrinə, İran və Türkiyə şəhərlərinə

* Ehtimal ki, Dəvəçi rayonundakı Çıraqqala qalasıdır.

ixrac edilən mis qabları və silahları ilə şöhrət qazanmışdı. Sulut kəndi vasitəsilə Şamaxı və Azərbaycanın digər şəhərləri, habelə qonşu Dağıstanla ticarət aparılırdı. Lahıc dərin çökəklikdə, demək olar ki, Girdiman çayının mənbəyində, Niyaldağın dibində yerləşib, üzük qaşı kimi hər tərəfdən keçilməz dağlarla əhatə olunmuşdur. Yalnız iti Girdiman çayı Elgədik və Niyaldağ dağları arasından Lahıc aşırımını yarıb keçir. Lahıc şəhərinin ortasından onu ikiyə bölərək Girdiman çayına tökülən iti Lulə Dərəsi çayı axır. Lahıc öz məscidi və meydanı olub, qədim adlarını qoruyub saxlayan bir sıra məhəllələrə bölünür: buradakı Dər-Həsən məhəlləsində çarvadarlar, Murodunda dəmirçilər və çarvadarlar, Bədoyunda keşduzlar, tacirlər, misgərlər, Ağəlidə misgərlər yaşayırdılar. Şəhərciyin ən yüksək hissəsi Zəvərə məhəlləsi (keşduzlar) və Dərə-Hamam adlanır. Lahıc əhalisi ta qədimdən kustar üsulla mis qablar düzəltməklə, bu məqsədlə xüsusi kömür hazırlamaqla, habelə çarvadarlıqla - hazır məhsulu müxtəlif yerlərə daşıyıb satmaq və əvəzində xammal alıb gətirməklə məşğul olmuşlar[34]. Əgər Şirvan və Arranın Bakı, Qəbələ, Şəbəran, Beyləqan, Gəncə və digər şəhərlərində saya və şirli saxsı qablar istehsal edilirdisə, Lahıcda buna bənzər mis qablar hazırlanırdı. Lahıc qabları rəngli keramika rəsmləri əvəzinə, bədii oyma ilə işlənmiş xalça naxışlarını xatırladan naxışlarla bəzədilirdi. «Hüdud əl-aləm»də (982) göstərilir ki, bütün dünyada məşhur olan yun parçalar və xalçalar üç nahiyədə - Şirvan, Xursan və Layzanda[35], yəni, indiki Şamaxı, Bakı, Quba, Qonaqkənd, Lahıc və b. yerlərdə istehsal olunurdu.

V-VII əsr erməni mənbələri maskut tayfalarının məskunlaşdıqları Məsqət vilayətinin adını çəkirlər. Sonralar IX-X əsr ərəb mənbələrində Samur çayı, Xəzər dənizi, ləkzlər ölkəsi və Şəbəranla həmsərhəd olan bərəkətli Məsqət-Maskut (indiki Müşkur) vilayətindən bəhs edilir. Onun ilkin adı - Maskut, yaxud Maşkut qədim massagetlərin adı ilə bağlıdır[36]. Ammian Martsellinə (IV əsr) görə, alanlar qədim massagetlərdir və deməli, Məsqətin qədim sakinləridir. «Tarix əl-Bab»da Şirvana və Dərbəndə hücumlar edən alanların adı dəfələrlə çəkilir. Dərbəndin cənubunun hidronimikasında, ehtimal ki, alan dili leksikasına mənsub olan Rubas («Tülkü») və Samur çay adları qalmışdır[37]. Lakin Şirvan Xilafət tərəfindən istila edildikdən sonra bu vilayətin adını eşidən ərəblər onun İran körfəzi sahillərindəki ərəb əmirliyi ilə həmahəng səsləndiyini görüb, onu Məsqət adlandırmağa başladılar. Bəlazuri xəbər verir ki, Məsqətin birincisini Ənuşirəvanın təyin etdiyi şahları olmuşdur və sonra əlavə edir ki, indi artıq onların məmləkəti yoxdur. Qədim zamanlarda bu vilayətin müstəqil hakimləri olmuşdur, lakin h. 218 (833)-ci ildə əl-Bab əmirləri Məsqəti zəbt etdikdən sonra onların müstəqilliyinə son qoyulmuşdur. Vilayətə Mücqubad, Mehyariyə və Samsuyə mülk və qalaları daxil idi[38].

Maskutlar Cənubi Dağıstanda, Xəzəryanı ovalıqda, Samur və Vəlvələ çaylarının arasında yaşayırdılar[39]. Onların daha cənubda ta Abşeronadək məskunlaşması müşahidə edilir[40]. Göründüyü kimi, Məsqətin əhalisi qarışıq olub, qədim massagetlər olan irandilli alanlardan[41], habelə Qafqaz və müxtəlif türk tayfalarından ibarət idi. Bəlazurinin məlumatına görə, Mərvan ibn Məhəmməd VIII

əsrdə islamı qəbul etmiş xəzərləri Məsqətdə, «Samurla Şəbəran arasında ləkzlər vilayətindəki düzənlikdə yerləşdirmişdir»[42].

Məsqət şəhəri Samur çayının yaxınlığında, onun sağ sahilində olub, hələ Sasanilər vaxtından məlum idi[43]. «Hüdud əl-aləm»də verilən məlumata görə Məsqətdən islam ölkələrinə çoxlu qul gətirilirdi. O, Sərirə, yəni avarlar ölkəsinə tabe idi[44]. Bəlazuri və İbn əl-Fəqih onun müstəqil şəhər olduğunu göstərirlər[45]. Məsudi xəbər verir ki, burada Sasanilər dövründən daş tikililər var idi[46]. «Tarix əl-Bab»da Məsqət X-XI əsrlərdə deyləmlilərin, rusların və kürdlərin hücumlarına məruz qalmış bir şəhər kimi dəfələrlə xatırlanır. XI əsrin ikinci yarısında şirvanşah Fəribürz Məsqət vilayətinə sahib olmaq uğrunda əl-Bab əmirləri ilə müharibələr aparmış, onun bütün torpaqlarını zəbt edib Şirvan vilayətinə qatmışdı. XI əsrin ikinci yarısında Məsqət şəhəri, Yəzidiyyə və Bakı kimi türklərin dağıdıcı hücumlarına məruz qalaraq viran edilmişdi. Bundan sonra şirvanşah Fəribürz öz mülklərinin mərkəzini Məsqətdəki Mehyariyəyə köçürməyi qərara alır. Ortasında qəsr olan şəhərə çevrilmiş Mehyariyə malikanəsinin ətrafına divar çəkildi. Şirvanşah çox vaxt Mehyariyədə yaşayaraq, buradan əl-Baba basqınlar edirdi. H. 464 (1071 )-cü ildə türk Yağma şirvanşahdan tələb edir ki, əl-Bab qalasını və Məsqəti təslim etsin. H. 468 (1075)-ci ildə səlcuqlar onları tutdular. Bab və Firuz Qubad şəhərləri də Məsqət vilayətinə daxil idi. Sonuncunun adı, ehtimal ki, Sasani hökmdarı I Qubadın adından götürülmüşdür[47]. Yaqutun lokallaşdırmasına görə (1227) «Bab əl-Əbvab, yaxud Dərbənd yaxınlığındakı bu qədim şəhər»[48], ehtimal ki, indiki Qubanın yerində olmuşdur. IX-X və daha əvvəlki ərəb mənbələrində Qubanın adına rast gəlinmir. Lakin A.A.Bakıxanov şirvanşah Kavus ibn Keyqubadın [h. 774 (1373)-cü il] Quba yaxınlığında gözəl türbəsini gördüyünü xəbər verir ki[49], bu da həmin yerdə daha qədim zamanlarda və XIV əsrdə qəsəbə və ya şəhər olduğunu fərz etməyə imkan verir. XVI əsrə aid daha sonrakı mənbədə yerli sakinlərin dilindən xəbər verilir ki, «dağın yamacında qala olan Quba çoxdan dağılmışdır. Həmin vaxt (1582-ci il - S. *A.)* Quba çoxlu kəndi əhatə edən nahiyənin adı idi»[50]. Beləliklə, Quba adı XVI əsrədək gəlib çıxmışdır. Bu dövrdə Quba adı altında nahiyə mövcud olmuş, qala isə dağılmışdı. Biz belə hesab edirik ki, Quba Xilafətin Azərbaycanı və Dağıstanı istila edərkən Mədinə yaxınlığındakı Quba şəhərindən gəlmə ərəb tayfalarının VII əsrdə özləri ilə gətirdikləri eyniadlı toponimlər sırasına daxildir. Bu adın[*] ərəb Xilafətinin istila etdiyi ərazidə geniş yayılma arealı, eləcə də, Quba şəhərini təsvir edən Zeynalabdin Şirvaninin (XIX əsr) aşağıdakı məlumatı bu fərziyyəni təsdiq edir. «Qədimdə ərəb tayfalarından biri Qubaya köçərək burada məskən salmışdır»[52]. Firuz Qubada köçüb gələn ərəblər Mədinənin yaxınlığındakı şəhərin adı ilə səsləşən adı eşitdikdə, Məsqət kimi, onu da tanış olan Quba adı ilə adlandırmışlar.

[*] Ə. Hüseynzadə Qubanın salınmasına dair müfəssəl məlumat və rəvayətlər gətirir. Lakin onun bu adı açıqlaması inandırıcı deyil.

IX-X əsr ərəb müəllifləri Arranın iri şəhərlərinin - Bərdənin, Bab əl-Əbvabın və Tiflisin adlarını çəkirlər. Onlar «mühüm olmayan, eyni böyüklükdə, lakin məhsuldar, geniş və yararlı təsərrüfat sahələrinə malik» şəhərlər sırasında Şirvan ərazisinə daxil olan Beyləqan, Şamaxı, Şərvan, Abxaz, Şəbəran, Qəbələ, Şəki şəhərlərinin adlarını çəkirlər[53].

Əl-İstəxri, İbn Havqəl və əl-Müqəddəsi bəzi müəlliflərin Qubada, yaxud onun yaxınlığında yerləşdirdiyi Abxaz[54] şəhərinin adını çəkirlər[55]. A. Markvart və V. F. Minorski adın bu cür oxunduğunu səhv sayaraq, onu Alaycan[56] kimi təshih etmiş və Lahıc ərazisində yerləşdirmişlər. Lakin XII əsr Bizans yazıçısı İoann Tsetsin belə bir qeydi var: «Kolxlar, əslində, hind skifləridir. Onlar lazlar da adlandırılır və *abasqların, keçmiş massagetlərin yaxınlığında yaşayırlar»*. O, sonra yazır: «Lazlar da deyilən kolxlar Misirdən köçürülmüşlər. Onlar, həm də, *massagetlər adlandırılan abasqların*[57] yaxınlığında yaşayırlar» (kursiv mənimdir - S. A.) XIII əsr erməni yazıçısı Vardapet Böyük Vardan daha dəqiq məlumat verərək, özünün «Coqrafiya»sında yazır: «Abxaz Vrkan (Girkan) dənizinin sahilində yerləşən mazkutlar ölkəsidir»[58]. Bu mənbələr X əsr ərəb müəlliflərinin Abxaz və Məsqət kimi xatırladıqları mövcud olmuş real Abxazdan və massagetlər - maskutlar ölkəsindən bəhs edirlər. Ona görə ki, Markvartın və Minorskinin Abxaz sözünü Alaycan kimi oxuması səhvdir, xüsusən ona görə ki, eyni ərəb müəllifinin bu iki toponimi müxtəlif cür yazması onların ayrı-ayrı toponimlər olduğunu sübut edir. Abxazın yerini dəqiqləşdirmək üçün üç X əsr ərəb müəllifinin marşrutlarını nəzərdən keçirək. Əl-İstəxri (təqribən 930-cu ildə yazmışdır) göstərir. «Bərdədən Bab əl-Əbvaba olan yol: Bərdədən Bərzəncə (Bərdicə - S. *A.)* 18 fərsəx, Bərzəncdən Kürü keçərək əş-Şəmaxiyyəyə 14 fərsəx, əş-Şəmaxiyyədən Şərvana 3 gün; Şərvandan əl-Abxaza 2 gün; əl-Abxazdan Samur körpüsünədək 12 fərsəx və Samur körpüsündən Bab əl-Əbvabadək 20 fərsəxdir». İstəxrinin əsərinin başqa bir nüsxəsində «Samur» körpüsündən Bab əl-Əbvabadək 20 fərsəxdir» əvəzinə «on fərsəxdən azdır» getmişdir[59].

İbn Havqəl qeyd edir: «Bərdədən əl-Əbvaba olan yol: Bərdədən Kür çayı üstündə yerli və gətirilmə mallar satılan mühüm ticarət şəhəri Bərdicə 18 fərsəx; Bərdicdən Kürü keçərək Şəmaxiyyəyə 14 fərsəx; Şəmaxiyyədən Şərvana 3 gün, Şərvandan Abxaza* 2 gün; Abxazdan Samur körpüsünədək 12 fərsəx və Samur körpüsündən Bab əl-Əbvaba 20 fərsəxdir[60].

Əl-Müqəddəsi göstərirdi: «Bərdicdən əş-Şamaxiyyəyə 2 mərhələ; sonra Şərvana 3 mərhələ; sonra əl-Abxaza 2 mərhələ; sonra Samur körpüsünə 2 mərhələ və sonra Bab əl-Əbvaba 3 mərhələdir»[61].

Bəzi müəlliflərin fikrincə, yuxarıda gətirilən hər üç marşrutda Şəbəran əvəzinə, səhvən, Şirvan getmişdir. Belə ki, İstəxrinin əsərinin bizə gəlib çatmamış,

* Naşir V. F. Minorskinin əsərinə əsaslanaraq, ibn Havqəlin mətnindəki əl-Abxaz adını Laycanla əvəz etmişdir.

lakin Yaqutun istifadə etdiyi müxtəsər nüsxəsinin Şamaxıya dair fəslində marşrutda Şərvan deyil, Şəbəran yazılmışdır[62]. Buna görə də, dövrümüzədək gəlib çatan səhv getmiş nüsxələrdə Şərvan yox, «hüdud əl-aləm»ə görə, Şirvan vilayətinin mərkəzi olan Şəbəran kimi oxunmalıdır[63]. Bizə elə gəlir ki, bu fikir göstərilən müəlliflərin əsərlərinin digər əlyazmaları əsasında yoxlanılmalıdır.

Yuxarıda qeyd olunan marşrutlarda Şəbərandan Abxaza, Abxazdan Samura və Samurdan Dərbəndədək olan məsafənin fərsəxlərlə göstərilməsi Abxazı indiki Qubanın yerində və onun yaxınlığında lokallaşdırmağa imkan verir. Maraqlıdır ki, Abxaz və Məsqət adlarına eyni məxəzdə bir yerdə rast gəlinmir. Bu, hər iki toponimin eyni yerə aid olduğunu güman etməyə imkan verir. Belə ki, XVI əsrədək mənbələrdə, Məsud ibn Namdar istisna olmaqla (Quva şəklində), Quba adına rast gəlinmir. Güman etmək olar ki, X əsrdən XVI əsrədək Abxaz adı Qubaya və eyni zamanda Məsqət adlanan, yaxud Məsqətin tərkibinə daxil olan vilayətə aid olmuşdur. Məsudi Abxazı buranın başqa şəhərləri kimi bərəkətli yer adlandırmışdır[64]. Hal-hazırda da Quba rayonu özünün meyvə bağları ilə məşhurdur. Məsud ibn Namdar Sədunun (indiki Siyəzən) daxil olduğu nahiyədə Qavadan[65] kəndinin adını çəkir. Burada Qavad adına yer, şəhər və s. bildirən «an» suffiksi artırılmışdır. Ola bilər ki, bu, elə həmin Firuz Qubad Qubanın qədim adıdır.

Tədqiq olunan dövrdə Şirvan vilayətinə, habelə, Şəmaxiyyə, Şirvan və Şəbəran şəhərləri də daxil idi. Yaqutun sözlərinə görə, Şəmaxiyyə ilə Yəzidiyyə eyni bir şəhər idi. «Yəzidiyyə Şirvan vilayətinin (əsas) şəhərinin adıdır: qədimlərdə o, Şamaxı adı ilə də məşhur olmuşdur»[66]. Bəlazuri yazır ki, qocaların söylədiklərinə əsaslanan Bərdə sakini Məhəmməd ibn İsmayılın dediyinə görə, guya Şirvan vilayətindəki Şəmaxiyyə şəhərinin adı Ərminiyyə valisi Səid ibn Səlim (Səlma) əl-Bəhalinin (h. 180 (796), yaxud h. 182 (798)-ci il - S. A.)[67] vaxtında Şirvanın məliki olmuş əş-Şəmmax ibn Şücanın adından götürülmüşdür. V əsr müəllifi Favstos Buzand IV əsrin birinci yarısında baş vermiş hadisələrdən bəhs edərkən, Maskut hökmdarının «müxtəlif köçəri tayfalardan» ibarət qoşunları arasında hunların, təvəsparların, xeçmatakların, *ijmaxların* (kursiv mənimdir - S. *A.),* balasiçilərin[68] və başqalarının adını çəkir. Bu tayfalar Cənubi Dağıstanda və Şirvan ərazisində yaşayırdılar. Onlardan biri-ijmaxlar daha sonrakı digər bir müəllif tərəfindən xatırlanır. «VII əsr erməni coğrafiyası»nda (610-cu il) Şirvan ərazisində ijamaxlar - ijmachi[69], yəni şamaxlar etnotoponiminin adı çəkilir ki, bu da həmin adın qədimdən - Şəmmax ibn Şücanın Şirvanda hakimiyyətindən çox-çox qabaqlar, demək olar ki, beş yüz il əvvəl mövcud olduğunu göstərir. Yunan dilində fışıltılı «ş» səsi olmadığına görə, Şamaxı Samexiya, yaxud Kamexiya (Ptolemey) şəklində tələffüz edilə bildiyi kimi, ermənicə də həmin sözdəki eyni «ş» səsi «ij» kimi səslənə bilərdi. IX əsrdə Bərdə əhalisi Şamaxının adını VIII əsrin lap sonlarında yaşamış Şəmmax ibn Şücanın tanış olan adı ilə bağlayırdılar. V əsr müəllifinin və «Erməni coğrafiyası»nın, onlara qədər isə Ptolemeyin (II əsr)

verdikləri məlumat qədim məskən yerində, yaxud onun yaxınlığında salınmış Şamaxı şəhərinin qədimliyini göstərir. Görünür, bu toponim yerli dildə Şamaxı kimi səslənirdi.

Q. Qapançyan belə güman edir ki, Şamaxı adı erməni, gürcü və Akkad dillərində mövcud olmuş yerli «şam» (qamış) sözünə «ha» suffiksi artırılmaqla yaranmış düzəltmə sözdür, beləliklə, Şamaxı Qamışlı deməkdir. A. Q. Həsənov Şamaxı adını dağ yaxınlığındakı çayqırağı zolağın relyefi ilə əlaqələndirir. Şamaxının adı, ehtimal ki, Favstos Buzandın və «VII əsr erməni coğrafiyası»nın IV əsrdə adlarını çəkdikləri əvvəllərdən Cənubi Dağıstanda yaşayan ijmaxlar - şamaxlar tayfasına gedib çıxır.

«Tarix əl-Bab»da göstərilir ki, Yəzidiyyə şəhərini h. 306 (918)-cı ildə şirvanşah Əbu Tahir Yəzid saldırmışdır. Lakin h. 140 (757/8), 149 (766/7) və 150 (767/8)-ci illərdə kəsilmiş «əl-Yəzidiyyə» möhürlü sikkələr[70] Ərminiyyənin ərəb valisi Yəzid ibn Üseydin* hakimiyyət vaxtına aid olub, hələ o zaman ərəb əmirinin oturduğu Yəzidiyyə şəhərinin mövcudluğuna dəlalət edir. Ehtimal ki, qədim Şəmaxiyyə şəhəri Yəzidin hakimiyyəti dövründə onun adı ilə adlandırılmışdır: ola bilər ki, o, şəhərin tikintisini başa çatdırmışdır. «Tarix əl-Bab» xəbər verir ki, h. 437 (1045)-ci ildə «Şirvanşah Qubad türk quzların qorxusundan Yəzidiyyə şəhərinin ətrafına yonulmuş daşdan möhkəm qala divarı çəkdirdi və qapısını dəmirdən düzəltdirdi». «Tarix əl-Bab»da Yəzidiyyənin adına Şirvanın paytaxtı kimi h. 464 (1072)-cü ilə qədər rast gəlinir[71] Y. A. Paxomovun ehtimalına görə, şəhər Gülüstan qalasının xarabalıqları rayonunda, müasir Şamaxının 1,5 kilometrliyində olmuşdur[72]. Ancaq «Tarix əl-Bab» da deyilir ki, h. 416 (1025)-cı ildə şirvanşahın Yəzidiyyədə canişini olan oğlu Ənuşirəvan ibn Yəzid atasına qarşı baş tutmayan qiyamdan sonra sığınacaq üçün Gülüstan qalasına qaçmış, lakin vəzir onu təqib edərək, ələ keçirmiş və atasına vermişdi. Bu məlumat ehtimal etməyə imkan verir ki, Yəzidiyyə Gülüstandan bir qədər aralı olmuşdur. Həmin mənbədə, həmçinin, 1067-ci ildə şirvanşah Fəribürzün bibisi, Yəzidin qızı Şəmkuyyənin öldüyü xəbər verilir. O, Culistanda (Gülüstanda) ölmüş, cənazəsi isə Şəbərana aparılmışdı[73]. Göründüyü kimi, həmin vaxt şirvanşahın ailəsi Gülüstan qalasında yaşayırdı. Bu mətn də göstərir ki, Yəzidiyyə Gülüstanın ərazisində deyil, ehtimal ki, indiki Şamaxının yerində olmuşdur. «Tarix əl-Bab»dan başqa bütün IX, X və XI əsr ərəb mənbələrində Şəmaxiyyə şəhərinin adı çəkilir. Göründüyü kimi, bu şəhər həm Yəzidiyyə, həm də qədim adı ilə Şəmaxiyyə adlanırdı. Bunu Yaqut da təsdiq edir[74]. Şəmaxiyyə adı XI əsrdən sonra Yəzidiyyə adını sıxışdırıb aradan çıxarmışdır. Sonralar bu ada rast gəlinmir.

---

* Yəzid ibn Üseyd Ərminiyyədə ilk dəfə h. 134 (751/2) — 135 (752/ 3)-ci illərdə vali olmuşdur. O, bu vəzifəni ikinci dəfə Ərminiyyədə və Azərbaycanda h. 141 (758/9)-ci ildən gec olmayaraq, 148 (765/6)-ci, digər ehtimala görə 152 (768)-ci ilədək, üçüncü dəfə isə h. 159 (775/6)-cu ildən 163 (779/80)-cü ilədək tutmuşdur.

İstəxri təqribən 930-cu ildə, «mühüm olmayan, eyni böyüklükdə, lakin bərəkətli, geniş, yararlı təsərrüfat sahələri olan şəhərlər» sırasında Şəmaxiyyə, Şərvan, Abxaz, Şəbəran, Qəbələ və Şəkinin adlarını çəkir. İstəxri bu şəhərlərdəki ucuzluğu və ərzaq bolluğunu təsvir edir. «Bu şəhərlərdə [satış] qiymətləri o qədər ucuzdur ki, bir sıra yerlərdə qoyunun qiyməti yalnız iki dirhəmədəkdir, bəzi yerlərdə isə iki-üç man balın qiyməti bir dirhəmdir. Orada hər şey boldur...»[75].

İstəxrinin əsərinin Yaqutun istifadə etdiyi, lakin - bizə gəlib çatmayan nüsxəsində Bərdədən Bərzəncə (Bərdicə - Kür üstündə salınmış şəhər-S. *A.)* qədər yol göstərildikdən sonra xəbər verilir. «... Bərzəncdən Kürü keçərək, əş-Şəmaxiyyəyə qədər 14 fərsəxdir. Burada minbər (Cümə məscidi - S. *A.)* yoxdur. Şamaxıdan minbər olan kiçik Şəbəran şəhərinədək üç günlük yoldur. Yaqut əlavə edir: «İstəxrinin sözlərinə əsasən düşünmək olar ki, Şamaxı şəhəri nisbətən təzə (yəni, İstəxrinin vaxtında - S. *A.)* salınmışdır»[76]. Lakin gətirilmiş numizmatik dəlillər göstərir ki, Şamaxı - Yəzidiyyə ərəblərin zamanında, VIII əsrin əvvəlindən gec olmayaraq mövcud olmuşdur. X əsrin birinci rübündə müsəlman şəhərində - Şirvanşahların paytaxtında Cümə məscidinin olmamasını köhnə məscidin tez-tez baş verən zəlzələlərdən uçub-dağılması ilə izah etmək mümkündür. Şamaxıdakı Cümə məscidinin həyətində aparılan arxeoloji qazıntılar zamanı iki mədəni təbəqə aşkara çıxarılmışdır. Onlardan alt təbəqə IX-X əsrlər üçün səciyyəvidir. Həmin məscid bir neçə dəfə bərpa edilsə də, qədim plan quruluşunu saxlamışdır. Məscid plan quruluşu etibarilə ölçüsü 38x2,8 m olan və üç kvadrata ayrılan düzbucaqlıdan ibarətdir. Yerli rəvayətlərə görə, məscid VIII əsrdə tikilmişdir[77]. Arxeoloji materiallar VIII-IX əsrlərdə Cümə məscidinin mövcudluğunu təsdiq edir, lakin, ehtimal ki, o, X əsrdə zəlzələdən dağılmışdır.

İbn Havqəl 977/8-ci ildə yazdığı əsərində Bərdə, Bab əl-Əbvab və Tiflisi Arranın ən böyük şəhərləri adlandırır. Sonra o, eyniadlı gözəl, eyni böyüklükdə şəhərləri olan, məhsuldar və geniş təsərrüfat yerlərinə malik xırda vilayətlər - Beyləqan, Şəmaxiyyə, Şirvan, əl-Abxaz*, Şəbəran, Şəki haqqında yazır. İbn Havqəlin xəritəsində göstərilir: əl-Bab (Dərbənd, Şəbəran, əl-Abxaz (Quba), Kabisi*, Şəki, Qəbələ. O, Şəbərandan başlayıb, Şirvan və Şəmaxiyyə şəhərlərindən keçərək Bərdicə, oradan da Bərdəyə gedən yolun marşrutunu verir[78]. Mətndə o, İstəxrinin verdiyi marşrutu təkrar edir, İbn Havqəlin yazdığına görə, Azərbaycanda dəniz sahilində dənizə doğru uzanmış dildə Muğan yerləşir. Varsan, Muğan və Beyləqan şəhərlərindən danışarkən İbn Havqəl onların kiçik və demək olar ki, bir böyüklükdə olduqlarını qeyd edir. Onlar kənd təsərrüfatı məhsulları və meyvələrlə, bulaq və çay suları, meyvə bağları və ağaclarla, ətirli otlarla zəngindir. Əkinçi və kəndlilər çox olduğundan (nahiyədə) kənd təsərrüfatı bitkilərindən yüksək məhsul

---

* Kramer Havqəlin mətnində V. F. Minorskiyə əsaslanaraq, düzəliş aparır və Abxaz əvəzinə, Laican yazır. Lakin biz Laiçanı, Havqəlin 15 №-li xəritəsində və mətnində olduğu kimi, Abxaz kimi düzəldirik.
* Ehtimal ki, antik müəlliflərdəki Kambisana—İori (Kambis) və Alazan qayaları arasındakı quraqlıq yazlıq rayon.

götürülür. Bu yerlər öz məhsulları ilə məşhurdur, meyvələri çox ucuz, yemək şeyləri isə demək olar ki, havayıdır. Sonra İbn Havqəl Beyləqandan danışaraq onun gözəl, axar sulu, ağacları, bağ və meyvəliyi olduğunu, şəhərin çaylar üstündə salındığını, burada dəyirmanlar qurulduğunu (ehtimal ki, arxlar üzərində - S. *A.)* göstərir. Bununla yanaşı, İbn Havqəl Arranın paytaxtı Bərdənin xeyli tənəzzülə uğradığını, vaxtı ilə burada min iki yüz çörəkxana olduğu halda, onun vaxtında bunlardan cəmisi beşinin qaldığını qeyd edir. Şəhərin tənəzzülə uğraması rusların Bərdəyə hücumu və onu dağıtmalarının nəticəsi idi[79].

Müqəddəsi 985-ci ildə Bərdənin şəhərləri arasında Şəmaxiyyə, Şirvan, Bakı, Şəbəran, Bab əl-Əbvab, Abxaz, Qəbələ və Şəkinin adlarını çəkir. Sonra o, Şəmaxiyyənin müxtəsər təsvirini verir. «Dağın ətəyində şəhərdir. Binaları daşdan və kərpicdəndir. Buranın axar suları, bağları və gəzməli yerləri vardır»[80].

«Hüdud əl-aləm»in müəllifi 982-ci ildə Şəmaxiyyənin adını yalnız bircə dəfə - onun şirvanşahın ordugahından bir fərsəx aralı olduğunu göstərərkən xatırlayır[81].

Müasir Şamaxının ərazisindəki Şəhristanda aparılan arxeoloji qazıntılar VIII-XI əsrlərdə Şəmaxiyyə şəhərinin mövcudluğunu təsdiq etmişdir. Şəhristanda mədəni təbəqənin dərinliyi 5,75 metrə çatır. Təqribən 0,75 m qalınlığında olan alt təbəqə VIII-IX əsrlərə aid materiallardan, əsasən, adi, habelə yaşıl rəngli şirli keramika qırıntılarından ibarətdir. Qalınlığı 1,5 metrə çatan üst təbəqə X-XI əsrlərə aiddir. Bu təbəqədə bayır tərəfinə əhəng məhlulu ilə iri daşlardan üz çəkilmiş müdafiə divarlarının qalıqları aşkara çıxarılmışdır[82]. Divarların qalınlığı 2,5 metrdir. Divar qalıqlarının aşkar olunması onun h. 437 (1045)-ci ildə Şirvanşah Qubad tərəfindən çəkildiyinə dair mənbənin məlumatını təsdiq edir[83]. Onun ətrafında qrafik rəsmlərlə bəzədilmiş müxtəlif monoxrom və polixrom keramik qablar tapılmışdır. Bir sıra qabların dibində Şamaxı şəhəri üçün səciyyəvi olan möhürlər vurulmuşdur. Şirli keramika parçaları arasında IX-XI əsrlərə aid saxsı və şüşə qab qırıqları tapılmışdır[84]. Qazıntılar təsdiq edir ki, Şəmaxiyyə VIII-XI əsrlərdə müasir şəhərin ərazisində mövcud olmuşdur. Ehtimal ki, X əsrin birinci yarısında Şəbərandan sonra Şirvanşahların paytaxtı olan Şamaxı Şirvanın mühüm şəhərlərindən birinə çevrilmişdir.

Şamaxı şəhərindən şimalda və Gülüstan qalasının şərqində Pirdirəyi dağında (350 m) həmin dövrlərdə Azərbaycanın şəhər və yaşayış məskənlərində rast gəlinən pir olmuşdur. Pirdirəyi dağının şərq ətəyində aparılan arxeoloji işlər zamanı orta əsrlər dövrü üçün səciyyəvi olan çoxlu keramik qab qırıntıları, təsərrüfat küpü parçalarının tapılması Şamaxı yaxınlığında böyük yaşayış məskəninin olduğunu göstərir[85].

Əl-İstəxri[86], İbn Havqəl[87] və əl-Müqəddəsi[88] Şəmaxiyyə və Şəbəranla yanaşı, Şirvan şəhərinin də adını çəkirlər. İbn Havqəlin xəritəsində[89] Şəbərandan başlayaraq, Şirvan və Şəmaxiyyədən keçib, Bərdicə, oradan da Bərdəyə gedən yol qeyd edilmişdir. Həm də, Şəbəranla Şirvan arasındakı məsafə Şirvanla Şəmaxiyyə

arasındakı məsafədən üç dəfə çoxdur. Müqəddəsi (təqribən 985-ci ildə yazmışdır) Şirvan haqqında aşağıdakı məlumatları verir: «Düzənlikdə böyük şəhərdir. Binaları daşdandır, bazar meydanında Cümə məscidi vardır. Şəhərin içindən çay keçir»[90]. V. F. Minorskinin fikrincə, Şirvan şəhərinin bu təsviri Şəbərana aiddir, belə ki, İstəxrinin əsərinin bizə gəlib çatmayan, lakin Yaqut tərəfindən istifadə olunmuş nüsxəsində Şirvan əvəzinə Şəbəran yazılmışdır. İstəxrinin de Quye tərəfindən nəşr olunmuş nüsxəsində getmiş bu səhvi Müqəddəsi də təkrar etmişdir. Onun Şirvan kimi təsvir etdiyi Şəbərana uyğun gəlir. Mənbələrdə Şirvan haqqında məlumat cüzi olduğundan onun yerini müəyyənləşdirmək çətindir. V. F. Minorskinin hesab etdiyi kimi, əgər bu ad İstəxrinin nüsxəsində (de Quyenin nəşri) və onun ardınca İbn Havqəl və Müqəddəsi tərəfindən Şəbəranla qarışıq salınmayıbsa, onda çox ehtimal ki, Şamaxıdan üç mərhələ aralı belə bir şəhər mövcud olmuş və Şirvan vilayəti də onun adı ilə adlanmışdır. Şəbəran (Şaburan) vilayəti və onun əsas şəhəri Şəbəran (Şəburan, Şəbran) Məsqətdən cənubda, Xəzər dənizinin sahilində yerləşirdi. Şəbəran şəhərinin qalıqları və xarabalıqları indiki Dəvəçi rayonunun Şahnəzərli kəndinin yaxınlığında, Padar-Şəbran[*] kəndindən azca aralı aşkar edilmişdir. Ərəb müəllifləri Şəbəranı Sasani hökmdarı Xosrov Ənuşirəvanın (531-579) saldırdığını qeyd edirlər[92]. Görünür, Şəbəran adı (1124-cü ilə aid gürcü salnaməsində qeyd olunmuş forma) onun Azərbaycanda rast gəlinən Şapur[93] İran adı ilə bağlılığına işarədir.

İstəxrinin Qota nüsxəsində (təqribən 930-cu il) və Yaqutda deyilir ki, Xəzər dənizinin sahilində, Məsqətdən aşağıda kiçik, lakin möhkəmləndirilmiş Şəbəran şəhəri yerləşir. Onun çoxlu rustaqdarı (kənd nahiyələri) var. Ondan üstdə Çeşmodan (Xaçmataka - Xaçmasa) rustağıdır. Onun digər tərəfində Bakı, Dərnik və Ləkzə qədər kəndlər (diyə), Cəbəl (Qafqaz sıra dağları) və Şirvan dağları[94] yerləşir. Burada yoxa çıxmış şəhərin yeri çox dəqiq lokallaşdırılır. «Hüdud əl-aləm»ə görə, (982/3-cü il) Şəvəran (Şəbəran) Şirvanın inzibati mərkəzi (qəsəbə) olub, dəniz sahilində yerləşən səfalı bir yer idi[94]. Oradan zərgərlərin qızılın əyarının təyin olunmasında istifadə etdikləri məhək daşı (sangi mihakk) ixrac olunurdu[95]. «Tarix əl-Bab»a görə, Şirvanın əsas gəlirini Şəbəran və onun kəndlərindən, habelə Bakının neft quyularından və duz mədənlərindən yığılan vergilər təşkil edirdi[96].

Müqəddəsi sonra Şəbəranın adını çəkir. «Şəbəran qalasız yerdir. Əhalisinin əksəriyyəti xristiandır, sərhəddədir[97]. X əsrin ikinci yarısında Şəbəran və ətrafındakı kəndlər varlı və münbit yerlər idi. Əl-Bab əmiri h. 357 (968)-ci ildə oradan saysız-hesabsız qənimət aparmışdı. «Tarix əl-Bab»da Şirvanşah əbu Nəsrin h. 392 (1002)-ci ildə əl-Bab əmirinin qardaşını həbsdə saxladığı Şəbəran qalasının adı çəkilir[98]. Şəbəran şəhəri indiki Qubanın cənuba doğru axan eyniadlı çayın

[*] Şabəran şəhərinin qalıqları 1935-ci ildə Y. A. Paxomov və S. B. Aşurbəyli tərəfindən müştərək tədqiq edilmişdir.

sahilində idi. Ehtimal ki, Şəbəran üç Şirvan nahiyəsindən biri olan Xursanın inzibati mərkəzi olmuşdur[99]. Burada şüşə bilərziklər, çoxlu miqdarda şirli və şirsiz saxsı qab qırıntıları və kürə aşkara çıxarılmışdır ki, bu da sənətkarlığın inkişafından xəbər verir[100]. «Tarix əl-Bab»ın verdiyi xəbərə görə, Şəbəran şəhərinin divarını h. 373 (983)-cü ildə Şirvanşah Məhəmməd ibn Əhməd çəkdirmişdir[101]. XI əsrdə Şirvanşahların ailə məqbərəsi Şəbəranda olmuşdur. H. 418 (1027)-ci ildə ölmüş Yəzid ibn Əhməd və onun h. 459 (1067)-cu ildə Gülüstanda (Şamaxı yaxınlığında) ölmüş qızı Şəmkuyyə burada dəfn edilmişdilər[102]. Ehtimal ki, Şamaxı böyüyənədək Şəbəran Şirvanın paytaxtı olmuşdur.

XVIII əsrin sonlarında Şəbəran ərazisində olmuş Biberşteyn yazır: «Vaxtilə mühüm şəhər olub, indi isə yalnız xarabalıqları qalmış Şəbəran şəhəri düzənlikdə, onun adını daşıyan çayın sol sahilində yerləşmişdir»[103].

«Tarix əl-Bab»da adı çəkilən Sədun Şəbəranın yaxınlığında idi[104]. Xaqani və Fələki Şirvani kimi şairlər[105] III Mənuçöhrün «Girdimanda və Sədunda (Sədan) tikdirdiyi suvarma şəbəkələrini vəsf etmiş, həmin şəhərlərin şirvanşah tərəfindən salındığını göstərmişlər. Xanıkov yazırdı: «Sədun, indiki Siadan, Qübbə rayonunda, Şabranın xarabalıqlarının yaxınlığında şəhərdir»[106]. Sədun-Sədan Xəzər dənizi və Ataçay çayının, Siyəzən şəhərinin yaxınlığında lokallaşdırılır.

Təbərsəran Dərbənddən şimal-qərbdə, Cənubi Dağıstanda, indiki Təbərsəran ərazisində mövcud olmuş və ehtimal ki, X-XI əsrlərdə arabir Şirvanşahlara tabe ərazilərə daxil olmuşdur. «Tarix əl-Bab»da göstərilir ki, Şirvanşah Məhəmməd ibn Yəzid X əsrin birinci yarısının sonlarında oğlu Heysəmi Təbərsərana hakim təyin etmişdi. Daha sonra, 1025-ci ildə Təbərsəranda Şirvanşah Yəzidin qardaşının öldüyü Məhəmməd mülkünün (diyə) adı çəkilir. Sonralar, 1065-ci ildə şirvanşahın oğlu Mənuçöhr ibn Yəzid Hürmüz Təbərsərandakı mülkdə ölmüş və dayılarının yanında dəfn edilmişdi[107]. Göründüyü kimi, Şirvanşahlar Təbərsəran hakimləri ilə qohumluq əlaqələrilə bağlı idilər və bu ərazi çox vaxt Şirvanın tabeliyində olurdu. Təbərsəran qalası və məmləkəti Məsudi və digər ərəb müəlliflərinin əsərlərində xatırlanır. Əl-Ləkz ölkəsi Samur çayı boyunda yerləşirdi. Onun adı, görünür, Cənubi Dağıstanda yaşayan tayfaların adından əmələ gəlmişdir. Bu iki məmləkət Şirvanşahların zəbt etdikləri əl-Cibəl (Dağlıq) vilayətinə daxil idilər və göründüyü kimi, Şirvan dövlətində əlahiddə inzibati vahid təşkil edirdilər[108].

Şirvanın mühüm şəhərlərindən biri Bakı idi. Müqəddəsi (985-ci il) Bakının liman kimi əhəmiyyətini ilk dəfə qeyd etmişdir: «Bakı dənizin kənarında şəhərdir. İqlimin yeganə limanıdır»[109]. «Hüdud əl-aləm»də (982-ci il) Bakıdan dağların yaxınlığında dəniz sahilində kiçik bir şəhərcik kimi bəhs edilir. Deyləmən ölkəsində işlədilən neftin hamısı oradan gətirilirdi[110]. Erkən və inkişaf etmiş orta əsrlərdə neft, başlıca olaraq, hərbi texnikada istifadə edilirdi. Mənbələr xəbər verir ki, ərəb qoşunlarının tərkibində xüsusi yanar neftatanlar hissəsi var idi. IX-XI əsrlər ərəb tarixçi və coğrafiyaşünaslarının əsərlərində Bakı vilayətində külli

miqdarda neft hasil edilməsinə və hərbi məqsədlərlə bir sıra Şərq ölkələrinə daşınmasına dair məlumatlara rast gəlirik. Abşeronda çıxarılan neftdən, eyni zamanda, təsərrüfatda, məişətdə, habelə, dərman vasitəsi kimi də istifadə olunurdu. İbn Sinanın (980-1037) məşhur «əl-Qanun fi-t-tib» əsərində neftdən müxtəlif xəstəliklərin müalicəsində istifadə edilməsi göstərilmişdir[111]. IX-XI əsr ərəb mənbələrində Abşeronda və Bakı ətrafında xeyli neft və duz istehsalına dair məlumatlar gətirilir. Xəlifələr Bakı əyalətinin gəlirini vəqf kimi Dərbənd keçidini köçəri türk tayfalarının Azərbaycana hücumlarından qoruyan ərəb qarnizonunun saxlanmasına sərf edirdilər. Şirvanşahlar da Dərbəndin müdafiəsinə böyük əhəmiyyət verir, hətta gəliri yığıb Dərbənd hakiminə vermək üçün xüsusi şəxslər - məmurlar təyin edirdilər. X əsr ərəb müəllifləri əl-İstəxri, Məsudi və başqaları Bakı ətrafında çıxarılan neftin müxtəlif çeşidləri barədə məlumat verirlər. Abşerondakı Suraxanı kəndində böyük ehtiyatı olan ağ neft daha qiymətli sayılırdı[112]. Azərbaycanın bir sıra şəhərlərini təsvir etmiş X əsr ərəb səyyahı Əbu Duləf Bakuyədən (Bakı) və onun neft mədənlərindən danışarkən yazır: «...Burada neft mənbəyi gördüm. Onun gündəlik qəbələsi (icarə haqqı min dirhəmə çatır. Yanında isə gecə-gündüz civə yağına oxşayan ağ neft axan başqa bir mənbəyi də vardır. Onun də qəbələsi elə birincidəki kimidir»[113]. Əbu Duləfin göstərdiyi məbləğ hər birindən gündə 1000 dirhəm, yaxud ildə 720000 dirhəm gəlir götürülən təkcə iki neft quyusundan (belə quyuların isə sayı çox idi) əldə edilən məbləğdir. Bu həmin dövrdə böyük miqdarda neft hasil olunduğunu göstərir. İcarə haqqına gəldikdə isə görünür, söhbət icarədarlara verilən dövlətə məxsus neft quyularından gedir. Hər quyuda 1000 dirhəm məbləğində gəlir dövlətin icarədardan aldığı icarə pulu idi. Neft mədənlərinin icarəyə verilməsi sistemi X əsrdə və daha sonralar da tətbiq edilirdi.

Ərəb müəllifləri Şirvanda, Xəzər dənizi sahilində balıqçılığın da inkişaf etdiyini xəbər verirlər. Bəzi qiymətli balıq növləri bir sıra Yaxın Şərq ölkələrinə ixrac olunurdu. X əsrin ikinci yarısından ərəb müəllifləri Bakının Xəzər dənizində mühüm liman şəhəri olduğunu qeyd edirlər. Buradan İrana və Xəzər sahilində yerləşən qonşu ölkələrə neft, duz və s. mallar aparılır və oradan Şərqin uzaq ölkələrinə daşınırdı. Ticarət gəmiləri Xəzərin cənub sahillərində Bakıya, oradan isə Atilə (Volqa), xəzərlər ölkəsinə qədər üzürdülər. Mənbələr, həmçinin, Şirvandan və Xəzər dənizindəki adalardan dənizlə Cürcana, oradan isə karvan yolu ilə hind torpaqlarına boyaqotu boyağı aparıldığını xəbər verirlər. Uzaq ölkələrlə - Hindistanla və ehtimal ki, bahalı ipək parçalar gətirilən Çinlə ticarət edilir[114].

Əgər Xilafətin Azərbaycanı işğal etdiyi ilk əsrlərdə ölkə var-yoxdan çıxmış və tənəzzülə uğramışdısa, artıq IX və X əsrlərdə onun iqtisadiyyat və təsərrüfatı inkişaf mərhələsinə qədəm qoymuşdu. İbn Havqəl və başqa müəlliflər Şirvan və bütün Azərbaycan şəhər və yaşayış yerlərinin rifahından və zənginliyindən danışırlar. Xarici və daxili ticarətin, eləcə də pul dövriyyəsinin inkişafı ilə əlaqədar şəhər həyatında böyük canlanma müşahidə olunur. Feodal münasibətlərinin

inkişafı, əmək bölgüsünün yaranması, sənətkarlığın və ticarətin yüksəlməsi nəticəsində X əsrdə Şirvanın şəhərlərində əmtəə istehsalı artımı gücləndi. Bu vaxt Şirvanın Dərbənd, Bakı, Şamaxı, Şəbəran kimi şəhərləri iri ticarət mərkəzlərinə çevrildilər. Həmin şəhərlərin sənətkarları qızğın ticarət gedən bazarlar üçün mallar hazırlayırdılar. Xammal bazasına malik Şirvan şəhərlərində nazik şüşədən hazırlanan gözəl qablara, Bakıda, Şəbəranda, Beyləqanda, başqa şəhərlərdə istehsal olunan şirli keramikaya, Şamaxıda toxunan ipək parçalara, gümüş və qızıldan hazırlanan məmulatlara - bütün bunlara feodal əyanları arasında tələbat var idi[15].

Şirvanın şəhərləri spesifik malların istehsalı və satışı sahəsində ixtisaslaşırdı ki, bu da həmin şəhərlərdə çoxlu miqdarda sənətkarların toplandığını göstərir. Bazarlar üçün şəhərin kənarında iri sahələr ayrılırdı. Şirvan şəhərlərinə Xəzərdən, Rus dövlətindən, İrandan, Bizansdan və Uzaq Şərq ölkələrindən - Hindistandan, Çindən, İraqdan, Suriyadan tacirlər gəlir, gətirdikləri malların əvəzində karvanlarla neft, duz, balıq, mal-qara (qatır), zəfəran, qırmızı boyaq, boyaqotu və digər mallar aparırdılar[116]. Aparılan mallar içərisində sənətkarlıq məmulatları, başlıca olaraq xamna və Şamaxıda, onun ətrafındakı kəndlərdə toxunan ipək parçalar, Şirvan şəhərlərində - Bakı və onun ətrafında, Xursanda, Muğanda hazırlanan yun parçalar, xalçalar, xalça məmulatları, örtüklər[117], Beyləqan və Şəbəranda istehsal edilən saxsı və mis qablar da var idi.

Ən iri şəhərlər - Bərdə, Dərbənd, Gəncə, Şamaxı, Bakı - beynəlxalq ticarət yollarının üstündə idi. Başlıca ticarət yolu Muğandan keçib, Kürün sağ sahili ilə Tiflisə, oradan isə Qara dənizə gedirdi. Xəzər sahilləri ilə Bakı və Dərbənd limanlarından və daha sonra Xəzər xaqanlığından keçərək, şimala gedən yol da mühüm əhəmiyyətə malik idi. Yollardan biri Bərdədən Ərdəbilə və İrana, digəri isə yenə də Bərdədən Dvinə və oradan Suriya və Mesopotamiyaya gedirdi. Ərəb müəllifləri Bərdədən Bab əl-Babadək yolun marşrutunu vermişlər[118]. Bakı X əsrin sonlarında artıq Xəzər dənizində mühüm liman olub, istər dəniz, istərsə də karvan yolu ilə beynəlxalq tranzit ticarətində iştirak edirdi.

Yüksəklikdə yerləşən köhnə Bakı Azərbaycanın başqa şəhərləri kimi qala divarları ilə əhatə olunmuşdu. Arxeoloji qazıntılar zamanı həm yüksəkliyin üstündə, həm də Qız qalası ərazisində qala divarlarının qalıqları üzə çıxarılmışdır[119]. Şirvanşahlar sarayı və İçərişəhər ərazisində orta əsr şəhərinə məxsus əhalisi sıx olan məhəllələr aşkar edilmişdir. Bu, Bakı şəhərinin VIII-XI əsrlərdə və sonralar mövcud olmasına dair mənbələrin verdiyi məlumatı təsdiq edir. Şəhər olduqca böyük bir ərazini tutaraq, dənizə qədər uzanırdı[120]. Şirvanşahlar sarayı ərazisində aparılan arxeoloji işlər zamanı yaşayış binalarının qalıqları, təndirlər, su quyuları, taxıl və zibil quyuları, çoxlu miqdarda şirli saxsı qab qırıntıları, sikkələr və digər maddi mədəniyyət və məişət qalıqları meydana çıxarılmışdır[121].

İçərişəhərin şimal tərəfində, uçurulmuş evin yerində, 80 kv. m sahədə, XII-XIII əsrlərə aid divarların altında, 5,5-6 m dərinlikdə Bakı yüksəkliyinin qayaları

üzərində ev divarları, təndirlər, ocaqlar aşkar edilmişdir. Qayada üç təsərrüfat quyusu oyulmuşdu. VIII-X əsrlərə aid edilən bu təbəqədə adi və şirli keramika tapılmışdır. Şirvanşahlar sarayının şərq tərəfində 16x8 m sahədə aparılan qazıntılar torpaqaltı təbəqəyə qədər (təqribən 6 m dərinlikdə) çatdırılmışdır. Düzbucaqlı bina divarlarının bünövrələri ilə yanaşı, su və təsərrüfat quyuları, təndirlər üzə çıxarılmışdır. Çoxlu miqdarda adi və şirli qablar və onların qırıntıları tapılmışdır. Üst təbəqədən tapılmış şirli keramikada anqob və manqanla işlənmiş naxışlarla, oymalarla və müxtəlif rəsmlərlə bəzədilmiş polixrom qablar üstünlük təşkil edir. Alt təbəqədəki keramikada isə monoxrom naxışlı qablar çoxdur. Tapılmış qablar arasında cam, kasa, boşqab, bardaq var. Kasaların dibinə, qabarıq möhürlər vurulmuşdur. Adi saxsı qablar dar və genboğaz bardaqlardan, qazanlardan, kasa və çıraqlardan ibarətdir. Çoxlu daş kirkirə aşkara çıxarılmışdır. Şirvanşah adından zərb edilmiş mis sikkələr, mis və dəmir əşyalar, şüşə və fayans məmulatları və i. a. tapılmışdır[122].

1971-ci ildə Bakı yüksəkliyinin cənub-şərq yamacında qazıntı işləri aparılmağa başladı, 168 $m^2$ sahədə aparılan qazıntı işləri torpaqaltı qata - sal qayaya qədər çatdırıldı. İki metrə yaxın alt mədəni təbəqə VIII-XIII əsrlərə aiddir. Yaşayış kompleksləri qazıntı sahəsinin cənub-şərq hissəsini tutur. Alt təbəqədə təsərrüfat və su quyuları, təndirlər, otaqlar aşkar edilmişdir. Çoxlu miqdarda keramika məmulatı, fayans, metal və şüşə əşyalar, mis sikkələr tapılmışdır. Nəbati və həndəsi səciyyəli qabarıq basmaqəlib naxış vurulmuş sarı gil qablar seçilir. IX-X əsrlərə aid şirli qablar - anqob və manqanla işlənmiş və yaşıl rəngli şir çəkilmiş monoxrom kasalar aşkar edilmişdir; bəzilərinə dulusçu ustaların möhürü basılmışdır. Alt təbəqələrdə naxışla bəzədilmiş al-qırmızı rəngli, nazik divarlı zərif qablar tapılmışdır. Mis, dəmir, bürünc və şüşə məmulatlarının aşkar edilməsi orta əsrlər Bakısında metal və şüşə emalının, zərgərlik və digər sənətlərin inkişaf etdiyini göstərir. Tapılmış gümüş və mis sikkələr IX-X əsrlərə aid olub, Abbasi xəlifələri və Şirvanşahlar adından kəsilmişdir. Onlar Bakının Azərbaycanın başqa şəhərləri və qonşu ölkələrlə geniş ticarət əlaqələri olduğunu təsdiq edir[123].1973-cü ildə qazıntı işləri şəhərin qala hissəsinin şimal tərəfində qövsşəkilli bürcləri olan şəhər divarlarının yaxınlığında aparılmışdır. Arxeoloji tədqiqatlar göstərdi ki, köhnə Bakının sənətkarlıq emalatxanalarının əksəriyyəti burada olmuşdur. Şəhərin bu hissəsində tikili qalıqlarına az təsadüf edilir. Keramika tapıntıları alt təbəqənin IX-X əsrlərə aidliyini göstərir. Şirli qablar (adi bardaqlar və çömçələr) anqob və manqanla işlənmişdir. Alt təbəqədə, həmçinin, çoxlu miqdarda şüşə qablar - nazik divarlı rəngli kiçik qab qırıqları, qara və yaşıl qolbaqlar, müxtəlif formalı muncuqlar aşkar edilmişdir. Metal məişət əşyaları və sikkələr tapılmışdır[124].

Qazıntı işləri Bakı yüksəkliyinin üstündə, Şirvanşahlar sarayının yaxınlığında, ehtimal ki, saray xidmətçilərinin yaşadıqları sahədə də aparılmışdır. 1,5 m qalınlığında olan alt təbəqə bilavasitə torpaqaltı qatın üstündədir. O, şəhərin erkən dövr həyatını əks etdirir. Burada üzə çıxarılmış bina bünövrələri qalınlığı ilə

- 1 metrədək - seçilir. 4,8 m dərinlikdə içərisi ev heyvanlarının sümükləri və keramika qırıqları ilə doldurulmuş 2 təsərrüfat quyusu aşkar edilmişdir. Orada, həmçinin, böyük gil çıraq, əl dəyirmanının alt daşı, şirsiz və şirli qab parçaları, eləcə də hər iki tərəfdən açıq-mavi rəngli şir çəkilmiş və üzərində ərəb əlifbası ilə sahibinə xoşbəxtlik arzusu bildirən qabarıq kitabə olan kasa tapılmışdır. Başqa bir fayans kasanın dibində şəffaf şirin altında bitki və quş rəsmlərindən ibarət naxış vardır. Bu sahədə 24 mis sikkə tapılmışdır. Aparılmış qazıntılar nəticəsində VIII-XI əsrlərdə İçərişəhər ərazisində böyük əhali sıxlığı olduğu, Bakıda sənətkarlığın və ticarətin inkişaf etdiyi sübuta yetirilmişdir[125].

1975-ci ildə qazıntı işləri qövsşəkilli bürcləri olan şimal qala divarlarının yaxınlığında 64 kv. m. sahədə davam etdirilmişdir. Torpaqaltı qata söykənən və şəhərin erkən tarixini əks etdirən alt mədəni təbəqədə, təqribən 7 m uzunluğunda divar bünövrəsi, habelə, digər divar qalıqları aşkara çıxarılmışdır. Bu təbəqədə təsərrüfat quyuları, habelə, müxtəlif diametrli doqquz təndir, müxtəlif keramika məmulatı, saxsı şlakı, şüşə və fayans qab qırıntıları, dəmir əşyalar, ağ gildən düzəldilmiş və üstünə yaşıl şir çəkilmiş miniatür at fiquru, iki dəmir ox ucluğu və s. tapılmışdır. Alt təbəqə təqribən IX-XIII əsrlərə aid edilir. Evlərin bir-birinə sıxlığı və tapıntıların çoxluğu tədqiq olunan dövrdə şəhərdə qızğın həyat getdiyini göstərir[126]. İçərişəhər ərazisində tapılmış gümüş və mis sikkələr VIII əsrin birinci yarısı - XI əsrin əvvəllərinə aid olub, Əməvi və Abbasi xəlifələri, eləcə də, Şirvan Şirvanşahları adından Yaxın Şərq, Azərbaycan və Arran şəhərlərində kəsilmişdir. Bakıda dəniz sahilində suda tapılmış qızıl sikkələr içərisində h. 207 (822)-ci ilə aid əqləbi dinarını qeyd etmək olar[127].

Gətirilən arxeoloji və numizmatik məlumatlar orta əsrlər Bakısında intensiv şəhər həyatı getdiyini, IX-XI əsrlərdə burada sənətkarlığın inkişaf etdiyini, Azərbaycanın və qonşu Şərq ölkələrinin bir çox şəhərləri ilə ticarət əlaqələri saxlandığını təsdiqləyir.

Beyləqanda aparılan arxeoloji qazıntılar nəticəsində IX-XI əsrin əvvəllərində burada dəmirçilik, misəritmə, dulusçuluq və zərgərlik sənətlərinin inkişafını göstərən materiallar aşkar edilmişdir. Beyləqan metallurqları təkcə silah, təsərrüfat və məişətdə işlənən məmulatlar yox, həm də əmək alətləri istehsal edirdilər.

Bu dövrdə soyuq və isti döymə, tökmə, lehimləmə, məftilçəkmə, ştamplama, zərbetmə kimi texniki vasitələrdən istifadə olunurdu. IX-XI əsrlər dövrü erkən şirlik məmulatların meydana gəlməsi ilə səciyyələnir. Həmin məmulatın kütləvi istehsalı onların şəhər əhalisinin məişətində əhəmiyyətli yer tutduğunu göstərir. Bu dövrdə şirsiz və şirli keramikanın əsas növləri qazan, küp, səhəng, bardaq, kasa, dopu, boşqab, çıraq, duzqabı, kirəmit və s. idi. Çıraqlarda Bakıdan gətirilən neft yandırılırdı. Beyləqanda keramika istehsalı IX əsrdən geniş inkişafa başlayır və XII-XIII əsrin əvvəlində yüksək səviyyəyə çatır.

IX-X əsrlərdə Beyləqanda keramika məmulatının bişirilməsi texnikası

təkmilləşir, yüksək keyfiyyətli məişət və inşaat keramikası istehsal etməyə imkan verən iki yaruslu dulus kürələri meydana gəlir. Bu kürələr şəhərin kənarında, sənətkarlar məhəlləsində yerləşirdi. Beyləqanda bu dövrdə yandırıcı bomba kimi və müxtəlif mayelərin daşınmasında istifadə olunan çoxlu miqdarda sferokonuslar hazırlanırdı. Bədii tərtibatı ilə seçilən Beyləqən keramikası Azərbaycanın başqa şəhərlərinə də aparılırdı. IX-X əsrlərdə Beyləqanda kütləvi surətdə şüşə istehsal edilməsini çoxlu tapıntılar, şüşə qablar içərisində istehsal çıxdaşının, yaşıl, mavi, bənövşəyi, sarı, göy və qara rəngli şüşədən bəzək əşyalarının olması sübut edir. Beyləqan ustaları şüşəni dartıb uzatmaqla ondan halqalar, bilərziklər, xırdalamaqla muncuqlar, xüsusilə gözmuncuğu düzəldirdilər. Şüşə məmulatının əsas kütləsini məişət qabları - dərin kasalar, bardaqlar, qədəhlər, ətir şüşələri təşkil edirdi. Beyləqan sənətkarları orta əsr Azərbaycan şəhərləri üçün səciyyəvi olan bütün sənətlərlə - sümük və ağac üzərində bədii oyma, dabbaqlıq, habelə toxuculuq, ipəkçilik və xalçaçılıqla məşğul olurdular.

Beyləqanda tapılmış çoxlu sikkə (300-dən çox) və sikkə dəfinələri, əmtəə-pul münasibətlərinin və ticarətin göstəricisidir. Çoxu xəlifələrin, yaxud onların valilərinin adından kəsilən bu sikkələr «Arran» adlı sikkəxanada zərb edilirdi. Y. A. Paxomov həmin sikkəxananı Beyləqanda yerləşdirirdi. Fəlslər, əsasən, şəhərdaxili ticarətdə, dirhəmlər Beyləqandan, Şirvan və bütövlükdə Qafqazdan çox-çox uzaqlarda da işlənirdi. Buradan IX əsrə aid əl-Bab (Dərbənd), əl-Bəsrə və Məaden Bəcuneys şəhərlərində zərb edilən və Beyləqanın ticarət əlaqələrindən xəbər verən sikkələr tapılmışdır. Artıq IX-XI əsrin əvvəllərində Beyləqan təkcə kustar istehsalı sahəsində deyil, eləcə də ticarət sahəsində feodal şəhəri kimi tam təşəkkül tapmışdı. Burada sənətkarlıq, bazar, əmtəə istehsalına çevrilirdi[128].

Nəzərdən keçirdiyimiz Şirvan şəhərləri IX-XI əsrin əvvəllərində inkişaf etmiş sənətkarlıq və ticarətə, əmtəə-pul münasibətlərinə, Azərbaycanın və qonşu ölkələrin bir sıra şəhərləri ilə iqtisadi və mədəni əlaqələrə malik tipik orta əsr feodal şəhərləri idilər. IX-X əsrlərdə şəhərlərin intensiv həyatı XI-XIII əsrin ilk rübündə şəhər həyatının əsl yüksəlişinə və çiçəklənməsinə zəmin yaratdı.

Yaxın Şərq ölkələrində, o cümlədən Şirvanda feodalizmin get-gedə formalaşması IX əsrin birinci yarısından Xüafətin zəifləməsi və bir sıra müstəqil və yarımmüstəqil dövlətlərə parçalanmasının qanunauyğun nəticəsi idi. Həmin ölkələr arasında mühüm feodal qurumlarından biri də Şirvanşahlar dövləti idi. Şirvan ərazisində müstəqil dövlətin yaranması feodal şəhərlərinin meydana gəlməsinə və inkişafına yardım göstərən amil idi. Həmin şəhərlər sonralar XI-XIII əsrin birinci rübündə Şirvanşahlar dövlətinin iqtisadi, sosial və mədəni həyatında aparıcı rol oynadılar.

# IV F Ə S İ L

# ŞİRVANŞAHLAR DÖVLƏTİ XI-XIV ƏSRLƏRDƏ

## § 1. Şirvanşahlar XI-XIV əsrlərdə (siyasi tarix - səlcuqların və monqolların hücumu)

### I Fəribürz

Şirvanşah Salar ibn Yəziddən sonra Şirvanda onun qanuni varisi - hələ atasının sağlığında dövlət işləri ilə məşğul olan oğlu Fəribürz ibn Salar ibn Yəzid hökmranlıq edirdi. Fəribürzün hakimiyyəti dövründə Şirvanşahlarla qohumluq münasibətlərində olan Arran hökmdarları Şəddadilərlə bir sıra müharibələr baş verdi. H. 455-ci ilin rəbiüləvvəl ayında (mart, 1063) Arran hökmdarı Şavur ibn əl-Fəzl Şirvana hücum edərək, Quylamiyan (?) qalasını tutdu və orada öz qarnizonunu yerləşdirdi. Həmin il o, yenidən Şirvana hücum edərək, ölkəni viran etdi, qoyun və mal-qara sürülərini qovub apardı. Şavur onun əleyhinə çıxan Şirvan əhalisini qırıb-çatdı, əyanlardan bir çoxunu əsir aldı və əmlaklarını qarət etdi. «Tarix əl-Bab» sonra xəbər verir: «Oradan hərəkət edən Şavur Yəzidiyyənin qapıları qarşısında düşərgə saldı, öz qızını - mərhum Saların arvadını [hərəmini] pulları, bütün mal və qiymətli şeyləri ilə birlikdə götürərək Arrana qayıtdı. Lakin h. 455-ci ilin rəcəb ayında (iyul, 1063) o, üçüncü dəfə Şirvana gələrək Sədun (indiki Sədən - S. *A.)* kəndində dayandı, əkinləri, ətraf kənd və malikanələri yandırdı»[1]. Şirvanşah kömək istəmək üçün oğlu Əfridunu Ənuşirəvan ibn Ləşkəri ilə birlikdə ana babası olan Sərir hakiminin yanına göndərdi. Lakin Əfridun Sərir hakimindən heç bir kömək ala bilməyib üç aydan sonra əliboş geri qayıtdı. H. 456-cı ilin məhərrəm ayında (yanvar, 1064) Arran hakimi Əbüləsfar Şavur ibn Fəzl dördüncü dəfə Şirvana basqın edib, bir sıra kənd və məntəqələri tutdu. Sonra Şavur qoşununun bir hissəsini bəzi əmirləri ilə burada qoyub Şirvanı tərk etdi. O, əhalidən 40 min dinar tələb etdi. Şirvanşah Fəribürz rəcəb ayında (iyun-iyul, 1064) onunla sülh müqaviləsi bağladı. Bu müqaviləyə əsasən Şavur Şirvanşahdan 40 min dinar alıb, əvəzində Quylamiyan qalasını ona qaytardı. H. 457 (1065)-ci ildə Fəribürz qoşunu ilə əl-Babın kəndlərinə hücum çəkərək, onları qarət edib dağıtdı. Şirvanşah Məsqətdəki Mehyariyə qalasına çatdıqda dərbəndlilər Qələban (ehtimal ki, Qəlabad) körpüsünün yaxınlığında ona müqavimət göstərdilər. Onların çoxu öldürüldü. Fəribürzün Dərbəndə basqınına əl-Bab əhalisinin rəislərin başçılığı ilə Əbd ül-Məlikin oğlu Əmir Mənsura qarşı üsyan qaldırıb, onu öldürmələri bəhanə olmuşdu. Mənsur Fəribürzün bibisi oğlu idi və onunla həmişə əmin-əmanlıq içində yaşamışdı. Fəribürz onun intiqamını almaq üçün əl-Bab rəislərinin bir çoxunu edam etdirdi, əmlaklarını qarət edib, sürülərini qovub apardıqdan sonra Şirvana qayıtdı.

Bütün bu hadisələr, bir tərəfdən şəhər əyanları - rəislər, digər tərəfdən isə əl-Bab əmiri ilə Dərbəndə hakimlik iddiasında olan Şirvanşah arasında baş verən aramsız toqquşma və vuruşmalar göstərir ki, XI əsrin ikinci yarısında feodal münasibətlərinin inkişafı şəhər əhalisinin mühüm hissəsinin - feodal hökmdarlarına qarşı müstəqillik uğrunda mübarizə aparan yuxarı təbəqənin güclənməsinə səbəb olmuşdur. Həmin proses Şirvan və Arranın başqa şəhərlərində də müşahidə edilir.

«Tarix əl-Bab»da Dərbənd və Beyləqan rəis və əmirləri, habelə, Dərbənd rəis və əmirləri ilə şirvanşah arasında gedən mübarizəyə dair çoxlu məlumat verilir. «Tarix əl-Bab»da daha sonra xəbər verilir ki, h. 457-ci il rəbiülaxir ayının sonuncu günü (9 aprel, 1065) Fəribürzün əmisi oğlu Hürmüz ibn Mənuçöhr ibn Yəzid Təbərsərandakı irsi malikanəsində öldü və orada dayılarının yanında basdırıldı. Göründüyü kimi, Təbərsəran şirvanşahın torpaqlarına daxil idi və onun qohumları tərəfindən idarə olunurdu. Həmin il Fəribürz qoşunu ilə Məsqətə qayıtdı, Samur çayının sahilində düşərgə saldı və h. 457-ci il rəcəb ayının sonlarında (1065-ci il iyulun əvvəlləri) öz dəstələrini (sərayə) Dərbəndin üstünə göndərdi. Dərbənd əhalisi çətin vəziyyətə düşdü. Fəribürz yalnız dərbəndlilər bibisi Şəmkuyyəni həbsdən azad edib, bütün əmlakı və qiymətli şeyləri ilə birlikdə müsəlman ilahiyyatçılarının - fəqihlərin müşayiətilə onun yanına göndərdikdən sonra Şirvana qayıtdı. «Tarix əl-Bab»da rəislərin şəhərin siyasi hadisələrindəki roluna və Dərbəndi zəbt etmək iddiasından əl çəkməyən şirvanşahla münasibətlərinə dair mühüm məlumat verilir. Fəribürz getdikdən sonra əl-Bab rəislərinin başçısı Müfərric Sərir hakimindən yardım istədi. Sərirlilərlə birlikdə hərəkət edən Müfərric onların köməyilə Şirvana məxsus olan Şəbəranı mühasirəyə aldı. O, burada şirvanşahın nizami qoşunu ilə qarşılaşdı. Şirvan qoşunu şəhər əhalisinin köməyilə Müfərrici məğlub etdi və onu əsir aldı. Bundan sonra əl-Bab əhalisi rəislərlə birlikdə şəhəri şirvanşaha təslim etmək qərarına gəldi. Şirvanşah qalanı təmir etdirdi, onu döyüşçülərlə möhkəmləndirdi və ərzaqla təchiz etdi. Əl-Bab əmiri Əbd ül-Məlik ibn Ləşkəri Haydağa getdi, şirvanşah isə 458-ci il səfər ayının sonuncu günü (30 yanvar, 1066) oraya gəlib çıxmış oğlu Əfridunu əl-Babın hakimi təyin etdi. Əl-Babın əhalisi Əfridunu böyük təntənə ilə qarşıladı və o, bu qalaya köçdü[2]. «Tarix əl-Bab»ın misal gətirilən parçasında Şirvanın paytaxtında iğtişaşlara, şəhər rəislərinin, ruhanilər və əyanların şirvanşaha qarşı müxalifətçi çıxışlarına dair anlaşılmaz məlumatlar var. Lakin həmin mənbədə bu çıxışların xarakteri barədə heç nə deyilmir. Ehtimal etmək olar ki, Şamaxıda da Beyləqanda baş vermiş hadisələr - şəhər rəisləri və tacirlərinin şəhərin müstəqil idarə edilməsi uğrunda feodal hakimiyyətinə qarşı hərəkatı olmuşdur. Lakin bu barədə dəqiq məlumatımız yoxdur. Şirvanşah Fəribürz iğtişaşları yatırtmaq üçün gürcü* qoşunlarının köməyinə əl atmağa məcbur olmuşdur. Onlar bu hərəkatı yatırdılar və şirvanşah üsyançılara divan tutdu. Bu haqda mənbədə deyilir: «Həmin ilin

---

* Bir nüsxədə «əl-xəzəriyyə-xəzərlər» göstərilir (Minorski «Şirvanın tarixi» ərəbcə mətni, § 19, səh. 14).

cəmadiyüləvvəl ayında (aprel, 1066) Fəribürzün öz paytlxtı Yəzidiyyənin əhalisinə qəzəbi tutdu, kafir gürcüləri onun üstünə qaldırdı. Onlar əhalini qarət edib oradakı müsəlman üləmasını, rəis və əyanları əsir tutdular. Şirvanşah onların bəzilərinin əlləri bağlı [səbran] halda edam olunmasını, bəzilərinin çarmıxa çəkilməsini, qalanlarının isə keçən illərin xəracını ödəməklə zindana atılmasını əmr etdi»[3].

XI əsrin ikinci yarısının əvvəlində xarici siyasət sahəsində Şirvan dövlətinin sosial-iqtisadi inkişafına mənfi təsir göstərən hadisələr baş verdi. Ölkədəki feodal pərakəndəliyi, rəislərin şəhərləri müstəqil idarə etmək uğrunda mübarizəsi Şirvan dövlətinin zəifləməsinə səbəb olurdu. Artıq XI əsrin birinci yarısında mənbələrdə səlcuq dəstələrinin Orta Asiyadan Azərbaycana bir sıra yürüşlər etdiyi qeyd olunur.

XI əsrin 30-cu illərində mənbələrdə ilk dəfə olaraq türk-quzların Şirvana girmək təhlükəsi qeyd edilir. Şirvanşahlar öz qoşunları ilə yanaşı, Orta Asiyadan çıxmış köçəri oğuz tayfalarının bir qolu olan səlcuqlara qarşı da mübarizə aparırdılar. XI əsrin əvvəllərində səlcuqlar güclü imperiya (1038-1157) yaradaraq, Ön Asiya ölkələrini Azarbaycanı və qonşu ölkələri təhdid edirdilər. XI əsrin ortalarında səlcuqlar daxili siyasət nəticəsində zəifləmiş İranı, Azərbaycanı və bir sıra digər Şərq ölkələrini güclü müqavimətə rast gəlmədən zəbt etdilər[4]. H. 458 (1066)-ci ildə türk-quzlar Şirvana basqın etdilər, kürd düşərgələrini (hilal) talan edərək çoxlu qənimət - insan, mal-qara və əmlak apardılar. Şirvanşah I Fəribürz ibn Salar türkləri Şirvandan getməyə məcbur etmək üçün böyük təzminat verməli oldu. H. 459-cu il məhərrəm ayının birində (22 noyabr, 1066) türklərin başçısı Qaratəkin Şirvana ikinci dəfə Fəribürzün onunla ittifaq bağlamış əmisi Məmlan ibn Yəzidlə birlikdə hücum etdi. Qaratəkin Yəzidiyyə (Şamaxı) şəhərini mühasirəyə alaraq, onun ətrafındakı yerləri viran etdi. «Sonra o, ölkənin dağ və dərələrinə hücum çəkərək soyub dağıtdı, xeyli adam qırdı, sürüləri apardı, qadın və uşaqları əsir aldı. Şirvanı «boş səhraya» (Quran, XX, 106) döndərdi. Oradan Bakıya enən Qaratəkin burada əhalinin xeyli hissəsini qırdı, qadın və uşaqları, sürüləri qovub apardı. Vəziyyət qorxulu hal alanda, şirvanşah 4000-dən çox madyandan ibarət cins at ilxısını Məsqətə göndərdi. Qaratəkinin dəstələri Bakıdan Şəbəranadək qabaqlarına çıxan har şeyi qarət edib dağıdırdılar. Türklər dağlara qalxdılar və oradan Məsqət üzərinə hücuma keçdilər, onlar Fəribürzün ilxısını sürüb apararaq Şəbərana qayıtdılar. Sonra Qaratəkin yenidən Yəzidiyyəni mühasirəyə aldı, Şirvanşahın vəziyyəti daha da ağırlaşdı. Belə ki, Qaratəkinə 2000 türk döyüşçüsündən ibarət kömək gəlib çatmışdı. Türklərin Fəribürzü aldadaraq qaladan çıxmağa məcbur etmək cəhdləri baş tutmadı. Fəribürz daxili düşmənini, doğmaca əmisini məhv etmək üçün sultanın hacibinə gizlincə 6000 dinar verərək onu öz tərəfinə çəkdi[5]. «Tarix əl-Bab»da Məmlan ibn Yəzidin öldürülməsinin təfərrüatı nəql olunur. «(Hacib) buna razılıq verib Qalabad qalasında oturan Məmlanı ziyafətə dəvət etdi. Məmlan ziyafətə gəldi. Onlar Məmlan sərxoş olana qədər yeyib-içdikdən sonra, hacib onun Qalabada qayıtmasına icazə verdi. Bu vaxt Şirvanşah özünün saray adamlarından üç nəfəri - dayısı oğlu Ləşkəristanı,

xidmətçisi Şadtəkini və hacibi Namdar ibn Müzəffəri yolda pusqu qurmağa göndərdi. Onlar sərxoş halda yanlarından keçən Məmlanın üstünə atılaraq, h. 459-cu ilin rəbiülaxir ayında cümədən şənbəyə keçən gecə (24 fevral, 1067) onu qəddarcasına qətlə yetirdilər. Məmlanın meyidi Yəzidiyyəyə gətirilərək orada dəfn edildi». Bu hadisələrdən sonra türklər Yəzidiyyədən Kür çayı sahillərinə endilər. Onlar çayı keçib, topladıqları qənimətlə çıxıb getdilər. H. 459-cu ilin rəbiülaxir ayında (fevral, 1067) Qəzvin hakimi türk əl-bəsan (?) Şirvanı türklərin basqınlarından qorumağı vəd etməsi müqabilində Qaratəkinə hər il verməyi öhdəsinə götürdüyü 30000 dinarı almaq üçün öz məmurlarını şirvanşah Fəribürzün yanına göndərdi[6].

«Tarix əl-Bab»ın verdiyi məlumata görə, h. 459-cu ilin cəmadiyülaxir ayında (aprel 1067) Fəribürzlə gürcülər arasında toqquşmalar olmuşdur. Gürcülər Şəkidəki Dəskərət əl-Hüseyn qalasını tutaraq, Kaxetiya hakimi Axsartan ibn Qagikə (1058-1084-cü illər) verdi. Sonuncu, həm də əvvəllər Fəribürzə məxsus olan Şəki vilayətinin hakimi idi. Fəribürzün qalanı geri almaq cəhdləri uğursuz oldu və o, paytaxta qayıtdı. H. 464 ilin ramazan ayında (iyun, 1072) Fəribürz Arran hökmdarı Fəzl ibn Şavurla ittifaq bağlayaraq, Şəkiyə soxuldu. Məluğ qalasını tutub dağıtdı və bütün «kafirləri», ehtimal ki, xristian və bütpərəstləri qırdı. Lakin Fəribürz vilayəti bütünlüklə geri qaytara bilmədi. Alp Arslanın yürüşü və gürcülərlə müharibəsi zamanı Axsartan öz torpaqlarını saxlamaq üçün islamı qəbul etdi[7].

Qaratəkinin yürüşündən sonra türklərin Azərbaycana gəlməsi daha intensiv şəkil aldı. H.459 (1067)-cu ildə hərbi rəislər Qaymas və Qaratəkin türk süvari dəstəsi ilə şirvanşahın yanına gəldilər və o, əmisi Qubadın qızını Qaratəkinə ərə verdi. Həmin ilin şəvval (avqust) ayında türk Qaymas qəflətən Şirvanda öldü (zəhərləndi?) və Yəzidiyyədə dəfn edildi.

H. 459 (1067)-cu ilin sonunda səlcuq sultanı Alp Arslan Arrana daxil oldu. Böyük diplomatik bacarığa malik olan Şirvanşah Fəribürz qiymətli hədiyyələrlə onun yanına gedərək, öz xidmətini (əl-hədiyyə vəl-xidmə) təklif etdi və h. 460 (1068)-cı ildə onunla birlikdə səfərə çıxdı. Şəddadi Fəzl ibn Şavur Fəribürzü itaətlə qarşılayıb, xəzinəsinin açarını ona verdi. Şirvanşah sultanın nüfuzundan öz şəxsi düşmənlərini cəzalandırmaq üçün istifadə etdi. O, h. 459-cu ilin şəban ayında (iyun, 1067) Qəbələnin qapısı qarşısında kunililər (xunililər?) (ehtimal ki, burada məskən salmış xəzərlər)[8] tərəfindən öldürülmüş dayısı oğlu Ləşkəristanın intiqamını almaq üçün Kuni (Xuni?) üzərinə hücum edərək, çoxlu adam qırdı, sürüləri apardı, kəndləri yandırdı. Alp Arslan Rum səfərindən [ehtimal ki, h. 460 (1068)-cı il Gürcüstan səfərindən] qayıdaraq, Gəncədən keçib Bərdəyə gedərkən, əl-Bab əhalisi şəhərin bir neçə rəisini həbs etmiş şirvanşahdan ona şikayət etmişdi. Fəribürz şəhəri müstəqil idarə etməyə çalışan itaətsiz rəislərlə mübarizəni davam etdirirdi. Sultan onların azad olunmasını əmr etdi. Fəribürz onun əmrini yerinə yetirdi. Lakin sultan şirvanşaha münasibətini dəyişdi və onu həbsxanaya salmaq

əmri verdi. Bir müddətdən sonra sultan şirvanşahı azad edib Şirvana göndərərək, onu hər il böyük məbləğdə xərac verməyə məcbur etdi.

Bu hadisələrlə əlaqədar Fəribürzün əmisi qızının əri Qaratəkin Yəzidiyyədən Məsqətə qaçdı və orada öldürüldü. Şirvanşahın qardaşı Güzdəhəm ibn Salar da pul götürüb ləkzlər ölkəsinə qaçmışdı. H. 460-cı ilin ramazan ayında (iyul, 1068) şirvanşah Fəribürzün oğlu Əfridun əl-Bab qalasını tərk edərək, Şirvana getməyə məcbur oldu.

H. 461 (1068)-ci ildə Şirvanşah qardaşı Güzdəhəmin ləkzlər ölkəsini tərk edərək əl-Baba getdiyini və burada rəislərin yanında sığınacaq tapdığını öyrəndi. H. 461-ci ilin məhərrəm ayında (noyabr, 1068) şirvanşah qoşunla hərəkət edərək, əl-Babı tutmaq məqsədilə Rubas çayının sahilində düşərgə saldı. Xurməstan deyilən yerdə, şəhərin divarları arxasında Şirvanşahın qoşunları ilə onun qardaşı Güzdəhəm ibn Saların başçılıq etdiyi dərbəndlilər arasında bir neçə vuruşma oldu. Haydaq və Tüveyk əhalisi də dərbəndlilərin tərəfində vuruşurdu. Döyüşlər nəticəsində şirvanşahın qoşunları məğlubiyyətə uğradı. Lakin əl-Bab rəislərinin rəisi Müfərric ibn Müzəffər Şirvanşahın tərəfinə keçdi. Müfərric dərbəndlilərin səhvindən istifadə edərək, iç qalanı tutdu. Güzdəhəm ibn Salar isə şəhəri ələ keçirdi. Müfərric qalada qalmaqda idi və hər iki tərəfin tərəfdarları arasında hər gün toqquşma olurdu. Sonra Güzdəhəm ləkzlərin yanına, əl-Bab əmiri Əbd ül-Məlik ibn Ləşkəri isə Haydağa qaçdı. Bundan istifadə edən Müfərric şəhəri tutdu. Əlverişli şəraitdən istifadə edən şirvanşah oğlu Əfridunla sərhəd vilayətlərinə (səqr) doğru hərəkət etdi və müttəfiqi rəis Müfərricin tutduğu əl-Bab qalasına daxil oldu. Dörd gündən sonra şirvanşah oğlu Əfridunu əl-Baba hakim təyin edərək evə qayıtdı. Qalada möhkəmlənən Əfridun onun bərpası ilə məşğul olmağa başladı. O, qalanın qarşısında xəndək qazılmasını əmr etdi[9]. Şəddadi Fəzl ibn Şavur gürcülərin əsiri olarkən Fəribürz sülh sazişini pozaraq Arrana hücum etdi. Fəzl azad olunduqdan sonra qoşun yığıb Şirvanı tutdu və Dərbənddə öz adından xütbə oxunmasını əmr etdi. Şirvanşahla Arranşah qoşunları və onunla birgə çıxış edən əl-Bab əhalisi arasındakı baş verən bir neçə vuruşmadan sonra şirvanşah Məsqətin bütün torpaqlarını və Mehyariyəni (Dərbəndin ətrafındakı yerlər, indiki Quba rayonunun ərazisi) zəbt etdi. Əl-Bab qalası onun oğlu Əfridunun əlində idi. O, fürsət düşdükcə əl-Bab sakinlərinin mülklərinə və torpaqlarına basqınlar edirdi. Şirvanşah oğluna hər ay növbətçi dəstələri göndərməklə yardım göstərirdi. O, Mehyariyənin ətrafına qala divarları çəkdirərək, ortasında qəsr olan şəhərə çevirdi. Bundan məqsəd, ehtimal ki, türklər basqın etdikdə oradan Dərbəndə sahib olmaq uğrunda mübarizədə dayaq məntəqəsi və sığınacaq kimi istifadə etmək idi. Şirvanşah vaxtının çoxunu Xəzər dənizinin yaxınlığında olan yeni iqamətgahı Mehyariyədə keçirirdi. H. 464 (oktyabr, 1071)-cü ildə rəis Müfərricin kömək göstərdiyi şirvanşahı tanımağa məcbur olan dərbəndlilərdən girov adamlar götürərək, onlarla saziş bağlayan Fəribürz oğlu Əfridunu müstəqil hakim kimi Dərbəndə göndərdi. Dərbənd əhalisi şirvanşah adından xütbə oxumağa başladılar[10].

Dərbənd XI əsrdə və sonralar Şərqi Qafqazın Şirvan hakimlərinin diqqətini daim cəlb edən iri ticarət - sənətkarlıq və siyasi mərkəzi olmuşdur. XI əsrin ortalarında müstəqil Dərbənd hakimləri sülaləsinə son qoyuldu, şəhər və onun ətrafındakı torpaqlar Şirvanın tərkibinə daxil edildi və sonralar İraq səlcuqlarından asılı vəziyyətə düşdü[11].

H. 464-cü ilin səfər ayında (noyabr, 1071) türk Yəğma sultan Alp Arslanın təyin etdiyi hakim kimi əl-Baba gəldi. Yəğma şirvanşahdan əl-Bab qalasının və Məsqətin təslim olunmasını tələb etdi. H. 464-cü ilin rəbiül axır ayında (yanvar, 1072) Yəğma hakim kimi qalaya daxil oldu, şirvanşahla Əfridun isə taxıl və ərzağı özləri ilə götürüb Şirvana getdilər. Həmin il Şirvanşahın qardaşı Güzdəhəm ibn Salar Şəkidə öldü, onun cənazəsi Yəzidiyyəyə gətirilib orada dəfn olundu. Həmin ilin aprel ayında əl-Babın rəisləri Fəribürzün sonuncu sığınacağı olan Məsqətə doğru hərəkət etdilər. Lakin şirvanşah həm onlarla, həm də Şəki ətrafındakı qərb qonşuları ilə mübarizəni davam etdirirdi. Fəribürz əhalisi gah ona tabe olan, gah da əleyhinə üsyan qaldıran Dərbəndə sahib olmaq uğrunda vuruşmaqda idi. Nəhayət, h. 467 (1074)-ci ildə Ərğar ibn Buğanın başçılığı ilə türk qoşunları gəldi. Ərğar ibn Buğa Şirvanın sultan tərəfindən iqta kimi ona verildiyini elan etdi. Lakin şirvanşah özünəməxsus diplomatiya yolu ilə səlcuq sultanından özünün əvvəlki imtiyazlarının bərpa edilməsinə nail oldu və eyni zamanda Şərqi və Qərbi Ləkzdə ləzgilərin tabe edilməsini başa çatdırdı. Lakin sərhəd vilayəti əl-Babı sultanın iqta kimi bağışladığını hər iki İraqın əmiri Savtəkinin nümayəndəsi bura gəldikdən sonra Fəribürz hər il sultanın xəzinəsinə vergi (mal) verən vassal vəziyyətinə düşdü. Sonra mənbədə deyilir: «Bu vəziyyət onun ölümünədək (....) davam etdi. Fəribürzdən sonra Şirvanın hakimi onun oğlu Əfridun ibn Fəribürz oldu...». V. F. Minorskinin fikrincə, bu məlumat Münəccimbaşının öz əlavəsidir. «Əl-Bab» salnaməsindən gətirilən bu məlumatlar «nəinki səlcuq hücumlarının ağır günlərinə davam gətirən, həm də öz xanədanının imtiyazlarını möhkəmləndirən»[12] bacarıqlı hakim, diplomat və mərd sərkərdə olan Fəribürzün fəaliyyətini işıqlandırır.

Mənbələr göstərir ki, Fəribürz hakimiyyətini Arranda da bərqərar etmişdi. Onun istila etdiyi torpaqlar Muğandan dənizə qədər uzanıb gedirdi. Qumuq və alanlar ölkəsinədək Sulvar da onun ölkəsinə daxil idi. O, ləzgiləri, abxazları (yəni, gürcüləri) özünə tabe etdirmiş, Arranı və Cənzəni (Gəncəni) tutmuşdu. Fəribürz bütün ömrünü qonşu əraziləri zəbt etməklə və öz dövlətinin sərhədlərini genişləndirməklə keçirmişdir. Onun hökmranlığının başlanğıcı - h.455 (1063)-ci il salnamələrdən məlumdursa, sonu mənbələrdə göstərilmir. Onu yalnız numizmatik və epiqrafik məlumatlara əsasən müəyyənləşdirmək mümkündür.

Şamaxı rayonunda Fəribürzün adı ilə bağlı h. 471 (1078/9)-ci ilə aid tarixi abidə üzərindəki kitabə qalmışdır. Orada deyilir: «Bu əzəmətli binanı tikməyi əmr etdi adil, böyük şirvanşah Fəribürz. Dörd yüz yetmiş birinci ildə»[13]. Göründüyü kimi, Fəribürz ölkə səlcuqlar tərəfindən istila edildikdən sonra da Şirvanda faktik hakimiyyətini qoruyub saxlaya bilmişdi. Bunu numizmatik materiallar da təsdiq

edir.

I Fəribürz adına zərb edilmiş bir neçə sikkə tipi qalmışdır. Onlardan ən qədimi (1-ci tip) Şamaxı rayonundakı Çuxuryurd dəfinəsindəndir. Üzərində xəlifə əl-Qaimin [h. 422-467 (1031-1075)-ci illər] sultan və Fəribürzün adları vardır. Sultanın adı yarımpozulmuş halda olub aydın oxunmur; sikkənin o biri üzündə Fəribürzün adında yalnız [əl-adil] Fəribürz sözləri oxunur. Həmin tipdən olan Moskva Tarix Muzeyindəki sikkədə xəlifənin adı «Əl-Qaim-bi əmr-allah», arxasında müsəlmanlıq rəmzi və Fəribürzün tam adı oxunur: «Əl-məlik, əl-adil, Əbu-Şüca Fəribürz, ibn Salar, şirvanşah»[14]. Üzərində göstərilən tarixə görə I Fəribürzün ilk sikkəsi h. 422-467 (1031-1075)-ci illər arasında kəsilmişdir. Lakin «Tarix əl-Bab»ın verdiyi məlumata görə, Fəribürz 1063-cü ildən hakimiyyətə başlamışdır. Deməli, Şirvanşah I Fəribürzün ilk sikkəsi h. 455-467 (1063-1075)-ci illərdə, daha doğrusu, Alp Arslanın hücumuna qədər, yəni, h. 455-459 (1063-1067)-cu illərdə kəsilmişdir, Fəribürzün adından əvvəl gələn «əl-məlik, əl-adil» sözləri onun tam müstəqilliyini göstərir.

I Fəribürzün adına başqa tipli çox aşağı əyarlı iki gümüş sikkə də tapılmışdır. Üz tərəfində (2-ci tip) müsəlmanlıq rəmzi, Abbasi xəlifəsi əl-Müqtədinin-bi-əmr allah [467-487 (1075-1094)-ci illər] və səlcuq sultanı Məlik şahın [465-485 (1072-1092)-ci illər] adları, arxa tərəfində isə Fəribürzün adı həkk edilmişdir. Bu adlara əsasən, demək olar ki, sikkə h. 467-485 (1075-1092)-ci illər arasında kəsilmişdir. Fəribürzün adının, atasının adı və heç biri titul göstərilmədən çəkildiyi bu tip sikkə onun vassal asılılığında olduğunu təsdiq edir. 3-cü tip sikkənin üz tərəfində müsəlmanlıq rəmzi və Abbasi xəlifəsi əl-Müstəzhir-billahın [497-512 (1094-1118)-ci illər] adı çəkilir. Sultanın adı yoxdur. Arxa tərəfində «əl-məlik Fəribürz» yazılmışdır[15]. Sultanın adının olmaması və xəlifənin hakimiyyət illəri (1094-1118) Məlik şahın ölümündən sonra onun oğulları arasında hakimiyyət uğrunda mübarizə getdiyi dövrdə səlcuq sultanlarının hakimiyyətinin zəiflədiyini göstərir. Ehtimal ki, siyasi hadisələrdən istifadə edən Fəribürz səlcuq sultanlarının vassallığını qəbul etməkdən boyun qaçırmış, ona görə də adına ikinci sikkə-tipində olmayan məlik - şah titulunu əlavə etmişdir. Xəlifə əl-Müstəzhirin h. 487-522 (1094-1118)-ci illərdə hakimiyyət sürdüyünü, numizmatik materiallara görə III Mənuçöhr ibn Fəribürzün h. 498 (1105)-ci ildə şirvanşah olduğunu nəzərə alsaq, aydın olar ki, Fəribürz h. 487-498 (1094-1105)-ci illər arasında ölmüş olmalıdır. Mənbələrdə Fəribürzün ölüm tarixinə dair məlumat yoxdur. Lakin I Fəribürzün oğlu II Mənuçöhrün hökmranlıq illərini göstərən bina üzərindəki kitabəyə əsasən şirvanşah Fəribürzün hakimiyyətinin nə vaxt sona çatdığını dəqiq müəyyənləşdirmək mümkündür. Həmin kitabədə deyilir: «Şirvanşah Əbü-l-Müzəffər möminlərin köməkçisi Mənuçöhr ibn Fəribürzün zamanında. Dörd yüz səksən doqquzuncu h. 489-cu ildə [1096]»[16]. Beləliklə, 1096-cı il tarixi Fəribürzün hökmranlığının sonudur.

Şirvanşahın xəlifə ilə əlaqəsi nominal xarakter daşıdığı halda, səlcuq sultanı

ilə əlaqəsi ondan tamamilə fərqlənirdi. Məlik şah (1079-1092) Şirvan üzərinə illik vergi qoymuşdu. Əl-Bondarinin şəhadətinə görə «Məlik şah Arrandan keçərkən Şirvan hakimi Fəribürz şah onun hüzuruna gəldi. O, əvvəlcə müqavimət göstərdi, sonra hər il dövlət xəzinəsinə 70 000 dinar ödəmək üçün iltizam verdi. Lakin vaxtaşırı bu məbləğin miqdarını azaltmağa icazə verilirdi, nəhayət, 40 000 dinarda durmaq qərara alınmışdı»[17].

Əl-Hüseyni də Məlik şahın Arrana səfər edərkən Şirvan ölkəsinin hakimi şirvanşahın yanına adam göndərdiyi deyilir. Sonuncu sultana itaət göstərdi və sultan onun üzərinə ildə 70 min dinar xərac qoydu[18]. Mükrimin Xəlil Yınanc Məlik şahın bu səfərinin 1076 və 1078/9-cu illər arasında olduğunu göstərir[19].

Ən-Nəsəvi xəracla əlaqədar başqa bir rəqəm gətirir: «Məlik şah ibn Alp Arslan Arranı zəbt edərək, öz geniş torpaqlarına qatdıqda o vaxtkı şirvanşah saraya gəldi. O öz ölkəsinə aramsız basqınlardan və qoşununun çox hissəsini məhv etmiş vuruşmalardan sonra gəlmişdi. Onun sultan xəzinəsinə ildə yüz min dinar verməsi qərara alındı»[20]. Münəccimbaşı xəbər verir ki, «şirvanşah onun üzərinə qoyulmuş illik bac-xəracı sultanın xəzinəsinə ödəməyə başladı»[21]. Fəribürzün Məlik şaha tabe olması və o vaxt ondan vassal asılılığını qəbul etməsi yuxarıda qeyd olunan h. 467 və 485 (1075-1092)-ci illər arasında kəsilmiş sikkədə (2-ci tip) əksini tapmışdır[22]. XI əsrin 70-ci illərinin sonlarından Şirvanda ehtimal ki, şəhər əhalisi arasında feodal hakimiyyətindən yaxa qurtarmağa, şəhərin idarə olunmasında müstəqilliyə can atan rəislər zümrəsi güclənmişdi. Bakının İçərişəhər hissəsindəki Sınıqqala məscidindəki h. 471 (1078/9)-ci ilə, yəni Fəribürzün səlcuq sultanına tabe olduğu dövrə aid kitabədə məscidin əl-ustad əl-rəis Məhəmməd ibn Əbu Bəkr tərəfindən tikildiyi göstərilir[23]. Həm də kitabədə Fəribürzün adı çəkilmir ki, bu da görünür, səlcuqlara tabe olan Şirvanın daxili siyasi vəziyyəti və Bakıda rəislərin hakimiyyətinin güclənməsi ilə əlaqədar idi.

Xaqaninin əsərlərində («Külliyyati-Xaqani») Fəribürzün adı III Mənuçöhr ibn I Əfridunun bacısı məlaikə İsmətəddinə ithaf olunmuş mədhiyyədə çəkilir. Xaqani onun ziyarətini əcdadlarının səfərləri ilə müqayisə edir. «Sənin baban (cəddin) şah Fəribürz Məlik şaha baş çəkməyə getmişdi və İsfahana gedib çıxmışdı. Kəyanlardan (Kəsranilərdən - S. *A.)* heç kim Kəbəyə getməmişdi. Sən Kəbəni ziyarət etdin və Kəyanların fəxri oldun»[24].

Məsud ibn Namdarın əsərlərində, başlıca olaraq, şer və məktublarında da Fəribürz haqqında bəzi məlumatlar vardır. Onlardan belə nəticə çıxarmaq olar ki, sultan Məhəmmədlə sultan Börküyarıq arasında müharibənin əvvəlində Beyləqanda baş verən hadisələr zamanı şirvanşah Fəribürz sağ idi. Yaşının ötməsinə baxmayaraq (o, 1063-cü ildə taxta çıxmışdı) Fəribürz öz dövlətinin sərhədlərini genişləndirmək sahəsində fəaliyyətini davam etdirirdi[25]. Məsudin Fəribürzə həsr etdiyi qəsidədə deyilir ki, o, Müğanı (Muğan düzünü) «and torpağı» kimi ələ keçirdi. Bu, ehtimal ki, Muğanın köçəri əhalisinin (yaxud onun bir hissəsinin) şirvanşaha xidmət etdiyini göstərir. Abxaza (Gürcüstan) basqından

sonra Fəribürz «tez-tələsik Arranı ələ keçirdi» və Gəncəyə amil təyin etdi. Mənbələrdə gürcülərin də basqın edərək, girov götürdüklərindən danışılır. Şirvanşah Beyləqanın süzerini sayılır və ora öz amillərini göndərirdi. Beyləqanda özünüidarə mövcud olduğundan Fəribürz şəhəri tam nəzarət altında saxlamırdı. Gəncə haqqında oraya amil və onun yanına müşrif təyin olunduğu xatırlanır. Bu vaxt Gəncəni şirvanşahın oğlu adlandırılan əmir əl-Ədud idarə edirdi. Göründüyü kimi, XI əsrin sonunda Gəncədə şirvanşahın vassal torpağı var idi. Əl-Ədud əl-məlik-şah deyil, əmir, böyük hacib titulları daşıyırdı. Onun vəziri var idi. Fəribürzün uğurları ölkədə ağır səlcuq hökmranlığı hökm sürdüyü və onlardan vassal asılılığı şəraitində qazanılmışdı. Fəribürz əlverişsiz şəraitə baxmayaraq, Məzyədi Şirvanşahlar üçün ənənəvi olan Şirvanın Cənubi Dağıstanda nüfuzunu möhkəmləndirmək siyasətini davam etdirirdi. Şirvanşah qumuqları tabe etdirməyə və islamı onlara qəbul etdirməyə səy göstərirdi. O, Dağıstanın cənubunda öz hökmranlığını gücləndirməkdə Şirvanın köhnə müttəfiqi və vassalı olan ləkzlərdən istifadə edirdi. Şirvanşah sulvar[26] tayfası ilə də müttəfiq idi. Ehtimal ki, bu, XI əsrin ortalarında Cənubi Dağıstanda[27] məskunlaşan və sayı 100000 nəfər olan türk tayfası suvarlar (sabirlər) idi. Suvarlar alan torpaqlarına basqınlar edirdilər[28].

Fəxrəddin Fəribürzün hökuməti məclis əl-Fəxri adlanırdı. Bu zaman Şirvanın vəziri məşhur Deyləm hökmdarları sülaləsinin nümayəndəsi Bəhaəddin əl-Kakuyi idi.

Şirvanda bu vəzifə üç nəsildən də çox bir müddət ərzində irsən əl-Kakuyi ailəsinə mənsub olmuşdur. Şirvanşah Fəribürz və onun vəziri ədiblərə - ziyalılara və məmurlara - hamilik edirdilər[29]. Mənbələrdə Fəribürz (1063-1096-cı illər) haqqında 33 il ərzində xarici aləmdə baş verən ağır siyasi hadisələrə, ölkə daxilindəki antifeodal çıxışlarla mübarizəyə baxmayaraq, qonşu əraziləri tutmaq, öz dövlətini genişləndirmək və möhkəmləndirmək yolunda qarşıya çıxan maneələri uğurla aradan qaldıran böyük diplomat, qeyri-adi istedada malik dövlət xadimi kimi danışılır. Səlcuq istilaçıları ölkəni öz hökmranlığına tabe edib, Şirvanşahın hakimiyyətinə son qoya bilmədilər. Artıq XI əsrin sonlarında Şirvanın siyasi həyatında Şirvanşahlar dövlətinin çiçəklənməsinin zirvəsi sayılan, XII əsrdə də davam edən yüksəlişin başlandığı nəzərə çarpır.

## II MƏNUÇÖHR İBN I FƏRİBÜRZ

Fəribürz iki oğul qoyub getmişdi: II Mənuçöhr və I Əfridun (yaxud Fəridun). Onlar növbə ilə hakimiyyətə gəlmişlər. Məsud ibn Namdarın verdiyi məlumata görə, Fəribürzün Gəncənin və bütün Arran vilayətinin əmiri olmuş əl-Ədud adlı oğlu olmuşdur[30]. Ehtimal ki, əl-Ədud* Fəribürzün oğlunun adı deyil, ləqəbi idi. Onun adını müəyyənləşdirmək hələlik mümkün deyil, lakin güman

* Ehtimal ki, əl-Ədud Ədud əd-dövlə (yaxud, əd-dünya) və-d-din sözünün qısaldılmış formasıdır.

etmək olar ki, bu, II Mənuçöhrün ləqəbidir.

II Mənuçöhr haqqında qalmış yeganə sənədlər Ermitajda saxlanılan aşağı əyarlı gümüş sikkə və onun adı çəkilən kitabədir. Mənbələrdə onun haqqında heç bir məlumat verilmir. Sikkənin üz tərəfində dini rəmz xəlifə əl-Mustəzhir billahın [h. 487-512 (1094-1118)-ci illər] və səlcuq sultanı Məhəmmədin [h. 498-511 (1105-1118)-ci illər] adları göstərilmişdir. Arxa tərəfdə əl-məlik Mənuçöhr ibn Fəribürz adı həkk olunmuşdur[31]. Xəlifə Müstəzhir h. 487-ci ildən 512-ci ilədək (1094-1118), sultan Məhəmməd ibn Məlik şah isə h. 498-ci ildən 511-ci ilədək (1105-1118) hökmranlıq etmişdir. Deməli, h. 498 (1105)-ci ildə Mənuçöhr Şirvanın şahı idi. Kitabəyə görə, II Mənuçöhr h. 489 (1096)-cu ildə hakimiyyətə başlamışdır: «Şirvanşah Əbü-l-Müzəffər, möminlər əmirinin köməkçisi Mənuçöhr ibn Fəribürzün zamanında. Dörd yüz səksən doqquzuncu il (1096-cı il)»[32]. Onun hakimiyyətinin son ili məlum deyil. Lakin Əfridunun h. 514 (1120)-cü ildə öldürüldüyü[33] nəzərə alınsa, ehtimal etmək olar ki, h. 498 və 514 (1105-1120)-cü illər arasında II Mənuçöhrün hakimiyyəti sona çatmış və I Əfridunun hakimiyyəti başlanmışdır[34].

Sikkədə sultan Məhəmmədin adının çəkilməsi şirvanşahın İraq səlcuqlarına tabe olduğunu göstərir. Lakin əl-məlik titulu və Mənuçöhrün atasının - Fəribürzün adının çəkilməsi Şirvanşahın hakimiyyətinin möhkəmləndiyinə dəlalət edir. Məlik şahın oğlu, Arranı öz torpaqlarına birləşdirmiş Gəncə hakimi sultan Məhəmmədin hakimiyyət dövrü o zaman dövlətin başında duran qardaşı Börküyarıq əleyhinə üsyan qaldıraraq, onunla hakimiyyət uğrunda ara müharibələri aparması ilə səciyyələnir. Qardaşının ölümündən sonra sultan Məhəmməd h. 498-ci ildən 511-ci ilədək (1105-ci ildən 1116-cı ilədək) təkbaşına baş sultan olmuşdur[35]. II Mənuçöhrün adı ilə kiçik mis pullar da var. Onların bir tərəfində titulsuz «Mənuçöhr», digər tərəfində isə Məlik şah (Y. A. Paxomovun fikrincə, II Malik şah) [təqribən h. 498 (1104/5)-ci il] adları çəkilir. Lakin Kuyumcan onları III Mənuçöhrə aid edir[36]. I Fəribürzün oğlu II Mənuçöhr haqqında sikkələrdən və kitabədən başqa, hələlik, heç bir məlumat yoxdur.

## I ƏFRİDUN İBN I FƏRİBÜRZ

I Əfridunun (yaxud Fəridun) adına hələlik sikkə tapılmamışdır. Əfridunun adı yalnız III Fəribürzün əcdadı kimi Pirsaat çayı üstündəki xanəgahın giriş baştağındakı kitabədə xatırlanır. Kitabənin tarixi h. 641 (1243/4)-ci il göstərilir. Orada deyilir: «Bu binanın tikilməsi müdrik, adil, müəyyəd, müzəffər, dünya və dinin ucası, islamın və müsəlmanların məliki, məlik və sultanların tacı, Əbü-l-Müzəffər Fəribürz bin Gərşasi, bin Fərruxzad, bin Mənuçöhr... və i. a. *varisi Cəm Əfridunun* zamanında əmr edilmişdir»[37]. Bu kitabəyə görə, Əfridun III Fəribürzün ulu babasının atasıdır[38]. Onun adı, habelə III Mənuçöhrün sikkələrində yalnız sonuncunun atasının adı kimi çəkilir. O, Xaqaninin I Axsitanın arvadı şahzadə

İsmət əd-Din Səffət əl-İslama ithaf olunmuş mədhiyyədə da xatırlanır: «Mən şəhid Əfridunun göhər mədənində Daranın tacını bəzəyən daş-qaş görmüşəm»[39]. Bu misralarda Əfridun din uğrunda həlak olmuş şəhid adlandırılır. Əfriduna şamil edilən bu təşbihin izahını IV David Qurucunun hökmranlığının müfəssəl tarixçəsi verilən gürcü salnaməsi «Kartlis texovreba»da tapırıq. Burada xəbər verilir ki, gürcü koronikonuna görə 340 (h. 514 (1120)-ci ilin noyabrında Şirvan və Dərbənd hakimləri ilə müharibədə Əfridun öldürülmüş və şirvanşah məğlubiyyətə uğramışdır[40]. «Tarix əl-Bab»dan bilirik ki, salnamədə şirvanşahın oğlu adlandırılan Əfridun dəfələrlə Dərbəndin hakimi olmuş və Dərbənd əmirləri bir neçə dəfə onu qovmuşlar. O, şəhəri faktik olaraq idarə edən rəislərlə mübarizə aparmışdır[41]. Y. A. Paxomov yazır: «Əfridunun adının, sadəcə olaraq, salnaməçinin vaxtında hamının tanıdığı bir şəxs kimi çəkilməsi və başqa bir Şirvan hakiminin adının çəkilməməsi, görünür, müəllifin açıq deməsə də, burada həmin hakimin məhz Əfridun olduğunu nəzərdə tutduğunu göstərir.

O vaxtlar Dərbənd, əlbəttə, Şirvan hakimlərinə qarşı mübarizədə Dərbənd əmirlərinin müttəfiqi olan qıpçaq və digər qeyri-müsəlman köçəri dəstələrinin keçib gəldiyi qapı idi və belə «kafirlərlə» döyüşdə öldürülmüş Əfridun, sözsüz, şəhid sayıla bilərdi»[42]. Bizə elə gəlir ki, Əfridunun dərbəndlilərlə apardığı müharibədə onların «kafir» müttəfiqləri Fəribürzün müsəlmanlaşdırmağa cəhd göstərdiyi qumuqlar, yaxud şəndanlılar, sərirlər və alanlar[43] da ola bilərdi. Bu dövrün hadisələri «Kartlis tsxovreba»da əksini tapmışdır. 1116-(510 k. 336)-cı ildə gürcü IV David Qurucu «qızı Katanı imperatorun oğluna[*] ərə verərək Yunanıstana (Bizansa - *S.A.)* göndərmişdir. Bundan əvvəl o, böyük qızı Tamarı Şirvana hakim göndərmişdir». Şahzadə qızın ərinin adı çəkilmir. Mənbələrdən aydın olur ki, Davidin[44] birinci arvadından olan qızı Tamar Əfridunun oğlu III Mənuçöhrün arvadı idi və onların toyu təqribən h. 505 (1111)-ci ildə olmuşdu[45].

XII əsrdə Gürcüstanda qədim hökmdarlıq nəslindən olan Baqrationlar hakimiyyət sürürdü. Qurucu David qızlarından birini Bizansa, digərini isə Şirvana ərə verməklə Zaqafqaziyanın yaxınlaşmaqda olan səlcuqlar işğalı təhlükəsi qarşısında Gürcüstanın siyasi vəziyyətini möhkəmləndirmişdi. «...Səlcuq hökmranlığından azad olmaq uğrunda mübarizədə mənafe birliyi Gürcüstanla Şirvanın yaxınlaşmasını şərtləndirdi və nəticədə sülalə nikahı baş verdi... Şirvan və Yunanıstan (Bizans - S. *A.)* tərəfindən ölkənin təhlükəsizliyi təmin olundu və Qurucu David bütün qüvvələrini səlcuqların qovulmasına yönəldə bildi»[46]. Akademik N.A Berdzenişvilinin fikrincə, gürcü hökmdarı bu addımı atmaqla Şirvanşahla sazişə getməyə və səlcuq türklərinə qarşı mübarizədə onun köməyini qabaqcadan təmin etməyə çalışırdı[47]. «Bu nikah 1105-1106-cı illərdə olmalı idi. Lakin bu addım kifayət etmədi. Əfridun əvvəlki kimi, türklərə meyl göstərirdi və onlarla ittifaqda olmağı üstün tuturdu»[48]. Bunun ardınca gürcü hökmdarı

[*] Kata Bizans imperatoru Aleksey Komninanın və İrinanın kiçik oğlu İsaaka ərə verilmişdi.

aralarındakı qohumluq əlaqələrinə və ittifaqa baxmayaraq, şirvanşaha qarşı fəal əməliyyata başladı. H. 511 (1117)-ci ildə IV David oğlu Demetreni güclü ordu ilə şirvanşahın üstünə göndərdi. Demetre Kaladzor qalasını tutdu, böyük qənimət və çoxlu əsir götürərək, İranın birləşmiş qüvvələrinin başçısı Sukmanın adamlarını qaçmağa məcbur etdi[49]. Demetre şirvanlılar üzərində qələbədən sonra təntənə ilə Gürcüstana qayıtdı. Sonrakı iki il dinc keçdi, lakin sonra, h. 514 (1120)-cü ildə IV David özü başda olmaqla Şirvana yürüş etdi. Həmin ilin fevralında o, Qəbələ şəhərini tutaraq, çoxlu qızıl, gümüş və digər qiymətli şeylər qənimət götürdü. May ayında o, «Ərəbiyə-Licasdan Şiştlansa və Kürdüvana qədər» Şirvanı viran edərək, çoxlu qənimətlə Kartliyə qayıtdı. Görünür, burada söhbət Lahıc və Şamaxı bölgəsindən gedir. Gürcülərin basqını şirvanşahı gücdən saldı. Bunun ardınca Dərbəndlə müharibə başladı. H. 514 (1120)-cü ilin noyabrında baş verən vuruşmada Əfridunun özü öldürüldü, qoşunu isə darmadağın edildi[50]. Əfridunun nə vaxt hakimiyyətə başlaması məsələsi yeni mənbələr aşkar edilənədək açıq qalır. «Tarix əl-Bab»dan bilirik ki, Əfridun I Fəribürzün Dərbənddə canişini olmuşdur: «Şirvanşah Fəribürz öz oğlu Əfridunu Dərbəndə hakim təyin edərək, h. 458-ci il səfər ayının sonuncu günü (30 yanvar, 1066) oraya göndərdi». Onun adı bir də 1068-ci il hadisələri ilə əlaqədar çəkilir. «460-cı ilin ramazan ayında (iyul, 1068) şirvanşah Fəribürzün oğlu Əfridun əl-Babı tərk edərək Şirvana getdi».H. 461 (1068)-ci ildə Fəribürz öz qardaşı Güzdəhəm və əl-Bab əhalisi ilə müharibə edərkən, «Şirvanşah oğlu və qoşunla sərhəd vilayətlərinə [səqr] hərəkət etdi və [əl-Bab] qalasına daxil oldu. O, dörd gündən sonra qalanı iqamətgahına çevirən oğlu Əfridunu oraya hakim qoyaraq geri qayıtdı...» Nəhayət, sonuncu məlumat: «H. 464-cü ilin əvvəlində (oktyabr, 1071) şirvanşah dərbəndlilərdən adamlar girov alaraq onlarla saziş bağladı və oğlu Əfridunu müstəqil hakim kimi ora göndərdi...». Gətirilən məlumatlardan Əfridunun yaşını müəyyənləşdirmək mümkündür. Əgər 1066-cı ildə Əfridunun 20 yaşı olsaydı, 1120-ci ildə, öləndə onun 70-dən çox yaşı var idi. Ehtimal etmək olar ki, II Mənuçöhrün qısamüddətli hakimiyyətindən sonra Əfridun bütün Şirvanın hakimi olmuşdur. Bunu «Tarix əl-Bab»a, V.F. Minorskinin fikrincə, Münəccimbaşının əlavəsi də təsdiq edir[51]. O, 1106/7 və 1120-ci illər arasında hökmranlıq etmişdir.

## III MƏNUÇÖHR İBN ƏFRİDUN

III Mənuçöhr ibn Əfridunun hökmranlıq vaxtında tam bir sıra aşağı əyarlı gümüş sikkələr qalmışdır. Bir üzündə «əl-məlik Mənuçöhr ibn Əfridun», o biri üzündə dini rəmz, xəlifə əl-Müktafi-liəmrüllahın - h. 530-555 (1136-1160)-ci illər və səlcuq sultanının adları göstərilmişdir. Sikkələrin hamısında sultanın adında yalnız «...əs-sultan» sözü oxunur[52]. Üz tərəfində Mənuçöhrün, arxa tərəfində isə Məlik şahın adları həkk olunmuş mis sikkələr də vardır. Kuyumcanın fikrincə, onları III Mənuçöhr İraqın səlcuq sultanı Məlik şah ibn Mahmudun [h.

547 (1152/3)-ci il] şərəfinə kəsdirmişdir. Amerika numizmatika cəmiyyətinin fondunda III Mənuçöhrün h. 555 (1160)-ci ildə Şamaxıda zərb etdirdiyi nadir bilon sikkə saxlanılır. Onun üz tərəfində «əl-məlik əl-müəzzəm Mənuçöhr», qıraqlarında «Şəmax[iyy]ə, beşinci ildə)», arxa tərəfində «əl-Müstəncid əs-sultan [Sü]-leyman» və müsəlmanlıq dini rəmzi göstərilmişdir[53]. Tarixi əl-Müstəncidin [h. 555-566 (1160-1170/1)-cı illər] və xüsusilə İraq səlcuq sultanı Süleymanşah ibn Məhəmməd ibn Məlikşahın [h. 555 (1160)-ci il] adları ilə təsdiq olunur. Bu XII əsrdə Şirvanşahlar sülaləsinin Şəmaxiyyə zərbxanasının adını daşıyan yeganə sikkədir. Onun oğlu və varisi I Axsitanın ilk sikkəsinin h. 555 (1160)-ci ilə aid olduğunu, Mənuçöhrün h. 555 (1160)-ci ilin sonunda taxta çıxmış və h. 571 (1176)-ci ilədək hökmranlıq etmiş oğlu və varisi Süleyman Arslanşahın adı ilə sikkə olmadığı nəzərə alınarsa, demək olar ki, Mənuçöhrün hakimiyyəti h. 555 (1160)-ci ilədək davam etmişdir. Beləliklə, Mənuçöhrün hökmranlıq vaxtı h. 514 (1120)-cü ildən atası Əfridunun ölümündən h. 555 (1160)-ci ilədək - özünün ölümünədək uzadılmalıdır.

Hadi Həsən şairlərdən Əbü-l-Əla, Xaqani və Fələkinin əsərlərinə əsasən III Mənuçöhrün tam adını və titulunu müəyyənləşdirmişdir: Əbül Hüca Fəxrəddin əl-Məlik Mənuçöhr ibn Əfridun, şirvanşah, Xaqan-i Bozorg, Kəbir, yaxud Əkbər. Bu titullar yalnız onun özünə deyil, oğlu I Axsitana da aid idi. Lakin Əbül Müzəffər və Cəlaləddin titulları ancaq Axsitana məxsus olduğu kimi, Əbül Hüça və Fəxrəddin titulları da yalnız III Mənuçöhrə məxsus idi[54].

Bakı qalasının şimal divarının uçması nəticəsində tapılmış böyük daş üzərində kufi xətlə yazılmış üç sətirlik natamam kitabədə köhnə Bakının qala divarlarının şirvanşah III Mənuçöhr tərəfindən tikildiyi xəbər verilir. «[Bu] şəhər divarını tikməyi ulu müdrik, ədalətli, müzəffər, qalib, mücahid məlik, dinin və dövlətin fəxri, islamın və müsəlmanların pənahı, böyük xaqan, böyük Şirvanşah Əbül Hüca Müzəffər ibn... əmr etdi»[55]. XII əsrin birinci yarısında III Mənuçöhr tərəfindən şəhər divarının çəkilməsinə dair kitabənin verdiyi məlumat Şirvan dövlətinin güclənməsilə əlaqədar şəhərlərdə böyük istehkam işləri aparıldığını göstərir. Sikkələr Mənuçöhrün atasının adını müəyyənləşdirir. Saray şairi Fələkinin «Divan»ında onun atasının adının «ibn Əfridun» kimi çəkilməsi isə onu Kəsranın oğlu hesab edən Dornun səhvini düzəldir. Kəsra sözündən olan Kəsran Xosrov sözünün ərəbləşdirilmiş forması olub, Sasani nəslinə mənsubluq bildirən soyadıdır[56].

Şirvanşah III Mənuçöhrün İraq səlcuqilərindən asılılığı mənbələrdən və sikkə məlumatlarından görünür. Mənuçöhrün təqribən 1111-ci ildə[*] gürcü şahzadəsinə, IV Davidin qızına evlənməsi o vaxtlar çox təcavüzkar olan gürcü hökmdarlarına Şirvanın işlərinə qarışmağa bəhanə vermişdir[57]. XII əsrin birinci rübündə Gürcüstanı, bir tərəfdən, Qafqaz düzənliyinin xeyli hissəsini tutmuş güclü

---

[*] Salnaməyə görə, 1112-ci ildə Tamar Şirvandan getmiş və hökmdar Georgi (II) ölmüşdür.

köçəri döyüşçülər - türk-qıpçaqlar, digər tərəfdən isə, artıq XI əsrin ikinci yarısından tədriclə Zaqafqaziya ölkələrini istila edən türk-səlcuqlar təhdid edirdilər. Səlcuqlar artıq XI əsrin birinci yarısının axırlarında İranı, İraq, Suriyanı, Cənubi Azərbaycanı, Ermənistanı, Gürcüstanı və digər ölkələri zəbt etmişdilər. XI əsrin son rübündə türk-səlcuqlar nəinki Zaqafqaziyada, həm də, bütün Yaxın Şərqdə başlıca və hakim qüvvəyə çevrildilər. Gürcü hökmdarı IV David Qurucu qızı Tamarı Şirvanşahın oğlu Mənuçöhrə ərə verməklə Şirvanşahların simasında səlcuqlara qarşı mübarizədə müttəfiq qazanırdı. Digər tərəfdən, IV Davidin özünün möhtəşəm qıpçaq məliki Şəraqənin oğlu Ətrəkin qızı Quranduxtla evlənməsi və sonra 40 000 qıpçağı ailəsi ilə birlikdə Gürcüstana köçürməsi ona səlcuqlarla və öz qonşuları ilə müharibə aparmaq üçün güclü ordu yaratmağa və qıpçaqlar tərəfindən ola biləcək təhlükəni aradan qaldırmağa imkan verdi. Şirvanşah Əfridun IV Davidin qızı Tamarı oğluna almaqla səlcuqların hücum təhlükəsi qarşısında gürcü hökmdar evi ilə qohumluq münasibətləri yaratmaq kimi siyasi məqsədlər güdürdü. Bu nikahla, göründüyü kimi, Əfridun eləcə də hərbi cəhətdən çox güclü olan və Şirvanın özü üçün Gürcüstandan az təhlükə doğurmayan qıpçaqları neytrallaşdırmaq və öz tərəfinə çəkmək istəyirdi. Lakin sonralar Əfridun qüvvələrin nisbətini və səlcuqların daha təhlükəli olduğunu görüb, Gürcüstanla ittifaqı pozdu və Şirvanşahların hələ I Fəribürz dövründən bəri sonralar da yeritdikləri ənənəvi siyasət - daha güclü düşmənə meyl göstərmək və təhlükə qarşısında gözləmə siyasəti - aparmağa başladı.

IV Davidin 1117-ci ildə Mənuçöhrün evlənməsindən bir az keçmiş təcavüzkar hərəkətlərini - oğlu Demetrenin Şirvana hücum edib Kaladzor qalasını tutmasını və sonralar, 1120-ci ildə IV Davidin özünün Şirvana iki dəfə hücum çəkərək, Qəbələni və digər şəhərləri almasını - bununla izah etmək mümkündür. Əfridunun ölümündən sonra onun oğlu III Mənuçöhrün hakimiyyəti dövründə vəziyyət dəyişdi. Səlcuq sultanının koalision qoşunu 1121-ci ildə Trialetidəki Didqoru vuruşmasında məğlub edildikdən və IV David 1122-ci ildə Tiflisi və Dmanisini tutduqdan sonra[58] Mənuçöhr sultandan uzaqlaşdı və həmin vaxtlar çox güclənmiş Gürcüstanın tərəfinə keçdi. Şirvanşah Mənuçöhrün siyasətinin dəyişməsində, səlcuq sultanının vassalı və müttəfiqi olmaqdan imtina etməsində, görünür, şirvanşahın arvadı - əri üzərində güclü nüfuza malik olan gürcü şahzadəsi Tamar və onun əhatəsi az rol oynamamışdır. «Türklər və digər müsəlman hökmdarları Gürcüstana qarşı uğursuz mübarizə apardıqları bir vaxtda yeni şirvanşah artıq Gürcüstanın tərəfində idi. Bu səbəbdən qisas məqsədilə Gürcüstana gələn sultan Mahmud ilk öncə şirvanşahı cəzalandırmaq üçün Şirvana soxuldu»[59]. Şirvanda baş verən bu hadisələrə dair gürcü, fars və ərəb mənbələrində əks olunmuş məlumatları nəzərdən keçirək. «Kartlis tsxovreba»da deyildiyinə görə, 1123 (h. 517)-cü ildə «sultan Şirvana gəldi, şirvanşahı tutub, Şəmaxiyyə şəhərini ələ keçirdi və qasid vasitəsilə hökmdara aşağıdakı məzmunda məktub göndərdi: «Sən meşələrin şahısan və heç vaxt düzə enmirsən. Mən şirvanşahı tutmuşam və

ondan xərac tələb edirəm. İstəyirsənsə, mənə layiq hədiyyələr göndər, əgər bunu etmək istəmirsənsə, onda təcili qabağıma çıx». Buna cavab olaraq, IV David qoşun yığdı, qıpçaqların döyüş hazırlığını yoxladı və 50 minlik qoşunla Şirvana gəldi. Vuruşmada hökmdarın döyüşçüləri Arranın atabəyi Aqsuntulanın (Ağsunqur və Əhmədili - S. *A.)* başçılığı ilə sultanın köməyinə gələn 4000 nəfəri qırdı, atabəyin özü isə güclə xilas oldu. Sultan divarları arxasında gizləndiyi Şəmaxiyyədən qaçaraq, başqa yolla öz ölkəsinə qayıtdı. David isə Gürcüstana döndü». «Erməni salnaməsi» Ağsunqurun qoşununun sayını 4000-dən 3000 nəfərə endirməklə gürcü mənbəyində deyilənləri təkrar edir[60]. Birinci versiya fars və ərəb müəlliflərinin məlumatlarına zidd gəlir. XII asr anonim fars mənbəyinə görə, sultan Mahmud ibn Məhəmməd (1118-1131) h/516 (1122/3)-cı ildə Təbrizdən «Şamaxıya və Şirvana yollandı. O, abxazları [gürcüləri] qovdu, şirvanşahı isə qaladan endirib geri qayıtdı. Azərbaycanda Şəms əl-Mülkü yaxaladı və onu öldürüb başını Xorasana göndərməyi əmr etdi»[61].

İmad əd-Din əl-İsfəhaninin versiyasına görə, sultan Mahmud h. 517 (1123)-ci ildə Şirvan əmirlərinin xüsusi dəvətilə Şirvana səfərə çıxdı və məşhur şirvanşahı əsir aldı. Sultanın şirvanşahı həbs etməsi iğtişaş və çaxnaşmaya səbəb oldu. Bundan sonra sərhəd boyunca yaşayan «kafirlər» (yəni gürcülər - S. A.) hərisləşdilər və 30 min süvari qoşunla sultanın ordugahının 2 fərsəxliyində düşərgə saldılar. Ancaq allah islamın köməyinə gəldi və qarətkarları darmadağın etdi... Bütün bu hadisələr nəticəsində ölkə dağılıb viran qaldı. Əl-İsfəhani bunu Şirvanın «təxrib»i kimi təsvir edir. İşlərin qarmaqarışıq olduğunu görən Sultanın vəziri Şəms əl-Mülk Usman ibn Nizam əl-Mülkə qəzəbi tutdu və onun edam olunmasını əmr etdi. Bu, h. 517 (1123/4)-ci il rəbiüləvvəl ayının axırlarında Beyləqanda baş verdi[62].

İbn əl-Əsir bu hadisələri bir qədər başqa cür işıqlandırır: «Həmin h. 517 (1123)-ci ildə gürcülərin islam ölkəsində cinayətləri artdı. Adamlar, xüsusilə Dərbənd və Şirvan əhalisi buna çətinliklə dözürdü. Buna görə də, onların bir çox nümayəndəsi [gürcülərin] onların başına gətirdiklərindən şikayət etmək üçün sultanın yanına gəldi. Onlar sultana gücsüzlüklərindən, öz ölkələrini qoruyub saxlamaq iqtidarında olmadıqlarından danışdılar. Onda sultan Şamaxıya gəlib çatmış gürcülərə doğru hərəkət etdi və oradakı bir bağda dayandı. Gürcülər sultanın üstünə yeridi. Sultanın qoşunu onlardan bərk qorxdu və vəzir Şəms əl-Mülk Usman ibn Nizam əl-Mülk sultana geri qayıtmağı məsləhət gördü. Bunu eşidən şirvanlılar sultanın yanına gedərək dedilər: «Nə qədər ki, sən bizimləsən, biz vuruşacağıq. Əgər sən bizi qoyub getsən, müsəlmanlar ruhdan düşər və məhv olarlar». Sultan onlarla razılaşdı və yerindən tərpənmədi. Qoşunlar qarşıdakı döyüş haqqında düşünüb, gecəni çox həyəcanla keçirdilər. Lakin allah gözlənilmədən onların işini asanlaşdırdı: o, gürcülərlə qıpçaqlar arasında nifaq və düşmənçilik saldı, onlar həmin gecə öz aralarında vuruşdular, səhər isə fərari kimi qaçıb getdilər. Beləliklə, allah möminləri bu vuruşmadan qurtardı. Sultan bir xeyli

Şirvanda qaldı, sonra Həmədana yola düşdü və cəmadiyül əvvəl (iyul) ayında ora gəlib çatdı[63]. Göstərilən mənbələrdən aydın olur ki, III Mənuçöhr sultan xəzinəsinə hər il verməli olduğu 40 000 dinar xəracı ödəməkdən imtina edərək, sultana vassal asılılığından çıxmışdı. Şirvanşahın gürcü hökmdarına üz tutması sultanın onu cəzalandırmaq və qoyulmuş xəracı yığmaq üçün Şirvana yürüş etməsinə səbəb oldu. Lakin ölkənin qıpçaqlar və gürcü qoşunları tərəfindən dağıdılıb talan edilməsi, habelə səlcuqların Şirvan ərazisində apardıqları hərbi əməliyyatlar əhalidə vergi vermək iqtidarı qoymamışdı. Sultan bunun günahını öz vəziri Şəms əl-Mülkdə görərək, onun edam olunmasını əmr etdi. İbn əl-Əsir və əl-İsfəhaninin verdikləri məlumatlar daha etibarlıdır. Nə sultanın əsir aldığı şirvanşahın taleyi, nə də onun göstərilən mənbələrdə çəkilməyən adı bizə bəlli deyil. Müasir gürcü tarixşünaslığında belə bir versiya meydana gəlmişdir ki, Əfridun 1120-ci ildə öldükdən sonra III Mənuçöhrə qədər Şirvanşahlar taxtına adı mənbələrdə çəkilməyən bir hökmdar çıxmışdır[64]. Belə bir müddəanın ortaya çıxmasına səbəb saray şairi Xaqaninin III Mənuçöhrün ölümü münasibətilə yazdığı qəsidədə şirvanşahın otuz il hökmranlıq etməsini xatırlaması[65] olmuşdur. Bu halda onun hökmranlığının sonu 1149/50-ci ilə düşür. Eləcə də, Fələkinin gürcü hökmdarı I Demetrenin ölümü münasibətilə yazdığı qəsidədən məlumdur ki, Şirvanşah III Mənuçöhr 1156-cı ildə hələ sağ idi[66]. Mənuçöhrün dövrümüzədək gəlib çatmış sikkələri 1136-1160-cı illərə aiddir. Onun oğlu Axsitanın ilk sikkəsi də 1160-cı ilə aiddir[67]. «Kartlis tsxovreba»dan məlumdur ki, Mənuçöhrün arvadı Tamar əri öldükdən sonra Şirvanı tərk edərək, Tiqvidə monastır təsis etmiş və burada rahibə kimi ölmüşdür. 1161-ci ildə o, hələ sağ idi[68]. Deməli, sikkə məlumatlarına və «Kartlis tsxovreba»ya görə, Mənuçöhrün hökmranlığının sonu h. 555 (1160)-ci ilə, yəni onun ölüm ilinə düşür. Gürcü müəlliflərinin göstərilən versiyasını təsdiq edən yeni materiallar tapılana qədər bu barədə müəyyən bir şey demək olmaz. Belə ki, III Mənuçöhrə qədər on il ərzində hakimiyyət sürmüş başqa bir şirvanşahın adına heç bir mənbədə, nə XII əsr şairlərinin əsərlərində, nə də numizmatika məlumatlarında təsadüf olunmur. Xaqaninin otuz illik hökmranlıq haqqında sözləri qeyri-dəqiq, təqribi ola bilər. Belə ki, o, başqa şerlərində bəzi hadisələrə dair yuvarlaq rəqəmlər gətirir. Belə qeyri-dəqiqliyə poetik əsərlərdə yol verilir, buna görə onlara çox da inanmaq olmaz.

H. 517 (1123)-ci il yürüşündə və sultanın Şirvandan getməsindən azacıq sonra IV David səlcuq qoşunlarının burada olmasından və yerli hakimiyyətin özünümüdafiə zəifliyindən istifadə edərək, Şirvana qarşı təcavüzkar siyasətini davam etdirirdi. Həmin ilin iyununda havaların şiddətli isti keçməsinə baxmayaraq, David yenidən Şirvana soxulub, Şirvanşahların baş iqamətgahı olan Gülüstan qalasını tutdu və qoşunları ilə birlikdə böyük qənimətlə Kartliyə qayıtdı. H. 518 (1124)-ci ilin əvvəlində o, yenidən Şirvana yürüş etdi. O, əvvəlcə Şabərana növbəti basqın edərək, burada Dərbənd qoşun rəisinin başçılığı altında olan kürdləri, ləzgiləri və qıpçaqları qırdı. Həmin ilin avqustunda David sonuncu dəfə

hücum etdi. Şirvanı ilhaq etməyə cəhd göstərərək, Şəmaxiyyə şəhərini, Buğurt qalasını və onun ətrafındakı yerləri tutdu[69]. Gürcü və erməni salnamələrinin verdiyi məlumata görə, IV David Şirvanın şəhər və qalalarında Xereti və Kaxet əsgərlərindən təşkil olunmuş güclü qarnizonlar saxladı, ölkədə işlərin idarə olunmasına nəzarət etməyi özünün baş katibi olan arxiyepiskop Simon Çkondideliyə tapşırdı. Şirvanın işğalı 5 aya qədər davam etdi. Ehtimal ki, IV David elə bu vaxt öz titullarına sonralar ənənəvi olaraq varislərinin də daşıdıqları şirvanşah titulunu əlavə etmişdi. Kartliyə qayıtdıqdan sonra o, geniş hərbi ekspansiya layihələri hazırlamaq fikrinə düşdü. Lakin onları həyata keçirmək ona nəsib olmadı. Belə ki, David 1125-ci il yanvarın 25-də öldü[70]. Həmin vaxtdan XII əsrin 70-ci illərinə qədər mənbələrdə gürcülərin Şirvana yürüşləri barədə heç nə deyilmir. IV Davidin oğlu, 30 il Gürcüstanda hakimiyyət sürmüş I Demetrenin hökmdar evi ilə dinclik və dostluq münasibətləri dövrü başlandı. Davidin ölümündən sonra Mənuçöhr, ehtimal ki, elə həmin il Şirvanda hakimiyyətə qayıtmışdır. Lakin Şəki vilayəti I Demetrenin əlində qalmışdı[71]. Şirvanın öz müstəqilliyini bərpa etdiyi III Mənuçöhrün hakimiyyət zamanı Şirvanşahlar dövlətinin güclənmə və tərəqqi dövrü olub, səlcuq imperiyasının tənəzzülü ilə bir vaxta düşmüşdür. Tarix əsərlərində Şirvanşahlar dövlətinin bu dövrü haqqında məlumat yoxdur. Mənuçöhrün bu dövr fəaliyyətini işıqlandıran mənbələr şirvanşahın saray şairləri Xaqani və Fələkinin əsərləridir.

Xaqaninin III Mənuçöhrə ithaf olunmuş qəsidələrinin birində şirvanşahın qıpçaqların (ehtimal ki, IV Davidin Gürcüstanda məskunlaşdırdığı) üsyanını yatırmasından danışılır[72]. Qıpçaqlar üzərindəki bu qələbədən Fələki də bəhs edir. «Qızılla işlənib, Çin ipəyi kimi parıldayan hind qılıncınla tökülmüş qıpçaq qanını hesablayarkən, torpağın yaradıcı qüvvəsinin bitki əvəzinə qıpçaq başı yetirdiyinə təəccüblənməməlisən». Fələkinin sözlərinə görə, Mənuçöhr dikbaş qıpçaqları İraq səlcuqlarının köməyi olmadan əzmişdir. Mənuçöhr güclü hökmdar olmuş və ölkəsində sərt qayda-qanunlar qoymuşdur. Xaqani onun qonşu Arran dövləti üzərində zəfər çaldığını göstərir: «O, Arranı fəth etməklə adını bütün dünyada şöhrətləndirdi, İraqı və Suriyanı zəbt etmək üçün başqa vaxt təyin etdi»[73]. Mənuçöhr qırx il ərzində öz dövlətini xeyli möhkəmləndirmiş və ehtimal ki, Şirvanın sərhədlərini genişləndirmək məqsədilə qonşu ölkələrə yürüşlər etmişdir. Fələki Şirvani Mənuçöhrün zamanındakı tərəqqisini, ehtimal ki, 1123-1125-ci illərdəki müharibələrlə bağlı hadisələri nəzərdə tutaraq, keçmişdə hökm sürən hərc-mərcliklə müqayisə edirdi: «O, iblisin fitnə-fəsad və qalmaqal yuvası olan Şirvanı gülüzlü türk və türkmən qızları ilə bəzədi»[74]. Şirvanın və Arranın səlcuqlar tərəfindən istila olunması türk tayfalarının bu ölkələrə axınını artırdı. Həmin ölkələrdə türk qul və kənizləri ucuz qiymətə satılırdı[75].

Şirvanda Mənuçöhrün hakimiyyəti dövründə olmuş mühüm hadisələr arasında h. 532 (1137/8) -ci ildə Kür çayı üzərindəki Baqilani bəndinin (Bəndi-Baqilani) yuyulub dağılması nəticəsində baş vermiş daşqını da qeyd etmək

lazımdır. Fələki və Xaqani bu hadisəyə şer həsr etmişlər. III Mənuçöhr Baqilani bəndini daşqın təkrar baş verməsin deyə, köhnə yerində yox, çayın bir qədər yuxarısında yenidən tikdirmişdi[76]. Mənuçöhr ölkədə böyük tikinti işləri aparır, şəhərləri möhkəmləndirir, yeni şəhərlər saldırırdı.

Fələki və Xaqaninin Mənuçöhrə həsr olunmuş əsərlərində XII əsr feodal cəmiyyətinin, şirvanşah sarayının həyatı əksini tapmış, dövlət xadimlərinin, o cümlədən baş vəzir Seyyid əl-Vüzəra Camal əd-Din Əbül Nəsr Məlik Misər ibn Abdullanın adı çəkilmişdir. Fələki onun fəaliyyətini yüksək qiymətləndirmişdir. Mənuçöhrün digər vəziri Əmin əd-Din Məhəmməd ibn Əbd-əl-Cəlil-i-Əxrasi filosof, həkim, astroloq, şair və ənənəçilərə hamilik edirdi[77]. Əmir sipəhsalar - Şirvan qoşunlarının baş komandanı - Hüsam əd-Dövlə və-d-Din Əbu-Yəqub Yusif idi. Onun adı Bakı qalasındakı Cümə məscidinin bünövrəsinə qoyulmuş kufi kitabədə çəkilir[78]. Mənuçöhrün sarayında o dövrün bütün yaxın Şərqdə şöhrət tapmış, Azərbaycan şer məktəbini yaratmış görkəmli şairlər, məlik üş-şüəra - «şairlər şahı» adlandırılan Əbül-üla Gəncəvi, Xaqani, Fələki Şirvani, Mücirəddin Beyləqani toplaşmışdı[79]. Mənuçöhr filosof, şair və alimlərə hamilik edirdi. Xaqani Mənuçöhrdən saysız-hesabsız mükafatlar, hədiyyələrdən başqa hər il 30 min dirhəm məvacib alırdı. Onun malikanəsi də var idi. Mənuçöhr Şirvan dövlətinin ən mühüm vəzifələrindən birini - şirvanşahın xüsusi katibi vəzifəsini Xaqaniya həvalə etmişdi[80]. Lakin saray çəkişmələri nəticəsində Əbül-üla, Fələki Şirvani və Xaqani vətənə xəyanətdə və Mənuçöhrə qarşı qəsddə təqsirləndirilərək həbs olundular. Xaqani də digər iki şair kimi bir neçə aydan sonra azad edildi[81]. Mənuçöhrün hakimiyyətinin son illəri Xaqaninin məktublarında əksini tapmışdır. Onlarda Şirvanda vəziyyətin pisləşdiyindən danışılır. Mənuçöhrə qarşı qəsdin üstü açıldı. Dövlət çevrilişinə hazırlaşan müxalifət qrupu 60 ən tanınmış dövlət xadimini öldürməyi, 300 yüksək vəzifəli şəxsin evini dağıtmağı nəzərdə tuturdu. O cümlədən şair Xaqanini, Şirvanın siyasi həyatında böyük nüfuzu olan əmir Əsəd əd-Din Xulbaşini öldürməyə hazırlaşırdılar. Mənuçöhr dövlət çevrilişi təhlükəsini aradan qaldırdı. Bir çoxları vəzifədən götürüldü[82], həbs və sürgün edildi. Mənuçöhr h. 555 (1160)-ci ilin sonunda qəflətən öldü. Fələkinin verdiyi məlumata görə onun beş oğlu[83] olmuşdur. Lakin həmin müəllifin başqa bir əsərində şirvanşahın, ehtimal ki, Tamardan olan dörd oğlundan və iki qızından danışılır[84]. Onlar Mənuçöhrün ölümündən sonra numizmatik məlumatlardan bəlli olan Axsitan, Fərruxzad, Şahənşah, Fəridundur[85]. Baqilani bəndi tikilən ildə Mənuçöhrün qızı Alçiçək və oğlu Fəribürz xəstələnib ölmüşlər. Mənuçöhrün h. 555 (1160)-ci ildə qəfil ölümü ölkədə az müddət davam edən kəskin siyasi böhrana və təfriqəyə səbəb oldu. Sarayda hakimiyyət uğrunda mübarizə şiddətləndi. Mənuçöhrün yerini tutmuş şir ürəkli Fəridun şahzadə pusqudan atılan oxla öldürüldü. Nəticədə hakimiyyət Axsitanın əlinə keçdi[86]. Ehtimal ki, Fəridun şirvanşah Mənuçöhrün vəliəhdi olmuşdur. Fələki Şirvaninin aşağıdakı misraları da buna işarə edir.

Sənin iltifatının köməyilə iblis torpağı

Şirvan («şər» sözündən)

Fəzilət torpağı Xervana («xeyir» sözündən) çevrildi.

Bu aşkar gerçəklik bu şübhələri aradan qaldırdı[87]. Bu misralar Mənuçöhrün ölümünə az qalmış Şirvanda «iğtişaş dövrü» yarandığını göstərir.

Xaqaninin əsərlərindən aydın olur ki, Şirvandakı ixtilaflar Şirvanın özünün daxili ziddiyyətləri, sosial və siyasi vəziyyəti, dövlət başçısı şirvanşahın feodallar və əyanlarla qarşılıqlı münasibətləri ilə bağlı idi[88]. O. L. Vilçevskiyə görə, Mənuçöhrün ölümündən sonra onun dul qalmış arvadı Tamar kiçik oğlu ilə birlikdə qıpçaqlara arxalanaraq, Şirvan və Gürcüstanı birləşdirməyə çalışırdı. «Lakin Mənuçöhrün atabəy İldəgəzin qoşunu ilə Şirvana gələn böyük oğlu Axsitan anasını Gürcüstana, tərbiyə edib böyütdüyü qardaşı oğlu - gürcü hökmdarı III Georginin yanına qaçmağa məcbur etdi. Tamar burada ömrünü monastırda başa vurdu»[89].

Çox ola bilər ki, Xaqaninin Mənuçöhrün ölümü münasibətilə yazdığı mərsiyənin (Xanıkov onu səhvən Axsitana aid edir) aşağıdakı misralarında həmin hadisələrə eyham edilir:

«Ah! Sevinc Kəbəsi indi qəm yuvası oldu, çünki böyük Mənuçöhrün bütün şöhrəti onun öz günlərini başa vurmasına mane olmadı. Lakin böyük [kiliyə] öz xasiyyətləri ilə hər səhər sanki deyirdi: «Bizim şərəfimizi alçaldan adamın adı qoy dünyadan silinsin»[90]. Mənuçöhrün Tamardan başqa arvadının olub olmadığı və onun Xaqani və Fələki tərəfindən adları çəkilən oğullarının hamısının bir anadan olduqları məlum deyil. Ehtimal ki, Mənuçöhrün başqa arvadları və onlardan övladları olmuşdur.

«Kartlis tsxovreba»nın 1161-ci ilə aid ikinci şəhadəti Tamarın əri öldükdən sonra Gürcüstana gəlməsindən bəhs edir. «III Georgi (1156-1184) Anidə düşərgə salıb nəşəli üzlə onu böyüdüb ərsəyə yetirən bibisinin, məleykələr məleykəsi Tamarın pişvazına çıxdı. Tamar onu təbəssüm qarışıq göz yaşları ilə islatdı»[91]. Həmin salnamədə daha sonra belə bir müxtəsər xəbər var: «Hökmdar I Demetrenin bacısı, Taqvidəki monastırın müəssisi Tamar rahibə kimi ölmüşdür». Bizim gürcü salnaməsinin verdiyi məlumata inanmamağa heç bir əsasımız yoxdur və şirvanşah Mənuçöhrün arvadı olarkən müsəlmanlığı qəbul etmiş Şirvan məleykəsinin[92] ərinin ölümündən sonra Şirvanşahlar sarayını tərk etməyə məcbur olması faktı Şirvanda «iğtişaş dövrü» hadisələrindən xəbər verir, Mənuçöhrün oğulları hakimiyyət uğrunda mübarizə apararkən sarayda bir neçə qruplaşma fəaliyyət göstərirdi və ehtimal ki, Tamarın başçılıq etdiyi həmin qruplardan biri məğlubiyyətə uğramış, onun oğlu Axsitan isə Eldəgəzlərin köməyilə Şirvanşahlar taxtına sahib olmuşdur. Tamarın taleyini aydınlaşdırmaq üçün Xaqaninin əsərlərinə müraciət edək. Xaqani Axsitanın qələbəsi münasibətilə iki şer yazmış və həmin şerlərdə Axsitanın fəaliyyətini təriflәmişdir. Şair eyhamla başqa bir hadisədən danışır. Ehtimal ki, baş tutmayan dövlət çevrilişində Tamarla birlikdə Axsitanın qardaşlarının da əli olmuşdur. «Ana yaylığını oğlunun ayaqları altına ataraq, oğlanları üçün aman

dilədi». Xaqani hökmdarı anasına qarşı mərhəmətli olmağa və onun sözündən çıxmamağa çağırır[93]. Bu şerin yazılma tarixi məlum deyil, lakin bizcə, o, «iğtişaş dövrü» hadisələrinə, Mənuçöhrün ölümündən sonra onun oğulları arasında da hakimiyyət uğrunda mübarizə dövrünə aiddir və söhbət Axsitana müxalif çıxan Tamar və onun oğullarından gedir. Göründüyü kimi, Tamar Şirvanı məhz həmin hadisələrdən sonra tərk etmişdir. Əgər bizim mülahizəmiz yanlışdırsa, onda ehtimal ki, burada Mənuçöhrün başqa arvadından və oğullarından danışılır. Həm də, məlumat daha sonralara aiddir. Beləliklə, Mənuçöhr qırx ilə yaxın-h. 514 (1120)-cü ildən 555 (1160)-ci ilədək hakimiyyət sürmüşdür.

## ƏFRİDUN İBN III MƏNUÇÖHR

Mənuçöhr h. 555 (1160)-ci ildə öldükdən sonra Şirvanşahlar taxtına çox qısa müddətə onun oğlu Əfridun çıxmışdır. O özündən sonra nə numizmatik, nə də digər başqa bir abidə qoymamışdır. Əfridunun adına onun oğlu Fəribürzün sikkələrində öz şəcərəsini göstərən yazılarda təsadüf edilir. Yuxarıda göstərildiyi kimi, ehtimal ki, Əfridun elə həmin ildə öldürüldükdən sonra Mənuçöhrün başqa bir oğlu Axsitan Şirvan hökmdarı olmuşdur.

## I AXSİTAN İBN III MƏNUÇÖHR

Axsitanın adının yazılışı və oxunuşu uzun müddət alimlər arasında mübahisələrə səbəb olmuşdur. Xaqani və Nizaminin əsərlərinin müxtəlif əlyazmalarında onun adı Axtsan, yaxud Axtşan, yaxud da Axstan yazılmışdır. Bir sıra müəlliflər - Dorn, Xanıkov, Paxomov və başqaları onun adını müxtəlif cür oxumuşlar. Bu adın düzgün yazılışını və tələffüzünü yalnız ədəbi abidələr deyil, həm də və başlıca olaraq, numizmatik və epiqrafik məlumatlar cəlb olunmaqla aydınlaşdırmaq mümkündür. Fars əlyazmalarında göstərilən üç variantdan biri - «Axstan» Axsitanın adı çəkilən sikkə və kitabələrdə rast gəlinən formaya uyğundur. Sonra, Hadi Həsənin fikrincə, Xaqani poemasındakı Zaleman tərəfindən araşdırılan Axstan sözünün ölçüsü və adın «Kartlis tsxovreba»dakı oxunuş variantı - Axsartan - onun Axsatan kimi tələffüzünü daha düzgün hesab etməyə imkan verir[94]. Paxomovun, Zalemanın və bizim fikrimizcə isə, Xaqani şerinin vəzninə əsaslanaraq, Axsitan kimi tələffüz etmək daha doğrudur. Dornun cədvəlində bu şirvanşahın adı atasının adı ilə birləşdirilərək bir şəxs - II Mənuçöhr Axsitan kimi verilmişdir[95]. Axsitanın titullarına kitabələrdə və sikkələrdə, habelə Nizaminin «Leyli və Məcnun» poemasının altı bəndində rast gəlinir. Poemada Axsitanın adı aşağıdakı ləqəblərlə çəkilir: Cəlal əd-Dövlə və-d-Din Əbü-l-Müzəffər; Məlik əl-Müəzzəm Axsitan ibn Mənuçöhr, şirvanşah, Xaqan-i Kəbir, yaxud Əkbər[96] Axsitanın hökmranlıq illərini numizmatik dəlillərlə müəyyənləşdirmək mümkündür. Axsitanın sikkələrinin aşağıdakı dörd növü vardır[97]. Birinci növ

sikkənin üz tərəfində xəlifə əl-Müstəncid billahın [h. 555-566 (1160-1170)-cı illər] və İraq sultanı Arslan şahın [h. 555-571 (1160-1176)-ci illər] adları və həmişəki kimi dini rəmz, arxa tərəfində «əl-məlik əl-müəzzəm Axsitan bin Mənuçöhr» həkk olunmuşdur. Amerika Numizmatika Fondundakı zərbxananın adı və kəsilmə tarixi göstərilməyən mis sikkə də bu növə aiddir. Həmin sikkədə xəlifə Müstəncid [h. 555-566 (1160- 1170)-cı illər] və səlcuq sultanı Arslan şahın [h. 555- 571 (1160-1176)-ci illər] adları vardır. Üz tərəfində «əl-məlik əl-müəzzəm Axsitan ibn (Mənuçöhr) beş və əlli (xəms və xəmsin), arxa tərəfində isə «əl-Müstəncid) bi-illah əl-sultan Aslan şah» (sic) yazılmışdır[98]. İkinci növ sikkənin üz tərəfində xəlifə əl-Müstədi [h. 566-575 (1170-1180)-ci illər] və sultan III Toğrul (ibn Arslan-şahın) [h. 571-590 (1176-1194)-cı illər] adları durur. Əks tərəfində: «əl-məlik əl-müəzzəm Axsitan ibn Mənuçöhr». Üçüncü növ sikkənin üz tərəfində din rəmzi xəlifə ən Nasir-lidin Allahın [575-622 (1180-1225)-ci illər və sultan III Toğrulun [h. 571-590 (1176-1194)-cı illər] və sultan II Toğrulun [h. 571-590 (1176-1194)-cı əl-müəzzəm Axsitan ibn Mənuçöhr». Dördüncü növ sikkənin üz tərəfində din rəmzi, xəlifə ən-Nasir-lidin Allahın [h. 575-622 (1180-1225)-ci illər] yerləşdirilmişdir. Sultanın adı yoxdur. Əks tərəfdə din rəmzi və «əl Məlik əl-müəzzəm Axsitan ibn Mənuçöhr Şirvanşah»[99]. Bu gümüş sikkə sayıla bilən sonuncu şirvanşah sikkələridir, belə ki, onların tərkibi azacıq gümüş qatılmış misdən ibarətdir. Həmin sikkələr şirvanşahın İraq səlcuq sultanlarından asılı olduğunu göstərir. Lakin sonuncu növ sikkədə Axsitanın «məlik əl-müəzzəm titulu ilə yanaşı, ilk dəfə «şirvanşah» sözünün əlavə edilməsi və sultanın adının olmaması şirvanşahın müstəqilliyini və Səlcuqilərin vassallığını qəbul etmədiyini göstərir ki, bu da Səlcuqilər dövlətinin tənəzzülə uğraması və Şirvanşahlar dövlətinin güclənməsi ilə bağlı idi.

Axsitanın sikkələrini araşdıraraq onun hökmranlıq illərini təqribən müəyyənləşdirmək olar. Belə ki, xəlifə əl-Müstəncid h. 555-566 (1160-1170)-cı illərdə, II Arslanşah ibnToğrul isə h.555-571 (1160-1176)-ci illərdə hakimiyyət sürdüyündən birinci növə məxsus sikkələrdə h.555-566 (1160-1170)-cı illər arasında zərb olunmuşdur. Lakin Amerika numizmatika cəmiyyətindəki birinci növə aid sikkədə - Sankt-Peterburq Ermitajında bir neçə belə sikkə olduğundan o nadir tapıntı sayılmır - əlli beş (xəms və xəmsin) yəni h. 555 (1160)-ci il tarixi göstərilmişdir. Deməli, həmin sikkə, şəksiz, Axsitanın III Mənuçöhrün öldüyü ildə Şirvanşah taxtına çıxarkən kəsdirdiyi ilk sikkədir. Sonra, Xəlifə əl-Müstadi h. 566-575 (1170-1180)-ci illərdə, sultan III Toğrul isə h. 571-590 (1176-1194)-cı illərdə hökmranlıq etmişlər. Deməli, ikinci növə aid sikkələr h. 571-575 (1176-1180)-ci illər arasında zərb edilmişdir. Üçüncüsü, xəlifə ən-Nasir-lidin Allah h. 575-622 (1180-1225)-ci illərdə, sultan III Toğrul isə h. 571-590 (1176-1194)-cı illərdə hakimiyyətdə olduqlarından üçüncü növ sikkələr h. 575-590 (1180-1194)-cı illər arasında kəsilmişdir. Dördüncüsü, sultan III Toğrul h. 590 (1194)-cı ildə öldüyündən və ondan sonra İraq səlcuqları əvəzinə Xarəzmşahlar hökmranlıq

etməyə başladığından üzərində xəlifənin adı olub, sultan Toğrulun isə adı çəkilməyən dördüncü növ sikkələr h. 590 (1194)-cı ildən sonra kəsilməli idi. Mənuçöhrün h. 555 (1160)-ci ildə öldüyünü və Axsitanın ilk sikkəsinin h. 555 (1160)-ci ildə zərb edildiyini nəzərə alsaq, onda Axsitanın hakimiyyətə başlaması h. 555 (1160)-ci ilə düşür. Axsitanın zərb etdirdiyi son sikkələr h. 590 (1194)-cı ildən sonraya aiddir. Axsitanın ölüm tarixi nə mənbələrdə, nə də numizmatik məlumatlarda göstərilmir. Hadi Həsənin Xaqani yaradıcılığına dair araşdırmaları göstərir ki, şair Axsitanın ölümünə mərsiyə yazmamışdır[100]. Bundan belə çıxır ki, guya Axsitan Xaqanidən çox yaşamışdır. Məlumdur ki, Xaqani h. 595-ci ilin şəvval ayında (iyul. 1199), son illərini tənha keçirdiyi Təbrizdə ölmüşdür[101]. Saray həyatına nifrət bəsləyən Xaqani saraya qayıtmaq haqqında Axsitanın təkliflərini dəfələrlə rədd etmişdir. Ola bilər ki, Xaqani xəstə olduğundan Axsitanın ölümünə mərsiyə yaza bilməmiş, yaxud münasibətləri pis olduğundan yazmaq istəməmiş, yaxud da ki, yazdığı əsər hələlik tapılmamışdır. Epiqrafik və ədəbi faktlar da I Axsitanın hakimiyyət dövrünün və onun davamiyyətinin aydınlaşdırılmasına yardım göstərir. Axsitan atası III Mənuçöhr kimi uzun müddət hakimiyyət sürmüşdür. Abşeron yarımadasındakı Mərdəkan kəndində iki daş üzərində həkk olunmuş natamam kitabədə* deyilir: «... islamın müdrik hökmdarı Mənuçöhr oğlu şirvanşah Axsitan... hicri üçüncü (və) səksəninci (və) beş yüzüncü ildə» [h. 583 (1187/8)-cü il][102]. Göründüyü kimi, Axsitan h. 583 (1187/8)-cü ildə, habelə h. 584 (1188)-cü ildə sağ idi, belə ki, Nizami h. 584-cü il rəcəb ayının 30-da (24 sentyabr, 1188) tamamladığı «Leyli və Məcnun» poemasını I Axsitana ithaf etmişdi[103]. XIII əsrin əvvəlinə aid mənbədə 1192-ci ildə Şamaxıda dəhşətli zəlzələ olduğu xəbər verilir. Bu zəlzələdə Axsitanın da ailəsi həlak olmuşdu. Lakin Axsitan bu vaxt öz kürəkəni eldəgəz Əmir Əmiran Ömərlə birlikdə Beyləqanda imiş. Deməli, Axsitan o vaxt sağ olmuş və ehtimal ki, bundan sonra bir neçə il də yaşamışdır. Həmin mənbədə şirvanşah Axsitanın 1195-ci ildə atabəy Əbu Bəkrə qarşı Şəmkir vuruşmasında iştirak etdiyi göstərilir[104]. Axsitan Şəmkir vuruşmasından sonra bir il, yaxud ondan bir az çox yaşamışdır. Onun ölümü Nizaminin, Bertelsin fikrincə, 1196-cı ilin iyulundan, yəni h. 593-cü ildən sonra yazılmış «Şərəfnamə» poemasında xatırlanır.

Axsitanın gülü və sərvi solsa da,
Sən bu gülüstanın yaşıl budağısan.
O, məni nemətlə ucaltmışdısa,
Sən məni torpaqdan göylərə qaldırdın.
Məni ondan da behtər və uca tutub,
Bağın qapısını üzümə bağlamadın[105].
(sətri tərcümə)

* Kitabəni 1853-cü ildə N. Xanıkov aşkara çıxarıb Peterburqa göndərmişdir. Dövlət Ermitajında saxlanılır.

Şair bu şerdə Axsitanın varisinin adını çəkmir. Poemanın yazıldığı tarix-h. 593 (1196/7)-cü il ehtimal ki, Axsitanın ölüm tarixini göstərir və burada istinad olunan materiallarla ziddiyyət təşkil etmir.

I Axsitanın hökmranlıq illəri Şirvan dövlətinin iqtisadiyyatının böyük yüksəlişi, şəhərlərinin çiçəklənməsi, sənətkarlığın və ticarətin inkişaf dövrü kimi qeyd edilir. Həmin dövr ölkədə nisbi əmin-amanlıq, Axsitanın anası Şahbanu Tamar vasitəsilə qohum olduğu qonşu Gürcüstanla sülh və müttəfiqlik münasibətləri dövrü idi. Vassallıq vəziyyəti ilə bir araya sığmayan bu dostluq və müttəfiqlik münasibətləri Xaqaninin əsərlərində, xüsusilə onun bu yaxınlarda Təbrizdə dərc olunmuş məktublarında əksini tapmışdır. Xaqani h. 571 (1176)-ci ilin şəvval ayınadək Şamaxıda olmuş, Şirvanın mədəni və ədəbi həyatında fəal iştirak etmişdir[106]. Xaqaninin bu yaxınlarda tapılmış məktublarından birində Axsitanın siyasi fəaliyyəti açılıb göstərilir. Həmin məktub Xaqani Şirvanı tərk etdikdən sonra səfərə çıxan şirvanşah Cəlal əd-Din Axsitanın Akuran Kurandan (Gürcüstanla sərhəddə, Şəki yaxınlığında kənd) yazdığı məktuba Xaqaninin cavabı idi. Xaqani xəbər verir ki, şirvanşahın Şəkidən Abxaza (Gürcüstana) doğru hərəkət etdiyini eşitmişdir. Abxazda olan Axsitanın məktubuna cavab olan ikinci məktubdan aydınlaşır ki, Axsitan oraya gürcü hökmdarı III Georginin hakimiyyətindən narazı olan və onu taxtdan salmaq istəyən feodal və əyanları, qiyam qaldırmış şahzadə Dyomnanı sakitləşdirmək üçün getmişdir. Axsitan Gürcüstana seçmə Şirvan qoşunu ilə getmiş və göründüyü kimi, gürcü hökmdarının sarayında qayda-qanunu bərpa etməklə, Baqratilər dövlətini süquta uğramaqdan xilas etmək üçün təkcə güc deyil, həm də diplomatiya işlətməli olmuşdu[107]. Axsitan I Demetrenin Gürcüstanda hakimiyyəti dövründə Şəki «kafirlərinin, ehtimal ki, xristian əhalinin köməyilə gürcü hökmdarı tərəfindən işğal olunmuş Şəkiyə getdi»[108]. Lakin, məktubdan göründüyü kimi, Axsitanın hakimiyyəti dövründə Şəki yenidən Şirvan dövlətinin tərkibinə daxil edilmişdi. Beləliklə, Axsitanın h. 569 (1173/4)-cu ilin sonunda Gürcüstana yürüşü mükəmməl hazırlanmışdı. O, seçmə qoşunu ilə bir həftə Akuran Kuranda dayandıqdan sonra, Şəkinin cənubundan Abxaza yollandı. Burada onun cəsur döyüşçüləri güclü zərbə ilə qiyamçıları məğlubiyyətə uğratdı[109]. Axsitan qoşunla Gürcüstana ölkəni işğal etmək deyil, bir müttəfiq kimi, qohumu hökmdar III Georgiyə taxt-tacını saxlamaqda kömək etmək məqsədilə getmişdi. III Georginin bacısı qızı İsmət əd-Din Axsitanın arvadı idi. Axsitan qonşuları ilə münasibətdə çox ağıllı və ehtiyatlı siyasət yeridirdi. O, İraq səlcuqilərinin daha güclü olduğunu görüb, ona xərac verir və zərb etdirdiyi sikkələrdə səlcuq sultanlarının da adını çəkirdi. Lakin bu vassallıq formal xarakter daşıyırdı və Şirvanşahlar XII əsrin ikinci rübündən monqol basqınlarına qədər güclü mərkəzləşdirilmiş dövlətin tam səlahiyyətli və müstəqil hökmdarları olmuşlar. Axsitan kimi, sonrakı Şirvanşahlar da öz dövlətlərinin müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə böyük əhəmiyyət verirdilər. Mənuçöhr, Axsitan və onların varisləri dövründə Şirvanda, Şamaxıda, Bakıda və

Abşeronda dövrümüzədək gəlib çatmış bir sıra qala, qəsr, divar və qala istehkamları tikilmişdir. Hələ Məzyədilərin Şirvanın qədim torpaqlarından saydıqları Dərbəndə gəlincə, Axsitan onu öz nüfuzuna tabe etdirmək məqsədilə gürcü hökmdarı I Demetrenin (1125-1156)[110] kürəkəni olan Dərbənd əmiri Əbül Müzəffər Seyf əd-Dinin qızı və əmir Bəybarsın bacısına evlənmişdi. Beləliklə, I Axsitanın arvadı İsmət əd-Din Səfvət əd-Din Səfvət əl-İslam Axsitanın dayısı qızı (anasının qardaşı I Demetrenin qızı) və gürcü hökmdarı III Georginin bacısı qızı (Axsitanın dayısı oğlu III Georginin bacısı qızı) idi. Bu nikahla Axsitan həm Dərbənd hakimləri, həm də gürcü hökmdar evi ilə qohumluq və müttəfiqlik münasibətləri yaratmışdı. Bununla Dərbəndin və Gürcüstanın Şirvana qarşı daim mövcud olan, hücum təhlükəsi aradan qaldırıldı. Habelə, Axsitanın Dərbənd arxasındakı Dəşt-i Qıpçaq çöllərində və Gürcüstanda yaşayan və Şirvana düşmən münasibət bəsləyən qıpçaqlar üzərində nüfuzu möhkəmləndi. Şirvanşahlarla Eldəgəzlər arasındakı qarşılıqlı münasibətlərə dair daha sonrakı - XVI əsr mənbələrində məlumat verilir. Həmin mənbələrdə göstərilir ki, «Səlcuqi II Toğrulun qardaşı sultan Məsud (h.529-547 (1134-1152)-ci illər] Atabəy Şəms əd-Din Eldəgəzi [h. 531-571 (1136- 1175)-ci illər] qoşunun bir hissəsi ilə Arrana göndərdi və o, qısa müddətdə Arran, Gəncə, Şirvan və Bakını bütövlükdə zəbt etdi...»[111]. Lakin Hadi Həsən X. F. Əhmədrozun əsərinə istinad edərək Eldəgəzin nə vaxtsa şirvanşaha qarşı çıxıb, onun ərazisini tutduğuna şübhə ilə yanaşır. Ehtimal ki, Eldəgəz və sonralar Qızıl Arslan Şirvanı həqiqətən tutmuşlar. Lakin bu, Eldəgəzin gürcülər üzərinə məlum hərbi səfərlərində gürcü qoşunlarını darmadağın edərək, Qafqaz ölkələrini işğal etdiyi vaxtlar olmuşdur[112]. Gürcü hökmdarları o vaxtlar Zaqafqaziyanın nüfuzlu və güclü dövlətlərindən olan Şirvan dövləti ilə müttəfiq olmaqda maraqlı idilər. Belə ki, onlar Şirvanşahların simasında XII əsrdə dəfələrlə Gürcüstana hücum etmiş Səlcuqilər və Atabəylərlə uzunmüddətli mübarizələrində özlərinə istinadgah axtarırdılar. Bu mürəkkəb xarici siyasi vəziyyətdə Axsitan dayısı oğlu və arvadının dayısı olan gürcü hökmdarı III Georgiyə həlledici yardım göstərdi. «Kartlis tsxovreba»da I Axsitanın gürcü hökmdar evi ilə əlaqələri əksini tapmışdır. Gürcü salnaməsi xəbər verir ki, «Movakanın, Şirvanın və Dərbənddən Xalxala qədər dəniz sahilinin hökmdarı Aqsartan (Axsitan S. A.) Georgiyə (1156-1184) oğul münasibəti bəsləyirdi. Çünki o, böyük hökmdar Davidin bu ölkələrə ərə verdiyi bibisi Tamarın oğlu idi. Dərbənd xəzərləri bu şirvanşahı sıxışdırmağa başlayanda, o, kömək üçün hökmdara müraciət etdi, hökmdar Lix dağlarının hər iki tərəfindən qoşun topladı, yunan imperatorunun qardaşı Androniki də özü ilə götürüb, Dərbənd qapısından keçərək Müşkür, Şarabama (Şəbəran S. A.) mahallarını viran etdi və Şaburan (Şəbəran) şəhərini aldı. Hökmdar şəhərin qapıları qarşısında olarkən Andronik onun və bütün qoşunun diqqətini cəlb etdi. Georgi şəhəri dayısı oğlu şirvanşaha verdi[113]. Bu məlumata görə, şirvanşah Axsitan həmin vaxt Şərqi Gürcüstan sərhədindəki Xalxala qədər Dərbənd Qafqaz dağlarında yerləşən Qəbələ ilə həmsərhəd olan

Mavakan, yaxud Muğan da daxil olmaqla böyük əraziyə sahib idi[114]. Bu vaxt Bizans imperatorunun qardaşı, III Georginin bibisi oğlu və Axsitanın xalası oğlu Andronik Komnen arvadı və uşaqları ilə Şirvanla Gürcüstan sərhəddində qonad idi[115]. Onlar Axsitanla birlikdə Şirvan-Gürcüstan qoşununun başında duraraq, rusların və qıpçaqların Şirvana basqınının dəf olunmasında fəal iştirak etdilər. Gürcü salnaməçisi bu müharibədə Axsitanın və Şirvan qoşununun həlledici rolunun üstündən sükutla keçərək, qələbəni bütövlükdə Georginin və Andronikin igidliyi ilə bağlayır. Həmin hadisələr Xaqaninin I Axsitana həsr olunmuş və onun qələbəsini tərənnüm edən üç mədhiyyəsində də əksini tapmışdır. Həmin şerlərdə Xaqani Volqadan keçib gələn rus dəniz quldurlarının basqınından danışaraq deyir ki, onlar 73 gəmi ilə Ruinas (Sarı?) adasına yaxınlaşıb, lövbər saldılar, sonra Kür çayı ilə üzüyuxarı qalxaraq, Ləmbərana gəlib çıxdılar. Eyni vaxtda, qıpçaqlar Dərbəndi ələ keçirdilər və cənubdan irəliləyərək Şəbəran qalasını tutdular[116]. Zavallı Axsitan, göründüyü kimi, kömək üçün III Georgiyə müraciət etmişdir. Gürcü Şirvan qoşunları ilə birlikdə işğalçıları məğlubiyyətə uğradaraq Şirvandan qovmuş, donanmalarını isə məhv etmişdilər. Qıpçaqlar da məğlub edildilər. Axsitan Dərbəndi və Şəbəranı geri aldı və onlar yenidən şirvanşahın torpaqlarına daxil oldular[117]. Həmin mədhiyyələrinin birində Xaqani deyir:

Böyük xaqanimız Əbülmüzəffər,
Zəfərçalanların önündə gedər.
Xəzran ordusuna qələbə çalmış,
Boynuna Xizəran kəməndi salmış...
Göylər qılıncına göstərdi məldəd,
Fəth oldu əliylə Şəbəran, Dərbənd[118].

Şirvana edilən bu basqın Axsitanın hakimiyyət dövrünün mühüm hadisələrindən biri olub, h. 570 (1174/5)-ci ildə baş vermişdir[119]. Axsitanın gürcü xanədan evi ilə əlaqələri sonralar da davam etmişdir. Xaqaninin Təbrizdən gürcü hökmdarına göndərdiyi məktubdan aydın olur ki, III Georgi h. 573 (1177/8)-cü ilin əvvəlində Şamaxıda Axsitanın sarayında qonaq olmuş, burada dostluq haqqında müqavilə imzalayıb Gürcüstana qayıtmışdır[120]. III Georgi 1184-cü ildə öldükdən sonra Axsitan onun hakimiyyətə keçmiş qızı Tamarla qohumluq və müttəfiqlik münasibətlərini davam etdirirdi. «Kartlis tsxovreba»da yazıldığına görə Tamar birinci əri rus knyazı Georgidən boşandıqdan sonra, təqr. h. 582 (1187)-ci ildə onunla evlənmək istəyənlər arasında «ona dəlicəsinə vurulmuş şirvanşah Axsartan» da elçi gəlmişdi. Lakin Tamar bu təklifi rədd etdi və tezliklə gənc osetin knyazı David Soslana ərə getdi»[121]. Axsitan bu vaxtlar artıq cavan deyildi, ehtimal ki, yaşı 60-ı keçmişdi.

Axsitanın dörd qızı və iki oğlu olmuşdur. Xaqani Axsitanın Gürcüstana səfəri zamanı ona yazdığı məktubda Şirvanşahın körpə oğlu «Məlik Fəxr əd-Dünya və-d-Din oğlu məlik Əbül-Fəth Məhəmməd şah»ın adını çəkir[122]. Xaqani Şirvanın vəliəhdinin tərbiyəçisi və müəllimi olmuşdur. Axsitanın bu oğlu uşaq ikən, h. 571

(1176)-ci il şəvval ayının axırlarında Şirvanda ölmüşdü[123]. Axsitanın arvadı təqribən h. 572 (1176)-ci ilin axırında, yaxud 573 (1177)-cü ilin əvvəlində bir oğlan da doğmuşdu. Bu, Nizaminin «Leyli və Məcnun» poemasında oğlu Məhəmmədi etibar etdiyi vəliəhd idi. O vaxtlar Mənuçöhr adlanan şahzadənin təqribən 11-12, Nizaminin oğlunun isə 14 yaşı vardı. H. 571 (1176)-ci ildən Təbrizdə yaşayan Xaqani oğlu olması münasibətilə Şamaxıya məktub yazaraq, Axsitanı təbrik etmiş, o isə əvəzində şairə hədiyyələr göndərmişdi[124]. Hakimiyyətinin ilk on ilində nikahla Dərbənd əmiri və gürcü hökmdarı ilə münasibətlərini qaydaya salan Axsitan səylərini Səlcuqilər və Eldəgəzlərlə yaxınlaşmağa yönəltdi. Şirvanşah öz siyasətində onun taxta oturmasına kömək göstərmiş Eldəgəzlərə arxalanırdı. Atabəy və sultan Qızıl Arslan h. 587 (1191)-ci ildə ismaililər tərəfindən öldürüldükdən sonra onun qardaşı uşaqları, Cahan Pəhləvanın oğlanları arasında hakimiyyət uğrunda mübarizə başladı. Bunun nəticəsində ölkə onların arasında aşağıdakı şəkildə bölüşdürüldü: Əbu Bəkr Azərbaycan və Arranı, Özbək Həmədanı idarə etməyə başladılar. Rey, İsfahan və İraqın qalan hissəsi Qutluq İnanc Mahmuda və Əmir Əmirən Ömərə çatdı. Sonuncular Naxçıvanda olan Əbu Bəkrə qarşı çıxdılar, lakin məğlubiyyətə uğradılar[125]. Əmir Əmiran Ömər Şirvana qaçdı. «Burada şirvanşah [Axsitan] onu qarşılayaraq ehtiram göstərdi, qızını ona ərə verdi, ona pul, yüzə yaxın at, silah və lazım olan hər şey bağışladı». Bundan sonra şirvanşah kürəkəni Əmir Əmiran Ömərlə Əbu Bəkrin üstünə yeridi, lakin onlar Beyləqan yaxınlığında məğlubiyyətə uğradılar və Əbu Bəkr onları Arrandan qovub çıxardı. Bu hadisələrdən sonra təqribən 1192-ci ildə şirvanşaha və onun ailəsinə bədbəxtlik üz verdi. Gürcü salnaməsi xəbər verir: «Şirvanşah və Əmir Mirman çarəsiz vəziyyətə düşdülər. Belə ki, Şirvan ölkəsi o vaxt allahın qəzəbinə düçar oldu: yerin silkələnməsindən Şəmaxiyyə şəhərinin divarları və qalaları uçulub dağıldı, hər şey məhv oldu, eləcə də, Şirvanşahın arvadı və uşaqları həlak oldular. Onlar bundan xəbər tutduqda ağlayıb başlarına kül sovurdular, ətraflarına baxdıqda allahdan başqa bir köməkçi və xilaskar görmədilər»[126].

Şamaxını bərk dağıdan bu zəlzələdən çoxlu adam, o, cümlədən Şirvanşahın ailəsi, onun arvadı İsmət əd-Din, oğlu və vəliəhdi Mənuçöhr, qızı - Əmir Əmiran Ömərin arvadı və digər qızları həlak oldu. Bu fəlakət nəticəsində Axsitandan sonra Şirvanı onun, ehtimal ki, əyalət hakimləri olan qardaşları idarə etməyə başladılar. Ehtimal ki, Şirvanın paytaxtı Şamaxı dağıldıqdan sonra şirvanşah öz iqamətgahını Xəzər dənizində rahat liman, yaxşı möhkəmləndirilmiş, iki cərgə qala divarları ilə dövrələnmiş şəhər müdafiə istehkamları sırasında Qız qalası olan Bakıya köçürmüşdü. Xaqaninin şirvanşah Axsitanı mədh edən məşhur qəsidəsində Bakının əhəmiyyəti qeyd edilir:

Bakı duasını unutmaz bir an,
Olub sayəsində Bəstam, Xavəran[127].

Xaqani Bakıdan yenilməz qala, Şərqin mühüm şəhərlərindən biri kimi

danışaraq, onu Xorasanın çox yaxşı möhkəmləndirilmiş şəhəri Bəstanla müqayisə edir. Şirvanşahın iqamətgahının Abşerondan Bakıya köçürülməsilə əlaqədar burada XII əsrin sonlarından müdafiə qalaları və bürcləri tikilməyə başladı.

Şirvanın paytaxtı Şamaxı dağıldıqdan və Əbu Bəkrlə müharibədə məğlub edildikdən sonra şirvanşah Axsitan və Əmir Əmiran Ömər III Georginin qızı hökmdar Tamardan yardım istəmək məqsədilə Tiflisə gəldilər.

Gürcü mənbəyinə görə, şirvanşah Tamarın azyaşlı qızı Rusudanı Eldəgəz Əmir Əmiran Ömərə almaq üçün elçilik etmiş, lakin rədd cavabı almışdı. Lakin Tamar Eldəgəzi və qohumu Axsitanı yaxşı qarşılamış, onlara hörmət göstərmiş və Əbu Bəkrə qarşı birgə mübarizə aparmaq təklifləri ilə razılaşmışdı. «Bu vaxt hökmdar Təmarın bütün vəzirləri və sərkərdələri onun hüzuruna yığıldı, şirvanşah da zahir oldu. Onlar düşməni qarşılamaq qərarına gəldilər, buna görə də qoşun yığmaq üçün bütün vilayətlərə [əmr] göndərdilər»[128]. Arran qoşunlarının bir dəstəsi də şirvanşaha və onun döyüşçülərinə qoşuldu. Bir türkmən dəstəsi də toplanıb onun sərəncamına gəldi. Birləşmiş Şirvan-gürcü qoşunları Şəmkir vilayətinə daxil oldular və 1195-ci il iyulun 1-də Şəmkir şəhərinin həndəvərində baş verən vuruşmada Əbu Bəkrin qoşunları məğlubiyyətə uğradıldı, o özü isə çətinliklə yaxasını qurtarıb Beyləqana qaçdı. Səhərisi şəmkirlilər gəlib şəhərin açarını təqdim etdilər. Müttəfiq qoşunlar atabəylə müharibəni davam etdirərək, Arran və Azərbaycanın bir sıra şəhər və qalalarını tutdular, habelə çoxlu qənimət və əsir götürdülər. Bu hadisələrdən sonra Axsitan öz qoşunları ilə Şirvana qayıtdı. Əmir Əmiran Ömər isə Gəncəyə daxil oldu, lakin 22 gündən sonra öldü[129].

Axsitanın ömrünün sonunadək, görünür, başqa əhəmiyyətli bir hadisə olmamışdır. Axsitan uzun ömr sürmüşdür. Axsitanın otuz yeddi illik hökmranlığı dövründə apardığı daxili və xarici siyasət, ölkədə dövlətin mərkəzləşdirilməsinin gücləndirilməsi nəticəsində Şirvanşahlar dövlətinin siyasi, iqtisadi və mədəni həyatının inkişafı üçün əlverişli şərait yaranmışdı. XII əsrdə Şirvanın sosial və mənəvi həyatının dirçəlməsi cəmiyyətin bütün əvvəlki inkişafından doğan tarixi qanunauyğunluğun nəticəsi idi. Alim, filosof və şairlərə hamilik edən Axsitanın hakimiyyəti dövründə poeziya yüksək inkişaf səviyyəsinə çatdı. Atası III Mənuçöhrün vaxtında olduğu kimi, şirvanşahın sarayında Azərbaycan şer məktəbini yaradan bütöv bir görkəmli şairlər dəstəsi toplaşmışdı. Onların arasında bir sıra gözəl əsərlər yaratmış Xaqani öz istedadı ilə seçilirdi. Həmin dövrdə başqa bir dahi şair - 1188-ci ildə Axsitanın sifarişilə «Leyli və Məcnun» poemasını yazmış Nizami bütün Yaxın Şərqdə şöhrət qazanmışdı[130]. III Mənuçöhr və onun oğlu Axsitanın hakimiyyəti dövründə ərəb mənşəli Şirvanşahlar sülaləsində Sasani ənənələri xeyli güclənir, iranlaşma Şirvanşahlar dövləti hökmdarlarının və saray əyanlarının mədəni həyatının bütün sahələrinə sirayət edirdi.

## ŞİRVANŞAH ŞAHƏNŞAH

Şamaxıda zəlzələ[131] vaxtı I Axsitanın arvadı və uşaqları həlak olduğundan, şirvanşahın özü təqribən 1196/7-ci ildə öldükdə varisi qalmadığı üçün taxta onun qardaşı I Şahənşah ibn III Mənuçöhr çıxdı. Bu şirvanşahın hakimiyyəti dövründə onun adından zərb edilmiş sikkələrdən başqa bir abidə qalmamışdır. Şamaxı rayonundakı Altıağac kəndindən iki dəfinə tapılmışdır: Bir hissəsi Ermitajda saxlanılan[132] birinci dəfinə XII-XIII əsrlərə aid 346 sikkədən və 8 bilərzikdən, yarıdan çox hissəsi Bakıda Azərbaycan Tarixi Muzeyində saxlanılan[133] ikinci dəfinə isə 100 sikkədən ibarətdir. Bu iki dəfinədə şirvanşah Şahənşahın adından zərb edilmiş azacıq gümüş qarışığı olan mis sikkələr də aşkar olunmuşdur. Üz tərəfində dini rəmz və xəlifə Nasir-lidin - Allahın adı, habelə Qurandan parçalar (9,33 və 61,9-cu surələr), əks tərəfində isə «Məhəmməd rəsulillah, əl-məlik əl-müəzzəm, Şahənşah, ibn Mənuçöhr şirvanşah» sözləri həkk olunmuşdur[134]. Sikkələrin kəsildiyi tarix xəlifə ən-Nasirin hakimiyyət dövrü ilə h. 575-622 [1180-1225)-ci illə müəyyənləşdirilir. Ermitajda 7675-ci nömrə ilə saxlanılan sikkələrin birinin üz tərəfində «Əl-məlik əl-müəzzəm Şahənşah ibn Mənuçöhr şirvanşah» sözləri vardır. Sikkənin qırıqlarında «beş yüz doxsan yeddi» tarixi oxunur (h. 597/1201-ci il). Əks tərəfində isə müsəlman dini rəmzi və xəlifə ən-Nasirin adı həkk olunmuşdur[135]. Şahənşah, ehtimal ki, 4 il - 1196/7-ci illə (şərti olaraq, I Axsitanın öldüyü il) Şahənşahın qardaşı oğlu II Əfridunun oğlu III Fəribürzün hakimiyyətə keçdiyi 1200/1-ci il arasında hakimiyyət sürmüşdür. Şirvanşah Şahənşah III Mənuçöhrün oğlu və I Axsitanın qardaşı idi. Ehtimal ki, Axsitanın ölümündən sonra Şirvanşah taxtında I Axsitanın digər qardaşı I Fərruxzad ibn III Mənuçöhrün nəsli möhkəmlənənə qədər hakimiyyət uğrunda daxili çəkişmələr getmişdir[136]. I Axsitanın bilavasitə varisi Şahənşah idi. Belə ki, Y. A. Paxomov I Axsitan və Şahənşahın sikkələrinin kimyəvi təhlili əsasında Şahənşahın hakimiyyətə başlaması ilə I Axsitanın hökmranlığının sonunun vaxt etibarilə yaxın olduğu qənaətinə gəlmişdir[137]. Şahənşahın sikkələrində yalnız xəlifə ən-Nasirin adı vardır. «Məlik əl-müəzzəm» ləqəbi və şirvanşah titulu şirvanşahın XII əsrin sonu XIII əsrin əvvəllərində müstəqil olduğunu göstərir. Şahənşahın hökmranlığı uzun sürməmiş və özündən sonra sikkələrdən başqa heç bir abidəsi qalmamışdır. O, I Axsitanın şirvanşah taxtına göz dikən, ehtimal ki, artıq ahıl yaşlarında olan qardaşlarının taxtda bir-birini tez-tez əvəz etdikləri hərc-mərclik dövründə yaşamışdır[138]. I Axsitanın ölümündən keçən qısa müddət-təqribən 8 il ərzində Şahənşah, II Fəribürz və Fərruxzad hökmranlıq etmiş, bundan sonra hakimiyyət atadan oğula keçməyə başlamışdır. Ehtimal ki, D. Kuymcan kimi, Z. M. Bünyadov da ölkənin feodal pərakəndəliyi şəraitində qısa müddət ərzində- 1196/7-ci ildən 1204-cü ilədək Şirvanın ayrı-ayrı şəhər və vilayətlərində - Şamaxıda, Dərbənddə, yaxud Bakıda, Şəki və Qəbələdə[139] Axsitanın qardaşları Şahənşah, Fərruxzad və qardaşı oğlu II Fəribürzün eyni vaxtda hakimiyyət sürə bilməsinə dair

mülahizələrində haqlıdır.

## II FƏRİBÜRZ İBN II ƏFRİDUN

II Fəribürz ibn II Əfridunun hakimiyyət dövründən - Dorna məlum olmayan bu şirvanşahın mövcudluğunu qəti təsdiq edən sikkələr qalmışdır. Sikkənin üz tərəfində ənənəvi dini rəmz və xəlifə ən-Nasir-lidin Allahın [h. 575-622 (1180-1225)-ci illər] adı, əks tərəfində isə «əl-məlik, əl-adil Cəlal əd-Dünya və-d-Din Fəribürz ibn Əfridun ibn Mənuçöhr, şirvanşah sözləri həkk olunmuşdur». Şirvanşahın adında sülalənin ən görkəmli nümayəndələrindən sayılan, sonralar tarixçilərin adına «böyük» təşbehi qoşduqları III Mənuçöhrün nəslindən olmasının qeyd edilməsi nəzərə çarpır. Mənuçöhrün ölümündən sonra gələn bütün şirvanşahlar öz sikkələrində onun nəslindən olduqlarını göstərməyə başlamışlar, II Fəribürzün sikkələrində dəbdəbəli əl-adil, Cəlal əd-Dünya və-d-Din ləqəblərinin və şirvanşah titulunun peyda olması sonuncu səlcuq sultanları ilə Eldəgəzlər arasında müharibələr getdiyi XII əsrin 90-cı illərində şirvanşahın müstəqil olduğunu göstərir[140]. XII əsrin 40-cı illərində Azərbaycanda yeni güclü Eldəgəz atabəyləri sülaləsi bərqərar oldu. Qızıl Arslanla [h.582-587 (1187-1191)-ci illər] mübarizə aparan sonuncu səlcuq hökmdarı III Toğrul [h. 571-590 (1176-1194)-cı illər] 1194-cü ildə xarəzmşah Təkişlə [h. 567-596 (1172-1200)-cı illər] vuruşmada öldürüldü. Eldəgəz Qızıl Arslan h. 587 (1191)-ci ildə ismaililər tərəfindən öldürüldükdən sonra onun qardaşı oğlanları arasında ara müharibələri başlandı. Bu müharibələrdə Səlcuqilər və Eldəgəzlərlə mübarizə aparan gürcü hökmdarları da iştirak edirdi[141]. Görünür, Şirvanşahlar bu dövrdə xarici siyasi hadisələrdən və qohumluq münasibətlərində olduqları gürcü hökmdarları ilə ittifaqdan istifadə edərək, istər səlcuq sultanlarının, istərsə də Eldəgəzlərin vassalı olmaqdan boyun qaçırırdılar. Ona görədə II Fəribürz ibn II Əfridunun sikkələrində səlcuq sultanının adına rast gəlinmir və şirvanşahın ləqəb və titulları sadalanır. O, əmisi Şahənşahdan sonra - h. 587 (1200/1)-ci ildən 600 (1204)-cü ilədək hökmranlıq etmişdir. Ondan sonra əmisi I Fərruxzad və onun oğlu I Gərşəsb hakimiyyət sürmüşlər. Şirvanşahlar arasında II Fəribürzün övladlarına rast gəlinmir.

## I FƏRRUXZAD İBN III MƏNUÇÖHR

I Axsitanın qardaşı oğlu II Fəribürz ibn II Əfridundan sonra, Axsitanın qardaşı, IIII Mənuçöhrün dördüncü oğlu Fərruxzad hakimiyyətə keçmişdir.

İndiyədək Fərruxzadın sikkəsi tapılmamışdır. Görünür, o, çox qısa müddət, ehtimal ki, bir ilə yaxın hakimiyyət sürmüşdür. I Fərruxzadın adı onun öz şəcərəsini göstərən oğul və nəvələrinin sikkələrindəki kitabələrdə[142], habelə, epiqrafik abidələrdə - Mərdəkan kəndindəki, dairəvi qalada oxunur: «...Gərşəsb ibn

Fərruxzad ibn Mənuçöhr...» Kitabədə tarix göstərilmişdir: mərdad ayı, altı yüzüncü il (avqust, 1204-cü il). Görünür, Fərruxzad qoca vaxtında, çox az, ehtimal ki, XIII əsrin əvvəlində hakimiyyətdə olmuş və onun hakimiyyəti h. 600 (1204)-cü ildən gec olmayaraq başa çatmışdır. Fərruxzadın adı Pirsaatçay xanəgahının giriş portalındakı kitabədə də çəkilir. «... [III] Fəribürz ibn Gərşəsb ibn Fərruxzad ibn Mənuçöhr...»[143]. Onun adı Dornun cədvəlində də var, lakin hakimiyyət illəri düzgün deyil.

## I GƏRŞƏSB İBN FƏRRUXZAD

I Fərruxzad ibn Mənuçöhrün qısamüddətli hökmranlığından sonra hakimiyyətə onun oğlu Gərşəsb ibn Fərruxzada keçmişdir. Onun adından kəsilmiş bir neçə variantlı, lakin eyni məzmunlu aşağı əyarlı xeyli, əsasən mis, sikkələr qalmışdır. Üz tərəfində həmişəki kimi, dini rəmz və möminlərin hökmdarı xəlifə ən-Nasir-lidin - Allahın [h. 575-622 (1180-1225)-ci illər] adı durur. Əks tərəfində eyni dini rəmz təkrar olunmuş, onun altında isə «əl-məlik əl-müəzzəm Gərşəsb ibn Fərruxzad, ibn Mənuçöhr, şirvanşah» sözləri həkk edilmişdir. Gərşəsbin adı ilə kəsilmiş külli miqdarda sikkənin hamısında xəlifə ən-Nasirin adı çəkilir. Lakin Gərşəsbin oğlu və varisi III Fəribürz də həmin xəlifənin hakimiyyətinin sonlarına doğru onun adı ilə sikkə zərb etdirmişdir[144]. Gərşəsbin sikkələri üzərindəki «əl-Məlik əl müəzzəm ləqəbləri və şirvanşah titullu Şirvanşahlar dövlətinin ən yüksək inkişaf dövründə onun müstəqil hakimiyyət sürdüyünü göstərir. Gərşəsbin adı mənbələrdə, numizmatik və epiqrafik abidələrdə müxtəlif cür yazılır. Bəzi müəlliflər Gərşəsbin adını Kür və Araz çayları arasında yerləşən və Xəzər dənizinin sahillərinə qədər uzanan Güştəsbi (Güştəsfi) vilayətinin adı ilə bağlayırlar[145]. Yəqin ki, onun adının ən düzgün yazılışı sikkələrində və abidələrdəki kitabələrdə rast gəlindiyi kimi Gərşəsb, yaxud Gərşəspdir, Gərşəsb adı Şirvanşahların çox güman ki, qohum olduqları deyləmi Kakuyilər sülaləsi hökmdarları arasında məlumdur[146]. Şirvanda Güştəsbi vilayətinin və şəhərinin adına XIII əsrdən əvvəlki mənbələrdə rast gəlinmir. Ola bilər ki, onun kökü Gərşəsb adındandır. Belə ki, Gərşəsb şirvanşah olana qədər, atası Fərruxzad ibn Mənuçöhr zamanında bu yerin hakimi olmuşdu. Gərşəsbdən törəyən Güştəsbi adı İranın əsatiri hökmdarının adı ilə bağlı xalq etimalogizasiyasına məruz qalmışdır[147]. Mərdəkan kəndindəki dairəvi qalanın kitabəsinə görə Gərşəsb h. 600 (1204)-cü ildə hakimiyyətə başlamışdır. Kitabədə deyilir:

I. «Bu qala həqiqətən uca, müdrik, ədalətli, [allahın] himayə etdiyi müzəffər, qalib, dinin döyüşçüsü, dünyanın, dinin ... və müsəlmanların əzəməti, dinin qoruyucusu Gərşəsb ibn Fərruxzad ibn Mənuçöhrün zamanında tikilmişdir».

II. «Sahibi... sipahsalar [sərkərdə] möhtərəm, müdrik [allahın] himayə etdiyi, hörmətli, dövlətin və dinin ulduzu... İshaq ibn Kakuyidir, Allah onun

qüdrətini əbədi etsin! Tarix, mordad ayı, altı yüzüncü il (h. 600 (avqust, 1204)[*].

Qalanın cənub-qərb tərəfində, qapıdan soldakı kitabədə deyilir: «Memar Əbd ül-Məcid ibn Məsud»[148]. Kitabədə adı çəkilən sipahsalar - qalanı tikdirmiş sərkərdə, ehtimal ki, aralarından Şirvanşahların vəzirlərinin çıxdığı adlı-sanlı Deyləm nəsli Kakuyilərin nümayəndələrindən olmuşdur. Bu kitabədə Gərşəsbin hakimiyyəti dövründə gürcülərin ölkəyə tez-tez basqınları ilə əlaqədar olaraq XII əsrin sonlarından Şirvanşahların iqamətgahı Bakıya keçirildikdən sonra Abşeronda və Şirvanın digər yerlərində istehkamlar tikildiyi göstərilir. Gərşəsbin hakimiyyəti dövründə XIII əsrin 20-ci illərinədək şəhər həyatı, sənətkarlıq, ticarət və tikinti inkişaf edir. Lakin 1220-ci ildən başlayaraq, Şirvan və bütün Yaxın Şərqin üstünü yadelli işğalçıların - monqolların soxulmaq təhlükəsi aldı. Monqol yürüşlərinin müasiri olan İbn əl-Əsir bu basqının dəhşətlərindən sarsılaraq yazırdı: «... gecə-gündüz buna bənzər böyük hadisə və böyük bədbəxtlik görməmişdi. Bu bədbəxtlik bütün insanlara, xüsusilə müsəlmanlara üz verdi. Kim allah Adəmi yaradandan bu günə qədər dünyanın belə müsibətə düçar olmadığını desə, haqlı olar, çünki salnamələrdə buna oxşar, yaxud yaxın heç bir şey yoxdur»[149]. Monqollar Azərbaycan və Şirvan ərazisində ilk dəfə h. 617 (1220/1 )-ci ildə I Gərşəsb ibn I Fərruxzadın hakimiyyəti dövründə zahir oldular. Cəbə noyonun və Sabutay Bahadurun başçılığı ilə otuz minlik monqol ordusu 1221-ci ildə gürcü qoşunlarını məğlub edib qışı Muğanda qışladı[150], sonra isə Ərdəbilə qayıtdı, şəhəri dağıdaraq zəbt etdi. Bundan sonra monqollar üçüncü dəfə Təbrizə yaxınlaşdılar. Şəhərin əhalisi pul və parça verməklə xilas oldular. Monqollar Sərab şəhərini dağıtdıqdan sonra h. 618 (1221)-ci ilin ramazan ayında Beyləqana gəldilər, onu mühasirəyə alaraq tutdular, demək olar ki, bütün əhalini qılıncdan keçirdilər və əmlaklarını qarət etdilər. Daha sonra onlar Arranın paytaxtı Gəncəni mühasirəyə alaraq, əhalidən pul və bahalı parçalar tələb etdilər. Çoxlu fidiyə alan monqollar Gəncədən əl çəkib Gürcüstana soxuldular[151]. Bu vaxt oranın hökmdarı Tamarın oğlu IV

[*] Bəzi müəlliflərin əsərlərində (L. S. Bretanitskiy i B. V. Veymarn. İskustvo Azerbaydjana, M., 1976, s. 61; L. S. Bretanitskiy. Zodçestvo Azerbaydjan XII—XV vv. M., 1966, s. 78) Mərdəkan dairəvi qalasındakı kitabədə göstərilən 600-cü il tarixi bizim tarixə Yəzdigirdin təqviminə əsasən keçirilərək, 1232-ci il kimi verilir. Bu səhv kitabədə Sasanilər dövründə İranda həmin təqvimə əsasən qəbul olunmuş «mordad» ayının (avqusta müvafiqdir) göstərilməsi nəticəsində baş vermişdir. Abşeronda irandilli tatlar yaşadığından «mordad» ayının adı ənənə üzrə burada qala bilərdi. Lakin bu abidədəki 600-cü il hicri təqvimlə verildiyindən, bizim tarixə çevirdikdə 1204-cü ilə müvafiq gəlir. Bunu göstərilən müəlliflərin diqqət yetirmədikləri numizmatik dəlillər də təsdiq edir. Gərşəsb ibn Fərruxzad adından kəsilmiş sikkələr h. 572-622 (1180-1225)-ci illərə — xəlifə əl-Nasirin hakimiyyət dövrünə aiddir. Lakin həmin xəlifənin hökmranlığının sonlarına doğru — h. 622 (1225)-ci ildə Gərşəsbin oğlu və varisi III Fəribürz də öz sikkəsini kəsdirmişdir. Beləliklə, Gərşəsbin adı olan kilabə 1232-ci ilə aid edilə bilməz, çünki həmin vaxt onun oğlu III Fəribürz hakimiyyətdə idi. Ələsgərzadə, eləcə də Y. A. Paxomov və B. V. Sısoyev tamamilə haqlı olaraq 600-cü ili bizim tarixə 1204-cü il kimi çevirmişlər. Buna görə də, Mərdəkan dairəvi qalasındakı tarixi 1204-cü ilin avqustu hesab edirik.

Georgi Laşa idi. Monqollar gürcü qoşunlarını darmadağın edib, ölkəni taladıqdan sonra tezliklə Gürcüstanı tərk edərək, Şirvana qayıtdılar. Şamaxını mühasirəyə alıb ələ keçirdilər, onu dağıdaraq əhalisini qırdılar. İbn əl-Əsir (1160-1234) monqolların şəhəri almasının və onun sakinlərinin qəhrəmanlıqla müdafiə olunmasının təfərrüatını xəbər verir: «... tatarlar nərdivanlarla şəhərin divarlarına çıxdılar, başqalarının sözlərinə görə isə, onlar çoxlu dəvə, inək, davar və s. yığdılar, habelə, həm özlərindən, həm də düşmən tərəfdən öldürülənlərin meyitlərini bir-birinin üstünə qalayaraq, təpəyə bənzər bir şey düzəltdilər, onun üstünə çıxaraq, şəhər üzərində hakim mövqe qazandılar və şəhər əhalisi ilə döyüşə girdilər. Şəhər sakinləri üç gün ərzində ən ağır vuruşmaya tab gətirdilər nəhayət, bir dəfə az qala məğlub olduqda öz-özlərinə dedilər: «Onsuz da qılıncdan xilas ola bilməyəcəyik, elə isə yaxşısı budur, möhkəm dayanıb, heç olmasa, şərəflə ölək»[152]. Onlar həmin gecəni möhkəm durdular. Meyitlər qoxumağa və dağılmağa başladığından, tatarlar şəhərə üstün gələ bilməyib vuruşmanı dayandırdılar. Lakin monqollar əhalisi son dərəcə zəifləmiş və yorulmuş şəhərə yenidən həmlə etdilər. Şamaxı alınaraq qarət edildi və əhalisinin çoxu qırıldı. Ə. Ə. Əlizadə yazır: «...şirvanşah Şamaxının müdafiəsində və monqollarla vuruşmada iştirak etmirdi. Yəqin ki, Şamaxı mühasirəyə alınarkən o, şəhərdə deyildi. Düşünmək olardı ki, monqollar yaxınlaşarkən, şirvanşah paytaxtı taleyin ümidinə buraxaraq əlçatmaz qalalara çəkilmişdi». Ə. Ə. Əlizadənin bu fikri həqiqətə uyğun deyil. Şirvanşah Şamaxını tərk edə bilməzdi. Belə ki, təqribən 1192-ci ildə Şamaxı zəlzələdən dağıldıqdan sonra Axsitan öz iqamətgahını Bakıya köçürmüşdü[153] və monqollar şəhəri mühasirəyə alarkən Şirvanşah Gərşəsb orada idi.

Ərəb müəlliflərinin məlumatına görə, əhali inadlı müqavimət göstərdiyindən, monqollar Bakını uzun müddət ala bilməmişdilər. Yalnız bütün ölkə işğal edildikdən sonra şəhər təslim olmaq məcburiyyətində qaldı. İbn əl-Əsir yazır: «Monqollar Azərbaycan və Arranı dağıtdıqdan sonra Dərbəndə-Şirvana yollandılar və onların hökmdarının yaşadığı qala istisna olmaqla onun şəhərlərini ələ keçirdilər»[154]. Daha sonrakı dövrün müəllifi Bakuvi (1403-cü ildə yazmışdır) Bakıdakı iki möhkəmləndirilmiş qaladan bəhs edir: «Onlardan böyüyü dənizin yaxınlığındadır. Dənizin dalğaları onun divarlarını döyəcləyir. Bu, tatarların (monqolların - S.A.) ala bilmədikləri qala idi»[155]. Monqollar Şamaxını tutub qarət etdikdən sonra Dərbənd keçidindən keçərək, Monqolustana qayıtmaq üçün Dərbəndə yönəldilər. Lakin Dərbənd son dərəcə möhkəmləndirildiyindən onlar buna müvəffəq ola bilmədilər. Onda monqol sərkərdələri hiyləyə əl atdılar. Onlar şirvanşah Gərşəsbə müraciət edərək, sülh sazişi bağlamaq üçün elçi göndərməyi təklif etdilər. Şirvanşah monqollara inanıb, Cəbə və Sabutayın ordugahına on nəfər əyan göndərdi. Monqollar onların birini öldürüb, qalanlarını ölümlə hədələyərək Dərbəndin yanından keçən dağ yolunu göstərməyi tələb etdilər. Onlar yolu göstərdilər[156]. Təsvir edilən hadisələrin müasiri və şahidi olan Kirakas I Qandzaketsiyə görə, monqollar «Dərbənd qapısından keçib öz ölkələrinə

qayıtmaq istəyirdilər. Lakin Dərbənddəki müsəlman qoşunları onları buraxmadı. Onda monqollar uçurumları ağac və daşlarla, öz əmlakları, atlar və hərbi sursatla dolduraraq, Qafqaz dağlarının keçilməz yerlərindən aşıb öz ölkələrinə döndülər»[157]. 1222-ci ildə monqollar alan, ləkz və digər xalqların ölkələrinə yönəldilər, onları darmadağın etdilər, sonra qıpçaq çölünə keçərək onu tutdular və qıpçaqları oradan qovdular. Qıpçaqlar dağlara səpələndi, bəziləri rusların ölkəsinə getdi, əksəriyyəti isə Dərbəndə yollandı[158]. Faciəli hadisələrlə dolu olan bu ağır zamanda, monqol qoşunları Şirvandan, Arrandan, Gürcüstandan və Zaqafqaziyanın digər ölkələrindən çıxıb getdikdən sonra 1222-ci ildə, həmin ölkələrin vaxtilə çiçəklənən şəhərlərinin, digər yaşayış yerlərinin dağıdılaraq talan edildiyi, əhalisinin qırıldığı bir vaxtda yerli feodallar və hakimlər qorxunc düşmənə - monqollara, habelə onlara yenidən hücum edə biləcək başqa yadelli işğalçılara qarşı ittifaq yaratmaq üçün tədbirlər görürdülər. Gürcü salnaməsi gürcü hökmdarı IV Georgi Laşanın bacısı Rusudana ilə şirvanşahın kəbinkəsmə və toy mərasimində iştirak etmək üçün 1222-ci ildə şirvanşahın iqamətgahı və Şirvanın ikinci paytaxtı olan Baqavana-Bakıya gəldiyini xəbər verir. Lakin Georgi burada xəstələnib 1222-ci il yanvarın 18-də öldüyündən, toy baş tutmadı. Rusudana Gürcüstana qayıtdı və həmin il hökmdar elan olundu[159]. Bu vaxt Rusudananın yaşı 32-yə yaxın idi, bir neçə dəfə ərə getmişdi və iki uşağı vardı. Mənbədə şirvanşahın adı çəkilmir. Ola bilər ki, Rusudana ya I Gərşəsbin oğlu III Fəribürzə, ya da Şirvanşah Gərşəsbin özünə ərə getməli idi.

Monqollar Şirvandan gedəndən sonra darmadağın edilmiş qıpçaqlar bir yerə toplaşaraq Dərbəndə yollandılar. Bu vaxt oranın hakimi İbn əl-Əsirin şirvanşah adlandırdığı Rəşid idi[160]. Yaqut Həməvinin verdiyi məlumata görə, Şirvanın paytaxtı Şamaxının hakimi «Dərbənd əmirinin qardaşı - şirvanşah» idi[161]. XI əsr mənbələri yerli Haşimilər sülaləsindən olan əmirlər tərəfindən idarə olunan bu müstəqil şəhər - dövlətə sahiblik iddialarından əl çəkməyən Şirvanşahların Dərbəndi zəbt etdiklərini xəbər verirlər. Mənbələr və numizmatik dəlillər XI əsrin üçüncü rübündə Dərbəndin Şirvanşahlar dövlətinin tərkibinə daxil edildiyini təsdiqləyirlər. XII əsrin əvvəllərində Dərbəndi öz müstəqilliklərini yüz ilə yaxın qoruyub saxlamış yerli ərəb nəslindən olan Suləmi əmirləri idarə edirdilər. Şirvanşahların Dərbəndi ələ keçirmək üçün göstərdikləri bir neçə cəhd uğursuzluqla qurtarmışdı[162]. Dərbənd əmirliyinə yalnız 1239-cu ildə Dərbənd və bütün ölkə monqollar tərəfindən istila edildikdən sonra son qoyuldu. İbn əl-Əsirin adını çəkdiyi şirvanşah Rəşid görünür, Şirvanşahlar sülaləsinə mənsub Dərbənd maliki olmuşdur. Yuxarıda göstərildiyi kimi, Axsitan Dərbənd əmiri Müzəffər ibn Məhəmmədin qızına və Bəybars ibn Müzəffərin bacısına evlənmişdi. Ehtimal ki, Rəşid də Dərbənd əmiri ilə qohumluqdan dolayı I Gərşəsbin qardaşı olmuşdur.

Yuxarıda deyilənlərdən aydın olur ki, qıpçaqlar Dərbəndə yaxınlaşarkən, onun hakimi şirvanşah Gərşəsbin qardaşı Rəşid idi. Qıpçaqlar ona aşağıdakı sözlərlə müraciət etdilər: «Tatarlar ölkəmizi tutub, əmlakımızı qarət etmişlər. Biz

sənin ölkəndə yaşamağa gəlmişik. Biz sənin qulunuq, sənin üçün vilayətlər fəth edəcəyik və sən bizim sultanımızsan». Lakin Rəşid razılıq vermədi və onların xahişini rədd etdi. Qıpçaqlar həmin xahişlə yenidən onun yanına elçi göndərdilər. Onların müsəlman olan başçılarından biri tərəfindən Dərbəndi hiylə yolu ilə tutmaq niyyətində olan qıpçaqların məkrindən xəbərdar edilən Rəşid həmin başçıya qoşun və silah verməyə razı oldu. Bu başçı qıpçaqların üzərinə yeridi, bir neçə dəfə hücum edərək, onların bir hissəsini qırdı və qarət etdi. Lakin qıpçaqlar hiylə ilə Rəşidi aldadıb Dərbəndə girdilər, onu həbs edib bütün ölkəni ələ keçirmək istədilər. Lakin Rəşid qalanın gizli qapısından Şirvana qaçdı. Qıpçaqlar qaladakı bütün silahları və Rəşidin əmlakını götürüb Dərbəndi tərk etdilər, sonra isə vaxtilə gürcülərin əlində olan Qəbələyə tərəf yönəldilər və onu mühasirəyə aldılar. Bundan xəbər tutan Rəşid Dərbəndə qayıtdı, qalanı ələ keçirərək, orada qalmış bütün qıpçaqları qırdı. Bütün Qəbələ vilayətini qarət edən qıpçaqlar Gəncəyə doğru hərəkət edərək orada yerləşdilər. Gürcülərlə döyüşdə məğlubiyyətə uğrayan və onlara qarşı üsyan qaldıran yerli Gəncə əhalisindən qorxuya düşən qıpçaqlar Şirvan istiqamətində hərəkət edərək, sonra ləkzlər ölkəsinə keçdilər. Şirvan əhalisi gürcü, ləzgi və digər xalqlarla birləşərək qıpçaqları darmadağın etdi, bir hissəsini qırdı, bir hissəsini isə əsir aldı. İbn əl-Əsirin sözlərinə görə, «qıpçaq əsiri (məmlük) Dərbənd-Şirvanda (ən) ucuz qiymətə satılırdı». Monqollar Beyləqanı dağıdaraq qarət etdikdən və qıpçaqlar ölkəsinə getdikdən sonra şəhərin canını qurtara bilmiş sakinləri geri qayıtdılar və şəhərin divarlarını yenidən bərpa etdilər. Lakin bu vaxt, h. 619-cu ilin səfər ayında (fevral, 1222) Beyləqan gürcülərin hücumlarına məruz qaldı. Şəhəri tutarkən, adətən, əhalidən müəyyən məbləğdə pul alıb gedən gürcülər bu dəfə əhalinin üstünə düşərək «tatarların özlərinə etdikləri qətl-qarəti onların başına gətirdilər»[163]. Bu dövrdə çiçəklənən şəhər və kəndləri viran qoyan, əhalisini qırıb çatan monqolların hücumları ilə əlaqədar Şirvanın, Qafqazın və bütünlükdə Yaxın Şərq ölkələrinin ağır xarici siyasi vəziyyəti, gürcülərin və digər yadelli işğalçıların Şirvana təcavüzkar basqınları, eləcə də xarəzmşahın hücum təhlükəsi Şirvanşahlar dövlətinin zəifləməsinə səbəb oldu. Gürcülərin Şirvana arasıkəsilməz təcavüzkar basqınlarının qarşısını almaq üçün şirvanşah Gərşəsb oğlu Cəlal əd-Din Sultanşahı [girov kimi] gürcülərə verdi. Gürcülər isə onu Tamarın qızı hökmdar Rusudana ilə evləndirmək məqsədilə xaç suyuna saldılar»[164]. 1225-ci ildə Şirvanı və bütün Zaqafqaziyanı xarəzmşah Cəlal əd-Din Mənguberninin hücum təhlükəsi təhdid etdiyi bir zamanda Şirvanşahlar dövlətinin daxilində şirvanşah Gərşəsbin hakimiyyətindən böyük narazılıqlarla bağlı hadisələr baş verirdi. Şirvanşahın oğlu Fəribürzün başçılığı ilə qalxan üsyan nəticəsində Gərşəsb taxtdan salındı və onun yerinə oğlu keçdi. İbn əl-Əsir yazır: «H. 622 (1225)-ci ildə şirvanşaha qarşı onun oğlu üsyan qaldırdı, onu şahlıqdan məhrum etdi və ölkədən qovdu, özü şahlıq etməyə başladı. Üsyana səbəb bu idi ki, Şirvanşah iyrənc həyat tərzi keçirirdi, çox qəbahətli və ədalətsiz adam idi. O, [tez-tez] təbəələrinin var-dövlətinə və mülklərinə əl uzadır, həmçinin, deyirlər ki, hətta qadınların və oğlan uşaqlarının

namusuna təcavüz edirdi. Onun xalqa zülmü çoxalmışdı və ona görə də qoşunun bir hissəsi onun oğlu ilə əlbir olaraq, atasını ölkədən qovdu»[165]. Beləliklə, şirvanşah I Gərşəsbin hökmranlığı h. 622 (1225)-ci ildə sona çatdı.

## III FƏRİBÜRZ İBN I GƏRŞƏSB

I Gərşəsb h. 622 (1225)-ci ildə taxtdan salınandan sonra elə həmin il Şirvanın hakimi onun oğlu III Fəribürz oldu. O, xoş əxlaqı ilə öz qoşununun və rəiyyətinin məhəbbətini qazandı. Lakin Fəribürzün hakimiyyəti dövründə gürcülərin basqınları, sonra isə xarəzmşahın hücumu kimi kədərli hadisələr baş vermişdir. Gərşəsb devrildikdən sonra Fəribürz ona aşağıdakı məzmunda məktub göndərmişdi. «Mən səni qalaların birində saxlamaq, sənə və sənin yanında saxlamağı arzu etdiyin bütün şəxslərə bol təminat təyin etmək istəyirdim. Lakin sənin nalayiq hərəkətlərin, ölkənin əhalisinə qarşı ədalətsizliyin və onların sənə bəslədiyi nifrət məni səninlə rəftar etdiyim kimi davranmağa vadar etdi». Bundan sonra Gərşəsb kömək istəmək üçün gürcülərin yanına getdi. Bu vaxt Gürcüstanda hökmranlıq edən Rusudana ona yardım göstərdi. Hakimiyyəti özünə qaytarmaq uğrunda oğlu ilə müharibə aparmaq üçün onu ordu ilə təchiz etdi. Gərşəsb qalib gələrsə, ölkəsinin yarısını gürcülərə verməyi vəd etdi. O, böyük gürcü ordusu ilə hərəkət edərək Şirvan (ehtimal ki, Şamaxı) şəhərinə yaxınlaşdı. Bu arada Fəribürz öz sərkərdələrini toplayaraq, vəziyyəti onlara izah etdi və dedi: «Ola bilsin ki, bizi mühasirəyə alan gürcülər qalib gəlsinlər və o zaman atam heç birimizi sağ qoymayacaqdır, gürcülər isə ölkənin yarısını, bəlkə də hamısını tutacaqlar. Bu isə dəhşətli olacaqdır. Biz onlara qarşı bir dəstə ilə çıxmalı və onları birinci olaraq qarşılamalıyıq. Əgər biz qələbə qazansaq, allaha çox şükür, onlar qalib gəlsələr, o zaman [xilas yolu] mühasirədədir». Qoşun başçıları bununla razılaşdılar və III Fəribürz min nəfərə yaxın kiçik bir süvari dəstəsinin başında gürcülərin üç minlik qoşununun qabağına çıxdı, döyüşdə qalib gələrək, onları darmadağın etdi. Qaçmağa başlayan gürcülərin bir çoxu öldürüldü və əsir alındı. Çox az adam, o cümlədən devrilmiş şirvanşah canını qurtara bildi və olduqca pis vəziyyətdə Gürcüstana qayıtdı. Gürcülərin nümayəndələri Gərşəsbə onların ölkəsini tərk etməyi təklif etdilər: «Sənin ucbatından biz heç nə əldə edə bilmədik. Lakin biz səni qınamırıq, ancaq daha bizim ölkəmizdə qalma». Gərşəsb Gürcüstanı tərk etdi, lakin uzun müddət sığınacaq tapa bilmədi. Bu hadisələrdən sonra III Fəribürzün Şirvanda hakimiyyəti möhkəmləndi. O, ədalətli hökmdar idi, «qoşun və rəiyyətlə yaxşı rəftar edirdi, camaatın torpağını və zorakılıqla əlindən alınmış pullarını özlərinə qaytardı və onlar şirvanşahın hakimiyyəti sayəsində xoşbəxt həyat sürdülər». Bəhs olunan hadisələrdən azacıq sonra, 1225-ci ildə, xarəzmşah Cəlal əd-Din Məngburni böyük ordu ilə Zaqafqaziya ölkələrinə soxuldu. O, yetmiş minlik gürcü ordusunu darmadağın edərək, qaçmağa məcbur etdi və ölkələrini viran qoydu. Sonra o, Azərbaycanı və Gəncəni zəbt etdi[166]. Hələ I Axsitan

dövründən Xarəzmşahların artmaqda olan qüdrətini görən Şirvanşahlar onlarla dostluq münasibətləri yaratmağa çalışırdılar. Cəlal əd-Dinin atası Əlaəddin Məhəmmədin (1200-1220) Şirvana hücumundan qorxuya düşən Gərşəsb ta Dərbəndə qədər Şirvan şəhərlərinin məscidlərində sultanın şərəfinə xütbə oxunmasını əmr etmişdi[167]. Ən-Nəsəvinin məlumatına görə sultan (Cəlal əd-Din) h. 622 (1225)-ci ildə Arranı ələ keçirdikdən sonra, Şirvanşah Fəribürz ibn Gərşəsbə (mətndə, səhvən, Əfridun ibn Fəribürz getmişdir. Ehtimal ki, ən-Nəsəvi III Fəribürz əvəzinə, onun Şəki və Qəbələ hakimi olan oğlu Əfridunun adını çəkmişdir) məktub göndərərək, Məlik şahın xəzinəsi üçün ayrılmış xəracı tələb etmişdi. Lakin Şirvanşah öz dövlətinin ağır vəziyyətdə olduğunu, ölkəsinin böyük bir hissəsinin, məsələn, Şəki və Qəbələnin onun nəzarəti altından çıxdığını bəhanə gətirdi. Həm də, gürcülər ölkənin ucqarlarını zəbt etmişdilər. «Bu məsələ barəsində onlar bir-birinə elçi göndərməkdə davam etdilər və nəhayət, hər il Cəlal əd-Dinin xəzinəsinə əlli min dinar verilməsinə razılaşdılar»[168]. Xarəzmşah Gürcüstana soxulduqdan sonra «gürcülərin bir neçə il ondan əvvəl, hələ güclü olarkən, şirvanşahın əlindən tutub aldıqları Şirvan şəhərlərini - Şəki və Qəbələni geri qaytardı və həmin şəhərlərə hakimlər təyin etdi. Xarəzmşahın Beyləqana və Muğana ikta şəklində sahib olan vəziri Şərəf əl-Mülk ixtiyarında olan vilayətləri çapıb-talayır, türkmənlərin mal-qarasını qovub aparır, həmin yerlərin bütün gəlirini mənimsəyirdi. Şərəf əl-Mülk 1227-ci ildə Muğanda olarkən, III Fəribürzdən şirvanşahın sultanın xəzinəsinə verməyi öhdəsinə götürdüyü 50 min dinarı tələb etdi. Lakin vəzirin həmin pulu mənimsəmək istəməsindən şübhələnən şirvanşah pulu verməkdən imtina etdi. Onda şirvanşahı cəzalandırmaq qərarına gələn vəzir Şirvana soxulmaq məqsədilə dörd min süvari ilə Kürün sahillərinə yaxınlaşdı. Lakin şirvanşah Şirvanı tərk etdi və Şərəf əl-Mülkün ekspedisiyası bir nəticə vermədi. Bundan sonra vəzir Arazı keçərək, şirvanşaha məxsus olan Güştəsbi vilayətini tutdu. Şirvanşahın amillərini (vergi yığanlarını) oradan qovdu və vilayəti 200 min dinara icarəyə (daman) verdi.Şərəf əl-Mülkün bu hərəkəti Fəribürzü Güştəsbi vilayətinin gəlirindən məhrum etdi. Güştəsbi vilayəti Kür və Araz çayları arasında yerləşirdi və ora ancaq gəmi ilə getmək olardı[163].

Xarəzmşah Cəlal əd-Din Tiflisi aldıqdan sonra Gərşəsbin oğlu Cəlal əd-Din Sultanşahı əsirlikdən qurtarıb özü ilə apardı və Muğana qayıtdıqdan sonra Güştəsbi vilayətini iqta şəklində ona verib həmin vilayətin sahibi etdi. Nəsəvi yazır: «Sultan gürcülərin ölkəsini tutanda yetimi əsarət məngənəsindən azad etdi... Şirvanşahın oğluna gəlincə, o, sanki gözəl bir halə arasındakı parlaq mirvari danəsi idi. Sultan ona ən yüksək səviyyədə tərbiyə verdi, hökmdar övladı kimi sünnət etdirdi. Sonra onu atasından qalan mirasın bir hissəsinin - Güştəsbinin hakimi təyin etdi...». Nəsəvi Cəlal əd-Din Sultanşahı yetim adlandırır ki, bu da onun Rəşid, yaxud Fəribürzün deyil, Gərşəsbin oğlu olduğunu göstərir. Xarəzmşah Soltanşahı əsirlikdən Tiflisi aldıqdan sonra, h. 623-cü il rəbiüləvvəl ayının 8-də (9 mart, 1226), Gərşəsb artıq həyatda olmadığı vaxt azad etmişdi. Bu vaxt xarəzmşahın

Şirvana soxulacağından qorxuya düşən III Fəribürz «Sultanın xalçasına ayaq basmasının onun üçün şərəf sayılacağını, taleyin dönüklüyündən qoruyacağını, qara gün üçün ehtiyat alacağını» fikirləşərək, sultanın qərargahına gəldi. Şirvanşah sultana 500, vəzir Şərəf əl-Mülkə isə 50 türk atı hədiyyə verdi. Bəxşişin azlığından narazı qalan vəzir sultana şirvanşahı həbs etməyi və ölkəsini sultanın onunla qonşu olan torpaqlarına birləşdirməyi məsləhət gördü. Lakin sultan vəzirinin məsləhətinə rəğmən şirvanşaha fəxri geyim bağışladı və ona «hakimliyinin təsdiq olunması və [xəzinə üçün] nəzərdə tutulan məbləğin iyirmi min dinar azaldılması» barədə fərman (tauki) verilməsini əmr etdi. Şirvanşah da fərmanın tərtibinə görə vəzirə min dinar bağışladı[170]. Beləliklə, şirvanşah öz müstəqilliyini, ölkəsini isə dağıntıdan və müharibədən qoruyub saxlaya bildi.

III Fəribürzün hakimiyyəti dövründə, h. 629 (1231/2)-cu ildə ölkə ikinci dəfə 8 il ərzində Qafqaz ölkələrini, o cümlədən Şirvanı işğal etmiş monqolların hücumuna məruz qaldı. Numizmatik və epiqrafik məlumatlar ölkənin monqol işğalı dövründə şirvanşahın real vəziyyətini əks etdirir. III Fəribürzün də atası kimi, bir neçə növ sikkəsi qalmışdır. Onlardan ən qədimi h. 622 (1225)-ci ilə aiddir. Onların bir tərəfində «əl-məlki əl-müəzzəm Fəribürz ibn Gərşəsb ibn Fərruxzad ibn Mənuçöhr», digər tərəfində isə həmişəki kimi din rəmzi və xəlifə ən-Nəsirin [h. 572-622 (1180-1225)-ci illər] adı var. İkinci növ sikkədə «əl-məlik əl-müəzzəm Əlaəd-Dünya və-d-Din Fəribürz ibn Gərşəsb, Nasir əmir əl-möminin» sözləri və xəlifə əl-Müstənsir-billah əmir əl-möminin [h. 623-640 (1226-1242)-cı illər adı, həmçinin ənənəvi din rəmzi var. Üçüncü növ sikkənin üz tərəfində sonuncu Abbasi xəlifəsi əl-Müstəsim-billahın [h. 640-656 (1242-1258)-ci illər] adı, əks üzündə isə «əl-məlik əl-müəzzəm Əlaəd-Dünya və-d-Din Əbü-l-Müzəffər Fəribürz ibn Gərşəsb ibn Fərruxzad, Nasir əmir əl-möminin» sözləri həkk olunmuşdur[171]. Sikkələrdə gətirilən ləqəb və titullar şirvanşahın müstəqilliyini göstərir. Ölkə monqollar tərəfindən işğal olunmasına baxmayaraq, şirvanşah onlardan tam asılı deyildi. Bunu numizmatik məlumatlar da təsdiq edir. Şirvanşah III Fəribürzün adından bütün titulları göstərilməklə kəsilmiş sikkələrin heç birində böyük xaqanın adı çəkilmir. Ehtimal ki, şirvanşah monqol süzerenlərinə xərac verməklə kifayətlənmişdir. Bu vəziyyət XIII əsrin 60-cı illərinədək davam etmişdir. Fəribürzün adı Şirvanın epiqrafik abidələrində də çəkilir. Şirvanşah III Fəribürzün hakimiyyəti dövründə Bakının Bayıl buxtasındakı qala istehkamının tikintisi başa çatdırılmışdır. Həmin istehkamın xarici perimetri 800-ə yaxın daş üzərində oyulmuş epiqrafik kitabələr olan dekorativ frizlə dövrələnmişdir. Qırıq-kəsik ibarə və sözlər arasında Məzyədi və Kəsrani Şirvanşahların şəcərəsini göstərən şəxs adları, o cümlədən Fəribürzün adı və tikintinin başaçatma tarixi - h. 623 (1234/5)-cü il oxunmuşdur[172]. Pirsaatçay xanəgahının şərq divarının portalındakı nəsx xətti ilə yazılmış 4 sətirlik kitabədə bu memarlıq abidəsinin tikilməsinə dair məlumat verilir. «Bu binanı dünya hökmdarı, adil, yardım göstərən, qalib, islam və müsəlmanlar padşahlığının dini və dünyəvi yüksəlişi,

hökmdar və sultanların tacı Cam Əfridunun vəliəhdi olan Əbül Müzəffər Fəribürz ibn Gərşəsb ibn Fərruxzad ibn Mənuçöhr, möminlərin köməkçisi - Allah onun tərəfdarlarını möhkəmləndirsin! - hakimiyyəti dövründə böyük sədr, sevimli, hörmətli, Xorasanın vüqarı Xəzər Vasak adı ilə məşhur Həsən ibn Məhəmməd ibn Hüseyn Bavəndinin - Allahın xeyriyyə işlərinə köməyi uzadılsın – pulları ilə tikməyi əmr etmişdir. Rəcəb ayında - altı yüz qırx birinci ildə [h. 641 (1243/4)-ci il][173]. Fəribürzün adı xanəgahdakı minarənin karnizinin altındakı iki kiçik kitabədə də xatırlanır. Onlardan birində memarın adı çəkilir: «Tikməyi ustad Mahmud ibn Maqsuda hökmdar Fəribürz əmr etmişdir»[174].

## II AXSİTAN İBN III FƏRİBÜRZ

Monqolların h. 629 (1231/2)-cu ildə başlayan ikinci hücumu vaxtı səkkiz il ərzində Qafqaz ölkələri - Azərbaycan, Ermənistan və Gürcüstan işğal olunaraq, böyük monqol imperiyasının tərkibinə qatıldı. Monqollar Azərbaycanı oddan və qılıncdan keçirərək, bir sıra iri şəhərləri yerlə-yeksan etdilər. Onların çoxu sonralar bir daha dirçələ bilməyərək süqut etdi. Güclü dağıntıya məruz qalan Gəncə, Bərdə, Beyləqan, Şəbəran və digər iri mərkəzlər əvvəlki əhəmiyyətlərini itirdilər. Feodallar, əyanlar, Azərbaycan şəhər və kəndlərinin monqol talanlarından salamat qalmış əhalisi dağlara çəkildi. Şirvan və Arranın şəhər və məntəqələri Şirvanşah III Fəribürzün hakimiyyəti dövründə Şirvanşahlar dövlətinin müstəqilliyini aradan qaldıran monqollar tərəfindən işğal edildi[175]. Şərq müəlliflərinin verdiyi məlumata görə monqollar əhalisi inadlı müqavimət göstərən Bakını uzun müddət ala bilməmişdilər. XV əsrin əvvəli Azərbaycan coğrafiyaşünası Bakuvi 1403-cü ildə yazırdı ki, monqollar dəniz sahilindəki möhkəmləndirilmiş qalanı - Bakını ala bilmirdilər. Yalnız bütün ölkə işğal edildikdən sonra şəhər təslimə məcbur oldu. Bakı işğalçıların gəldikləri böyük yoldan kənarda olduğundan, görünür, başqa şəhərlərə nisbətən az zərər çəkmişdi. Bununla belə, Azərbaycan və ərəb müəllifləri monqollar şəhəri tutarkən, istehkamlardan birinin üst hissəsinin dağıdıldığını nəql edirlər. Şirvanşahlar XII əsrin birinci yarısından və XIII əsrdə monqol istilasına qədər Bakıda və Abşeron kəndlərində müdafiə xarakterli iri tikililər - qala bürcləri, istehkamlar və bir sıra digər binalar, məscidlər, karvansaralar və s. inşa etməyə başlamışdılar. Şirvanşahlar Bakı şəhərinin və Abşeronun fortifikasiyasına və möhkəmləndirilməsinə böyük əhəmiyyət verirdilər. Şamaxı, xüsusilə zəlzələdən sonra, müdafiə üçün yararsız olduğu halda, Bakı rahat limanı ilə yadelli hücumlar zamanı etibarlı sığınacaq idi. Belə ki, XII əsrin birinci yarısında şirvanşah III Mənuçöhr, kitabənin təsdiq etdiyi kimi[176], Bakı şəhərinin ətrafına qala divarları çəkdirmişdi. Təqribən 1175-ci ildə I Axsitan Qız qalası müdafiə qalasını tikdirmişdi. Qalanın daha əvvəlki dövrlərə aid olması və adının dəqiqləşdirilməsi arxeoloji tədqiqatlar aparılmasını tələb edir. Xaqaninin (XII əsr) I Axsitana - məlum mədhiyyəsində Bakıda qala tikilməsinə və onun

möhkəmləndirilmiş şəhərə çevrilməsinə dair eyhamlar var. Ə. Ələsgərzadənin fikrincə, Axsitanın adı Abşeronun Mərdəkan kəndindəki dördkünc qaladakı kitabədə də çəkilir və h. 583 (1187/8)-cü il göstərilir[177]. I Gərşəsb dövründə, h. 600 (1024)-cü ildə Mərdəkandakı dairəvi qala tikilmişdir[178]. Şirvanda qala tikililərinin inşası xarici siyasi hadisələr, yadelli işğalçıların hücumları ilə bağlı idi. Həmin abidələrdəki kitabələrdə şirvanşahların adları həqiqətə heç də həmişə uyğun gəlməyən dəbdəbəli titulları ilə çəkilirdi. Qala və bürclər onları neft quyularının və duz mədənlərinin istismarından əldə edilən vəsait hesabına tikdirən şirvanşahların, iri feodalların və onların vassallarının dövlətli olduqlarını göstərir. O, vaxtlar şirvanşahlar Bakıda yaşayırdılar. Qızıl Arslan şirvanşahların paytaxtı Şamaxını tutduqdan sonra I Axsitan öz iqamətgahını bir müddət Bakıya köçürmüşdü[179]. Şamaxı 1192-ci ildə zəlzələdən dağıldıqdan sonra I Axsitan Bakını Şirvanın ikinci paytaxtı etmişdi. III Fəribürzün dövründə, 632 (1234/5)-ci ildə Bakı buxtasındakı qəsrin tikintisi başa çatdırılmışdı[180].

III Fəribürzdən sonra Şirvanda hakimiyyətə onun oğlu II Axsitan keçdi. II Axsitan hakimiyyətə h. 641 (1243/4) - 653 (1255/6)-cü illər arasında başlamışdır. Bu dövrdə yaşamış Zəkəriyyə Qəzvini (1203-1283) öz əsərində II Axsitanın adını çəkərək yazır: «Şirvan müstəqil vilayətdir. Onun hökmdarının adı Axsitandır». Zəkəriyyənin sözlərinə görə, «Şirvanın hakimi əzəmətli, güclü və qüdrətli hökmdar idi». O, sonra Axsitanın o vaxtlar Zirehgəranı tutmaq üçün ora yollandığını, lakin əhalinin bundan əvvəl Dərbənd hakimlərinin hücumu kimi, onun da hücumunu dəf etdiyini deyir. Göründüyü kimi, bu məlumatlar II Axsitanın hökmranlığının lap başlanğıcına Hülakü xanın ölkəni işğal etməsindən əvvələ aiddir. Daha sonra Şirvanda son dərəcə möhkəmləndirilmiş Biqur (Buqurt) adlı qala barəsində məlumat verilir[181]. Ölkə monqollar tərəfindən işğal olunduqdan (təqribən 1234) sonra, XIII əsrin sonuna qədər Şirvanda, Şamaxı, Bakı şəhərlərində və Abşeronda əhəmiyyətli binaların tikintisi dayandırılır ki, bu da ölkənin hərbi əməliyyatlar nəticəsində tənəzzülə uğradığını göstərir. Munke xan h. 655 (1257)-ci ildə öldükdən sonra Çingiz xanın nəvəsi Hülakü xan h. 556-cı il səfər ayının 14-də (21 fevral 1258) Bağdadı alaraq, sonuncu Abbasi xəlifəsi əl-Müstəsimi edam etdirdi[182]. Hülakü xan iri bir dövlət yaradaraq, Cənubi Azərbaycanda Hülakülər, yaxud Elxanilər sülaləsinin əsasını qoydu. Elxanilər Azərbaycanın təbii ehtiyatlar və otlaqlarla zəngin olan şimal vilayətlərini, habelə Ermənistan və Gürcüstanı işğal etdilər. Onlar Cucilərin bu vilayətlər barəsində iddialarını rədd etdilər ki, bu da Qızıl Orda ilə Elxanilər dövləti arasında toqquşmaya səbəb oldu. 1260-cı ildə Cucilərin qoşunları Şamaxıya yaxınlaşdı. Lakin Hülakü xan onları məğlub edib Dərbəndi tutdu və şimala doğru hərəkət etdi. Tezliklə Hülakü özü də Terek çayı yaxınlığında Bərkə xan tərəfindən məğlubiyyətə uğradılaraq, Dərbəndi və Şirvanı itirdi. 1265-ci ildə Bərkə yenidən Şirvana soxuldu və Kür çayının sahilinə qədər gəldi, lakin bu vaxt xəstələnərək öldü[183]. Yüz ilə qədər davam edən hərbi əməliyyatlarla əlaqədar iki dövlət arasındakı sərhədlər tez-tez dəyişərək, gah

Dərbənd, gah da Bakının yaxınlığından keçirdi. Şirvan da, vassal ölkə kimi Elxanilər dövlətinin tərkibinə qatıldı. Hülakü xan 1258-ci ildə Şirvan və Arranı tutarkən, Bakı Azərbaycanda möhkəmlənən Elxanilərin hakimiyyəti altına düşdü. II Axsitan tam itaətkarlıq göstərməklə Şirvanı dağıntıdan xilas etdi. Elxanilərin Şirvan üzərində hakimiyyətinin güclənməsi onlarla Qızıl Orda arasında hərbi əməliyyatlar zamanı Şirvan ərazisində monqol şahzadələrinin başçılığı altında böyük ordunun olması ilə bağlı idi. Elxanilər dövründə öz torpaqlarında vassal kimi hakimiyyət sürən Şirvanşahlar öz adlarından pul kəsdirməkdə davam etsələr də, artıq təmtəraqlı titullarını göstərmir, öncə monqol xanının adını çəkirdilər. Şirvanşahlar Elxani hökmdarlarının bütün səfərlərində qeyri-nizami qoşun dəstələri ilə iştirak etməli və öz süzerini qarşısındakı bütün təəhhüdlərini yerinə yetirməli idi. Məsələn, Şirvanşah II Axsitan ibn III Fəribürz h. 653 (1256)-cü ildə Rum, İraq, Xorasan, Azərbaycan, Arran, Şirvan və Gürcüstan feodal hakimləri kimi, malikləri, sədrləri və əyanları ilə birlikdə «layiqli hədiyyələrlə» ismaililərə qarşı səfərə çıxmış Hülakü xanın yolüstü qərargahına gəlmişdi[184]. Şirvanşah II Axsitanın hakimiyyəti dövründə Şirvan dövləti çox ağır vəziyyətdə idi. Sikkələrində təmtəraqlı titul və ləqəbləri göstərilən sələflərindən fərqli olaraq, II Axsitanın XIII əsrin ikinci yarısında kəsilmiş bütün sikkələri şirvanşahın monqol xanlarından vassal asılılığını və itaətkarlığını göstərir. II Axsitanın adından iki növ mis sikkə kəsilmişdir. Birinci növ sikkənin üz tərəfində Çingiz xanın dördüncü varisi Munke xanın [h. 648-655 (1250-1257)-ci illər] «əl-adil, əl-əzim» titulları ilə adı və h. 653 (1256/6)-cü il tarixi, əks tərəfində isə dini rəmz, xəlifə əl-Müstəsim-billahın və onun aşağısında heç bir titul göstərilmədən Axsitan ibn Fəribürzün adları həkk olunmuşdur. Bu sikkə Bağdad h. 643 (1258)-cü ildə Hülakü xan tərəfindən tutulandan və sonuncu Abbasi xəlifəsi Müstəsim öldürüləndən əvvəl zərb edilmişdir. Sikkədəki tarix göstərir ki, o, Hülakü xanın Şirvanı və Zaqafqaziyanın digər ölkələrini istila etməsinə qədər kəsilmişdir. Həmin hadisələrdən sonra kəsilmiş tarixi silinib getmiş ikinci növ sikkədə adı göstərilməyən «xan əl-adil» titulu, monqol tamğası, dini rəmz və Axsitan ibn Fəribürzün adı oxunur[185]. İkinci növ sikkələr, ehtimal ki, xəlifə əl-Müstəsim edam olunduqdan və böyük xan Munke xanın ölümündən sonra, yəni h. 656 (1258)-cı ildən sonra kəsilmişdir. Kitabələrin xarakteri monqolların Şirvanda hakimiyyətinin gücləndiyini, şirvanşahın vəziyyətinin ağırlaşdığını və onun monqollardan vassal asılılığını etiraf etdiyini göstərir. II Axsitandan sikkələrdən başqa Dornun Pirsaatçay xanəgahında aşkar etdiyi kitabə də gəlib çatmışdır. Xanəgahdakı məscidin minarəsindəki farsca kitabədə h. 654-cü il məhərrəm ayı (yanvar-fevral, 1256) və Şirvanşah II Axsitan ibn III Fəribürzün adı göstərilir[186]. Keçmiş Şamaxı qəzasında Nağaraxana və Talışnuru kəndləri arasındakı yarımxaraba binada fars dilində başqa bir kitabə də tapılmışdır. Burada deyilir: «Bina Bir-e (Pir-e) Siddiq tərəfindən ən böyük hökmdar, böyük şirvanşah Cəlaləddin Axsitan ibn Fəribürzün hakimiyyəti dövründə tikilmişdir. Altı yüz əlli beşinci il (1257)»[187]. Həmin kitabələrdəki

yüksək titullar monqol işğalçılarına tabe olan və onlardan vassal asılılığını etiraf edən şirvanşahın real vəziyyətini əks etdirmir.

II Axsitanın hökmranlığı az sürmüşdür. O, h. 658 (1260)-ci ildə Hülakü xanın əmri ilə öldürülmüşdür. Ərəb müəllifi ibn əl-Füvatanın məlumatına görə, «Əla əd-Din Fəribürz ibn Güştəsb əl-Şirvani Şirvanın hökmdarıdır. Qədim nəsildəndir. Adı çəkilən Əla əd-Din böyük sultan Hülakü xanın h. 658 (1260)-ci ildə öldürdüyü Şirvan hakimi məlik Axsitanın atasıdır»[188]. Mənbələrdə II Axsitanın öldürülməsinin səbəbi xəbər verilmir. Yalnız ehtimal etmək olar ki, şirvanşah monqol hökmdarının sadiq vassalı kimi Hülakü xanın Abbasi xəlifəsinə qarşı yürüşündə kifayət qədər cidd-cəhd göstərməmişdir. II Axsitan ibn III Fəribürzün hakimiyyəti h. 641 (1243/4) və 653 (1255/6)-cü illər arasında başlamış və h. 658 (1260)-ci ilə qədər - ölənədək davam etmişdir.

## II FƏRRUXZAD İBN II AXSİTAN

Hülakü xanın hökmranlığı dövründə (1256-1265) Elxanilərin Şirvan üzərində hakimiyyəti gücləndi. Elxanilər vaxtında monqol köçərilərinin və köçəri zadəganlığının Şirvana axını son dərəcə artdı. Onlar münbit torpaqları, oturaq feodalların otlaqlarını zəbt edirdilər. Şirvanın əhalisi vergilərin ağırlığından və köçəri feodalların zülmündən əzab-əziyyət çəkirdilər. Bu dövrdə şirvanşahın hakimiyyəti, görünür, nominal xarakter daşıyırdı və ölkənin ərazisi xeyli kiçildilmişdi. Şirvan, demək olar ki, yüzillik bir dövr ərzində Elxanilərlə Qızıl Orda xanları arasında hərbi əməliyyatlar meydanına çevrilmişdi. Hülakü xan 1265-ci ildə öldükdən sonra onun oğlu və varisi Abaqa xanın (1265-1282-ci illər) zamanında Qızıl Orda xanları dəfələrlə Dərbənd keçidindən Şirvana soxulmuşdular. Abaqa xan Cucilərin hücumundan qorunmaq üçün Kür çayı boyunca bir sıra sədlər və istehkamlar tikdirmişdi[189].

Şair Nizari, h. 679-cu ildə (1281-ci ilin əvvəlində) Kuhistandan Qafqaza xidməti səfəri zamanı karvan yollarında çoxlu monqol qoşununun toplandığını müşahidə etmişdi. Saray şəhərindən Bakıya gələrkən yol, on gün ərzində Arran hakimi, Abaqa xanın qardaşı Menqu-Timurun üstünə gedən monqol qoşunları tərəfindən kəsilmişdi. Abaqa xan dəfələrlə Dərbənd keçidi vasitəsilə şimaldan Şirvana soxulan Qızıl Orda xanlarına qarşı yürüş etmişdi.

Şanlı şah (Abaqa - S. A.) Dərbəndə yollandı.
Arranın vadiləri türk ordusu ilə dolu idi.
Qoşunlar az qala bir aya Kürü keçdilər.
O taydan isə Dərbəndə bir həftəlik yoldur.
Ordu Terek çayının ətrafına toplandı,
Menqu-Timurla vuruşmaq üçün.
Lakin ilin son fəsli (qış) və yol uzaq idi.
Hər yanda nizə yarası,

Qar və şaxta, Onlar gözləməyə məcbur oldular[190].

Nizarinin 1281-ci ilin əvvəlindəki şahidliyi Qızıl Orda xanlarının Şirvan ərazisində Elxanilərə qarşı hərbi əməliyyatlarının davam etdiyini göstərir. Nizari Bakıya - səfərinin son məntəqəsinə çətinliklə gəlib çatır. Şəhər ona kiçik səliqəsiz və xoşagəlməz görünür. Hərbi əməliyyatlar Şirvanın şəhərlərinin və əhalisinin güzəranına ağır təsir göstərirdi. Lakin şirvanşahın vəziyyətinin ağırlığına və monqollardan vassal asılılığının güclənməsinə baxmayaraq, Şirvanşahlar dövləti yaşayırdı. Nizari Bakıya gələrkən Şirvanın hakimi adı bir neçə kitabədə çəkilən II Fərruxzad idi. XIII əsrin ikinci yarısından Şirvanşahların sikkəsi ya kəsilməmiş, yaxud hələ aşkar edilməmişdir. II Axsitandan sonra gələn şirvanşahlar haqqında yalnız epiqrafik mənbələrdən məlumat ala bilirik. II Axsitanın varisi xanəgahdakı kitabələrdən birində adı çəkilən oğlu II Fərruxzad olmuşdur. Məscidin mehrabındakı kitabədə deyilir: «Əs-sultan əl-azim Əbü-l-Fəth Fərruxzad ibn Axsitan ibn Fəribürz ibn Gərşəsf Nasir əmir əl-möminin, xəms [və] sittin [və sittəmiə], tarix h. 665 (1266/7)-ci il[191]. Bu kitabə şirvanşahın şəcərəsini dəqiq müəyyənləşdirir və onun hakimiyyət illərindən birini göstərir. Y. A. Paxomovun haqlı olaraq qeyd etdiyi kimi «Bağdad Xilafətinin süqutundan» və 1258-ci ildə sonuncu Abbasi xəlifəsi Müstəsimin edam olunmasından sonra «möminlər əmirinin köməkçisi» titulunun işlədilməsi anlaşılmır»[192]. Lakin ola bilər ki, sünnü olan şirvanşahlar Misirin Abbasi xəlifələrini tanımış, yaxud əvvəllər mənimsənilmiş bu titul, ənənəvi olaraq, real həqiqətə uyğun gəlmədən işlədilmişdir.

Bakıdan 5-6 km aralı köhnə Bibiheybət məscidinin divarındakı digər kitabə XIII əsrin ikinci yarısına aiddir. Həmin kitabədən A.A.Bakıxanov[193], İ. P. Berezin[194], B. Dorn[195], N. O. Xanıkov[196] bəhs etmişlər. Xanıkov məsciddəki II Fərruxzad ibn II Axsitan ibn III Fəribürzün adı çəkilən kitabədən danışarkən onun tarixini h. 680 (1281-1282)-ci il müəyyən edir. Kitabənin Xanıkov[197], Dorn, Berezin və Paxomov[198] tərəfindən dərc olunmuş dörd variantı əsasında onun mətnini aşağıdakı şəkildə təqdim edirik: «Əmr ba bina hazəl məscid əl-məlik əl-müəzzəm, əs-Sultan, əl-əzim, Nəsr əd-dövlə və-d-din Əbü-l-Fəth Fərruxzad ibn Axsitan ibn Fəribürz Nasir əmir əl-möminin xələz-allahi məlikə və-d-dövlətə fi-t-tarix sanətə... səmanin...». (Bu məscidi tikməyi əzəmətli məlik, böyük sultan, dövlətin və dinin qoruyucusu, möminlər əmirinin köməkçisi Əbü-l-Fəth Fərruxzad ibn Axsitan, ibn Fəribürz, allah onun hakimiyyətini ucaltsın... səksəninci il tarixdə (1281/2-ci il) əmr etdi). Bu kitabənin mətni xanəgah məscidinin mehrabındakı kitabənin yuxarıda gətirilən mətninin, demək olar ki, eynidir və ondan təqribən on beş il sonraya aid edilir. Bakıxanovun fikrincə, Fərruxzadın adı məsciddə, şirvanşahın onu bərpa etdirməsi münasibətilə təsbit olunmuşdur[199]. Yuxarıda gətirilən kitabələrə əsasən belə hesab etmək olar ki, şirvanşah II Fərruxzad ibn II Axsitan Elxanilər Hülakü xan və Abaqa xan zamanında h. 658 (18. XII. 1259-5. XII.1260)-ci ildən 681 (1282/3)-ci ilədək hakimiyyət sürmüşlər. Ola bilsin ki,

Fərruxzad yaxşı müdafiə olunan Bakı qalasında yaşamışdır.

## III AXSİTAN İBN II FƏRRUXZAD

XIV əsrə aid «Səffət əs-səfa» adlı mənbədə XIII əsrin ikinci yarısında öz iqamətgahını, görünür, Dərbənd ərazisinin Bakıya qədər Elxanilərlə Cucilər arasında hərbi əməliyyat meydanına çevrilməsi və şirvanşahın həmin yerlərdə qalmasının təhlükəli olması ilə bağlı Güştəsbiyə köçürən şirvanşah Axsitan barəsində bəzi məlumatlar verilir. Təvəkkül ibn Bəzzaz Axsitanı şirvanşah və Güştəsbinin hökmdarı adlandırır ki, bu da şirvanşahın tabeliyində olan ərazinin kiçildiyini göstərir. Şirvanşahın monqol işğalçılarından asılılığı həmin mənbədə söylənilən aşağıdakı epizoddan da görünür. Axsitanın Siamərk adlı oğlu var idi. Bir dəfə Siamərk xanın iqamətgahına getdi. Atası Axsitan tərəfindən xan qarşısında üstünə şər atılan Siamərk saraya çatarkən, Arqunun əmri ilə onu həbs edərək, qara ölüm demək olan qara mahuda bükdülər və təpiklə döyüb öldürdülər[200]. Monqollar xoşları gəlməyən vassallarına, onların hakimiyyətdə olan hökmdar ailəsi üzvləri olmasına baxmayaraq, beləcə divan tuturdular. Məlumdur ki, Abaqanın oğlu və Hülakü xanın nəvəsi olan Arqun 1284-cü ildən 1291-ci ilədək hökmranlıq etmişdir. II Axsitan isə Hülakü xanın əmri ilə 1260-cı ildə öldürülmüşdür[201]. Beləliklə, II Axsitan Arqunun vaxtında Şirvanda hökmranlıq edə bilməzdi. Ehtimal ki, söhbət II Fərruxzadın oğlu III Axsitandan gedir. Bunu, Təvəkkül ibn Bəzzazın verdiyi başqa məlumatlar da təsdiq edir. Onun dediyinə görə, Səfəvilər sülaləsinin banisi şeyx Səfi əd-Dinlə [d. h. 650 (1252/3)-735 (1334/5)] qohum olmaq istəyən şirvanşah Axsitan öz qızını şeyxə ərə vermək niyyətinə düşüb, cehiz olaraq 14000 dinar və gəliri bir neçə min taqar düyü olan suvarma kanalı verməyi vəd etmişdir. Səfi əd-Din bunun cavabında demişdir: «Mən buna nə deyə bilərəm? Şirvanşah hökmdardır, mən isə adicə dərvişəm». Əgər Şirvanşah II Axsitan 1260-cı ildə öldürülmüşdürsə, onda bu vaxt şeyxin 7-8-dən çox yaşı olmazdı və Səfi əd-Din bu yaşda şeyx ola bilməz və şirvanşahın qızına evlənə bilməzdi. Beləliklə, ehtimal etmək olar ki, II Fərruxzaddan sonra təqribən 1283-cü ildən 1294-cü ilədək onun oğlu III Axsitan hakimiyyət sürmüşdür. Bu, Təvəkkül ibn Bəzzazın Güştəsbi əhalisinin və şirvanşahın özünün tezliklə müqəddəs şeyxlərin və zəvvarların yığıncaq yerinə çevrilən ibadətxana tikdirdikləri şeyx Zahidə Axsitanın böyük ehtiram bəsləməsi fikri ilə ziddiyyətə girmir. Onun «möcüzələri» haqda şayiələr hər tərəfə yayılır və bir çox hakimlər, əyanlar, habelə kəndlilər və sənətkarlar açıq şəkildə onun müridləri və şagirdləri olurlar. Şirvanşah Axsitan rəiyyətinin əksəriyyətinin şeyx Zahidin [d. h. 615 (1218/ 9 - ö. h. 700 (1300/1 )-cü il] ardıcılı olub ibadə uyduqlarını, təsərrüfatı, tarlaların becərilməsini başlı-başına buraxdıqlarını - bu isə dövlətin rifahına mənfi təsir göstərirdi - gördükdə müridləri suya atıb boğdurmaq, ibadətgahı isə dağıtmaqla hədələyir. III Axsitan 1283-1294-cü illər arasında hakimiyyət sürmüşdür. Bu vaxt

şeyx Zahidin 65-76 yaşı var idi ki, bu da həqiqətə uyğundur. Həmin mənbədə şirvanşah Axsitanın Güştəsbidə ruhi xəstəlikdən öldüyü də xəbər verilir[202]. II Axsitanın isə 1260-cı ildə Hülakü xan tərəfindən öldürüldüyü məlumdur. Beləliklə, güman etmək olar ki, Şirvanda Fərruxzaddan sonra 1283-cü ildən 1294-cü ilə qədər onun oğlu hakimiyyət illəri Abaqa xanın oğlu Arqunun səltənət dövrünə (1284-1291-ci illər) müvafiq gələn III Axsitan hökmranlıq edə bilərdi.

III Axsitanın h. 700 (1300/1)-cü ilə qədər yaşayan şeyx Zahidin sağlığında öldüyü də məlumdur. Dornun xanəgahda oxuduğu və 693-cü il rəcəb ayına/iyun, 1294-cü ilə aid kitabədə «məlik Keykavus ibn Axsitanın» adı çəkilir[203]. Deməli, III Axsitan h. 682 (1283)-ci ildən 693 (1294)-cü ilədək hakimiyyət sürmüşdür. 1294-cü ildə isə hakimiyyətə onun oğlu məlik I Keykavus ibn III Axsitan gəlmişdir.

## I KEYKAVUS İBN III AXSİTAN

III Axsitanın ölümündən sonra Şirvanda ehtimal ki, onun oğlu Keykavus ibn III Axsitan hökmranlıq etmişdir. Dorn özünün yol qeydlərində xanəgahdakı h. 693 (1293/4)-cü ilə aid kitabədəki aşağıdakı adların çəkildiyini xatırlayır: Məlik Keykavus ibn Güştəsb (?) ibn Axsitan, rəcəb 693 (iyun, 1294)-cü il. Dorn kitabənin məzmununu vermir və «məlikin adının oxunmasında xeyli tərəddüd edir»[204]. Minarənin şərq tərəfindəki bu iki sətirlik kitabəni oxuyan Ə. Ə. Səidzadə yazır: «Nəticə olaraq xanəgahdakı Pirhüseyn Şirvaninin (Şirvanan) adı çəkilən bir kitabəyə diqqət yetirək. Bu, minarənin şərq tərəfindəki ikisətirlik kitabədir. 1. «Be-name-allah dər əhdi şahi-adil Keykavus, qədri-zeydə adilə, in imarəti-minarəra dər xaneqahi şeyxi pir Şirvanan Pirhüseyn, quds ül-allahi ruhə».

«Allahın adı ilə. Adil şah Keykavus (allah onun ədalətini daha da artırsın) zamanında pir Şirvananın şeyxi Pirhüseyn xanəgahında (allah onun ruhunu müqəddəsləşdirsin) bu minarənin tikilməsini...» «İkinci sətir bir neçə söz istisna olmaqla tam oxunmamışdır»[205]. Beləliklə, bu kitabə Dornun hakimiyyət illərindən birini, ehtimal ki, başlanğıcını - 1294-cü il müəyyənləşdirdiyi şirvanşahın adının, onun fərz etdiyi kimi, Güştəsb ibn Axsitan deyil, Keykavus ibn Axsitan olduğunu dəqiq sübuta yetirir. V. M. Sısoyev xanəgahda olarkən bu kitabəyə diqqət yetirmiş, lakin onun məzmununu verməmişdir: «Minarənin səkkizüzlü hissəsinin cənub-qərb üzündə də Şeyx Pirhüseynin adı çəkilən 2 sətirdən ibarət kiçik (1x1/2 arşın) kitabə vardır»[206]. Bu şirvanşah haqqında hələlik başqa məlumatımız yoxdur. Beləliklə, şirvanşah Keykavus h. 693-cü ilin rəcəb ayında (iyul, 1294) hakimiyyətdə olmuşdur. Lakin onun hökmranlığının nə vaxt başlanıb, nə vaxt qurtardığı hələlik məlum deyil. Onun hakimiyyətinin sonunu yeni məlumatlar əldə edilənədək, təxmini olaraq h. 717 (1317/8)-ci il hesab edirik. Y. Zambaur və V. V. Bartoldun tərtib etdikləri şəcərəyə görə, həmin vaxtdan şirvanşah Keyqubad ibn Fərruxzadın hakimiyyəti başlanır[207]. Keykavusun hakimiyyət dövrü - 1294-cü il Arqunun oğlu Keyxatu xanın hakimiyyətinin sonuna (1291-1295-ci illər) təsadüf

edir. Bu dövrdə Elxanilər dövləti iqtisadi tənəzzül keçirirdi. Xəzinə boşalmış, qızıl və gümüş sikkə əvəzinə, tezliklə xalq iğtişaşları nəticəsində ləğv edilmiş «çao» deyilən kağız pul buraxılmışdı. Görünür, bu vəziyyət Şirvana da aid idi. Belə ki, mənbələr Elxan Qazan xanın h. 697 (1297)-ci ildə Şirvana və Bakıya gəldiyini xəbər verirlər. Rəşidəddin Arranda qışlamaq niyyətində olan Qazan xanın Təbrizdən h. 697-ci il məhərrəm ayının 20-də (7 noyabr 1297) çıxdığını göstərir. Qazan xanın səfəri Zaqafqaziya ölkələrində, Gürcüstanda və ehtimal ki, Şirvanda da baş vermiş iğtişaşlarla bağlı idi. Qazan xan yolda ikən əmir Qutluqşahı Gürcüstana göndərdi. O, ölkədəki iğtişaşı yatırdıb, gürcü hökmdarı David Vaxtanqın qardaşını bəxşiş verilmək üçün Qazan xanın qərargahına gətirdi. «Dövlət bayraqları Bakıya yollandı və Qazan xan bir neçə gündən sonra orada oldu»[208]. Bu dövrdə Bakı Elxani hökmdarlarının qışlaq yeri idi. Qazan xanın Bakıya səfəri Bibiheybət məbədinə ziyarətlə də bağlı ola bilərdi. Belə ki, o, hakimiyyətə gəldikdən sonra islamı qəbul etmiş və Qazan Mahmud adı götürmüşdü. İstər Qazan xan, istərsə də digər Elxani hökmdarları neftlə, duzla, ipəklə və digər ehtiyatlarla zəngin olan Şirvan vilayətinə böyük əhəmiyyət verirdilər. Onlar Şirvanla həmsərhəd vilayətlərə öz etibarlı adamlarını təyin edirdilər. 1285-ci ildə (Arqunun vaxtında) Azərbaycana Çindən Rəşidəddinin Pulad adlandırdığı yüksək mənsəb sahibinin başçılığı ilə missiya gəlmişdi. Həmin mənsəb sahibi Elxanilər sarayında rezident və Arqunun məsləhətçisi olaraq qaldı. O, Qazan xanın vaxtında da Marağada tümənbaşı kimi mühüm rol oynayırdı. Sonralar ona Şirvan sərhəddinin rəisliyi etibar edilmişdi. O, Ölcaytunun hökmranlığı dövründə Şirvanda öldü[209]. Elxani hökmdarı Şirvanın rifahına diqqətlə yanaşır, ölkədə təsərrüfatın dirçəlməsi üçün bir sıra tədbirlər görürdü. Elxanilər dövründə Qazan xanın islahatlarına qədər Şirvanşahlar dövlətinin ağır iqtisadi vəziyyətdə olduğunu Rəşidəddinin məlumatları, habelə Bakının İçərişəhər hissəsindəki Cümə məscidinin minarəsinin divarındakı XIV əsrin əvvəlinə aid kitabə də təsdiq edir. Həmin kitabə monqol hökmdarı Ölcaytu Məhəmməd Xudabəndənin (1304-1316-cı illər) Bakı şəhəri və [Şirvan] vilayəti rəiyyətinin bir sıra ağır vergilərdən azad olunmasına dair yarlığının (fərmanının) mətnindən ibarətdir[210]. Şirvanın əhalisi təkcə müharibələr deyil, həm də dözülməz vergilər, məmurların özbaşınalığı nəticəsində var-yoxdan çıxmışdılar. Lakin artıq XIV əsrin əvvəllərindən Qazan xanın islahatları ilə əlaqəli şirvanşahın hakimiyyətinin güclənməsi, sultan Ölcaytu vaxtında bir sıra vergilərin ləğv edilməsi və digər tədbirlər sayəsində ölkənin təsərrüfat vəziyyəti bərpa olunmağa başladı. Qazan xanın və onun varisi Ölcaytunun hakimiyyəti dövründə yerli əyanların, o cümlədən mövqeləri möhkəmlənən şirvanşahların hüquqları bərpa edildi. Yerli feodal zadəganları ilə Elxanilər dövləti nümayəndələri arasında yaxınlaşma baş verdi. Belə ki, Elxanilərin dövlət xadimi və vəziri Rəşidəddinin (1297-1318-ci illər) məktublaşmasından bəlli olur ki, o, şirvanşahlarla qohum olmuşdur. Rəşidəddin Təbriz şəhərindən «böyük mövlana Məcid əd-Din İsmayıl Faliyə» yazdığı

məktubda onu oğlanlarının toyuna dəvət edərək, gəlinlərinin adlı-sanlı ailələrdən olduğunu qeyd edir, o cümlədən göstərir ki, oğlu Əmir Əlinin nişanlısının atası şirvanşah, «Dərbənd hökmdarları sülaləsindən olan Şabran və Şamaxı hökmdarıdır. [Artıq] iki min ilə yaxındır ki, sultan [taxtı] onların nəslinə məxsusdur və onlar indiyədək Dərbənd və Şabran hökmdarıdırlar». Şirvanşaha - «Şabran və Şamaxı hökmdarına» göndərdiyi digər bir məktubunda Rəşidəddin onu çox nəzakətli tərzdə, ehtiramla özünün yeni bağı Fəxtabada dəvət edir[211]. Həmin məktubların məzmunu şirvanşahın nüfuzunun artdığını, hakimiyyətinin möhkəmləndiyini, ərazisinin keçmiş hüdudlarında genişləndiyini şəksiz şəkildə sübut edir, monqollara tabe olmalarına baxmayaraq, şirvanşahların hakimiyyətinin mövcudluğu və güclənməsi Şirvan şəhərlərində həyatın və abadlığın canlanmasında monqol dövlətinin tənəzzülə uğramağa və dağılmağa başladığı XIV əsrin əvvəllərində ötəri və son dərəcə qısamüddətli nəticə verən Qazan xan islahatlarından və sultan Məhəmməd Ölcaytu yarlığından qat-qat böyük rol oynadı. Bu məktubda şirvanşahın adı çəkilmir. Onların 1315-1318-ci illər arasında yazıldığını nəzərə alsaq, ehtimal etmək olar ki, Rəşidəddinin oğlunun qayınatası təqribən 1294-cü ildən 1317-ci llədək hakimiyyət sürmüş və adı xanəgahdakı minarənin kitabəsində çəkilən Şirvanşah Keykavus olmuşdur. Qeyd etmək vacibdir ki, şirvanşahlar Şirvanda xanəgahlar - Navahı kəndi yaxınlığındakı Pirsaatçay xanəgahı, Bakı yaxınlığındakı Bibiheybət türbəsi, Şamaxı yaxınlığındakı Göylər kəndindəki Madəkani piri və s. - tikilməsinə və onların bəzədilməsinə böyük əhəmiyyət verirdilər. 50 il ərzində - h. 641-692 (1243-1294)-ci illər arasında III Fəribürz, II Axsitan, II Fərruxzad, Keykavus və b. şirvanşahların dövründə Pirsaatçay xanəgahının başlıca binaları tikilmişdir. Sonralar h. 824 (1420)-cü ildə kitabələrin birində istehkam divarlarını bərpa etdirmiş şirvanşah I Xəlilüllahın adı çəkilir[212]. Şeyx Pirhüseynin məqbərəsi üzərində tikilmiş Pirsaatçay xanəgahı şirvanşahlar, Şirvan və qonşu ölkələrin əhalisi tərəfindən müqəddəs səcdəgah sayılmışdır. Pirhüseyn Şirvani şirvanşahlar I Fəribürz, onun atası Salar və babası Yəzid ibn Əhməd dövründə yaşamış və h. 467 (1074/5)-ci ildə çox qoca yaşında ölmüşdür. Pirhüseyn və bütün Yaxın Şərqdə məşhur olan sufi şair və panteist filosof, yüz ildən çox yaşamış Şeyx Məhəmməd Əli Bakuvinin (948-1050) kiçik qardaşı idi[213]. Bakuvinin şirvanşahın qızına məhəbbəti haqqında əfsanə dövrümüzədək gəlib çatmışdır. XVII əsrin əvvəllərinin səyyahı Şirazda dağın başında Bakuvi və onun ölümündən sonra şirvanşahın zəvvarlara xidmət göstərmək üçün oraya gəlmiş qızının (Roi de Baku) yan-yana dəfn olunduğu məqbərəni təsvir edir[214]. Bu məlumatlar şirvanşahların həm Bakuvinin, həm də Pirhüseynin şəxsiyyətinə böyük hörmət və ehtiram bəslədiklərini göstərir. Pirhüseyn xanəgahı şirvanşahların müxtəlif vaxtlarda tikdirdikləri bir neçə binadan - Pirhüseyn türbəsi, minarəli məscid, böyük qəbul salonu, ətrafına divar çəkilmiş bir sıra yerlər, tövlə, karvansara və böyük qəbiristanlıqdan ibarət idi[215]. Şirvanşahlar xanəgahın binalarının bəzədilməsinə böyük səy göstərirdilər.

Pirhüseyn türbəsi gözəl zərnaxışlı kaşılarla, xüsusilə təmtəraqlı şəkildə bəzədilmişdi. Türbənin «divarları gah zərif ağ, gah da qızılıya çalan göyümtül-yaşıl minadan rəngarəng daşlar kimi par-par yanır, min bir gecənin sehirli saraylarını xatırladır»[216]. Pirhüseyn xanəgahının böyük vəqf mülkləri, torpaqları var idi. Pirə qiymətli şeylər nəzir verilirdi. Məqbərə isə bahalı zərli parçalarla bəzədilmişdi. Pirhüseynin xanəgahda və onun ətrafında yaşayan, on minlərlə baş qoyunu, ipəyi, qoşqu heyvanı olan çoxlu ardıcılları-müridləri və dərvişləri var idi. Xanəgahın vəqf torpaqlarında çoxlu dərviş, xanəgaha qulluq edən işçilər - kişi və qadınlar yaşayırdı[217]. Pirə sitayiş etmək üçün xanəgaha çoxlu zəvvar, o cümlədən şirvanşahlar və digər hakimlər gəlirdi. Bura Şirvanın mühüm mədəni (fəlsəfi, ədəbi, dini) mərkəzi idi.

Ə. Ə. Səidzadənin fikrincə, Pirhüseyn batinilik (daxilən kamilləşmə) təliminin nümayəndəsi idi. Vassaf onu sufi adlandırır və diqqəti müridlərinə cəlb edir. «Pirhüseyn Şirvani, çox ehtimal ki, kəskin nəzərəçarpan bidətçi təriqətlərin heç birinə mənsub olmamışdır. Çünki bu halda o, şirvanşahlar tərəfindən belə cidd-cəhdlə təbliğ edilməzdi[218].

## I KEYQUBAD İBN II FƏRRUXZAD

XIV əsrin əvvəllərində Ölcaytunun oğlu Məhəmməd Əbu Səidin (1316-1335-ci illər) zamanında Elxanilər dövlətinin tənəzzülü ilə bağlı şirvanşahların hakimiyyəti güclənir, Şirvanın şəhərlərində təsərrüfat həyatının dirçəlməsi, ticarətin inkişafı müşahidə edilir. Lakin elxan Əbu Səidlə Qızıl Orda xanı Özbək, sonra isə Əbu Səidin varisi Arpa xanla (1335-1336-cı illər) Özbək arasındakı hərbi əməliyyatlar nəticəsində Şirvan ərazisi yenidən viran və talan edildi[219]. Arpa xan 1336-cı ildə öldükdən və Elxanilər dövləti, faktik olaraq bir sıra xırda feodal mülklərinə parçalandıqdan sonra monqol əmirləri və köçəri tayfaların başçıları hakimiyyəti öz əllərinə alaraq elxani şahzadələrini həbs edir, hakimiyyətdən salır və feodal ara müharibələri aparırdılar. Belə ki, az vaxt ərzində Elxanilər taxtında Cənubi Azərbaycanda hakimiyyətlərini möhkəmləndirən, öz aralarında rəqabət aparan Çobani və Cəlairi əmirlərinin iş başına gətirdikləri Musa, Məhəmməd, Toğa Teymur, Cahan Teymur, Satibəy xatun, Süleyman və sonuncu elxan Ənuşirəvan kimi qısamüddətli hökmdarlar bir-birini əvəz etmişdi[220].

Elxanilər monqol dövlətinin dağılmağa başladığı bu dövrdə Azərbaycanın şimal vilayətlərinin, o cümlədən Şirvanın şəhərləri bir müddət yadelli işğalçıların əsarətindən azad olaraq dirçəlməyə başlayır, siyasi qüvvə əldə edirlər. XIV əsr ərzində və bütövlükdə XV əsrdə Şirvanşahlar dövləti Elxanilərin hakimiyyətini formal şəkildə qəbul etsələr də, əslində, müstəqil idi. Bunu numizmatik məlumatlar da təsdiq edir. Bu vaxt Şirvanda şirvanşahlar Keyqubad və sonralar onun oğlu Kavus hökmranlıq etmişlər.

1355/6-cı ildən Şirvanın bir sıra şəhərlərindəki zərbxanalarında sikkə

kəsilməsi bərpa olunur. S. Len-Pul öz kataloqunda h. 736 (1335/6)-cı ildə Arpa xanın adından Şirvanda zərb edilmiş qızıl dinarın təsvirini vermişdir[221]. Bakı ərazisində tapılmış sikkə dəfinələri XIV əsrin 40-cı illərindən Bakıda sikkəxana olduğunu göstərir. Həmin sikkələrin arasında Elxanilər - sultan Süleyman və sultan Ənuşirəvanın adından Bakıda kəsilmiş sikkələr də var[222]. H. 739 (1338/9)-cu ildə Şəbəran şəhərində elxan sultan Ölcaytunun qızı Satibəy xatunun adından gümüş sikkə kəsilmişdir. H. 745 (1344/5)-ci ildən və sonralar 750 (1349/50)-ci ildən 756 (1355)-cı ilə qədər Ənuşirəvan adından Şirvanın Beyləqan, Şirvan, Güştəsbi, Şəbəran və digər şəhərlərində dirhəmlər kəsilmişdir. M. Seyfəddinin fikrincə, «adil sultan» titulu daşıyan bəzi sikkələr şirvanşahlar tərəfindən kəsilə bilərdi[223]. Elxanilər dövlətinin tənəzzülü dövründəki sikkələrdə şirvanşahın adının olmaması Keyqubadın hakimiyyət illərini dəqiqləşdirməyə və atasının adını müəyyənləşdirməyə imkan vermir. B. Dorn Hacı Xəlifəyə istinad edərək, Keyqubadı ondan əvvəlki şirvanşahın nəslindən sayır, lakin bu sələfin kim olduğunu göstərmir[224]. Şirvanşahların Şərəfxan Bidlisi, Həsənbəy Rumlu, Münəccimbaşı və Bakıxanov tərəfindən verilmiş şəcərəsinə görə Keyqubadın atası Fərruxzaddır[225]. M. Seyfəddini Kavusu «Şirvan və Şamaxı hakimi Keyqubadın oğlu və Mir Şeyx İbrahimin nəvəsi» adlandıran Əbd ür-Rəzzaq Səmərqəndinin məlumatını gətirir[226]. Bu məlumatlara əsasən Mir Şeyx İbrahim Keyqubadın atası və Kavusun babası olmuşdur. Yəqin ki, Səmərqəndi şirvanşahın şəcərəsini dolaşdırmışdır, çünki Şeyx İbrahimin Dərbənd hakimi Sultan Məhəmmədin oğlu və Keyqubadın nəvəsi olduğu məlumdur[227]. Səmərqəndinin məlumatını şübhəli, yuxarıda bəhs edilən mənbələrin məlumatını isə daha inandırıcı sayaraq, yeni məlumatlar əldə edilənə qədər Keyqubadın atasının adını II Fərruxzad kimi saxlayırıq.

Zambaur və Bartold Keyqubad ibn Fərruxzadın hakimiyyətə başladığı tarixi h. 717 (1317/8)-ci il göstərirlər[228]. Onların bu tarixi hansı mənbədən götürdükləri məlum deyil. Numizmatik və epiqrafik məlumatların olmaması Keyqubadın hakimiyyətinin nə vaxt başlayıb, nə vaxt qurtardığı məsələsini çətinləşdirir. Keyqubadın və onun oğlu Kavusun hakimiyyəti Elxanilər dövlətinin tənəzzülə uğradığı, vaxtilə möhtəşəm imperiyanın xarabalıqları üzərində xırda müsəlman sülalələri ilə yanaşı, Çobani əmirlərinin, sonralar isə Cəlairilərin hakimiyyətinin möhkəmləndiyi dövrə təsadüf edir. Həmin sülalələrin XIV əsrin 40-cı illərindən başlayaraq hökmranlığı Azərbaycanda dərin izlər salmışdır. Çobanilər sülaləsinin Cənubi Azərbaycanda öz hakimiyyətlərini möhkəmləndirərək, ölkəni Elxanilər adından idarə edən nümayəndələri - h. 744 (1343)-cü ildə öldürülmüş Həsən Kiçik, sonram isə onun qardaşı məlik Əşrəf [h. 745-758 (1344-1356/7)-ci illər] başqa əmirlərlə, o cümlədən Şirvanşahlarla şiddətli mübarizə aparırdılar[229]. Həmin mübarizənin nəticələrini numizmatik məlumatlar əsasında izləmək mümkündür.

H. 736 (1335/6)-cı ildən Şirvan şəhərlərinin sikkəxanalarında yenidən sikkə kəsilməyə başladı[230]. Elxanilər sülaləsinin son nümayəndələrinin hakimiyyətini

formal surətdə qəbul edən və onların adından sikkə kəsdirən Keyqubad və onun oğlu Kavus müstəqil hakimiyyət sürürdülər və Çobani Əşrəfin Şirvanı zəbt etmək cəhdlərinə baxmayaraq, öz müstəqilliklərini 1348-ci ilədək qoruya bildilər. Mənbələrdə Keyqubadın hakimiyyəti haqqında verilən məlumat çox cüzidir. Hacı Xəlifəyə görə Keyqubad ədaləti ilə şöhrət qazanmışdı[231]. Ehtimal ki, Keyqubada ədalətli təşbihi verilməsi Şirvan əhalisinin feodallar tərəfindən istismarının zəiflədilməsi və ölkənin təsərrüfat həyatının dirçəlişi ilə bağlı idi. Şirvanşahın hakimiyyətinin möhkəmlənməsi Elxanilər dövlətinin zəifləməsi, sonra isə süqutu və Şirvanın yüz ildən çox davam edən monqol zülmündən azad olmasının nəticəsi idi. Monqol işğalçılarının zülmündən narazı olan Şirvan əhalisi Şirvanşahlar Keyqubad və Kavusun Şirvan dövlətinin müstəqilliyi uğrunda mübarizəsində onlara yardım göstərirdilər.

## KAVUS İBN I KEYQUBAD

Mənbələrin verdiyi məlumata görə şirvanşah Keyqubad hələ sağlığında dövlətin idarə olunmasını oğlu Kavusa vermişdi. Ə. Ə. Əlizadənin fikrincə, «Keyqubad qoca olduğundan artıq dövlət işlərində fəal iştirak edə bilmirdi və ölkənin idarə edilməsini oğlu ilə bölüşdürməli olmuşdu»[232]. Şirvanşah Keyqubad öz hakimiyyətini Cənubi Azərbaycanda və Qarabağda möhkəmləndirən Çobani Əşrəfdən kömək umurdu. H. 745 (1344/5)-ci ildə «Şirvan və Şamaxının hakimi», şirvanşah Keyqubadın oğlu malik Kavus Şirvandan Qarabağa Məlik Əşrəfin iqamətgahına gəlir. Məlik Əşrəf Kavusu iltifatla qarşılayır, ona qiymətli hədiyyələr-daş-qaşla işlənmiş paltar və başqa şeylər verir[233]. Lakin Əşrəf Kavusun yanında nüfuzlu feodallardan biri olan Hacı Şəhribanın oğlu əmir Vəfadarı gözlənilmədən tutub öldürür[234]. Əşrəfin bu qəddarlığı Kavusu elə sarsıdır ki, elə həmin gecə Qarabağdan qaçaraq Şirvana qayıdır. Şirvanşahla dostluğu pozmaq istəməyən məlik Əşrəf elçiləri Xacə Əbdülheyi və Əxicuq məliki Kavus və onun atası Keyqubad üçün qiymətli hədiyyələr- daş-qaşla bəzənmiş kəmər, papaq və başqa şeylərlə Şirvana yollayır. O, eyni zamanda, Keyqubadın qızına elçi göndərir. Şirvanşah Kavus elçiləri böyük hörmətlə qarşılayır və öz növbəsində Əşrəfə hədiyyələr göndərir, bacısını isə ona ərə verməkdən imtina edərək, Əşrəfin onları belə bir şərəfə layiq görməsindən təəccübləndiyini bildirir. Rədd cavabı alan Əşrəf Şirvana yürüş etmək qərarına gəldi, onun şirvanşahla münasibətləri kəskinləşdi. Lakin iş hərbi münaqişə dərəcəsinə gəlib çatmadı. Belə ki, başı Təbrizdəki hadisələrə qarışan Əşrəf öz gücünə bel bağlaya bilmədi. Bir müddətdən sonra Əşrəf yenidən Şirvanı zəbt etməyə cəhd göstərdi. Lakin şirvanşah Kavusun müqavimətinə rast gələrək onunla sülh bağlamağa məcbur oldu. H. 748 (1347/8)-ci ilin qışında Şirvan dövlətinin güclənməsindən narahat olan Əşrəf Şirvanı zəbt etmək məqsədilə vəziri Əbdülheyin və başqa əmirlərin başçılığı ilə şirvanşaha qarşı böyük qoşun göndərdi, özü isə Qarabağa yollandı. Müqavimət göstərməyə imkanı

olmayan Keyqubad və Kavus möhkəmləndirilmiş qalalardan birinə çəkildilər. Əşrəfin qoşunları ölkəni dağıdıb, əhalini qarət edərək geri qayıtdı. Lakin Əşrəf Keyqubadı və Kavusu tabe edə bilmədi. Bu hadisələrdən sonra mənbələrdə Keyqubadın adı çəkilmir. Ehtimal ki, o, h. 748 (1347/8) və 758 (1356/7)-ci illər arasında ölmüşdür[235]. Keyqubad, ehtimal ki, Bakıda yaşayırdı. Şivanşahlar sarayında sonralar yanında Seyid Yəhyanın türbəsi tikilmiş Keyqubad məscidi (1918-ci ildə yanmışdır) onun adı ilə bağlıdır. Məscidin xarabaları son vaxtlara qədər qalırdı.

H. 758 (1356/7)-ci ildə Kavus başqa Azərbaycan feodalları ilə birlikdə qəddar müstəbid Əşrəflə mübarizə məqsədilə Qızıl Orda xanı Canı bəyin yanına elçilər göndərərək onu köməyə çağırdı. Canı bəy şeyxlərin təkidilə böyük qüvvə ilə Dərbənd və Şirvandan keçərək, Azərbaycana, Çobani Əşrəfin üstünə yürüş etdi. Şirvanşah Kavus və yerli feodallar da öz qoşunları ilə ona qoşuldular. Canı bəy Əşrəfin qoşunlarını məğlub edərək Təbrizə daxil oldu və Azərbaycanı tutdu. Əşrəf əsir alındı və Kavusun təkidilə h. 758 (1356/7)-ci ildə edam olundu[236]. Şirvanşah Kavus oğlu Nödərlə birlikdə əmir Əxicuğun başçılıq etdiyi Əşrəfi feodalları ilə də vuruşmuşdur. Bu mübarizədə Kavus Arran və Qarabağın yerli hakimləri ilə əlbir idi. Müttəfiqlərlə Əşrəfin qoşunları arasında vuruşma Muğandakı Yeniçay yaxınlığında baş verdi. Kavus qələbə çalaraq Qarabağa gəldi. Əxicuq bütün Əşrəfilərlə Arrana yollandı. Onlar Araz çayının kənarında rastlaşdılar. Burada baş verən vuruşmadan sonra Araz üzərindəki körpüdə sülh müqaviləsi bağlandı. Kavus Şirvana qayıtdı. Əxicuq isə Qarabağa daxil oldu. Bu hadisələrdən sonra şirvanşahın müstəqilliyinin və hakimiyyətinin möhkəmlənməsi, habelə ölkədə hərbi əməliyyatların dayandırılması Şirvanda təsərrüfat həyatının dirçəlməsinə əlverişli zəmin yaratdı. Bu arada şirvanşahın qüdrəti xeyli artdı. Həmin dövrdə köçəri əmirləri arasında Cənubi Azərbaycanda hakimiyyət uğrunda mübarizə ərəb İraqının hökmdarı Həsən Bazarqun oğlu Cəlairi sultan Üveysin (1356-1374) Azərbaycanı zəbt etməsi ilə nəticələndi. Cənubi Azərbaycanda möhkəmlənən sultan Üveys Arranı, Naxçıvanı və digər vilayətləri öz hakimiyyətinə tabe etdirdi. O, Şirvanı da tutmağa cəhd göstərirdi[237]. Yəqin ki, bu vaxt Kavus formal surətdə özünün Üveysin vassalı olmasını qəbul etmişdi. Bunu şirvanşahın Üveysin adı ilə Şirvan şəhərlərində - h. 762 (136071 )-ci ildə Bakuya, Şəbəran və Güştəsbidə, h. 764 (1362/3)-cü ildə isə Bakuya və Şəbəranda kəsdirdiyi anonim gümüş sikkələr də təsdiqləyir. Ə. Ə. Əlizadənin «Şirvanşah Kavus h. 765 (1363/4)-ci ildə sultan Üveysin öz üzərində ali hakimiyyətini tanımır və ona xərac vermirdi» fikri yuxarıda göstərilən numizmatik materiallarla təsdiq olunmur[238]. H. 765 (1363/4)-ci ildə Şirvanı tutmaq məqsədilə Qarabağa səfərə hazırlaşan Üveys Bağdadda baş vermiş qiyamın yatırılması ilə əlaqədar qoşununu oraya göndərdiyindən, bu niyyətini təxirə salmağa məcbur oldu. Bu hadisələrdən istifadə edən şirvanşah Kavus sultan Üveysdən asılılığını tanımaqdan boyun qaçıraraq, iki dəfə Qarabağa hücum etdi və həmin vilayətin əhalisini Şirvana köçürdü[239].

Şirvanşah Kavusun sultan Üveyslə mübarizəsinin nəticələrini numizmatik məlumatlar əsasında izləmək mümkündür. Kavus sultan Üveysin əleyhinə h. 766 (1364/5)-cı ildə çıxmışdır. Həmin vaxtdan Şirvan şəhərlərində zərb edilən sikkələrdə - Güştəsbidə və Şəbəranda h. 767 (1365/6)-ci ildən, Bakuyada, Şamaxıda və Şəbəranda h. 769 (1367/8)-cu ildən və Bakuyada h. 770 (1368/9)-ci ilin əvvəlindən bu sultanın adı çəkilmir[240]. Lakin şirvanşah öz müstəqilliyini uzun müddət qoruyub saxlaya bilmədi. Sultan Üveys H. 768 (1366/7)-ci ildə Bağdaddakı qiyamı yatırdıb Təbrizə qayıtdıqdan sonra Bayram bəy və digər əmirlərin başçılığı ilə Şirvana qoşun yürütdü. Sultanın üstün qüvvələrinə uzun müddət müqavimət göstərmək iqtidarında olmayan şirvanşah Şirvanın son dərəcə möhkəmləndirilmiş qalalarından birində gizlənməyə məcbur oldu. Ehtimal ki, bu hadisələr h. 770 (1368/9)-ci ildən qabaq olmamışdır. Cəlairi qoşunları üç ay ərzində Şirvanın şəhər və kəndlərini viran və qarət etdilər. Şirvanşah öz varislik hüququnu itirməmək üçün və sığınacağının möhkəmliyinə etibar etmədiyindən təslim olmaq məcburiyyətində qaldı. O, şeyxlərin və fiqh alimlərinin vasitəçiliyilə sultana təslim olmaq üçün sığınacaqdan çıxdı. Lakin Bayram bəy onu qandallayıb sultan Üveysin hüzuruna gətirdi. Sultan Kavusu üç ay həbsdə saxlayandan sonra onu bağışladı, vassallıq və xərac vermək şərtilə Şirvan dövlətinin hökmdarı kimi hüquqlarını bərpa etdi. Kavus bu hadisələrdən sonra ömrünün sonuna qədər Üveysin sadiq vassalı olaraq qaldı[241]. Göstərilən hadisələr Bakıya da şamil idi. Belə ki, mənbələrin məlumatına görə, bir sıra yerlərin, o cümlədən Bakı vilayətinin feodal məlikləri - Hacı Fərimərz və Hacı Fəridun sultan Üveysin hüzuruna gedib, öz itaətlərini bildirməyə məcbur olmuşdular. Onlar, həmçinin hər il mal və xərac verməyi də öhdələrinə götürmüşdülər[242]. H. 770 (1368/9)-ci ildən Şirvanda Cəlairilər adından sikkə kəsilməsi bərpa olunmuşdu. Bu, fasiləsiz olaraq XIV əsrin 80-ci illərinədək davam etmişdir[243]. Şirvanşahın əcdadları I Axsitanın və III Mənuçöhrün ənənələrinə uyğun olaraq, Kavusun sarayında şirvanşaha tərif dolu qəsidələr yazan mədhiyyəçi şairlər toplanmışdı. Belə ki, şirvanşahın Ərdəbildən gətirdiyi və oğlu Huşəngin təlim və tərbiyəsini tapşırdığı şair Arif Ərdəbili onun sarayında yaşayırdı. Arif Ərdəbili sultan Üveysə ithaf etdiyi «Fərhadnamə» poemasında Huşəngə süls, nəsx və təliq xətlərini, ədəbiyyatı və digər elmləri öyrətdiyini xəbər verir. Arif Ərdəbili şirvanşahı mədh edərək deyir ki, «Şirvan dövləti Kavusun adı ilə şöhrətlənmişdir. Onun ədalətli hökmranlığı sayəsində Şirvan cənnətə dönmüşdür». Arif Ərdəbili poemasının birinci hissəsini Ərdəbildə olarkən h. 771 (1369/70)-ci ildə bitirmişdi[244]. Göründüyü kimi, şirvanşah Kavus əsirlikdən qayıtdıqdan və sultan Üveysdən vassal asılılığını qəbul etdikdən sonra, Şirvan şəhərlərinin abadlaşdırılması və bərpa edilməsi ilə məşğul olmuşdur, Mirxond, Münəccimbaşı və Hacı Xəlifəyə görə, Kavus uzun sürən hökmranlıqdan sonra h. 774 (1372/3)-cü ildə ölmüşdür. Ondan sonra hakimiyyətə oğlu Huşəng keçmişdir[245].

# HUŞƏNG İBN KAVUS

Huşəng Şirvanda h. 774 (1372/3)-cü ildən hakimiyyətə başlamışdır. Bu vaxta qədər o, sultan Üveysin yanında girov saxlanılırdı. Huşəng də, atası kimi, icazəsi ilə Şirvanşah taxtına sahib olduğu Üveyslə dostluq münasibətləri saxlayırdı. Belə ki, Kavusun ölüm xəbərini eşidən sultan Üveys özü atasının taxtını tutmaq üçün Huşəngi Şirvana göndərmişdi. Huşəngin hakimiyyəti sultan Üveysin oğlanları Hüseyn və Əhmədin hökmranlıq dövrünə təsadüf etmişdir. Şeyx Üveys h. 776 (1374)-cı ildə, Kavusdan iki il sonra ölmüşdür. Onun ölümündən sonra oğlanları və digər iri feodallar - Azərbaycan əmirləri arasında çəkişmə başladı. Bu mübarizə nəticəsində Müzəffərəddin Şah Şüca h. 777 (1375/6)-ci ildə bir neçə aylığa Cənubi Azərbaycanı tutaraq, qardaşı oğlu Şah Mansuru qoşunla Şirvana və Muğana göndərdi. Mənbələrin verdiyi məlumata görə, şirvanşah onunla vuruşmaqdan vaz keçmiş və itaətkarlıq göstərmədən Şirvanı tərk etmişdi. Cəlairi dövlətini taxt-taca sahib olmaq uğrunda mübarizədə qardaşı şeyx Həsəni öldürmüş Hüseyn idarə edirdi. H. 784 (1382/3)-cü ildə Üveysin digər oğlu Əhməd qardaşı sultan Hüseynə qarşı yürüş edərək, Təbrizdə onu öldürüb hakimiyyəti ələ keçirdi. Əslində, ölkədə öz süzerenlərinə, sultan Üveysin oğlanlarına itaət etməkdən boyun qaçıran iri köçəri feodallar - əmirlər ağalıq edirdilər. Cəlairilər dövlətinin tənəzzülü dövründə şirvanşah Huşəng öz hakimiyyətini və dövlətini möhkəmləndirdi. Bu vaxt Muğan vilayəti Şirvanın tərkibinə daxil idi. Qardaşı Bəyazidi Cəlairi dövlətinin qanuni varisi və sultan elan edən Sultaniyyə hakimi Sarı Adilə etibarını itirən sultan Əhməd Naxçıvandan keçib, Təbrizdən Arrana və Muğana qaçdı. Huşəng şirvanşaha müraciət edən sultanın yanına gəldi və ona sığınacaq verdi. Bu vaxt Əhmədi təqib edən əmir Adil öz qoşunları ilə Arrana və Muğana girdi. Adil Bərzəndə çatanda şirvanşah Huşəng də buraya gələrək əmir Adil, Əhməd və Bəyazid arasındakı danışıqlarda vasitəçilik etdi. Şirvanşah qardaşları barışdıra bildi və sülh sazişi bağlanmasına nail oldu. Həmin sazişə görə Əhməd Azərbaycana, Bəyazid İraqi-Əcəmə, Adil və Əhməd isə birlikdə İraqi-Ərəbə sahib oldular[246]. Cəlairilərlə dostluq əlaqələri saxlayan şirvanşah Huşəng ibn Kavusun zamanında Şirvanın Bakuyə, Güştəsbi, Şəbəran və Şamaxı şəhərlərində üzərində şeyx Üveysin oğlu, h. 776 (1374/5)-cı ildən h. 784 (1382)-cü ilədək hökmranlıq etmiş Cəlal əd-Din Hüseynin, habelə onun qardaşı Qiyas əd-Din Əhmədin [h. 784 (1382)-813 (1410)-cü illər] adları çəkilən kitabə olan gümüş pullar zərb edilirdi[247]. Numizmatik materiallar şirvanşahın Cəlairilərdən asılılığını təsdiq edir. Mənbələrdə Huşəngdən öz dövrünə görə təhsil görmüş hökmdar, həm də tanınmış şair kimi danışılır[248]. Lakin onun hakimiyyəti az - on il sürmüşdür. XIV əsrin sonlarında Şirvanda xırda feodalların və kəndlilərin zadəganlar əleyhinə üsyanı baş verdi. Huşəng h. 748 (1382)-ci ildə onun qəddarlığından qəzəblənmiş rəiyyəti tərəfindən öldürüldü[249]. Bundan sonra Şirvan feodalları ehtimal ki, Huşəngin birbaşa vəliəhdi olmadığından, onun ən yaxın qohumlarından birini, Şirvanşahlar

sülaləsinin Dərbəndilər adlanan digər qolunun nümayəndəsi Şeyx I İbrahimi hökmdar seçdilər.

Şirvanşahların XI əsrdən XIV əsrə qədərki hakimiyyət dövrünü nəzərdən keçirdikdən sonra aşağıdakı nəticələrə gəlmək mümkündür. Ərəb mənşəli Məzyədi Şirvanşahlar sülaləsində XI əsrin birinci rübündən etibarən dəyişiklik baş verir. Əvvəlki ərəb adları Yəzid, Əhməd, Məhəmməd və s. əvəzinə, fars adları - Ənuşirəvan, Mənuçöhr, Axsitan, Gərşəsb, Fəribürz və i. a. meydana gəlir. Onlar öz şəcərələrini Sasani hökmdarları Xosrov Ənuşirəvana və Bəhram Gura bağlayırlar. Ərəb mənşəli Şirvanşahların Sasani şahlarına söykənən əsilzadə nəslindən olmalarını iddia etmələri faktını onların qadın nümayəndələrinin qədim ənənələri dirçəldən Sasani mənşəli yerli hökmdar ailələri ilə nikah əlaqələri ilə izah etmək mümkündür. XII əsrin əvvəlində və XIII əsrdə Şirvanşahlar sarayında Builərin tənəzzülü dövründə Qərbi İranda meydana gələn Deyləmi - İran sülaləsi Kakuyilərin nümayəndələri mühüm rol oynayırdılar. Yüz ildən çox bir müddət ərzində həmin sülalənin nümayəndələri (XI əsrin sonu - XII əsrin əvvəllərində Məhəmməd əl-Kakuya, 1204-cü ildə İshaq əl-Kakuya) şirvanşahların vəziri olmuş, ehtimal ki, onlarla qohumlaşmışlar.

Şirvanşahların XII-XIII əsrlərdə iranlaşması onların siyasi, sosial və mənəvi həyatlarının bütün sahələrinə sirayət etmişdi. Yerli feodal nəsilləri ilə qohumlaşan Məzyədilər tədriclə öz ərəb mənşələrindən uzaqlaşır, Şirvan aristokratiyası tərəfindən assimilyasiyaya uğrayaraq, yerli hakim sülaləyə çevrilirdi. Şirvanşahlar sünnü idilər. Onlar elmlərə, incəsənət və ədəbiyyata hamilik edirdilər. Paytaxt Şamaxı idi, XII əsrdən isə Bakı şəhəri də onların iqamətgahı olmuşdu. XII əsrdə Şirvanşahlar sarayında poeziya və ədəbiyyat inkişaf etdi, Xaqani və bir çox başqa gözəl şairlər yetişdirmiş Azərbaycan şer məktəbi yarandı. Rəsmi ədəbi dil fars dili idi. Ərəb dilindən ilahiyyatda və dini ayinlərdə istifadə olunurdu. Canlı danışıq dili türk - Azərbaycan dili idi. Elmi əsərlər həm fars, həm də ərəb dillərində yazılırdı. Şirvanşahlar dövründə XI-XIV əsrlərdə Şirvan şəhərlərində müdafiə istehkamları - qalalar, qala divarları, bürclər tikilmişdi. Onlar məscid və xanəgahlar tikilməsinə böyük diqqət yetirir, onları gözəl kaşılarla, ornamentli dekorlarla bəzədir, müqəddəs şeyxlərə sitayiş ənənəsini davam etdirirdilər. Şirvanşahlar öz dövrlərinə görə təhsil görmuş adamlar idi. I Axsitan və Huşəng poeziyaya həvəs göstərir, özləri də şer yazırdılar. Onlar sarayda yaşayan görkəmli şair və alimləri öz uşaqlarının təlim-tərbiyəsinə cəlb edirdilər. Şirvanşahlar nəsli səlcuq və monqol ağalığına davam gətirə bilən çevik siyasətçi idilər. Səlcuq, sonra isə İraq sultanları ilə vassal münasibətlərində olan, onların adından sikkə kəsən və onlara xərac verən Şirvanşahlar, əslində, müstəqil hakimiyyət sürürdülər. Onların asılılığı çox vaxt formal xarakter daşıyırdı. Şirvanşahların monqollardan - Çingizilərdən, Cucilərdən, Elxanilərdən, Çobani və Cəlairilərdən vassal asılılığı isə daha güclü idi. Elxanilər zamanında şirvanşahlar öz adlarından sikkə kəsmək ixtiyarını itirərək, yalnız süzerenləri adından sikkə zərb edirdilər.

Şirvanşahlar sülaləsinin bir sıra nümayəndələri - I Fəribürz, III Mənuçöhr və onun oğlu I Axsitan - görkəmli diplomat və dövlət xadimləri idi. Onlardan bəziləri - III Fəribürz və Kavus-yadelli işğalçılarla vuruşan, Şirvan dövlətinin müstəqilliyi uğrunda mərdliklə mübarizə aparan bacarıqlı sərkərdə olmuşlar. Şirvanşahlar yanına əl-adil, əl-müəzzəm, əl-alim və s. epitetlər qoşulmuş məlik, xaqan, monqolların vaxtında isə sultan kimi xanədan titulları daşımışlar. Sülalənin bütün nümayəndələri şirvanşah adlanmışdır. Şirvan dövlətinin və onun hökmdarlarının real vəziyyətini əks etdirən bütün bu titullar və epitetlər istər sikkələrdə, istərsə də kitabələrdə təsbit olunmuşdur.

Şirvan dövlətinin şəhərləri Səlcuqilər dövlətinin zəiflədiyi XII-XIII əsrin əvvəllərində yüksək iqtisadi inkişaf səviyyəsinə çatdılar. Bu dövr kənd təsərrüfatında böyük dirçəliş, feodal cəmiyyətinin məhsuldar qüvvələrinin inkişafı, sənətkarlıq və ticarətin çiçəklənməsi, əmtəə-pul münasibətlərinin güclənməsi dövrü idi. Monqol istilası dövrü böyük insan tələfatı, Şirvanın şəhər və kəndlərinin, memarlıq və maddi mədəniyyət abidələrinin dağılması ilə əlamətdar olmuşdur. Lakin zəhmətkeş Azərbaycan xalqının yaradıcı qüvvələri, feodal istismarına baxmayaraq, Şirvan dövlətinin feodal cəmiyyətinin irəliləyişinə yardım göstərən iqtisadiyyat və təsərrüfat həyatını tezliklə bərpa edirdi.

### § 2. XI əsrin əvvəli - XIII əsrin birinci rübündə şəhərlərin inkişafı

Feodal cəmiyyətinin məhsuldar qüvvələrinin inkişafı, sənətkarlıq, ticarət və əmtəə-pul münasibətlərinin yüksəlişi Şirvan dövlətində şəhərlərin və şəhər həyatının inkişafına səbəb oldu. XI-XIII əsrin birinci rübündə Şirvanda iri iqtisadi və mədəni mərkəzlər olan çoxlu əhaliyə malik bir sıra böyük şəhərlər var idi. Şirvanın paytaxtı Şamaxıda yüz minə, Beyləqanda qırx minə yaxın əhali yaşayırdı[1]. XII-XIII əsrin birinci yarısı ölkənin iqtisadi, siyasi və mədəni həyatında əhəmiyyəti artan Şirvan feodal şəhərlərinin çiçəklənmə dövrü idi. Bu dövrdə feodal münasibətlərinin, əmək bölgüsünün inkişafı, sənətkarlıq və ticarətin yüksəlişilə əlaqəli Şirvan şəhərlərində əmtəə istehsalı artdı. Şamaxı, Bakı, Beyləqan, Dərbənd Şərqdə məşhur olan mühüm sənətkarlıq və ticarət mərkəzlərinə çevrildilər[2]. Şirvan şəhərləri, xüsusilə Şamaxı özünün ipək məmulatı və ətraf kəndlərdə yetişdirilən xam ipəyi ilə şöhrət qazanmışdı. Xamna və ipək məmulatı Qafqazın başqa şəhərlərinə, habelə bir sıra Yaxın Şərq ölkələrinə aparılırdı. Artıq XIII əsrdən Şirvan ipəyi böyük miqdarda İtaliyaya və Fransaya ixrac olunurdu[3]. Şirvanda ipəkçiliyin inkişafı onun iqtisadiyyatının yüksəlişinə yardım göstərirdi. O, Şirvan əhalisinin başlıca məşğuliyyət sahələrindən biri idi. Şirvanın müxtəlif yerlərindəki qoyun sürülərindən, xalça və xalça məmulatı toxumaq üçün yüksək keyfiyyətli yun alınırdı. Mənbələrdə Şirvanın şəhər və kəndlərində xalçaçılığın inkişaf etdiyi xəbər verilir. Quba-Şirvan qrupuna məxsus XIII- XIV əsrlərə aid ən qədim xalça dövrümüzədək gəlib çatmışdır[4]. Kəndlərdə pambıq və kətan becərilirdi. Onlardan

şəhərlərdə pambıq və kətan parça və paltar hazırlanırdı. Bu sahədə Dərbənd xüsusilə şöhrət qazanmışdı[5]. Ərəb və fars mənbələrində Şirvanın mühüm şəhərləri, bir sıra yerlərdə çıxarılan faydalı qazıntıları, kənd təsərrüfatı məhsulları, sənətkarlıq əsərləri, şəhərlərdəki ticarət haqqında məlumatlar verilir. Həmin mənbələrdəki iqtisadi xarakterli məlumatlar xüsusilə qiymətlidir. Müəlliflərin iqtisadiyyata dair məlumatları, əsasən, Şirvanın şəhərlərində istehsal olunan malların və məhsulların çeşidlərinə aiddir. Bu məlumatlar XII-XIII əsrin əvvəllərində sənətkarların istehsal etdiyi malların xarakteri, habelə şəhərlərdə ticarətin səviyyəsi və Şirvanın müxtəlif yerlərində kənd təsərrüfatının inkişafına dair müəyyən dərəcədə fikir yürütməyə imkan verir. Mənbələrin əksəriyyətində Bakıdan bəhs edilərkən, şəhərin ətrafında və həndəvərindəki kəndlərdə Yaxın Şərq ölkələrinə ixrac olunan xeyli neft və duz istehsalından söhbət açırlar[6]. Əl-Biruni XI əsrin birinci rübündə müxtəsər şəkildə deyir: «Bakı ağ neft mədənidir»[7]. H. 520 (1126)-ci ildə yazılmış bir anonim əsərdə deyilir: «... Bakı adasından ağ və qara neft çıxarılır, onun torpağı daim titrəyir və yerdən od çıxır»[8]. Göründüyü kimi, burada söhbət vilayətdən, yəni Abşeron yarımadasından və onun inzibati mərkəzi Bakıdan gedir. 1131-ci ildə Xəzər dənizinin cənub-qərb sahillərini gəzib dolaşmış ərəb səyyahı Əbu-Həmid əl-Əndəlusi əl-Qərnati öz əsərində Abşeronun neft verən yerlərini və kəndlərini təsvir edir ki, burada Suraxanıdan və onun əbədi odundan bəhs olunduğunu başa düşmək çətin deyil: «Bu qara torpaqdan mazut [qır, qara və ağ neft çıxır. Həmin yer Şirvan ölkəsindən olan Bakuh yaxınlığındadır... Qırı buradan başqa yerlərə aparırlar». O, Bakı yaxınlığındakı başqa bir adanı (ehtimal ki, Pirallahı adası) da təsvir edir. «Bu dənizdə qır kimi bir ada vardır. Həmin adada yerdən acı, duzlu və pis qoxulu su çıxır. Bu su ilə birlikdə yaxşı bürüncə oxşayan dördkünc daşlar da çıxır. Adamlar bunları tərəzidə çəki-daşı (misqal) yerinə işlədirlər». Əl-Qərnati əsərin başqa bir yerində söyləyir ki, «bu daşlardan kəhrəbaya bənzər sarı muncuqlar düzəldirlər. Adamlar onları dünyanın müxtəlif yerlərinə aparırlar». O, həmçinin yazır ki, Xəzər dənizinin sahillərində və adalarda qızılın əyarını müəyyənləşdirmək üçün müxtəlif növlü məhək daşları çıxarılır[9]. Zərgərlər həmin daşlardan qızıl məmulatları hazırlanmasında istifadə edirdilər. Bu daşların çıxarılması zərgər dükanlarının olduğunu və şəhər əhalisinin qızıldan hazırlanmış bəzək əşyalarından geniş istifadə etdiklərini göstərir.

XIII əsrin birinci rübündə Abşeronda xeyli neft çıxarılırdı; bunu irandilli coğrafiyaşünas Məhəmməd ibn Nəcib Bəkranın verdiyi məlumatlar da təsdiq edir. O, təqribən 1210-cu ildə yazdığı «Cahannamə» adlı əsərində neftin müxtəlif növlərindən danışarkən, Bakı və Muğandakı neft quyularından ağ neft, Dərbənd yaxınlığında yaşıl neft və Bəlxan sərhəddində qara neft hasil olunduğunu qeyd edir, sonra o, qara neftdən ağ neft alınmasından bəhs edir və onu destillə (təqtir) adlandırır[10]. Bu maraqlı məlumatlar hələ o vaxtlar neftin emalının, onun kimyəvi üsulla təmizlənməsi və istifadə olunmasının geniş tətbiq edildiyini göstərir. XIII əsrin 20-ci illərində farsca yazılmış «Əcaib əd-Dünya» adlı anonim coğrafiya

əsərində Bakı haqqında deyilir: «... o, Şirvan vilayətində dəniz kənarında şəhərdir. Onun torpağı bütün gecəni od kimi yanır, qazanı torpağın üstünə qoyurlar və içindəki su qaynayır. Onun malları qara, ağ və yaşıl neft və duzdur»[11].

Şərq müəlliflərinin Bakı və Abşeron haqqında verdikləri bu məlumatlar həmin yerlərdə çoxlu neft və duz hasil olunduğunu göstərir. Bu məlumatlarda, əsasən, neft və qaz mənbələrindən bəhs edilir, digər malların adı çəkilmir. Neft təkcə müxtəlif şəkildə təsərrüfat həyatının bir çox sahələrində tətbiq olunmurdu. Ondan, eyni zamanda, müalicə vasitəsi kimi də istifadə edilirdi. Neft qədim zamanlardan işıq vasitəsi kimi işlədilmişdir. Bunu arxeoloji qazıntılar zamanı Bakı, Abşeron və Azərbaycanın bir sıra şəhərlərinin ərazisindən tapılmış çıraqlar təsdiq edir. Bakıdakı Şirvanşahlar sarayı və İçərişəhər, Beyləqan (Örənqala), Naxçıvan, Bərdə, qədim Gəncə, Qəbələ və s. ərazilərdə aparılan arxeoloji qazıntılar zamanı üzərində neft izləri qalmış gil çıraqlar tapılmışdır[12]. Rəşidəddin Mirxond və başqa müəlliflərin qeyd etdiyi kimi, neft hərbi texnikada da tətbiq olunurdu[13].

Şəhərin təsərrüfat həyatını İçərişəhərdə bir çox illər boyu aparılan arxeoloji qazıntı işləri nəticəsində əldə edilmiş materiallar əsasında izləmək mümkündür. 1970-ci ildə İçərişəhərin şimal tərəfində (Kiçik qala küçəsi) uçurulmuş evin yerində 80 kv. metr sahədə aparılan arxeoloji qazıntı işləri zamanı 2 metr dərinlikdə qədim Bakının XII-XIII əsrlərə aid bir neçə təsərrüfat tikilisindən və kiçik həyətin daş divarlarından ibarət yaşayış evinin qalıqları üzə çıxarılmışdır. Həyətdə təndirlər, ətrafında daş döşənmiş quyular, bir neçə saxsı borudan ibarət novdan aşkar edilmişdir. Mədəni təbəqədə şirsiz və şirli keramika, saxsı qab qırıqlarına, taxta darvazaları bəzəyən yastı mis çax-çax parçalarına, mavi saxsı muncuqlara, Şirvanşahların kəsdirdiyi mis sikkə dəfinələrinə rast gəlinir. Bundan başqa Şirvanşahlar sarayının şərq tərəfində 16x8 m sahədə də arxeoloji qazıntılar aparılmışdır. Düzbucaqlı bina divarlarının bünövrələri ilə yanaşı, su, təsərrüfat və zibil quyuları, təndirlər və s. aşkar edilmişdir. Çoxlu miqdarda şirli və şirsiz qablar və onların qırıntıları, mis və dəmir əşyalar, şüşə və saxsı məmulatları tapılmışdır. Üst təbəqədən tapılmış şirli keramikada anqob və manqanla işlənmiş, naxışla, rəsmlərlə və oymalarla bəzədilmiş polixrom qablar üstünlük təşkil edir. Kasaların bəzilərinin dibinə qabarıq möhürlər vurulmuşdur. Çoxlu dəyirman daşı, habelə Şirvanşahlann kəsdirdiyi mis pullar tapılmışdır[14]. 1971-ci ildə Bakı yüksəkliyinin cənub-şərq yamacında 168 $m^2$ sahədə qazıntı işlərinə başlanılmışdı. Aşkara çıxarılmış yaşayış evlərinin qalıqları qazıntı sahəsinin cənub-şərq tərəfindədir. Divar bünövrələrinin alt hissəsi azacıq yonulmuş daşdan hörülmüş, arası isə çapıq daşlarla doldurulmuşdur. XI-XIII əsrlərə aid təbəqələrdə təsərrüfat və su quyuları, təndirlər, ocaqlar və s. aşkar edilmişdir. Tapıntıların əksəriyyəti keramika məmulatlarından, fayans, metal, şüşə əşyalardan və mis sikkələrdən ibarət idi. Gil məmulatlar küplər, qulplu səhənglər, boşqablar, kasalar, çıraqlar və müxtəlif tipli qazanlarla təmsil olunmuşdur. Sarı gildən qabarıq basma nəbati və həndəsi naxışlı qablar xüsusilə seçilir. XI-XIII əsrlərə məxsus şirli qablar polixrom olub, oyma

naxışlarla bəzədilmişdir. Şirli kasaların bəzilərinin dibində dulusçu ustanın qabarıq möhürü olmuşdur. Tapılmış mis, dəmir, bürünc və şüşə məmulatları orta əsrlər Bakısında metal emalı, şüşəüfürmə, zərgərlik və digər sənətlərin inkişaf etdiyini göstərir. Şirvanşahlara, Eldəgizlərə və Cəlairilərə məxsus mis sikkələrin tapılması Bakının Azərbaycanın digər şəhərləri və qonşu ölkələrlə geniş ticarət əlaqələri saxladığını təsdiq edir[15].

1973-cü ildə qazıntı işləri qala hissəsinin şimal tərəfində qövsşəkilli bürcləri olan şəhər divarlarının yaxınlığında aparılmışdır. Həmin ərazidə aparılan tədqiqatlar göstərdi ki, orta əsrlər Bakısında sənətkarlıq emalatxanalarının əksəriyyəti şəhərin bu hissəsində yerləşmişdi. XI-XIII əsrlərə aid təbəqədə polixrom keramika qırıqları, həmçinin, bir neçə saxsı qab parçası, o cümlədən şirüstü naxışla bəzədilmiş göy rəngli dairəvi kasa dibi tapılmışdır[16]. Şimal-şərq tərəfdən, demək olar ki, Şirvanşahlar sarayına bitişik sahədə qazıntı işləri binaların və digər məişət obyektlərinin nisbətən kiçik bir ərazidə bir-birinə çox yaxın tikildiyini göstərir. Bu, İçərişəhər ərazisinin sıx məskunlaşdığını və XI-XIII əsrin əvvəllərində Bakıda şəhər həyatının intensivliyini təsdiq edir. Bu sahədən əldə edilmiş tapıntılar içərisində dairəvi altlıqlı iki saxsı kasa maraq doğurur. Onlardan biri açıq-mavi şirlə örtülmüşdür. Üzərində ərəb əlifbası ilə qabarıq kitabə vardır. Digər kasanın dibində isə nəbati naxışlar və quş təsvir olunmuşdur. 24 mis sikkə də tapılmışdır.[17].

Qövsşəkilli bürcləri olan şimal qala divarlarının yaxınlığında 64 kv. m sahədə aparılan qazıntılar zamanı XI-XIII əsrlərə aid təbəqədə təsərrüfat və zibil quyuları, müxtəlif diametri doqquz təndir aşkar edilmişdir. Müxtəlif keramika məmulatı, saxsı şlakı, şüşə və saxsı qab qırıqları, dəmir əşyalar tapılmışdır[18].

1976-cı ildə Bakı yüksəkliyinin orta əsrlər Bakısının qələbəlik və əhalisi sıx olan rayonlarından olan cənub yamaclarında qazıntı işləri aparılmışdır. 64 kv. m. sahədə irihəcmli yonulmuş daşdan hörülmüş bina divarlarının bünövrələri aşkar olunmuşdur. İçərisində daş altlıq üstündə qoyulmuş beş iri təsərrüfat küpü olan böyük anbar binası üzə çıxarılmışdır. Adi və şirli keramika məmulatı, Rey və Kaşan tipli saxsı qablar, şüşə qab və dəmir əşya qırıqları tapılmışdır[19]. Aşkar edilmiş obyektlərin sıxlığı və çoxlu miqdarda şüşə, keramika, dəmir və mis məmulatlar XI-XIII əsrin əvvəllərində şəhərin intensiv həyatından, burada sənətkarlıq və ticarətin inkişafından xəbər verir. Xeyli sikkə tapılması əmtəə-pul münasibətlərinin inkişaf etdiyini göstərir. Bu dövrdə Bakı Şirvanın mühüm iqtisadi və inzibati mərkəzlərindən biri və Xəzər dənizində iri liman idi.

Bu dövr mənbələrində Bakıdan başqa Şirvanın digər mühüm şəhərləri də qeyd edilir. Ərəb müəllifi əl-İdrisi h. 548 (1154)-ci ildə yazdığı «Coğrafiya» əsərində və xəritədə Arran və Şirvanın mühüm şəhərləri arasında Beyləqan, əş-Şəmaxiyyə, Şirvan, Bab əl-Əbvab, əl-Abxaz[*], Cardiban (Girdiman - S. A.) qalası,

[*] Nöqtələrin düzgün qoyulmaması üzündən mətndə əl-Abxaz əvəzinə səhvən əl-Əycan getmişdir.

əş-Şəbəran, Qəbələ və Şəkinin adlarını çəkir. O, Muğanı Azərbaycana aid edir. Əl-İdrisi ticarət yollarından danışaraq yazır: «Bərdə şəhərindən Bab əl-Əbvaba şimal ilə şərq arasında olan yol: Bərdə şəhərindən Bərzənc şəhərinə olan yol 54 mil, Bərzəncdən əş-Şəmaxiyyə şəhərinədək 42 mil, əş-Şəmaxiyyədən Şərvan şəhərinədək 3 gün; Şərvandan əl-Abxaz şəhərinədək 2 gün, əl-Abxazdan Samur körpüsünədək 36 mil, oradan da əl-Baba 60 mildir. Cəmisi 300 mil». Məlumdur ki, bir mil 2 kilometrə, gün isə təqribən 19 kilometrə bərabərdir. Beləliklə, Bərdə ilə Bab əl-Əbvab (Dərbənd) arasındakı məsafə 600 kilometrə bərabər idi. Əl-İdrisi əl-İstəxridən və İbn Havqəldən iqtibasla Bab əl-Əbvab liman-şəhərini belə təsvir edir: «Bab əl-Əbvab Xəzər dənizi sahilində çox böyük şəhərdir. Şəhərin ortasında gəmilər üçün liman vardır. Bu limanın girəcəyində onu hər iki tərəfdən qapayan bəndə kimi iki bina tikilmişdir. Girəcəyə zəncir çəkilmişdir və limanın sahibinin icazəsi olmadan buraya heç kəs nə girə, nə də çıxa bilər. Həmin iki bənd arasına qurğuşun tökülmüş möhkəm suxurlardandır. Dərbəndin divarları çox möhkəm daşdan, çiy kərpic və gildən tikilmişdir». Sonra o, bu şəhərin əhəmiyyətindən, onun çoxlu bağlarından, lakin onların az bar verməsindən, buraya başqa yerlərdən meyvə gətirilməsindən yazır. Əl-İdrisi xəbər verir ki, Xəzər dənizindəki bu şəhər Sərir və Təbəristanın, Curcanın digər hissələri üçün ticarət limanıdır. «Orada böyük miqdarda istehsal edilən kətan parçadan Arran, Ərminiyyə və Azərbaycan əhalisinin üst geyimlərinin altından geydikləri paltarlar tikilir». Əl-İdrisi Bab əl-Əbvabdan Tiflisə qədər bütün Arran ölkəsində külli niıqdarda boyaqotu yığılmasına və Xəzər dənizi vasitəsilə Curcana, oradan isə Hindistana aparılmasına dair İbn Havqəlin məlumatını təkrar edir. O, həmin boyaqotunun onun bütün növlərindən keyfiyyətcə üstün olduğunu göstərirdi.

Əl-İdrisi böyüklüyünə və evlərinin sayına görə bir-birinə bənzəyən Bərzənc, əş-Şəmaxiyyə, Şərvan, əl-Abxaz şəhərlərinin, Samur körpüsü deyilən yerin adlarını çəkir. O, daha sonra burada tacirlərin gəldiyi bazarlar, sənətkar dükanları (karxanalar), çoxlu meyvə bağları olduğunu, ölkənin bərəkətli, əhalisinin isə xarici ticarətlə məşğul olduğunu göstərir[20].

XIII əsrin əvvəlinə aid «Əcaib əd-Dünya» əsərində Dərbənd malları arasında rus tacirlərinin şimaldan gətirdikləri qiymətli «qunduz, samur, sincab xəzlərinin, qul və gözəl cariyələrin»[21] adlarını çəkir. 1971-ci ildən etibarən Dərbənd ərazisində aparılan arxeoloji qazıntılar bu qədim şəhərin iqtisadi həyatına dair narrativ mənbələrin məlumatlarını tamamlayır.

Qazıntılar nəticəsində iki hissədən içqala (kuhəndiz) və şəhərin özündən (şahəristan) ibarət olan orta əsrlər Dərbəndinin strukturu müəyyən edilmişdir[22]. Dərbəndin müdafiə istehkamları kompleksində Narınqala içqalası xüsusi yer tuturdu. İçqalanın mədəni təbəqələrinin ümumi qalınlığı 10 metrə çatır. Şəhərin içqalasının şimal-qərb hissəsində orta əsr xan sarayı kompleksinə aid ümumi sahəsi 85 kv. m. olan 4 bina aşkar edilmişdir. Çoxlu ocaq və təndirlər, daş özüllər üzərində yaxşı qalmış buruqvarı oyma naxışlarla bəzədilmiş ağac sütunlar və

bişmiş kərpicdən dekorativ oymalı kvadrat sütun üzə çıxarılmışdır. Beşinci kompekslə bağlı təbəqədən XI-XII əsrlərə aid çoxlu şirli və şirsiz keramika, memarlıq detalları, şüşə və metal məmulat, o cümlədən şüşə bilərziklər, gözəl naxışlanmış xırda sümük məmulatlar, bəzək şeyləri və silahlar, içərisində bəzi hallarda Çin möhürlərinə oxşar möhürləri olan yüksək keyfiyyətli çini fincan və piyalələr seçilən gətirilmə mallar tapılmışdr. Tapıntılar içərisində gözəl çini nimçənin alt hissəsi də vardır. Bu kompleksi XII-XIII əsrin birinci yarısına aid etməyə imkan verən seladondan hazırlanmış gətirilmə kasanı, zərnaxışlı işlənmiş gətirilmə saxsı qab qırıqlarını qeyd etmək vacibdir. Göstərilən materiallar Çin və digər ölkələrlə ticarət əlaqələri saxlandığından xəbər verir.

İçqalanın bu hissəsi Sasanilər dövründə və XI əsrin sonu - XII əsrdə daha intensiv şəkildə məskunlaşmışdır. Kompleksin çox böyük olması, onun içqalanın ən əlverişli yerində yerləşməsi, binanın divarlarının orta əsrlər Dərbənd memarlığı üçün son dərəcə nadir hal olan bişmiş kərpicdən tikilməsi və çoxsaylı avadanlığı bu memarlıq abidəsinin qalıqlarını XII-XIII əsrlər Dərbənd xanının sarayı ilə eyniləşdirməyə əsas verir[23].

Təpənin yamacında, içqalanın altında daha iki şurfun özülü qoyulmuşdu. Birinci şurf göstərdi ki, yamacın yuxarı hissəsi yalnız XI əsrin sonundan məskunlaşmağa başlamışdır[24]. İçqaladan başqa, şəhərin şimal və cənub divarları arasında, Cümə məscidindən 60-70 m qərbə doğru daha dörd stratiqrafik şurfun təməli qoyulmuşdu. Burada 1,9 m dərinlikdə (1-ci şurf) XI-XII əsrlərə aid su kəməri, çoxlu, əsasən şirli keramika məmulatı aşkar edilmişdir. Qazıntının mərkəz hissəsində, Cümə məscidinin qənşərində (2-3-cü şurflar) külli miqdarda keramika materialı tapılmışdır. Cənub divarının yaxınlığında XII-XIII əsrlərə aid bişmiş kərpicdən tikilmiş birotaqlı bina (eni 8,2 m, divarların qalınlığı 1,3 m, uzunluğu 19,5 m) üzə çıxarılmışdır. Binada xeyli keramika, bütöv şirli və şirsiz kasalar, şüşə məmulatı parçaları tapılmışdır. Mədəni təbəqənin qalınlığı 3,5 metrdir. Şurfların üçü dərinliyi bəzən 20 metrə çatan qədim quyulardır. Onların bəziləri bir-biri ilə birləşdirilmişdir və ehtimal ki, su anbarları olmuşlar. Cümə məscidi rayonu artıq ərəblərin vaxtında, yazılı mənbələrin xəbər verdiyi kimi, Dərbənd Qafqazda böyük şəhər və Xəzər dənizində iri liman olarkən tikilmişdir[25]. Arxeoloji qazıntı materialları göstərdi ki, XI-XIII əsrin əvvəllərində Dərbənddə qızğın şəhər həyatı olmuş, sənətkarlıq və ticarət, bir sıra ölkələrlə əmtəə-pul münasibətləri inkişaf etmişdi.

XIII əsrin 20-ci illərində yazılmış anonim «Əcaib əd-Dünya» əsərində Arrandan Kür çayı boyunca Arazın ona qovuşduğu yerədək uzanıb gedən bir ölkə kimi danışılır. Arranın uzunu və eni 30X40 fərsəxə yaxındır. «Bol nemətli xoşbəxt yerdir: o, şahların qış iqamətgahı idi. Dünyanın əhali yaşayan heç bir yerində Arrandakı qədər imarət yoxdur: heç bir yerdə oradakı qədər türk yoxdur: «Deyirlər ki, orada yüz min türk süvarisi var». Ehtimal ki, bu rəqəm bir qədər böyüdülmüşdür. Çoxlu miqdarda türk, yəqin ki, döyüşçülər, Səlcuq hökmdarlarının

və Eldəgəzlərin iqta şəklində verdikləri münbit Arran torpaqlarının sahibləri idi. Sonra Arran mallarının adları sadalanır: «Böyük miqdarda ipək, düyü, qoyun, öküz və at»[26].

Həmin mənbədə Arranın mühüm şəhəri Beyləqan böyük şəhər kimi təsvir edilir: «İslamın hökmdarı və padşahı, dünya və din yolunda müzəffər mərhum sultan Əbu Bəkrin zamanında şəhər xeyli abadlaşdırıldı; orada çoxlu qəsrlər, köşklər* tikildi. Qədimdə bu şəhərdə su yox idi və bu səbəbdən adamlar, şəhərin əhalisi əzab-əziyyət çəkirdi; Arazdan ora bir neçə kanal çəkilmişdir. Nəql edirlər ki, şəhər onların [Əbu Bəkr və Özbək] xeyirxah əməllərindən parladı. Çoxlu evlər tikildi və əyanlar [bozorgan] oraya köçdülər. Orada [şəhərdə] bol nemətlər və çoxlu bazar yerləri vardır. Oranın malları: gəzz-gəşide*, yaxşı nar, üzüm, portağal [narənc]; kəklik, qırqovul, balıq çoxdur. Yerli mallar, Şirvan və Dərbənd [malları] boldur. Oranın havası cənnət havasını xatırladır: nə soyuqdur, nə də isti. [Şəhər] şahların daimi yaşayış yeri idi»[27]. Arranın başlıca şəhərlərindən olan Beyləqanın bu təsviri şəhərin Eldəgəzlər zamanında, onu viran qoyan monqolların hücumu ərəfəsində yüksək inkişaf səviyyəsinə çatdığını göstərir.

Beyləqanda aparılan arxeoloji qazıntılar nəticəsində şəhər təsərrüfatı iqtisadiyyatının və sənətkarlıq istehsalının yüksək səviyyəsini təsdiq edən xeyli materiallar əldə olunmuşdur. Şəhər sənətkarlığının bir çox sahələri - metalişləmə, ipəkçilik, xalçaçılıq, toxuculuq, dulusçuluq, zərgərlik, şüşə istehsalı, daşişləmə, ağacişləmə, dabbaqlıq və s. intensiv şəkildə inkişaf edirdi. XI-XIII əsrin əvvəllərində ölkənin başqa şəhər və vilayətlərinə də aparılan şirli saxsı qablar, kərpic və kaşı istehsalı xüsusilə vüsət almışdı. Şirli qabların dekor texnikası son dərəcə yüksək səviyyəyə çatmışdı. Bu qabların valehedici koloriti istedadlı naxışçəkən rəssamların olduğunu göstərir. Zərgərlik sənəti də səviyyəcə ondan geri qalmırdı. Beyləqan zərgərləri qızıl emalında mürəkkəb texniki üsullar - məftilçəkmə, danə düzmə, cilalanmanın təkmilləşdirilməsi və s. - tətbiq edirdilər. Beyləqan ustaları şüşə məmulatı istehsalında da böyük uğurlar qazanmışdılar. XII-XIII əsrlərdə Beyləqanda feodallar və əyanlar üçün böyük evlər (köşklər) tikmiş təcrübəli bənna-memarlar var idi. Arxeoloji materiallar və mənbələrin məlumatları əsasında XI əsrin sonu - XIII əsrin əvvəllərində Beyləqanda inkişaf etmiş otuzdan çox sənət və peşənin siyahısı tərtib olunmuşdur. Bunlar dəmirçilər, silahqayıranlar, misgərlər, zərgərlər, qalayçılar, daşyonanlar, bənnalar, rəngsazlar, ağacişləmə ustaları, əhəngçilər, kankanlar, dülgərlər, xarratlar, dulusçular, şüşə ustaları, toxucular, ipəkçilər, boyaqçılar, yunqırxanlar, daraqçılar, dərzilər, paltaryuyanlar, nəqqaşlar, dabbaqlar, çəkməçilər, pinəçilər, sərraclar, əttarlar, əczaçılar, çörəkçilər, baqqallar, qəssablar, dəlləklər, yağçalanlar, çaxırçılar, hanballar idi[28]. Bu, XI-XIII əsrin əvvəlində təkcə Beyləqanda yox, habelə Şirvanın digər şəhərlərində də

---

* Köşk - bağ evi.
* Gəzz-gəşide — tikmə naxışlı ipək parça.

mövcud olan sənətkarlıq sahələri və peşələrin heç də tam siyahısı deyildir.

Feodal şəhəri onu kənd təsərrüfatı məhsulları və sənaye xammalı ilə təchiz edən ətraf kəndlərlə, aqrar sahə ilə sıx bağlı idi. Şəhər də, öz növbəsində, kəndistanı sənətkarlıq məmulatı ilə təmin edirdi. Beyləqan, Şamaxı və Dərbənd əhalisi şəhər ətrafı yardımçı təsərrüfatla məşğul olurdu. Şəhərin ətrafında üzümlüklər və meyvə bağları salınmışdı. Sənətkarlığın inkişafı XI-XIII əsrlərdə ticarətin inkişafına təkan verirdi. Beyləqanda hazırlanmış bədii şirli qablar - Şamaxıda, Bakıda və Şirvanın digər şəhərlərində geniş yayılmışdı. Beyləqanda, Şamaxıda, Bakıda çoxlu miqdarda sikkələrin və pul dəfinələrinin tapılması Azərbaycanın müxtəlif şəhərləri və Yaxın Şərqin digər ölkələri ilə ticarət əlaqələri saxlandığını göstərir. Beyləqanda satılan Şirvan və Dərbənd malları, əsasən, Şamaxıdan gətirilən qiymətli qunduz, samur, sincab xəzləri, qul və cariyələr, Şəbran və Şamaxı ipəyi, Bakı nefti, duz və sairədən ibarət idi. XII-XIII əsrlərdə Beyləqana və başqa şəhərlərə İranın Rey və Kaşan şəhərlərindən xeyli İran saxsı qabları, Suriyadan şüşə məmulatı gətirilirdi. Beyləqanda, Şirvan və Arranın digər şəhərlərində tapılmış çoxlu saxsı qablar İranla ticarət əlaqələrinin mövcud olduğunu göstərir. Müxtəlif ölkələrə məxsus XII-XIII əsrlərə aid külli miqdarda sikkə Beyləqan, Bakı, Şamaxı və Dərbəndin qonşu şəhərlər və həmsərhəd ölkələrlə ticarət əlaqələrinin artdığını təsdiq edir. Burada böyük miqdarda (1500-dən çox) Eldəgəz sikkələri ilə yanaşı, gürcü, şirvanşahlar, Dərbənd məlikləri, Bizans, Kiçik Asiya Səlcuqiləri Əhər məliklərinin sikkələri aşkara çıxarılmışdır. Beyləqanda mis sikkə kəsilən zərbxana var idi. O vaxtlar Beyləqandan aşağıdakı karvan yolları keçirdi: Beyləqan - Ərdəbil, Beyləqan - Gəncə, Beyləqan - əl-Bab (Bərdə və Şamaxıdan keçməklə)[29]. Göstərilən materiallar XII-XIII əsrin əvvəllərində Beyləqanın və Şirvanın digər şəhərlərinin iqtisadi və təsərrüfat həyatının çiçəkləndiyini göstərir.

Şirvanın bir sıra digər şəhərlərinin də həmin dövrdə tərəqqi etməsi «Əcaib əd-Dünya»da əksini tapmışdır. Naməlum müəllif dəniz sahilində dar bir sahədə yerləşən Şirvan əyaləti haqqında danışaraq yazır: «Adil Nuşirəvan [onu] abadlaşdırdı. Onun [Şirvanın] əhalisi acgöz və etibarsızdır, onlar qara papaq qoyurlar. Oranın malları: cariyə qızlar, türk qulları, qoyun, balıq və çoxlu qara neftdir». XIII əsrin əvvəllərində Şirvanda və Arranda böyük miqdarda türklərin mövcudluğu Səlcuq istilası və ölkədə Eldəgəzlərin qoşununun, habelə həmin vaxtlarda qıpçaqların, buraya basqınlar edən çoxlu qıpçağın olması ilə bağlı idi. Əsir türkləri, kişi və qadınları Dərbənd, Şamaxı və digər şəhərlərin qul bazarlarında satırdılar. Şirvanın paytaxtı Şamaxıdan Arranda çox möhkəmləndirilmiş şəhər kimi bəhs olunur: «Əhali son dərəcə təəssübkeş möminlərdir»[30].

Orta əsrlər Şamaxısında aparılan arxeoloji qazıntılar nəticəsində bürc və ona bitişik qala divarları ilə birlikdə şəhərin içqalasının qalıqları aşkar edilmişdir. Yaxşı yonulmuş iri daşlardan üzlük çəkilmiş qala divarlarının qalınlığı 2,5 metrə

çatır[31]. Şamaxı şəhəristanının mədəniyyət qalıqları ilə ən zəngin təbəqəsi XII-XIII əsrlərə aiddir. Onun qalınlığı 2 metrdir. Burada yaşayış evlərinin qalıqları, təndirlər, otaq və həyət döşəmələrinin hissələri aşkar edilmiş, çoxlu miqdarda şirli və şirsiz saxsı və şüşə qab qırıqları tapılmışdır. Şirli keramikanın əksəriyyəti bir və çox rəngli, qrafik və həndəsi naxışlıdır[32]. Qabların bəzilərində orta əsrlər Şirvan və Arran şəhərlərinin keramika məmulatlarında rast gəlinən dulusçuluq emalatxanasının möhürü vardır. Onların bir qismi isə Şamaxı keramika emalatxanaları üçün səciyyəvidir[33]. Şamaxı şəhristanında yaxşı yonulmuş daşdan tikilmiş XII əsrə aid böyük ictimai bina aşkar edilmişdir. O, beş otaqdan və böyük zaldan ibarətdir. Həmin böyük ictimai bina monqol hücumu zamanı dağıdılmış, XIV əsrin ortalarında bərpa edilmişdir. XII əsr təbəqəsində şirsiz və şirli keramika, habelə, Rey, Kaşan tipli zərnaxışlı saxsı və şüşə qab qırıqları tapılmışdır[34]. Şamaxının şimal ucqarındakı sahədə aparılan qazıntılar zamanı beş bina qalığı üzə çıxarılmışdır. Onlarda böyük təsərrüfat küpləri, səhənglər, sferokonus qırıqları və digər məişət əşyaları, habelə XII-XIII əsrlərə aid çoxlu sikkə tapılmışdır[35]. Şamaxı şəhərindən şimal-qərbdə sıldırım dağın zirvəsində Gülüstan qalası ucalırdı. O, XII-XIII əsrlərdə Şirvanın Şamaxını müdafiə edən ən əlçatmaz və əzəmətli qalalarından olmuşdur[36]. Şamaxıda aşkara çıxarılmış XI - XIII əsrlərə aid arxeoloji və numizmatik materiallar, burada zərb edilmiş çoxlu miqdarda sikkələr, bir sıra memarlıq abidələri, keramika qalıqları - bütün bunlar inkişaf etmiş orta əsr feodal şəhərində, Şirvanın ipəkçilik sənayesinin mərkəzində intensiv həyat getdiyini, müxtəlif sənət sahələrinin inkişaf etdiyini, həmin dövrdə Şamaxının iqtisadi və mədəni yüksəliş keçirdiyini göstərir.

Şamaxıdan şimalda, dəniz sahilinin yaxınlığında Şirvanın qədim şəhərlərindən biri –Şəbran yerləşirdi. «Əcaib əd-Dünya»da Şirvanla Tiflis arasındakı «bol nemətli» məskun Şəbəran vilayətindən bəhs edilir: «Onun malları böyük miqdarda ipəkdir»[37]. Məlum olduğu kimi, daha erkən mənbələrdə xatırlanan Şəbəran Şirvanın başlıca şəhərlərindən biri, onun qəsəbəsi, X əsrdə Şirvanı təşkil edən üç əsas nahiyədən biri olan Xursan ərazisinin inzibati mərkəzi idi[38]. X əsrin sonunda Şirvanşah Məhəmməd ibn Əhməd Şəbəran şəhərinin ətrafına divar çəkdirmişdi. Bu dövrdə vilayət və Şəbəran şəhəri mənbələrdə varlı, inkişaf etmiş yerlər kimi göstərilir. XI əsrdə şirvanşahların ailə məqbərəsi burada idi[39]. Şəhər XV əsrin başlanğıcında süquta uğramışdır. Qədim Şəbəran şəhər yerinin 1935-ci ildə Y. A. Paxomovun S. B. Aşurbəyli ilə birgə aşkar və tədqiq etdikləri xarabalıqları Dəvəçi rayonunun Şahnəzərli kəndinin yaxınlığında qalmışdır. Burada 5-6 m dərinlikdə su quyuları, hamam, bişmiş kərpicdən tikilmiş binaların qalıqları, kərpic su kəməri, lağımlar və s. tikililər, eləcə də, çoxlu məişət əşyaları - şüşə bilərziklər, külli miqdarda adi, şirli saxsı və zərnaxışlı qablar, mavi və tünd-qəhvəyi rəngli şirli kərpiclər, kürə, habelə, XIII əsrə aid şirvanşah sikkələri dəfinəsi tapılmışdır. Bütün bunlar XI-XIII əsrin əvvəllərində orta əsrlər şəhərinin təsərrüfat həyatının inkişaf etdiyini göstərir.

Qab qırıqları arasında eynilə Bakıdakı Şirvanşahlar sarayında aparılan qazıntı zamanı tapılmış qab dibindəki fiqurlu möhürün basıldığı qab dibi aşkar olunmuşdur. Ehtimal ki, Şəbəran iri saxsı qab istehsalı mərkəzlərindən olub, ölkənin başqa şəhərlərini öz məhsulları ilə təchiz edirdi. «Bütün tapıntılar cəm halında möhtəşəm maddi mədəniyyətə malik böyük və zəngin orta əsr şəhərinin mənzərəsini yaradır...» «... Yəqin ki, o, orta əsrlərdə ən iri şəhərlərdən biri olmuşdur»[40]. Ehtimal ki, Şəbəran Sasanilər dövründə Şirvanşahların paytaxtı olmuşdur.

«Əcaib əd-Dünya»da Abxazın[*] da adı çəkilir: «sərt, çətinliklə gedilə bilən yerdir, dağ şəhərin hüdudundadır; möhkəm qaladır. Qədimdə orada müəyyən miqdarda xristianlar yaşayırdı. Malları zərif parçalar [came], yaylıqlar [dəstərçə], yaxşı örtüklər, zili[*], yaxşı corablardır»[41]. Yuxarıda göstərdiyimiz kimi, Abxaz şəhəri və qalası müasir Quba rayonunun ərazisində lokallaşdırılır. Abxaz adı, ehtimal ki, bu ərazidə yaşamış qədim abasqların, yaxud massagetlərin adından götürülmüşdür. Burada indi də yaxşı xalçalar və corablar istehsal olunur.

Həmin mənbədə Xızır haqqında əfsanə ilə bağlı Bacərvan şəhərinin də adı çəkilir. Bacərvan adlanan iki şəhərdən biri indiki Xızı rayonunda, Beşbarmaq dağının yaxınlığında, digəri isə Muğanın şimal hissəsində yerləşirdi. Sonuncu haqqında deyilir: «...o, Azərbaycanda firavan yerdir; orada məscid var, söyləyirlər ki, Xızır tikdirib, allah onun köməyi olsun, şəhərin camaatı qonaqpərvərdir»[42]. Göründüyü kimi, müəllif Xızırla əlaqədar Beşbarmaq dağının yanında yerləşmiş və indi mövcud olmayan birinci Bacərvana aid əfsanəni səhvən Muğandakı şəhərlə bağlayır. Muğandakı Bacərvan hazırda İmişli rayonunda kənddir.

Şirvanın bəhs olunan şəhərləri XI-XIII əsrin əvvəllərində çox möhkəmləndirilmiş, divarla və xəndəklə dövrələnmiş qala olub, adətən, iç qaladan [narınqala], şəhəristan [içəri şəhər] və şəhərkənarı sənətkarlıq-ticarət yerindən [rabad] ibarət idi. Şirvan hökmdarları - şirvanşahlar paytaxtda, Şamaxıda, ehtimal ki, Gülüstan qalasında yaşayırdılar. 1192-ci ildə Şamaxı dağıldıqdan sonra onlar iqamətgahlarını Bakı şəhərinə köçürmüşdülər.

«Tarix əl-Bab» əsərində XI əsrdə Dərbənddə şəhər əyanlarının əmir qarşısında and içdikləri «hökumət evi»nin adı çəkilir. Şəhər rəislərinin və əyanlarının yığıncaqları da orada keçirilirdi[43]. XII əsrdə Şamaxı şəhristanında açılmış ictimai bina da ehtimal ki, şirvanşahın öz məclisinin (hökumətinin) iclaslarını keçirdiyi hökumət evi olmuşdur. Belə ki, XII əsr mənbəyində - Məsud ibn Namdarın əsərində Fəxr əd-Din I Fəribürz hökumətinin - məclis əl-Fəxrinin adı çəkilir[44].

---

[*] Mətndə N. D. Mikluxo-Maklayın 6-cı haşiyədə doğru olaraq qeyd etdiyi kimi, səhvən Əncan getmişdir. Səhv, nöqtələrin düzgün qoyulmaması üzündən getmişdir. Əncan əvəzinə, Abxaz oxunmalıdır.

[*] Zili - xovsuz xalçanın xüsusi növü.

Böyük şəhərlərdə əyanların, şəhər zadəgan və kübarlarının yaşadıqları çoxlu iri binalar, qəsrlər və köşklər tikilmişdi. Mənbələrdə «bol nemətlərdən və çoxlu bazar yerlərindən»[45] bəhs edilmişdir. XII-XIII əsrin əvvəllərində Şirvanın şəhərlərində çoxlu bazar var idi. Burada hər cür bol məhsullar, meyvələr, Şirvan sənətkarlarının məmulatları satılırdı.

Şirvan şəhərləri spesifik mallar istehsalı ilə şöhrət qazanmışdı. Məsələn, Beyləqan öz şirniyyatı və saxsı qabları, Bakı nefti və duzu, Şamaxı xamnası və ipək parçaları, Dərbənd zəfəranı və kətan paltarları ilə məşhur idi. Şirvan şəhərləri daxili ticarətlə yanaşı, xarici bazara neft, duz, qırmız (boyaqotu), zəfəran, xam ipək və ipək parçalar, pambıq və kətan, pambıq parça və kətan paltar, xalça və xalça məmulatı, saxsı, şüşə, mis və ağac qablar, silah, bəzək şeyləri, kənd təsərrüfatı məhsulları, meyvə çıxarırdı. Dənizin yaxın olması və Kür çayı balıq ovunun inkişafına əlverişli imkan yaradırdı. Müxtəlif balıq növləri ölkədən çox-çox uzaqlara ixrac olunurdu. Sərmahi, yaxud şahmahi - şamayı balığı xüsusilə şöhrət qazanmışdı[46]. Beynəlxalq ticarət yollarının üstündə yerləşən Şirvan şəhərləri bu ticarətdə fəal iştirak edirdilər. Cənubi Rusiya, Kiçik və Orta Asiya, Çin, Hindistan, Misir, İran, İraq, Suriya və digər ölkələrdən gələn tacirlər burada öz mallarını - qiymətli xəz, qılınc, Çin ipəyi, hind tirməsi, mirvari, cəvahirat, şüşə məmulatı, müxtəlif ədviyyat və s. sataraq, karvanlarla neft, duz, kənd təsərrüfatı məhsulları, pambıq, xam ipək və Şirvan sənətkarlarının əsərlərini alıb aparırdılar. Şərq və Qərb ölkələri arasında beynəlxalq karvan ticarəti yolları Şirvandan keçirdi. İran və Hindistan malları həm dəniz, həm də quru yolu vasitəsilə Şirvana gətirilir, buradan isə yunan dünyasına göndərilirdi. Şirvanın qonşu ölkələrlə, Azərbaycan, Gürcüstan, Ermənistan və Dağıstanla iqtisadi və mədəni əlaqələri var idi.

Şirvan şəhərlərində aşkara çıxarılmış çoxlu miqdarda sikkə və sikkə dəfinələri, mənbələrin və arxeoloji qazıntıların verdiyi məlumatlar XII-XIII əsrin əvvəllərində Şirvan şəhərlərində əmtəə-pul münasibətlərinin, iqtisadiyyat və mədəniyyətin yüksək inkişaf səviyyəsinə çatdığını göstərir.

## § 3. Şirvan şəhərləri monqol hökmranlığı dövründə (XIII-XIV əsrlər)

XII əsrdə-XIII əsrin birinci rübündə xarici siyasi şərait və yadellilərin hücum təhlükəsi ilə əlaqəli Şirvanın şəhər və digər yerlərində müdafiə xarakterli iri qurğuların, qala bürclərinin və istehkamlarının, şəhər divarlarının, habelə bir sıra digər binaların - saray, məscid və karvansaraların tikildiyi nəzərə çarpır. Həmin tikililərdəki kitabələrdə şirvanşahların adları bütün dəbdəbəli titulları ilə çəkilirdi ki, bu da həmin hökmdarların və iri feodalların müstəqil və dövlətli olmasına dəlalət edir. Şirvan şəhərlərinin mənbələrdə göstərilən iqtisadi inkişafını və çiçəklənməsini XIII əsrin 20-ci illərində Azərbaycanı od və qılıncdan keçirən, sonradan bəzilərinin bir daha dirçələ bilməyərək, süquta uğrayan tam bir sıra iri şəhərlərini viran qoyan monqollar dayandırdılar. V. V. Bartold monqol

dağıntılarının nəticələrinin çox da ağır olmadığını hesab etsə də, əslində, Şirvan və Arran elə güclü dağıntıya məruz qalmışdı ki, Gəncə, Bərdə, Beyləqan, Şəbəran və digər iri mərkəzlər xarabalığa çevrilərək, öz əvvəlki əhəmiyyətlərini itirdilər. Bakı işğalçıların gəldikləri böyük yoldan kənarda olduğundan, görünür, başqa şəhərlərə nisbətən az zərər çəkmişdir. Bununla belə ərəb müəllifləri monqollar şəhəri tutarkən istehkamlardan birinin üst hissəsinin dağıdıldığını xəbər verirlər. Əhali Bakı şəhərini qəhrəmanlıqla müdafiə edirdi. Bakuvi nəql edir ki, monqollar dəniz sahilindəki möhkəmləndirilmiş qalanı ala bilmirdilər[1] və yalnız 1239-cu ildə bütün ölkə istila edildikdən sonra şəhər təslim olmaq məcburiyyətində qaldı. Monqolların Qafqaz ölkələrinə hücumlarında baş verən hadisələrin müasiri olan Yaqut Beyləqanın işğalı haqqında aşağıdakıları yazır: «Tatarlar, h. 617 (1220/1)-ci ildə şəhərə girdilər, əllərinə keçən adamların hamısını qırdılar, şəhəri talan etdilər, sonra isə yandırdılar. Lakin onlar çıxıb gedən kimi əhalinin qaçmış hissəsi yenidən şəhərə qayıtdı; bir azdan başqaları da onlara qoşuldu, belə ki, hazırda (yəni, 1227-ci ildə - S. A.) şəhər yenidən məskunlaşmışdır» . İbn əl-Əsir, Zəkəriyyə Qəzvini və digər müəlliflər də h. 618 (1221)-ci ilin ramazan ayında monqol istilaçılarının Beyləqanı tutaraq qarət etdiklərini, şəhərin evlərini, divar və darvazalarını dağıtdıqlarını, əhalisini qırdıqlarını, «...qılıncı sıyırıb nə cavanları, nə qocaları, nə də qadınları sağ buraxmadıqlarını»[3] xəbər verirlər.

Zəkəriyyə əl-Qəzvini monqolların Beyləqanı mühasirəyə almasını belə təsvir edir: «Beyləqan Arran ölkəsində tanınmış böyük bir şəhərdir. Hündür divarları var. Onu Qubad şah saldırmışdır. Nəql edirlər ki, nə onun özündə, nə də həndəvərində bir dənə də olsun daş yoxdur. Beyləqana yaxınlaşan tatarlar şəhərin uca divarını görüb onu mancanaqla dağıtmaq istədilər, lakin bir dənə də daş tapa bilmədilər ki, mancanağa qoyub atsınlar. Bu zaman onlar uca çinarları gördülər, onları mişarla doğradılar, kötüklərini mancanağa qoyaraq divarlar uçurdulana qədər atdılar. Monqollar şəhəri talan edib, əhalisini qırdılar»[4].

1227-ci ildə Beyləqana gələn Xarəzmşah Cəlal əd-Din Mənguburni şəhəri elə dağıdılmış vəziyyətdə görür ki, onun yenidən məskunlaşdırılmasına ümid yox idi. Xarəzmşahın vəziri Şərəf əl-Mülkün şəhəri və onun monqollar tərəfindən dağıdılmış suvarma sistemini bərpa etmək üçün gördüyü işlərin[5] müvəqqəti nəticəsi oldu. Beyləqan ərazisində aparılan arxeoloji qazıntılar nəticəsində mənbələrin məlumatları təsdiq edilərək, dağıntılar və kütləvi yanğın izləri üzə çıxarıldı. Tapılan dəfn olunmamış insan skeletləri, şübhəsiz, bəhs olunan hadisələrin qurbanlarınındır[6]. Beyləqan monqollar tərəfindən ikinci dəfə 1235-ci ildə zəbt edilmişdi. Bundan sonra şəhər boşalmışdı. Həmdullah Qəzvini 1340-cı ildə Beyləqan haqqında aşağıdakıları yazır: «Beyləqan beşinci iqlimdə yerləşir. Onun uzunluq dairəsi $82^0 32^/$, en dairəsi isə $39^0$ $55^/$-dir. O, Sasani hökmdarı Firuzun oğlu Qubad tərəfindən salınmışdır. Hal-hazırda (yəni, 1340-cı ildə - S. A.) xarabalığa çevrilmişdir. Evlərinin çoxu bişmiş kərpicdən tikilmişdi. İqlimi istidir. Burada dənli bitkilər - əla buğda, çəltik, pambıq becərilir»[7]. Q. Əhmədovun haqlı

olaraq göstərdiyi kimi, bu məlumat bilavasitə şəhərin özünə deyil, onun aqrar rayonuna aiddir[8]. Həmdullah Qəzvininin məlumatına görə, Beyləqan 1340-cı ildə xarabalıq içində idi. Növbəti istilaçıların Beyləqanın keçmiş əzəmətini bərpa etmək üçün göstərdikləri bütün cəhdlər nəticəsiz qaldı və artıq XV əsrədək şəhər tamamilə boşalaraq süqut etdi və «ora yalnız həşəratların, bayquşların, ilan və əqrəblərin məskəninə çevrildi»[9].

İbn əl-Əsir 1221-ci ildə Şamaxının zəbt edilib dağıdılmasını, şəhər əhalisinin monqol işğalçılarına qarşı qəhrəmancasına müqavimət göstərməsini parlaq surətdə təsvir edir[10]. Şamaxı şəhristanında arxeoloji qazıntılar aparılarkən, monqol hücumu zamanı dağıdılan böyük ictimai bina aşkar edilmişdir. XIII əsrə aid təbəqələrdən aydın görünən yanğın izləri monqol qoşunlarının Şamaxını dağıtmasına dair mənbələrin verdiyi məlumatı təsdiqləyir[11].

Şirvanın şəhərləri haqqında monqolların Şirvan və Azərbaycana ilk hücumundan sonra, 1227-ci ildə yazmış Yaqut əl-Həməvi də müəyyən məlumatlar verir. O özü Azərbaycanda olmasa da, məlumatlarını daha erkən mənbələrdən və həmin diyarda olmuş tacirlərin dilindən əxz etmişdir. Lakin onun məlumatlarında bu şəhərlərin simasını xeyli dərəcədə dəyişdirən həmin fəlakət (monqol istilası) ərəfəsindəki vəziyyətləri təsvir edilir. Yaqut Şamaxı haqqında yazır ki, o, «Şirvanın paytaxtı olan abad bir şəhərdir. Şirvan Arranla həmsərhəddir və Bab əl-Əbvabın vilayətlərindən biri sayılır». Şamaxının abad şəhər olmasına dair bu məlumat monqol hücumuna qədərki dövrə aiddir. Müəllif daha sonra yazır ki, «onun sahibi şirvanşah Dərbənd hakiminin qardaşıdır...». Bu vaxt, yəni 1227-ci ildə Şirvanda şirvanşah III Fəribürz ibn Gərşəsb hökmranlıq edirdi. Yaqut Kür üstündəki Tiflisin yaxınlığında yerləşən, gön və dərisi ilə tanınan Şəki vilayətinin də adını çəkir. Şəkinin əhalisi dərinin aşılanması və emalı ilə məşğul olurdu. Yaqut Dərbənd haqqında yazır: «Bu şəhər Ərdəbildən iki kvadrat mil böyükdür. Onun əhalisinin çoxlu əkin sahələri var, lakin başqa yerlərdən gətirilənlər nəzərə alınmasa, meyvəsi azdır. Şəhər dağdan başlayaraq uzanıb gələn eyni qalınlıqda daş divarla dövrələnmişdir. Bu dağdan müsəlman ölkələrinə yol yoxdur, belə ki, kafirlərin yaşadıqları ölkələrdən müsəlman vilayətlərinə gedən yollar xarab olmuş və keçilməz hala düşmüşdür. Divarın uzunluğuna baxmayaraq, onun bir hissəsi gəmilərin şəhər divarlarına yaxınlaşa bilməməsi üçün uzun burun şəklində dənizin içərisinədək çəkilmişdir. Möhkəm bünövrə üzərində tikilmiş Bab əl-Əbvab Ənuşirəvanın saldırdığı şəhərlərdəndir. O, böyük və mühüm sərhəd şəhərlərindəndir...» Sonra Yaqut Dərbəndin Xəzər dənizində bir sıra ölkələrdən tacirlərin gəldiyi mühüm ticarət limanı kimi böyük əhəmiyyətindən bəhs edir. Burada kətandan parçalar toxunur, zəfəran becərilirdi. Bu dövrdə Dərbənd bazarında müxtəlif ölkələrdən gətirilən qullar satılırdı. Dərbənddən aşağıda Xosrov Ənuşirəvanın Xəzər dənizinin sahilində Dərbəndlə bir vaxtda saldırdığı Məsqət nahiyəsi (rustağı) və şəhəri yerləşirdi[12]. Mənbədə deyilənlərə görə, onun sakinləri «öz mərdliyi və hünəri ilə məşhur olan müsəlmanlardır». Xəzər dənizinin sahilində

Məsqətdən aşağıda «çoxlu rustaqlarla əhatə edilən möhkəmləndirilmiş kiçik» Şəbəran şəhəri yerləşirdi[13].

Dərbənd yaxınlığındakı Firuz-Qubad şəhəri də Məsqət vilayətinə daxil idi. Yaxşı möhkəmləndirilmiş Qəbələ şəhəri Şəkinin yaxınlığında yerləşirdi. Orta əsrlər şəhəri Qəbələ (Qala) ərazisində aparılan arxeoloji qazıntılar zamanı XII-XIII əsrlərə aid təbəqələrdə divarlar, təsərrüfat və su quyuları, oturacaqlarına möhür vurulmuş çoxlu adi və şirli saxsı qab, kirəmit, şüşə qab, dəmir bıçaq, balta qırıqları, sikkələr və digər əşyalar tapılmışdır ki, bu da sənətkarlığın inkişaf etdiyini göstərir[14].

Muğan haqqında çoxlu kəndi və otlaq çəmənləri olan vilayət kimi danışılır. 1227-ci ildə Muğanı burada öz sürülərini otaran türkmənlər tutmuşdular. Əhalinin əksəriyyətini onlar təşkil edirdi[15]. Mənbələrdə vilayətdən, Kür çayının şaxələndiyi yerdə, mənsəbindən yuxarıda, indiki Salyanın yerində, yaxud yaxınlığındakı Güştəsbi şəhərindən bəhs olunur[16]. Ən-Nəsəvinin məlumatına görə, «bu yerin xüsusiyyəti ondan ibarətdir ki, o, Araz və Kür çayları arasında yerləşir və oraya yalnız gəmi ilə getmək olar. Burada çoxlu nohurlar var və əhali su quşları və balıq ovundan çoxlu gəlir götürür. Bəzən yüz qazı bir dinara satırlar»[17]. Şirvanın adları çəkilən şəhər və yerləri monqolların 1220/1-ci ildəki ilk basqınından özünə gəlməyə macal tapmamış, tezliklə yenidən monqol işğalçılarının hücumuna məruz qaldılar. Monqollar Azərbaycana ikinci dəfə 1231-ci ildə gələrək, 8 il ərzində Şirvan və Arranın şəhərlərini zəbt edib dağıtdılar[18]. Canını qurtarmış feodallar, zadəganlar və kənd əhalisi dağlara çəkildi.

Monqollar Azərbaycan, Ermənistan və Gürcüstanı işğal edərək, böyük monqol imperiyasının tərkibinə qatdılar. İşğal etdikləri ölkələrin çiçəklənən şəhər və məntəqələrini dağıdıb talan edən, əhalisini qıran monqolların hücumu ilə əlaqədar Şirvanın, Zaqafqaziyanın və bütün Yaxın Şərqin düşdüyü ağır xarici siyasi vəziyyət Şirvanın əsas iqtisadi mərkəzlərinin tənəzzülünə səbəb oldu. Ölkə monqollar tərəfindən işğal olunduqdan (1239) sonra ta XIII əsrin sonunadək Bakı və Abşeronda, Şamaxıda, Şirvan və Arranın digər şəhərlərində əhəmiyyətli tikililərə rast gəlinmir ki, bu da ölkənin hərbi əməliyyatlar nəticəsində dağıdıldığını göstərir. Şirvanın Beyləqan, Şamaxı, Bakı və digər şəhərlərində aparılan arxeoloji qazıntılar zamanında dağıntı, kütləvi yanğın və qırğın əlamətləri aşkara çıxarılmışdır. XIII əsrin birinci yarısında, Şirvan və Zaqafqaziya monqollar tərəfindən işğal edildikdən sonra ölkənin iflası, monqol hökmdarlarının qoyduğu ağır vergilər və icarə sistemi ilə əlaqədar olaraq sənətkarlığın və ticarətin tənəzzülə uğraması müşahidə olunur. Bakı üçün bu dövr neft hasilatının aşağı düşməsi, ticarətin zəifləməsi dövrü idi. Əgər XIII əsrin sonunda Qazan xanın (1295-1304-cü illər) islahatları ilə bağlı ölkənin məhsuldar qüvvələrində müəyyən yüksəliş baş vermişdisə, onun ölümündən sonra varisi Ölcaytu xanın (1304-1316-cı illər) zamanında Qazan xanın fərmanları tədricən öz gücünü itirməyə başladı ki, bu da Şirvanın təsərrüfat həyatının yenidən tənəzzülünə səbəb oldu.

Bunu köhnə Bakı qalasındakı (İçərişəhər) Cümə məscidinin minarəsinin divarında Sultan Məhəmməd Ölcaytunun Bakı şəhəri və vilayəti rəiyyətinin bir sıra vergilərdən azad edilməsinə dair yarlığının mətnindən ibarət olan kitabə də təsdiqləyir[19]. Çox güman ki, yarlıqdan məqsəd mühüm ticarət və iqtisadi əhəmiyyətə malik olan Bakı şəhəri və vilayətinin rifahını bərpa etmək və yüksəltmək idi. Artıq XIII əsrin sonlarında Şirvan şəhərlərinin və bütünlüklə Azərbaycanın təsərrüfat həyatı bərpa olunmağa başladı. Bakı, Şamaxı, Dərbənd və digər şəhərlərin ərazisindən tapılmış şirli keramika parçaları da bunu göstərir.

XIII əsrdə Rusiyadan Çinədək olan torpaqların monqolların hakimiyyəti altına düşdüyü, monqol feodal imperiyası yarandığı vaxtdan Azərbaycan, o cümlədən Şirvan, demək olar ki, iki əsr ərzində monqol Elxanilər dövlətinin tərkibinə daxil olmuş, Çinlə intensiv iqtisadi, siyasi və mədəni əlaqələr saxlamışdır. Elxanilər dövründə Şirvan və Uzaq Şərq arasında ticarət əlaqələri xeyli genişləndi. Məsələn, əl-Öməri Bakı və Dəmir qapıdan (Dərbənddən), Qızıl Orda ərazisindən keçərək, Çinə gedən ticarət karvan yolundan xəbər verir[20]. O göstərir ki, karvanın yolu beş aydır. Ehtimal ki, Şirvandan keçən bu yoldan İrandan keçən cənub yolu ilə yanaşı istifadə olunmuşdur. Əks təqdirdə Bakı, Dərbənd, Salyan və digər şəhərlərin ərazisində tez-tez Cuci sikkələrinin tapılmasını izah etmək çətindir[21]. Lakin Çindən başlayaraq, Orta Asiyadan keçərək İrana və Azərbaycana gələn qədim cənub magistral yol öz əhəmiyyətini itirməmişdi. Çin malları Şirvana bu yolla gəlməkdə davam edirdi. Şirvanın Çin və Hindistan kimi uzaq ölkələrlə ticarət əlaqələri saxladığını mənbələr və arxeoloji qazıntı materialları da təsdiq edir. Bu dövrdə də Çindən gətirilən mallar içərisində az qala qızıl qiymətinə gedən ipək və ipək parçalar, xüsusilə, böyük əhəmiyyətə malik idi. Həmin dövrdə Bizansın və Yaxın Şərq ölkələrinin, o cümlədən Şirvanın özünün ipək sənayesinin inkişaf etməsinə baxmayaraq, Çin ipəyinə tələbat azalmırdı[22]. Çin ipək parçaları Şirvanda və Azərbaycanda XII-XIV əsrlərdə xüsusilə geniş yayılmışdı. «Əcaib əd-Dünya»da göstərilən ölkələrdə yaxşı satılan mallar sırasında «qızılla tikilmiş Çin parçasının (diba-i-xitai) adı çəkilir[23]. Çin ipəyi XII əsr şairləri Nizami, Fələki, Xaqani və başqalarının poetik əsərlərində də xatırlanır.

Şirvana gətirilən digər Çin malları içərisində bahalı farfor (çini) qablar mühüm yer tuturdu. Şirvanın müxtəlif şəhər yerlərində - Qəbələdə, Örənqalada (Beyləqanda), Bakıda və s. - aparılan arxeoloji qazıntılar zamanı çoxlu Çin farfor qabları tapılmışdır. Farforabənzər kütlədən hazırlanıb, yaşıla çalan, şirlə örtülmüş Çin seladon qablarının tapılması xüsusi maraq doğurur. Şərqdə «mərtəbani» adlandırılan belə qablar çox yüksək qiymətləndirilirdi. Belə ki, onun zəhəri aşkar etmək xassəsinə malik olduğu güman edilirdi. XIII əsrə aid olması ehtimal edilən seladon boşqab qırıqları Örənqalada və başqa yerlərdə tapılmışdır.

Seladon və farfor tapıntılarına Şamaxı rayonundakı Gülüstan və Buğurt qalalarının xarabalıqlarında da rast gəlinmişdir[24]. Arxeoloji qazıntılar zamanı tapılmış daha sonrakı dövrlərə aid məmulatlarda Çin nişanələri olmuşdur. Bakıdakı

Şirvanşahlar sarayında aparılan qazıntı zamanı da Çində hazırlanmış çoxlu farfor qab parçaları tapılmışdır.

Şirvanda böyük tələbat olan bahalı Çin qablarından əyanlar istifadə edirdilər. Çin qablarının naxışları yerli keramikaya təsir göstərmişdir. XIII əsrdən başlayaraq, bütün Şərqdə olduğu kimi, Şirvanda da nəbati naxışlarla bəzədilmiş gözəl saxsı qablar yayılmışdı. Onların üzərindəki rəsmlər açıq-aşkar Çin keramikası naxışlarının təsiri altında işlənmişdir[25]. Maraqlıdır ki, bu qablar «çini», yəni Çin qabı adlanır. Həmin termin bir çox Şərq dillərində, o cümlədən Azərbaycan dilində möhkəm yer tutmuşdur. Çin motivləri Pirsaatçay xanəgahındakı (XII əsr) Pirhüseyn türbəsinin kaşılarında da nəzərə çarpır. Ermitajda saxlanılan kaşılardan birinin üzərində «Çin buludları» arasında hacıleylək təsvir olunmuşdur. Bu şəkil Tan dövrü vazalarındakı rəsmlərin, demək olar ki, tamamilə təkrarıdır[26].

XIII əsrin sonu və XIV əsrin əvvəllərində İran və Azərbaycanın Uzaq Şərqlə və digər ölkələrlə beynəlxalq ticarəti xeyli genişlənir. Köhnə Bakı qalasında - İçərişəhərdə XIV əsrə aid edilən köhnə Buxara karvansarası vardır. Bu, Bakının Orta Asiya şəhərləri ilə ticarət əlaqələri saxladığını təsdiqləyir. Şirvanşahlar sarayı ərazisində XIV əsrə aid bürünc Kubaçi çıraqlarının və Rey keramikasının tapılması Dağıstan və İranla ticarət və iqtisadi əlaqələrin olduğunu göstərir[27]. Xəzər dənizi vasitəsilə dəniz ticarəti böyük vüsət alır. Gəmiləri Qara dənizdə üzən Genuya və Venesiya tacirlərinin, sahillərində faktoriyalar təşkil etdikləri Xəzər dənizində də donanmaları olmasına dair məlumatlar vardır. 1293-cü ildə İranda və Cənubi Azərbaycanda olmuş Venesiya səyyahı Marko Polo Gürcüstanın və Şirvanın şəhərlərini təsvir edir. O məlumat verir ki, genuyalılar Xəzər dənizində bir az əvvəl üzməyə, Gelli (Gilan) ipəyi adlanan ipək gətirməyə başlamışlar. «Burada şəhərlər və qalalar olduqca çoxdur, çoxlu ipək var. Burada ipək və zərxara parçaları toxunur; belə gözəl parçaları dünyanın heç bir yerində görməzsən»[28]. Ehtimal ki, burada söhbət Şamaxıdan, orada istehsal olunan ipəkdən və ipək parçalardan gedir.

Beləliklə, XIII əsrin sonlarından etibarən Şirvan və Xəzər dənizinin sahilləri ipək almaq  üçün bazar axtara-axtara bu yerlərə gələn avropalıların diqqətini cəlb etməyə başlamışdır. Gilan və Şamaxı ipəyi beynəlxalq ticarət malına çevrilir. Bununla əlaqədar olaraq, Bakının Xəzər dənizində Şamaxı ilə tranzit ticarəti sayəsində böyüyən rahat liman kimi əhəmiyyəti artır. 1375-ci ildə katalon dilində tərtib edilmiş qədim atlasda Bakının mühüm liman kimi əhəmiyyəti qeyd edilmişdir. Həmin xəritədə Xəzər dənizinin sahilində, ticarət yolunun üstündəki gəmi dayanacağı olan şəhər və yerlər də qeyd olunmuşdur: Mahmudabad (Mamutaga), Güştəsbi (Gostazz) Pirallahı (Car de Preala)[29]. Həmdullah Qəzvini bununla əlaqədar 1340-cı ildə xəbər verir: «Bakının qənşərindəki Allah Əkbər adası hal-hazırda məskundur və bu dənizin limanıdır»[30]. Xəritədə onun yaxınlığında Beşbarmaq (Barmachu), Şamaxı (Xamay), sonra isə Dərbənd və Həştərxan göstərilir. XIV əsrin sonlarınadək ipək, ipək parçalar, xalçalar, ədviyyat

və digər mallar Şirvandan, Zaqafqaziya və Ön Asiya ölkələrindən Bakı və Dərbənd vasitəsilə Həştərxana, Qızıl Orda, Rusiya və Avropaya aparılırdı. Artıq XIII əsrdən İtaliya və Fransaya böyük miqdarda Gilan və Şirvan ipəyi ixrac olunurdu[31].

Rəşidəddinin məlumatına görə, Şirvan şəhərləri ilə Rus ölkəsi arasında ticarət əlaqələri XIV əsrin əvvəllərindən müşahidə olunur. Bu dövrdə Şirvan şəhərlərində, xüsusilə Şamaxıda Rus ölkəsindən gətirilən müxtəlif qiymətli xəzlərdən çoxlu məmulatlar - samur yaxalıq, kürk üçün vaşaq, sincab, dələ və tülkü xəzindən astarlıq hazırlanırdı[32]. Qazan xan vaxtında Şirvan vilayətindən və Şamaxı şəhərindən alınan natural vergi, divanın illik natural verginin həcminə dair tərtib etdiyi siyahı üzrə Rus ölkəsindən gətirilən qiymətli xəzlərlə ödənilirdi. Şirvanın hakimi - Şirvanşah qiymətli xəzlərə və bostan məhsullarına qoyulan vergiləri Elxanilərin divanına vermək üçün yığırdı. Şirvan və Azərbaycanın beynəlxalq ticarət əlaqələrini istər Şamaxı, Bakı, Beyləqan, istərsə mübadilədə iştirak edən digər şəhərlərin ərazisindən tapılan müxtəlif pul dəfinələri və sikkələr də təsdiqləyir. Şərq ölkələri ilə Qərb arasında Şirvandan ötüb gedən böyük qədim beynəlxalq tranzit ticarəti yolları Abşeron yarımadasının yaxınlığından keçirdi. XI-XIV əsrlərdə və sonralar Şirvanı Hindistan və Çinlə bağlayan dünya ticarəti cənub quru yolu ilə - Orta Asiya, İran və Azərbaycanın cənub vilayətləri vasitəsilə və şimal yolu ilə - Xəzər sahili boyunca Dərbənd keçidinin yanından ötüb xəzərlər ölkəsinə və i. a. həyata keçirilirdi. Digər bir magistral yol Araz vadisi boyunca keçib Ermənistandan Suriyaya və Mesopotamiyaya gedirdi. Çindən və Hindistandan Orta Asiya vasitəsilə Xəzər dənizinə qədər karvan yolu da var idi. Mallar buradan dəniz, Kur və Rioni çayları vasitəsilə Qara dəniz sahillərinə çatdırılır, oradan isə Bizansa göndərilirdi[33]. Abşeron və Bakı, habelə Şamaxı baş ticarət yollarına həmin şəhərlərdən dəniz sahili boyunca və sonra Kürün aşağı axarına doğru gedən yerli karvan yolları vasitəsilə qovuşurdu; başqa bir yol isə Bakıdan şimal-qərbə, yarımadanın ortalarına qədər, sonra birbaşa qərbə doğru gedərək, Qobustandan keçib Şamaxıya çıxırdı (Şirvan yolu deyilən yol). Nəhayət, üçüncü yol ikincidən şimal-qərbə, yarımadanın şimal hissəsi istiqamətində ayrılır və sonra Dərbəndə gedən baş ticarət magistralı ilə birləşirdi[34]. Göstərilən bu qədim yollar sonrakı əsrlərdə də öz əhəmiyyətini itirmədi. Ticarət yolları üstündəki şəhərlər monqol hücumlarının törətdiyi dağıntıdan sonra tədriclə bərpa olunmağa başlandı. Zəkəriyyə əl-Qəzvininin 1275/6-cı ildə verdiyi məlumata görə, Beyləqan həmin vaxtlar bərpa edilmişdi. Lakin bundan azacıq sonra o yenidən tənəzzülə uğradı. Zəkəriyyə əl-Qəzvini Muğandan Azərbaycanda kəndləri və otlaqları olan, Ərdəbildən Təbrizə gedən yoldan şimalda yerləşən və isti iqlimə malik geniş vilayət kimi bəhs edir: «Muğanda geniş otlaqlar və bol ot olduğundan burada türkmənlər yaşayırdılar. Hal-hazırda tatarlar (monqollar - S. A.) Muğanı öz qışlaqlarına çevirdiyindən türkmənlər oradan köçmüşlər». Zəkəriyyə əl-Qəzvini Şirvan vilayətindəki möhkəmləndirilmiş Buğurt qalasından danışır: «Bu qalada daş təsvirlər və heykəllər var. Onlar çox qədim olduqlarından mənaları aydın deyil.

Qalada hökumət evi [dar əl-imarə] var. Onun qapısında yazılmışdır: «Bu evdə on bir otaq var. Lakin buraya girən çox cəhd göstərsə, onlardan [yalnız] onunu görə bilər. On birincisinin yerini isə heç kim bilə bilməz, çünki hökmdarın xəzinəsi oradadır». Göründüyü kimi, şirvanşahlar bu vaxtlar öz xəzinələrini zəif müdafiə olunan Şamaxıdan uzaqda, əlçatmaz Buğurt qalasında saxlayırdılar. Bu parçada Buğurt qalasını bəzəyən barelyef və daş heykəllər haqqında məlumat diqqətəlayiqdir. Buna bənzər heykəltəraşlıq təsvirləri Şamaxıdakı Gülüstan qalasında, Bayıl buxtasındakı qalada da var idi. Ehtimal ki, bu heykəltəraşlıq təsvirləri, qədim ənənəyə görə, dövlət idarəsinin - «dar əl-imarə»nin, yaxud şirvanşahın iqamətgahının yerləşdiyi qalaları bəzəyirdi. Şirvan haqqında Bab əl-Əbvab yaxınlığında, hakimi Axsitan (ehtimal ki, II Axsitan - S. A.) adlanan müstəqil vilayət kimi bəhs edilir. Əl-Qəzvini bəzi ilahiyyatçıların sözlərinə istinadən Şirvanda bir at mənzili uzunluğunda olan yeri təsvir edir. Həmin yerdən gündüz tüstü, gecələr isə od çıxır. Bu torpağa çubuq sancsan, dərhal yanar. Adamlar bu torpaqda çala qazır, ədviyyat vurulmuş ət qazanlarını oraya qoyur və xörək öz-özünə bişir. Bakı yaxınlığındakı odların təsviri «Cahannamə»nin (təqribən 1210-cu il) Abşerondakı Suraxanı kəndinə və yanar qazlara aid məlumatını xatırladır. Əl-Qəzviniyə görə, XIII əsrin son rübündə Bakı rayonunda xeyli neft hasil edilirdi. Lakin onun Bakı yaxınlığında çoxlu neft hasilatına dair məlumatı Əbu Düləfin (X əsr) «İkinci risalə» əsərindən götürülmüşdür[35].

Həmdullah Qəzvini 1340-cı ildə Şirvan şəhərlərinin XIV əsrin birinci yarısının sonlarındakı vəziyyətinə dair qısa məlumat verir. O, Bakı haqqında yazır ki, şəhərin iqlimi istidir və orada əsasən, dənli bitkilər becərilir. Sonra Bakının yaxınlığındakı sahələrdə qazılmış çoxlu quyudan kustar yolla neft çıxarılmasının təsviri gəlir. Quyu neft mənbəyinin səviyyəsinə çatanadək qazılırdı. Neft quyuya sızıb dolan suyun səthinə yığılırdı. Ənuşirəvanın tikdirdiyi Şamaxı Şirvanın baş şəhəridir. Onun iqlimi isti olub, vilayətin başqa yerlərindəkindən daha sağlamdır. Dərbəndin yaxınlığındakı Qəbələ şəhəri Sasani şahı Qubad tərəfindən salınmışdır. Orada əla ipək istehsal olunur, habelə buğda və digər dənli bitkilər becərilir. Firuzabad, yaxud Firuz-Qubad, Yaqutun dediyinə görə, Dərbənd yaxınlığında qəsəbədir. O, yumşaq iqlimi ilə məşhurdur. Onun ətrafında çoxlu ürəkaçan yerlər var. Şəbəranı Ənuşirəvan saldırmışdır. Oranın iqlimi isti, suyu isə pisdir. Burada buğda və digər bitkilər becərilir[36].

Şəbəran düzənlikdə, onun adını daşıyan çayın sol sahilində, indiki Dəvəçi rayonunun Şahnəzərli kəndinin yerində olmuşdur. Hələ 1254-cü ildə Zaqafqaziya yolu ilə Monqolustandan qayıdarkən Şəbəranda olmuş fransız rahibi Rubruk burada xeyli yəhudi yaşadığını göstərmişdir. Görünür, bunlar yəhudi tatlar (dağ cuhudları) olmuşdur. Rubrukun sözlərinə görə, onlar çoxlu halda Şəbəranla Şamaxı arasındakı dağ qalalarında məskən salmışdılar[37]. Şəbəranın adı Teymurun yürüşləri təsvir edilərkən də çəkilir. 1395-ci ildə Dəşti-Qıpçağa yürüşdən qayıdan Teymuru bu səfərdə müşayiət edən şirvanşah Şeyx İbrahim bu şəhərdə onun şərəfinə ziyafət

vermişdi[38].

Həmdullah Qəzvini Muğanın əsas şəhəri olan, lakin 1340-cı ilədək xaraba qalmış, əhalisi çox olan kəndə çevrilmiş Bacərvan şəhərinin adını çəkir; Bacərvanın havası çox istidir, şəhər su ilə mənbəyini ətrafındakı dağlardan götürən çaydan təmin olunurdu. Burada yalnız dənli bitkilər becərilirdi. Mahmudabad Xəzər dənizinin yaxınlığındakı Qəvbəri düzündə yerləşir*. Onu Qazan xan saldırmışdır və beşinci iqlimdədir[39]. Mahmudabad şəhərini islamı qəbul etmiş monqol hökmdarı sultan Mahmud Qazan xan (1295-1304-cü illər) Kür çayının iki qolu arasında, dəniz sahilində saldırmışdı. Onun bir adı da Şil idi. Qazan xan Hülaku xanın dağıtdığı Güştəsbi vilayəti və şəhərinin əhalisini buraya köçürmüşdü[40]. Xəzər dənizinin sahilində, Bəndovan burnundan aşağıda quruda və suda aparılan arxeoloji qazıntılar zamanı su altında qalmış şəhər yeri qalıqları, çoxlu şirli və şirsiz saxsı və seladon qab, XIII əsr şirvanşahlarının sikkələri, külli miqdarda iri və xırda buynuzlu mal-qara, quş və balıq sümüyü yığını aşkar edilmişdir. Bir neçə məntəqədə çaydaşı, çapıq daş və bişmiş kərpicdən tikilmiş bina qalıqları qeydə alınmışdır. Ehtimal ki, bu, dənizin altında qalmış Güştəsbi, yaxud Mahmudabad şəhərlərindən birinin qalıqlarıdır[41].

Həmdullah Qəzvini Şirvan vilayətinin Xəzər dənizi sahilində yerləşən əsası Löhrasbın (İranın əsatiri şahı) oğlu Güştəsb* tərəfindən qoyulmuş Güştəsbi nahiyəsini qeyd edir. Güştəsb Kür və Araz çaylarından onların sahilində yerləşən çoxlu kəndləri su ilə təchiz edən bir neçə kanal çəkdirməklə həmin yerləri münbitləşdirmişdir. Orada buğda və çəltik, az miqdarda pambıq və meyvə yetişdirilirdi; «onun əhalisi ağsifətlidir, onlar şafin məzhəbinə etiqad edirlər, dilləri Pəhləvi ləhcəsinin qarışığıdır. Gəliri keçmiş zamanlarda, monqol basqınına qədər, bugünkü məzənnə ilə bir milyon dinara çatırdı. Lakin hal-hazırda bu məbləğ cəmi 118500 dinara çatır. Vilayətin müxtəlif yerlərində çoxlu iqta torpaqları var». Həmdullah Qəzvini Şirvan və Güştəsbi torpaqlarından bəhs edilən fəsildə yazır: «Şirvan ölkəsi Kür çayının sahilindən Dərbəndə - Qapılar qapısınadək uzanır. Şirvan xanları (şirvanşahlar - S. A.) vaxtında oranın gəliri bugünkü (1340-cı il - S. A.) məzənnə ilə bir milyon dinara çatırdı, lakin hal-hazırda bütün dəftərlərdə yazılanlar 113000 dinar təşkil edir. Bundan əlavə, iqta torpaqlarına gəlincə, ölkənin müxtəlif yerlərində belə torpaqlar çoxdur[42]. Abdullah ibn Məhəmməd ibn Kiya əl-Mazandaraninin XIV-XV əsrlərdə Yaxın Şərq və Zaqafqaziya ölkələrinin dövlət və maliyyə idarəçiliyinə dair geniş material toplanmış «Risaleyi-fələkiyyə» əsərinin 8-ci fəslinin h. 751 (1350)-ci ildə Elxanilər divanının xəzinəsinə bir sıra vilayətlərdən daxil olmuş varidatın qeyd olunduğu «Yekun haqq-hesabına dair

* R. Məmmədov və V. Kvaçidze Mahmudabadı Salyanın yaxınlığındakı Qırxçıraq adlı yerdə lokallaşdırırlar («Elm və həyat», 1979. № 4).

* Yuxarıda göstərdiyimiz kimi, Güştəsbi XIII əsrin əvvəllərində Şirvanşah Gərşəsb ibn Fərruxzad tərəfindən salınmış, yaxud abadlaşdırılmışdır.

dəftər nümunəsi» bölməsində yazılmışdır: «Arran, Muğan, Qəvbəri (Mahmudabad və Bakuyə şəhərləri, yaxud neft mənbələri ilə birlikdə) və Şirvanın Dəmirqapıya qədər müqatiəyə (vergi toplama hüququ - S.A.) görə Hüca Fəsihi Şirvaninin cavabdehliyində olan mədaxili sənəd üzrə 82 tümən - 820. 000 dinardır». Sənəddə göstərilir ki, «Həmin məbləğ adları çəkilən yerlərdən daxil olur»[43]. Divanın gəlirinə dair Həmdullah Qəzvininin əl-Mazandaraninin məlumatlarından on il əvvəl 1340-cı ildə gətirdiyi rəqəmləri tutuşdurduqda aşağıdakı mənzərə alınır (dinar hesabı ilə):

Xəzinənin Şirvanşahlar dövründə (yəni, monqollara qədər Səlcuqilər və Atabəylər dövründə) mədaxili: Kür çayından Dərbəndə qədər Şirvan - 1000000 Güştəsbi - 1000 000 Arran və Muğan - 3 000 000-dan çox

C ə m i - 5 000 000

Xəzinənin 1340-cı ildəki mədaxili:

113000 118500 303 000

53-4500[44]

Divanın gəlirinə dair əl-Mazandaraninin göstərdiyi məbləğin Həmdullah Qəzvininin gətirdiyi təqribən eyni ərazidən toplanan gəlirin məbləği ilə müqayisəsi göstərir ki, əl-Mazandaraninin göstərdiyi məbləğ - 820 000 dinar - Həmdullah Qəzvininin on il əvvəl gətirdiyi rəqəmdən-534 000 cüzi və ehtimal ki, Bakının neft mənbələrindən alınan vergi hesabına artmışdır. Monqollara qədərki dövrlə müqayisədə isə Həmdullah Qəzvininin rəqəmləri, az qala, 10 dəfə, əl-Mazandaraninin rəqəmləri, demək olar ki, 6 dəfə kiçikdir. Əl-Mazandaraninin məlumatları XIV əsrin ikinci yarısında Şirvanda və Arranda vergilərin müqatiə (vergi toplama hüququ) üsulu ilə toplandığını göstərir ki, bu da Şirvan və Arranın vergi verən əhalisinin vəziyyətinə mənfi təsir göstərirdi.

Xəzinə gəlirinin göstərilən məbləği bundan əvvəlki (monqollara qədərki) dövrlə müqayisədə Elxanilər zamanında xəzinəyə vergi mədaxilinin kəskin surətdə azaldığına dəlalət edir. Bu rəqəmlər ölkənin iqtisadi vəziyyətinin XII-XIII əsrin əvvəlləri ilə müqayisədə nəzərə çarpacaq qədər ağırlaşdığı Elxanilər dövründə Şirvanşahlar dövlətinin və Şirvan şəhərlərinin əhvalı haqqında fikir yürütməyə imkan verir. Monqolların şəhər və kəndləri dağıtması, əhalini qırması, böyük vergiləri toplama üsulu, feodal ara müharibələri və digər amillər bütövlükdə ölkənin iqtisadi tənəzzülünə gətirib çıxartdı. Görünür, Şirvanda geniş yayılmış iqta sistemi də xəzinənin gəlirinin vəziyyətinə təsir göstərirdi. XIII-XIV əsrlərdə Şirvan şəhərlərinin vəziyyətinə dair gətirilən dəlillər aşağıdakı nəticələrə gəlməyə imkan verir: Beyləqan, Şəbəran, Bacərvan, Güştəsbi və digər bu kimi mühüm iqtisadi və mədəni mərkəzlər güclü dağıntıya məruz qalaraq, öz əhəmiyyətlərini itirdilər və nəhayət, süquta uğradılar. Beynəlxalq ticarət yollarının üstündəki Dərbənd, Şamaxı, Bakı və digər şəhərlər monqol talanlarından sonra, XIII əsrin son rübündə tədriclə bərpa edilməyə və ticarət mübadiləsinə cəlb olunmağa başladı. Lakin mənbələrin məlumatına görə onlar, hətta, XIV əsrdə belə bu şəhərlərin

Şirvanşahların XII-XIII əsrlərdəki hakimiyyəti dövründə mövcud olan iqtisadi və mədəni inkişaf səviyyəsinə çata bilməmişdilər.

### § 4. XI-XIV əsrlərdə Şirvanın sosial strukturu və şəhər quruluşu

XI-XIV əsrlərdə Şirvanşahlar dövlətində sosial münasibətləri, sinfi mübarizəni və şəhər quruluşunu öyrənmək baxımından yazılı mənbələrin verdiyi məlumatlar dağınıq və cüzidir. Bu boşluğu, əsasən, Bakı və Abşeronda, Şamaxıda, Dərbənddə və Şirvanın digər şəhər və yaşayış yerlərindəki çoxlu memarlıq abidələrindəki daş kitabələr, habelə həmin dövr Şirvan hakimlərinə məxsus numizmatik məlumatlar doldurur. XI-XIV əsrlərə aid narrativ mənbələrdə, XII əsr şairlərinin (Nizami Gəncəvi, Fələki Şirvani, Xaqani və b.) əsərlərində müxtəlif sosial terminlərin, epiqrafik abidələrdə və sikkə legendalarında şirvanşah, əmir, xaqan, xan, sultan, məlik, vəzir, hacib, sədr, sipahsalar, şeyx, qazi, əl-quzat, rəis, amid, amil və s. titul və rütbələrin xatırlanması göstərir ki, həmin dövrdə Şirvanın şəhərlərində inkişaf etmiş feodal cəmiyyətinə məxsus mürəkkəb sosial struktur mövcud olmuşdur. Bu cəmiyyətin əsas sinifləri feodallar, kəndlilər və sənətkarlar idi. Böyük şəhərlərin əhalisi dəqiq şəkildə bir tərəfdən əyanlara və iri tacirlərə, digər tərəfdən isə xırda alverçilərə və sənətkarlara bölünürdü. Hakim feodal təbəqəsinin başında Şirvanşahlar dövlətinin başçısı - Şirvanın paytaxtı Şamaxıda, şəhər zəlzələdən dağıdıldıqdan sonra isə 1192-ci ildən Bakıda yaşayan şirvanşah dururdu. Şirvanşahın adı dəbdəbəli titullarla müşayiət olunurdu. Köhnə Bakının şimal şəhər divarındakı yarımbürclərdən birinin uçması nəticəsində aşkar olunmuş böyük daşdakı üçsətirlik natamam kitabədə şəhər divarının şirvanşah III Mənuçöhr tərəfindən h. 514-555 (1120-1160)-ci illərdə tikildiyi xəbər verilir:

«1. [Bu] şəhər divarını tikməyi əl-məlik əl-müəzzəm əl-alim, əl-adil əl-müzəffər əl Mənsur.

2.əl-mücahid Fəxr əd-Din və-d-Dövlə İmad əl-islam və-l-müslimin

3.xaqan əl-əkbər şirvanşah əl-kəbir Əbü-l-hüca Mənuçöhr ibn... əmr etdi»[1].

Əbül-üla Gəncəvinin qəsidəsinə və Fələki Şirvaninin mədhiyyələrinə əsasən III Mənuçöhrün tam adı və künyəsi Əbü-l-hüca Fəxr əd-Din əl-Məlik III Mənuçöhr ibn Əfridun, şirvanşah, xaqan əl-kəbir, yaxud əkbər; olmuşdur[2].

Şəhər divarını XII əsrin ikinci rübündə III Mənuçöhrün tikdirməsinə dair mənbədə verilən məlumat Şirvan dövlətinin güclənməsi ilə əlaqədar böyük fortifikasiya işləri aparıldığını göstərir. Nizaminin 1188-ci ildə tamamlanmış «Leyli və Məcnun» poemasında Şirvanşah I Axsitanın tam titul və ləqəbləri göstərilmişdir: böyük xaqan (xaqan-i kəbir, yaxud əkbər), məlik-e müəzzəm, şirvanşah Cəlal əd-Dövlə və-d-Din Əbü-f-müzəffər Axsitan ibn Mənuçöhr[3] Şirvanşahın adının dəbdəbəli ləqəblərlə müşayiət olunması onun Qafqazda iri feodal dövlətinin məşhur hökmdarlarından biri kimi müstəqilliyini göstərir. Abidələrin kitabələrindəki dəbdəbəli ləqəblər heç də həmişə Şirvanşahların

müstəqilliyinə dəlalət etməsə də, sikkələrin legendaları Şirvan hökmdarlarının real vəziyyətini daha dəqiq əks etdirir. Şirvanşahlar bu və ya digər hökmdardan vassal asılılığına düşdükdə, adətən, sikkədə süzerenin adı göstərilirdi. XI əsrdən başlayaraq, Səlcuqilər sülaləsinin qüdrətinin ən yüksək səviyyəyə çatdığı Məlik şah (1072-1092-ci illər) zamanında Şirvanşahların zərb etdikləri sikkələrdə xəlifə ilə yanaşı, səlcuq sultanının da adı çəkilirdi. I Fəribürz (XI əsrin sonu) dövründə kəsilmiş sikkədə yazılmışdır:

Üz tərəf
La ilahə illəllah
Məhəmmədin rəsulillah!
Əl-Müqtədi bi əmr Allah
Əs-Sultan Məlik şah
Əks tərəf
Fəribürz

Xəlifə əl-Müqtədi (h. 467-487-ci illər) və Məlik şahın (h. 465-485-ci illər) adlarına əsasən demək olar ki, bu sikkə h. 467-485 (1075-1092)-ci illər arasında zərb olunmuşdur. Fəribürzün adının yanında nə ləqəb, nə titul, nə də atasının adı yoxdur[4]. Bu təvazökarlıq Fəribürzün səlcuq sultanından vassal asılılığını göstərir. Ölkənin siyasi vəziyyətini araşdırsaq, aydın olar ki, 1075-1092-ci illər Məlik şahın[5] Şirvanı tam şəkildə işğal etdiyi, Fəribürzün səlcuqların vassalı vəziyyətinə endirilərək, hər il sultanın xəzinəsinə xərac verdiyi dövrə təsadüf edir[6]. Köhnə Bakı qalasındakı (İçərişəhər) Məhəmməd ibn Əbubəkr məscidindəki h. 471 (1078/9)-ci ilə aid kitabədə[7] Fəribürzün adının çəkilməməsi də yəqin ki, ölkənin daxili siyasi vəziyyəti və şirvanşahın asılılığı ilə bağlıdır.

Bu mənada Fəribürzün adının əl-məlik titulu ilə verildiyi ikinci tip sikkə əlamətdardır. Sikkənin əks tərəfində yuxarıda göstərilən sikkədəki kimi iki sətirlik dini rəmz, onun altında isə xəlifə əl-Müstəzhir-billahın [h. 487-512 (1094-1118)-ci illər] adı həkk olunmuşdur. Sultanın adı burada yoxdur[8]. Süzerenin adının buraxılması Məlik şahın ölümündən sonra Səlcuq imperiyasının tezliklə dağılaraq Məlik şahın oğlanları arasında taxt-tac uğrunda mübarizə meydanına çevrildiyi dövr baş verən siyasi hadisələrdən xəbər verir. Ehtimal ki, şirvanşah bu hadisələrdən istifadə edərək, öz adına məlik titulu qoşmuş, sultanın adını çəkməkdən və qoyulmuş xəracı verməkdən boyun qaçırmış, bununla da, səlcuq sultanlarından vassal asılılığını rədd etmişdir. Sonralar, Fəribürzün oğlu II Mənuçöhr və ondan sonra gələn Şirvan hakimləri dövründə şirvanşahlar şübhəsiz, Səlcuqiləri özlərinin süzereni kimi tanımış və həmin vaxtlarda onların münasibətləri sabit olaraq qalmışdır. Ehtimal ki, şirvanşahlar sultan qarşısında vassal təəhhüdlərini pozmamışlar. Şirvanşah I Axsitanın dövründə kəsilmiş sikkələrdə xəlifələrin və İraq sultanlarının adları ilə yanaşı, Axsitan ibn Mənuçöhrün də adı «əl-məlik əl-müəzzəm» ləqəblərinin müşayiətilə verilmişdir. Xəlifənin hakimiyyətini nominal surətdə tanıyan şirvanşahlar öz sikkələrində İraq

sultanlarının adını çəkməklə onlardan vassal asılılığında idilər. Şirvanşah öz dövlətində istər hərbi baxımdan, istərsə də rəiyyət üzərində qeyri-məhdud hakimiyyətə malik idi. O, feodal qayda-qanunlarının rəmzi və dayağı, əmirlərin mərkəzə itaət etməmək cəhdlərinin qarşısını alan qüvvə idi. Şirvanşahlar XI-XIV əsrlərdə öz ərazilərini qonşularının torpaqları hesabına genişləndirmək məqsədilə feodalar ara vuruşmaları və işğalçılıq müharibələri aparmışlar. Onlar öz müstəqillikləri uğrunda yadelli işğalçılara - səlcuqlara, xarəzmşaha, monqollara qarşı mübarizə aparmış, vaxtaşırı müstəqil hakimiyyət sürmüşlər. Şirvanşahların bu sülaləsinin bir sıra nümayəndələrinin, xüsusilə I Fəribürz, III Mənuçöhr, I Axsitan və başqalarının diplomatik bacarığı sayəsində onlar hətta Şirvan ərazisi Səlcuqilər və sonralar monqollar tərəfindən tamamilə işğal edildiyi vaxtlarda belə bu və ya digər hökmdardan vassal asılılığını qəbul etmələrinə baxmayaraq, müstəqilliklərini faktik surətdə qoruyub saxlamış, öz adlarından sikkə (gümüş və mis) kəsdirmişlər. Bir çox hallarda bu vassallıq xalis formal səciyyə daşıyırdı. 1067-ci ildə Şirvanşah I Fəribürz türklərin basqınının qarşısını almaq üçün türk Elbasana hər il 30 000 dinar xərac verməyə razı olmuşdu[9]. Məlik şahdan vassal asılılığında olan I Fəribürz hər il 70000 dinar xərac ödəməyə razılıq vermişdi, lakin sonralar bu məbləğ 40 000 dinara endirildi[10]. Ən-Nəsəviyə görə, Məlik şahın Şirvan üzərinə qoyduğu xərac 100000 dinara çatırdı. Şirvanşahların asılı vəziyyətə düşdükləri vaxt süzerenlərinə ödədikləri xəracın miqdarı belə idi[11]. Bütün bu vergilərin ağırlığı həm yerli feodalların, həm də işğalçıların ikiqat zülm və istismarı altında əzilən rəiyyətin üzərinə düşürdü. Şirvanşahların vəziyyəti haqqında aşağıdakı faktlar əsasında fikir yürütmək olar. Onlar XI əsrdə və sonralar Abşeronun neft quyuları, duz mədənləri kimi böyük gəlir mənbələrinə malik idilər. Həmin gəlirin bir hissəsini onlar X əsrin yarısınadək xəlifənin tələbilə vəqf kimi Dərbənd qazilərinə ənam verirdilər[12]. Mənbədə göstərildiyinə görə, 1066-cı ildə şirvanşah I Fəribürzün 4000 madyanı var idi[13]. Onun gəlirinə vergi verən əhalidən toplanan rüsum və vergilərdən xəzinəyə daxil olan pul rentası, habelə hərbi qənimət və xəraclar da daxil idi.

Səlcuq imperiyasının çiçəkləndiyi XI əsrin ikinci yarısında səlcuq əmirlərinin başçılığı ilə türk hərbi dəstələrinin dəfələrlə basqın etməsinə və Şirvanşah I Fəribürzün səlcuq sultanlarından vassal asılılığına salınmasına baxmayaraq, səlcuq hakimiyyət dairələri Şirvanı nəzarətdə saxlaya bilmədilər. Şirvanda yerli sülalə qalırdı və mənbələrin verdiyi məlumat onun xeyli möhkəmləndiyini göstərir. XI əsrin sonu və XII əsrin ilk onilliyi Səlcuqilər dövlətinin zəifləməsi və böhranı, Şirvanşahların hakimiyyətinin isə güclənməsi ilə əlamətdar idi. Şirvanşahlar dövlətinin siyasi yüksəlişi sonrakı onilliklərdə xüsusilə nəzərə çarpır. Mənbələr türk dəstələrinin əmir Eynəddin Altuntaş və onun oğlu Alpquşun başçılığı ilə şirvanşahın yanında xidmət etdiyini xəbər verirlər. Lakin onun Arran ərazisini işğal etməyə çalışan türk və türkmən qoşun başçılarına münasibəti pis idi. Şirvanşah belə hesab edirdi ki, yalnız yerli sülalələrdən biri hakimiyyət hüququna malikdir. «Siz Yəzid nəslindən deyilsiniz, nə Rəvvadilərin

varisisiniz, nə də Şəddadilərin xələfləri sayılırsınız». Şirvanşah sarayı əl-xədrə cəllat - uca adlanan sultan sarayından fərqli olaraq, xədrət əl-məlikiyyə adlanırdı[14].

XI əsrdə Dərbəndin feodal iyerarxiyasının başında 1077-ci ilə qədər Haşimilər müsəlman sülaləsindən olan əmirlər dururdular. Sonra Dərbənd və həndəvərindəki torpaqlar Şirvanın tərkibinə daxil olaraq, İraq səlcuqlarından asılı vəziyyətə düşdü. XII əsrin əvvəlindən XIII əsrin ikinci rübünədək Dərbənd müstəqil əmirlik idi. Onun başında əmir dururdu[15]. Əmirlərin hakimiyyəti irsi idi. Feodal iyerarxiyasında şirvanşahlardan sonra iri feodallar dayanırdı. Onlara torpağa, suya, suvarma qurğularına, əsas əmək vasitələrinə sahib olan hərbi və yüksək mənsəbli dövlət məmurları, ali rütbəli ruhanilər daxil idi. Feodal zadəganlarının neft quyuları və duz mədənləri, əkin yerləri və bostanları, üzümlükləri, mal-qarası, qəsrləri, evləri, karvansaraları və s. var idi. Dövlətdə və şəhərlərdə ali inzibati hakimiyyət hərbi və yüksək mənsəbli dövlət məmurlarının, ali rütbəli ruhanilərin əlində idi.

Şirvanın hərbi əyanları, yerlərdə bütün hərbi və inzibati hakimiyyəti əllərində toplamış hərbi rəislər - əmirlər idi. Əmirlər Şirvanın vilayət, şəhər və kəndlərində hakimlik edir, müdafiə istehkamlarının tikilməsi işlərinə baxırdılar. XI əsrdə onların hakimiyyəti zəiflədi və onlar vilayət və əyalətlərin hakimlərindən şəhər hakimlərinə çevrildilər. Məsud ibn Namdar XI əsrin sonunda Gəncənin və bütün Arranın hakimi şirvanşah I Fəribürzün oğlu əmir əl-Ədudun* adını çəkir. XI əsrdə Dərbənddə Haşimi əmirləri hakimiyyət sürürdü. XI-XV əsrlərdə Şirvan dövləti şirvanşahın hakimiyyəti altında olan bir qrup vassal mülklərindən ibarət idi. Əmirlərin adları Bakı qalasında, Abşeronda və Şirvanın digər yerlərində tikilmiş külli miqdarda müdafiə qalalarının, məscid və türbələri olan iri qəsrlərin kitabələrində çəkilir. XI əsrdə daş üzərində kufi xətlə həkk olunmuş və Bakı qalasındakı Cümə məscidinin minarəsinin özülünə qoyulmuş dördsətirlik kitabədə yazılmışdır:

«1. Əzəmətli əmir-sipəhsalar - şücaətli hərbi rəis
2.Hüsaməddövlə (vəd-Din) - dövlətin xoşbəxtliyi
3.İslamın dayağı və qoşun başçısı, cəmiyyətin baş tacı
4.Kübarların itirilmiş Əbu Yəqub Yusifi».

Hüsam əd-Dinə verilən ləqəblər və Şirvanın iki böyük şairinin - Xaqani Şirvani və Fələki Şirvaninin məlumatları göstərir ki, o, III Mənuçöhrün vaxtında təqribən h. 530-532 (1135/36-1137/38)-ci illərdə Şirvanşahlar dövləti qoşunlarının baş sərkərdəsi olmuş və hərbi əməliyyatlar zamanı Arran torpaqlarının bir hissəsini zəbt etmişdi[17]. XI əsrin sonu - XII əsrin əvvəllərində Arranda xidmət edən qoşun başçıları arasında sipəhsalar Əbü-l-üla Cənzəvinin adı çəkilir[18]. Nisbəsi onun əslən Gəncədən olduğunu göstərir. XI-XII əsrin əvvəllərində qoşun rəisinə sərkərdəyə sahib əl-cəyş (ərəbcə) də deyilirdi. XII əsrdə Şamaxıda əmir-sipəhsalar Mübariz

* Əl-Ədud, yəqin ki, şirvanşahın adı yox, ləqəbidir[16].

əd-Din olmuşdur[19]. Şirvanşah Gərşəsb ibn Fərruxzad zamanında Mərdəkan kəndində tikilmiş dairəvi qalanın h. 600-cü ilin mordad* ayına (avqust, 1204-cü il) aid kitabəsində qalanın sahibi «dünyanın böyük sipəhsaları, güclü, ehtiramlı, dinin və dövlətin ulduzu olan İshaq ibn Kakuya...»nın[20] adı çəkilir. Sipəhsalar - hərbi rəis, baş sərkərdə rütbəsi XIII əsrin əvvəllərində də ən yüksək hərbi rütbə idi. Əmirlərin adlarına XIV əsr kitabələrində təsadüf edilir. Bakı qalasında qədim Cümə məscidinin cənub tərəfindəki divarda ərəbcə yazılmış kitabədə binanın təmir olunduğu xəbər verilir, «məlik əl-üməra və l-əkabir» (əmirlərin və əyanların məliki) Şərəf əd-Din Mahmud ibn Fəxr əd-Dinin adı çəkilir və h. 709 (1309/10)-cu il tarixi göstərilir.[21] Əmirəcan kəndindəki məscidin qapısı üstündəki ərəbcə kitabədə məscidi tikdirən böyük məlik Fəxr əd-Dinin oğlu əmir Nizam əd-Din əmir Həccin adı çəkilir və h. 730 (1329/30)-cu il tarixi göstərilir[22]. Bu kitabələrdən aydın olur ki, Fəxr əd-Din adları çəkilən bu iki şəxsin atasıdır və «böyük malik» epitetindən göründüyü kimi, görkəmli mövqe tutmuş, iri feodal olmuşdur. Onun oğlanlarından biri - Bakı qalasındakı məscidi bərpa etdirmiş əmir Şərəf əd-Din Mahmud, ehtimal ki, şəhərdə yaşamış, ikinci oğlu isə, titulundan göründüyü kimi iri feodal, şərəfinə adlandırılan Əmirəcan (Əmir Həccan) kəndinin sahibi olmuşdur. «Əmir Həcc» rütbəsi fəxri vəzifə olub, Məkkə və Mədinəyə ziyarətə gedən karvanın başçısına verilirdi. Adları çəkilən şəxslər «feodal sinfinin nümayəndələri və şirvanşahın vassalları idi. Şirvanşaha vassal tabeliyində olan ləkzlər onun yanında xidmət etmək üçün dəstələr göndərməli idi[23]. Şirvanşah və əmirlərin yanında onların şəxsi mühafizi vəzifəsini daşıyan qulamlar olurdu. Onlar şirvanşahın tapşırığı ilə onun qohumlarını öldürüb, qan intiqamını alır və digər qorxulu tapşırıqları yerinə yetirirdilər. «Tarix əl-Bab»da xidmətçilər arasında qulamlardan başqa, görünür, daha yüksək mövqe tutan «xadim»lərin də adı çəkilir. Şirvanşahlar dövlətində nizami qoşunlardan (əsgər, cünd), növbətçi dəstələrindən başqa türk və türkmənlərdən təşkil olunan muzdlu dəstələr də var idi. Şəhərlərin əhalini şəhəri yadelli işğalçılardan müdafiə etməkdə birliyə çağıran sakinlərdən ibarət hərbi təşkilatı da var idi. Şəhər icması «əl-çəmaət»[24] adlanırdı. XIII əsrdə Bayıl buxtasındakı qala divarının daşlarında «cəmaəti-i şəhr-i Şəmaxi» sözləri qeyd olunur[25]. Ehtimal ki, burada Şamaxı şəhər icmasından söhbət gedir.

Şirvanşahdan sonra dövləti idarə edən ikinci şəxs ən yüksək mənsəbli əyanlardan olan vəzir idi. Şirvanşah sarayında vəzir vəzifəsini üç nəsil ərzində mənşəcə məşhur Deyləmi hökmdar sülaləsi qolundan olan və artıq o vaxtlar Səlcuqilərlə qohumlaşmış Kakuyilər ailəsi tutmuşdur[26]. Şirvanın vəziri Bəha əd-Din Məhəmməd ibn əl-Hüseyn əl-Kakuyi vəzifəsi irsən keçən vəzirlərin oğlu və nəvəsi idi[27]. İshaq ibn Kakuyinin adı Mərdəkandakı dairəvi qalanın 1204-cü il

* Kitabədə «mordad» ay adı III Yəzdigərd təqviminə əsasən verilmişdir. Ehtimal ki, bu ad Abşeronda ənənəvi qaydada saxlanmışdır. Ə. Ə. Ələsğərzadənin «Ka-k-li» kimi oxuduğu adı biz Kakuyi kimi oxuyuruq.

tarixli kitabəsində çəkilir[28]. Görünür, bu ailənin üzvləri XI əsrdən sonra və daha sonrakı əsrlərdə Şirvan dövlətinin idarə edilməsində mühüm rol oynamışlar.

Şirvanın vəziri - şirvanşahın iltifatı ilə olsa da, dövlətin tam səlahiyyətli hakimi idi. Vəzirlərin hakimiyyəti, ilk növbədə, məmur təbəqəsinin nümayəndələri üçün bəxşiş mənbəyi idi. Şirvanın vəziri əl-Kakuyi mükafat və bəxşiş verməkdə səxavəti ilə məşhurlaşmışdı. Əhalidən vergi yığmaq icazəsini [daman] vəzir verirdi. Bakı qalasındakı Cümə məscidi minarəsinin bünövrə daşındakı farsca kitabəyə görə Şirvanda, ehtimal ki, XI-XII əsrlərdə Şamaxıda, XIII-XIV əsrlərdə isə Bakıda vəzirlər divanı (divan əl-vüzəra) mövcud olmuşdur[29]. Sultan Məhəmməd Olcaytunun (1304-1316) yarlığının mətnindən ibarət olan bu kitabədə Bakıdakı divan xatırlanır[30].

XI əsrin sonlarında Şirvanda divanın sahibi (mülki və maliyyə işləri idarəsinin rəisi) və vəzirin naibi (müavini) Beyləqandakı hadisələrə qədər şirvanşahların feodal divanında xidmət edən Məsud ibn Namdar olmuşdur. Məsud ibn Namdar xidmət etdiyi divanda görülən işləri sadalayaraq yazır: «... [biz] qalalara və kəndlərə göndərilən sərəncamları, ölkə və vilayət hakimlərinin təyin olunmasını təsdiqləyən sənədləri imzalayır, sahildə və çayda vergilərin yığılmasına [əl-istifa - müstövfilik xidməti], Bakının və əl-Kürr [vilayətinin], əl-Yəzidiyyə və əl-Cəbəl vilayətlərinin, əl-Ləkz ölkəsinin, Suvaq Mükalinin, ta çaya qədər Qəbələ mahalının dənizboyu yerlərlə birlikdə Şəbəran vilayətinin gəliri haqqında hesabatlara [mühasibat] dair işlərə əncam verir, xəzinə və mülk işləri ilə, saysız-hesabsız qoşunlara, amillərin vergi qalıqlarına, əsgərlərin təmin olunmasına [fəvadil], kürdlərin saxlanmasına görə əl-Deyləmə muzdunun ödənilməsinə nəzarətlə [arid xidməti] məşğul olurduq». Onun əsas gəlir yeri şəhər və ya mahaldan yığılan vergi və töycülərdən daimi olaraq və irsən təyin olunan pul ödənci - idrar idi. İdrarı təyin etmək hüququ da vəzirə məxsus idi. Lakin XV əsrdə vəzirlərin hakimiyyətini sıxışdıraraq nüfuz qazanmış müstövfilər - maliyyə-mühasibat idarəsinin yüksək mənsəbli məmurları idrarın verilməsini saxlatdıra bilərdilər. Vergi məbləği divana müntəzəm daxil olmadığından idrarın alınması tez-tez çətinləşirdi. İdrardan başqa təsviq (məvacib), müşahərə (aylıq haqq) kimi pul ödəncləri də mövcud idi[31]. Divanın gəliri, əsasən, pul rentası şəklində daxil olan vergi və töycülərdən, habelə hərbi qənimət və xəracdan ibarət idi. Şəhərlərdə sənətkarlığın və əmtəə istehsalının inkişafı Şirvan dövlətinin iqtisadiyyatında ticarətin və əmtəə-pul münasibətlərinin inkişafını stimullaşdırırdı.

Şəhər idarəsində məmurlar mühüm vəzifə tuturdular. Məsud ibn Namdar Şirvanda müstövfi - vergilərin mədaxil və məxaricinin uçotunu aparan şəhərin mədaxil və məxaric dəftərlərini tərtib edən maliyyə mühasibat idarəsinin məsul məmuru vəzifəsində işləmişdir. O, həmçinin, özünün müşrif-nəzarət məmuru vəzifəsinin də adını çəkir. Onun məktubları arasında Beyləqanın muşrifi vəzifəsinə təyin olunmaq barədə ərizəsi var. Bu məmurun vəzifəsi əhalinin gəliri haqqında məlumat toplamaq idi[32].

Şəhərlərdə vergi və rüsumları amillər yığırdılar[33]. Feodalların mənimsədikləri bir neçə yüz min dinardan ibarət icarə gəliri və onun vəhşicəsinə yığılma üsulu həmin vilayətlərin əhalisini dilənçiliyə və səfalətə düçar edirdi[34]. Nazirin-kiçik nəzarət məmurunun vəzifəsi kənd mülkləri və istehsal sahələrindən Bakı və Abşeronun duz mədənlərindən, neft quyularından götürülən gəliri hesablamaq idi.

Qoşunların uçotu və onların məvacibinin ödənilməsi ilə məşğul olan məmur arid adlanırdı[35].

Amidin və şəhər rəisinin yanında katib vəzifəsi də var idi. Məsud ibn Namdar Gəncə hakimi şirvanşahın oğlu əmir əl-Ədudun yanında katib və müxtəlif tapşırıqları icra edən məmur vəzifəsində çalışmışdır. Məsud «əsl» katibin bilik və bacarıqlarını sadalayaraq, fiqh və şəriətə, qrammatikanın incəliklərinə bələd olmağı, Quranı bilməyi və s. xatırladır. Beyləqanda amidin on beş katibi var idi[36].

Feodal şəhər inzibati idarəsinin mühüm simalarından biri şəhərin bazarlarına, ticarət-sənətkarlıq məhəllələrinə, məhsulların keyfiyyətinə, təmizliyə və qayda-qanuna, ölçü və çəki vasitələrindən düzgün istifadə olunmasına nəzarət edən mühtəsib idi. O, polis funksiyasını da - şəhərdə ictimai asayişin qorunması, cinayət işlərinin və cinayətkarlığın tədqiqi, sərxoşların və iğtişaşçıların cəzalandırılması - icra edirdi. Mühtəsib, həmçinin, şəhər sakinlərinin Quranın göstərişlərinə və islam dini ayinlərinə riayət etmələrini nəzarətdə saxlayırdı[37].

Şəhnə XI-XII əsrlərdə sultanın hərbi canişini idi. Məsud ibn Namdar Gəncə divanının hərbi canişin kimi göndərdiyi Əbd əl-Cabbarın Beyləqanın müstəqilliyinin tamamilə ləğv edilməsi demək olan hərbi dəstələrlə buraya gəldiyini xəbər verir[38].

Şəhərdə tikinti işlərinə memar başçılıq edirdi. Bu adı daşıyan sənətkar binanın tikilməsində iştirak edən inşaatçı-sənətkarlar - bənna, mühəndis, sərkar, həkkak və başqaları arasında məsul şəxs olduğundan kitabələrdə də yalnız onun adı çəkilir. Memar Əbdülməcid ibn Məsudun adı Abşeronun Mərdəkan kəndindəki XIII əsrə (1204-cü il) aid dairəvi qalanın divarındakı daşda həkk olunmuşdur[39]. Mirab şəhərin su ilə təchiz olunması və onun şəhər sakinləri arasında bölüşdürülməsi ilə məşğul olur, suvarma kanallarının saz olmasına, bulaq və su quyularının təmizliyinə nəzarət edirdi.

Feodal sinfinin digər mühüm qrupunu ali ruhanilər - şeyxülislam, qazı və qazı əl quzzat, yəni vilayətin əsas şəhərinin qazısı təşkil edirdi. Onlar mülkiyyət hüququnu ləğv edə bilir, şəriət qanunları əsasında məhkəmə icraatını həyata keçirirdilər. Onlar, həmçinin, mirası bölüşdürür, kəbin kəsir və digər müxtəlif mülki işlərlə məşğul olurdular[40]. Qazı əl-quzzat feodal hakimiyyət pilləkənində sultandan və şirvanşahdan sonra ən mühüm simalardan biri idi. Ruhani feodallar dövlət idarəçiliyində tez-tez yüksək vəzifələr tuturdular.

Şəhər idarəsində feodal hakimiyyət sisteminin mühüm vəzifəli şəxslərindən biri sədr idi. O, vəqf məsələlərinə baxan yüksək mənsəb sahibi, şirvanşah

tərəfindən təyin olunan nazir idi. Bakı qalasındakı Giləк məscidindəki kitabədə h. 708 (1308/9)-ci ildə məscidi təmir etməyi əmr etmiş sədr Əmin əd-Din ibn Əbubəkrin adı çəkilir. XIV əsrdə burada kitabəsində onu tikdirmiş sədr Nasir əd-Din Gərşəsb ibn Həsən Hacibin adı xatırlanan başqa bir məscid də vardır[41].

Pirsaat xanəgahının portalındakı h. 641 (1243/4)-ci ilə aid kitabədə binanın şirvanşah Fəribürz ibn Gərşəsbin vaxtında «böyük, möhtərəm, hörmətli sədr, Xorasanın şərəfi, dövlətin və dinin cəlalı Xəzər Visak ləqəbli Həsən ibn Məhəmməd ibn Hüseyn əl-Bavəndinin»[42] vəsaiti ilə tikildiyi göstərilir. Dərvişlərin iqamətgahı olan xanəgah, göründüyü kimi, sədrin vəqf gəlirindən buraxdığı vəsait hesabına tikilmişdir. Həmin feodalların və mənsəb sahiblərinin adlarına və mənbələrin verdiyi məlumata əsasən ehtimal etmək olar ki, onlar şafiilik məzhəbinə mənsub sünnilər olmuşlar[43]. Cümə məscidlərinin imamları, müdərrislər, seyidlər, dərviş iqamətgahlarının, xanəgah və zaviyələrin və s. seyxləri, habelə vəqflərin mütəvəllilləri də ruhanilər zümrəsinə daxil idi.

Ruhanilər arasında öz fəlsəfi əsərləri ilə Şərqdə məşhur olan sufi alim şeyxləri var idi. XI əsrin birinci yarısında şirvanşah sarayında Məhəmməd Əli Bakuvi böyük şöhrət qazanmışdı. O, qoca yaşlarında Bakını tərk edərək Şiraza köçmüşdür[44].

Bir sıra hallarda şirvanşahlar bu və ya digər şeyxin nüfuzunun artmasından qorxuya düşərək, çox vaxt isə iqtisadi xarakterli səbəblərlə əlaqədar onları təqib edirdilər[45].

Şirvanşahlar dövlətində rastabazarlara, karvansaralara, sənətkarlıq emalatxanalarına sahib olan, tez-tez hökumət və şəhər idarələrində mühüm vəzifələr tutan iri tacirlər də şəhər zadəganları sırasına daxil idilər. Şəhərlərdə sənətkarlığın və əmtəə istehsalının inkişafı Şirvan dövlətinin iqtisadiyyatında ticarətin və əmtəə-pul münasibətlərinin vüsət almasına təkan verirdi. Şəhərlərin və şəhər həyatının inkişafı nəticəsində onun idarə olunmasında burada yüksək vəzifələr tutan nüfuzlu tacirlər fəal rol oynamağa başladılar[46]. 1363-cü ildə tərtib olunmuş mənbədə müqatiə əsasında Arran, Muğan, Qəvbəri (Mahmudabad və Bakuyə şəhərləri, yaxud «neft mənbələri» ilə birlikdə) vilayətlərinə və Şirvana sahib olan Xacə Fasihi Şirvaninin adı çəkilir. Xacə rütbəsi ayrı-ayrı dövrlərdə, müxtəlif mənalar daşımışdır. XIV əsrdə xacə rütbəsi varlı tacirə, yaxud şirvanşah sarayındakı yüksək mənsəb sahibinə verilirdi. Şəhərlərdə və bütünlüklə vilayətlərdə vergi və töycü yığımının icarəyə verilməsi sistemi XI əsrin sonlarında Səlcuqilər dövründə və sonrakı əsrlərdə tətbiq olunmuşdur. Məsud ibn Namdarın mətnində vəzirdən vergi yığmaq hüququ (daman) almış amidin Beyləqanda pul toplaması xatırlanır. Vergi yığmaq hüququ verilən şəxsə damin deyilirdi. Vergi yığanın (daminin) hüququ şəhərin mülki hakiminin vəzifələrinə uyğun gəlirdisə, icarədar hakim amid adlanır və bu vəzifə şərəfli sayılırdı[47].

1226/7-ci ildə sultan Cəlal əd-Din Mənqburninin vəziri Şərəf əl-Mülk öz qoşunları və sultan qoşunlarının bir hissəsinin başında gəmilərlə Araz çayından

keçərək, Güştəsbi vilayətini zəbt etdi və şirvanşahın amillərini oradan qovdu. O, elə həmin il vilayəti iki yüz min bərbəri[48] dinarına icarəyə (damənaha) verdi.

Şirvan və Arranın sosial həyatında və şəhər idarəçiliyində rəislər mühüm yer tuturdu. Şəhər əyanlarının nümayəndəsi, tacir zümrəsinin başında duran şəhər ağsaqqalı, yaxud sənətkar sexlərinin başçısı rəis adlanırdı. Mənbələrdə, Gəncədə, Beyləqanda, Dərbənddə və Bakıda güclü və nüfuzlu şəhər rəislərinin, varlı tacirlərin fəaliyyəti haqqında məlumatlar verilir. Rəis şəhər hakimiyyəti ilə əhali arasında vasitəçi rolu oynayır, birinci tərəfin fərmanlarını yayır, sonuncuların adından çıxış edirdi[49]. Rəislər, bir növ, şəhər zadəganları idi. Bakının İçərişəhər hissəsindəki Sınıqqala məscidinin divarındakı kitabədə memarının adı çəkilir: Ustad ər-rəis Məhəmməd ibn Əbubəkr [h. 417 (1078/9)-ci il][50]. Məscidin rəis Məhəmməd ibn Əbubəkr tərəfindən tikilməsi şəhərin bu zümrəsinin varlı olduğunu göstərir. «Ustad ər-rəis» adı onun sənətkar sexləri rəislərinin başçısı olduğunu göstərir.

Rəislər tez-tez şirvanşahla müxalifətdə olaraq, şəhər hakimi əleyhinə qiyamlara başçılıq edirdilər. «Tarix əl-Bab»da Dərbənd rəislərinin Dərbənddə öz hakimiyyətini bərqərar etməyə və onu öz torpaqlarına qaytarmağa cəhd göstərən şirvanşahla çoxlu toqquşmaları və ona qarşı qiyamları təsvir olunur. Xəlifə Mütəvəkkil h. 237 (851)-ci ildə əl-Babı və ondan asılı olan torpaqları Məzyədilər sülaləsinin ilk nümayəndələrindən biri olan Məhəmməd ibn Xalidə bəxş etdiyindən, Şirvanşahlar özlərini Dərbəndin ən qədim müddəisi sayırdılar, «Tarix əl-Bab»da h. 416 (1025)-cı ildə sərracilərlə - sərracların tərəfdarları ilə şirvanşahlar arasında baş vermiş şiddətli mübarizə qeyd olunur. Rəislər Şirvanda şirvanşahın h. 457 (1065)-ci il cəza tədbirlərinin qurbanları kimi xatırlanırlar. «Tarix əl-Bab»da sərracların və dabbaqların rəislərinin adları çəkilir. Rəis vəzifəsi çox vaxt irsən keçirdi. «Tarix əl-Bab»da rəislərin başçısı, «rəislik vəzifəsini dədə-babalarından irsən əldə etmiş, şahlar kimi şücaətli, sultanlar kimi əzəmətli, şah və əmirlərin qorxduğu» Əli ibn Həsən ibn Ənaqın adı xatırlanır. Həmin mənbədə şəhərin bütün rəislərinin hesabat verdikləri Dərbənd rəislərinin başçısı rəis ər-rüəsa Müfərricin də adı çəkilir. Əmir azyaşlı olduqda onun adından, adətən, rəis hakimlik edirdi. Rəis ər-rüəsa başda olmaqla şəhərin ağsaqqallarından və rəislərindən - tacir gildiyasının və müxtəlif birlik və sənətkarlıq sexlərinin nümayəndələrindən ibarət şəhər şurası Dərbənddə «hökumət evi»ndə yerləşirdi[51]. Rəislərin səlahiyyətinə müxtəlif vəzifələr düşürdü. Müxtəlif sex və birliklərin başçıları məhəllə darğaları, bazar başçıları rəislərə tabe idilər və onların qarşısında hesabat verirdilər. Rəislər şəhərin sosial və siyasi həyatında fəal iştirak edirdilər.

XI əsrdə feodal hakimləri - əl-Bab əmirləri ilə şəhəri faktik olaraq idarə edən rəislər arasında aramsız mübarizə gedirdi. Əmirlərin nə şirvanşahlar kimi nüfuzları, nə də güclü qoşunları var idi. Onlar, bir növ, orta əsrlər şəhər-dövlətinin Haşimilər nəslindən olan irsi hakimləri idilər. Rəislər istədikləri əmiri təyin edir və devirirdilər. XI əsrin sonlarında və türklərin hücumu ərəfəsində əmirlərin nüfuzu

yüksək idi.

Şirvan və Arranın feodal şəhər idarəçiliyinin bütün bu mürəkkəb bürokratik aparat sistemi feodallardan asılı olan kəndliləri və şəhər sənətkarlarını soyub, onlardan baş feodal-hökmdar və müxtəlif əsaslarla torpaq mülkiyyətinə, eləcə də evlərə, karvansaralara, ticarət dükanlarına, karxanalara, digər daşınar və daşınmaz əmlak növlərinə sahib olan feodal əyanları üçün töycü və vergi toplamağa xidmət edirdi.

Maddi mədəniyyət abidələri və arxeoloji qazıntı materialları, habelə, XI-XII əsrlərə aid narrativ mənbələr Şirvan və Arranda sənət istehsalının inkişaf səviyyəsi, müxtəlif istehsal sahələrinə məxsus sənətkarlar haqqında fikir söyləməyə imkan verir. Bir sıra dolayı dəlillər sənətkarların rəislərin başçılıq etdikləri müxtəlif peşələr üzrə sexlərdə birləşdiyini ehtimal etməyə imkan verir[52]. XI-XII əsrlərdə sexlər, onların nizamnamələri və iş qaydalarına dair əlimizdə məlumat yoxdur. Lakin bu sexlərin başçıları hər bir istehsal növü üzrə məsul şəxs idilər və göründüyü kimi, rəis sifəti ilə şəhərin idarə olunmasında iştirak edir və rəis ər-rüəsa qarşısında hesabat verirdilər. Şəhərlərin vergi verən əhalisini təşkil edən rəiyyət - şəhər sənətkarları feodallardan asılı olan kəndlilərdən az istismara məruz qalmırdılar.

XI əsrin sonlarında vergi verən əhalinin istismarının güclənməsi nəticəsində Beyləqanda şahidi olmuş Məsud ibn Namdar tərəfindən təsvir edilən hadisələr baş vermişdir[53]. Beyləqan əhalisinin üsyanının səbəbi amid və onun köməkçilərinin şəhərdən qısa müddətdə çoxlu pul yığmaq cəhdi olsa da, ehtimal ki, burada şəhər əhalisinin feodal hakimiyyət nümayəndələrindən xilas olmaq, onların yerini şəhərin tacir zümrəsinin, rəislərin, habelə sənətkarların nümayəndələrinə təhvil vermək təşəbbüsü ilə qarşılaşırıq. Üsyan etmiş şəhərlilər Beyləqanın müstəqilliyini qoruyub saxlamağa çalışırdılar. Təsvir edilən hadisələrdən aydın olur ki, üsyançılar şəhərin aşağı təbəqələrinin və sənətkarlarının nümayəndələri idilər. XI-XII əsrlərdə Şirvan və Arran şəhərlərindəki sinfi çıxışlar bu və ya digər şəkildə şəhərlərin feodal hakimlərinin və feodal idarəçiliyinin əleyhinə yönəlmiş müxtəlif hərəkatlar kimi təzahür edirdi. Ehtimal etmək olar ki, Beyləqanda baş verən hadisələr XI əsrdə ictimai təsisat kimi şəhər özünüidarəsinin yaranması ilə bağlı idi.

Bu proses təkcə Şirvan və Arran şəhərlərində deyil, Gürcüstanda, Ermənistanda və Cənubi Qafqazın digər ölkələrində də nəzərə çarpır. XI əsrin ortalarında Tiflisin şəhər özünüidarəsi, şəhər hələlik müstəqillik əldə edə bilməsə də, artıq müəyyənləşmiş ictimai təsisat kimi formalaşmışdı. Şəhər öz hakiminin, indiki halda, əmirin hakimiyyəti altında qalsa da, şəhər özünüidarəsi mövcud idi[54]. Həmin vaxtlar eyni vəziyyət Dərbənddə də müşahidə olunurdu. Şirvan və Arranda şəhər özünüidarəsi əlamətlərinin meydana gəlməsi və şəhərlərin müstəqillik və muxtariyyət uğrunda mübarizəsi orta əsrlər şəhərinin sənətkarlıq və ticarət mərkəzi kimi inkişafı və şəhərlilərin feodal zülmü və səlcuq işğalçıları əleyhinə mübarizəsi ilə bağlı idi. Şirvan və Arranda şəhər özünüidarəsinin sonrakı

inkişafı XIII əsrin 30-cu illərində monqol hücumları ilə əlaqədar dayandırıldı. Şirvanın şəhər əhalisinin mühüm bir təbəqəsi şəhərin karxana və emalatxana sahibləri olan feodal ağaları tərəfindən istismar edilən sənətkarlar idi. Məsud ibn Namdarın verdiyi məlumatlar habelə arxeoloji qazıntı materialları, Şirvanın, Beyləqan, Bakı, Şamaxı və başqa şəhərlərində və digər yerlərində şəhərlilərin bir çox sənətkarlıq peşələri haqqında fikir söyləməyə imkan verir.

XI-XIV əsrlərə aid maddi mədəniyyət abidələri və narrativ mənbələr, qəbir daşlarında və binalardakı kitabələr şəhərlərdə sənətkarlıq istehsalı və daş üzərində oymaçı, həkkak, xəttat, rəssam, zərgər, memar, bənna, dulusçu, misgər, gəmiqayıran, toxucu, çaxırçı, şirniyyatçı, boyaqçı, dabbaq və digər sənət sahələrində çalışan sənətkarlar haqqında danışmağa imkan verir. Bakı, Şamaxı, Qəbələ şəhərlərində və digər yerlərdə aparılan arxeoloji qazıntılar zamanı tapılmış müxtəlif qızıl və gümüş bəzək əşyaları Şirvan və Arran şəhərlərindəki zərgərlik işləri barədə təsəvvür yaradır[55].

Memarlıqla bağlı ayrı-ayrı sənət sahələrində bənna, memar, mühəndis və sərkarlar çalışırdı[56]. Bu adlar digər ustalara başçılıq edən, sosial baxımdan bu kateqoriyadan olan qalan sənətkarlara nisbətən daha yaxşı şəraitə malik memarlara verilirdi. Memar adı almış sənətkar binanın tikilməsində iştirak edən inşaatçı sənətkarlar arasında məsul şəxs sayılır və buna görə də kitabədə yalnız onun adı göstərilirdi. Ehtimal ki, o, inşaatçılar sexinin başçısı sayılırdı. Kitabələrdə rast gəlinən ustad adı «yüksək ixtisaslı usta» mənasını bildirir və müxtəlif peşə sahibi olan sənətkarlara verilirdi.

Boyakarlıq və naxış ustaları nəqqaş adlanırdı. Bakı buxtasındakı qala divarındakı kitabələrdən birində həkkak və heykəltəraş Zeynəddin ibn Əbu Rəşid ən-Nəqqaşın yəni, göründüyü kimi, daş üzərində insan və heyvan rəsmləri nəqş edən rəssam Zeynəddinin adı çəkilir. Başqa bir kitabədə Əbu Rəşid ibn Zeynəddinin - görünür ki, onun oğlunun adı həkk olunmuşdur[57]. Sənətkarların peşəsi çox vaxt atadan oğula keçirdi. Həkkaklar daş üzərində oyma ustaları idilər. Bakı qalasındakı Molla Nəsrulla məscidindəki (XIV əsr) kitabədə həkkak-xəttat Məhəmməd əl-Arifin adı çəkilir[58]. XI-XIV əsrlərdə Bakı, Şamaxı, Güştəsbi, Dərbənd və digər şəhərlərin zərbxanalarında bədii naxışla işlənmiş və üstü kitabəli gümüş və mis sikkələr zərb edən adları məlum olmayan usta sənətkarlar işləyirdilər. Nəccar adlanan ağac, gəc və s. üzərində bədii oyma ustaları xüsusi qrup təşkil edirdilər. Bakı qalasında ustad nəççar Aşur ibn İbrahim Bakuyinin adı çəkilən kitabə[*] qalmışdır. Ustanın nisbəsi onun bakılı olduğunu göstərir. İnşaatçı-sənətkarlara məxsus həmin peşə adları əlimizdə məlumat olmayan sənətkar sexlərinin daxilində əmək bölgüsü getdiyini göstərir.

Şirvan və Arran şəhərlərində - Bakıda, Qəbələdə, Şamaxıda, Dərbənddə və Beyləqanda aparılan arxeoloji qazıntılar zamanı parça tikələri tapılan külli

---

[*] Kitabəni Ə.Ə.Ələsğərzadə oxumuşdur.

miqdarda bədii naxışlarla işlənmiş şirli qablar XI-XIII əsrin əvvəllərində dulusçuluq və rəssamlıq sənətlərinin yüksək inkişaf səviyyəsinə çatdığını göstərir[59]. Görünür, Beyləqanda və Şəbəranda dulusçuluq məmulatı istehsalı ixtisaslaşmış sənət sahəsinə çevrilmişdi. Həmin sənətkarların vəziyyətinə dair əlimizdə məlumat yoxdur. Ehtimal ki, onlar şəhərin digər sənətkarlarından daha çox müstəqil olmuşlar.

Şirvan şəhər və kənd sənətkarlarının da öz təşkilatları olmuşdur. Belə ki, «əxilər» birliyində çoxlu Şirvan sənətkarları, müridlər (XIII-XIV əsrlərdə yaşamış şeyx Səfi əd-Dinin ardıcılları) var idi[60].

Azərbaycanda bu təşkilatın xarakteri tədqiq olunmasa da, epiqrafik dəlillər onun mövcud olduğunu təsdiq edir.

Əxi ərəbcə «mənim qardaşım» deməkdir. Bu təşkilatın üzvlərinin əsas kütləsi sənətkarlar və şəhər yoxsulları idi. Həmin sənətkar təşkilatı artıq XI əsrdə Ön Şərqin bir çox ölkələrində yayılmışdı[61]. Feodal zülmü və özbaşınalığına qarşı mübarizə aparan «Əxi» təşkilatının Şirvanın şəhərlərində, Bakıda, Abşeronda, Şamaxıda nümayəndələri var idi. Bakı qalasının cənub darvazasının h. 786 (1384)-cı ilin rəcəb ayında həkk olunmuş kitabəsində binanı tikmiş əxi ibn Ramazan əş-Şirvaninin adı çəkilir[62]. Əxi adı həmin şəxsin Bakıdakı əxilər təşkilatına mənsubiyyətini bildirir. Abşerondakı Kürdəxanı kəndindəki XV əsrin birinci yarısına aid zaviyənin kitabəsində də böyük şeyxlərin başçısı əxi Şirəmanın adı çəkilir[63]. Beyləqanda, Gəncədə və Azərbaycanın digər şəhərlərindəki əxi təşkilatlarına dair məlumatlar da vardır.

Mənbələr Şirvanda monqol istilasına qədər qul olduğunu xəbər verirlər. XIII əsrin 20-ci illərində yazmış naməlum müəllif Şirvanın mallarını sadalayarkən, ilk növbədə «cariyə qızların, türk qullarının» adını çəkir[64]. 1281-ci ildə Arrana və Şirvana səyahətə çıxmış şair Nizari «Arran vadilərinin türk qızları ilə dolu olduğunu» göstərir[65]. XI-XIV əsrlərdə feodal Şirvan cəmiyyətində müharibədə qoşunlar tərəfindən ələ keçirilib aparılmış əsirlərdən ibarət qullar müəyyən yer tuturdu. Qulları torpaqlara təhkim edirdilər. Qul əməyindən məişətdə və kənd təsərrüfatında ucuz işçi qüvvəsi kimi istifadə olunurdu. Qul bol olduğundan Dərbəndin məşhur qul bazarında[66] onlar çox ucuz satılırdı. Məlumdur ki, XII əsrdə Dərbənd hakiminin Nizami Gəncəviyə xoşuna gəlmiş şerinə görə, ona hədiyyə göndərdiyi qıpçaq kənizi Afaq şairin arvadı olmuşdu. Qul türk qızları gözəllikləri ilə şöhrət qazanmışdılar:

O (Şirin), mənim qıpçaq gözəlim kimi iti yerişli idi,
O, sanki mənim Afaqımın özü idi...
Ucaboylu, gözəl, ağıllı idi.
Onu mənə Dərbənd hakimi göndərmişdi[67].

Nizami Gəncəvi Afaqın gözəlliyini və ağlını belə tərənnüm edirdi.

Qullar şəhərlərin və kənd yerlərinin ən məzlum əhali qrupu idi. Feodaldan asılı kəndlilərlə yanaşı qullar da şiddətli istismara məruz qalırdılar.

Şəhərlərdə, həmçinin, dərvişlər, «əcəmir və övbaş» - qara camaat, güruh, avam camaat adlanan ən yoxsul təbəqələr də yaşayırdı[68]. Onlar, əsas etibarilə, şəhərə axışan torpaqsız, var-yoxdan çıxmış kəndlilər olub, burada təsadüfi və günəmuzd qazanc hesabına dolanırdılar. Şirvanın şəhər əhalisinin sosial tərkibinin ən aşağı pilləsində duran bu təbəqə, Beyləqanda baş verdiyi kimi, şəhərlərdəki sinfi hərəkat və üsyanlarda fəal iştirak edirdilər.

Buraya gətirilən materiallar Şirvanın inkişaf etmiş feodal cəmiyyətinin mürəkkəb iyerarxiyaya malik olduğunu göstərir və onun şəhər əhalisinin, quruluş və idarəsinin sosial strukturunu aydınlaşdırır.

## § 5. Torpaq mülkiyyəti formaları və vergilər

XI əsrin sonu - XII əsrdə Səlcuqilərin hakimiyyəti dövründə əsas torpaq mülkiyyəti forması sultan Məlik şah və onun vəziri Nizam əl-Mülkün zamanında xüsusilə geniş vüsət almış iqta mülkiyyəti oldu. Onlar bir çox vilayətlərdə və şəhər nahiyələrində hakimiyyətin türk hərbi zadəganlığına verilməsi təşəbbüsünü də irəli sürmüşdülər[1]. Xarici siyasi amillər XI-XII əsrlərdə yüksək inkişaf səviyyəsinə çatan feodalizmin gələcək təkamül prosesini dayandıra bilmədi.

XI-XII əsrlərdə Azərbaycanda başlıca torpaq mülkiyyəti növləri aşağıdakılar idi: iqta, mülk-i divani (dövlət torpaqları), mülk-i xass (hökmdarın, yaxud hakim xanədan üzvlərinin şəxsi torpaqları), vəqf (dini idarələr tərəfindən vəsiyyət edilmiş torpaq və ya mülklər), mülk (feodalların və azad kəndlilərin xüsusi mülkiyyəti), camaat (icma torpaqları), uc torpaqları (türk sərhədçilərinin torpaqları)[2].

Türk qoşun başçılarına iqta şəklində verilən iri torpaq mülkiyyətinin güclənməsi ölkənin feodalların hakimiyyətini aradan qaldıraraq, onların yerinə öz əmirlərini təyin edən səlcuqlar tərəfindən istila olunması ilə əlaqədar Azərbaycan və Şirvanda feodalizmin daha da inkişaf etməsinin nəticəsi idi. Yaylaq və qışlaq otlaq torpaqlarında keçmiş yerli oturaq feodalların ağalığını əvəz edən köçəri türklərin və gəlmə köçəri-hərbi əyanların məskunlaşması gəlmə köçəri türklərin işğalçılar tərəfindən istismar olunan oturaq kəndlilər üzərində ağalığına səbəb oldu.

İqta səlcuqların işğal etdikləri Cənubi Qafqaz ölkələrində, o cümlədən Şirvanda türk köçəri-hərbi zadəganlığının kəndli kütlələri üzərində ağalıq formasına çevrildi[3].

H. 467 (1074)-ci ildə türk qoşunlarının başında gələn Əqrar ibn Buğa sultanın Şirvanı iqta şəklində ona verdiyini bildirdi. Lakin şirvanşah Fəribürz sultandan onun əvvəlki mövqeyini bərpa etməsinə nail oldu. Ancaq sultan sərhəd vilayəti Dərbəndi iqta olaraq iki İraqın əmiri Say-Təginə bağışladıqdan və onun nümayəndəsi gəldikdən sonra Fəribürz sultanın xəzinəsinə hər il xərac (mal) verən səlcuq vassalı səviyyəsinə endirildi[4].

XI-XII əsrlər dövrü torpaq fondunun yenidən bölüşdürülməsi ilə

əlamətdardır. Torpaq sahibliyini feodal torpaq mülkiyyətinin xüsusi kateqoriyası olan iqta formasında iriləşdirmək meyli açıq-aşkar nəzərə çarpırdı. XI-XII əsrlərdə Şirvanda geniş yayılmış iqta təsisatı XI əsrin sonlarından etibarən hərbi qulluqda olmuş adamlara yalnız renta kimi verilən, torpaq və kəndlilər üzərində sahiblik ixtiyarı verməyən torpaqdan istifadə və torpaq sahibliyi sistemi idi[5].

Sultan Məlik şah adı dəftərə düşmüş bütün hərbçilərə, 46 minə qədər süvariyə iqta torpağı paylamışdı[6]. Həmin köçəri döyüşçülərin bir hissəsi, ehtimal ki, Şirvanda məskunlaşdırılmışdı. Sultanın yanında xidmətə girmiş feodallara iri iqta torpağı verilirdi. Sonuncu xarəzmşah sultan Cəlal əd-Dinin (1221-1231) saray tarixçisi Nəsəvi xəbər verir ki, sultan Şirvanın Kür və Araz çaylarının mənsəbində yerləşən Güştəsbi nahiyəsini iqta şəklində şirvanşahın sultan sarayında yaşayan oğlu Cəlaləddin Sultanşaha vermişdi. İqta vilayəti idarə etmək deyil, yalnız ondan gəlir götürmək ixtiyarı verirdi, belə ki, Güştəsbi vilayəti, əslində, vəzir Şərəf əl-Mülkün idarəsi altında idi[7].

Eldəgəz Cahan Pəhləvan iki kəndin gəlirini iqta şəklində dahi şair Nizamiyə bağışlamışdı. Lakin maliyyə məmurları həmin məbləği ona vermirdilər[8].

Mənbələr iqtanı XI əsrin sonlarında və XII əsrdə Azərbaycanda köçərilərin, türk qoşun başçılarının oturaq əkinçi kəndlilər üzərində ağalığının əsas forması kimi qeyd edirlər. Artıq XI əsrin sonlarında və XII əsrdə iqta torpaq sahibliyi, əslində, irsən keçirdi. Sonralar, feodal münasibətlərinin daha da inkişaf etməsi ilə əlaqədar iqta mülk tipli torpaq sahibliyinə çevrilir[9]. İqta sisteminin inkişafı nəticəsində vergi mükəlləfiyyətli əhalinin istismarı daha da güclənir ki, bu da vergi verən əhali ilə səlcuq zadəganları, habelə iqta torpaqlarına sahib olan yerli feodallar arasında sosial ziddiyyətlərin kəskinləşməsinə səbəb olur[10]. Bu prosesin sonrakı inkişafı, feodalizmin təkamülü, Səlcuqilər imperiyasında mərkəzi hakimiyyətin zəifləməsinə və yerli feodal zadəganlığının hakimiyyətinin güclənməsinə gətirib çıxardı. Bir sıra iri və xırda mülklərin meydana gəlməsi, iri feodal-iqtadarların müstəqillik uğrunda mübarizəsi, hakim sülalə nümayəndələri arasında hakimiyyət uğrunda mübarizə Səlcuqilər dövlətinin zəifləməsinə və tənəzzülünə səbəb oldu.

Şirvanşahlar dövləti XI-XII əsrlərin bu tarixi hadisələri fonunda güclənir və möhkəmlənirdi. Mənbələr həm yerli feodal hakimlərinin, həm də səlcuq işğalçılarının ikiqat zülmü altında əzilən Şirvan şəhər və kəndlərinin çətin vəziyyətindən xəbər verir.

Bu dövrdə Şirvan feodal cəmiyyətində əsas istismar olunan siniflər maddi nemətlərin bilavasitə istehsalçısı olan mülkədardan asılı kəndlilər, xırda alverçilər və əhalinin digər qrupları ilə birlikdə vergi verən əhalini - rəiyyəti təşkil edən şəhər sənətkarları idi.

Kəndlilər öz vəziyyətlərinə görə bir-birindən fərqlənirdilər. «Əl-əkərə» (tək halda «əl əkkar») termini əkinçiləri, «əl-dəhakin» (tək halda «dehqan») termini isə torpaq sahiblərini, vergi mükəlləfiyyətli təbəqə olan xırda azad torpaq

mülkiyyətçilərini bildirirdi. Bərzikar, müzari, əkkar terminləri asılı kəndli - torpaq sahibinə pulla və məhsulla renta verən yardar mənası daşıyırdı[11].

«Tarix əl-Bab»da deyilir: «H. 457-ci il çərşənbə günü səfər ayının 27-də (7 fevral, 1065-ci il) onlar [əl-Babın rəisləri] onu [əl-Babın əmirini] onlarla birlikdə Məsqətə [Müşkürə-Quba şəhərinin ərazisi] gedərək, kürdlərin bu yerləri tutmasına imkan verməməyə, kəndlilərin və yardarların (əl-əkərə və-l-müzarnin) evlərinə düşərək, kürdlərin haqsızlıqlarının və cinayətlərinin qarşısını almağa [inandırdılar]»[12]. Mətndən göründüyü kimi, köçərilərin basqınları zamanı istər gəlmələr, istərsə də yerli mülkədarlar tərəfindən qarət edilən torpaqsız kəndlilər-yardarlar daha çox əziyyət çəkirdi.

Yardarın vəziyyəti onun mülkədardan təkcə torpaq və su, həmçinin toxum, iş heyvanı və əmək alətləri alıb-almamasından asılı idi. Yardar kəndlilər torpaq sahibindən feodal asılılığında idi və bu, çox vaxt irsi asılılığa çevrilirdi[13]. Torpaq sahibinin, mülkədarın yardar üzərində ilkin mühakimə hüququ var idi və aralarındakı mülki iddiaları özü həll edirdi. Feodala məxsus olan məhkəmə hüququ inkişaf etmiş feodal mülkiyyətinin atributu idi[14]. Yardar kəndlilərin vəziyyəti çox ağır idi. Bu qrup torpaqsız kəndlilər mülkədarlar tərəfindən amansızcasına istismar olunurdu, onlar illik məhsulun üçdə birini, yarısını, hətta, daha çoxunu mülkədara verir, özlərinə isə 30%-dən çox qalmırdı[15]. X əsrin farsca anonim coğrafiyasında xəbər verilir ki, Şirvanşahın möhkəmləndirilmiş iqamətgahının yaxınlığındakı dörd kəndinin əkinçiliklə məşğul olan bütün azad edilmiş rəiyyəti (mövlayan) - kişilər və qadınlar - bir dağdakı qalada yaşayırdılar. Bu qala Niyalqala adlanırdı[16]. Xatırlanan yer Şirvanın mis sənayesinin mərkəzi olan Lahıc ərazisində idi. İ. P. Petruşevskinin fikrincə[17], burada söhbət Şirvanşahın yardarlıq kimi kiçik torpaq sahələri verilmiş azadlığa buraxılan kəndlilərindən gedir*.

Ehtimal etmək olar ki, «hüdud əl-Aləm»də verilən bu məlumatda söhbət şirvanşahın azad edilmiş rəiyyətlərinin, yaxud qullarının işlədiyi iri şəxsi təsərrüfatından gedir. Belə ki, ətəklərində azad kəndlilərin, yaxud qulların yaşadıqları və işlədikləri dörd kəndin yerləşdiyi dağ şirvanşaha məxsus olub, ehtimal ki, mülk-i xass torpaqları kateqoriyasına daxil idi.

Ravəndi kəndli mənasında «rustai» terminini işlədir ki, bu da kənd təsərrüfatında süni suvarmadan istifadə edən əkinçilərin yaşadığı yer mənasında başa düşülməlidir. Şirvan ərazisində yerləşən Quba rayonunda əhalisi əkinçiliklə məşğul olan Rustov kəndi vardır, görünür, onun adı Rustaidən götürülmüşdür.

Azad kəndlilərə keşavərz də deyirdilər[20].

Ravəndinin sözlərinə görə, əgər Səlcuqilər dövründə kəndlərdə kəndlilərin, şəhərlərdə isə rəiyyətin vəziyyəti ağır idisə, monqolların zamanında onlar tamam var-yoxdan çıxaraq dilənçi halına düşdülər. Borcdan, icarədarların, maliyyə

* Ə. Ə. Əlizadənin fikrincə, burada söhbət başqa yerə getməyə ixtiyarı olmayan, yəni, təhkimli kəndliyə çevrilən qullardan gedir[18]. İ. P. Petruşevski bu mülahizəni tənqid etmişdir[19].

məmurlarının özbaşınalığından yaxa qurtara bilməyən kəndlilər şəhərlərə qaçaraq, mənbələrdə «runud və övbaş» - «səfil və pozğun», yaxud «avamm» - qara camaat adlandırılan sinfi simasını itirmiş yoxsulların sıralarını artırırdılar[21].

Mənbələrdə XI-XII əsrlərdə zəhmətkeş kəndlilərdən, sənətkarlardan, habelə Azərbaycanın digər vergi verən əhali qruplarından alınan 20-dək müxtəlif vergi və töycü qeyd olunur[22]. İ. P. Petruşevski Səlcuqilər və Çingizilər dövründə İran və Azərbaycanda mövcud olmuş 50-dən çox vergi və mükəlləfiyyətin adını çəkir[23]. Ə. Ə. Əlizadə XIII-XIV əsrlərdə 37 vergi və mükəlləfiyyətin adını göstərir[24]. XI-XIV əsrlərdə Şirvanda mövcud olmuş vergi və töycülərin sayı haqqında əlimizdə dəqiq məlumat yoxdur. Lakin mənbələrdə bu barədə olan müəyyən məlumatlar həmin vergilərin burada Azərbaycanın, xüsusilə İranın bir sıra vilayətlərinə nisbətən sayca az olduğunu ehtimal etməyə imkan verir. İstər səlcuqlar, istərsə də monqollar dövründə vergi sistemi rəiyyət üçün olduqca ağır idi. Ağır vergi və töycülər kəndlinin məhsulunun çox hissəsini onun əlindən alırdı. Vergilər vəhşicəsinə üsullarla, rəiyyəti döymək və işgəncə verməklə yığılırdı. Vergi yığımının icarə sistemi, təkrar vergi yığımı, fövqəladə vergilər və məmurların özbaşınalığı Şirvanın şəhərlərində və kənd təsərrüfatında məhsuldar qüvvələrin inkişafına mane olan amillər idi.

XI-XII əsrlərdə Səlcuqilər, sonralar isə XIII-XIV əsrlərdə monqollar dövründə ən ağır və soyğunçu vergilərdən biri həm pul, həm də natura şəklində alınan torpaq vergisi - xərac idi, «Tarix əl-Bab»da şirvanşah I Fəribürzün ona tabe olan Şərqi və Qərbi Ləkz torpaqlarının əhalisindən h. 467 (1074/5)-ci il boyu onlarla şiddətli toqquşmalardan sonra zorla xərac topladığı xəbər verilir[25]. Göründüyü kimi, həmin vergi rəiyyət üçün çox ağır olduğundan, onu zor gücünə yığmaq lazım gəlirdi. Kənd yerlərində vergi məbləğinin toplanması daha ağır idi. Belə ki, Məsud Şirvanın vəzirinə Şirvandakı Tusi deyilən yerdəki (Qubadan cənubda) nazirin (nəzarətçi-xırda nəzarət məmuru) hərəkətlərindən şikayət edir. Nazir «onun əlində xaraba qoyulmuş təpələr, viran edilmiş yerlər qalmadığını» deyir və kənd camaatının qarşısında vergi məbləğini müşrüfə verməkdən imtina edir[26]. Məsud kənd camaatının inadkarlığından va xüsusilə But* adlanan yerdəki «diyə» malikanəsindən vergi toplamağın çətinliyindən gileylənir. Məmurun aylıq məvacibi-müşahərə malikanə əhalisinin vergi ödənclərindən verilirdi. Məsud ibn Namdarın Şirvanın şəhər və kəndlərinin əməkçi əhalisinin üzərinə qoyulan vergi və mükəlləfiyyətlər haqqında verdiyi məlumat kənd əhalisinin ağır vəziyyətdə olduğunu «avamm» - qara camaat adlandırılan sənətkar tacir təbəqəsinin istismar edilmə formalarını göstərir. XI-XIV əsrlərdə Şirvanın şəhərlərində əhalinin pulla ödədiyi əsas vergi – xəracla yanaşı, onun əlavəsi - əl-fər və üşr - də var idi[27]. Üşr ərəbcə texniki mənada onda bir – məhsulun onda birinə bərabər olan torpaq vergisi deməkdir. O, əvvəlcə müsəlmanlara məxsus mülk torpaqlarından tutulurdu.

* But - Dağıstan Muxtar Respublikasının indiki Qasımkənd rayonunda yer adıdır.

Sonralar üşr iri feodallardan alınırdı və bu vergi xərac qədər ağır deyildi[28]. Başqa dinə mənsub olanlardan, yəhudilərdən, xristianlardan cizyə adlanan vergi toplanırdı. Şəhərlərdə pulla yığılan vergilərdən əlavə əhali özlərinin sənətkarlıq məmulatlarından da vergi verirdi. Məsud «şərabçı şərabı»nı, «dulusçu bardağı»nı, «şirniyyatçı şəkəri»ni xatırlayır. Şəhər əhalisinin ən yoxsul təbəqələri - dul qadınlar, yetimlər, dilənçilər - vergilərdən azad olunmurdular[29]. Ravəndinin məlumatına görə, ölkə Səlcuqilər tərəfindən işğal edildikdən sonra əhalidən əsas vergilərlə yanaşı, əlavə «qeyri-qanuni» vergilər - gələn elçilər üçün şərab alınmasına xərclənən şərabbaha, silah, nal üçün yığılan nalbaha - toplanırdı. Torpağın sahibi tələb olunan məbləği verib, öz mülkünü talan olunmaqdan qoruyurdu. Həmin vergi rəiyyətdən toplanırdı[30]. Şəhər əhalisi monqol işğalçılarının Şirvanda ağalığı dövründə yığılan ağır vergilərdən də çox zülm çəkirdilər. Bakı qalasındakı Cümə məscidinin minarəsinin bünövrəsindəki kitabədən şəhərin və Şirvan vilayəti əhalisinin üzərinə müxtəlif vergilər qoyulduğu görünür. Hələ tam şəkildə oxunmamış farsca kitabə Sultan Məhəmməd Ölcaytunun (1304 - 1316-cı illər) yarlığının mətni olub, aşağıdakı dörd sətirdən ibarətdir.

1. Həqqi-sübhanə və təala (yəni Allah) islamın padşahı, dünyanın dörddə birinin fərman fərması sultanın ömrünü uzatsın.

2. Əzəmətli, böyük xaqan... Ərəb və Əcəmin hökmdarı
Ölcaytu Xudabəndə Məhəmməd, allah onun hakimiyyətini əbədiləşdirsin!

3. Dünyanın fatehinin yarlığına görə şəhər və vilayətin rəiyyəti qopçur, səranə, neft və ürfi vergilərindən azad olunur...

4. ...Bundan belə bunları bakılılardan alana lənətlər olsun»[31].

Kitabədə göstərilən vergilər arasında qopçurun adı birinci çəkilir. Monqol termini olan qopçur dedikdə istər köçəri, istərsə də oturaq maldarlardan 1% həcmində alınan vergi nəzərdə tutulurdu. Bu vergi və onun yığılması ilə bağlı özbaşınalıqlar əhalini ağır bir yük kimi əzirdi[32]. Yarlıqda adı çəkilən ikinci vergi termini səranədir. Bu vergi ilk dəfə monqol istilasından sonra tətbiq edilən can vergisi olub, dinindən asılı olmayaraq, rəiyyətdən (oturaq əhalidən) eləcə də, müsəlmanlardan alınırdı. Daha sonra adı çəkilən neft vergisi ehtimal ki, şəxsi neft quyularının sahiblərindən yığılırdı. Kitabədəki son vergi termini ürf şəriətdə nəzərdə tutulmayan vergilər kimi başa düşülməlidir[33]. İlk məxəzlərdən göründüyü kimi, Elxanilər hakimiyyətə gələndən sonra torpaqların, mədən və karxanaların böyük bir hissəsini əvvəlki sahiblərindən alaraq, onları incu və divanın mülkiyyətinə qatmışdılar[34].

Ehtimal ki, eyni aqibət neft quyuları sahiblərinin də başına gəlmişdi. Elxanilər əvvəllər yerli hakimlərə məxsus neft quyularının böyük bir hissəsini ələ keçirib müqatiəyə (icarəyə) vermişdilər ki, bu da icarədarların həm mədənləri, həm də quyularda işləməyə təhkim olunmuş yerli kəndliləri vəhşicəsinə istismar etməsinə səbəb oldu. Bu, neft mədənlərində işləyən əhalinin tamamilə dilənçi kökünə düşməsinə və ümumiyyətlə, məhsuldar qüvvələrin tənəzzülə uğramasına

səbəb oldu ki, bu da neft hasilatına təsir göstərdi. Yarlığın verilməsi, göründüyü kimi, şəhərin və Şirvan vilayətinin məhsuldar qüvvələrini yüksəltmək zərurətindən doğmuşdu. Şirvan şəhərlərinin əhalisi, əsasən tacirlər və sənətkarlar, bu kitabədə göstərilən vergilərdən əlavə, XI-XIV əsrlərdə Azərbaycanın başqa şəhərləri üçün ümumi olan digər vergilər də verirdilər.

Dövlət və mülkədarlar tərəfindən əhalinin üzərinə qoyulan ən soyğunçu vergilərdən biri şəhərlilərdən alınan avariz vergisi idi. Müharibə, sarayda ailəvi şənliklərin keçirilməsilə əlaqədar təcili xərcləri ödəmək üçün toplanan avariz monqol istilasından xeyli əvvəl mövcud olmuşdur[35].

Monqollar dövründə şəhərlərdə ən çox yayılmış vergi bazarda istər topdansatış, istərsə də pərakəndə satış ticarəti mallarından alınan tamğa idi. Əhali üçün çox ağır olan bu vergi şəhərlərdə ticarətin inkişafını ləngidirdi. Şəhərlərdə bac deyilən yol gömrük xərci də toplanırdı[36]. Gömrük toplanması vergi yığanların hədə-qorxu və artıq pul qoparmaları ilə müşayiət olunurdu. Mənbələrdə həmin verginin XII əsrdə Bakıda toplanmasına dair məlumat var[37]. Bundan əlavə, Şirvan şəhərlərində biyar adı ilə tanınan mükəlləfiyyət də mövcud idi. Bu mükəlləfiyyətə görə, rəiyyət dövlətin, yaxud feodalın xeyrinə kanal və kəhriz qazılmasında, onların təmizlənməsində, qala divarlarının, sarayların və s. tikilməsində məcburi surətdə işlədilirdi. Monqol istilasından xeyli əvvəl mövcud olan biyar son dərəcə ağır mükəlləfiyyət idi[38]. Bütün bu vergi və mükəlləfiyyətlər ağır bir yük kimi zəhmətkeşlərin - onları təkcə şirvanşaha və feodallara deyil, həm də səlcuqların və monqolların simasında işğalçılara verən rəiyyətin çiyinlərinə düşürdü. Artıq XIV əsrin sonu və XV əsrin əvvəllərində Dərbəndi Şirvanşahlar sülaləsinin hakimiyyətə gəlməsilə, 1382-ci il xalq üsyanının qələbəsi sayəsində monqol ağalığı dövrünün ağır istismar formaları xeyli dərəcədə yumşaqlaşdırıldı, eləcə də, rəiyyətin vəziyyəti yüngülləşdi. Yadelli zülmün aradan qalxması və yerli Şirvanşahlar sülaləsinin taxta çıxması və müstəqil hakimiyyət sürməsi XV əsrdə Şirvanın sosial-iqtisadi və mədəni tərəqqisi üçün zəmin yaratdı.

## § 6. XI-XIII əsrin birinci rübündə Şirvanın mədəniyyəti

XI-XIII əsrin əvvəllərində bütün müsəlman Şərqində elm və mədəniyyət yüksək inkişaf səviyyəsinə çatmışdı. Bu dövrdə elm və mədəniyyətin inkişafında ərəblərlə yanaşı, başqa xalqlar da yaxından iştirak edirdilər. Həmin dövrdə Yaxın və Orta Şərq ölkələrində, o cümlədən Azərbaycanda ərəb dili geniş yayıldı. Alimlər elmi əsərlərini bu dildə yaradırdılar. Ərəb əlifbası bir çox əsrlər boyu müxtəlif xalqlar arasında ünsiyyət vasitəsi olmuşdur. Əsərlərini ərəb dilində yazmış mənşəcə ərəb olmayan Təbəri, Bəlazuri, ibn Xordadbeh, əl-Bəlxi, əl-İstəxri və digər tarixçi və coğrafiyaşünaslar Şərqin hüdudlarından çox-çox uzaqlarda da məşhur olmuşlar[1]. Dünya sivilizasiyasının inkişafına öz töhfəsini bəxş etmiş Azərbaycan xalqının mədəniyyəti bu dövrdə Şərq xalqlarının mədəniyyəti ilə sıx

qarşılıqlı əlaqədə inkişaf edirdi. XI-XIII əsrin əvvəllərində Azərbaycan mədəniyyətinin inkişafı özünün ona qədərki bütün tarixi, şəhərlərin və şəhər həyatının inkişafı, IX-X əsrlərdə Xilafətin zəifləməsi ilə əlaqəli onun ərazisində müstəqil feodal dövlətlərinin yaranması ilə şərtlənmişdi. Azərbaycan ərazisində yaranmış həmin dövlətlərdən biri də Azərbaycan xalqının mədəniyyət və incəsənətinin inkişafında böyük rol oynamış, mərkəzi Şamaxı şəhəri olan Şirvanşahlar dövləti idi.

Şirvan və Arran şəhərlərindən - Şamaxıdan, Bakıdan, Dərbənddən, Bərdədən çıxmış alim və şairlər Bağdad, Qahirə, İsgəndəriyyə, Buxara, Səmərqənd, Nişapur kimi müsəlman mədəniyyəti mərkəzlərində təhsil almış Yaxın və Orta Şərq ölkələrində olmuş, onların elm və mədəniyyət xadimləri ilə məktublaşmışdılar[2]. X əsr ərəb müəllifləri İbn Havqəl, əl-İstəxri və başqaları Şirvan və Arranda «ümumi dil» olan fars dilinin, tacir və mülk sahibləri feodalların fəsih danışdıqları ərəb dilinin geniş yayıldığını qeyd edirdilər. Onlar, həmçinin əhalinin bəzi qruplarının başqa dillərdən istifadə etdiklərini göstərirdilər: «...Bərdə əhalisi Arran dilində danışır»[3].

XI-XIII əsrin ilk rübündə poeziya yüksək səviyyəyə çatdı. Bu dövrdə bütün Yaxın Şərqdə olduğu kimi, fars dili (farsi) ədəbiyyatda, o cümlədən şerdə üstün yer tutaraq, ərəb dilini, demək olar ki, tamamilə sıxışdırmışdı. XI əsrdə Azərbaycan-türk dili Qafqazda və qonşu ölkələrdə geniş inkişaf tapır. Azərbaycan dili türk dillərinin oğuz qrupuna daxildir. Yerli əhalinin əsas dili olan Azərbaycan dili XI əsrin ortalarında oğuz tayfaları dilinin güclü təsiri altında tam şəkildə formalaşmışdır. Lakin Azərbaycanın dil baxımından türkləşməsi uzun proses olub, XI əsrdən çox-çox əvvəl başlamışdır. XII əsrdə ədəbi Azərbaycan dili təşəkkül tapdı. Şairlər fars və ərəb dilləri ilə yanaşı, bu dildə də əsərlər yazırdılar. XIII əsrin sonlarında şair Həsənoğlu Azərbaycan və fars dilində lirik şerləri ilə şöhrət qazandı[4]. Həsənoğlunun müasiri, Bakı şairi Nəsirin (XIV əsrin əvvəlləri) bakılıları bir sıra vergilərdən azad edən və şəhərin abadlaşdırılmasına dair fərmanlar verən Məhəmməd Xudabəndə Ölcaytuya ithaf olunmuş azərbaycanca müxəmməsi də dövrümüzədək gəlib çatmışdır[5].

Azərbaycan və onunla qonşu türk xalqlarının ən qədim müştərək ədəbi abidəsi oğuz qəhrəmanlıq eposu «Kitabi-Dədə Qorqud»dur. Şifahi xalq poetik ənənəsinin uzun əsrlər boyu - IX əsrdən XV əsrədək yaratdığı epik dastanları əks etdirən bu yazılı abidə Azərbaycan ədəbiyyatı hüdudlarından çox-çox kənara çıxmışdır. «Kitabi-Dədə Qorqud» girişdən və on iki boydan - dastandan ibarət epik sikldən ibarətdir. Bu boyların hər biri bu və ya digər bahadırın igidliyindan bəhs edən müstəqil xarakterli əsərlərdir. Onlarda xanlar xanı Bayandar xan və Qazan xan xatırlanır. Həmin boylar müxtəlif vaxtlarda, müxtəlif ozanlar (aşıqlar) tərəfindən qoşulmuşdur. «Kitabi-Dədə Qorqud»da IX-XII əsrlərdə Qafqazda və Azərbaycanda yaşamış oğuzların feodal-patriarxal köçəri həyatı əksini tapmışdır. Epos məhz burada baş vermiş hadisələrlə zəngindir. Burada Azərbaycan və

Şirvanın şəhər və qalalarının, çay və göllərinin adı çəkilir. Abidə lirik şer parçaları olan vəznli nəsrlə yazılmışdır. İdeya-mövzu cəhətdən islamaqədərki eposun əlamətləri qorunub saxlanmış əsərdə köçəri patriarxal-qəbilə məişətinin dağılması və feodal münasibətlərinin inkişafı əksini tapmışdır. Vətənpərvərlik ideyası, yadelli düşmənlərə qarşı bahadır rəşadəti, qəhrəmanlıq və fədakarlıq eposdan ana xətti kimi keçərək, onu «İqor polku dastanı» kimi poemalarla doğmalaşdıran özünəməxsus epik qəhrəman tipi yaradır. Eposda qədim yunan ədəbiyyatı - Homerin «Odisseya»sındakı adamyeyən təpəgöz - siklop, Evripidin «Alkesta»sı - ilə paralellər nəzərə çarpır. «Dədə Qorqud»u Azərbaycan aşıqları nəsildən-nəslə ötürmüşlər .

XI-XIII əsrlərdə fəlsəfə, elm və ədəbiyyat xüsusilə inkişaf etmişdi. Ədəbi-bədii həyat Azərbaycanın Şamaxı, Gəncə, Təbriz kimi mədəniyyət mərkəzlərindəki iri feodal saraylarında cərəyan edirdi. Saraylarda görkəmli şair və filosoflar toplaşırdı. Dövrün estetik zövqü və fəlsəfi görüşləri burada formalaşırdı.

Orta əsrlər Azərbaycan poeziyasının əsas janrları, bütün Yaxın və Orta Şərqdə olduğu kimi, ərəb-fars janrları - qəsidə, qəzəl və rübai idi. Şahları və feodalları mədh edən dəbdəbəli qəsidə Şirvanın saray şairləri arasında dəbdə idi. Mənbələr xəbər verir ki, XI əsrin sonlarında Şirvanşah I Fəribürzün sarayında şirvanşaha ərəb dilində mədhiyyələr yazan şairlər toplaşmışdı[7]. Ərəb şairi əl-Qəzzinin Azərbaycanda və Arranda yazdığı şerlər burada ərəbdilli poeziyanın ənənəvi janrlarının geniş yayıldığı ədəbi mühitin mövcud olduğunu göstərir. Əl-Qəzzinin şirvanşah I Fəribürzün xəsisliyinin və digər qüsurlarının məsxərəyə qoyulduğu zərif ədəbi formada yazılmış həcvi qalmışdır. Ehtimal ki, əl-Qəzzi şirvanşaha həcv olan qəsidəsini Fəribürz gəlmə şairin mədhiyyələrini dinləmək istəmədikdə, Şirvanı tərk edib getdikdən sonra yazmışdır[8].

XII əsr klassik Azərbaycan poeziyasında lirik janrlarla yanaşı, dahi şair Nizami Gəncəvinin qələmindən çıxan gözəl epik əsərlər də yaranmışdı. XI əsrin əvvəllərindən, Arran və Şirvan da daxil olmaqla, Azərbaycanda fars dilində (farsi) yazan tam bir nəsil görkəmli saray şairi meydana gəlmişdi. İlk belə şairlərdən biri təbrizli Qətran ibn Mənsur Təbrizi (1010-1090) idi. Qətranın istedadlı poeziyası böyük şöhrət qazanmış, özündən sonra gələn Azərbaycan şairlərinin yaradıcılığına təsir göstərmişdir[9]. Araşdırılan dövrdə zamanın dini, mistik sufi görüşlərinin təsiri altında olan ədəbiyyat və fəlsəfə xüsusilə inkişaf etdi. X əsrin ikinci yarısı - XI əsrin birinci yarısında ilk Azərbaycan sufi şair və filosoflarından biri - dövrümüzədək gəlib çatmış ən qədim sufi divanının müəllifi İbn Bakuyə və ya Baba Kuhi təxəllüsləri ilə tanınmış Əbu Abdullah Əli ibn Məhəmməd Şirazi idi. O, ilk gəncliyində əşərilik təriqəti başçısının ardıcılı məşhur şeyx Əbu Abdullah ibn Xəfifin [ö. h. 371 (981/2)-ci il] yanında təhsil almışdır. Ortodoksal kəlamı bütün incəliklərinə qədər öyrənən Baba Kuhi müsəlman ölkələrini gəzməyə çıxaraq, hədisləri, islamın görkəmli xadimləri haqqında məlumatları toplamışdır. O, X-XI əsrlərdə sufilik təliminin mərkəzi olan Nişapura gələrək, burada sufiliyin görkəmli

nümayəndələri - Əbu Səid ibn Əbü-l-Xeyr əs-Süləmi və başqaları ilə görüşmüşdür. O, h. 412 (1021/2)-ci ildə Nişapur xanəgahının piri oldu. Ölümündən bir neçə il əvvəl Şiraza gəlib dağ mağarasında guşənişin həyat keçirmiş və h. 442 (1050/51)-ci ildə orada da ölmüşdür. Onun divanı ilk dövr sufiliyini tədqiq etmək baxımından müstəsna əhəmiyyətə malikdir. O, şiə olsa da, dünyagörüşündə od kultunun, Zərdüşt günəşinə sitayişin təsiri gözə çarpır. Həmdullah Qəzvininin məlumatına görə, o, türbəsi və xanəgahı Şamaxı yaxınlığında, Pirsaatçay sahilində yerləşən Pirhüseyn Şirvaninin qardaşı idi[10].

XII əsrdə şirvanşahlar III Mənuçöhrün və I Axsitanın sarayında Azərbaycan şer məktəbi yarandı. Onun başında məlik üş-şüəra (şairlər şahı) Nizaməddin Əbülüla Gəncəvi dururdu. Saray şairi olan Əbülüla Gəncəvi, eyni zamanda, nədimlərin - Şirvanşahın şəxsi müsahiblərinin başçısı idi. Əbülüla gəncəli olub, XI əsrin son rübündə orada doğulub, təhsil almışdı. O, Şirvanın görkəmli şairləri Fələkinin və Xaqaninin müəllimi idi. Əbülülanın divanı dövrümüzədək gəlib çatmasa da, ayrı-ayrı qəsidələrinə əsasən onun zərifliyi, vəzn dəqiqliyi və rəvan üslubu ilə seçilən poeziyası haqqında fikir söyləmək mümkündür. O, poetika, fəlsəfə və astronomiya sahələrində dərin biliyə malik idi. Lakin Şirvanşah sarayında imtiyaz sahibi olmasına baxmayaraq, o, düşmənləri tərəfindən üstünə böhtan atılaraq 55 yaşında vəzifəsindən məhrum edilmişdir[11].

Şirvanın digər bir istedadlı şairi İzzəddin Şirvani haqqında məlumat çox azdır. Yalnız onun Əbülüla və Xaqaninin müasiri olub, onlarla görüşdüyü məlumdur. Şerlərindən bizə gəlib çatan bir yarımçıq qəsidəsi və bir rübaisi onun poeziyasının gözəllik və zərifliyindən danışmağa imkan verir[12].

Şirvan məktəbinin məşhur şairlərindən biri də Əbülülanın tələbəsi Əbu Nizam Məhəmməd Fələki Şirvanidir (1108-1145). Fələki Şamaxıda doğulmuşdur. O, dostu Xaqaninin köməyilə şirvanşahlar sarayına düşmüş, burada III Mənuçöhrü Şirvanda abadlıq və mədəniyyətin tərəqqisi üçün çox iş görmüş ağıllı hökmdar kimi vəsf edən qəsidələr yazmağa başlamışdır. Fələki təxəllüsü götürməsi onun dərindən maraqlandığı, hətta haqqında əsər yazdığı nücumla məşğul olması ilə bağlıdır. Fələkinin dəbdəbəli qəsidələrdən ibarət divanı məzmunca dolğun olmasa da, şerləri forma gözəlliyi ilə diqqəti cəlb edir. Şirvanşahın daşqın nəticəsində dağılmış Baqilan bəndini tikdirməsi münasibətilə yazdığı qəsidə buna misal ola bilər. Fələki öləndə qırx yaşı da yox idi. Şair gözdən salınaraq həbsxanaya atılmış və ən yaxşı, təsirli şerləri olan «Həbsiyyə»lərini də burada yazmışdır[13].

XII əsrin məşhur şairlərindən biri də Mücirəddin Beyləqanidir. Onun haqqında məlumat olduqca azdır. Görünür, əsil-nəsəbli ailədən olmayıb, qara kəniz oğlu idi. O, Xaqaninin şagirdi olmuş, Şirvanda şer sənətini ondan öyrənmişdir, Mücirəddin Şirvanşahlar sarayında yaşamamışdır. Belə ki, o, Eldəgəzlər tərəfindən himayə olunmuş, onlara parlaq və şadlıqla dolu obrazları ilə insanı heyran qoyan qəsidələr həsr etmişdir. Ədəbi irsindən bir divanı dövrümüzədək gəlib çatmışdır. Divanda İraq səlcuq hökmdarlarına və Dərbənd hakiminə həsr olunmuş qəsidələr

də vardır. Görünür, Eldəgəzlər sarayındakı həyatından narazı olan şair yazdığı bədbin ruhlu şerlərində böhtana düşməsindən şikayət etmişdir. Həmin şerlərdə saray xidmətinə nifrət də əksini tapmışdır. Şairin bu şerləri yüksək bədiiliyi ilə seçilir. Y. E. Bertelsin fikrincə, Mücirəddin Beyləqani h. 589 (1193)-cu ildə ölmüşdür. Bəzi təzkirələrin məlumatlarına görə, o, şairin satiralarından narazı olanlar tərəfindən hamamda öldürülmüşdür[14].

XII əsrdə şirvanşahların saray şairlərinin ən görkəmlisi Əfzələddin İbrahim ibn Əli Xaqani [h. 515-595 (1121/2-1199)-ci illər] idi. O, Şamaxı yaxınlığındakı Məlhəm kəndində dülgər Əlinin ailəsində anadan olmuşdur. Babası Osman toxucu olmuşdur. Anası müsəlmanlara əsir düşdükdən sonra islamı qəbul etmiş nəsturi məzhəbinə mənsub xristian idi. Xaqani son dərəcə cilalanmış kamil şer texnikasına, valehedici sənətkarlığa malik şair kimi məşhurdur. O öz sənətkarlığı ilə müəllimi məlik üş-şüəra Əbülüla Gəncəvini ötüb keçmişdi. Xaqani dövrünün ən təhsilli adamlarından biri olub, ərəb dilini, fəlsəfəni, ilahiyyatı, təbabəti, ədəbiyyatı öyrənmişdi. Ona əmisi - həkim və alim Kafiəddin Ömər təlim-tərbiyə vermişdi. Xaqaninin parlaq poetik istedadı erkən aşkar olmuş və tam şəkildə onu böyük mesenat olan şirvanşah III Mənuçöhrün saray şairləri sırasına daxil edən müəllimi Əbülüla Gəncəvinin təsiri altında formalaşmışdır. Xaqani hamisi Mənuçöhrün titullarından biri ilə bağlanılan və «xaqana məxsus» mənasını bildirən təxəllüsünü də bu vaxt götürmüşdür. Şirvanşah sarayında mədhiyyəçilik geniş intişar tapmışdı və Xaqani şairlər içərisində ilk dəfə olaraq III Mənuçöhrə və onun oğlu I Axsitana bir neçə tərifləyici qəsidələr yazmışdı[15]. Lakin Xaqani sönməz şöhrəti üçün daha çox mədhiyyəçi qəsidələrinə deyil, səmimi, təsirli lirik şerlərinə borcludur. Xaqani bir sıra gözəl aşiqanə qəzəllər yaratmışdır. Şair şerlərində yaxın adamlarının həyat və ölümündən, həyatın və taleyin dönüklüyündən yazırdı. H. 551 (1156/7)-ci ildə ilk dəfə Həccə gedən Xaqani Bağdadda olarkən xəlifə tərəfindən qəbul edilir.

H. 552 (1157/8)-ci ildə ziyarətdən qayıdan Xaqani yeganə poeması olan «Töhfətül-İraqeyn» əsərini tamamlayır. O, səfəri zamanı bir sıra şəhər və ölkələrdə olmuşdu. «Töhfətül-İraqeyn» poemasında şair Bağdad, Məkkə, Mədinə və Həmədanın təbiətini, gözəllik və zənginliyini ətraflı təsvir edir. Həmin şerlərdə Xaqani, həmçinin, dünyada ədalətin qalmamasından, təbiətin gözəllik və səxavətinin insanlara xoşbəxtlik gətirməməsindən doğan qəzəb və kədər hisslərini də ifadə etmişdir. Onlarda şairin fəlsəfi-etik görüşləri əksini tapmışdır[16]. Xaqaninin ən gözəl əsərlərindən biri də «Mədain xərabələri» qəsidəsidir. İndiki Bağdad yaxınlığında Parfiya və Sasani hökmdarlarının iqamətgahı olmuş qədim Mədainin əzəmətli sarayının xarabalarını seyr edən şair xalqların və dövlətlərin taleyi haqqında fəlsəfi düşüncələrə dalır:

Zəncirə düşən Dəclə zəncir kimi qıvrılmış,
Eyvani-Mədaini görcək yer ilə yeksan.

Göz yaşları dil açsın, eyvana xitab etsin,
Bir kəlmə cavab alsın qəlbin qulağı ondan.

Başlar öyüdə hər an diş-diş divarı qəsrin,
Sanki dil açıb söylər tarixini hər dənden

Bayquşların ahından ağrır başımız daim,
Gözyaşı gülabıyla et dərdimizə dərman...

...Kəsra ilə narıncı, Pərviz ilə tərxunu –
Çoxdan unudulmuşlar, torpaqla olub yeksan.

Düzdürdü qızıl tərxun öz süfrəsinə Pərviz,
Süfrə bəzənib oldu zər səbzəli bir bostan.

Pərviz yox olmuşdur, ondan daha söz açma,
Get, «kəm tərəku» söylə, zərdən tərə yox ələn.

Sordun: hara getmişlər indi o böyük şahlar,
Bir hamilədir torpaq, çox udmuş o, şah, xaqan.

Çox gec doğacaq torpaq, qayda belədir, əslən,
Tez nüftə tutan kəslər doğmaz o qədər asan.

Meynə yetirən meydir Şirinin ürək qanı,
Pərviz cəsədindəndir ol küp ki, qoyar dehqan...

...Kim gəlsə səfərdən bil, bir töhfə verər dosta,
Qoy ərməğanın olsun hər dostuna bu dastan[17].
(Tərcüməsi Məmməd Rahimindir)

Xaqani səfərdən qayıtdıqdan sonra Şirvanda hökm sürən ağır şəraitdən - ona qarşı böhtanlardan, xəbərçilikdən, həsəddən və hökmdarın ağılsız hərəkətlərindən əzab çəkirdi. Saray həyatından məyus olmuş Xaqani əsərlərində azadlığı tərənnüm edir, hakimlərin zülm və ədalətsizliyi əleyhinə etiraz səsini qaldırırdı. Onun şirvanşah Mənuçöhrlə münasibətləri yaxşı deyildi. Xaqani doğma yurdundan qaçmaq cəhdində təqsirləndirilirdi. Şairin öz sözlərinə görə, onun günahı Şirvanı «zülm ocağı» adlandırması olmuşdur. Xaqani h. 552 (1157/8)-ci ildə, Məkkəyə ilk ziyarətindən qayıtdıqdan azacıq sonra həbs edilərək, bir neçə ay zindanda saxlandı. Həbsdən çıxdıqdan sonra, o, Şamaxıda çox qalmadı. Sərgərdan gəzərək Dərbənddə, Gəncədə yaşadı. H. 554 (1159)-cü ildə Baqilan bəndi tikilərkən Mənuçöhr Xaqanini bağışladı və o, Gəncədən Şirvana qayıtdı. Mənuçöhrün

ölümündən sonra və I Axsitanın hakimiyyətinin əvvəllərində [h. 555 (1160)-ci il] Xaqani saraydakı əvvəlki nüfuzunu itirdi. O, təzə şaha bir neçə qəsidə həsr etsə də, Axsitan ona məhəl qoymamış, şair gözdən düşmüşdü. Xaqani yenidən həbs olunaraq üç ay məhbəsə salındı. Məhbəsdə yazdığı «Həbsiyyə» adlı gözəl mərsiyələrində Xaqani müstəbidlərə dərin nifrətini bildirmiş, zindanda məruz qaldığı işgəncələri görünməmiş açıqlıqla təsvir etmişdir. Onun şikayət və nifrəti son dərəcə güclü və təsirli ifadə olunmuşdur. Xaqaninin Bizans şahzadəsi Andronik Komnenə himayədarlıq haqqında yalvarışla müraciət etdiyi iki qəsidəsi məlumdur. H. 571 (1175/6)-ci ildə həbsdən azad olunduqdan sonra, Xaqani Şirvanı tərk edərək, ikinci dəfə Həcc ziyarətinə getmişdir. Bu vaxt o özünün ən yaxşı əsərlərindən birini - isfahanlıların şəninə həsr etdiyi qəsidəsini yazmışdır. Xaqani Məkkədən qayıdarkən Təbrizdə qalmış və ömrünün son 24 ilini Axsitandan böyük təqaüd alaraq burada keçirmişdir. İki oğlunu və bir neçə arvadını itirən Xaqani qocalıqda tamamilə tək-tənha qalmışdır. Axsitanın təkidlə Şirvana qayıtmağı tələb etməsinə baxmayaraq, Xaqani rədd cavabı vermişdir. Göründüyü kimi, o, ömrünün son illərində sufi şeyxi kimi həyat sürmüşdür. Onun həyatdan tam küskünlük ifadəsi olan didaktik-mistik qəsidələri də bu dövrün məhsuludur. Xaqani h. 505-ci ilin şəvval ayında (iyul, 1199-cu il) Təbrizdə ölmüş və «Məqbərət üş-şüəra» adlandırılan Surxab qəbiristanlığında dəfn olunmuşdur. Xaqaninin dövrümüzədək gəlib çatmış əsərləri böyük divandan və «Töhfətül-İraqeyn» poemasından ibarətdir. Divanda aşağıdakı bölmələr vardır: 1) qəsidələr, tərcibəndlər və qitələr; 2) qəzəllər; 3) rübailər; 4) ərəbcə qəsidələr. Xaqani Şirvanşahlara Xarəzmşahlara, Səlcuqilərə, Elxanilərə və digər hökmdarlara mədhiyyələr yazmışdır. O, qəsidələrində, başlıca olaraq, formaya diqqət yetirirdi. Şair qəsidələrində çətin rədiflər işlədir məcazlardan, poetik fiqurlardan, habelə, vəsf bədii üsulundan (məsələn, «səhər içki məclisi»nin - səbuh - təsviri) geniş istifadə edirdi. Onun ən yaxşı əsərləri sarayla bağlı deyildir. Xaqani əsərlərində ara-sıra Azərbaycan sözləri işlədirdi. Xaqaninin yaradıcılığı təkcə Azərbaycan şerinə deyil, Yaxın Şərqin bütün farsdilli poeziyasına güclü təsir göstərmişdir[18]. Əsas poetik janr olan qəsidə ilə yanaşı, humanist dünyəvi poeziya da inkişaf edirdi. Onun parlaq nümayəndəsi XII əsrin dahi şairi, dünya ədəbiyyatının korifeylərindən biri Nizami Gəncəvi idi. Şeyx İlyas ibn Yusif ibn Zəki Müəyyəd Nizami (1141-1209) Gəncədə, yaxşı təmin olunmuş şəhərli ailəsində anadan olmuşdur. Onun anası kürd qızı idi. Nizami otuz yaşından sonra Dərbənd hakiminin ona hədiyyə göndərdiyi gözəl qıpçaq kənizi Afaqla evlənmişdir. Onun Afaqdan yeganə oğlu Məhəmməd doğulmuşdur. Afaqla ailə həyatı çox xoşbəxt, lakin qısa olmuşdur. Belə ki, şairin gənc arvadı 1180-ci illərdə həyatdan köçmüşdür. Sonralar Nizami iki dəfə də evlənmişdir. O, demək olar ki, ömrü boyu müxtəlif elmləri öyrəndiyi Gəncədə yaşamış və buradan kənara çıxmamışdır. Nizami müdrikliyi, biliyi və sadə həyat tərzi ilə şöhrət qazanmışdı. Mənbələrə görə, şair sufi dairələri və əxi təşkilatı ilə əlaqə saxlamışdır. O, erkən yaşlarından poeziya ilə məşğul olmuşdur. Onun bilik dairəsi geniş idi: ilahiyyat və

fəlsəfə, astronomiya və nücum, coğrafiya, riyaziyyat və kimya, təbabət, tarix və ədəbiyyat. Nizami müsəlman aləminə nüfuz etmiş yunan filosoflarının əsərlərindən geniş şəkildə bəhrələnmişdir. O, ərəb, xüsusilə fars dillərini mükəmməl bilirdi. Nizaminin Azərbaycan dilində lirik şerlərindən ibarət dövrümüzədək gəlib çatmamış əlyazmasına dair məlumat vardır. Mənbələrə görə, Nizaminin «Xəmsə»dən başqa 20000 beytdən ibarət şer divanı olmuşdur. Nizamidə Axsitan «divan sahibi» kimi xatırlanır; ehtimal ki, şair özünün lirik şerlər məcmuəsini ona təqdim etmişdir. Nizami saray şairləri sırasına daxil olmasa da, maddi ehtiyac üzündən əsərlərini şahlara, o cümlədən şirvanşah Axsitana göndərmişdir. Nizaminin Şirvanla, o cümlədən dostluq münasibətlərində olduğu Xaqani ilə əlaqə saxladığını Xaqaninin Nizamiyə yazdığı və Tehranda dərc olunmuş məktubu da təsdiqləyir[19].

Nizaminin poetik irsi otuz min beytlik beş böyük poemadan - «Xəmsə»dən («Sirlər xəzinəsi», «Xosrov və Şirin», «Leyli və Məcnun», «Yeddi gözəl», «İsgəndərnamə») və qəzəllərdən ibarətdir. Nizami öz poemalarında din, sufilik və humanizm, azad insan şəxsiyyəti, dövrün mənəvi idealları məsələlərini yeni şəkildə qoyur və həll edirdi. Nizami və Xaqaninin yaradıcılığı Azərbaycanda erkən Renessans ideyalarının meydana gəlməsinə imkan yaradan sosial-tarixi şəraitlə bağlı idi. Nizami ağlı dünyanı idrakın əsası kimi dövrün dini və sufi mistik görüşlərinə qarşı qoyurdu. O, insanı dünyanın əşrəfi elan edir, insan səadəti və azadlığını isə həyatın başlıca məqsədi sayırdı. Şair dövrün zülm və istibdadı əleyhinə çıxırdı.

Nizami məhəbbət mövzusuna həsr olunmuş üçüncü poeması «Leyli və Məcnun»u fars və ərəb dilləri ilə bəzəməyi xüsusi qeyd edən I Axsitanın sifarişi ilə yazmışdı. Axsitanın bu tələbi Nizaminin fars dili ilə yanaşı, Azərbaycan-türk dilində də şerlər yazdığını ehtimal etməyə imkan verir. Axsitanın Nizamiyə məktubunda aşağıdakı misralar vardır:

Kamal cövhərinin xəzinəsindən,
Gör, kimin sapına inci düzürsən.
Türk dili yaramaz şah nəslimizə,
Əskiklik gətirər türk dili bizə.
Yüksək olmalıdır bizim dilimiz,
Yüksək yaranmışdır bizim nəslimiz.

Nizami poemanı 4 aya yazaraq, onu 1188-ci il sentyabrın 24-də başa çatdırdı. «Leyli və Məcnun»da insan həyatını iki qüvvə, iki aparıcı ideya müəyyən edir - məhəbbət və ağıl. Poemanın süjet xəttinin əsasında Azərbaycanda yayılmış qədim ərəb əfsanəsi durur. Nizami Məcnun və Leyli əhvalatını şərh edən yazılı ərəb mənbələrindən bəhrələnmiş, yeni ideya və keyfiyyətlərlə zənginləşdirilmiş, süjet cəhətdən kamil və orijinal bədii əsər yaratmışdır. Əsərdə ağıllı, nəcib gənc Qeysin Leyliyə bəslədiyi ideal məhəbbət təsvir olunur. Poemanın qəhrəmanları müəyyən səbəblər üzündən bir-biri ilə qovuşub xoşbəxt ola bilmirlər. Leylinin ata-

anası Məcnun - divanə adlandırılan Qeysin sönməz məhəbbətini ağılsızlıq, dəlilik sayırlar. Sevmədiyi adama ərə verilən Leyli öz hisslərini söndürə bilməyən və ömrünün son illərini səhrada vəhşi heyvanların əhatəsində tənha və sərgərdan keçirərək, ona məhəbbətindən bəhs edən gözəl şerlər qoşan Məcnuna olan məhəbbətinə sadiq qalır. Nizami qeyd etməyi vacib sayır ki, bu «eşq divanəliyi» Məcnunun ağlını sadəcə əlindən almamış, onun poetik istedadının tam şəkildə açılmasına təkan vermişdir. Məcnun simasında Nizami ideal müztərib aşiq, cəmiyyətlə əlaqəni kəsən, həyat və səadətdən imtina edən, məhəbbət hissini hər şeydən yüksək tutan böyük şair obrazı yaratmışdır. Onun məhəbbəti «heç yerda kama çatmayan ideal arzudur». Leyli aşiqinin həsrətindən ölür. Leylinin ölüm xəbərini eşidən Məcnun onun qəbri üstündə dünyadan köçür. Nizaminin poeması bütün Şərqdə böyük uğur qazanaraq məşhurlaşmışdı. «Leyli və Məcnun» poeması XII əsr romantik Azərbaycan şerinin zirvəsi və məhəbbət haqqında ən möhtəşəm əsərlərdəndir.

Nizaminin dünya poeziyası xəzinəsinə daxil olan «Xəmsə»sində onun humanist, qabaqcıl fəlsəfi, estetik və etik görüşləri əksini tapmışdır. Dövrünün oğlu olan Nizami feodal hakimlərini və feodal cəmiyyətini tənqid edərkən belə sayırdı ki, gerçəkliyin dəyişdirilməsi insandan, onun zəkasından və yüksək mənəvi keyfiyyətlərindən asılıdır. Onun əsərlərində insanın şəxsi ləyaqəti, həyatsevərliyi, ən yüksək səadət idealına can atması müsəlman tərki-dünyalığına qarşı qoyulur. Nizaminin poeziyası üçün demokratiklik və humanizm səciyyəvidir. Nizaminin yaradıcılığı bir sıra Şərq ölkələrinin - Hindistan, Orta Asiya, İraq, Türkiyə və digər ölkələrin ədəbiyyatına təsir göstərmişdir. Şərqin görkəmli şairləri - farsdilli hind şairi Əmir Xosrov Dəhləvi (XIII əsrin sonu), fars və tacik şairi Əbdürrəhman Cami (XV əsr), özbək şairi Əlişir Nəvai (XV əsr), Azərbaycan şairi Məhəmməd Füzuli (XVI əsr) onun «Xəmsə»sinə nəzirə olaraq bir sıra poemalar yazmışlar. Nizaminin təkcə «Leyli və Məcnun» poemasına bir sıra Şərq dillərində 40-a yaxın nəzirə məlumdur. Bir çox əsrlər boyu Qafqaz və Şərq xalqlarının ədəbiyyatı Nizami poeziyasının təsiri altında olmuşdur. Onun poemaları ingilis dilinə və başqa dillərə tərcümə edilmişdir. Höte özünün «Qərb-Şərq divanı»nda Nizaminin əsərlərini yüksək qiymətləndirmişdir[20].

Dahi şairlər Nizami və Xaqaninin Azərbaycan xalqının mədəniyyətini, tarixini və həyat tərzini əks etdirən yaradıcılığı XII əsr Azərbaycan ədəbiyyatının ən yüksək zirvəsi, onun «qızıl dövrü»dür. Həmin dövrdə ədəbiyyatın və elmin inkişafı birtərəfli xarakter daşımırdı. Bu, orta əsrlər Azərbaycan cəmiyyətində mədəniyyətin ümumi yüksəlişinin tərkib hissəsi idi. İstedadlı gənclər, başlıca olaraq, mülkədarların və ruhanilərin övladları əvvəlcə məktəbdə, sonra isə Şirvanın mərkəzi şəhərlərinin məscidləri yanındakı mədrəsələrdə təhsil alırdılar. Mədrəsədə Azərbaycan elm və incəsənətinin inkişafına təsir göstərmiş alimlər dərs deyirdilər. X əsrin əvvəli - XIII əsrdə, əsasən, ərəb və fars dilləri, şəriətin normalarını təşrih edən hüquq elmləri (fiqh) ilə bağlı olan ilahiyyat fənləri tədris olunurdu.

XII əsrin məşhur fəqihlərindən (hüquqşünaslarından) biri, müəyyən müddət Bağdaddakı Nizamiyyə mədrəsəsində yaşamış şamaxılı Əbu Bəkr Məhəmməd Şirvani sayılır. O, Dərbənd nahiyəsində Hibətullah ibn Mübarək ibn əs-Səktinin və Şirvanın digər görkəmli alimlərinin yanında oxumuşdur. H. 539-cu ilin şəvval ayında (aprel, 1144-cü il) ölmüşdür. Xınalıqlı Həkim ibn İbrahim əd-Dərbəndi də bu şəhərdə Qəzzalidən fiqh dərsi almış, hədisləri dinləmişdir. O, uzun müddət Buxarada yaşamış və 1143/4-cü ildə orada vəfat etmişdir. XII əsrin digər görkəmli alimi, beyləqanlı Əbü-l-Məali Əbd əl-Məlik ibn Əhməd əl-Beyləqani Xorasan və Bağdada gedərək ilahiyyatı öyrənmişdir. H. 496 (1102/3)-cı ildən sonra Beyləqanda ölmüşdür[21]. Fiqhlə bağlı olan əxlaqa dair də XII əsrə qədər həm ərəbcə zəngin ədəbiyyat, həm də qədim İran «pəndnamələr»i - «nəsihət kitabları» mövcud idi. Qədim «pəndnamələr»in ənənələri Nizaminin «İqbalnamə»sinin bəzi fəsillərinə sirayət etmişdir. Fəlsəfə sahəsində təlim dini kəlamların öyrənilməsi ilə məhdudlaşmır, müsəlman aləminə nüfuz etmiş yunan filosoflarının əsərlərindən də geniş istifadə edilirdi[22]. Tanınmış XI əsr Azərbaycan filosofu Bəhmənyar ibn Mərzban məşhur filosof Əbu Əli ibn Sinanın şagirdi olmuşdur. Bəhmənyar çoxlu traktatların müəllifidir. Həmin əsərlərdə o, Aristotel fəlsəfəsini islamın əsas ehkamları ilə uyğunlaşdırmağa cəhd göstərmişdir. Onun başlıca əsərləri - «Məratib əl-mövcudat» («Mövcudatın mərtəbələri»), «Mabəd ət-Təbiət» («Metafizika») Qərbi Avropa dillərinə tərcümə olunmuşdur. Bəhmənyarın əsərləri ərəb dilində Qahirədə nəşr edilmişdir. Mənbələrdə yalnız Şirvan şəhərlərinin deyil, eləcə də Bağdad, Qahirə, İsgəndəriyyə, Dəməşq və digər şəhərlərin mədrəsələrində dərs demiş bir çox şirvanlı və arranlı alimlərin adları gəlib çatmışdır. Mənbələrdə, başlıca olaraq, ilahiyyatçıların, adət və hüquq bilicilərinin adları çəkilir. Şirvan şəhərindən çıxmış Əud ibn Əhməd imam Əbu Xələf əş-Şirvani Xosrov Ənuşirəvanın nəslindən idi. O, «Əl-Mötəbər fi təlil əl-müxtəsər» əsərinin müəllifidir. H. 550 (1155)-ci ildən sonra ölmüşdür[23].

Qəvam əd-Din Nəsr Yunis ibn Mənsur ibn İbrahim əş-Şirvani Şirvandan Bağdada köçərək, buradakı Nizamiyyə mədrəsəsində dərs demiş, tarixçi Əbd ər-Rəhman ibn əl-Cəuzinin dostu olmuşdur. Qəvam əd-Din 1258-ci ildə monqollar Bağdadı zəbt edərkən öldürülmüşdür[24].

Filosof Müəyyin əd-Din Əbü-l-Fəzl Bəxtiyar ibn Mühənna ibn Əbd ər-Rəhman əş-Şirvani h. 665 (1266)-ci ildə Təbrizdə ölmüşdür[25].

Fiqh alimi Zəki ibn əl-Həsən ibn Ömər Əbu Əhməd əl-Beyləqani h. 582 (1186)-ci ildə doğulmuşdur. Dəməşqə köçərək, burada fiqh və hədisdən dərs demişdir. Sonralar İsgəndəriyyəyə, oradan isə Yəmənə gedərək alimliyi ilə şöhrət qazanmış, çoxlu şagirdi olmuşdur. O, h. 676-(1277)-ci ildə Ədən şəhərində ölmüşdür.

Sufi, əş-Şihabiyyə xanəgahının şeyxi Şəms əd-Din Məhəmməd ibn Əhməd ibn Salah əş-Şirvani nücum və hüquq bilicisi idi. Fəlsəfə sahəsində mühazirələr oxumuş, rasionalistlərin mübahisələrində iştirak etmişdir. H. 699-cu ildə (28. IX.

1299-15. IX. 1300) ölmüşdür[26].

XI-XIII əsrlərdə astronomiya və astrologiya xeyli inkişaf etdi. XII əsrin ortalarında Şirvanda yaşamış Fəridəddin Şirvani adlı alim astronomiya ilə məşğul olmuş, bir neçə ulduz cədvəli tərtib etmişdir[27]. Mil düzündəki Örənqalada aparılan arxeoloji qazıntılar zamanı tapılan, üzərində planetlərin əhatə dairəsi və hərəkət yolu cızılmış dairəvi gil lövhə Azərbaycanda astronomiyanın inkişaf etdiyini təsdiqləyir. Nizaminin «İsgəndərnamə» poemasında irəli sürdüyü «eşitdim dünyadır parlaq ulduzlar» müddəası şairin bu sahədə dərin biliyə malik olduğunu göstərir[28].

Şirvan alimləri coğrafiya, kosmoqrafiya, riyaziyyat, kimya, təbabət, musiqi ilə də məşğul olurdular. Yaqut Həməvi Şirvan, Şamaxı, Dərbənd, Qəbələ, Beyləqan və başqa şəhərlərdən çıxmış bir çox alimin adını çəkir. Şirvanşah III Mənuçöhrün hakimiyyəti dövründə həkim Mahmud xoca, müdriklərin şöhrəti, Şirvanın şərəfi, Xaqanini xəstəlikdən xilas etmiş Rəşidəddin məşhur idi[29]. Şəmsəddin Təbib Xaqanini qızdırmadan müalicə etmişdi[30]. Lakin elm o vaxtlar hələ ixtisaslaşmadığından alim, yaxud həkim adı bütün sahələrdə elmi bilik sahiblərinə verilirdi[31].

Başqa müsəlman dövlətlərində olduğu kimi, IX-XIII əsrlərdə Şirvanda əsasında şəriət duran müsəlman hüququ mövcud idi. Şəriətə görə hüququn üç mənbəyi var: 1. Quran; 2. Rəvayətlər (sünnə, hədislər); 3. İcma.

Ərəblər Xilafətin istila etdiyi Ön və Orta Asiya ölkələrində və Zaqafqaziyada inkişaf etmiş iqtisadiyyat, sosial münasibətlərlə, erkən feodal cəmiyyətinin mədəniyyəti ilə rastlaşdılar. Həmin ölkələrdəki torpaq münasibətləri və şəhər həyatı, əmlak qanunları və sosial məişət Ərəbistandakından kəskin surətdə fərqlənirdi. Ona görə də, ərəblərin qarşısına yeni ictimai münasibətlərlə bağlı Quranın cavab vermədiyi tam bir sıra suallar çıxırdı. Belə olduqda hədislərə- Məhəmmədin kəlamları və hərəkətləri haqqında rəvayətlər - müsəlman sünnəsinə müraciət etməyə başladılar. Müsəlman sünnəsi çoxlu hədislərə əsaslanır ki, onun məğzini hüquq məsələləri təşkil edir. Müsəlman sünnəsinin meydana gəlməsi təkcə Quran mətnləri ilə yaradıla bilməyən dövlət, cinayət, mülki və ailə hüququ normalarının bərqərar edilməsi zəruriyyətindən doğurdu.

Mənbələrdə (Yaqut və b.) XI-XII əsrlərdə Şirvanda və Azərbaycanda ilahiyyatçı alimlər tərəfindən hədislərin cidd-cəhdlə toplandığı, yazıya alındığı və sistemə salındığı qeyd olunur. Lakin feodal cəmiyyətinin sonrakı inkişafı göstərdi ki, Quran və hədislər şəriət və hüququn bir sıra məsələlərinə cavab vermir. Onda fəqihlər arasında əshab ərrəy (yəni, məntiqi nəticə, yaxud əqli mühakimə metodunun tərəfdarları) cərəyanı meydana gəldi. Onlar şəxsi mülahizəyə, rasionalizm əlamətlərinə yol verirdilər. IX əsrədək fəqihlərin mübahisəsi nəticəsində «mömin» (sünni) islamın özəyində məzhəb adlanan bir sıra məktəb, yaxud təriqətlər yarandı. Onlar bir-birindən əqli metodun tətbiqində, başlıca olaraq, hüquq və ibadət üsulları məsələlərində fərqlənirdilər. Sünni məzhəblərdən

dövrümüzədək gəlib çıxmış dördü əsas sayılır: hənəfilik, malikilik, şafiilik, hənbəlilik. Dinlə hüquq arasında sıx əlaqə və mühakimə prosesinin və məhkəmənin ilahiyyat hüquqçularının ixtiyarına verilməsi müsəlman ölkələrində məhkəmə üsulunun xüsusiyyətini təşkil edir. Şirvanın şəhərlərində məhkəmə işlərini xəlifənin canişini, yaxud vilayət hakimlərinin təyin etdiyi qazılar aparırdı. Şəriət məhkəməsini həyata keçirən qazının bir sıra digər funksiyaları, o cümlədən notarius vəzifəsi də var idi. O, vəsiyyət, saziş, kəbinkəsmə, qəbalə kağızı, əmlakın bölüşdürülməsi məsələləri ilə də məşğul olur, sənədləri öz möhürü ilə təsdiqləyirdi. Yetimlərə və onların əmlakına nəzarət etmək, onlara qəyyum təyin etmək işləri də ona tapşırılmışdı. Qazı vilayətin, yaxud şəhərin əmirindən sonra olduqca nüfuzlu şəxs sayılırdı. Qazılar, adətən, xüsusi ruhani təhsili alırdılar və ayrı-ayrı hüquq məsələlərində fəqihlərin fikirləri ilə hesablaşırdılar. Mərkəzi şəhərin, yaxud vilayətin qazısı «qazı əl-quzzat» (qazılar qazısı) adlanırdı[32]. Qazı əl-quzzatdan başqa, Şirvanın bütün şəhər, nahiyə və kəndlərində yerli qazılar var idi. Mənbələrdə monqol hücumundan bir qədər əvvəl və ondan sonra bu vəzifəni tutmuş Şirvan qazılarının adları qalmışdır.

Şirvanın qazısı «hüquq elmlərinin və inzibati hüququn kamil biliciləri olan qazılar nəslindən çıxmış» Qiyasəddin əbu Nəsr Məhəmməd ibn Abdullah ibn Abbas əş-Şirvani olmuşdur.

Beyləqanın qazısı «Beyləqanın adlı-sanlı qazı və əyan nəslindən olan, biliyi və fəaliyyəti ilə Arranda şöhrət qazanmış» Əmin əd-Din Əbü-l-Fərəc Məsud ibn Əhməd ibn Mahmud əl-Beyləqani idi[33].

Təbrizə köçmüş Məcd əd-Din Əbü-l-Məcd ibn Səncər ibn Məhəmməd əş-Şirvani Şirvanın qazısı olmuşdur. Onu h. 673-cü ildə (7. VII. 1274-26. VI. 1275) Təbrizdə görmüşlər. Fiqhin bilicisi bu alim şeyx Şirvanın qazısı və müdərrisi olmuşdur[34].

Bu məlumatdan göründüyü kimi, əyan ailələrinin nümayəndələri arasında qazı vəzifəsi irsi idi.

Azərbaycanın xristian əhalisi yaşayan şəhər və kəndlərində müsəlman dövlətinə və müsəlmanlara aid olmayan işlərə yerli adət hüququnun qüvvədə olduğu xristian kilsə məhkəməsində baxılırdı. XII əsrin sonlarında xristian məhkəmə icraatı Mxitar Qoşun tərtib etdiyi hüquq məcəlləsi - «Qanunnamə» əsasında aparılırdı. Qoş həmin «Qanunnamə»ni alban katalikosu III Stepanosun təkidli xahişilə yazmışdı. «Qanunnamə»yə heç bir sistem gözlənilmədən Bizans imperiyasının qanunları ilə yanaşı, alban və erməni xalq adətləri və kilsə qanunları - «Musanın qanunları» da daxil edilmişdi. «Qanunnamə»nin tədqiqi göstərdi ki, Qoşun ideologiyası - feodal ideologiyasıdır. Zira, o, feodal ierarxiyasını, o cümlədən feodalın öz təbəələri üzərində hüququnu, eləcə də, insanın insan tərəfindən feodal istismar üsulunu təsdiq edir. Mxitar Qoşun «Qanunnamə»si xristian əhalili bir sıra ölkələrdə geniş yayılmış və istifadə olunmuşdur[35].

XI-XIII əsrin əvvəllərində Şirvanda şəhərlərin və şəhər mədəniyyətinin

inkişafı ilə bağlı memarlıq və şəhərsalma da inkişaf edirdi. Həmin dövrdə Azərbaycanın yüksək memarlıq sənəti, memarlıq formalarının özünəməxsusluğu, bəzək işlərinin zənginliyi-bütün bunlar yerli memarlığın çoxəsrlik inkişaf və təkmilləşmə dövrünun yekunu idi. IX-XI əsrlərə aid cüzi memarlıq abidələri qalmışdır. Bu dövrdə ibadətxanalar, əsasən, hakim islam dini ilə bağlı olan məscidlər tikilirdi. XI-XIII əsrlər Azərbaycan memarlıq abidələri onun yüksək inkişaf səviyyəsini göstərir və qonşu ölkələrin, Yaxın Şərqin həmhüdud ölkələrinin memarlığından fərqlənən özünəməxsus yerli xüsusiyyətləri ilə səciyyələnir. Onlarda bədii və tikinti ənənələrinin sabitliyi müşahidə olunur. Bu dövrdə Azərbaycan memarlığında iki istiqamət yarandı. Azərbaycan memarlığının gələcək inkişafında mühüm rol oynamış yerli Naxçıvan və Şirvan-Abşeron memarlıq məktəblərinin təşəkkül prosesi başa çatdı. Memarlıq binalarının daş hörməsinin xarakter və quruluşu ilə müəyyənləşən bədii obrazının bütövlüyü, hörgünün hamar fonunda relyeflə işıq-kölgə effekti yaradan plastik cəhətdən zəngin dekor ünsürlərinin yerləşdirilməsi Şirvan - Abşeron memarlıq məktəbinin xüsusiyyətlərindəndir[36].

XI-XIII əsrlərdə şəhərsalmanın inkişafı ilə əlaqədar olaraq, Azərbaycan memarları ifadəliliyi və gözəlliyi ilə seçilən saraylar, qəsrlər, karvansaralar, məscidlər, körpülər və s. tikirdilər. Bakı və Abşeronun memarlıq abidələri tikinti materialına, gözəl yonulmuş, sarıya çalan, ağ xırda dənəvər yerli badamdar əhəngdaşına, ciddi və lakonik formalı bədii-memarlıq üslubuna görə Şirvan-Abşeron qrupunda birləşir. XI əsrin ibadətxana tikililərinə Bakının İçərişəhər hissəsindəki Sınıqqala adı ilə tanınan Məhəmməd ibn Əbubəkr məscidi aiddir. Məscid çatma tağlı, mehrabı olan düzbucaqlı otaqdan ibarətdir; məscidin şimal divarındakı ərəbcə kitabədə məscidin «əl-ustad əl-rəis Məhəmməd ibn Əbubəkr tərəfindən (h. 471 (1078/9)-ci ildə» tikildiyi xəbər verilir[37]. Bu məlumat Şirvan və Arranın şəhərlərində feodal münasibətlərinin inkişafı və onların böyüməsi nəticəsində şəhər yuxarı təbəqələrinin - tacir silki və sənətkar sexləri rəislərinin şəhərlərin müstəqilliyi uğrunda feodal hakimləri ilə mübarizə apardığı XI əsrin ikinci yarısında ölkədə baş verən sosial-iqtisadi və siyasi hadisələri əks etdirir. Kitabədə şirvanşahın adının çəkilməməsi I Fəribürzün səlcuq işğalçılarına tabe olduğunu və rəislərin hakimiyyətinin gücləndiyini göstərir.

Yadelli basqınlar və siyasi şəraitin mürəkkəbliyi müdafiə istehkamlarının inşasını şərtləndirirdi. Abşerondakı bir sıra qalalar və feodal qəsrləri XII-XIII əsrlərə aiddir. Ə. Ə. Ələsgərzadənin fikrincə, şirvanşah I Axsitanın hökmranlığı dövründə h. 583 (1187)-cü ildə Mərdəkan kəndində yuxarı hissəsi maşikullar və merlon dişcikləri ilə bəzənmiş divarla dövrələnən və tinlərində yarımbürcləri olan düzbucaqlı həyətin ortasındakı iyirmi iki metrlik prizmaşəkilli möhtəşəm dördkünc qülləli qala* tikilmişdir. Onun yaxınlığında h. 600 (1204)-cü ildə memar

---

* L. S. Bretanitski və L. Q. Mamikonov bu qalanı XIV əsrin ortalarına aid edirlər.

Əbdülməcid ibn Məsud tərəfindən tikilmiş və yerli memarlıq tipinin sabitliyini göstərən başqa bir qala ucalır. Onun donjonu yuxarı hissəsi maşikul və merlonlarla bəzədilmiş azacıq naziklәşən daş silindr olub daha zərif formaya malikdir[38]. Şirvan-Abşeron məktəbinin müdafiə tikililərinin memarlığında Bakının İçərişəhər hissəsində, dənizə doğru dikinə uzanan sahil qayasının çıxıntısı üzərində inşa edilmiş Qız qalası qeyri-adi görkəmilə xüsusi yer tutur. Onun islamaqədərki dövrdə ibadətgah kimi tikildiyi[39], XII əsrin son rübündə (ehtimal ki, 1175-ci ildə) şirvanşah I Axsitan Abşeronu və Bakını fortifikasiya istehkamları ilə möhkəmləndirərkən tikintisinin başa çatdırıldığına və dəyişdirilərək müdafiə qalasına çevrildiyinə dair mülahizə irəli sürülmüşdür. Lakin nə məqsədlə tikildiyini qəti təyin etmək üçün istər qalanın daxilində, istərsə də xaricində arxeoloji tədqiqatlar aparılmalıdır. Xaqaninin (XII əsr) şirvanşah I Axsitan ibn Mənuçöhrü mədh edən məşhur qəsidəsində Xorasanın yenilməz Bestam şəhəri ilə müqayisə edilən Bakının alınmaz qala kimi əhəmiyyəti qeyd olunur[40]. Şerdə Xaqani şirvanşah I Axsitanın inşa etdirdiyi qala tikililərinə işarə edir. Məlumdur ki, XII əsrdə Bakı Axsitanın atası III Mənuçöhrün tikdirdiyi, yaxud bərpa etdirdiyi qala divarları ilə əhatələnmişdi. Göstərilən qəsidədə isə, ehtimal ki, söhbət Qız qalasından gedir.

XII-XIII əsrin əvvəllərində istedadlı memar və sənətkarların yaşayıb yaratdığı Şirvanda memarlıq inkişaf edirdi. Mənbələrdə Şamaxının yaxınlığındakı XII əsrdən xeyli əvvəl tikilmiş və o vaxtlar inşası başa çatdırılan Gülüstan qalası[41], Buğurt qalası və bir sıra digər qala və bürclər qeyd olunur. Monqol istilasından sonra (təqribən 1239-cu il) Şirvanda XIII əsrin sonlarınadək əhəmiyyətli tikililərə rast gəlinmir ki, bu da ölkənin hərbi əməliyyatlar nəticəsində dağıntıya məruz qaldığını göstərir. Lakin artıq XIV əsrin əvvəllərindən bütün ölkədə yenidən iri müdafiə tikililəri, ibadətgahlar inşa edilməyə başlayır (Nardaran, Ramana qalaları və s.). XI-XIII əsrin birinci yarısında ölkədə bədii mədəniyyətin ümumi yüksəlişi ilə bağlı tətbiqi sənət xeyli inkişaf etdi. İncəsənət əsərləri səviyyəsində olan bir sıra bədii sənətkarlıq məmulatı - Şamaxı və Şəkinin ipək parçaları, metal qab-qacağı və zərgərlik məmulatı, Beyləqanın gözəl şirli saxsı qabları, Şirvanın bir sıra şəhərlərinin gözəl naxışlı xalçaları və s. incəsənət əşyaları Yaxın Şərq ölkələrinə ixrac edilirdi.

Ermitajın zəngin kolleksiyası içərisində tuncdan tökülmüş Şirvan lüləyinin heykəl qrupu diqqəti cəlb edir. Bu nəfis su qabı donqarlı inək və onu əmən buzov təsvirindən ibarətdir. İnəyin belinə sıçrayıb onu parçalayan şir dəstək rolunu oynayır. Lüləyin gümüşlə inkrustasiya edilmiş, üzərində nəbati naxışlar, insan və heyvan fiqurları təsvir olunan haşiyələrlə bəzədilmişdir. İnəyin boynundakı kitabədə yazılar: «Bu inək, buzov və şirin hər üçü bütöv şəkildə tökülmüşdür...» Kitabədə sifarişçinin, sahibinin, habelə nəqqaşın - Əli ibn Məhəmməd ibn Əbdül Qasımın adları çəkilir və h. 603 (1206)-cü il məhərrəm ayı tarixi göstərilir. Son dərəcə ifadəli, dinamik və orijinal əsər olan bu heykəlcik onun yaradıcısının

yüksək bədii sənətkarlığını göstərir[42].

Şirvanşahlar sarayında XII əsrə aid edilən təbəqədəki quyuların birində bədii cəhətdən orijinal şəkildə işlənmiş tunc çıraq tapılmışdır. Çıraq bədii tökmə şəklində təsvir olunan süvari, ata hücum edən yırtıcı heyvan, iki öküz başı, pişikkimilər fəsiləsindən on dörd iri vəhşi heyvan başı, iki relyefli insan üzü və digər detallarla bəzədilmişdir. Çırağın uzunluğu 18 sm, hündürlüyü təqribən 8,5 sm-dir. O, əridilmiş mum texnikası əsasında düzəldilmişdir[43].

Bədii sənətkarlıq növlərindən biri də şirli keramikadır. Tədqiqatçılar Beyləqan keramikasının gözəlliyini, bariz ifadə olunmuş özüllülüyünü və orijinallığını, habelə, Beyləqan dulusçularının, xüsusilə XI-XIII əsrin birinci rübündə tətbiqi sənət sahəsində yüksək səviyyəyə nail olduqlarını qeyd edirlər. XII əsrin məharətlə işlənmiş relyefli nəbati dairələr fonunda yaşıl zolaqlı boşqab və kasaları, parlaq polixrom naxışları Beyləqanda işlənib hazırlanmış texniki üsulla manqan şiri üzərində incə və zərif naxışçəkmə həmin dövrdə başqa incəsənət sahələri kimi, bədii keramika sənətinin də inkişaf etdiyini göstərir. Bu və ya digər məmulatları istehsal edən karxanalar onlara öz möhürlərini vururdular. Dulusçular bəzi qablarda öz imzalarını gizli şəkildə naxışlarla həkk edirdilər. Ustaların adları göstərilən kitabələr məlumdur: «Ustad Əlinin işidir (əməlidir)»; «Əziz oğlu dulusçu Əlinin işidir»; «Xəttabın işidir». Bir sıra şirli keramika məmulatının üzərində lirik xarakterli farsca poetik nümunələr, yaxud ərəbcə xoşbəxtlik arzuları bildirən kitabələr vardır[44]. Sonrakı əsrlərdə şirli keramikanın inkişafına təkrar rast gəlinmir. Şirvan və Arran əhalisinin məişətində geniş yayılmış xalq tətbiqi sənət növlərindən biri də xalçaçılıq idi. Azərbaycanda xalça hələ eramızdan xeyli əvvəl toxunmuşdur. Mingəçevirdəki katakomba qəbrində palaz qalıqları aşkar olunmuşdur. X əsrin anonim əlyazmasında Şirvan və Xursan vilayətlərində (Quba və Bakı şəhəri ilə birlikdə Abşeron da bu zonaya daxil idi) müxtəlif çeşidli məxfuri – xovlu xalçalar, palazlar toxunduğuna dair məlumat verilir. «Əcaib əd-Dünya» adlı XIII əsr mənbəyində müasir Quba rayonu ərazisindəki Abxaz şəhərində zili xalçalar və yaxşı corablar toxunduğu xatırlanır. Quba-Şirvan qrupuna məxsus Şirvan tipli həndəsi naxışlı xovlu xalça dövrümüzədək gəlib çatmışdır.* Bu xalça XIII-XIV əsrlərə aid edilir[45].

XV əsrdə Şirvandan və Arrandan Qərbi Avropa ölkələrinə çoxlu miqdarda xalça ixrac olunduğu qeyd edilir.

XII-XIII əsrlərdə Şirvanda dekorativ və plastik sənət xeyli inkişaf etmişdi. Sənətkarların abidələr üzərində qalmış adları bir sıra istedadlı həkkaklıq ustalarının, heykəltəraşların olduğunu göstərir. Bakı buxtasında, XIV əsrdə su altında qalmış uzunsov düzbucaqlı formalı qala tipli tikilinin yerində (Bayıl daşları deyilən yerdə) üzərində ərəb əlifbası ilə kitabələr həkk olunmuş səkkiz yüzədək sal daş tapılmışdır. Fars dilindəki bu kitabələr vaxtilə abidənin divarlarını yuxarıdan

* Bu xalça İstanbulda Türk İslam Əsərləri Muzeyində saxlanılır.

dövrələyən frizdə yerləşdirilmişdir. Salların kitabələrdən boş qalan yerlərində qabarıq şəkildə müxtəlif heyvan, əfsanəvi varlıq, bəzilərində tac olan insan başları təsvir olunmuşdur. Bu qabartmaların bir çoxu böyük sənətkarlıqla, realist səpkidə işlənmiş, bu və ya digər heyvana məxsus hərəkətlər düzgün təcəssüm etdirilmişdir. Daha erkən dövrə aid olduğu ehtimal edilən natural ölçülü iki at barelyefinin parçaları diqqəti cəlb edir. Bir neçə daşda memar Zeynəddin ibn Əbu Rəşidin, nəqqaş Rəşidin adları çəkilir, abidənin h. 632 (1234/5)-ci ildə tikildiyi göstərilir[46]. Zəkəriyyə əl-Qəzvininin 1275-ci ildə yazdığına görə, şirvanşahın Şamaxı yaxınlığındakı Buğurt qalasındakı iqamətgahının divarlarında insan heykəl təsvirləri var idi[47]. XIV əsrin ikinci yarısının müəllifi Arif Ərdəbili xəbər verir ki, şirvanşah Axsitan (XII əsr) Şamaxı yaxınlığında dağda daş hasarla dövrələnmiş[*] əlçatmaz Gülüstan qalasını tikdirmişdi. Qalanın yuxarı hissəsində daşdan yonulmuş çox gözəl qabarıq insan üzləri təsvir olunmuşdur[48]. XVII əsrdə Şamaxıda olmuş səyyah Adam Oleari qala divarında daşdan yonulmuş insan üzləri gördüyünü yazırdı[49]. Görünür, bu nadir bəzək abidələri Şirvan-Abşeron memarlıq məktəbində islamaqədərki qədim yerli ənənələr əsasında yaradılırdı. Bu üslubun meydana çıxmasını Sasanilər dövründə və daha əvvəllər buna bənzər heykəl təsvirlərinin yayıldığı İranla mədəni əlaqələrlə izah etmək mümkündür. X əsr ərəb müəllifləri Dərbənddə şirlərin və insanların daş heykəl təsvirlərinin mövcudluğunu qeyd etmişlər. Şirvanın bir sıra rayonlarında qoyun və at şəklində başdaşlarına, habelə, üzərində məişət, ov və ziyafət səhnələrinin və i. a. barelyef formasında təsvir edildiyi daş sallara təsadüf olunur. İslam dininin insanın və heyvanların təsvirini qadağan etməsinə baxmayaraq, Azərbaycanda təsviri sənətin bu növü aradan çıxmamışdı[50]. IX-XIII əsrlərə aid freskalar və boyakarlıq əsərləri dövrümüzədək gəlib çatmışdır. Mənbələrin verdiyi məlumatlar bu dövrdə təsviri sənətin mövcud olduğunu göstərir. Müqəddəsi (X əsr) xəbər verir ki, Muğandan bir mərhələ aralı quş və heyvan rəsmləri çəkilmiş əl-Həsrə adlı böyük bir qala var[51].

XII-XIII əsrlərdə memarlıq abidələrində dekorativ sənətkarlıq yüksək inkişaf səviyyəsinə çatdı. Həndəsi və nəbati ornamentlə yanaşı, «çiçəklənən kufi», yaxud nəsx xətləri ilə məharətlə hörülmüş kitabələr yaradılırdı.

Pirsaatçay xanəgahı məscidinin cənub divarındakı mehrab, habelə onun hər iki tərəfindəki kiçik həcmli nanno gəc üzərində bədii oyma ilə bəzədilmişdi. Mehrabın düzbucaqlı və pannoların səthi «çiçəklənən kufi» kitabələrlə və nəbati naxışlarla örtülmüş, üzərinə xırda rəngarəng kaşılar səpələnmişdir. Pirhüseyn türbəsinin və qəbirdaşının kaşı bəzəyi xüsusilə böyük bədii dəyərə malikdir. Zərnaxışla örtülmüş kaşı lövhələri kobalt və yaşılı-füruzəyi rəngli naxışlarla bəzədilmişdir. V. A. Kraçkovskayanın fikrincə, kaşılar Kaşan şəhərində hazırlanmışdır[52]. Bu, Şirvanın qonşu Şərq ölkələrinin bədii ənənələrindən bəhrələndiyini və onlarla mədəni əlaqələr saxladığını göstərir.

---

[*] Ehtimal ki, Axsitanın vaxtında qala əlavə tikililərlə möhkəmləndirilmişdi.

Azərbaycan təsviri sənəti ilk nümunələri XIII əsrin əvvəllərinə aid edilən miniatür rəssamlığında da təcəssüm etmişdir. Bu incəsənət növünün sonrakı inkişafı XIII əsrin sonu – XIV əsr miniatürlərində nəzərə çarpır.

X-XIII əsrlərə aid Azərbaycan epiqrafik abidələrinin öyrənilməsi nəticəsində müəyyən edilmişdir ki, məscid, türbə, başdaşı və qalalardakı kitabələrin əksəriyyəti ərəb dilində, bir qismi isə, o cümlədən, XII-XIV əsrlərdə su altında qalmış Bayıl qəsrinin divarlarındakı kitabələr və Ölcaytunun yarlığı farsca yazılmışdır. X-XIII əsrlərdə Azərbaycanda rəsmi dövlət dili olan ərəb dili ilə yanaşı, fars dili də işlədilmişdir. Tarix, coğrafiya, fəlsəfə və digər elmlərə dair əsərlərin əksəriyyəti ərəbcə, az bir qismi isə farsca yazılırdı. XI-XII əsrlərdə bütün Yaxın Şərqdəki kimi, Azərbaycanda da şer və ədəbiyyatda fars dilindən istifadə edilirdi. Ancaq folklor nümunələri yerli dillərdə yaradılırdı. Ölkənin danışıq dili Azərbaycan-türk dili idi.

Azərbaycanda əlyazması kitabı, bütün müsəlman Şərqində olduğu kimi, tam bir sıra sənətkarın əməyilə yaradılan əsl bədii sənət əsəri idi. Əlyazma kitabının kağızı xüsusi üsulla hazırlanır və cilalanırdı. Sonra mahir xəttatlar hüsnxətlə əlyazmasının mətnini köçürürdülər. Ən qədim xətt kufi xətti idi. Sonralar nəsx, süls və s. xətlər yarandı. Kitabın yaradılmasında gözəl xətlə yazan xəttatların rolu xüsusilə böyük idi. Xəttatın adı, adətən, əlyazmasının kolofonunda göstərilirdi. Yazı texnikasının bədii keyfiyyətləri uzunmüddətli təcrübə sayəsində əldə edilirdi. Mətn köçürüldükdən sonra əlyazması illüstrasiya üçün ayrılmış yerlər və ayrı-ayrı səhifələr üzərində işləyən miniatürçü rəssama verilirdi. Kitabın bəzədilməsində müzəhhiblər, naxış ustaları da işləyirdilər. Əlyazma kitabı üzərində son işi cildçilər görürdülər. Onlar kitaba dəridən basma-naxışlı, yaxud lak boyalı üz çəkirdilər[53].

Şirvan və Arranın gözdən keçirdiyimiz dekorativ-tətbiqi sənət nümunələrini forma və materialının müxtəlifliyinə baxmayaraq, dövrün bədii mədəniyyətini və onun yaradıcılarının təfəkkürünü səciyyələndirən üslub və ideya ümumiliyi birləşdirir. İncəsənət, memarlıq, ədəbiyyat və poeziyanın vüsəti ölkənin sosial-iqtisadi vəziyyətinin və şəhər mədəniyyətinin ümumi yüksəlişi ilə bağlı idi.

## V FƏSİL

## DƏRBƏNDİ ŞİRVANŞAHLAR DÖVLƏTİ (XIV-XVI əsrlər)

### § 1. Dərbəndi Şirvanşahlar sülaləsi və onların müstəqillik uğrunda mübarizəsi

### ŞİRVANŞAH I İBRAHİM İBN SULTAN MƏHƏMMƏD

Huşəng 1382-ci ildə öldükdən sonra Şirvan feodalları onun əmisi oğlu İbrahim ibn Sultan Məhəmməd ibn Keyqubadı hökmdar seçdilər. Münəccimbaşıya görə Şeyx İbrahim Məzyədilər sülaləsinin bir qolu olan Dərbəndi şirvanşahları sülaləsinin ilk nümayəndəsidir. O və onun atası Sultan Məhəmməd ibn Keyqubad Kavus və Huşəngdən ehtiyat edərək Şəki kəndlərinin birində gizlənmişdilər[1]. Əhməd Qaffarinin məlumatına görə, Şeyx İbrahimin atası oradaca ölmüş, Şeyx İbrahim isə Huşəngin ölümünə və Şirvan feodalları onu şirvanşahlar taxtına sahib olmağa dəvət edənə qədər həmin yerdə gizlənib qalmışdı[2].

Onun taxta çıxması haqqında başqa mənbələrdə daha müfəssəl məlumat verilir: Zadəgan nəslindən olan yoxsullaşmış feodal Şeyx İbrahim atası və qohumları ilə birlikdə Şirvanın Şəki nahiyəsindəki kəndlərin birində yaşayaraq, əkinçiliklə məşğul olurdu. Onlar özlərini Sasani şahı I Xosrov Ənuşirəvanın nəslindən hesab edir və şəcərələrini bunun üzərində qururdular. Xalq iğtişaşlarından və feodal çəkişmələrindən sonra Şirvan feodalları Şeyx İbrahimi şirvanşah seçməyi qərara aldılar. «Onlar hökmdarlıq ləvazimatı olan dövlət atları və məiyyətlə İbrahimin yanına yollandılar. Gördülər ki, o, işləyib yorulduqdan sonra şumlanmış cərgənin yanındakı ağacın altında yatmışdır. Onlar İbrahimin üzərində çadır qurub şah məiyyəti kimi kənara çəkildilər və onun oyanmasını gözləməyə başladılar. İbrahim oyananda onu təbrik etdilər və ona sədaqət andı içdilər. Onlar İbrahimi şəhərə (Şamaxıya) aparıb taxta oturtdular və o, ölkələr fəth etməyə başladı, öz təbəələri ilə ədalətlə rəftar etdi, onların ürəklərinə dinclik gətirib, səxavət göstərdi. Mövqeyi möhkəmləndi və o, geniş tanınaraq məşhurlaşdı»[3]. Şeyx İbrahim dövlət adamı zəkasına sahib müdrik hökmdar olmuşdur. İbrahim Yaxın Şərqdə Teymurun işğalçılıq müharibələri ilə bağlı ağır xarici siyasi hadisələrin baş verdiyi dövrdə hökmranlıq etmişdir.

Bu dövrdə Cənubi Azərbaycanda və digər vilayətlərdə Cəlairilər sülaləsi hökmdarlarından olan sultan Əhməd hökmranlıq edirdi[4]. Şimaldan Şirvanı Qızıl Orda xanı Toxtamış təhdid edirdi. Şeyx İbrahim bu ağır siyasi şəraitdə Şirvanın əhvalının ağırlığını böyük uzaqgörənliklə və ağılla qiymətləndirdi. Teymur Azərbaycana hücum edərkən qarşısına çıxan hər şeyi yerlə-yeksan edən işğalçı ordunun qarşısında duruş gətirməyin çətin olacağını başa düşən, Şirvanın viran ediləcəyini və əhalisinin qırılacağını görən Şeyx İbrahim Teymura itaət göstərərək

ona tabe oldu və onun rəğbətini qazanaraq Şirvanın hakimi saxlanıldı[5]. Hətta, Teymur oğlu Miranşahı Azərbaycan və Şirvanın, o cümlədən Dərbənd və Bakının hakimi təyin edəndə də İbrahim şirvanşah adını qoruyub saxlamağa müvəffəq oldu[6]. Mənbələrdə h. 788 (1386)-ci ildə Qarabağa, şirvanşahın ərazisinə daxil olan Dərbənddən keçərək Dəşt-i Qıpçağa gedən əmir Teymurun görüşünə gələn İbrahimin davranışı barədə məlumat verilir. Ərəbşah və Cənnabinin məlumatına görə, İbrahim bundan əvvəl özünün ən inanılmış adamı - böyük vəzir qazı Əbu Yəzidlə məşvərət etmiş və o, şirvanşaha qaçıb dağlarda gizlənməyi məsləhət görmüşdü. Lakin Şeyx İbrahim təhlükəyə qarşı getməyi qərara aldı. O, Teymurun adına xütbə oxunmasını və sikkə kəsilməsini əmr etdi və itaətini bildirmək üçün bahalı hədiyyələrlə istilaçının qərargahına yollandı[7]. O, monqol hökmdarlarında dəbdə olduğu kimi hər hədiyyədən doqquz ədəd təqdim etdi. Lakin yalnız səkkiz qul bağışladı və bildirdi ki, «doqquzuncu mən özüməm». Bu, Teymurun çox xoşuna gəldi, İbrahimi oğlu adlandırıb ona fəxri paltar bağışladı, Şirvan və Şamaxının hakimi təyin edərək öz torpaqlarına qayıtmasına icazə verdi. İbrahimə hədsiz iltifat göstərən Teymur bəzi mülkləri də onun torpaqlarına qatdı və öz xələflərinə şirvanşahın övladlarının əmin-amanlığının təmin olunmasını vəsiyyət edən fərman verdi[8]. İbrahimin müdrik siyasəti Şirvanı viran olmaqdan və fəlakətdən xilas etdi. Şeyx İbrahim bir neçə dəfə Şirvana basqın edərək onu böyük dağıntıya məruz qoyan Toxtamışa qarşı mübarizədə Teymura kömək edirdi. H. 787 (1385/6)-ci ildə Toxtamışın doxsan minlik ordusu Dərbənd keçidindən Şirvana hücum etdi. Toxtamış Şirvanın şəhərlərini tutaraq Təbrizə getdi, oranı qarət edib həmin yolla da geri qayıtdı[9]. Toxtamış h. 789 (1387)-cu ildə yenidən Şirvana soxulub Kür çayına çatdıqda Teymur əmirlərinin başçılığı ilə qoşun göndərərək şirvanşaha kömək göstərdi. Teymurun oğlu Miranşah atasının və şirvanşahın qoşunlarının köməyinə çataraq Toxtamışı məğlubiyyətə uğratdı, onu qaçmağa vadar etdi və Dərbənddən qovub çıxardı. Teymur h. 797 (1395)-ci ildə Dərbənddən keçərək Toxtamış üzərinə yürüşə gedərkən, Şeyx İbrahim Şirvan qoşunları ilə onu müşayiət edirdi. Teymur böyük qələbə qazandı. Toxtamış qaçdı. Qızıl Ordanın ərazisi Teymurun qoşunları tərəfindən dağıdıldı və qarət edildi[10]. H. 798 (1395/6)-ci ildə Toxtamışın qoşunlarını təqib edən Teymur Dağıstan ərazisinə girdi və burada Haydak əhalisinin şiddətli müqaviməti ilə qarşılaşdı. Onlar mərdliklə vuruşsalar da, üstün qüvvələrin təzyiqi altında geri çəkilməyə məcbur oldular. Teymurun qoşunları vilayəti qəddarcasına talan etdi[11]. Lakin Dağıstanı və ləzgilər ölkəsini 1404-cü ildə təsvir etmiş Sultaniyyə arxiyepiskopu III İohann de Halonifontibusun məlumatına görə Teymur bu səfərdə məğlubiyyətə uğramışdır: «Teymurləng yüz minlik qoşunla bu dağlara, onların ölkəsinə soxulmağa cəhd göstərdi. Lakin onlar ordunu qalın meşənin qabağında qarşılayıb, düşməni elə ağır tələfata uğratdılar ki, Teymur geri çəkilməyi əmr etdi. Bu hökmdar Dəmir Qapıdan keçmək qərarına gələndə başa düşdü ki, o, ilk növbədə, həmin ölkəni yalnız sülh yolu ilə tabe etdikdən sonra Böyük Tatarıstana soxula bilər»[12]. Teymur dəfələrlə

Azərbaycandan, Dərbənddən keçərək Gürcüstana və şimala getmiş və həmin səfərlərdə Şeyx İbrahim Şirvan qoşunları ilə onu müşayiət etmişdir. Mənbələrin məlumatına görə, h. 798 (1396)-ci ilin baharında Həştərxana səfərdən geri qayıdarkən Teymur Dərbəndə gəlib çıxır. Teymurun salnaməçisi Şərəf əd-Din Əli Yəzdi Teymurun əmri ilə şəhərin qala divarlarının bərpa olunduğunu xəbər verir. «Dünyanın fatehi, comərd hökmdar Allahın köməyilə Dərbənddən keçdi və İçqalanın bərpa olunmasını əmr etdi. Onun əmri ilə işə başlanıldı. Onun xoşbəxt və əzəmətlə qayıtması xəbəri aləmə yayıldı». Şəbərana çatan Teymur sonra Şamaxıdan keçib Kür çayının sahilində dayandı. Şeyx İbrahim burada onu qiymətli hədiyyələrlə qarşılayıb böyük ziyafət düzəltdi. Ziyafət zamanı Teymur Şeyx İbrahimə bahalı paltar, qiymətli kəmər və qılınc bağışladı. Onun Şirvana və ona tabe olan torpaqlara sahiblik hüququnu təsdiq edən fərman yazıldı. Teymur Şeyx İbrahimə Dərbəndi və şimal sərhədini ayıq-sayıq qorumağı tapşırdı. O vaxt Dərbənd şirvanşahın torpaqlarına daxil idi. Teymur buradan qoşunları ilə Kürü keçib Ağdam adlı yerdə dayandı. Teymur torpaqları Qızıl Orda ərazisi ilə həmsərhəd olan Şeyx İbrahimin şəxsində müttəfiqini görməkdə maraqlı idi. Buna görə də Teymur İbrahimə çox böyük himayədarlıq göstərir, onu tabeliyində olan digər feodallar arasında fərqləndirirdi. Zəhmli Teymurun etimad və dostluğunu qazanmış İbrahimin çevik siyasətini təkcə Şirvanın xalq kütlələri deyil, feodal sinfi də geniş müdafiə edirdi. İri feodallar, məsələn, orlat tayfasından olan atası Sidi Əli gürcülərlə birlikdə Teymurun hökmranlığına qarşı çıxmış və bu mübarizədə həlak olmuş Şəki hakimi Sidi Əhməd, dəfələrlə Teymurun himayəsinə keçmək xahişilə Şeyx İbrahimə müraciət edirdilər. Bu zaman Şəki müstəqil feodal mülkü idi. Şeyx İbrahim Sidi Əhmədin xahişilə Teymurdan onun bağışlanmasına, hətta varislik hüququnun bərpa edilməsinə nail olmuşdu[13].

Yeddiillik müharibə (1399-1405-ci illər) zamanı Teymur Kiçik Asiyaya (Ruma) Osmanlı sultanı Bayazidə qarşı yürüş etdi. Bu müharibədə Teymurun tərəfində şirvanşah İbrahim də iştirak edirdi. Tarixçi Şəmsəddin Məhəmməd əs-Səxəvinin (1427-1497-ci illər) məlumatına görə Teymur h. 803 (1400)-cü ildə əş-Şam (Suriya) torpaqlarına daxil olarkən onu müşayiət edən Şeyx İbrahim Hələbə gəlmişdi. Sonra şirvanşah öz ölkəsinə qayıdaraq hökmranlığını davam etdirdi[14]. Həmin səfərdən bir az sonra Teymur Gürcüstana yollandı. Teymurun Gürcüstana 1399 və 1402-ci illərdəki yürüşlərində onu İbrahim və Sidi Əhməd öz qoşunları ilə müşayiət etmişdilər. Teymur gürcülərə amansız divan tutdu, yol boyu qalaların müqavimət göstərən əhalisini qılıncdan keçirdi. Teymur qiymətli hədiyyələr göndərərək, bac və xərac verməyi boynuna götürməklə bağışlanmasını diləyən gürcü hökmdarı Georginin elçilərini rədd etdi. Yalnız Şeyx İbrahim iltimas edərək, gürcü hökmdarı Georgiyə zamin durduqdan sonra Teymur onu bağışladı və üzərinə ağır xərac qoydu. Gürcü hökmdarları xəzinəsindən qiymətli daş-qaş və mirvari[15] alan Teymur Gürcüstanı tərk etdi. Kürü keçən Teymur monqolların dağıtdığı Beyləqanın bərpa olunması haqda əmr verdi, sonra Arazdan suvarma kanalı

çəkdirərək Qarabağa getdi[16].

Teymurun vassalı olan İbrahim onun adından sikkə[1] kəsdirirdi. XIV əsrin sonlarında Şirvanın bir sıra şəhərlərinin - Bakının, Dərbəndin, Şamaxının, Güştəsbinin zərbxanalarında Teymurun adından sikkə zərb olunurdu.

Şeyx İbrahim türkmənlərin, Cəlairilərin, Cucilərin və Teymurilərin Azərbaycan Arran və Şirvan uğrunda şiddətli mübarizə apardıqları dövrdə hakimiyyət sürmüşdür. O, çevik siyasət yeridir, öz müstəqilliyini nəzərə çarpdırmamaqla bu hökmdarlar arasında manevr edir, gah faktik, gah da nominal surətdə onlardan özü üçün ən təhlükəlisinə tabe olurdu. Buna görə də, onun vaxtında - h. 791-792 (1388/9-1389/90)-ci illərdə və sonralar, XIV əsrin sonlarında Bakı, Şamaxı, Şəbəran, Dərbənd, Mahmudabad, Güştəsbi şəhərlərində kəsilən Şirvan sikkələri gah Teymurun, gah da Toxtamışın adından zərb olunurdu. Hətta, hücumlardan xilas olduqdan sonra belə İbrahim XV əsrin əvvəllərində öz adını göstərmədən anonim sikkələr kəsdirməyə başlayır[17]. Mənbələrdə Teymur Şirvan ərazisindən keçib gedərkən İbrahimin düzəltdiyi təntənəli ziyafətlərdən xəbər verirlər. İbrahim Teymura qiymətli daş-qaş, gözəl kənizlər və oğlan uşaqları, qızıl zireh və kəmərlər, qiymətli zərxara parçalar, silah və minlərlə at hədiyyə etmişdi[18]. Lakin mənbələrdə İbrahimin başqa vassallar kimi Teymurun xəzinəsinə verdiyi xərac barədə məlumat yoxdur. Ehtimal ki, o, xəracdan azad olunmuş, qiymətli hədiyyələr verməklə kifayətlənmişdir. İbrahim əslində, zəngin və inkişaf etmiş ölkənin müstəqil hakimi olmuş və Teymura tabe olan feodallar arasında xüsusi mövqe tutmuşdur. Onun çevik siyasəti və qüdrətli Teymura meyl etməsi sayəsində Şirvan bu işğalçının qoşunları tərəfindən dağıntıya məruz qalmamış və əvvəlki kimi inkişaf etmişdir. Şirvan əhalisinin şirvanşahın xəzinəsinə verdiyi vergi və töycülər qonşu ölkələrdəki qədər ağır deyildi[19]. Şirvanın şimal tərəfdən təhlükəsizliyi Toxtamışın darmadağın edilməsi və Teymurun h. 797 (1395)-ci ildə Dərbənddən keçərək, Qızıl Orda ərazisinə hücum etməsi ilə əlaqədar uzun müddətə təmin olunmuşdu. 1403-cü ilə qədər Teymur bir neçə dəfə Qarabağ və Şirvandan keçərək, Gürcüstana və Dərbənd arxasına gedib-gəlmiş və çox vaxt Qarabağda və Muğan düzündəki Mahmudabadda qışlamışdı[20]. Teymurun h. 807 (1405)-ci ildə ölümü və bundan sonra Teymurilər arasında baş verən çəkişmələr nəticəsində İbrahim asılılıqdan qurtardı. İbrahimlə Teymurun nəvəsi Mirzə Ömər arasındakı dostluq düşmənçiliyə çevrildi[21]. Teymurilərin ara çəkişmələrindən və Şirvanın xalq kütlələrinin yadelli hökmranlığından azad olmaq uğrunda mübarizə hərəkatından istifadə edən şirvanşah Azərbaycanı öz hakimiyyəti altında birləşdirməyə çalışırdı. Azərbaycanın bir sıra şəhərlərində Teymurilər əleyhinə üsyan qalxdı. Teymurun oğlu Miranşahın 1393/4-cü ildə ifrat şiə hürufilik təriqətinin müəssisi Fəzlüllah Astrabadini edam etdirməsi Şirvanın xalq kütlələrinin xüsusilə narazılığına səbəb olmuşdu[22]. Siyasi vəziyyətdən istifadə edən Şeyx İbrahim Kürü keçərək Gəncəni və Qarabağın böyük bir hissəsini tutdu. İri feodalların bir çoxu İbrahimlə birləşərək, öz qoşunları ilə onun qoşunlarına qoşuldular. Gürcüstanda üsyan baş

verdi və gürcü hökmdarı Şəki hakimi Sidi Əhməd kimi İbrahimlə ittifaq bağladı. Qarabağdakı qaramanlı tayfasının əmiri Yar Əhməd, cəyirli tayfasından əmir Bəstam Cəyir, Ərdəbil hakimi öz qoşunları ilə İbrahimlə birləşdilər. İbrahim qoşunla hərəkət edərək, Kürü keçdi və Bərdədə dayandı. Bu vaxt Miranşahın oğlu Mirzə Ömər Şeyx İbrahimin yanına elçi göndərib, ondan öz yanında saxladığı Bəstam Cəyiri ələ verməyi tələb etdi. Şeyx İbrahim bundan boyun qaçırmağa çalışaraq, qeyri-müəyyən cavab verdi: «İndi artıq yaydır. Əgər əlahəzrət qışı keçirməyə Qarabağa təşrif gətirsə, sizin bəndəniz özü əmir Bəstamı əlahəzrətin hüzuruna gətirəcəkdir»[23]. İbrahimin hərəkətindən qəzəblənən Mirzə Ömər Araz çayını keçərək Babi[*] kəndində düşərgə saldı. Şeyx İbrahim, əmir Bəstam Cəyir, Yar Əhməd Qaramanın oğulları və şəkili Sidi Əhməd Bərdəni tərk edərək Kür sahillərinə gəldilər. Onlar öz dəstələri ilə sahildə yerləşərək istehkamlar qurmağa və vuruşmanı gözləməyə başladılar. Mirzə Ömər sürətlə yaxınlaşıb, qarşı sahildə düşərgə saldı. Düşmən qoşunları bir həftə ərzində qarşı-qarşıya durdular və onların arasında hərbi əməliyyat baş vermədi. Miranşahın və Əbu Bəkrin Sultaniyyəni və Cənubi Azərbaycanın bir sıra şəhərlərini tutmaq xəbərini alan Mirzə Ömər şirvanşahla barışaraq Qarabağı tərk etdi. Azərbaycanın Teymurilər arasındakı nifaqdan istifadə edən şəhər əhalisi zülm və ağır vergilər əleyhinə üsyan qaldırdı. 1406-cı ilin baharında Əbu Bəkr Xoca Məhəmməd Dəvani və Zeynəddin Qəzvininin müvəkkillərinin şəhərin bürclərini və istehkamlarını bərpa etmək üçün şəhər əhalisindən böyük məbləğdə pul tələb etmələri ilə əlaqədar Təbrizdə üsyan baş verdi. Bu vaxt Əbu Bəkr Təbrizi tərk etmişdi və başı qardaşı Ömərlə müharibəyə qarışmışdı. Üsyanın başında şəhər tamğaçısı (şəhərin baş vergi yığanı) Şeyx Əxi Qəssab və sənətkar karxanalarının digər rəisləri dururdu. Bu zaman xəbər gəldi ki, əmir Bəstam Cəyir Təbrizdə iğtişaşlar baş verdiyini bilib ora yollanmışdır. Hadisələrdən istifadə edən Şeyx İbrahim də öz qoşunları ilə Təbrizə doğru hərəkət etdi. Teymurilərin asılılığından çıxmış Şeyx İbrahim ölkəni vahid bir dövlətdə birləşdirmək məqsədilə Cənubi Azərbaycanı ilhaq etməyə can atırdı. Bəstam 1406-cı ilin aprelində Təbrizə girdi. Bu, Bəstamla Şeyx İbrahim arasında düşmənçiliyə səbəb oldu. Bəstamın yaxın adamları İbrahimin gəlməsi xəbərini eşidib onun tərəfinə keçdilər. Şeyx İbrahimin Təbriz üzərinə gəldiyini bilən Bəstam şəhəri tərk edərək Ərdəbilə çəkildi. Əbu Bəkr Məhəmməd Dəvani və Məhəmməd Keçəçi müvəkkillərini şirvanşahın ordugahına göndərərək itaət etdiklərini bildirdilər. İbrahim bundan əvvəl şəhər əhalisindən yığılmış böyük məbləğin verilməsini tələb etdi. Şeyx İbrahim mayın axırlarında Təbrizə daxil oldu. O, burada özünü ədalətli və müdrik hökmdar kimi göstərdi. İbrahim tezliklə Ucana tərəf yollandı. Bu vaxt Cəlairi sultan Əhmədin başına topladığı çoxlu tərəfdarları ilə Azərbaycana

[*] Babi kəndi Füzuli rayonundadır. Ə. Ə. Əlizadə onun adını səhvən «Bani» kimi oxumuşdu. («Azərbaycanın sosial-iqtisadi və siyasi tarixi». s. 394). Bu kəndin adı Şərəfəddin Əli Yəzdidə (h. I, s. 522) çəkilir.

gəldiyini eşidən Şirvanşah əmirlərini yığıb dedi: «Biz bu alihəzrət xanədanla [Cəlairilərlə] uzun müddət dostluq etmişik. Ölkə [Azərbaycan] başçısız qaldığından və Azərbaycan sultan Əhmədin əcdadlarının iqamətgahı olduğundan, biz bura yalnız zalimlər təbəələri incitdiklərinə görə gəlmiş və onları məmurların azğınlığından xilas etmişik. İndi isə evin əsl sahibi gəldiyi üçün biz öz ölkəmizə qayıdırıq». O, Azərbaycanı tərk etmək qərarına gəlib, Bəstamın qardaşı Mənsuru və onun oğlunu azad edərək Şirvana yollandı. Sultan Əhməd h. 809-cu il məhərrəm ayının (iyun, 1406-cı il) ortalarında Təbrizə girdi. Lakin sultan Əhmədin öz təbəələrinə qarşı amansız rəftarı və zülmü Təbriz əhlini qoşunları ilə Təbrizə yaxınlaşan Teymuri Əbu Bəkrin tərəfinə keçməyə və şəhəri ona təhvil verməyə vadar etdi. Sultan Əhməd Təbrizdən Bağdada qaçdı[24]. Elə həmin 1406-cı ildə böyük qoşun toplamış Qaraqoyunlu Qara Yusif Əbu Bəkrin qüvvələrini darmadağın edərək onu qaçmağa məcbur etdi. 1408-ci ildə Qara Yusif Cənubi Azərbaycanda baş vermiş böyük vuruşmada Teymurun oğlu Miranşahın qoşunlarını, qardaşı Şahruxun 20 min döyüşçüdən ibarət kömək göndərməsinə baxmayaraq, darmadağın etdi. Miranşahın özü bu vuruşmada öldürüldü. Təbrizin əhalisi tezliklə şəhəri Qara Yusifə təhvil verdi, Teymurilərin məğlub olunmuş qoşunlarının qalıqları isə Azərbaycanı tərk etdi. Qara Yusifin köməyilə sultan Əhməd Təbrizə qayıtdı[25]. Real hakimiyyət Cənubi Azərbaycanın bütün şəhərlərində hərbi dəstələri dayanan Qara Yusifin əlində idi. Tezliklə sultan Əhmədlə Qara Yusifin münasibətləri pozuldu. Sultan Əhməd Ağqoyunlu tayfası ilə müharibə aparan Qara Yusifin olmamasından istifadə edərək, Təbrizdəki hərbi dəstəni şəhərdən qovmaq məqsədilə ona basqın etdi. Bunun üçün o, əvvəlcədən oğlu Kəyumərsin* başçılığı altında Təbrizə qoşun göndərən şirvanşah İbrahimdən yardım istəmişdi. Şeyx İbrahim Şirvanşahlar dövləti üçün böyük təhlükə törətməyən daha gücsüz sultan Əhmədin tərəfini saxlamağı üstün tutdu. Bu zaman Qara Yusif Ərzincanda idi. Təbrizdə baş verən hadisələrdən xəbər tutan Qara Yusif Təbrizin 2 fərsəxliyindəki Azad şəhərciyinə Kəyumərsin qoşunlarından əvvəl yetişdi. 1410-cu il avqustun 30-da Əhməd və Qara Yusifin qoşunları arasında baş verən şiddətli vuruşma nəticəsində sultanın qoşunları Təbrizin həndəvərində tamamilə darmadağın edildi. Oxla əlindən yaralanmış Əhməd qaçıb Təbriz sakini başmaqçı Baba əd-Din Cülahın bağında gizləndi. Baba əd-Din onu tutub Qara Yusifə verdi. Sultan Əhməd əmirin əmri ilə boğuldu. Cəlairilər dövləti süqut etdi, onun yerində baharlı tayfasından olan hökmdar Qara Yusifin başçılıq etdiyi Qaraqoyunlu dövləti yarandı. 1413-cü ildə Qaraqoyunlu dövlətinin tərkibinə şimalda Kür çayına qədər Azərbaycanın böyük bir hissəsi, Ermənistan, Kürdüstan və Ərəb İraqı daxil idi. Təbriz bu dövlətin paytaxtı oldu. Baharlılar sülaləsinin

* Həsən bəy Rumlunun «Əhsən ət-təvarix» əlyazma əsərinin XI cildində (Sankt-Peterburq Kütləvi Kitabxanası, Dorn kataloqu, № 287, v. 18 a) şirvanşahın bu oğlunun adı Gövhərşahdır (Bax. İ. P. Petruşevski, səh. 158, haşiyə 27).

başçılıq etdiyi Qaraqoyunlu dövləti 1410-cu ildən 1468-ci ilə qədər davam etdi. Yuxarıda qeyd etdiyimiz kimi, sultan Əhməd Təbrizi tərk etməzdən əvvəl şirvanşah İbrahimdən yardım istəmiş, o isə dərhal oğlu Kəyumərsin başçılığı ilə Şirvan qoşunlarını köməyə göndərmişdi. Sultan Əhmədin məğlub olduğu gün Kəyumərs Təbrizin həndəvərinə gəlib çatdı. Gecə o, Qara Yusifin qoşunlarının qəfil hücumuna məruz qalaraq əsir alındı. Qara Yusifin əmri ilə Kəyumərs Ərciş qalasında saxlanılırdı. Şirvanşah oğlunun geri qaytarılması üçün böyük məbləğdə pul təklif etdi[26]. Lakin Qara Yusif Kəyumərsi təmənnasız buraxaraq, hədsiz iltifat göstərdi və onunla atası Şeyx İbrahimə tabe olmaq tələbi ilə məktub göndərdi. Şirvanşah Kəyumərsin xəyanət etməsindən, atasını devirərək, Qara Yusifin vassalı olmaq barədə onunla saziş bağlamasından şübhələnərək, oğlunu edam etdirdi[27].

Kəyumərsin edam olunması xəbərini alan Qara Yusif Təbrizdən çıxaraq Qarabağa yollandı. Sonra o, Şeyx İbrahimin yanına elçi göndərərək, tabe olmasını təklif etdi. Müstəqilliyini itirmək istəməyən İbrahim Şirvanda böyük ordu toplayaraq, Şəki hakimi Sidi Əhməd və gürcü hökmdarı II Konstantinlə ittifaqda on iki minlik süvari ilə Qara Yusifin üzərinə yeridi. İbrahim əvvəllər də gürcü hökmdarı ilə dostluq münasibətləri saxlayırdı və onunla müttəfiq idi. Qələbə çalacağına əmin olan Qara Yusif böyük qoşunla, soyurqal və hədiyyələr bağışladığı vassalları - Cənubi Azərbaycanın iri feodalları ilə birlikdə çıxış etdi. Şeyx İbrahim Kür sahilində düşərgə saldı. Vuruşma h. 815-ci ilin şaban ayında (1412-ci il noyabrın 6-dan dekabrın 4-dək) oldu. Qara Yusifin qüvvələri şirvanşahın, gürcü hökmdarının və şəkili Sidi Əhmədin birləşmiş qoşunlarının qüvvəsindən xeyli üstün idi. Vuruşma zamanı müttəfiq qoşunlarının son dərəcə mərdliklə döyüşməsinə baxmayaraq, üstünlük Qara Yusifin tərəfində oldu. Şirvanşahın qoşunları məğlubiyyətə uğrayıb qaçdı. Döyüşü öz aznaurları ilə gürcü hökmdarı davam etdirirdi. Tezliklə müttəfiqlərin birləşmiş qoşunu Qara Yusifin qoşunları tərəfindən mühasirəyə alınaraq əsir götürüldü. Bu an şirvanşah İbrahim atla xəndəyin üstündən sıçrayıb keçməyə cəhd göstərdi, lakin yaşlı olduğu üçün (onun yaşı 60-a yaxın idi) duruş gətirə bilməyərək, yıxıldı və qolu sındı. Türkmən döyüşçüsü onun paltarını çıxarıb atını əlindən alaraq öldürmək istəyirdi. İbrahim özünü nişan verməli oldu. Onda türkmən onun boynunu qurşaqla bağlayıb Qara Yusifin yanına gətirdi. Gürcü hökmdarı Konstantin, Şeyx İbrahimin oğlanları Qəzənfər, Əsədullah, Xəlilüllah, Mənuçöhr, Əbdürrəhman, Nəsrətullah və Haşım, qardaşı Şeyx Bəhlul, Şirvanın adlı-sanlı adamları-qazı Bayazid (Əbu Yəzid), əmir Huşəng və oğulları, qazı Mövlana Zahirəddin, habelə, təbib, münəccim, «carçı» və digər əyanlar da əsir alınmışdılar. Onların hamısı qandallarda Qara Yusifin hüzuruna gətirildilər. Qara Yusif sıravi Şirvan döyüşçülərini pulsuz buraxdırdı, gürcü əsirlərin isə edam olunmasını əmr etdi. Üç yüz aznaur, eləcə də gürcü hökmdarının qardaşı qılıncdan keçirildi. Özünü məğrur aparan hökmdar Konstantini isə Qara Yusif və oğlu Pirbudaq öz əlləri ilə öldürdülər. İbrahimi, onun oğullarını məiyyəti ilə birlikdə zəncirlənmiş halda Təbrizə göndərib zindana

saldılar. Qara Yusif Şamaxını, Şirvanın digər yerlərini və kəndlərini tarmar edib Təbrizə yollandı. O, ölkədən bir milyon mal-qara qovub apardı. Onların böyük bir qismi yolda soyuqdan tələf oldu.

Təbrizdə Qara Yusif əsir şirvanşah İbrahimlə danışıqlar aparmağa başladı. O, İbrahimdən 1200 İraq tüməni, Şeyx Bəhluldan 200 tümən, qazı Mövlana Zahir əd-dindən 100 tümən məbləğində can bahası tələb etdi. Sonra Qara Yusif şirvanşahdan Şirvanda sarayda (ehtimal ki, Bakıdakı Şirvanşahlar sarayında) saxlanılan cəvahiratın və qızılın öz xəzinəsinə gətirilməsi tələbini irəli sürdü. Lakin bu zaman Təbrizin tacir və sənətkar rəisləri, başda şeyx Əxi Qəssab olmaqla, Qara Yusifin divanına gələrək, əgər Qara Yusif pul əvəzinə, mal qəbul etməyə razılıq verərsə, şirvanşahın can bahasını dərhal ödəməyə hazır olduqlarını bildirdilər. Bu fakt təbrizlilərin şirvanşahlara böyük hörmət və rəğbət bəslədiklərini göstərir. Qara Yusif buna razı oldu və təbrizlilər Qara Yusifin divanına 1200 tümən məbləğində mal verdilər, əvəzində isə Şeyx İbrahim həmin məbləği Şirvan divanından almaq üçün Əxi Qəssabın və tacirlərin adına bərat kağızları verdi. Bundan sonra Qara Yusif İbrahimi buxovdan azad edib ziyafətdə öz yanında oturtdu. Şirvanşah Qara Yusifin vassallığını qəbul etdi və ondan Şirvan vilayətini Şəki hüdudlarından Dərbəndə qədər bütün şəhərləri ilə birlikdə əvvəlki qaydada idarə etmək hüququnu təsdiq edən fərman aldı.

Şirvanşah İbrahim və digər Şirvan əsirləri h. 816 (1413)-cı ilin baharında vətənə qayıtdılar. Qara Yusif Ucana getdi və onun qoşunları Şirvanı tərk etdi[28]. Şirvanşah İbrahim əvvəlki kimi, otuz beş il ərzində hakimiyyət sürdüyü böyük bir dövlətin hökmdarı idi. Şeyx İbrahim Şirvana qayıtdıqdan sonra üç il hökmranlıq edərək h. 820 (1417)-ci ildə ölmüşdür. Cənnabi, Qaramani və başqa müəlliflər İbrahimin ölüm tarixini h. 821-ci il göstərsələr də, Hacı Xəlifənin «Cahannamə» əsərində onun varisinin h. 820-ci ildə taxta çıxdığı qəti surətdə göstərilir[29]. Şeyx İbrahimin hakimiyyəti illərində Şirvan güclü və müstəqil dövlət idi. Qonşu ölkələrin feodalları kömək üçün tez-tez şirvanşaha müraciət edir və ona sığınırdılar.

Şeyx İbrahim qonşu ölkələrlə, Gürcüstanla, bir sıra iri yaşayış məntəqələrini öz nüfuzuna tabe etdiyi Dağıstanla müttəfiqlik və dostluq münasibətləri saxlayırdı. I Şeyx İbrahim zamanında Dərbənd və mahalı, Cənubi Dağıstanın Samur vadisindəki kənd və icmaları Şirvanın siyasi asılılığında idi. Şeyx İbrahimin fərmanı ilə XIV əsrin sonu - XV əsrin əvvəllərində Axtı, Miskinçi, Doqquz-para, Mükrək, Kürə kəndlərinin, Xakül-Məkə, Xınalıq, əl-Fiy, əl-Məzə qalalarının idarə olunması qaytaq usmisinin (hakiminin) oğlu Məhəmməd bəyə həvalə edilmişdi. Şirvanın vassalı Məhəmməd bəyin nəsilləri sonralar da həmin ərazini, habelə Kurax və Təbərsarını idarə etmişlər. Şirvanla Dağıstan arasında əlaqələr daha əvvəllərdə də mövcud olmuşdur. Şirvan hakimləri hərbi əməliyyatlar və təhlükə zamanı Cənubi Dağıstanda, xüsusilə Təbərsəranda gizləndikləri kimi, Dağıstanın feodal hakimləri də şirvanşahın yanında sığınacaq tapırdılar. Şeyx İbrahim qaytaq

usmisinin Şirvana qaçmış oğlunun məsləhəti ilə Teymura kimi, Dağıstanın feodal hakimləri də şirvanşahın yanında sığınacaq tapırdılar. Şeyx İbrahim qaytaq usmisinin Şirvana qaçmış oğlunun məsləhətilə Teymura könüllü surətdə itaət göstərməklə özünün bütün torpaqlarını qoruyub saxlaya bilmişdi[30]. Qızıl Orda xanı Şadi bəy onu məhv etmək istəyən Cuci əmiri Yedigeydən yaxasını qurtarmaq üçün Dərbəndə qaçmışdı. O, Şirvanşah İbrahimin yanında pənah taparaq Şirvanda ölmüşdür. Yedigeyin Şadi bəyin ələ verilməsini tələb etməsinə baxmayaraq, İbrahim buna məhəl qoymamışdır[31]. Görkəmli dövlət xadimi, cəsur sərkərdə və mahir diplomat olan İbrahim Şirvanı güclü və müstəqil dövlətə çevirə bildi. Qara Yusifdən vassal asılılığı kağız üstündə qalmış, Şirvan üçün praktik əhəmiyyətə malik olmamışdır.

Dərbənd əvvəlki kimi şirvanşaha məxsus idi. Bunu Dərbənddəki aşağıdakı kitabə də təsdiqləyir: «Xalqların ixtiyar sahibi olan əzəmətli sultan Şeyx İbrahimin - allah onun hökmranlığını əbədi etsin - hakimiyyəti zamanında...»[32].

Sultan İbrahimin adı daha iki kitabədə də çəkilir: onlardan biri - Abşeronun Maştağa kəndindəki «Birə Arğutay məscidinin portalındakı kitabə h. 817 (1414/5)-ci ilə, ikincisi - Bakının İçərişəhər hissəsindəki, Xacə Əmir şah məscidinin qapısı üzərindəki kitabə h. 818 (1415/6)-ci ilə aiddir: «Sultan Şeyx İbrahimin oğlu sultanın dövründə»[33].

Şeyx İbrahimin hakimiyyəti dövründə Şirvanın şəhər və kəndlərində qala binaları, məscidlər, karvansaralar, ovdanlar tikilmişdi. Ehtimal ki, Bakıdakı Şirvanşahlar sarayının tikintisinə də Şeyx İbrahimin vaxtından başlanılmışdır. Tanınmış şairlər və alimlər şirvanşahın sarayında yaşayırdılar. Hökmdar onlara səxavətlə hədiyyələr verir, hamilik edirdi. Dövlətşahın verdiyi məlumata görə, məşhur fars şairlərindən biri - Katibi Turşizi şirvanşahların saray şairi Bədr Şirvani ilə görüşmək üçün Şirvana gəlmişdir. Şeyx İbrahim bir şerə görə Katibi Turşiziyə 10000 qızıl dinar bağışlamışdır. Sonralar Katib Turşizi özünün savadlı və səxavətli hamisi şirvanşah Şeyx İbrahimi tərk edərək, heç bir diqqət və qayğı görmədiyi Qara Yusifin saray şairi olmasına acı-acı təəssüflənmişdir[34]. Şeyx İbrahimin hakimiyyəti dövründə şəhər mədəniyyətinin, incəsənət və poeziyanın dirçəlişi müşahidə edilir. XV əsrin əvvəllərindən Şirvanşahlar dövlətinin 100 ilə yaxın davam edən müstəqillik və inkişaf dövrü başlayır.

## I XƏLİLÜLLAH İBN ŞEYX İBRAHİM

H. 820 (1417)-ci ildə Şeyx İbrahimin ölümündən sonra onun yerimə böyük oğlu və varisi Şirvanşah I Xəlilüllah keçdi. Xəlilüllah da atası kimi, xarici siyasətində Qaraqoyunlu hökmdarları ilə şiddətli mübarizə aparan Teymurilərə meyl göstərmək mövqeyində dururdu. Gənc Xəlilüllah şirvanşah taxtına çıxan kimi Qaraqoyunlu padşahlarından asılılığını tanımaqdan imtina etdi. 65 yaşlı Qara Yusifin 1420-ci ilin noyabrında Teymurun oğlu Şahruxla (1405-1447-ci illər)

müharibə zamanı qəfil ölümü Azərbaycanın siyasi əhvalını dəyişdi və köçəri əmirlərin arasına çaşqınlıq saldı. Onların çoxu Qara Yusifin düşərgəsini tərk edərək dağılışdı. Qara Yusifin oğlu İsgəndər (1420-1429 və 1431-1435-ci illər) bu vaxt ağqoyunlu tayfasının başçısı Qara Yoluq Osmanla vuruşurdu. Qara Yusifin digər oğlu Cahanşah atasının ölümündən sonra baş verən hadisələrdən xəbər tutaraq Şahruxa tabe oldu və Sultaniyyə şəhərini ona təslim etdi. Təbriz Şahruxun əmiri Əliyə Kükəltaş tərəfindən tutuldu. Burada məscidlərdə xütbə onun adından oxunmağa başladı. Təbriz tutulandan bir az sonra h. 823 (1420)-cü ildə Şahrux özü Arazı keçərək, Qarabağa qışlamağa gəldi[35]. Orta Asiyaya və demək olar ki, bütün İrana sahib olan Şahrux Qarabağda qışlayarkən, bir sıra iri feodallar öz sədaqətini bildirmək və iltifata nail olmaq məqsədilə onun görüşünə gəldilər. Bu feodallar və hakimlər arasında h. 823-cü il zilhiccə ayının 10-da (17 dekabr 1420-ci il) Şirvandan bol hədiyyələrlə gəlmiş gənc şirvanşah Xəlilüllah və onun qardaşı Mənuçöhr də var idi. Xəlilüllah çox böyük iltifatla qəbul olunaraq, qiymətli kəmərə və sultanın digər hədiyyələrinə layiq görüldü. Şahrux Xəlilüllahın igidlik və mərdliyi ilə tanınmış qardaşı əmir Mənuçöhrü yanında xidmətə götürdü[36]. Şahruxla şirvanşahlar - Şeyx İbrahim və onun oğlu Xəlilüllah çoxdan müttəfiq idilər. Mənbələr xəbər verir ki, Şeyx İbrahim hələ h. 807 (1405)-ci ildə qiymətli hədiyyələrlə Aladağa, sonra isə Qarabağa Miranşahın oğlu Ömər Mirzənin görüşünə gələrək öz sədaqətini bildirmişdi. H. 814 (1411/2)-cü ildə o, qiymətli hədiyyələrlə Şahruxun yanına elçilər göndərmişdi[37]. Şirvanın müstəqilliyinin qorunub saxlanılması öz mülklərini İranda və Cənubi Azərbaycanda Şahruxa məxsus torpaqlar hesabına genişləndirməyə can atan Qara Yusiflə, sonralar isə onun oğlu İsgəndərlə mübarizədə etibarlı müttəfiq tapmağa çalışan Şahruxun mənafeyinə uyğun idi. Şirvanşahın ardınca Şəki hakimi əmir Sidi Əhməd, sonra isə gürcü hökmdarı Aleksandrın (1413-1442-ci illər) elçiləri Şahruxun qərargahına gəldi. Xəlilüllahla Şahruxun görüşü onları bir-birinə daha da yaxınlaşdırdı. Şirvanşah Qarabağa sultanın yanına gələndə sonuncu onunla qohum olmaq istədi və Xəlilüllah Qara Yusifin dul arvadı - Miranşahın oğlu və Teymurun nəvəsi olan Əbu Bəkrin qızı ilə nişanladı. Babası Miranşahın həlak olduğu döyüşdə Qara Yusif onu ələ keçirmiş və tezliklə evlənmişdi. Şirvandan şirvanşahın anası qiymətli hədiyyələr gətirdi və h. 324-cü il rəbiüləvvəl ayının 29-da (3 aprel 1421-ci il) çərşənbə günü Qaraköpəkdə[*38] toy oldu. Bu nikahla Şahrux şirvanşahla Qara Yusifə qarşı mübarizədə ona kömək edən ittifaqı möhkəmləndirdi. Şahruxun simasında yüksək və qüdrətli qohumuna arxalanan Xəlilüllah öz mövqeyini gücləndirdi. Şahruxun və onun oğlanlarının köməyi sayəsində onun çiyinləri bərkidi, şöhrəti artdı»[39].

Ehtimal ki, Xəlilüllah Qarabağa gəlməzdən bir qədər əvvəl öz elçisi Məhəmməd Bakuyini məktubla türk sultanı Məhəmməd Qazinin (I Mehmet, 1413-

---

[*] Qaraköpək - indiki Füzuli rayonundadır.

1431-ci illər) yanına göndərmişdi. Məktubda şirvanşahlarla sultan arasındakı qədim dostluqdan danışılır və sultan Şahruxun Təbrizin yaxınlığında olduğu bildirilirdi. O, daha sonra Qarabağdan Şahruxdan məktub aldığını, burada şirvanşah Xəlilüllaha onunla birlikdə Təbrizə, Qara Yusifə hücum etmək üçün hazırlaşmaq təklif olunduğunu yazırdı. Sultan Məhəmməd Qazi verdiyi yayğın cavabda Xacə Məhəmməd Bakuyinin Kafədən keçərək şirvanşahın məktubunu ona çatdırdığını, aralarındakı dostluğun qəbrə qədər qırılmayacağını qeyd edirdi. Şahruxun Azərbaycana yürüşünə dair Xəlilüllahın xəbərdarlığının cavabında sultan bildirirdi ki, Şahrux Qara Yusifə hücum etmək niyyəti barədə özü ona yazmışdır. «Lakin hər bir hakim öz işini və qonşularla münasibətini yaxşı bilir. Məsələn, Şəki, Qumuq, Qaytaq və Ləvənd hakimləri öz vəziyyətlərinə başqalarından yaxşı bələddirlər. Və əgər Qara Yusif Türkiyəyə hücum etsə, sultan onun cavabını verəcəkdir»[40]. Bu məktubdan görünür ki, Xəlilüllah, ehtimal ki, Şahruxun tapşırığı ilə türk sultanının şəxsində yeni müttəfiq tapmağa cəhd göstərmiş, lakin, göründüyü kimi, sultan onlara qoşulmaq istəməmişdir.

1421-ci ildə Alaşkert vadisində Qara Yusifin oğlu İsgəndərlə Şahruxun qoşunları arasında İsgəndərin məğlubiyyəti ilə nəticələnən vuruşmada şirvanşah da Şirvan hərbi dəstələri ilə iştirak etmişdir. Azərbaycan feodalları tərəfindən öz üstünlüyünün etiraf olunmasından razı qalan Şahrux 1421-ci ilin payızında qoşunları ilə birlikdə Azərbaycanı tərk etdi.[41] İsgəndər tezliklə öz mövqeyini bərpa etdi və qoşun toplaya bildi. Lakin İsgəndər bir neçə dəfə Şirvana basqın etsə də, Şəki və Şirvan öz müstəqilliklərini qoruyub saxladılar. İsgəndərin h.828 (1425)-ci ildə Şirvana basqını zamanı şirvanşah Xəlilüllahın qardaşları Keyqubad, İshaq və Haşım onun əleyhinə çıxdılar. Şirvanşah yardım üçün Şahruxa müraciət etdi və onun köməyilə qardaşlarına divan tutdu. Bundan sonra onun mövqeyi möhkəmləndi[42]. Xəlilüllah Bakıda və Şirvanda olmayanda, ölkəni onun əvəzinə qardaşı Qəzənfər idarə edirdi. O, Bakının İçərişəhər hissəsində bir sıra istehkamlar və digər binalar tikdirmişdir[43].

Yazdığımız kimi, Şamaxı 1192-ci ildə zəlzələdən dağıldıqdan sonra I Axsitan Bakı şəhərini öz iqamətgahına çevirmiş və o, həmin vaxtdan Şirvanın ikinci paytaxtı olmuşdu. Ehtimal ki, şirvanşahlar XII əsrin sonlarından Bakıda yaşamış və onun müdafiəsinin qayğısına qalmışlar. Bunu XII-XV əsrlərdə istər şəhərdə, istərsə də Abşeronda inşa edilmiş bir sıra müdafiə tikililəri - qalalar, qəsrlər, qala divarları və yaşayış binaları da sübut edir. Şirvanın paytaxtının Şamaxıdan Bakıya 1192-ci ildə köçürüldüyünü ehtimal etmək olar. Ölkəsinin və paytaxtı Bakının abadlığı ilə məşğul olan Xəlilüllah zamanında Şirvanşahlar sarayı ansamblının, karvansara və körpülərin tikintisinə başlanmışdır. Ölkə tərəqqi edirdi.

Xəlilüllahın Şahruxla dostluğu İsgəndərin qəzəbinə və onun bir neçə dəfə Şirvana basqın etməsinə səbəb olmuşdur. 1428-ci ildə Şahrux sərkərdə Əliyə Kükəltaşın başçılığı ilə Azərbaycana qoşun göndərdi. 1429-cu ilin mayında isə Şahrux tərkibində Şirvan qoşunları da olan 100 minlik süvari qoşunla İsgəndərin

üzərinə yeridi və onun qoşunlarını Cənub Azərbaycandakı Səlmasın həndəvərində darmadağın etdi. O, Əlincə qalasını aldıqdan sonra Qarabağa qışlamağa getdi və Qaraqoyunlu dövlətinin idarə olunmasını İsgəndərin vassallığı qəbul edən qardaşlarından birinə - Əbu Səidə həvalə etdi. Şahrux 1430-cu ildə Azərbaycanı tərk edərək Xorasandakı paytaxtı Herata qayıtdıqdan sonra İsgəndər onun olmamasından istifadə edib, Azərbaycanda yenidən ara müharibələrinə başladı və 835 (1431)-ci ildə Əbu Səidi öldürərək yenidən Qaraqoyunlu dövlətinin hakimi oldu[44]. İsgəndər yenidən Şahruxla müharibəyə başladı və h. 831 (1427/8)-ci ildə Şirvana hücum edərək, Şirvan dövlətini tabe etdirməyə cəhd göstərdi. Şamaxı İsgəndərin qoşunları tərəfindən dağıdıldı və talan edildi. Həmin vaxt Dərbənddə olan Şirvanşahların saray şairi Bədr Şirvani İsgəndərin qoşunları Şamaxıdan getdikdən sonra buraya gələrək, şəhərin dağıdılmasının və talan olunmasının şahidi olur. Şair bütün bunları öz şerlərində təsvir etmiş, sonra Şamaxını tərk edərək Bakıya gəlmiş və ömrünün sonunadək şirvanşahın sarayında yaşamışdır[45]. Şirvana sonuncu basqın daha dağıdıcı olmuşdur. Münaqişəyə İsgəndərin «atasının nalayiq işlərindən təhqir olunaraq» atasından küsmüş və h. 836 (1432)-cı ildə 2 min süvari döyüşçü ilə Şirvana qaçıb Şirvanşah Xəlilüllaha pənah aparan oğlu Yar Əli səbəb olmuşdur. Şirvanşah İsgəndərin Yar Əlini tələb etməsinə rədd cavabı vermiş, onu öz döyüşçüləri ilə Bakı limanında gəmiyə mindirib dəniz yolu ilə Herata, Şahruxun yanına göndərmişdir. Şahrux Yar Əlini yaxşı qarşılamış və onu şahzadələr sırasına qəbul etmişdir. «Lakin o, daim qara camaat arasında dolaşır, türk və tacik pozğun və fırıldaqçıları ilə ünsiyyət saxlayırdı». Geniş xalq kütlələri arasında böyük şöhrət qazanmış Yar Əliyə etibar etməyən Şahrux onu daha uzaqlara - Səmərqəndə göndərdi[46]. İsgəndər Yar Əlinin xəyanətindən Şirvana soxulmaq üçün istifadə etdi. Cənnabinin məlumatına görə, o, böyük süvari qoşunla şirvanşah üzərinə hərəkət edərək Şamaxıya daxil oldu və burada Xəlilüllahla onun arasında vuruşma baş verdi[47].

Mənbələrin məlumatına görə, İsgəndər Şamaxını h. 831 (1427/8)-ci ildə və sonralar, h. 837 (1433/4)-ci ildə dağıtmışdır. Həm də, sonuncu dəfə o, təkcə Şamaxını deyil, bütün Şirvan əyalətlərini amansızcasına viran etmişdir. İsgəndərin qoşunları yolların üstündəki Şirvanın iqtisadiyyatının əsasını təşkil edən bağları, tut ağaclarını qırıb tökərək, ölkənin şəhərlərinə və kənd təsərrüfatına böyük ziyan vurdular. İsgəndərin döyüşçüləri çoxlu insan qırdılar. Mənbələr xəbər verir ki, ölkədə olduğu bir il ərzində İsgəndər 300 Şirvan danişməndinin başını vurdurmuşdur. Sonra o, Dərbənd istehkamlarına keçərək geri qayıtmışdır[48]. Lakin Xəlilüllah onunla mübarizəni kəsməmişdir. Mirxondun məlumatına görə, Xəlilüllah Mahmudabaddan Güştəsbi hakimi Xalıq Birdi vasitəsilə İsgəndərin Azərbaycanı tutmasını və Şirvana basqın etməsini Şahruxa xəbər vermiş və yardım istəmişdir, belə ki, əgər Şahrux işə qarışmasa, İsgəndər bütün ölkəni viran qoyacaqdır. Şahrux 1434-cü ilin payızında qoşunla Heratdan Azərbaycana doğru hərəkət etdi. Bu vaxt Xəlilüllah qazı və ilahiyyatçılarla birlikdə dəniz yolu ilə Reyə

- Şahruxun yanına gələrək, İsgəndərin Şirvandakı cinayətlərini ona xəbər verdilər. Şahrux fəqihlərin yığıncağında İsgəndərin əməllərini təkfir etdi və onlar İsgəndərin ölümünə fitva verdilər. Sonra Şahrux İsgəndərlə mübarizə üçün Cənubi Azərbaycana yollandı. İsgəndər Şahruxun yaxınlaşdığını eşidib, təcili surətdə qoşunlarını Şirvandan çıxardı. Şirvanşahın öz qoşunları ilə iştirak etdiyi bu müharibədə İsgəndər məğlubiyyətə uğradı və qaçıb Naxçıvan yaxınlığındakı Əlincə qalasında gizləndi. O, h. 840 (1436/7)-cı ildə öz oğlu Şah Qubad tərəfindən öldürüldü. Şahrux h. 839 (1435/6)-cu ildə Təbrizə daxil oldu. Burada onu İsgəndərin qardaşı, Teymurilərin Cənubi Azərbaycanın vassal asılılığı hüququnda idarə olunmasını həvalə etdikləri Cahanşah itaətlə qarşıladı. Sonra Şahrux Qarabağa qışlamağa getdi. H. 838 (1435)-ci ildə Xəlilüllah qardaşı Fərruxzadla birlikdə Şahruxa minnətdarlıqlarını bildirmək üçün Ucana onun görüşünə gəldi. O, Şəki və Muğan əmirləri kimi, Şirvana şahın iltifatı və bəxşişləri ilə qayıtdı[49].

Şirvanda dinc quruculuq dövrü yeni müharibənin, gözlənilmədən yeni düşmənin - Azərbaycanda böyük nüfuz sahibi və çoxlu tərəfdarları olan məşhur Şeyx Səfi Ərdəbilinin nəticəsi Cüneydin meydana çıxması ilə dayandı. Qaraqoyunlu Cahanşah tərəfindən Azərbaycandan qovulmuş Şeyx Cüneyd Ağqoyunlu hökmdarı Uzun Həsənin dərin rəğbətini qazanmışdı. Hətta, Uzun Həsən bacısı Xədicəni Cüneydə ərə vermişdi. Cüneyd öz dövlətini yaratmaq məqsədilə Azərbaycanın inkişaf etmiş vilayətlərindən olan Şirvanı zəbt etmək fikrinə düşdü. O, səfərləri boyu müxtəlif ölkələrdən başına toplanmış 10000 tərəfdarı ilə ölkəni işğal etmək və Şirvanşahlar taxtına sahib olmaq üçün Şirvana basqın etdi. Şirvandakı şiə tərəfdarları da ona qoşuldular. Çərkəzlərlə dini müharibə basqın üçün bəhanə oldu. Şeyx Cüneydin niyyətini duyan və təbərsəranlılar tərəfindən təhrik edilən Xəlilüllah Qaraqoyunlu Cahanşahın yardımı ilə böyük qoşunla onun qabağına çıxdı. 1460-cı ildə Samur çayının sol sahilindəki Qıpçaq kəndinin yaxınlığında baş verən vuruşmada Cüneyd öldürüldü, onun müridləri isə məğlub edildi. Bir versiyaya görə, Cüneyd əsir alınaraq, şirvanşahın əmri ilə edam olunmuş, başqa mənbələrə görə isə döyüş meydanında oxla vurulub öldürülmüşdür[50]. Fəzlullah ibn Ruzbixan Xuncinin məlumatına görə Cüneydin müridləri onun meyitini Samurun sağ sahilinə keçirərək, Gülxan kəndində (indiki Qusar rayonunun Həzrə kəndi) dəfn etmişlər[51]. Xəlilüllah 48 il hökmranlıq sürdükdən sonra h. 869 (1465)-cu ildə ölmüşdür[52]. XV əsrin əvvəlindən XVI əsrin əvvəlinədək bir əsrə yaxın Şirvan müstəqil dövlət olaraq qalmışdır. Onun hökmdarları Teymurilər zamanında sultan titulu götürmüşdülər. Şirvanşahlar bu dövrdə öz torpaqlarını genişləndirdilər. Dərbənd şəhəri və əyaləti, Muğan düzünün bir hissəsi Şirvanın mülklərinə daxil idi. Dərbənd hasarının şimal divarındakı «Qırxlar qapısı»nın üzərindəki farsca kitabə də bunu təsdiqləyir. «Şirvan şahı sultan Xəlil hökmdarın dövründə bu qala hasarı tərtibə salındı və möhkəmləndirildi...». Həmin kitabədə Dərbənd hasarının h. 842-ci ildə (24. VI. 1438-13. VI. 1439) möhkəmləndirildiyi və bərpa edildiyi göstərilir. Onun

yaxınlığındakı h. 842 (1438)-ci ilə aid başqa bir kitabədə isə Dərbəndin qala divarlarının usta Hacı Əhməd tərəfindən bərpa olunduğu xəbər verilir: «Sultanın fərmanı ilə dağdan... Cihad* qapısına qədər...». Dərbənddəki məhəllə məscidinin bayır divarında da Xəlilüllahın adı çəkilən h. 858 (1454)-ci ilə aid kitabə qalmışdır[53]. Xəlilüllahın hakimiyyəti dövründə Bakı, Şamaxı və Dərbənd şəhərlərində təngə ölçüsündə anonim gümüş sikkələr kəsilən zərbxanalar var idi; onların əvvəlincisi h. 827 (1423/4), sonuncusu isə h. 855 (1451/2)-ci illərdə kəsilmişdir[54]. Bədr Şirvaninin məlumatına görə, Xəlilüllah dövründə Bakı şəhərinin darğası Mövlana Həsən, şahnəsi isə Saleh olmuşdur. Müəllif Bakının bir çox adlı-sanlı adamlarının - Xacə Hacı Şeyx Məhəmməd əl-Bakuyi (Xəlilüllahın türk sultanı I Məhəmmədin yanına göndərdiyi elçi), əmir Mənsur Bakuyi və başqalarının adını çəkir[55]. Xəlilüllahın ölüm tarixi Misir tarixçisi Əbd ər-Rəhman Cəlal əd-Din əs-Suyutinin (1445-1505-ci illər) «Nəzm əl-ükban fi iyan» əsərində qeyd edilmişdir: «Şirvan hökmdarı Xəlil ibn Məhəmməd əd-Dərbəndi, Şamaxı hakimi hökmdarların ən möhtərəmi, mömini, ləyaqətlisi və ədalətlisi olmuşdur. O, böyük müsəlman hökmdarlarının sonuncusudur. Şirvan və Şamaxı məmləkətinə əlli ilə yaxın hökmdarlıq etmiş və 869-cu ildə (3. IX. 1464-23. VIII. 1465) ölmüşdür. Onun yüz, yaxud ona yaxın yaşı var idi. Buna baxmayaraq, asanlıqla oxuyur və sapsağlam idi». Xəlilüllahın bu ölüm tarixini digər ərəb müəllifi Məhəmməd ibn Əhməd ibn İyas da təsdiqləyir. O, şirvanşah Xəlilin ölüm tarixini daha da dəqiqləşdirərək, onun 869-cu ilin zilhiccə ayında (25. VII-23. VIII. 1465-ci il) vəfat etdiyini xəbər verir[36]. Numizmatik məlumatlar bu tarixi təsdiq edir. Onun oğlu Fərrux Yəsarın kəsdirdiyi ilk sikkələr h. 869 (1465)-cu ilə aiddir.

Şirvanşah Xəlilüllah, ehtimal ki, öz dövrünün təhsil görmüş, poeziyanı sevən hökmdarlarından olmuşdur. Onun sarayında şair və alimlər yaşayırdı. Xəlilüllaha çoxlu qəsidə, mədhiyyə və mərsiyə həsr etmiş Bədr Şirvani 30 il ərzində onun saray şairi olmuşdur. XV əsrdə Bakıda, Xəlilüllahın sarayında yaşamış görkəmli orta əsr alim və filosoflarından biri, Yaxın və Orta Şərqdə məşhur olan xəlvətiliyin nümayəndəsi Seyid Yəhya ibn əs-Seyid Bəhaəddin əş-Şirvani əş-Şəmaxi əl-Bakuvidir. Seyid Yəhya Şamaxıda varlı ailədə doğulmuşdur. Gəncliyində sufiliyə həvəs göstərmiş, məşhur xəlvətilik təriqətinin Şirvan qolunun başçısı məşhur Şeyx Sədrəddin əl-Xəlvətinin təliminin ardıcılı olmuşdur. Şeyx Sədrəddinin ölümündən sonra onun şagirdi Pirizadə ilə Xəlvətilik məzhəbinə kimin başçılıq etməsi üstündə arası dəyən Seyid Yəhya Şamaxını tərk edərək, Bakıya gəldi və burada Xəlilüllahın sarayına qəbul olundu. O, Xəlilüllahın sarayında filosof və alim kimi böyük hörmət qazandı. Onun yanına çoxlu adam axışıb gəlməyə başladı və tərəfdarlarının sayı on min nəfəri ötüb keçdi. Yaxın Şərq ölkələrində də onun çoxlu tərəfdarları var idi. Seyid Yəhya sufi-mistik səciyyəli bir sıra əsərlər yazmışdır. A. A. Bakıxanov onun haqqında aşağıdakıları bildirir:

* Nemətova «dağdan-dənizə qədər» kimi oxuyur.

«Seyid Yəhya Bakuvi hicri VIII əsrdə bu diyarın baş ruhani müəllimi idi. Onun adı bir çox əsrarəngiz elmlərdə məşhurdur...». Seyid Yəhya dini-mistik ideyalarla aşılanmış «Şərhi-«Gülşəni-raz»», «Əsrar ət-Talibin» fəlsəfi risalələrinin, habelə astronomiya və tarixə dair əsərlərin müəllifidir. «Nəql edirlər ki, o, ömrünün sonlarında altı ay ərzində yemək yeməmiş və Bakı şəhərində ölmüşdür». Onun ölümü bir versiyaya görə h. 862 (1457)-ci il, digər versiyaya görə isə 868-ci il (15.IX.1463-2. IX. 1464-cü il) sayılır[57]. Seyid Yəhyanın türbəsi Şirvanşahlar sarayının ərazisindədir. Ehtimal ki, həmin ərazidə Şirvanşahların bir çox qohumlarının da qəbirləri olmuşdur.

Şirvanşahlar sarayındakı xalça naxışları ilə bəzədilmiş qəbirüstü kitabə də Xəlilüllahın hakimiyyət dövrünə aiddir. Kitabədə deyilir: «Bu nurlu qəbir və təmizləyici məşhər, pərəstiş edilən məqbərə rəhmətlik Şeyx Bəhlulun oğlu, mərhum, günahları bağışlanmış, böyük allahın mərhəmətini qazanmış xoşbəxt şəhid, əzəmətli, ağıllı, kəramətli ən böyük əmir, səxavət və şücaət sahibi, dünya əmirlərinin başçısı əmir Təhmurəsindir. Hicri 863-cü il cümadiyül-axir ayı (5. IV.- 4. V. 1459-cu il)»[58]. Kitabədən göründüyü kimi, əmir Xəlilüllahın əmisi oğlu və atası şeyx Bəhlul kimi şirvanşah qoşunlarının baş sərkərdəsi olmuşdur. O, ehtimal ki, Şirvanda Xəlilüllahla Şeyx Cüneyd arasındakı vuruşmada həlak olmuşdur. Bunu onun ölüm tarixi də göstərir.

Şirvanşahlar sarayı ərazisində şirvanşah Xəlilüllahın h. 839 (1435/6)-cu ildə anası və oğlu üçün tikdirdiyi türbədə onun bir sıra ailə üzvlərinin qəbirləri aşkar edilmişdir. Bədr Şirvaninin divanındakı bir sıra mədhiyyə, mərsiyə və xronoqramlardan Xəlilüllahın bəzi ailə üzvlərinin adlarını aydınlaşdırmaq mümkündür. Şirvanşahın anası - Bikə xanım [ölüb h. 839 (1435/6)-cu il]; onun oğlanları - Fərrux Yəmin [doğulub h. 839 (1435/ -6)-cu il - ölüb h. 846 (1442/3)-cı ildə, yeddi yaşında]; Şeyx Saleh [doğulub h. 847 (1443)-ci il - ölüb h. 849 (1445/6)-cu ildə, 2 yaşında], şairin Mir Bəhram, Əmir Bəhram adlandırdığı h. 850-ci il məhərrəm ayının 20-də (17 aprel 1446-cı il) Qaytaq düzündə gənc yaşında həlak (şəhid) olmuş Bəhram. Bədr Şirvani qəsidələrindən birində Xəlilüllahın h. 836-cı il məhərrəm ayının 20-də (16 sentyabr 1432-ci il) anadan olmuş oğlu şahzadə Məhəmməd İbrahimin adını çəkir. Onun ölüm ili məlum deyil. Şair qəsidələrinin birində Xəlilüllahın oğlu Fərrux Yasarın da anadan olduğu günü - h. 845-ci il məhərrəm ayının 12-si (2 iyun 1441-ci il) göstərir[59].

Beləliklə, Xəlilüllahın saray şairi Bədr Şirvaninin verdiyi məlumata görə, şirvanşahın 5 oğlu olmuşdur. Onlardan dördü atalarının sağlığında ölmüş və yalnız Fərrux Yasar Xəlilüllahın ölümündən sonra onun varisi olmuşdur.

Xəlilüllah Qaraqoyunlu İsgəndərlə müharibə apararkən Bakıda onu şirvanşahın qardaşlarından biri - Qəzənfər [h. 800-847 (1398-1443)-ci illər] əvəz edirdi. Bədrəddin Şirvaninin məlumatına görə o, Bakıda bir sıra binalar, o cümlədəm h. 832 (1428/9)-ci ildə bir bürc və çeşmə (İçərişəhərdəki kəhrizlərdən biri), h. 835 (1431/2)-ci ildə başqa bir bürc və h. 842 (1438/9)-ci ildə hamam

(ehtimal ki, saray hamamı) tikdirmişdi. Həmin bürclərdən biri, ehtimal ki, indiki Elmlər Akademiyasının binasına bitişən bürcdür. Digər bürc isə dövrümüzədək qalmamışdır[60].

Xəlilüllah İsgəndərlə müharibəni qurtarıb h. 839 (1435/6)-cu ildə Şirvana qayıtdıqdan sonra Bakıda dinc quruculuq işlərinə başladı. Xəlilüllah sarayın baş binası (onun əsası, ehtimal ki, İbrahim tərəfindən qoyulmuş, tikintisini Xəlilüllah başa çatdırmışdır) türbə, minarəli məscid [h. 845 (1441/2)-ci il], Seyid Yəhya Bakuvi türbəsi ilə yanaşı, h. 840 (1436/7)-cı ildə saray hamamına bitişən ovdan tikdirmişdir. Şirvanşah Xəlilüllahın adı Bakı şəhərinin ətrafındakı karvansaralarda vaxtilə Bakını Salyanla birləşdirən dəniz sahilindəki gediş-gəlişli ticarət yolunun üstündəki Səngəçal kəndindəki karvansarada [h. 843 (1439/40)-cü il], h. 867 (1462/3)-ci ildə tikilmiş başqa bir karvansarada da xatırlanır. Ehtimal ki, hindlilərə məxsus Multanı karvansarası da Xəlilüllahın hakimiyyət dövrünə aiddir.

Xəlilüllah Bakını abadlaşdırmış, Şirvanşahlar sarayı kompleksinin bir sıra gözəl memarlıq abidələrini tikdirmişdir. Ticarətin qayğısına qalan Xəlilüllah bir sıra karvansaralar tikdirmiş və körpülər saldırmışdır. Onun hakimiyyət illəri Şirvanşahlar dövlətinin və Şirvanın şəhər həyatının tərəqqisi dövrüdür.

## ŞİRVANŞAH FƏRRUX YASAR İBN XƏLİLÜLLAH

Qaraqoyunlu dövləti 1468-ci ildə Uzun Həsən tərəfindən büsbütün darmadağın edildikdən sonra onun yerində Ağqoyunlu dövləti bərqərar oldu. Uzun Həsən Cənubi Azərbaycanı və Qarabağı tutdu. Təbriz Ağqoyunlu dövlətinin paytaxtı oldu. Uzun Həsənin hərbi uğurları və onun qonşuluğunda olan Şirvana hücum etmək təhlükəsi atası Xəlilüllahın ölümündən sonra h. 869 (1465)-cu ildə taxta çıxmış Fərrux Yasarı Uzun Həsənə münasibətini ata və babasının Teymurilərə arxalanmaq mövqeyini dəyişdirməyə məcbur etdi. Fərrux Yasar hakimiyyətinin ilk illərində diplomatik münasibətlər yaratmaq məqsədilə bir sıra ölkələrə elçilər göndərdi. Şirvanşah atası Xəlilüllah kimi, h. 857 (1453)-ci ildə Konstantinopolu tutmuş və Bizans imperiyasını dağıtmış qüdrətli türk sultanı II Mehmet Fatehlə (1451-1481) ittifaq bağlamağa çalışırdı.

Ehtimal ki, 1465-ci ildə azacıq sonra Fərrux Yasar öz elçisi «Xələf əl-ümərа və-l-əkabir» (əmir və əyan-əşrafların müavini) Ziyaəddin Yusif bəyi qiymətli hədiyyələrlə İstanbula göndərmişdi. Şirvanşahın şəxsi taciri (ustadan xasse humayun) Şirvan taciri Xacə Yar Əhməd Şirvanidən 2 qızıl külçəsi almışdı. Şirvanşah sultana özünə zireh sifariş etmək üçün yuxarıda adı çəkilən tacirdən alınmış 7400 dirhəm (23 kq 680 q.) qızıl və gümüş göndərmişdi[61]. Ola bilər ki, şirvanşahın türk sultanı ilə diplomatik münasibətlərə girməsi Uzun Həsənin Şirvanı tutmaq qorxusu ilə bağlı idi.

Mənbələrin məlumatına görə 1465-ci ildə şirvanşah Fərrux Yasarın elçisi Həsən bəy Moskvaya gəlmişdir. 1466-cı ildə çar III İvan buna cavab olaraq Vasili

Papinin başçılığı altında şirvanşaha qiymətli hədiyyələrlə birlikdə Şirvana səfarət göndərmişdi. Səfarətin məqsədi ticarətlə yanaşı, Moskva dövləti ilə Şirvan arasında Qızıl Ordaya qarşı ittifaq yaratmaq idi[62].

Hakimiyyətinin lap əvvəlində Fərrux Yasar Teymuri sultanı Əbu Səidlə toqquşmalı oldu. Əbu Səid h. 873 (1468)-cü ildə Uzun Həsənlə mübarizə aparmaq məqsədilə Heratdan çıxıb Qarabağa gəldi. Sonra o, şirvanşahdan yardım almaq ümidilə Muğan, Mahmudabad və Qızılağaca, Xəzər dənizi sahillərinə keçib getdi. Fərrux Yasar əvvəlcə Əbu Səidə kömək göstərərək, onun düşərgəsinə dəniz yolu ilə ərzaq göndərirdi. Lakin Uzun Həsənin hədələrindən qorxuya düşən şirvanşah qəflətən Əbu Səidə yardım göstərməkdən və onunla ittifaqdan imtina edərək Uzun Həsənə qoşuldu. Ağqoyunlu hökmdarı başda olmaqla, şirvanşah Fərrux Yasar və Ərdəbil hakimi, Cüneydin oğlu Şeyx Heydər Səfəvidən ibarət güclü ittifaq yarandı. Ağqoyunlu dövləti tərəfindən Şirvanşahlar dövlətinin müstəqilliyinə təminat verildi. Uzun Həsən Əbu Səidin düşərgəsinə gedən bütün böyük yolları və keçidləri kəsdi. Düşərgədə aclıq başladı. Teymuri qoşunlarındakı atlar yemsiz qalaraq, Muğan düzündəki zəhərli otları yeyib kütləvi surətdə qırılmağa başladı. Uzun Həsən Ərdəbilin seyidi Şeyx Heydəri Əbu Səidin yanına elçi göndərdi. O, geri qayıdıb Xorasan qoşunlarının həqiqətən ağır vəziyyətdə olduğunu təsdiq etdi və Uzun Həsəni sultanla sülh bağlamaq fikrindən daşındırdı. Onda Uzun Həsən Əbu Səidin sülh bağlamaq üçün gəlmiş adamlarını geri qaytardı. Onlar sultanın ordugahına qayıdıb, məlumat verməyə macal tapmamış Uzun Həsənin və onun müttəfiqlərinin saysız-hesabsız qoşunu göründü. Əbu Səidin əmirlərinin bir qismi öz istehkamlarını tərk edib düşmənin tərəfinə keçdi. H. 873-cü il rəcəb ayının 16-da (31 yanvar 1468-ci il) günorta Əbu Səidin qoşunları məğlubiyyətə uğradı, özü isə qaçdı. Uzun Həsənin iki oğlu onu təqib edərək yaxaladı və atalarının qərargahına gətirdi. Müttəfiqlərin müşavirələrində Şirvan əmirləri və qazıları bundan əvvəl onlarla söhbətdə şirvanşahı xəyanətdə və Teymuri qoşunlarının məhv olmasında təqsirləndirdiyi üçün Əbu Səidin edam olunmasını təkidlə tələb edirdilər. Azərbaycanın bütövlüyünü qoruyub saxlamaq və Əbu Səidin yenidən hücum edə bilməməsi üçün onun edam olunması qərara alındı. Rəcəb ayının 20-də sultan Əbu Səid «əzablı ölüm şərbətini içdi»[63].

Uzun Həsən şirvanşahla və Şeyx Heydərlə müttəfiqlik münasibətlərini ömrünün sonunadək davam etdirdi. Uzun Həsən Şeyx Heydərlə qohum idi, belə ki, Trapezund imperatoru Kalo İohann Komnenin qızı Katerinadan (Dəspinə xatun) doğulmuş qızını Şeyx Heydərə ərə vermişdi. Uzun Həsənin bu qızının adı Həlimə, eləcə də Marta idi. Ona Aləmşah bəyim və Baki ağa da deyirdilər[64]. Uzun Həsən h. 883 (1478)-cü ilin ramazan ayında öldükdən sonra şirvanşahın müttəfiqləri ilə münasibətləri dəyişdi. Uzun Həsənin oğlu və varisi Yaqub bəy [h. 883-896 (1478-1490)-cı illər] xarici düşmənlərlə mübarizədə şirvanşahın dayağı idi. O, Fərrux Yasarın Qaytaq usmisi Adil bəyin bacısından doğulan qızı Gövhər Sultana evlənmişdi. Yaqub bəyin ondan Baysunqur Mirzə və Murad Mirzə, yaxud Sultan

Murad adlı iki oğlu olmuşdu[65]. Sonralar onların hər ikisi babaları şirvanşah Fərrux Yasardan sığınacaq istəmişdilər. Güclənmiş Şeyx Heydər 1483-cü ildə Şirvana yürüş edərkən Yaqub bəy qayınatası Fərrux Yasara hərbi yardım göstərmişdi. Şirvanda müharibə zamanı həlak olmuş Cüneydin oğlu Şeyx Heydər dayısı Uzun Həsənin köməyi sayəsində müridlər və sufilər üzərində nüfuzunu gücləndirmiş və mövqeyini möhkəmləndirmişdi. Şeyx Heydər də atası kimi Şirvanı tutmağa çalışırdı. O, şirvanşahdan Cüneydin ölümünün qisasını almaq istəyərək «kafir» çərkəzlər əleyhinə mübarizə bəhanəsi ilə 10000 süvari qoşun topladı və sultan Yaqubdan Fərrux Yasara məktub gətirməklə ondan Şirvan torpaqlarına daxil olan Dərbənddən keçərək, Dağıstana, çərkəzlər ölkəsinə getmək üçün icazə alıb yürüşə yollandı, oranı talan edərək çoxlu əsir götürdü və təntənə ilə Ərdəbilə qayıtdı. H. 892 (1487)-ci ildə çərkəzlər üzərinə ikinci dəfə basqın edən Şeyx Heydər 6000 nəfər əsir alaraq, eyni yolla Ərdəbilə döndü[66]. H. 893 (1488)-cü ildə Şeyx Heydər çərkəzlər üzərinə növbəti basqına icazə almaq üçün anası - Uzun Həsənin bacısı Xədicə xatunu Quma, sultan Yaqubun sarayına göndərdi. Sultan Yaqub Şiranşah (şirlər şahı) Fərrux Yasara (hədrət-i səltənət pənah-i kamkar) çərkəzlərlə müharibədə Heydərə yardım göstərməyi əmr etdi. Şeyx Heydər anası qayıtdıqdan sonra döyüş dəstəsi ilə tələsik Ərdəbildən Şirvana yollandı. Yol boyu atası Cüneydin çoxlu «müridləri və sufiləri» ona qoşuldu. O, Araz sahillərinə çatanda Talış, Qarabağ əhalisindən və şamlılar tayfasından ibarət saysız-hesabsız qoşuna malik idi. Qazı əl-quzatın Bərdə ilə Gəncə arasındakı dağlıq hissədə yerləşən feodal mülki (ölkə) olan Calpert (Çarberd-Cerabert) qalasına yetişdikdə oranı talan etdi, cizyə və üşr ödəyib, dinc həyat sürən zimmiləri əsir aldı[67]. Şeyx çayı (Araz? Kür?) keçdikdən sonra şirvanşahın yanına elçi göndərib Dərbənd yolunu açmağı və islam qoşunlarına yardım göstərməyi tələb etdi. Onun Fərrux Yasara elçi göndərməkdən məqsədi Şirvan və onun qoşunları haqqında məlumat almaq idi. Belə ki, bu ölkə uzun müddət sülh şəraitində yaşayırdı və onun qoşunları öz yerlərində arxayıncasına fəaliyyətsiz dayanmışdılar. Hökmdarın yanında isə yalnız sərkərdələri, əmirləri, əyanları və yaxın dostları qalmışdı. Elçi gələndə şirvanşah övladlarından birinin toyunu edir, günlərini qayğısız, asudə və şən keçirirdi. Şirvanşah elçini hörmətlə qəbul edib cihada kömək üçün öz elçisi ilə Şeyx Heydərə bir qədər zireh, at və hərbi ləvazimat göndərdi. Şeyxin elçisi şirvanşahın elçisi ilə birlikdə qayıdaraq Heydərə xəbər verdi ki, bu səfər Fərrux Yasar üçün gözlənilməz olmuşdur və əlverişli imkandan istifadə etməmək ağılsızlıq olardı. Şeyx sazişi pozdu və şirvanşah haqqında pis fikirdə olduğundan elçi ilə kobud rəftar etdi. O, elçiyə dedi: «Geri qayıt və əmirinə de ki, biz onunla müharibə etməyə gəlirik. Atamın hər damla qanı üçün bütün dünyanın başını vuracağıq. Vuruşma filan gündə olacaq və Səfəvi qoşunları ləngimədən Şamaxıya hücum edəcəkdir». O, elçinin atını əlindən alıb, onu piyada yola saldı. Elçi yalnız təyin olunmuş döyüş gününə bir gün qalmış şirvanşahın yanına qayıda bildi. O, vəziyyəti təsvir etdikdə şirvanlılar təlaşa düşdülər. Fərrux Yasar son dərəcə təşviş

keçirdi, çünki Heydərin təcavüzkar niyyətləri və dəlisov şücaəti haqqında şayiələrə baxmayaraq, şirvanşahın qoşunları pərakəndə halda olub, şeyxin hücumunu dəf etmək iqtidarında deyildi. Aydın idi ki, şeyx qalib gələrsə, Şamaxının meydan və məhəllələrində çoxlu qan axıdılacaqdı. Kiçik qoşunla müqavimət göstərmək mümkün olmadığından, şirvanşah qiymətli əmlakla ailəsini, habelə şəhər əhalisinin bir hissəsini Şamaxı yaxınlığındakı Gülüstan qalasına köçürdü. Səhərisi gün şeyx qızılbaşların böyük süvari qoşunu ilə döyüş meydanına yollandı. Döyüşə girməyi qərara alan Fərrux Yasar kiçik bir dəstə ilə şəhərin sağ tərəfində Gülüstan səmtində dayanmışdı. O, qüvvələrin bərabər olmadığını görürdü. Şeyx Heydər öz qoşunları ilə rəqibin üzərinə hücuma keçəndə şirvanşah Gülüstan qapısına çəkilməyə məcbur oldu. Qisas alan şeyx, heç kəsə aman vermədən şəhər əhalisini qırmağa başladı. Qızılbaşlar Şamaxıda çoxlu kişi, qadın və uşaq qırdılar. Nifrəti coşub-daşan şeyx bundan doymayaraq Şamaxını yandırdı. Sonra Heydər Gülüstan qalasını uzunmüddətli mühasirəyə alaraq, onun ətrafında çadırlar, mancanaq və toplar qurdurdu. Yeddi aya yaxın mühasirədə qalan Şirvanşah çıxılmaz vəziyyətə düşüb, yardım üçün sultan Yaquba və onun dövlətinin adlı-sanlı əyanlarına müraciət etdi. Onun qasidi sultanın Sultaniyyə yaxınlığındakı Gözəldərə yaylağındakı sarayına gəldi. Bu xəbər şeyxin hərəkətlərində özü üçün də müəyyən təhlükə görən sultan Yaqubu qəzəbləndirdi. O, müsəlmanların tökülmüş qanının qisasını almaq və oğlu, Fərrux Yasarın nəvəsi Baysunqur xan vasitəsilə qohumluq əlaqələri ilə bağlı olduğu şirvanşaha yardım etmək qərarına gəldi. Sultan Yaqub şirvanşaha tərəfdar olan fəqihlərin təsirilə şirvanşaha kömək üçün Sultaniyyədən Ərdəbil yolu ilə təcili Şirvana getdi və h. 893-cü il cəmadiyülaxir ayının 28-də (9 iyun 1488-ci il) ora çatdı. Sultanın yaxınlaşması xəbərini eşidən Şeyx Heydər tələsik Şamaxının ətrafını tərk edərək, Şamaxıdan 6 km şimal-şərqdə yerləşən Cabaniyə çəkildi və oradan Dərbəndə tərəf yollandı. Ərdəbildən bir mərhələ aralı sultan Yaqub şirvanşahın sədri və müsahibi Mövlana Şərəfəddin Hüseyn katiblə qarşılaşdı. Şərəfəddin öz hökmdarı adından kömək və himayədarlıq dilədi. Şeyx Heydər Gülüstan qalasını mühasirədə saxlayarkən, Şirvanın müxtəlif yerlərinə dağılmış əmirlər Şirvan əyanlarından Kiçi Bəyin başçılığı altında toplaşaraq, üləmaların və zahidlərin razılığı ilə Şirvan qoşunlarından və əhalisindən 100000 nəfərədək adam* yığıb şeyxə qarşı cihad elan etdilər. Onlar Gülüstana məktubla birlikdə qasid göndərərək, filan gün döyüş meydanına çıxacaqlarını xəbər verdilər və bildirdilər ki, onlar bayırdan hücuma keçəndə, şirvanşah da qalanın içərisindən həmlə etməlidir. Lakin bu elan şeyxin adamları tərəfindən tutulan Şirvan casusu vasitəsilə Heydərə məlum oldu. Şeyx təcili surətdə Gülüstan qalasının mühasirəsindən əl çəkib, əksərən Şirvan kəndlilərindən ibarət qeyri-nizami qoşunun üstünə düşdü. Bu döyüşdə şeyx onları darmadağın etdi. Mənbələrin verdiyi məlumata görə, 10000-ə yaxın adam qırıldı.

---

* Ehtimal ki, bu rəqəm şişirdilmişdir.

Səfəvi qoşunlarının tələsik getmələrini görən şirvanşah şeyxin qorxudan və ərzaq qıtlığından geri çəkildiyini güman etdi. Şirvanşah şeyxin qoşunlarını təqib etmək məqsədilə qaladan çıxdı. Lakin onun qələbə çaldığını və qayıdıb Gülüstanın mühasirəsini davam etdirmək niyyətində olduğunu bildi. Onda şirvanşah Şamaxıdan 20 km şimal-qərbdə yüksəklikdə yerləşən əlçatmaz Sulut qalasına sığınmağa məcbur oldu. Bu vaxt başda sərkərdə əmir Süleyman bəy Bicək oğlu və Ayba Sultan Yaqub olmaqla böyük qoşun Şeyx Heydərlə müharibədə Fərrux Yasara kömək etmək üçün Şirvana yollandı. Darmadağın olunmaqdan qorxuya düşən şeyx Gülüstanı talan edib qoşunlarını Mahmudabada apardı, oranı da tutub dağıtdı, sonra Dərbəndə doğru hərəkət edərək, onu mühasirəyə aldı. Əmir əl-üməra Süleyman bəy Bicək oğlu qoşunları ilə viran edilmiş Şirvana daxil oldu. Fərrux Yasar Sulut qalasını tərk edərək, qoşununun qalan hissəsi ilə əmirlərə qoşuldu. Sabahısı gün əmirlər Samur çayını keçərək ləngimədən Dərbəndə tərəf irəlilədilər[68]. Onlar şeyxin Təbərsəran və Zirehkarın* istiqamətində hərəkət etdiyini eşitmişdilər. Süleyman bəy qoşunları ilə təcili onun ardınca düşərək Qafqaz dağlarının* ətəklərində, Təbərsəranda haqladı. H. 893-cü il rəcəb ayının 29-da (9 iyul 1488-ci il) çərşənbə günü şirvanşahın və Ağqoyunlu əmirlərinin birləşmiş qoşunları Şeyx Heydərin qızılbaşlarına hücum etdi. Süleyman bəyin və şirvanşahın başçılıq etdikləri qoşunlar ağır dağlıq yer şəraitində - dərin dərənin qırağında vuruşurdular. Atlar və adamlar yıxılaraq uçuruma düşürdülər. Hər iki tərəf inadla vuruşurdu. Süleyman bəy vuruşmada yaralanıb, döyüşçüləri tərəfindən kənara çıxarıldı. Bu zaman Şeyx Heydər də oxla boynundan ölümcül yaralandı. Qızılbaşlar onu atdan endirib araya alaraq, düşmənin həmləsini dəf etməyə cəhd göstərdilər. Lakin qızılbaşların qüvvələri tükənmişdi və əmirin qoşunları onların cərgələrini pozdu. Qızılbaşlar can verməkdə olan şeyxi düşmənin əlində qoyaraq qaçdılar. Qapıçı Əli ağa Şeyx Heydərin başını kəsərək əmirə gətirdi. Şeyxin həlak olduğunu görən qızılbaşlar döyüş meydanına qayıdaraq mərdliklə vuruşdular. Lakin əmirlərin və şirvanşahların qoşunları onları məğlub və məhv etdilər. Sultan Yaqubun qərargahına göndərilən qasid döyüşün nəticəsi haqqında xəbərlə yanaşı, Şeyx Heydərin başını da apardı. O, h. 893-cü il şaban ayının 6-da (16 iyul 1488-ci il) çərşənbə axşamı Ərvanəguh adlı yerə çatdı. Sultan Yaqub şeyxin başını bir neçə günlüyə tamaşaya qoyduqdan sonra anasına (Uzun Həsənin bacısına) verməyi əmr etdi. Ertəsi gün şah alayı paytaxta - Təbrizə daxil oldu. Sultan Yaqub əmirlərə düşməndən tutulub alınmış Şirvan şəhərlərini, Dərbənd və Mahmudabadı Fərrux Yasara qaytarmaq haqqında əmr verdi[69].

Beləliklə, atası Cüneyd kimi, Şeyx Heydərin Şirvanı zəbt etmək cəhdi baş tutmadı və onlar üçün fəlakətlə qurtardı. Sultan Yaqub şirvanşaha hərbi yardım

---

* Təbərsəran Rubas çayının üstündə, Dərbənddən cənub-qərbdədir. Zirehgəran (zirehqayıranlar), türkcə Köbəçi, Dərbənddən qərbdədir.

* Mətndə Elbrus dağının adı çəkilir (Tarix-i Əmini, s. 79).

göstərdi, lakin bunun müqabilində ondan Ağqoyunlu dövlətinin vassallığını tanımasını tələb etdi. 1489-cu ildə şirvanşah öz möhürü ilə təsdiq etdiyi şərtnamədə öz üzərinə bir sıra vassal təəhhüdləri götürdü. Lakin bircə ildən, Sultan Yaqub 1490-cı ildə öldükdən sonra onun yerinə keçən oğlu və varisi, şirvanşahın nəvəsi Baysunqur babasının təsiri altına düşdü və Şirvan dövləti yenidən müstəqil oldu[70]. Baysunqur Mirzə (1490-1492) Təbrizdə taxta çıxarkən babası Fərrux Yasardan yardım istədi[71] və uzun sürməyən hakimiyyətdən sonra Maqsud bəyin oğlu, Uzun Həsənin nəvəsi Rüstəm bəy tərəfindən qovularaq Şirvana, şirvanşahın yanına qaçdı. Baysunqur Fərrux Yasarın və Şirvan qoşunlarının köməyi ilə öz hüquqlarını bərpa etməyə cəhd göstərsə də, h. 898 (1492/3)-ci ildə Bərdə ilə Gəncə arasında Rüstəm bəylə vuruşmada[*] həlak oldu[72]. Bu vuruşmada Rüstəm bəylə birlikdə Şeyx Heydərin böyük oğlu Sultanəli də iştirak edirdi. Baysunqurun tərəfində isə Fərrux Yasarın oğlu Şeyxşah, Şirvanın adlı-sanlı feodallarından olan Malik Səlim, habelə Şirvan qoşunları vuruşurdu. Sultan Yaqubun digər oğlu Sultan Murad da qardaşı Baysunqurun ölümündən sonra babası şirvanşah Fərrux Yasara sığınmış və h. 903 (1497/8)-cü ilədək, Uzun Həsənin digər nəvəsi Əhməd Mirzənin hakimiyyətindən narazı olan Ağqoyunlu feodalları onu Təbrizə çağırana qədər onun yanında yaşamışdır[73]. Bu hadisələrdən sonra şirvanşah Fərrux Yasar və Sultan Murad Səfəvilərin güclənmiş qüdrətinin qurbanları oldular.

Şeyx Heydər həlak olduqdan sonra Sultan Yaqub onun və Aləmşah bəyimin üç azyaşlı oğullarını - Sultanəli, İbrahim və İsmayılı tutub, əvvəl erməni monastrı Axtamar qalasına, sonra isə Şiraz yaxınlığındakı İstəxr qalasına göndərərək həbsə saldı. Onlar dörd il bu qalada qaldılar. Sultan Yaqubun ölümündən sonra h. 897 (1492)-ci ildə hakimiyyətə keçən Rüstəm bəy Ağqoyunlu bibisi Aləmşah bəyimin xahişilə onları həbsdən azad edərək öz yanına - Təbrizə gətirdi[74]. Anciolello bu hadisələri başqa cür təsvir edir. Onun təbirincə, Rüstəm bəy taxta çıxdıqdan sonra uşaqları Ərdəbildə tutaraq öldürmək istəmiş, lakin bəzi əmirlərin arzusu ilə onlar azad edilərək, Axtamar adasında saxlanılmışdır. Uşaqlar burada üç il qalmışlar. Rüstəm bəy onların qaça biləcəklərindən qorxaraq, Axtamar patriarxının yanına qasid göndərmiş və Şeyx Heydərin uşaqlarını öldürmək məqsədilə geri qaytarılmasını əmr etmişdir. Lakin uşaqlara, xüsusən gözəlliyi və xoş xasiyyəti ilə seçilən İsmayıla rəğbət bəsləyən rahiblər üzrlü bəhanə gətirərək, Rüstəm bəyin əmrini yerinə yetirmədilər və onları təcili Qarabağa göndərdilər. Onlar orada beş il gizləndilər. O vaxt İsmayıl doqquz yaşında idi. Şamaxıya hücum edəndə isə onun heç on dörd yaşı da yox idi[75].

---

[*] Petruşevskinin yazdığına görə, Baysunqur Gürcüstana qaçmış və sonralar hakimiyyətə gəlmək üçün göstərdiyi uğursuz cəhddən sonra ələ keçirilmiş və artıq Rüstəmin varisi Əhməd tərəfindən edam olunmuşdur (1497-ci il). Petruşevski səhvə yol vermişdir. Belə ki, Seddonun qeydində, Xondəmirə əsasən, söhbət Baysunqurdan yox, Rüstəm bəydən gedir.

Yuxarıda göstərdiyimiz kimi, «Şərəfnamə»nin məlumatına görə Ağqoyunlu Rüstəm bəy Şeyx Heydərin oğlanlarını azad edib Təbrizə gətirdikdən sonra Sultanəlini Ərdəbilə göndərərək ona padşah titulu vermiş, Baysunqur və şirvanşah Fərrux Yasarla mübarizəsində ondan istifadə etmişdir. Baysunqurla və Fərrux Yasarın oğlu Şeyxşahla döyüşdə Sultanəli Rüstəmin tərəfində mərdliklə vuruşmuşdur. Sultanəlinin şücaəti və qızılbaşlar arasında nüfuzunun artması Rüstəm padşahı qorxuya salırdı. Buna görə də o, Sultanəlidən ehtiyat etməyə başladı. Rüstəm onu aradan çıxarıb məhv etmək üçün Ayba Sultan Qacarı və Hüseyn bəy Əlixanini Ərdəbilə göndərdi. Onlar Sultanəlini və onun qardaşlarını həbs etməli idilər. Sultanəli Ərdəbil yaxınlığındakı Şəmasi kəndinin yaxınlığında onlarla döyüşə girdi. Qızılbaşlar məğlub oldular və Sultanəli öldürüldü. Yeniyetmə İsmayıl və qardaşı sədaqətli müridlərin köməyilə Gilana qaçaraq, Səfəvilərin tərəfdarı olan Biye-Piş vilayətinin hakimi Karkiyə Mirzə Əlinin yanında gizləndilər. Karkiyə Mirzə Əli Rüstəm padşahın İsmayılı ələ vermək tələbini hər dəfə bir üzrlü bəhanə gətirməklə rədd edirdi[76]. On üç yaşında ikən Səfəvi ordeninin şeyxi sayılan İsmayıl Ağqoyunlu dövlətində baş verən ara çəkişmələrindən istifadə edərək Gilandan Ərdəbilə qayıtdı. Onun ətrafına 300-ə yaxın döyüşçü mürid - qızılbaş toplandı. Fərrux Yasarın müttəfiqləri - cəyirli tayfasından olan Ərdəbil hakimi Əli bəy və Talış hakimi Məhəmməd ona qarşı çıxdılar. Onların niyyəti İsmayılı yaxalayıb şirvanşaha göndərmək idi. Buna görə də ustaclı tayfasının əmirləri İsmayılla birlikdə Qarabağa getməyi qərara aldılar. İsmayıl oradan Gəncəyə, sonra isə Göyçə gölünün sahillərinə, Çuxursədə yollandı. 1499-cu ilin sonunda Ərzincanda onun bayrağı altında ustaclı, şamlı, rumlu, təkəli, zülqədər, afşar, qacar, varsaq, qızılbaş tayfalarından və Qaracadağ sufilərindən 7 min qazi toplandı. Qızılbaş əmirlərinin İsmayılın qışladığı Ərzincanda keçirilən müşavirəsində Səfəvilərin irsi düşməni şirvanşah Fərrux Yasarla müharibəyə başlamaq qərara alındı[77]. Şirvanşahlar tərəfindən öldürülən atasının və babasının intiqamını almaq hissilə yaşayan İsmayıl əmirlərinin Gürcüstana və Ermənistana bir neçə basqınından sonra h. 906 (1500)-cı ildə Fərrux Yasara qarşı 7 min qızılbaşla hücuma keçdi. Qoşunun Əmir Bayram xan Qaramaninin başçılığı ilə təkəli və zülqədər tayfalarından olan döyüşçülərdən ibarət avanqard dəstəsi Qoyun ölümü deyilən yerdə Kürü keçməli idi. Lakin əmir çayı keçməyi mümkün hesab etmədi. Özünü yetirən İsmayıl birinci olaraq atın üstündə üzərək qarşı sahilə çıxdı. Onun ardınca bütün qızılbaş qoşunu çayı keçərək Şamaxıya doğru irəlilədi. Bu vaxt İsmayılın qarşısına çıxan Şəki hakiminin qoşunları qızılbaşlar tərəfindən darmadağın edildi. Şah İsmayıla Şirvan əhli olan bir nəfərdən xəbər çatır ki, Fərrux Yasar öz sarayında İsmayıla da atasının aqibətinin üz verəcəyini bildirmişdir. İsmayıl Kilid-i-Gilana yollandı və əhalidən öyrəndi ki, şirvanşah onun yaxınlaşdığını eşidib, müharibəyə hazırlaşmaq üçün Şamaxıdan çıxaraq yaxşı möhkəmləndirilmiş Qəbələ qalasına getmişdir. Ona görə də İsmayıl Şamaxını tutmağı qərara aldı. O, əhalinin şəhərdən qaçmasının qarşısını almaq və onların

təhlükəsizliyini təmin etmək məqsədilə adamlarından Qulu bəyi Şamaxıya göndərdi. Lakin İsmayıl Şamaxıya daxil olanda öyrəndi ki, bütün əhali şəhəri tərk edərək dağlarda gizlənmişdir. Bir neçə gün Şamaxıda dayanan İsmayıl şirvanşahın öz qoşunları ilə Buğurt qalasının yaxınlığındakı meşədə düşərgə saldığını və onun ətrafına paya çəpər çəkdirdiyini öyrəndi. İsmayıl düşməni təqib etmək qərarına gəldi, lakin onu həmin yerdə tapmadı. Belə ki, qızılbaşların Şamaxını tutması xəbərini alan Fərrux Yasar Gülüstan qalasına çəkilməyi qərara almışdı. Lakin o, həmin qalaya çata bilmədi, İsmayıl qızılbaş qoşunu ilə Cabani adlanan yerdə onu haqladı. H. 906 (1500)-cı ilin payızında burada şirvanşah və şirvanlılar üçün fəlakətlə qurtaran ən qanlı vuruşmalardan biri baş verdi. Xondəmir və Həsən bəy Rumlu bu vuruşmanı müfəssəl təsvir etmişlər. İsmayıl 7 minlik süvarinin başında 20 min süvarisi və hərbi nizamla düzülmüş 6 min piyadası olan şirvanşahı təqib etmişdir. Ehtimal ki, göstərilən mənbələr qəsdən şirvanşahın qoşunlarının sayını artırır, İsmayılın döyüşçülərinin sayını isə azaldırlar. Bu vuruşmada Fərrux Yasarın qoşunları darmadağın edildi və qaçdı. Şirvanşah qoşunlarının Cabani yaxınlığındakı vuruşmadan sonra salamat qalmış hissələri Gülüstan qalasına çəkildi. Qızılbaşlar qənimət olaraq çoxlu əmlak və mal-qara ələ keçirdilər. Onlar öldürülənlərin başlarından qələbələrini təsdiq edən qala düzəltdilər. Lakin şirvanşah qoşunları məğlubiyyətə uğrayandan sonra da mərdlik və inadkarlıqla vuruşaraq, süvarilər və piyadalarla birlikdə həmlələr edirdi. Bütün qoşunları məğlub olub qaçdıqda, sərkərdələri isə döyüş meydanında həlak olduqdan sonra, tək qalan şirvanşah atla Buğurt qalasına tərəf çapmağa başladı. Lakin qızılbaş dəstəsi Gülüstan qalasının yaxınlığında onu haqladı. Onlar tanımadıqları şirvanşahı atdan saldılar, qoşqunu əlindən aldılar. Qızılbaşlardan biri, Hüseyn bəy Lələnin şirvanşahı atdan çəkib salmış cilovdarı Şahgəldi ağa Fərrux Yasarın başını kəsərək İsmayıla gətirdi. Əsir şirvanlılar Fərrux Yasarın meyitini tanıyıb onu dəfn etdilər[78].

Münəccimbaşı Fərrux Yasarın həlak olmasını başqa cür təsvir edir: «Bəziləri deyir ki, o, əsir alınmış və sonra əlləri bağlı (səbran) öldürülmüşdür»[79]. Ehtimal ki, Həsən Rumlunun məlumatı daha inandırıcıdır.

Otuz beş ilə yaxın hökmranlıq edən Fərrux Yasarın ömrü belə başa çatmışdır. Fərrux Yasar məğlub edilərək həlak olduqdan və Şamaxı alındıqdan sonra, İsmayıl atasının və babasının qisasını almaq üçün tutduğu bütün əsirləri öldürtdü. O, üç gün düşərgəsində qaldıqdan sonra Şamaxıya daxil oldu. Burada onu seyidlər, qazılar, rəislər və şəhər əyanları qarşıladı. Cənnabinin (XVI əsr) məlumatına görə, Şamaxıya girən İsmayıl taxta çıxdı, lakin şəhərdə yalnız bircə gün qaldı[80].

Fərrux Yasar mənbələrdə «öz yüksək əsil-nəsəbi ilə digər sərhəd vilayətlərinin hakimlərini ötüb keçən və şöhrəti ilə ən böyük və möhtərəm şəxsiyyətləri kölgədə qoyan»[81] ədalətli və mərhəmətli hökmdar kimi səciyyələndirilir. Şirvanşahlar öz şəcərələrini Sasani hökmdarı Xosrov Ənuşirəvana bağlayırdılar.

Fərrux Yasarın hakimiyyəti dövründə Şirvan dövləti feodal inkişafı və müstəqillik dövrü keçirirdi. Bunu şirvanşah Fərrux Yasarın hakimiyyətinin birinci ilində - h. 869 (1465)-cu ildə[82], sonra isə h. 888 (1483/4)[83] və h. 905 (1499-1500)-ci[84] illərdə Şamaxıda onun adından kəsilmiş gümüş sikkələr - təngə də təsdiq edir. 1948-ci ildə İçərişəhərdə aşkar edilmiş böyük sikkə dəfinəsində Fərrux Yasarın adından Şamaxıda kəsilmiş azacıq qızıl qarışığı olan gümüş sikkələr də tapılmışdır. Həmin sikkələrin üzərində yazılmışdır: «Əzəmətli sultan, şirvanşah Fərrux Yasar, Şamaxı zərbxanası». Sikkənin arxa tərəfində tarix, ənənəvi din rəmzi və dörd xəlifənin adı həkk olunmuşdur. Fərrux Yasarın adından zərb edilmiş bütün sikkələrdə hökmdarın adından əlavə şirvanşah (şirlər şahı) titulu da qeyd olunur. Yalnız Fərrux Yasara aid edilən bu titul Dərbənddəki Cümə məscidinin mədrəsəsindəki kitabədə və Abşeronun Mərdəkan kəndindəki Tuba Şahı məscidindəki h. 886 (1481/2)-cı ilə aid kitabədə də rast gəlinir. Dəfinədəki qeyd olunan sikkələr aşağıdakı tarixlərə aiddir. H. 869 (1465)-cu il, h. 879 (1474/5)-cu il, h. 881 (1476/7)-ci il, h. 887 (1482/3)-ci il, h. 888 (1483)-ci il, h. 892 (1486/7)-ci il, h. 893 (1487/8)-cü il, h. 897 (1491/2)-ci il, h. 898 (1492/3)-ci il, h. 900 (1494/5)-cü il, h. 901 (1495/6)-ci il, h. 902 (1496/7)-ci il, h. 903 (1497/8)-cü il) h. 904 (1498/9)-cü il, h. 905 (1499-1500)-ci il, h. 906 (1500)-cı il[85]. Sikkələrin çoxluğu ölkədə daxili və xarici ticarətin xeyli inkişaf etdiyini göstərir. İstər I İbrahim, istərsə də Xəlilüllahın zamanında sikkələr anonim, şirvanşahların adları göstərilmədən zərb olunurdu. Onların hakimiyyəti dövründə Şirvan Cənubi Dağıstanın bir sıra iri yaşayış məntəqələrini öz nüfuz dairəsinə tabe etmişdi. Qaytaq usmisi, Şirvanın vassalı Məhəmməd bəyin varisləri Şirvanşah Şeyx İbrahimin ona bağışladığı bir sıra kəndə, habelə Kurak və Təbərsərana hakimliklərini davam etdirirdilər[86].

Fərrux Yasarın hakimiyyəti dövründə Dərbənd və Dağıstanın cənub əyalətləri Şirvanın tərkibinə daxil idi. Bunu Axtı kəndinin məscidindəki kitabə də təsdiq edir. «Bu qalanın sahibi şirvanşah ibn Xəlilüllah»[87]. Fərrux Yasar Axtı kəndində qaladan başqa Dərbənd şəhərində mədrəsə binası da tikdirmişdi. Kitabədə bu barədə xəbər verilir: Uca və pak olan allah dedi: «Elm verilmiş şəxslər üçün allah yanında dərəcələr vardır».

Allahın xalis bəndəsi və onun istəklərinə talib olan (razı olan) və onun qəzəbindən qaçan, dünyada gözəl əxlaq sahibi, zəmanə əmirlərinin ən ədalətlisi, şirvanşah orada (mədrəsədə) qiyamət gününə qədər şəriət elmləri təhsil edən tələbələrin xatiri üçün bu mübarək mədrəsənin tikilməsindən ötrü hicri səkkiz yüz yetmiş doqquzuncu ildə əmr etmişdir (h. 879-18. V. 1474-6. V. 1475)[88].

Fərrux Yasar 1466-cı ildə qaytaqlıların tutub apardıqları əsirlərin və malların qaytarılmasını tələb etdiyi Qaytaq usmisi və qaynı Adil bəyi də öz iradəsinə tabe etdirmişdi[89]. Şəki də şirvanşaha tabe idi. Lakin 1497-ci ildə Şəki hakimi Şah Hüseynlə Fərrux Yasar arasında hərbi toqquşmaya gətirib çıxaran narazılıq baş verdi. Şirvanşahın Şah Hüseyn tərəfindən qızışdırılan oğlu Şeyxşah

da Fərrux Yasara qarşı çıxdı. Onlar 8 gün ərzində Şirvanın tərkibinə daxil olan Qəbələ mahalını viran və talan etdilər. Lakin digər oğulları və böyük qoşunla Qəbələ hakimi Əbülfəth bəyin köməyinə gələn Fərrux Yasar Şah Hüseyn və Şeyxşahın qoşunlarını məğlub etdi. Bundan sonra Şeyxşah atası ilə barışdı[90].

Fərrux Yasar dövlət idarəçiliyinə, Şirvanın şəhər və yerlərində rəiyyətin dolanışığına böyük diqqət yetirir, qanuna riayət olunmasını tələb edirdi. O, dövlət idarəçiliyinin mühüm məsələlərində alimlərin və ali rütbəli din xadimlərinin fikrilə hesablaşırdı. Şirvanşah onların rolunu yüksək qiymətləndirir, onlara dövlətin dayağı kimi baxır, rəiyyəti onların köməyi olmadan itaətdə saxlamağı mümkün saymırdı[91]. Fərrux Yasar dərvişlərə ehtiram göstərir, xeyriyyə işləri ilə məşğul olurdu. O, h. 896 (1490)-cı ildə Bakıdakı Əbu Səid ibadətgahının vəqfinə Abşeronda neftli torpaqlar, əkin yerləri və üzümlüklər vermişdi[92].

Fərrux Yasarın həlak olması ilə şirvanşahlar dövlətinin tərəqqisinə və qüdrətinə son qoyuldu. Fərrux Yasarın üç oğlu var idi. Məhəmməd Qazi bəy, Bəhram bəy və II Şeyx İbrahim (Şeyxşah). Onlar atalarının ölümündən sonra növbə ilə Şirvana hakimlik etmişlər.

## BƏHRAM BƏY İBN FƏRRUX YASAR

Fərrux Yasarın yerinə h. 906 (1500)-cı ildə oğlu Bəhram bəy keçdi. O, bir il hakimiyyət sürdükdən sonra h. 907 (1501)-ci ildə öz əcəli ilə öldü. Mənbələrdə onun hakimiyyətinə dair heç bir məlumat verilmir. Bu vaxt İsmayıl Təbrizə girmiş, Azərbaycanı tutmuş, qüdrətli olmuşdu[93].

İsmayıl Şamaxını aldıqdan sonra öyrəndi ki, şirvanşahın döyüş meydanından qaçıb canını qurtarmış oğlu II Şeyx İbrahim (Şeyxşah) Xəzər dənizinin sahilindəki Şəhrinou qalasındadır və atasının qoşunlarının salamat qalmış hissələrini ətrafına toplamışdır. İsmayıl sərkərdəsi Hülafə bəyə qoşun hissəsi ilə oraya getməyi əmr etdi və özü də səfərə çıxdı. Hülafə bəyin qarşısında duruş gətirə bilməyəcəyini görən Şeyxşah yaxın adamları ilə birlikdə Gilan Biye Piş əyalətinin hakimi Karkiyə Mirzə Əlidən sığınacaq istəmək məqsədilə gəmi ilə oraya yollandı[94]. Hürşahın fərziyyəsinə görə, Şeyxşah Rəşt hakimi əmiri Hüsaməddinin sarayında gizlənmişdi. Bu, daha ağlabatandır. Belə ki, həmin vaxt Əmirlə Səfəvilər arasında düşmənçilik münasibətləri var idi və buna görə də o, Fərrux Yasarın oğluna sığınacaq verə bilərdi[95]. Müqavimətə rast gəlməyən Hülafə bəy, Şəhrinouda düşərgə saldı. Şəhərin hakimi onun yanına gələrək itaətini bildirdi. Ertəsi gün İsmayıl özü buraya gəldi. İsmayıl Şəhrinounu tutduqdan sonra Mahmudabada qışlağa getdi. Burada ona məlum oldu ki, Bakı şəhərinin əhalisi qalalarının möhkəmliyinə bel bağlayaraq, xərac verməkdən imtina edir və qızılbaşlara müqavimət göstərirlər[96]. Şirvanın qala və şəhərləri bütün xəzinələri ilə birlikdə İsmayılın əlinə keçmişdi. Onların yalnız bəziləri təslim olmaq istəmirdi. İsmayıl uzun çəkməyən mühasirədən sonra h. 906 (1501)-cı ilin baharında Bakını aldı.

## QAZİ BƏY İBN FƏRRUX YASAR

Bəhram bəyin ölümündən sonra h. 907 (1501)-ci ildə şirvanşahlar taxtına onun qardaşı Qazi bəy ibn Fərrux Yasar çıxdı. O, şah İsmayıl Səfəvinin Bakı şəhərini mühasirəyə alıb tutduğu altı ay müddətində hakimiyyət sürdü[97]. XVI əsr tarixçiləri Xondəmir və Həsən bəy Rumlu İsmayılın Bakını almasından təfsilatı ilə xəbər verirlər[98]. İsmayılın əmri ilə sərkərdələrdən Məhəmməd bəy Ustaclı və İlyas bəy Ayqutoğlu Xunuslu qoşunların başında Bakı qalasını almağa göndərilmişdilər.

O vaxt Bakı şəhəri alınmaz qala sayılırdı. O, üç qat möhtəşəm divarla, bir tərəfdən dənizlə, quruda isə geniş və dərin xəndəklə əhatə olunmuşdu. Şəhərə yaxınlaşan qızılbaş döyüşçüləri onun əfsanəvi Makedoniyalı İsgəndər səddini xatırladan qala divarlarının əzəmətinə heyran qaldılar. İsmayıl üçün bu qalanı tutmaq çox vacib idi. Çünki Bakı o vaxtlar Şirvanın iri şəhərlərindən biri və Xəzər dənizində ən yaxşı tranzit ticarət mərkəzi idi. Qızılbaş qoşunu Bakı qalasını mühasirəyə aldı və vuruşma başlandı. Qədimdən Şirvanşahlar xanədanına sədaqətli olan bakılılar istehkamlarının alınmazlığına, böyük silah, müdafiə ləvazimatı və ərzaq ehtiyatına güvənərək igidliklə vuruşurdular[99].

Bu vaxt Fərrux Yasarın oğlu Qazi bəyin torpaqları Bakı, Mahmudabad və Salyandan ibarət idi[100]. O, Şirvanın dağ qalalarında müqavimət göstərməkdə davam edirdi. Qazi bəy olmadığı müddətdə şəhərin müdafiəsinə onun adı mənbələrdə çəkilməyən mərd arvadı başçılıq edirdi. O, İsmayılın təslim olmaq təklifi və tövsiyəsi ilə yanına gəlmiş elçisinin edam olunmasını əmr etdi. Onu İsmayılın qəzəbi ilə qorxudaraq təhdidlə şəhəri qızılbaşlara təhvil verməsini tələb edən Bakı darğası Əbdulfəttah bəyin də başına eyni aqibət gəldi.

Bakılıların inadlı müqaviməti İsmayıl Səfəvini sərkərdə Hülafə bəyin başçılığı altında yeni qüvvələr göndərməyə məcbur etdi. Mühasirənin sonuna yaxın o özü də buraya gəldi. Mühasirədəkilərin inadlı müqavimətini görən İsmayıl lağım atıb qala bürclərindən birinin böyük daşını partlatmağı əmr etdi. Şəhərin müdafiəçiləri divardakı yarığı çadır keçəsi ilə tutaraq üç gün duruş gətirdilər. Lakin sonra Səfəvi qoşunları şiddətli həmlə ilə qalanı ələ keçirib əhalidən xeyli adam qırdılar. Bakının 70 nəfər mötəbər şəxsi artıq müqavimət göstərməyin mənasız olduğunu görərək, əllərində Quran, boyunlarında qılınc, küräklərində kəfən İsmayılın hüzuruna gələrək öz itaətlərini bildirdilər[101].

Həsən Rumlunun hekayəti Xondəmirin mətnindən bir qədər fərqlənir. O nəql edir ki, İsmayıl özü Bakıya yaxın gələrək xəndəyi daşla doldurmağı əmr etmişdir. Xəndəklər daşla doldurulub qala divarları ilə bərabərləşəndə şəhər əhalisi İsmayıldan aman dilədi. Onlar bağışlanmaq vədi alaraq, qapıları açdılar və çiyinlərində kəfən, əllərində qılınc itaət göstərdiklərini və tabe olduqlarını bildirmək üçün onun hüzuruna gəldilər[102]. Həsən Rumluya görə, İsmayıl onları bağışladı və bakılılar «qan bahası» olaraq ona o dövr üçün böyük məbləğ sayılan 1000 tümən verdilər[103]. İsmayıl sərkərdəsi Hülafə bəyə şirvanşahların xəzinəsini

ələ keçirib öz düşərgəsinə göndərmək üçün qalanı təcili tutmağı əmr etdi. Hülafə bəy Bakının adlı-sanlı sakinlərini özü ilə götürdü və sarayda çoxlu qızıl ələ keçirib, şirvanşahların bütün sərvətini bakılıların qiymətli hədiyyələri ilə birlikdə İsmayıla göndərdi. Həsən Rumlunun məlumatına görə, qızılbaşlar şirvanşah Mirzə Xəlilüllahın cənazəsinin qalıqlarını tapıb yandırdılar, habelə onun türbəsinin günbəzi altında çoxlu qızıl tapdılar. Həsən Rumlu və Xondəmirin məlumatına görə, İsmayıl şeyx Cüneydin öldürülməsində iştirak edənlərin qəbirlərini qazıb, sümüklərini odda yandırmağı əmr etmişdir[104]. Ehtimal ki, bu məlumat Xəlilüllahın özünə aiddir, belə ki, onun qəbri məlum deyildir.

Bakının İçərişəhər hissəsindəki sarayın ərazisindəki Şirvanşahlar türbəsində aparılan qazıntılar nəticəsində Xəlilüllahın ailə üzvlərinin türbələrinə toxunulmadığı aşkar edilmişdir. Ehtimal ki, üzərində kitabələr olan qəbir daşları sındırılmışdır. Belə ki, onlar qalmamışdır.

Divanxana pavilyonunun qapı açırımlarından birində pozulmuş, ola bilsin ki, sındırılmış və indiyədək oxunmamış ərəbcə bir sətirlik kitabə qalmışdır. Lakin V. M. Sısoyev həmin kitabədə I Xəlilüllahın adını və h. 832 (1428/9)-ci il tarixini oxuduğunu iddia edirdi ki,[105] bunu yoxlamaq mümkün deyil. Divanxananın xatirə abidəsi olması haqqında mülahizələr vardır[106]. Güman ki, bu bina türbə olmuş və mənbələrin məlumatına görə, cənazəsinin qalıqları qızılbaşlar tərəfindən qəbirdən çıxarılıb yandırılan Xəlilüllah orada dəfn edilmişdi. İsmayıl Bakını aldıqdan sonra Gülüstan qalasını tutmağa getdi. Çünki eşitmişdi ki, Şirvan qoşunlarının salamat qalmış hissələri oraya çəkilmişdir. Qalanın müdafiəçiləri Buğurt və Surxab qalalarının Qazi bəyin oğlanlarının əlində olduğunu güman edərək, bildirdilər ki, Qazi bəy öz qalasını təslim edərsə, onlar da təslim olarlar. Lakin İsmayıl tezliklə Gülüstanın mühasirəsini buraxaraq, əmirlərinə bunu yuxuda imamlardan tapşırıq alması ilə izah etmişdir. 1501-ci ildə Səfəvi qoşunları Şirvanı tərk edərək Azərbaycana - Ağqoyunlu Əlvəndlə mübarizəyə yollandılar[107]. Qızılbaşlar Şirvanı tərk edərkən burada Səfəvilərin nümayəndələrini qoyub getdilər. İsmayıl öz dayəsi Hüseyn bəy Lələ Şamlunu Şirvana canişin təyin etdi, o isə öz yerində cilovdarı Şahgəldi ağanı qoydu[108]. Bakı qalasının Şirvanşahlar sarayı yaxınlığındakı məhəllələrindən biri son vaxtlaradək, ehtimal ki, o burada yaşadığından Şahgəldi məhəlləsi adlanırdı. İsmayıl Şirvandan gedərək, Əlvəndə qalib gəldikdən və o öldürüldükdən sonra Azərbaycanı tutdu və h. 907 (1501/2)-ci ildə Təbrizə daxil olaraq özünü şah elan etdi.

Şirvanşahlar dövləti güclü sarsıntıya məruz qalmasına və Şeyx İbrahim, onun oğul və nəvələrinin vaxtındakı kimi qüvvətli olmamasına baxmayaraq, varlığını davam etdirirdi. Mənbələrin məlumatına görə, Qazi bəy altı aya yaxın hakimiyyət sürmüşdür[*]. Onun oğlu Sultan Mahmud atasının əleyhinə qiyam

---

[*] Qazi bəyin Münəccimbaşı tərəfindən göstərilən ölüm tarixi - h. 908 (1502/3)-ci il səhvdir. Belə ki, numizmatik məlumatlar Sultan Mahmudun sikkələrinin h. 907 (1501/2)-ci ildə kəsildiyini göstərir.

qaldıraraq, h. 907 (1501/2)-ci ildə onu xaincəsinə öldürmüşdür[109]. Bu şirvanşahın hakimiyyəti dövründən onun adından kəsilmiş «Qazibəyi» adlandırılan sikkələr qalmışdır[110]. 1948-ci ildə tapılmış Bakı dəfinəsinin numizmatik məlumatları onun hakimiyyət illərini və mənbələrdə Qazi bəy adlandırılan şirvanşahın tam adını dəqiq müəyyənləşdirir. Həmin dəfinədə aşkar edilmiş sikkələrin üz tərəfində «Ədalətli şirvanşah, möminlərin əmiri Sultan Məhəmməd Qazi» sözləri həkk edilmişdir. Sikkənin əks tərəfində isə ənənəvi din rəmzi və dörd xəlifənin (Əbu Bəkr, Ömər, Osman, Əli) adları yazılmışdır[111].

Qazi bəyin - Sultan Məhəmməd Qazinin tam adına Fərrux Yasarın Bakı və Abşeron hakimi olan böyük oğlunun, gələcək şirvanşah Şamxal Sultan Məhəmməd Qazinin Mahmudabad şəhərinin, Güştəsbi və Salyan vilayətlərinin valisi təyin edilməsi haqqında fərmanının dövrümüzədək gəlib çatmış surətində də rast gəlinir[112]. Şamxal titulu onun ana tərəfdən Dağıstanın Qaytaq usmisi ilə qohumluğunu göstərir[113]. Fərmanda valinin fəaliyyəti və vəzifələri qeyd edilir. Valinin səlahiyyətinə vilayətin çətin işlərinə baxılması, vəzifə və rütbələrin böyüdülüb kiçildilməsi, qəbzlərin yazılması, müəyyən vəzifəli şəxslərlə müqavilələrin bağlanması və ya pozulması daxil idi. Ona xüsusilə, yığılıb qalmış çoxlu işlərə baxmaq, əhali narazılıq edərsə, üləma və axundların iştirakı ilə təhqiqat aparmaq tövsiyə olunurdu. Qazi bəyə islam dininin qayda-qanunlarına əməl etmək, dövlətin dayağı və hökmdarların rəiyyəti itaətdə saxlamaq üçün köməklərinə arxalanmalı olduqları «möhtərəm seyidlərə, görkəmli şeyxlərə, xalq imamlarına» hörmət göstərmək tapşırılırdı. Tacirlərin işlərinə baxılarkən, onların mahiyyətinə dərindən nüfuz etmək məsləhət görülürdü. Sənəddə Şirvanşah Şamxal Sultan Məhəmməd Qazi bəydən yüksək rütbəli məmurlara rəiyyətdən divan üçün vergi toplanarkən haqsızlığa, məmurların rəiyyətin gəlirini yerindəcə müəyyənləşdirmədən onlara vergi qoymasına, onları soymasına yol verməməyi tapşırmağı tələb edirdi. Cərimə edərkən dəftərlərdə əksini tapmış qayda-qanunlardan kənara çıxmamaq tövsiyə olunurdu[114]. Bu sənəddən aydın olur ki, Qazi bəyin Güştəsbi və Salyan vilayətlərinin valisi təyin edilməsinə səbəb rəiyyətin narazılığı və geniş zəhmətkeş kütlələrinin feodalların istismar və zülmünə, məmurların özbaşınalığına qarşı mübarizəsinin güclənməsi olmuşdur. Fərmanda feodal hakiminin ideologiyası və ruhanilərin dövlət işlərindəki rolu, habelə, Şirvanşahlar dövlətində inzibati idarəetmə sisteminə dair bəzi məlumatlar da əksini tapmışdır.

## SULTAN MAHMUD İBN QAZİ BƏY

Məhəmməd Qazi bəy h. 907-ci ildə (1502-ci ilin birinci yarısı) öldürüldükdən sonra Şirvanşahlar taxtını onun qiyamçı oğlu, mənbələrdə «yalançı və qan içən müstəbid» adlandırılan Sultan Mahmud ibn Qazi bəy tutdu. Münəccimbaşının məlumatına görə, onun hakimiyyəti cəmi bir neçə gün - Şirvan əhalisi üsyan qaldıraraq Gilana, onun əmisi Şeyx İbrahimə (Şeyxşaha) sifariş göndərərək, onu Şirvana qayıdıb, Şirvanşahlar taxtına sahib durmağa dəvət edənədək çəkdi. Cənnabi xəbər verir ki, Sultan Mahmud Şirvanşahlar taxtında bir neçə ay oturmuşdur. Şeyxşahın Şirvana qayıtdığını və xalqın onun tərəfinə keçdiyini bilən Sultan Mahmud ölkəni tərk edərək, Azərbaycana, Şah İsmayılın yanına qaçdı və orada sığınacaq tapdı[115].

Sultan Mahmudun hakimiyyəti cəmisi bir neçə ay çəkmişdir. Bakı dəfinəsində h. 907-ci ildə (1502-ci ilin birinci yarısı) kəsilmiş sikkələr qalmışdır. Sikkənin üz tərəfində üç sətirlik yazı vardır: 907-ci ildə Şamaxıda kəsilmişdir və «Əlahəzrət Sultan Mahmud, allah onun hakimiyyətini əbədi etsin». Əks tərəfdə isə ənənəvi din rəmzi və dörd xəlifənin adı həkk olunmuşdur. Bakı dəfinəsində bu şirvanşahın adından h. 908 (1502)-ci ildə kəsilmiş eyni legendalı sikkə nüsxələri də tapılmışdır. Lakin onların üz tərəfində «sultan» adının üstündə [adil] sözü var[116].

## II ŞEYX İBRAHİM (ŞEYXŞAH) İBN SULTAN MƏHƏMMƏD QAZİ

Şah İsmayıldan qaçaraq Gilana gedən Şeyxşah h. 908 (1502)-ci ildə Şirvana qayıdaraq, mübarizəsiz Sultan Mahmudun tərk etdiyi Şirvanşahlar taxtına çıxdı. Şahgəldi ağa Şirvanı tərk etməyə məcbur oldu[117]. Şirvan əhli Şeyxşahın ədalətli hökmranlığından razı idi. Bir qədərdən, ehtimal ki, üç ildən sonra h. 911 (1505/6)-ci ildə Şah İsmayılın sarayında yaşayan Sultan Mahmud əmisini devirib yenidən Şirvanda hakimiyyəti ələ keçirmək fikrinə düşdü. O, tezliklə şirvanşahlar taxtını özünə qaytarmaq üçün Şah İsmayılın qızılbaş qoşun dəstəsi ilə Şirvana gəldi. Sultan Mahmud Şeyxşahın öz qoşunları ilə sığındığı Gülüstan qalasını üç aydan çox mühasirədə saxladı. Şeyxşahın vəziyyəti olduqca ağır idi. Lakin təsadüf onu məğlubiyyətdən və ölümdən qurtardı. Sultan Mahmudun sevimli qulu məmlük Qara bəy ağası yuxuda ikən onun başını kəsərək, elə həmin gecə Şeyxşaha göndərdi. Sevincək Şeyxşah təbil vurub bayraqları açmağı əmr edərək, səhərin açılmasını gözləmədən qoşunları ilə qaladan çıxdı. Qəfil yaxalanmış qızılbaşlar qaçmağa üz qoydular. Lakin onların çoxu əsir düşdü və öldürüldü. Y. A. Paxomovun fikrincə, Sultan Mahmudun səfəvi qoşunları ilə Şirvana yürüş edərək Şamaxını və Şəbəranı tutması numizmatik məlumatlara görə h. 911 (1505/6)-ci ildə baş vermişdir. Belə ki, həmin vaxt bu şəhərlərdə kəsilən sikkələr Şeyxşahın deyil, Şah İsmayıl Səfəvinin adından zərb edilmişdir. Y. A. Paxomov bundan belə bir nəticə çıxarmışdır ki, «Əvvələn, Sultan Mahmuda yardım göstərən Səfəvilər

təkcə Şamaxını deyil, Şəbəranı da zəbt etmişdilər, ikincisi, bu yardımın əvəzində Sultan Mahmud özünü Şah İsmayılın təbəəsi kimi tanımağı və onun adından sikkə kəsdirməyi öhdəsinə götürmüşdü»[118]. Bizcə, Sultan Mahmud öldürüldükdən sonra Şeyxşah Şirvan taxtında ancaq Şah İsmayılın ali hakimiyyətini qəbul etmək və onun adından pul kəsdirməklə möhkəmlənə bilmişdi. O, yalnız bundan sonra asudə hakimiyyət sürməyə başladı. Beləliklə, Sultan Mahmudun səfərinin h. 911 (1505/6)-ci ildə baş verməsinə dair Y. A. Paxomovun fikri ilə razılaşmaq olar. Lakin mənbələr Sultan Mahmudun Şeyxşahın olduğu qalanı üç ay ərzində mühasirədə saxladığını xəbər verirlər. Şeyxşahın adından, demək olar ki, iki il [h. 911-912 (1505/6-1506/7)-ci illər] sikkə kəsilməməsi isə ehtimal etməyə imkan verir ki, Şeyxşah qızılbaşların Gülüstan qalası yaxınlığında məğlubiyyətindən sonra yalnız Şah İsmayılın ali hakimiyyətini tanıdıqdan və ona tabe olduqdan sonra Şirvanda hakimiyyətini davam etdirmişdir.

Lakin Şeyxşah Şirvanı müstəqil idarə etmək fikrindən əl çəkməmişdir. Şah İsmayılın h. 913 (1507/8)-cü ildə zülqədərlər tayfasının iğtişaşını yatırtmaq üçün Məraş vilayətinə işğalçılıq yürüşündən istifadə edən Şeyxşah İsmayıla ödəməli olduğu xəracı verməkdən boyun qaçırdı və onun elçilərinə ehtiram göstərmədi. Həmin vaxtdan, yəni h. 913 (1507/8)-cü ildən Şeyxşah yenidən öz adından sikkə zərb etdirməyə başladı. Şah İsmayıl Şeyxşahın xərac vermək istəməməsi ilə əlaqədar h. 915 (1509)-ci ilin sonlarında ikinci dəfə Şirvana yürüş etdi. O, Kür çayına çatıb onu ponton körpülərlə keçdi. Bu xəbər bütün Şirvana yayıldı. Şahın gəlməsini eşidən Şeyxşah qüvvələr nisbətini nəzərə alıb Buğurt qalasına çəkildi. İsmayıl əmirlərini Şamaxını tutmağa göndərdi, özü isə qoşunlarının bir hissəsi ilə Bakıya yollandı. Bakı qalasının komendantı (kütüval) hədiyyələrlə şahın qərargahına gələrək itaət göstərdi va şəhərin açarlarını ona təqdim etdi. İsmayıl Bakıdan Şəbərana getdi. Bu vilayətin valisi və digər Şirvan qalalarının hakimləri də şahın hüzuruna tələsərək, öz itaətlərini bildirdilər və buna görə mükafata və fəxri paltara layiq görüldülər. Şah həmin qalaların idarə olunmasını Ləl̇ə bəy Şamluya həvalə etdi. Bundan sonra İsmayıl Dərbəndə yaxınlaşdı. Dərbənd istehkamlarının möhkəmliyinə güvənən əmirlər Yar Əhməd ağa və Məhəmməd bəy şahın qarşısına çıxmadılar və ona hədiyyə göndərmədilər. Şah İsmayıl Dərbəndi mühasirəyə almağa başladı. Qızılbaşlar qalanın bürcləri altından 12 lağım atdılar. Mühasirədə olan dərbəndlilər qızılbaşların üstünə daş və ox yağdırırdılar. Müqavimət göstərməyin mənasızlığını görən Yar Əhməd ağa və Məhəmməd bəy boyunlarında qılınc, çiyinlərində kəfən İsmayılın qərargahına gələrək, təslim olmağa razılaşdılar. Şah Mənsur bəyi Dərbənd hakimi təyin etdi. İsmayıl Şeyx Heydərin 22 il Təbərsəranda qalmış cənazəsinin qalıqlarını Ərdəbilə köçürüb orada ailəvi türbədə dəfn etməyi əmr etdi. Şirvanı yenidən özünə tabe edən Şah İsmayıl Kürü keçib qışı Qarabağda keçirdi, baharda isə Təbrizə qayıdaraq, Xorasan üzərinə yeni yürüşə hazırlaşmağa başladı. Şirvana səfərindən sonra şahın uğurlarını və qələbələrini görən Şeyxşah onunla yaxınlaşmaq qərarına

gəldi və xərac verməyə razı oldu. Şah İsmayıl h. 916 (1510/11)-cı ildə Xorasanda Şeybək xana qalib gəldikdə Şeyxşah, digər hakimlər kimi, İsmayılın sarayına səfirlik göndərərək, onu təbrik etdi. Həmin vaxtdan şahla dostluq münasibətləri kəsilmirdi. İsmayılın Şeyxşaha iltifatlı münasibəti şah h. 920 (1514)-ci ildə türk sultanı Səlimlə Çaldıran vuruşmasında məğlubiyyətə uğradıqdan az sonra özünü göstərdi. H. 924 (1518)-cü ildə Təbriz sarayında şahzadə Sam Mirzənin anadan olması təntənə ilə qeyd edilərkən, şah Şeyxşahla danışıqlar aparmaq üçün əmirləri Mirzə şah Hüseyni və Cəmaləddin Məhəmmədi Şirvana göndərdi. Onlar şirvanşahı İsmayılın ona yaxşı münasibət bəslədiyinə əmin etdilər və Təbrizə gəlmək dəvətini yetirdilər. Şeyxşah cavabında onlarla birlikdə İsmayıla cins atlar, Bərdə qatırları, türk və Avropa parçaları, çoxlu pul, daş-qaş yolladı və oğlunu Səfəvi sarayına göndərməyi, əgər şah əmr edərsə, şəxsən özünün gəlməsini vəd etdi. Həsən bəy Rumlunun məlumatına görə, Şeyxşah h. 924 (1518)-cü ildə başqa hakimlərlə birlikdə, şahın Təbrizdəki sarayına gəlmişdir[119]. Görünür, Şeyxşah şahın yanına ikinci dəfə onun Marağa yaxınlığındakı yay iqamətgahı Səhəndə gəlmişdir. Belə ki, Münəccimbaşı yazır: «O [Şeyxşah], Şah İsmayılla sülhə can atır, ona qılıq göstərirdi və h. 927 (1521)-ci ildə onun hüzuruna gəlmişdi». Şah İsmayıl ona böyük iltifat və ehtiram göstərdi, Şirvanı idarə etmək haqqında yeni fərmanlar verərək, öz ölkəsinə yola saldı. Şirvanşah söz verdiyi kimi, oğlu Sultan Xəlili qiymətli hədiyyələrlə Təbrizə İsmayılın sarayına göndərdi və dostluq münasibətlərini daha da möhkəmləndirmək məqsədilə şahın qızını oğluna istədi. Təklif qəbul edildi və İsmayıl qızı Pərixan xanımı şirvanşahın oğlu Sultan Xəlilə* nişanladı. H. 919 (1523)-cu ildə Şah İsmayıl Şirvanşah Şeyxşahın qızı ilə evlənmək istədiyini bildirdi. O, həmin məqsədlə əmir Camaləddin Məhəmmədi və Dəmir bəyi qiymətli hədiyyələrlə Şamaxıya göndərdi. Bu təklifdən son dərəcə məmnun qalan Şeyxşah şahın elçilərini böyük ehtiramla qəbul edib, qızını onlarla və məiyyətin müşayiətilə şaha göndərdi. H. 929-cu il zilhiccə ayının 25-də (5 noyabr 1523-cü il) Təbriz yaxınlığında Şah İsmayılla Şirvanşahın qızının dəbdəbəli toyu oldu[120].

Münəccimbaşının məlumatına görə, Şeyxşah 22 il «ədalətlə və tərəfgirsizliklə hökmranlıq sürmüş və h. 930 (1524)-cu ildə öz əcəli ilə ölmüşdür». Mənbələrdə o, müdrik, ədalətli, mömin və üləmalara hamilik edən bir hökmdar kimi xatırlanır[121]. O, yeddi oğul qoyub getmişdir. Oğlanlarından biri - Məhəmməd Mirzə sonralar I Təhmasibin sarayına gəlmiş və h. 935 (1528/9)-ci ildə Zurabad yaxınlığında özbəklərlə döyüşdə həlak olmuşdur. Şeyxşahın başqa bir oğlu - Müzəffər Mirzə qohumu Şamxalın ölkəsinə getmiş və orada qalaraq onun himayəsində yaşamışdır[122]. Mənbələrdə Şeyxşahın bir oğlunun Dağıstana, qohumu Şamxalın yanına qaçaraq onun himayəsində yaşamış azyaşlı Şahruxun atası Fərrux Yasar, yaxud Fərrux Mirzə və ya Sultan Fərruxun da adı çəkilir[123]. Hürşah

---

* Dorn Şeyxşahın oğlunu səhvən Müzəffər Sultan adlandırır.

Şeyxşahın oğlu Müzəffər Mirzənin adı xatırlanır. Ehtimal ki, o bu adla Fərrux Yasarı nəzərdə tutmuş, yaxud da o, Şeyxşahın dördüncü oğlu olmuşdur. Mənbələrdə Şeyxşahın qalan oğlanlarının adı çəkilmir. Şirvanşah II Şeyx İbrahimin adından Şamaxıda h. 908-910 (1502-1504/5)-cu illərdə, sonralar isə h. 913 (1507/8)-cü ildən başlayaraq, 930 (1523/4)-cu ilədək - onun ölümünə qədər hər il gümüş sikkələr kəsilmişdir. Sikkələrdə aşağıdakı kitabələr həkk olunmuşdur. Üz tərəfində [Sultan] əlahəzrət [Şeyx İbrahim]. Əks tərəfdə: [Zərbxana] Şamaxı [il] və ənənəvi din rəmzi. H. 920 (1514/5)-ci ildə kəsilmiş pulların əks tərəfində sünnü əvəzinə, şiə rəmzi və epitetləri göstərilmədən on iki imamın adı çəkilir[124] ki, bu da Səfəvilərin, ehtimal ki, Şah İsmayılın xatirinə şiəliyi qəbul etmiş şirvanşah üzərində nüfuzunu göstərir.

## II XƏLİLÜLLAH İBN II ŞEYX İBRAHİM (ŞEYXŞAH)

II Şeyx İbrahim (Şeyxşah) h. 930 (1524)-cu ildə öldükdən sonra Şirvanı onun böyük oğlu, II Xəlilüllah da adlandırılan Sultan Xəlil idarə etməyə başladı. O, Şah İsmayılın qızı Pərixan xanımla evlənməklə, onun himayəsinə nail oldu. Münəccimbaşının təbirincə, «qardaşlarından heç biri onun əleyhinə çıxa bilmədi»[125].

O, mənbələrdə ağıllı və bacarıqlı, dəbdəbəli səfərləri, şərab və əyləncəni sevən hökmdar kimi səciyyələndirilir. Onun alim və şairlərlə ünsiyyəti sevməsi, son dərəcə səxavətli olması da qeyd edilir[126]. Şirvanşahın Təbriz sarayı ilə əlaqələri daha da möhkəmləndi. Şah İsmayıl h. 930 (1524)-cu ildə öldükdən sonra Şirvanşaha münasibət dəyişdi. Şah İsmayılın Səfəvi taxtına çıxan gənc oğlu və varisi I Təhmasib bacısının əri olmasına baxmayaraq, Xəlilüllahdan şübhələnməyə başladı. Şah Təhmasib Xəlilüllaha etibar eləmir, Şirvanşahlar dövlətini özünə tabe etdirməyə, sülaləni aradan qaldırmağa hazırlaşırdı. Şərəf xan Bidlisinin məlumatına görə, Şah Təhmasib h. 939 (1532-33)-cu ildə Şirvanın idarə olunmasını qardaşı Əlqas Mirzəyə tapşırdı.

Bədr xan Ustaclını isə ona qəyyum təyin etdi. Şahın Şirvanşaha inamsızlığı sonuncunun şaha xəyanət edən və Təbrizi tutan türk sultanı Süleyman Qaziyə qoşulmuş Biye Piş Gilan hakimi, Əmire-Dibac adlandırılan Sultan Müzəffərə sığınacaq verməsindən sonra daha da dərinləşdi. Sultan Azərbaycanı tərk edəndən sonra, Əmire-Dibac qızılbaşlarla vuruşmada məğlub edilərək Gilandan qovuldu və dəniz yolu ilə Şirvana qaçaraq, şirvanşahın himayəsinə sığındı. Şirvanşah onun bağışlanmasını şahdan iltimas edəcəyini vəd etdi. Lakin Xəlilüllah tezliklə öldü və öz vədinə əməl edə bilmədi. Təhmasib öz adamlarını Şirvana göndərərək, Əmire-Dibacı gətirmələrini əmr etdi. Şirvan əmirləri buna mane ola bilmədilər. Şahın adamları onu yaxalayıb Təbrizə gətirdilər. Şərəfxan Bidlisinin məlumatına görə, «Onu [şahın] əmri ilə taxta qəfəsə saldılar, [qəfəsi] cümə məscidinin minarəsindən asaraq, neft töküb yandırdılar»[127]. Şirvanşah Şirvanda 12 ilə yaxın hökmranlıq

sürərək h. 942-ci il cəmadiyül əvvəl ayının 9-da, cümə günü (6 noyabr 1535-ci il) vərəsə qoyub getmədən öldü[128]. II Xəlilüllahın bütün hakimiyyəti illərində - h. 930-942 (1524-1535)-ci illər - Şamaxıda onun adından gümüş sikkələr kəsilmişdir[129].

## II FƏRRUX YASAR İBN ŞEYXŞAH

1934-cü ildə Salyandan Bakıya II Şeyx İbrahim və II Xəlilüllahın adından Şamaxıda kəsilmiş 906 gümüş şirvanşah sikkəsindən ibarət dəfinə gətirilmişdir. Onların arasında h. 934 (1527/8)-cü ildə Y. A. Paxomovun fikrincə, «başqa mənbələrdən məlum olmayan»[130] Fərrux Yasarın adından kəsilmiş bir sikkə də var idi. Lakin Fərrux Yasar ibn Şeyxşahın adı Şahruxun atası kimi, Həsən bəy Rumlu və Münəccimbaşıda - «Şahrux ibn Sultan Fərrux ibn Şeyxşah»[131], Cənnabidə - «Şahrux ibn Fərrux Mirzə», Şərəf xan Bidlisidə - «Şahrux ibn Fərrux Yasar»[132] - çəkilir. Beləliklə, yazılı mənbələrə görə, Fərrux Yasar, yaxud Sultan Fərrux Şeyxşahın oğlu, II Xəlilüllahın qardaşı və Şahruxun atasıdır.

Fərrux Yasarın adı çəkilən h. 934 (1527/8)-cü ilə aid eynilə belə bir sikkə 1935-ci ildə [Bakıda tapılmış, II Xəlilüllah və Şahrux adından Şamaxıda kəsilən xırda gümüş şirvanşah sikkələri dəfinəsində (459 nüsxə) aşkara çıxarılmışdır[133]. Numizmatik məlumatlar göstərir ki, II Fərrux Yasar h. 934 (1527/8)-cü ildə Şirvanda hakimlik edən və Şamaxıda sikkə zərb etdirən qardaşı şirvanşah II Xəlilüllahla eyni vaxtda pul kəsdirmişdir. Ehtimal ki, həmin vaxt Şah İsmayılın ölümündən istifadə edən Fərrux Yasar hakimiyyəti qardaşı şirvanşah II Xəlilüllahdan qəsb etmişdir.

Münəccimbaşının əsərində buna işarə edilir. O, xəbər verir ki, «Şah İsmayılın qızına evlənən Sultan Xəlil ibn Şeyxşah onun himayəsinə nail oldu. Qardaşlarından heç biri onun əleyhinə çıxa bilmədi»[134]. Göründüyü kimi, II Fərrux Yasar h. 934 (1527/8)-cü ildə bir neçə aylığa hakimiyyəti qardaşı II Xəlilüllahdan tutub almış və bu müddət ərzində öz adından sikkə zərb etdirə bilmişdir.

Ehtimal ki, Xəlilüllah tərəfindən qovulduqdan sonra, onu Müzəffər Mirzə adlandıran Hürşahın məlumatına görə, Fərrux Yasar Dağıstana, qohumu olan «Şamxal ölkəsi»nə qaçmış və onun himayəsində yaşamışdır*. Orada onun Şahrux adında oğlu doğulmuşdur. Özündən sonra vərəsəsi olmayan II Xəlilüllah öldükdən sonra Şirvan feodalları Şahruxu Şamaxıya gətirərək, Şirvanşahlar taxtına oturtmuşlar[135]. Beləliklə, numizmatik məlumatlar qısa müddət, ehtimal ki, bir neçə ay ərzində Şirvanda hakimiyyət sürmüş indiyədək elmə məlum olmayan şirvanşah II Fərrux Yasarı üzə çıxarmağa imkan vermişdir. Bundan sonra Şirvanda h. 942 (1535)-ci ilə qədər yenidən II Xəlilüllah hökmranlığını davam etdirmişdir.

---

* Şirvanşahlar hələ I Fərrux Yasarın vaxtında Dağıstanın feodal hakimlərilə qohumluq münasibətlərində olmuşlar. (Bax: Dağıstan tarixi, c. I, s. 213, rusca).

## ŞAHRUX İBN FƏRRUX YASAR

Özündən sonra vərəsəsi olmayan II Xəlilüllah h. 942 (1535)-ci ildə öldükdən sonra Şirvanın feodal əyanları Fərrux Yasarın oğlu və Şeyxşahın nəvəsi on beş yaşlı Şahruxu təcili Dağıstandan Şamaxıya gətirərək, Şirvanşahlar taxtına oturtdular[136]. H. 942 (1535/6)-ci ildə Şamaxıda Şahruxun adından gümüş sikkə kəsilmişdir[137]. Bu dövrdə Dərbəndi Şirvanşahlar xanədanı tənəzzülə uğradı. Şirvanda hakimiyyət, əslində dövləti azyaşlı Şahruxun adından idarə edən feodal zadəganlarının - başda vəkil Hüseyn bəy Lələ olmaqla, Şirvan əmirlərinin əlində idi. Mənbələrdə heç bir qayda-qanun qalmamış Şirvanda feodal zülmü və özbaşınalığından, xalq kütlələrinin ağır vəziyyətindən, «ölkədə açıq-aşkar ictimai hərc-mərclik yaranmasından» xəbər verilir. Tezliklə, h. 944 (1537)-cü il qışın əvvəllərində Şirvanda özünü Şeyxşahın oğlu Sultan Məhəmməd adlandıran qələndərin başçılığı ilə xalq kütlələrinin üsyanı başlandı. O, başına saysız-hesabsız dəstələr toplayaraq Salyanı tutdu və Şamaxıya doğru hərəkət etdi. Aralarında birlik olmadığı, qoşunlar vuruşmaq istəmədiyi üçün Şahrux əmirləri və əyanları ilə birlikdə üsyançıların qabağına çıxmaq iqtidarında deyildi. Şahrux onlarla birlikdə Şamaxını tərk edərək Buğurt qalasına qaçdı. Qələndər şəhəri döyüşsüz tutdu. Lakin möhkəm rəhbərlik və mütəşəkkillik olmadığından, üsyançılar qayda-qanun yarada bilmədilər və Şirvan əhalisinin narazılığına səbəb oldular. Bir neçə gün Şamaxıda qaldıqdan sonra üsyançılar arasında ixtilaf düşdü və onlar şəhəri tərk edərək, Salyana yollandılar. Qələndərin geri çəkilməsi xəbərini alan Şahrux əmirləri ilə Buğurt qalasından çıxaraq üsyançıları təqib etməyə atıldı. Salyan yaxınlığında onlara çataraq, döyüşdə məğlub etdilər, qələndəri əsir tutub öldürdülər[138]. Sosial xarakterinin aydın olmamasına baxmayaraq, kortəbiiliyi və kütləviliyi yalançı hökmdarın zühuru və dərvişlərin iştirakı bu hərəkatı Ön Asiyanın XIII-XVI əsrlər kəndli üsyanlarına aid etməyə imkan verir[139]. Üsyan yatırıldıqdan sonra, II Xəlilüllahın qələndəri şirvanşah kimi tanıyan və Səfəvi sarayının tapşırığı ilə fəaliyyət göstərən dul arvadı Pərixan xanım Təbrizə gedərək, Şirvanın ağır daxili vəziyyəti və onu asanlıqla ələ keçirməyin mümkün olması barədə qardaşı şah Təhmasibə məlumat verdi[140]. Üsyan yatırıldıqdan sonra Şirvan əmirləri və zadəganları əhaliyə zülm və qəddarlığı daha da gücləndirərək son həddə çatdırdılar. Bu zaman Qorçubaşı Padar bir qrup hərbçi ilə Təbrizə gəldi, Təhmasibə şikayətlə müraciət edərək, ondan Şirvanın işlərinə qarışmasını xahiş etdi.[141]. Şahruxun məktub göndərərək sədaqətini bildirdiyi türk Sultanının ciddi təhlükə doğurması Təhmasibi təcili tədbirlər görməyə vadar etdi[142]. Şirvanı çoxdan bəri Səfəvilər dövlətinə birləşdirmək fikrinə düşən şah Təhmasib əlverişli bəhanə tapdı. Həsən bəy Rumlunun təbirincə «... Şah Şahruxun ölkəni pis idarə etməsi, onun əmirlərinin bəd əməlləri, ordusundakı oğurluq, bu ölkədəki imansızlıq və dini təsisatlara etinasızlıq haqqında eşitmişdi». Onda şah ustaclı, qacar və talış tayfalarının əmirlərinə Əlqas Mirzənin başçılığı altında Qarabağ və Muğanın qeyri-

nizami dəstələri və iyirmi minlik qızılbaş qoşunu ilə Şirvanı tutmağa getməyi əmr etdi. H. 945 (1538)-ci ilin baharında Əlqas Mirzə Qorçubaşı Padarın müşayiətilə Kürü keçdi, Şirvana girərək, 300 nəfər qarnizonla birlikdə Surxab və Qəbələ qalalarını tutdu. Sonra onlar Şirvanın ən möhtəşəm qalası olan Gülüstanı mühasirəyə aldılar. Şəhərin komendantı (kütval) Nemətulla bəy idi. Lakin qızılbaş əmirləri qoşunların bir hissəsini Gülüstan qalasının yanında qoyaraq, qalanın şirvanşah Şahruxun vəkil Hüseyn bəy Lələ və Şirvan zadəganları ilə sığındığı yüksək zirvədə yerləşən əlçatmaz Buğurt qalasına tərəf döndərdilər. Qalanın müdafiəçilərinin müqavimətinə, Buğurt qalası yanında Hüseyn bəylə qızılbaşlar arasındakı döyüşün nəticəsinə baxmayaraq, sonuncular şirvanlıları məğlubiyyətə uğradaraq, Gürcü qalasını da ələ keçirdilər. Əlqas Mirzənin dörd ay (Cənnabi və Münəccimbaşıya görə yeddi, Hürşaha görə doqquz ay) mühasirədə saxladığı Şahrux və onun əmirləri məhrumiyyətlərə və vəziyyətlərinin ağırlığına baxmayaraq, Buğurt qalasında mərdliklə müdafiə olunurdular. Bu vaxt öz qoşunları ilə mühasirədəkilərin köməyinə gələn Şəki hakimi Dərviş Məhəmməd xan Buğurt qalasının yanında məğlubiyyətə uğradı və döyüşçülərinin çoxunu itirərək geri çəkildi. Buğurtun bürcləri toplarla dağıdılıb uçurulduqdan sonra Dərviş Məhəmməd xanın köməyindən ümidi kəsilən qala müdafiəçiləri müqaviməti dayandırdılar. Vəkil Hüseyn bəy bildirdi ki, şah gəlsə, təslim olmağa hazırdırlar. Saraya göndərilən qasid şahı Mərənddə tapdı. Cənnabinin məlumatına görə, Buğurta gələn şah Təhmasib adamlarını Şahruxun yanına göndərərək, ona aman, böyük iqta və müxtəlif hədiyyələr veriləcəyini vəd etdi. Lakin bunların hamısı yalan çıxdı. Sonra şah Şamaxının bütün sərkərdələrinə və rəislərinə hər cür nemətlər vəd edərək, onlara xəyanət edərək aldatdı. O, şəhərin yüksək rütbəli sakinlərindən zorla iri məbləğdə pul alaraq, sonra onların çoxunun edam olunmasını əmr etdi. Ertəsi gün Şahrux, Hüseyn bəy, Məhəmməd bəy və Şirvan əmirləri hədiyyələrlə Təhmasibin hüzuruna gələrək, saraylarının və xəzinələrinin açarlarını itaətlə şahın vəkillərinə təqdim etdilər[143]. Şirvanşahların hələ XIII əsrdən Buğurt qalasında saxlanılan xəzinəsinə Təhmasib sahib oldu[144]. Şahrux, Hüseyn bəy və Məhəmməd bəy həbsxanaya salındı. Buğurt qalasını uçurmaq əmr edildi. H. 945-ci il cəmadiyül əvvəl ayının üçündə cümə günü (27 sentyabr 1538-ci il) Gülüstan qalasının kütvalı Nemətulla bəy şahın hüzuruna gəlib qalanı ona təslim etdi. Ayın on yeddinci günü Hüseyn bəy Lələ edam olundu. Şərəf xan Bidlisinin yazdığına görə, «Qızılbaşların amansız qılıncları ilə qalada mühasirədə olanlardan altı yüzə yaxın adam öldürüldü. Hətta, Şah Təhmasib babası Sultan Heydərin qan intiqamı olaraq, bir neçə Şirvan əyanını şəxsən öz əli ilə qətlə yetirdi». Şah Təhmasib Şirvanı iqta kimi qardaşı Əlqas Mirzəyə verdi, Şirvanşah Şahruxu da əsl qul kimi qandalladaraq, özü ilə götürüb Təbrizə qayıtdı və h. 946 (1539)-cı ildə onu gizlincə edam etdirdi, «onun həyatı şahın əmri ilə söndü»[145].

Tahmasib Şirvanı tutduqdan sonra Şirvanşahlar xanədanının devrildiyini elan etdi və Şirvanı Səfəvilər dövlətinə birləşdirdi. Ölkə şahın qardaşı bəylərbəyi

Əlqas Mirzənin idarə etdiyi vilayətə çevrildi. Şirvanın, demək olar ki, bütün zadəganları məhv edildi, onun torpaqları qızılbaş tayfalarının başçılarına, əmirlərə paylandı. H. 941 (1535)-ci ildə Təbrizi tutmuş türk sultanı Süleymanın tərəfinə keçən Əmir Qazi xan Təkəli sonuncuya xəyanət edərək, 6 minlik köçəri təkəli tayfası ilə Sürlük yaylağında şahın yanına gəldi. Şirvan vilayətinin bir hissəsi-Salyan, Mahmudabad və Bakı mahalları tiyul kimi ona bağışlandı. Lakin müstəqillik ənənələrinə sadiq qalan Şirvan əhalisi uzun müddət Şirvanşahlar dövlətinin məhv olması fikri ilə razılaşmayaraq, bir sıra yerlərdə qızılbaşlara müqavimət göstərirdi. Qazi xan Təkəli inadlı və şiddətli mübarizədən sonra h. 947 (1540/1)-ci ildə Bakı qalasını tutaraq, əhalidən xeyli adam qırdı. Lakin h. 950 (1543/4)-ci ildə Təhmasibin sui-qəsddə iştirak etməsindən şübhələndiyi Qazi xan Təkəli şahın əmrinə əsasən Əlqas Mirzə tərəfindən qardaşları ilə birlikdə Şirvanda edam olundu[146].

Şirvandakı sonrakı hadisələr türk müdaxilələri və Şirvanşahlar nəslindən olan Bürhanəli Sultan, Əbu-bəkr Mirzə, Qasım Mirzə və b. şəxslərin başçıları ilə şirvanlıların Səfəvilərə qarşı üsyanları ilə bağlıdır.

## § 2. Şirvanda Səfəvilər əleyhinə üsyanlar və Şirvanşahlar dövlətini bərpa etmək uğrunda mübarizə (1548-1578-ci illər)

### BÜRHANƏLİ SULTAN İBN SULTAN XƏLİL

Səfəvilər 1538-ci ildə Şirvanşahlar dövlətini tabe etdikdən sonra, Şirvanda 1578-ci ilə qədər davam edən bir sıra üsyanları yatırmalı oldular. Şirvanın müstəqilliyinin ləğvindən narazı olan yerli zadəganlar öz dövlətlərinin müstəqilliyinin bərpa edilməsinə çalışırdılar. Əhalinin şah və onun canişinləri əleyhinə qaldırdıqları bir sıra üsyanlara yerli zadəganların nümayəndələri başçılıq edirdilər.

Şahruxun əmisi oğlu Bürhanəddin, yaxud Bürhanəli Sultan ibn Sultan Xəlil ibn Şeyxşah uzun müddət Dağıstanda qaytaqlı qohumlarının yanında qaldıqdan sonra böyük qoşun toplayaraq h. 951 (1544)-ci ildə Əlqas Mirzə ilə mübarizə aparmaq üçün Şirvana doğru hərəkət etdi. Əlqas Mirzə ilə bir neçə vuruşmadan sonra məğlub olan Bürhanəli II Sultan Süleymandan kömək almaq məqsədilə Türkiyəyə getdi. Bürhanəlinin köməyilə öz düşməni olan Səfəvilərlə mübarizə aparmağa və Şirvanı tutmağa ümid bəsləyən Sultan onu böyük ehtiramla qarşıladı. Sultan Süleyman ona xeyli silahlı qüvvə verdi. Lakin Bürhanəli Şirvana yaxınlaşarkən, qızılbaşların böyük orduya malik olmaları xəbərini aldı. Buna görə də, o, sultanın qoşunlarını Türkiyəyə qaytardı, özü isə Dağıstana gedərək, Şirvana

yenidən yürüş etmək üçün məqam gözləməyə başladı. H. 955 (1548)-ci ildə sultan Süleyman böyük ordu ilə Azərbaycana, Şah Təhmasibin üzərinə yürüş etdi. Təhmasib ölkənin içərilərinə çəkildi. Bürhanəli Dağıstandan hərəkət edərək sultan qoşunları ilə birləşdi. Sultan onu Şirvanı tutmaq üçün qoşun dəstəsi ilə irəli göndərdi[1].

Şirvanın bəylərbəyi Əlqas Mirzə h. 954 (1547)-cü ildə şah Təhmasibdən ayrılaraq onun əleyhinə vuruşmağa başladı. Krım xanının köməyinə baxmayaraq, məğlub olan Əlqas Mirzə Krıma qaçdı və oradan İstanbula, sultan Süleymanın yanına getdi.

Əlqas Mirzə qaçdıqdan və Şirvan tabe edildikdən sonra Təhmasib h. 954-cü ilin şaban ayında (1547-ci ilin oktyabrında) oğlu İsmayıl Mirzəni Şirvan bəylərbəyi təyin etdi[2]. Bürhanəli Qaytağı tərk edib Şirvana yollandı. İsmayıl Mirzə onun qarşısına çıxdı. Dərbənd yaxınlığındakı Filan kəndində qızılbaş qoşunu onunla döyüşə girdi, lakin Bürhanəli duruş gətirə bilməyib qaçdı. Qızılbaşlar onu təqib edərək xeyli döyüşçüsünü məhv etdi. Bu vaxt sultan Süleyman və Əlqas Mirzənin Cənubi Azərbaycana yürüş etmələri və Təbrizə tərəf getmələri xəbəri alındı. İsmayıl Mirzə Bürhanəlinin qoşunlarını təqib etməkdən əl çəkərək, atasına köməyə yollandı.

Bürhanəli dağlardan enib, h. 955-ci ilin cəmadiyüləvvəl ayında (1548-ci ilin iyununda) Şamaxını tutub böyük qənimət əldə etdi. O, türk qoşunlarının və dağlarda, meşələrdə gizlənmiş Şirvan döyüşçülərinin köməyilə Şirvan vilayətinin böyük bir hissəsini ələ keçirdi və Təhmasibin naiblərini oradan qovdu. Bürhanəli vali kimi iki il Şirvanda qaldı[3]. Sultan Süleyman h. 956 (1549)-cı ildə müvəqqəti olaraq Təbrizi tutdu və tezliklə Cənubi Azərbaycanı tərk etdi. Əlqas Mirzənin bu səfərdəki uğursuzluğu və bunun ardınca türk sultanı Süleymanla aralarının dəyməsi, onun yaxalanıb Qahqah qalasına salınması və şahın əmri ilə edam olunması Təhmasibə Şirvanı zəbt etmək üçün yenidən mübarizəyə başlamağa imkan verdi. Şah h. 956 (1549)-cı ildə Şirvanın idarə olunmasını Abdulla xan Ustaclıya tapşıraraq onu Bürhanın üzərinə göndərdi. Şərəf xan Bidlisinin sözlərinə görə, «[Abdulla xan] Kür sularını: keçəndə Bürhan qəribə təsadüf nəticəsində anadangəlmə xəstəlikdən öldü»[4]. Həsən bəy Rumlu və Şərəf xan Bidlisinin məlumatlarına görə, Bürhanəli h. 956 (1549)-cı ildə ölmüşdür[5]. Munəccimbaşıya görə isə Bürhanəli təqribən h. 958 (1551)-ci ildə vəfat etmişdir. Zeynaloğluna görə, Bürhanəli 1550-ci ildə dünyadan köçmüşdür[6]. Ehtimal ki, h. 956 (1549)-cı il tarixi daha dəqiqdir.

Həsən bəy Rumlu xəbər verir ki, Bürhanəli öldükdən sonra Şirvanın zadəganları onun meyidini gizlətmişlər. Lakin Şirvan bəylərbəyi Abdulla xan Ustaclı onu tapmış, qəbirdən çıxararaq başını kəsmişdir[7]. Bürhanəlinin özündən sonra Şirvanda hakimiyyət sürə biləcək böyük uşaqları olmamışdır. Ailəsi, azyaşlı uşaqları və qohumları isə Səfəvilərdən qorxaraq Dağıstana qaçdılar.

## MEHRAB MİRZƏ

Bürhanəlinin ölümündən sonra Şirvan əyanları Dərbəndi Şirvanşahlar nəslindən Mehrab adlı birisini Şirvan hakimi seçdilər. Səfəvilər əleyhinə mübarizəyə başçılıq edən Mehrab Mirzə Şirvan qoşunları ilə Şirvan sərhəddini keçərək, Kür sahillərinə enib Siqnax şəhərini tutdu. Abdulla xan Mehraba hücum etdi, müqavimət göstərməyə gücü çatmayan Mehrab qaçdı və Şirvan vilayəti yenidən qızılbaşların əlinə keçdi[8].

## QURBANƏLİ

Abdulla xan tezliklə şirvanlıların yeni bir üsyanını yatırmalı oldu. Şirvan zadəganları Mehrabın qohumu Qurbanəlinin başçılığı ilə üsyan qaldıraraq, Xəzər dənizi adalarından* birindəki Derov kəndinə qaçdılar. Abdulla xan çoxlu qızılbaş döyüşçüsü ilə atla üzərək adaya çatmış, onlara hücum edərək, Qurbanəlini və üsyançıların əksəriyyətini öldürmüş, onların mallarını ələ keçirib Şamaxıya qayıtmışdır[9]. Abdulla xan şirvanlıların bir sıra üsyanlarını yatıraraq Şirvanda öz hakimiyyətini möhkəmləndirdi.

## QASIM MİRZƏ

Sultan Süleyman 1554-cü ildə Azərbaycana dördüncü dəfə yürüş etdi. Həmin il eyni vaxtda Şirvanda Səfəvilərə qarşı sultanın yardım göstərdiyi yeni üsyan baş verdi. Şirvanşahlar nəslindən olub İstanbulda gizlənən Qasım Mirzə içərisində odlu silahla silahlanmış yeniçərlər olan osmanlı döyüşçü dəstəsi ilə Qəffə vasitəsilə Şimali Qafqaza, oradan da Dağıstandan keçərək, Dərbəndə gəlib Şirvana soxuldu. Şirvan zadəganları və əhalisi vilayətin bəylərbəyi Abdulla xan Ustaclıdan uzaqlaşaraq, Qasım Mirzəyə qoşuldular. Abdulla xanın qızılbaşları Təngə kəndinin yaxınlığında Qasım Mirzənin başçılıq etdiyi Şirvan üsyançılarına və Osmanlı döyüşçülərinə hücum etdi[10]. Üsyançılar dərədəki möhkəmləndirilmiş istehkama sığınmışdılar*. Bu, osmanlı qoşunlarına qızılbaşlara davamlı müqavimət göstərməyə imkan verdi. Qızılbaşlar müvəffəqiyyət qazana bilməyib, Şamaxıya qayıtdılar. Sonra Qasım Mirzə Buğurt qalasına gələrək 40 gün orada qaldı. Onun bayrağı altına bir neçə min* şirvanlı toplandı. Onlar türk döyüşçüləri ilə birlikdə

---

* Zeynaloğluna görə, üsyançılar Bakının cənub sahili qarşısındakı Zirə (Böyük Zirə, Kiçik Zirə və Qum Zirə) adalarında məskən salmışdılar.
* Təngəaltı kəndi Quba rayonundadır.
* İsgəndər Münşinin məlumatına görə, 12 min döyüşçü.

qızılbaşlara qarşı mübarizəni davam etdirirdilər. Buradan o, Abdulla xanın iki min süvari döyüşçü ilə olduğu Gülüstan qalasına doğru hərəkət etdi. Qasım Mirzə Şamaxı yaxınlığındakı Gülüstan qalasının ətrafında Abdulla xanın iki min nəfərlik süvariləri və yeniçərlərlə döyüşə girdi. Hər iki tərəf inadla vuruşurdu. Səhərdən axşama qədər davam edən döyüşdə Qasım Mirzənin min beş yüz döyüşçüsü öldürüldü. Bu vaxt Abdulla xanın düşərgəsindən kömək gəldi. Döyüşdən sağ çıxmış şirvanlılar onları qızılbaş döyüşçüləri hesab edib, təlaş içərisində Təbərsərana qaçmağa üz qoydular. Səfəvilər onları təqib etməyə başladılar. Onların çoxu öldürüldü, məğlub edilənlərin başlarından qalalar qalandı. Mənbələrdə Qasımın sağ qalıb-qalmamasına dair məlumat verilmir. Zeynaloğlu Qasım Mirzənin və döyüşçülərinin əksəriyyətinin həlak olduğunu yazır. Qızılbaşlar Şirvan üsyançılarına qalib gəldikdən sonra, Gülüstan qalası dağıdıldı. Şahın əmisi oğlu Abdulla xan Səfəvilərin hökmranlığından narazı olan və Şirvanşahlar sülaləsini bərpa etməyə çalışan Şirvan qiyamçılarının qaldırdığı bir neçə üsyanı yatırdıqdan sonra Şirvanda öz hakimiyyətini tamamilə möhkəmləndirdi. İngilis taciri Antoni Cenkinson 1562-ci ildə Şamaxıya gəldiyi zaman Abdulla xan Şirvanın tam səlahiyyətli hökmdarı idi[11]. Təkcə tabeliyində olan ölkənin deyil, Cənubi Dağıstanın da əhalisi ondan qorxurdu.

## QAVUS MİRZƏ

Səfəvilərlə Osmanlılar arasında hərbi əməliyyatlar yalnız 1555-ci ildə, Səfəvilər dövləti ilə Türkiyə arasında sülh bağlandıqdan sonra kəsildi. Bu dövrdə Səfəvilər Abdulla xan Ustaclı h. 956 (1549)-cı ildə Şirvana bəylərbəyi təyin olunduqdan sonra orada öz hakimiyyətlərini tam bərqərar etdilər.

H. 974 (1566)-cü ildə Abdulla xanın və h. 984 (1576)-cü ildə şah Təhmasibin ölümündən sonra Şirvanda vəziyyət dəyişdi. Şirvan zadəganları arasında müstəqillik və Cənubi Dağıstanda sığınacaq tapmış şirvanşah nəslindən Şirvanşahlar sülaləsini bərpa etmək meylləri canlandı.

Həsən bəy Rumlu Şirvan zadəganlarının («Şirvan əhlinin») Bürhanəlinin bacısı oğlu Qavus Mirzənin başçılığı ilə h. 985 (1577/8)-ci ildə Səfəvi hökmranlığına qarşı üsyanı barədə məlumat verir. Qavus Mirzə qiyamçıların başında Şəbərana yollandı. Abdulla xan Ustaclının ölümündən sonra onun yerinə təyin olunmuş Şirvan bəylərbəyisi Arasxan Rumlu üsyançıların üstünə altı yüz qızılbaş göndərdi. Onlar üsyançıları Şəbəranın iki fərsəxliyində (təqribən 12 km) haqladılar. Qavus Mirzə və onun döyüşçüləri qızılbaşlara həmlə etdilər, ancaq məğlubiyyətə uğradılar. Qavus Mirzə qaçdı. Lakin o və onun dörd yüz üsyançısı öldürüldü. Onların başları Qəzvinə, şaha göndərildi[12].

# ƏBUBƏKR MİRZƏ

Məhəmməd Xudabəndə (1577-1587) zamanında feodalların mərkəzdən ayrılmaq cəhdləri və ara çəkişmələri nəticəsində Səfəvilər dövlətinin zəifləməsi müşahidə olunur. Bununla yanaşı, Osmanlı Türkiyəsi - xüsusilə Səfəvilərə qarşı bir sıra yürüşlər etmiş II Sultan Süleyman (1520-1556), II Sultan Səlim (1566-1574), III Sultan Murad (1574-1595) dövründə güclənirdi.

1578-ci ildə III Sultan Muradın hakimiyyəti dövründə odlu silahla, top və texnika ilə yaxşı silahlanmış 150 minlik türk (süvari) ordusu Lala Mustafa Paşanın başçılığı altında yenidən Şirvana girərək, Ərəşi, Qəbələni, Şamaxını, Bakını, Şəbəranı, Mahmudabadı, Salyanı və digər şəhərləri tutdu[13]. Şirvana səfərdə Lala Mustafa Paşanı Şirvanşahlar nəslindən Bürhanəli Sultanın oğlu Əbubəkr Mirzə müşayiət edirdi. Cənnabi və Münəccimbaşının verdikləri məlumata görə, Bürhanəli ölərkən iki oğul qoyub getmişdi. Birinin adı Xələf Mirzə idi. O, uşaq ikən ölmüşdü. İkincisi - Əbubəkr Mirzə qızılbaşlar Şirvanı zəbt etdikdən sonra Dağıstana qaçmışdı. Atası öləndə o, hələ uşaq idi. Lələsi və atasının tərəfdarları Əbubəkri Dağıstana apardılar. O, burada iyirmi ilə yaxın yaşadı. Əbubəkr oradan çərkəzlər ölkəsinə, sonra h. 978 (1570)-ci ildə Krıma, Bağçasaraya getdi. Krımın hakimi, türk sultanının vassalı Dövlət Girey xan onu iltifatla qarşılayaraq, qızını ona ərə verdi və «Osmanlı imperiyasının yüksək dərgahına» təqdim etdi. Əbubəkrə himayədarlıq edən sultan böyük mülk verdi və o, h. 986 (1578)-cı ilin payızınadək - Lala Mustafa paşa Şirvana yürüş edənə qədər - Krımda qaldı[14]. Həmin vaxta qədər bəzi sünni Şirvan əyanları Şirvanı şiə qızılbaşların zülmündən xilas etmək və Əbubəkr Mirzəni Şirvanşahlar taxtına çıxarmaq məqsədilə sultandan kömək istəmək üçün İstanbula getmişdilər[15]. Bu dövrdə Şirvanda türk qoşunlarının müdaxilə etməsi üçün çox əlverişli şərait var idi. Vergi zülmündən əziyyət çəkən rəiyyətin və kəndlilərin yoxsul vəziyyəti, əhalinin Səfəvi inzibati hakimiyyətindən narazılığı, qızılbaş əmirləri arasındakı çəkişmələr, Azərbaycan ərazisindəki ara müharibələri - bütün bunlar kəndlilərin və rəiyyətin Səfəvilər əleyhinə üsyanına səbəb oldu. Əbubəkr Mirzə üsyançılara kömək edərək Krım və Osmanlı qoşunları ilə birlikdə ölkəyə daxil oldu.

Bu səfərdə Lala Mustafa paşanı müşayiət edən Əbubəkr Mirzə Şirvanın alınmasında iştirak etdi. Türk sultanının qoşunları arasında Şirvanşahlar nəslinin nümayəndəsinin olması türk ordusunun Şirvanşahların keçmiş müstəqillik ənənələrinin güclü olduğu Şirvana müdaxiləsi üçün əlverişli şərait yaradırdı.

Əbubəkr məğlub edilmiş Şirvan ordusunun qalıqlarından ətrafına ləzgi və qarabörk tayfalarından 2-3 min döyüşçü toplayaraq sultan III Murada müraciətlə Şirvanı tutmaqda yardım göstərməsini xahiş etdi. O, Krım xanının qoşunlarının tərkibində Şirvana doğru hərəkət edən Lala Mustafa paşanın ordusuna qoşuldu. Əbubəkrin Dağıstandan Şirvana girməsi Osmanlı qoşunlarının Şirvanı zəbt etməsini asanlaşdırdı. Onlar 1578-ci ilin sentyabrında Alazan çayı boyunca

Gürcüstandan gələrək, çayın sol sahilinə keçib Ərəşə çatdılar. Türk qoşunları Lala Mustafa paşanın başçılığı ilə Ərəşi və Şirvanın digər şəhərlərini - Şamaxı, Qəbələ, Bakı, Şəbəran, Mahmudabad və Salyanı tutdular[16]. Lala Mustafa paşa Şirvanı zəbt etdikdən sonra Əbubəkri əyalətin valisi vəzifəsinə təyin etdi[17]. Pəçəvinin sözləri ilə deyilsə, ona Şirvanda seçmə sancaq bağışlanmışdı[18]. Türk mənbələrində həmin vaxta qədər Oltuda* olmuş alay komandiri Əbubəkr bəyin adı çəkilir. Bakı sancağı[19] - ehtimal ki, Abşeronla birlikdə - ona bağışlanmışdı. O, burada bir neçə il hakimiyyət sürdü. Lakin Osmanlılar Cənubi Qafqaz ölkələrini, o cümlədən Şirvanı zəbt etdikdən sonra sultan Şirvanşahlar sülaləsini bərpa etmək barəsində vədini yerinə yetirmədi. Ehtimal ki, bu, Əbubəkrin qızılbaşlar tərəfinə keçməsinə səbəb olmuşdur. Türk mənbələri xəbər verirlər ki, Əbubəkr Mirzə sultana xəyanət edərək, Gəncə hakiminə Osmanlılara qarşı birgə mübarizə aparmaq təklifi ilə müraciət etmişdir. O, 1583-cü ildə Osman paşa və Səfəvi qoşunları arasında Samur çayının sahilində baş vermiş döyüşdə İmamqulu xanın başçılıq etdiyi qızılbaş qoşununun tərəfində vuruşmuşdur. Lakin bu vuruşmanın dördüncü günü Osmanlılar qalib gəlmişlər. Əbubəkrin sonrakı taleyi haqqında mənbələrdə məlumat verilmir. Azərbaycanda Osmanlı inzibati bölgü vahidi olan sancaq hakimlərindən biri, özündən sonra vərəsə qoymamış Əbubəkr 1602-ci ildə öldükdən[20] sonra Şirvanşahların hakimiyyətini bərpa etməyə bir daha cəhd göstərilmədi. «Və bu sülalədən quru addan başqa bir iz qalmadı». Mənbələrin Şirvanşahlar xanədanı nəslinin Şirvanın tam mənasında hakimi sayıla bilməyən son nümayəndələri haqqında məlumatı bununla bitir. Sonuncu şirvanşahın Şahrux ibn Yasar olması barədə B. Dornun fikri ilə razılaşmaq mümkündür[21]. Şah Təhmasib 1538-ci ildə Şirvanı işğal etdikdən sonra Şirvanşahlar dövləti süqut etdi və Şirvanşahlar sülaləsinin Bürhanəli Sultan və digər nümayəndələrinin sonralar Şirvanda itirilmiş hakimiyyətlərini bərpa etmək cəhdləri nəticə vermədi.

### § 3. Şirvan türk işğalı dövründə

Qeyd edilməlidir ki, Şah İsmayıl Şirvanı işğal etsə də, Şirvanşahların hakimiyyətini qəbul etmiş, onları hakimlikdə saxlamışdı. Şah Təhmasib belə Şirvanın müstəqilliyini ləğv etdikdən sonra da, Şirvanşahlar nəslindən olan ayrı-ayrı şəxslərin bayrağı altına keçən Şirvan əhalisinin müqavimətini tam qıra bilməmişdi. Sonuncular Cənubi Dağıstana sığınaraq, onlardan Azərbaycanda öz işğalçılıq siyasətində istifadə edən Osmanlı Türkiyəsinin tərəfində çıxış etmək üçün əlverişli məqam gözləyirdilər. Müstəqillik meylləri sünni Şirvan zadəganlarının əksəriyyəti arasında güclü idi. Şirvanşahların sünni mənsubiyyəti və sünnilik meylləri şiəlik tərəfdarı olan və işğalçılıq cəhdləri Şirvanşahlar əleyhinə

* Türkiyədə Karsın 150 kilometrliyində vilayət və şəhər.

yönəldilən qızılbaşlara və Səfəvi hökmdarlarına qarşı bir növ müxalifət təşkil edirdi. Türk mənbələrinin verdiyi məlumata görə, Osmanlılar Azərbaycanı işğal etdikdən sonra Şirvan əhalisi orada qalmış qızılbaşları qırmışlar. Ehtimal ki, qızılbaş feodallarının ağır vergilərindən və zülmündən cana gəlmiş Şirvan əhalisi osmanlıların gəlişi ilə oturaq əhali üçün daha əlverişli şərait mövcud olan Şirvanşahlar dövlətinin keçmiş müstəqilliyinin bərpa edilməsinə ümid bəsləyirdi. Belə ki, Dərbənd sakinləri Osmanlı ordusunun şəhərə hücumu ərəfəsində qiyam qaldıraraq, 300 qızılbaşı öldürmüş, şəhərin hakimi Çıraq Xəlifəni həbs etmişdilər[1].

Türkiyə-İran müharibələrinin ideoloji əsasını dini motivlər təşkil etməsinə baxmayaraq, əslində, Osmanlı Türkiyəsi Cənubi Qafqazın zəngin ölkələrini və Azərbaycandan keçən tranzit ticarət-karvan yollarını ələ keçirməkdə maraqlı idi. Bundan başqa, Türkiyə Bakı limanını tutmaqla Xəzər dənizinə çıxmağa cəhd göstərirdi. Türk sultanlarını Azərbaycanı işğal etməyə sövq edən amillərdən biri də Şirvanın sərvətləri - nefti, duzu, ipəyi, pambığı və s. idi[2].

Şirvanın işğalına, zahirən, Şirvanşahlar xanədanının bəzi nümayəndələrinin öz keçmiş hakimiyyətlərini bərpa etmək məqsədilə Şirvan sünnilərinin Səfəvilər əleyhinə üsyana başçılıq etmək barədə İstanbula, türk sultanlarına müraciətləri bəhanə olmuşdu.

Şirvanın şəhərləri və digər məntəqələri Osmanlıların hakimiyyəti altına düşdüyü hallarda belə Şirvanşahların nəsillərinin ölkənin formal idarəsini bərpa etmələri qısamüddətli və səbatsız olurdu. Türklər tutduqları Azərbaycan şəhərlərində öz qarnizonlarını yerləşdirdilər və ölkəni paşalıqlara və sancaqlara böldülər. Şirvan iki bəylərbəyliyə - Şamaxı və Dərbənd bəylərbəyliklərinə bölündü. Osman paşa Şirvan bəylərbəyi təyin olundu. Şamaxı vilayəti 16 sancaqdan ibarət idi. Lahıc (Hövz-i Lahıc), Ağdaş, Qəbələ, Salyan, Zərdab, Şəki, Bakı (Badku) (Abşeronla birlikdə - S. A.). Səde-ru, Qara Ulus, Axtı, İxir, Diku, Siryan (Sirhan), Osmani, Xudaverd (Xudaderd), Mahmudabad, Ərəş.

Dərbənd vilayəti 8 sancaqdan ibarət idi: Dəmirqapı (Sancaq başı), Şabran (Şaburan), Axtı (bu sancağın adı Şamaxının 10-cu sancağı kimi çəkilir), Quba, Müskir (yaxud Məskür), Kürə, Çıraq, Restav[3].

Osmanlı məmurları şəhər və yerlərdə əhalini siyahıya alaraq Osmanlı vergi sistemi tətbiq edirdilər. Sikkələr sultanın adından kəsilməyə, məscidlərdə xütbə III Muradın adından oxunmağa başladı. Mustafa paşa Osmanlı qarnizonlarını Şirvan və Azərbaycan şəhərlərində yerləşdirdikdən, Şamaxı, Bakı, Ərəş və digər şəhərlərdə qalaları möhkəmləndirdikdən sonra ordunu buraxdı və onu geriyə, Gürcüstan yolu ilə Ərzuruma qışlamağa göndərdi. O, Özdəmir oğlu Osman paşanı Şirvanda işğal qoşunlarının komandanı təyin etdi. 1580-ci ildə Səfəvilər türk ordusunun getməsindən istifadə edərək, Osmanlılara qarşı yenidən hərbi əməliyyata başladılar. Türk qoşunları Məhəmməd Xudabəndənin oğlu Həmzə Mirzə tərəfindən məğlub edildi. Bu zaman Şamaxıda olan və h. 974 (1566)-cü ildə ölmüş Abdulla xan Ustaclını əvəz edən Şirvan bəylərbəyi Aras xan Rumlu

tərəfindən mühasirəyə alınan Osman paşa Şirvanı tərk edərək, Dərbəndə qaçmağa məcbur oldu. Səfəvilər Osmanlılar üzərində bir neçə dəfə qələbə qazandılar. Lakin tezliklə Səfəvilər dövlətində gedən daxili mübarizə və iğtişaşlar nəticəsində onların uğurları dayandırıldı. 1582-ci ilin sonunda III Murad Məhəmməd şahla sülh bağlamış Sinan paşanı kənar edərək, müharibəni Azərbaycan ərazisində davam etdirməyi qərara aldı. 1584-cü ilin yayında 100 minlik (başqa mənbələrə görə 80 minlik) Krım qoşunu Osmanlıların vassalı Məhəmməd Gireyin başçılığı ilə Şimali Qafqazdan keçərək Azərbaycana soxuldu və Osman paşanın qoşunları ilə birləşərək Qarabağ vilayətini və Şirvanı qarət etdi. Həmin il Şamaxı və Bakı yenidən Osmanlı qoşunları tərəfindən tutuldu. Məhəmməd Girey xan və Osman paşa Şamaxıya daxil olaraq üç gün orada qaldılar, qızılbaşları məhv etmək üçün Şirvanın hər tərəfinə dəstələr göndərdilər. Bakını tutmağa göndərilmiş qoşunlar şəhəri ələ keçirib, onun qızılbaş müdafiəçilərindən 600 nəfər qırdılar. Xanəli və Maqsudsultanı iyirmi qızılbaşla əsir aldılar. Osmanlı tarixçisi Asəfi qeyd edir ki, Azərbaycana səpələnmiş Krım qoşunları Şirvanın və ölkənin digər vilayətinin rəiyyətini amansızcasına qarət edir, onlara zülm göstərirdilər. Onlar çoxlu əsir götürüb, Gəncəni, Qarabağı və Qızılağaca qədər Muğanı qarət edib, qışın yaxınlaşması ilə Krıma qayıtdılar[4].

Krım qoşunlarının Azərbaycandan getməsindən istifadə edən şah Məhəmməd Xudabəndə türklərlə mübarizə aparmaq üçün qızılbaş əmirlərinin başçılığı ilə Şirvana qoşun göndərdi. Səfəvi qoşunları Bakını mühasirəyə aldı. Lakin qalanın Osmanlıların qoyduğu Əhməd bəyin rəhbərliyi ilə inadla müdafiə olunması, Dərbənddən dəniz yolu ilə kömək - barıt və silah alınması - mühasirədəkilərin Bakını qoruyub-saxlamasına kömək etdi. Osmanlı mənbələrinin verdiyi məlumata görə, qalanın mühasirəsi qırx gün çəkdi. İsgəndər Münşiyə görə, mühasirə 18 gün davam etmişdir. Qızılbaş əmirləri Bakıya yaxınlaşaraq, qalanı mühasirəyə almağa başlayanda Müseyib xan Təkəli, Şahrux xan Zülqədər və Pirməhəmməd Ustaclı arasında ixtilaf meydana çıxdı; onların hər biri ayrıca hərəkət etmək istəyir, başqalarına tabe olmaqdan boyun qaçırırdı. Səfəvi qoşunlarının düşərgəsində aclıq başladı və onlar məqsədlərinə çatmadan mühasirəni götürməyə və geri çəkilməyə məcbur oldular. Tezliklə qızılbaşlar Osman paşa tərəfindən məğlubiyyətə uğradıldılar və üstünlük yenidən türklərə keçdi. 1585-1588-ci illər arasındakı dövrdə türklər Azərbaycanın müharibə, qıtlıq və əmirlərlə şah arasındakı daxili mübarizə nəticəsində dağılmış şimal və cənub vilayətlərini tutdular[5].

Şirvan yenidən türklərin hakimiyyəti altına düşdü. Bakının qala divarlarını uçurmuş qızılbaş qoşunlarının getməsindən istifadə edən Osman paşa Bakı qalasını bərpa etdirdi və möhkəmləndirdi. Şəhəri tərk etmiş əhali onun göstərişilə yenidən Bakıya qayıtdı. Asəfinin məlumatına görə, «Badkuye» qalası 4-5 ay ərzində əhalinin amansız istismarı və şəhərə qayıdarkən öz evlərini də təmir və bərpa edən rəiyyətdən toplanan vergilər hesabına dirçəldi[6]. 1587-ci ildə, ölkənin böyük hissəsi

Osmanlılar tərəfindən tutulduğu bir vaxtda, şamlı və ustaclı tayfalarının əmirləri Qəzvində Məhəmməd Xudabəndənin kiçik oğlu, on altı yaşlı I Abbası (1587-1629) şah elan etdilər. Bu vaxt İranı şərqdən özbəklər, ölkənin daxilində isə qiyamçı qızılbaş tayfaları təhdid edirdi. Bu, şah Abbası Osmanlılarla mübarizədən imtina etmək məcburiyyətində qoydu[7]. 1590-cı il mayın 21-də şah Abbas türklərlə ağır sülh sazişi bağlamalı oldu. Həmin sazişə əsasən Talış diyarı və Ərdəbil mahalı istisna olmaqla Azərbaycanın şimal və cənub vilayətləri, Kürdüstanın bir hissəsi, Şərqi Gürcüstan və Şimali Ermənistan, habelə Bakı daxil olmaqla Şirvan şəhərləri və Abşeron türklərə verildi. Bütün bu ərazilər XVII əsrin əvvəllərinədək türklərin hakimiyyətində qaldı[8].

## § 4. Şirvanın şəhərləri XV-XVI əsrlərdə

Şirvan şəhərlərinin XV-XVI əsrlərdəki iqtisadi həyatı ərəb-fars mənbələrində, Qərbi Avropa səyyahlarının yol qeydlərində əksini tapmışdır. Həmin mənbələrdə hasilat mədənləri, sənətkarlıq və ticarətə dair məlumatlar vardır. Azərbaycan coğrafiyaşünası Əbdürrəşid Bakuvi 1403-cü ildə Bakı ətrafında çoxlu neft və duz istehsal olunduğunu yazırdı. «Burada qətran yataqları və neft quyuları məlumdur. Quyulardan hər gün iki yüz dəvə yükündən çox neft hasil edilir. Onların yanında gecə-gündüz aramsız yasəmən yağı kimi ağ neft axan başqa bir quyu da vardır; onun icarə haqqı təqribən min dirhəmə çatır»[1]. Göstərilən rəqəm - min dirhəm - bir neft quyusundan alınan icarə məbləği idi. Belə quyuların sayı isə çox idi. Neft quyusunu icarə edən də gəlir götürürdü.

Bakuvinin göstərdiyi kimi, gündəlik neft hasilatı iki yüz dəvə yükündən çox idi. Əgər bir dəvə yükünü təqribən 250 kq-a bərabər hesab etsək[2], onda bu, hər gün 50.000 kq, yaxud 3125 pud edər ki, bu da dövlətin və neft quyuları olan feodalların böyük məbləğdə gəlir götürdüklərini göstərir. «Sarı rəngli, şam kimi yanan»[3] daş kimi bərkimiş ağ neft şəhərə gətirilərək, əhali tərəfindən mənzillərin işıqlandırılmasında, evlərin və hamamların qızdırılmasında istifadə olunurdu. Neft müxtəlif xəstəliklərdə, məsələn, sinqa, revmatizm, öddaşı və digər daxili xəstəliklərdə müalicə vasitəsi kimi də işlədilirdi. Nefti dərman kimi içirdilər. Ondan dəri xəstəliklərində məlhəm kimi istifadə edilirdi[4]. Bakı neftinin müalicəvi xassələrindən XV əsrin ikinci yarısı (təqribən 1471-ci il) Venesiya səyyahı İosafato Barbaro da bəhs etmişdir. O, nefti çox pis iyli qara yağ adlandıraraq göstərir ki, ondan çıraqlarda, eləcə də ildə iki dəfə dəvələri sürtməkdə istifadə olunur. «Çünki onları ağ neftlə sürtmədikdə qoturluq xəstəliyinə tutulurlar»[5].

1572-ci ildə Bakıya gələn ingilis ticarət şirkətinin agentləri Bakı neftinə maraq göstərdilər. Şirkətin agentlərindən biri - Ceffri Deket öz qeydlərində Bakı yaxınlığında evləri işıqlandırmaqda istifadə olunan çoxlu neft çıxarıldığını, onu əldə etmək üçün İranın, ən uzaq yerlərindən buraya adamlar gəldiyini qeyd edir. Neft ölkənin hər yerinə qatır və eşşəklərlə daşınırdı. 400-500 başdan ibarət belə

neft karvanlarına tez-tez rast gəlmək olardı. O, daha sonra Bakıda «ağ rəngli, çox qiymətli yağ növü...»[6] olduğundan danışır. Karvanlarda göstərilən sayda yük heyvanının olması külli miqdarda neft daşındığına dəlalət edir.

Türk müəllifinin 1583-cü ildə verdiyi məlumata görə, Osmanlı işğalı dövründə Bakı Şirvanın iqtisadi və mədəni həyatında mühüm rol oynayırdı. Osmanlı xəzinəsinin ağ neft quyularından illik gəliri on «yük» axça (yük=100000 vahid), yəni 10 000000 quruş - 2 105000 qızıl frank təşkil edirdi ki, bu da yarım milyon qızıl manatdan (1913-cü ilin məzənnəsi ilə 512 165 manat) çox idi.

Neft əvəzinə Gilandan gəmi ilə qumaş parça gətirilir, bunun üçün malın hər topunun 4 faizi qədər tamğa alınırdı. Abşeronda hasil edilən əla keyfiyyətli duz hər il üç min anbara doldurulurdu[7]. Əmin Əhməd ər-Razinin 1601-ci ildə yazdığına görə, bu dövrdə qara və ağ neft çıxarılan 500 quyu var idi[8]. Neft quyularının sayına dair mənbələrdə verilən bu ilk məlumatın, ehtimal ki, bir qədər şişirdilmiş olmasına baxmayaraq, o, neft hasilatının həcmi barədə fikir yürütməyə imkan verir.

Neftdən hərbi texnikada istifadə olunması, ehtimal ki, XVI əsrədək davam etmişdir. Belə ki, Səfəvilər dövlətində odlu silahın yayılması ancaq XVI əsrin əvvəllərinə aiddir[9].

Bakuvi Abşeronun kənd təsərrüfatı məhsulları haqda müəyyən məlumatlar verir, taxıldan az məhsul götürüldüyünü qeyd edir. Bakıya ərzaq, başlıca olaraq, Şirvan və Muğanın məhsuldar rayonlarından gətirilirdi. Gətirilən mallar, əsasən taxıl və düyü idi. Şəhər əhalisinin çoxu hər il yayda Abşeron bağlarına gedirdi. Bağlarda bol əncir, nar və üzüm yetişdirilirdi. Bu bitkilər Abşeronda çox-çox qədimdən becərilirdi. Qoyun sürülərinin xatırlanması Abşeronda ətindən şəhər əhalisinin istifadə etdiyi ev heyvanlarının yetişdirildiyini göstərir. Şəhərdən bir fərsəx aralı kənd əhalisi daim yanan odda (Suraxanı) əhəng hazırlayıb inşaat materialı kimi şəhərə gətirirdi. Bakı yaxınlığındakı adalardan birində suiti ovlanırdı. Onların dərisindən neft daşımaq üçün tuluq düzəldilirdi. Ərinmiş suiti piyindən çıraqlarda yağ kimi istifadə olunurdu[10]. Venesiya səyyahı və səfiri Ambrocco Kontarini (1473-cü il) öz qeydlərində suitiləri təsvir edir. Onların «piyindən çıraqlarda işlədilən yağ və dəvələrə sürtmək üçün məlhəm hazırlandığını və çoxlu miqdarda qonşu ölkələrə aparıldığını»[11] göstərir. Bakuvinin yazdığına görə, Abşeronda çoxlu ceyran var idi[12]. Yerli əhali onların ətindən yeməkdə istifadə edirdi. Şirvanın sahilboyu rayonlarının əhalisi balıq ovu ilə məşğul olurdu. Kontarini Xəzər dənizində xeyli nərə balığı və ağ balıq ovlandığını xəbər verir[13]. Şildə (indiki Salyan - S. A.) balıq ovundan Osmanlı xəzinəsinə ildə 10 000 axça (5 000 qızıl quruş) gəlirdi[14]. Bakuvinin sözlərinə görə, Güştəsbi bölgəsində balıqlar üçün dəhnə var idi. Burada müxtəlif balıqlar tutulur, su quşları çoxaldılırdı. Orada çoxlu çəltik tarlaları var idi. Şəbəranda başqa ölkələrə göndərilən boyaqotu bitirdi. Çoxlu kəndləri və çəmənlikləri olan Muğan köçərilərin mal-qarasının otarıldığı geniş və bol otlaqları ilə məşhur idi[15].

Cenkinsonun «gözəl kral şəhəri» adlandırdığı, Şirvanın başlıca şəhərlərindən olan, paytaxt XV əsrdə Bakıya köçürüldükdən sonra belə, əhəmiyyətini itirməyən Şamaxı xam ipək istehsalı ilə şöhrət qazanmışdı. Şamaxının ətraf kəndləri tut ağacları ilə məşhur idi. Kastilya səfiri Rui Qonzales de Klavixo «Teymurun Səmərqənd sarayına səyahət» adlı gündəliyində (1404-cü il) Şamaxıda ipək istehsalına dair məlumat verir. «Burada çoxlu ipək toxunur, oraya ipək almaq üçün hətta Genuya və Venesiya tacirləri də gəlirlər»[16]. Qərbi Avropa və Şərq ölkələrinə xam ipək başlıca olaraq Şamaxıdan aparılırdı. Səyyah Şiltberger (1394-1427) şahidlik edir ki, «ipəyin ən yaxşı növü» Şirvandan (Şamaxıdan) aparılır və ondan Dəməşqdə, Kaşanda, Bursada yaxşı parçalar toxunurdu. İpək, qismən Venesiyaya və Lukkaya da ixrac olunur və bu yerlərdə ondan «əla məxmər»[17] toxuyurdular. Kontarininin sözlərincə, Şamaxıda İtaliyada talaman (yəni Deyləman - S. A.) adı ilə tanınan ipək hazırlanır və müxtəlif ipək parçalar toxunurdu[18]. Şirvanın digər ticarət mərkəzi Ərəş* idi. Onun ətrafında da çoxlu xam ipək istehsal olunurdu. Buraya ipək ticarəti üçün türklər, suriyalılar və digər əcnəbilər gəlirdi[19].

Şəhərlərin iqtisadi mərkəzlər kimi böyüməsi, Şamaxıda, Şəkidə, Ərəşdə əmtəə təsərrüfatının, xüsusilə ipəkçiliyin inkişafı ilə bağlı idi. Şirvan şəhərləri XV-XVI əsrlərdə sənətkarlıq və ticarət mərkəzləri idi. Onlarda orta əsrlər Yaxın Şərq şəhərləri üçün səciyyəvi olan bütün sənətkarlıq sahələri inkişaf etmişdi. Bakının İçərişəhər hissəsində, Şamaxıda, Dərbənddə, Qəbələdə, Şəkidə və digər şəhərlərdə dövrümüzədək qalmış XV-XVI əsrlərə aid memarlıq abidələri o dövrdə inşaat sənətinin və texnikasının inkişafına dəlalət edir və mahir memarlardan, bənnalardan, daşyonanlardan, dülgərlərdən xəbər verir. Daşyonanlar daşdan memarlıq detalları, sütunlar, stalaktitlər düzəldirdilər. Daş üzərində böyük məharətlə nəbati və həndəsi naxışlar, habelə minarələrdə, mehrablarda, məscid divarlarında və qəbir daşlarında kitabələr həkk edən ustalar da var idi. Bakının İçərişəhər hissəsində, Şamaxıda, Dərbənddə, Qəbələdə aparılan arxeoloji qazıntılar zamanı mis posasının, mis və dəmir məmulat tullantılarının izləri, şüşə və sümükdən düzəldilmiş əşyalar aşkar edilmişdir[20]. Bu şəhərlərin sənətkarlıq məhəllələrində silah, nal, qab-qacaq, əmək alətləri qayıran dəmirçilər və misgərlər yaşayırdı. Köhnə Bakıda və Şamaxıda tapılmış bir sıra zərgərlik məmulatı bu sənətin inkişaf etdiyini göstərir. Bakıdakı qədim müsəlman qəbiristanlığı ərazisində torpaq işləri aparılarkən, nəfis işlənmiş qızıl sancaq, gümüş qolbağ, 3 gümüş üzük, gümüş sırğa, hər birində iki xırda mirvari olan iki halqavarı qızıl sırğa, 4 içiboş qızıl muncuq, qızıl artırmalı qızıl sırğa, asılma muncuqlu iki cüt gümüş sırğa və s. əşyalar tapılmışdır. Bu əşyalar, eləcə də oradan tapılmış sikkələr (Teymuri və Şirvanşah) XV əsrin əvvəllərinə aiddir[21]. Şirvanşahların zərb etdiyi gümüş sikkələr dəfinəsi [ən qədimi h. 833(1429/30), sonuncusu h. 844 (1440/41)-

* Ərəş Xaldandan 3 km şərqdə yerləşirdi. İndiki Neymətabad kəndidir (Yevlax rayonu).

cü illər] ilə birlikdə keçmiş Aleksandr Nevski kilsəsinin yaxınlığında tapılmış iri qızıl qolbaq da həmin dövrə aiddir[22]. Şirvanşah sarayında Şirvanşahlar türbəsində açılmış sərdabələrdən birində altıbucaqlı ulduz şəklində qızıl sancaq tapılmışdır. Onun üz tərəfindəki 7 yuvadan 5-ində qırmızı daş, ehtimal ki, yaqut, orta yuvada firüzə var. Yuvaların biri isə boşdur. Həmin sancaq, XV əsrin ortalarına aid edilir[23]. Mənbələrdə Şirvan əyanlarının bəzək əşyaları kimi istifadə etdikləri mina və qızıldan düzəldilmiş gözəl zərgərlik məmulatlarından danışılır. 1562-ci ildə Şamaxıda bəylərbəyi Abdulla xan Ustaclı tərəfindən qəbul edilən Antoni Cenkinson onun zəngin geyimini və bəzək şeylərini təsvir edir: «Çalmasının sol tərəfində mina və qiymətli daş-qaşla işlənmiş lüləyə taxılmış eqret ucalırdı. Onun sırğalarından iki yaqut düzülmüş əl boyda artırma sallanırdı»[24]. Rəngli minadan və qızıldan hazırlanan bu cür bəzək əşyalarına Bakıda, Şamaxıda və Şirvanın digər şəhərlərində indi də rast gəlinir. Bütün bunlar maddi mədəniyyətin varisliyindən və öz sənətini nəsildən-nəslə ötürən xalq sənətkarlarının möhkəm ənənələrindən xəbər verir.

Şirvan şəhərlərinin ərazisindən tapılmış XV-XVI əsrlərə aid nisbətən keyfiyyətsiz şirli və şirsiz saxsı qablar bu sənət növünün XI-XIII əsrlərlə müqayisədə monqol istilasından sonra tənəzzülə uğradığını göstərir. Bu dövrə məxsus şirli məmulatlar açıq-sarı anqobla, yaxud qırmızı saxsı üzərində açıq-sarı naxışla istehsal olunurdu[25]. Şirvanın şəhərlərində toxuculuq da inkişaf etmişdi. Ölkədə bol olan qoyunlardan xalça toxunmasında istifadə edilən yüksək keyfiyyətli yun qırxılırdı. Bakıda və Abşeron kəndlərində karxanalarda XVII əsr səyyahlarının xatırladıqları gözəl xalçalar toxunurdu. Şamaxıda, Qubada və Şirvanın başqa şəhərlərində də xalça toxunurdu. Bizim XIV-XVI əsrlərə aid xalçalar haqqında təsəvvürümüz İntibah dövrünün italyan, flamand və holland boyakarlıq məktəbinə mənsub şəkillərdəki rəsmlərə əsaslanır. Həmin əsərlərdə şəkil və bəzəklərinə görə, Şirvan xalçalarına mənsub xalçalar görünür. Hans Memlinqin (XV əsr) «Mariya körpəsi ilə» (Vyana muzeyi) şəklində, «Şirvan» tipli Azərbaycan xalçası təsvir edilmişdir. Şirvan xalçasının təsvirinə XVI əsr rəssamı Hans Qolbeynin «Səfirlər» şəklində və İntibah dövrünün digər rəssamlarının əsərlərində təsadüf olunur[26]. Xalçaların qədim tablolarda təsvir edilməsi həmin rəsm əsərlərinin çəkildiyi dövrdə bu tipli xalçaların artıq mövcud olduğunu və Qərbi Avropa ölkələrinə aparıldığını göstərir. Antoni Cenkinson 1652-ci ildə Abdulla xanın Şamaxı yaxınlığındakı uca dağın zirvəsində qurulmuş alaçığını belə təsvir edir: «Alaçığa başdan-başa gözəl xalçalar döşənmişdi. Onun özünün oturduğu gümüş və qızılla işlənmiş xalçanın üstündə ona layiq iki mütəkkə qoyulmuşdu»[27]. Boyaqçılar yunu boyamaq üçün əncir yarpağından, soğan qabığından, zəfərandan, nar qabığından və digər bitkilərdən boyaq hazırlayırdılar. Xalçaların rəngləri şux və davamlı idi[28]. Bakıda, Şamaxıda, Dərbənddə pambıq parçalar toxunurdu. Şirvanın şəhərlərində sənətkarlar, kankanlar, dəyirmançılar, qayıqçılar yaşayırdılar; burada xüsusilə Şəkidə dəri istehsalı da inkişaf etmişdi. Qoyun və keçi dərisindən papaq, üst paltarı

və ayaqqabı tikilirdi. Sənətkarlıq istehsalı nümayəndələrinə sikkə zərbetmə ustaları da daxil idi. XV-XVI əsrin birinci yarısına aid arxeoloji və numizmatik materiallar, Bakıda, Şamaxıda, Dərbənddə və digər şəhərlərdə tapılmış çoxlu sikkə dəfinələri[29] dövrümüzədək gəlib çıxmış tam bir sıra memarlıq abidələri, keramika qalıqları - ticarət əlaqələrinin inkişafından xəbər verir. Lakin XVI əsrin 70-ci illərindən Türkiyə-Səfəvi müharibələri ilə əlaqədar Şirvanda şəhər həyatının tənəzzülə uğradığı müşahidə edilir[30]. XV əsrin ikinci yarısı Venesiya səyyahları Barbaro və Anziolellonun qeyd etdikləri kimi, Dərbənd bu dövrdə liman kimi əhəmiyyətini itirmişdir. Sonuncunun yazdığına görə, «...əvvəllər Dərbənd limanına 800-dək çəllək yüklənən böyük gəmilər gəlirdi, indi gələn gəmilər isə 200 çəlləkdən çox götürmür»[31]. XV-XVI əsrlərdə əlverişli liman kimi Bakının əhəmiyyəti artır. Xəzərsahili ölkələrlə ticarət mübadiləsi aparılırdı. Ticarət malları içərisində neft, duz, boyaqotu, ipək var idi. Bu mallar uzaq ölkələrə, istər Bakıdan (cənubda) və Bilgəhdən (şimalda) dəniz yolu, istərsə də, quru yolu ilə daşınırdı. Keçmiş əsrlərdə olduğu kimi, Çindən böyük tələbat olan bahalı qablar, seladon gətirilirdi. Həmin qablardan Şirvan feodal əyanları istifadə edirdilər. Şirvanşahlar sarayı ərazisindəki quyuların birindən tapılmış çini boşqab maraq doğurur. Onun üzərində qıvrılmış iri quyruğu boşqabın bütün içini tutan əjdaha təsvir olunmuşdur. Şəkil kobaltla çəkilmişdir. Bu boşqab oradan tapılmış sikkə kimi XV əsrə aiddir.

Şirvanşahlar sarayı ərazisində Dərbənd hakimlərinin sarayında və Şamaxıda tapılmış çini qablar arasında Çindən gətirilmə farforla yanaşı, onlara oxşadılan yerli qablar da vardır[32]. Orta əsr Şirvan şəhərlərindən farfor və seladondan qayrılmış çini qabların tapılması Çin mallarının XV-XVI əsrlərdə də Azərbaycana idxal olunduğunu və Azərbaycanla Çin arasında ticarət və mədəni əlaqələrin mövcudluğunu göstərir. Şirvanın Hindistanla iqtisadi və mədəni əlaqələri nəinki orta əsrlərə, hətta daha qədim zamanlara gedib çıxır. Abşeronun Suraxanı kəndindəki hind məbədi - «Atəşgah» və Bakının İçərişəhər hissəsindəki XV-XVI əsrlərə aid Multanı karvansarası dövrümüzədək qalmışdır. Şamaxıya və Bakıya gələn hind tacirləri ədviyyatla yanaşı, qızıl qiymətinə satılan bahalı Kəşmir parçaları - «tirmə» də gətirirdilər. Bu parçanın qalıqları Bakıdakı Şirvanşahlar sarayının XV əsrə aid türbəsindəki sərdabədən tapılmışdır[33]. Orada İrandan gətirilmə ipək və zərxara parçasının da qalıqları aşkar edilmişdir. Şirvan şəhərləri Orta Asiya və Dağıstanla da ticarət əlaqələri saxlayırdılar[34].

Konstantinopol 1453-cü ildə II Mehmet Fateh tərəfindən alındıqdan sonra, keçmiş Bizans imperiyasının yerində İtaliya ilə Şərq arasında ticarətə əngəl törətməyə başlayan Osmanlı dövləti bərqərar oldu. Beynəlxalq ticarət bazarında Moskva dövlətinin rolu güclənməyə başladı. Avropa tacirləri Şərqlə Osmanlı imperiyasından yan keçən yeni ticarət yolları axtarırdılar. Bununla əlaqədar olaraq, Avropa ilə Azərbaycan və İran arasındakı baş yol şimaldan — Rusiyadan keçməyə başlayır. Həmin vaxtdan Avropa səyyahları Şirvana Volqa - Xəzər yolu ilə gəlirdilər. Şirvanın əsas ticarət tranzit məntəqələri çox rahat limanlar olan Dərbənd

və Bakı idi. XV əsrdən etibarən müxtəlif orta əsr müəlliflərində Xəzər dənizi əvəzinə, Bakı dənizi adının çəkilməsi də Bakının liman kimi mühüm əhəmiyyət daşıdığını göstərir[35]. Bakı və Dərbənddən İrana, Orta Asiyaya və Həştərxandan keçərək, Rusiyaya və Avropaya, əsasən neft, ipək, duz ixrac olunurdu. XV əsrin sonu Venesiya səyyahı Donato da Leze yol qeydlərində xəbər verirdi ki, «... ədviyyat Hindistandan böyük şəhər Şamaxıya, oradan isə 4 günlük yol olan Xəzər dənizi sahilindəki Bakıya gətirilir. O, böyük ticarət şəhəridir. Dəniz də onun adı ilə Bakı dənizi adlanır. Burada ədviyyatı gəmilərə yükləyib, Volqa çayı üzərindəki tatar şəhəri Həştərxana aparırlar»[36]. XI əsrdə italyan gəmiləri ticarət məqsədilə Xəzər dənizində üzürdülər. Onlar Avropa ilə ticarətdə vasitəçi olub, Şirvanın şəhərlərinə, Bakıya, Dərbəndə, Şamaxıya yaxından bələd idilər[37]. İtalyan tacir-səyyahları ilə yanaşı, buraya rus tacirləri də gəlib çıxırdı. XV əsrin ikinci yarısında Moskva dövlətinin iqtisadi və siyasi yüksəlişi və tacir silkinin yeni mal tədavülü bazarlarına marağı ilə bağlı olaraq, Moskva ilə Şərq ölkələri, xüsusilə xam ipək, ipək parça və xalça ilə zəngin olan Şirvan arasında ticarət əlaqələri və diplomatik əlaqələr yaradılır[38]. Bu vaxt Şirvandan beynəlxalq bazarlara əvvəllərdə olduğu kimi, xam ipək, ipək, yun və pambıq parçalar, neft, duz, zəfəran, düyü, mis qablar və digər mallar ixrac edilirdi.

1465-ci ildə şirvanşah Fərrux Yasar Moskva dövləti ilə Şirvan arasında dostluq və ticarət münasibətləri yaratmaq məqsədilə Moskvaya, III İvanın yanına Həsən bəyin başçılığı ilə qiymətli hədiyyələrlə birlikdə elçilər göndərmişdi[39]. Buna cavab olaraq Vasili Papin III İvanın adından qiymətli hədiyyələrlə Şamaxıya gəldi, Papinin ardınca 1466-cı ildə Tver taciri Afanasi Nikitin öz tverli tacir yoldaşları ilə iki gəmi qayıraraq, onları malla yükləyib Volqa ilə Şamaxıya yola düşdü[40]. Həştərxandan Dərbəndə gələrkən, onlar yolda dəniz quldurlarının hücumuna məruz qalaraq qarət edildilər və Dağıstan (Qaytaq) hakimi tərəfindən əsir alındılar, lakin tezliklə rus səfiri Papinin xahişilə Şirvanşah Fərrux Yasarın işə qarışması sayəsində azad olundular. Əsir ruslar digər Moskva tacirləri ilə birlikdə Dərbənddən Göytula-Şirvanşahın qərargahına göndərildi. Şirvanşah onları iltifatla qəbul etdi, lakin tacirlərin çox olmasını bəhanə edərək, onların evlərinə qayıtmalarına kömək göstərmək barədə xahişlərini rədd etdi.

«Biz isə Köytula, şirvanşahın yanına getdik və onun ayağına düşərək, Rusiyaya qayıtmağımıza yardım etməsini dilədik. O isə çox olduğumuzu deyib, bizə heç nə vermədi. Biz ağlaya-ağlaya hərəmiz bir tərəfə dağıldıq, bəzilərimiz Şamaxıda qaldı, bəzilərimiz isə Bakıya işləməyə getdi. Mən isə Dərbəndə, oradan da əbədi odlar yanan Bakıya getdim. Bakıdan isə dəniz arxasındakı Çebokara yollandım...»[41]. Nikitin və onun yoldaşlarının Azərbaycana gəlməsi təsadüfi deyildi. Şirvanla ticarət əlaqələri əvvəlki əsrlərdə də mövcud olmuşdur[42].

1494-cü ildə şirvanşah Fərrux Yasarın nəvəsi Mahmud öz əyanı Şəhabəddini Böyük Moskva knyazının yanına göndərmişdi[43]. Beləliklə, biz XV əsrdə Moskva dövlətindən Şirvana ticarət məqsədilə bir sıra elçi və tacirlərin

gəldiyini görürük. Bu dövrdə Həştərxan vasitəsilə Şirvan və Şərqi Avropa şəhərləri arasında müntəzəm ticarət əlaqələri yaranır. Kontarininin sözlərinə görə, Şirvandan gətirilən mallar, başlıca olaraq ipək, burada rus tacirləri ilə xəz, qılınc, bal və muma dəyişdirilirdi[44]. Tacirlər buradan dənizyolu ilə Dərbəndə, Bakıya, oradan isə karvan yolu ilə Şamaxıya və İrana gedirdilər. Bu dövrdə Şirvan şəhərlərində pul-əmtəə münasibətlərinin inkişafını Bakının İçərişəhər hissəsində XV-XVI əsrin əvvəllərində Bakıda və Şamaxıda kəsilmiş iri gümüş sikkə dəfinələrinin tapılması da təsdiqləyir[45]. Bakı zərbxanalarında kəsilmiş böyük miqdarda mis pullar da tapılmışdır[46].

Qədim zamanlardan Hindistandan Avropaya mallar quru karvan yolları ilə aparılırdı ki, bu da baha başa gəlir və çox vaxt aparırdı. Lakin XVI əsrdə Şərqi Avropadan Ağ dənizə, Şimali Dvina, Volqa və Xəzər dənizindən Azərbaycana, oradan isə İran və Hindistana gedən yol (Volqa-Xəzər dənizi deyilən yol) işə düşdü. Bu yolda Avropa ticarəti üçün Xəzərsahili vilayətlər, xüsusilə çoxlu ipək istehsal olunan Şirvan və Gilan böyük əhəmiyyət kəsb edirdi. Bununla əlaqədar ipək ticarətində mühüm liman olan Bakının özünün əhəmiyyəti artırdı. XVI əsrdə bir neçə ingilis tacir-səyyahı həmin yolla təkcə ticarət məqsədilə deyil, həm də öz hökumətlərinin siyasi tapşırıqlarını yerinə yetirmək üçün Şirvana gəlmişdi.

1562-ci ildə Moskva şirkətinin agenti, bir sıra ekspedisiyaların təşəbbüsçüsü və fəal iştirakçısı olan ingilis səyyahı Cenkinson Şirvana gəldi. Cenkinson Azərbaycanda olarkən Dərbənd, Şamaxı, Cavad və digər şəhərlərə getdi. O öz məktublarında bu səyahətini təsvir edərək, Şirvanın şəhərləri, xüsusilə Şamaxı və Dərbənd haqqında məlumat verir, Bakının adını çox qədim bir şəhər kimi çəkir. İqtisadi-coğrafi xarakterli məlumatlar verən Cenkinson Azərbaycanla ticarət məsələləri üzərində də dayanır. O, Şirvana gəldiyi vaxt (1562) onun şəhər və qalalarının tənəzzülə uğradığını qeyd edir, İran və Azərbaycan mallarının Rusiyada az satılmasının səbəbini Xəzər dənizində gəmilərin azlığı, bazar və limanların çatışmaması, xalqın yoxsulluğu və s. ilə izah edir. Cenkinson Türkiyə ilə Səfəvilər arasındakı mübarizəni ticarət yolları, xüsusilə Şamaxı və Gilan ipəyinin Avropaya aparıldığı yollar üstündə mübarizə kimi təsvir edir[47].

Osmanlı Türkiyəsinin Şirvan və Azərbaycan barəsində işğalçılıq niyyətləri rus və ingilis tacirlərinin Volqa-Xəzər yolundan istifadə etməyə başladıqları XVI əsrin 60-cı illərindən xüsusilə gücləndi. XVI əsrdə Şirvan və Azərbaycandan Rusiyaya, Avropaya və Türkiyəyə, əsasən xamna ixrac olunurdu[4] .

İngilis tacirlərinin Azərbaycana və İrana nüfuz etmək cəhdləri XVI əsrin 70-ci illərinin sonlarında da davam edirdi. Lakin hadisələr ticarət üçün əlverişli şərait yaratmırdı. 1578-ci ildə türklər Şirvana girdilər. Onlar Şirvanı işğal edəndə, ingilis ticarət şirkətinin qulluqçusu Xristofor Berrou orada olmuşdur. O, buraya yuxarıda adı çəkilən Moskva şirkətinin tapşırığı ilə həmin ekspedisiyanın iştirakçısı Artur Eduardla birlikdə gəlmişdi. 1579-cu il oktyabrın 16-da Həştərxəna gələn ekspedisiya burada qışlayıb, yollarına dənizlə davam etdilər. 1580-ci il

martın 27-də ekspedisiya Şirvan sahillərinə yan aldı, Bakıda, Dərbənddə oldu və 1580-ci ilin noyabrında Həştərxana qayıtdı. Ekspedisiya İrana gedə bilmədi. Berrou İngiltərəyə yazdığı məktublarda öz səyahətini təsvir edərək, Şirvanın şəhərləri haqqında məlumat verir ki, Bakı yaxınlığındakı Bildi (Abşerondakı Bilgəh kəndi - S. A.) gəmi dayanacağını xatırladır. Yerli əhali ingilislərə xəbər verirlər ki, türklər Şirvanı tutmuşlar, türk paşası (Osman paşa) türk qarnizonu ilə Dərbənddə qalmışdır. Şamaxı tamamilə yandırılmış və orada əhali qalmamışdır. Berrounun sözlərinə görə, Şirvanın onların olduğu yerlərində xam ipəkdən, başqa qiymətli heç nə almaq mümkün deyil. Onu da ingilis tacirləri bura gələndən bütün ölkədə ipəyə vergi qoyan paşanın əli ilə almaq olar. Onların Dərbəndə gətirdiyi ingilis mallarının böyük hissəsini həqiqi dəyərindən çox aşağı qiymətə paşa özü götürürdü. İngilislərin satmaq üçün Dərbənddən Bakıya göndərdikləri mallar təqribən 1000 funt sterlinq məbləğində aşağıdakılardan ibarət idi: 100 ton qarazehi, 7 top zərif mahud, 2 çəllək qırmızı boya, 2 çəllək qalay, 4 çəllək iplik yumaq, paşa dəyişmək yolu ilə onlar üçün min batman xam ipək tədarük etmişdi. Ölkədə qarmaqarışıqlıq və quru yolla səyahət çox qorxulu olduğundan, onlar həmin malı paşanın köməyi olmadan əldə edə bilməzdilər[49]. Göründüyü kimi, türk hakimi ipək ticarətində bilavasitə iştirak edir və əcnəbilərlə ticarət onun əlindən gəlib keçirdi. İngilis tacirləri xam ipək alıb Həştərxana yola düşdülər və uzun əzab-əziyyətdən sonra öz malları ilə sağ-salamat ora çatdılar. İngilislərin Xəzər dənizində ticarəti bununla başa çatdı.

Türklərin 1578-ci ildə Xəzər dənizinin qərb sahillərini zəbt etməsi ingilislərin burada ticarəti genişləndirmələrinə xeyli dərəcədə mane oldu. XVI əsrin birinci yarısında Şirvanda yaranmış əlverişsiz siyasi vəziyyət üzündən karvan ticarəti yollarının tənəzzülə uğraması müşahidə edilir. Bununla əlaqədar Bakının beynəlxalq tranzit ipək ticarətində başlıca dəniz limanı kimi əhəmiyyəti artır. Bu ticarətdə rus tacirləri də iştirak edirdilər. XVI əsrin 60-cı illərində feodal çəkişmələrinin azalması, Səfəvi dövləti ilə Osmanlı Türkiyəsi arasındakı müharibənin müvəqqəti olaraq dayanması ilə əlaqədar bu ticarət genişləndi. Dəniz ticarəti ilə bağlı sahil boyunca karvansaralar tikilməsi (bu günədək qalmamışlar) də Bakının beynəlxalq ticarətdə mühüm rol oynadığını təsdiq edir[50]. Şamaxıda rus ticarət faktoriyası təsis olundu, dəniz yolu ilə Bakıdan keçərək Şirvana gələn rus, xüsusilə Moskva tacirlərinin sayı artdılar. Rus tacirləri Bakıdan əsasən duz, neft, zəfəran və ipək aparırdılar. XVI əsrdə rus tacirləri Bakı neftini Həştərxan yolu ilə təkcə başlıca olaraq hərbi işdə və boyakarlıq texnikasında həlledici kimi istifadə olunan Rusiyaya deyil, həmçinin Qərbi Avropa ölkələrinə də aparırdılar. Bakı nefti Şamaxıya da gətirilirdi; burada rus tacirləri onu Avropaya ixrac etmək üçün alırdılar. Bakı neftini Gilan tacirləri tərəfindən busalarda (iri qayıq) Manqışlağın gəmi körpülərinə daşınır, oradan isə karvan yolu ilə Xivəyə, Buxaraya və digər Orta Asiya şəhərlərinə göndərilirdi[51], Gilan tacirlərinin Bakı ilə ticarəti türklər 1578-ci ildə Xəzər dənizinin Bakıdan Dərbəndədək qərb sahillərini tutandan[52] - rus

tacirlərinin Həştərxandan İrana dəniz ticarəti yolu Xəzər dənizinin şərq sahillərinə keçəndən sonra da kəsilmədi. Rusiyadan Şirvan və İran şəhərlərinə əsasən Bakı vasitəsilə qiymətli xəzlər - samur, qara-qonur tülkü, sincab xəzləri, metal məmulatlar və digər mallar gətirilirdi[53]. Beynəlxalq ipək ticarətində Şamaxıda və Bakı qalasında karvansaraları olan hind tacirləri yaxından iştirak edirdi. XVI əsrin sonlarında Şirvandan Bakı vasitəsilə Rusiyaya, İrana, Türkiyəyə, İtaliyaya, Fransaya, Hindistana və digər ölkələrə hər il yüz min puda yaxın xam ipək ixrac olunurdu[54]. Şirvan şəhərlərində xam ipəyin pudunu 15-16 manata alan rus və Avropa tacirləri onu öz ölkələrində 50-60, hətta 70 manata da satırdılar[55]. Şirvan sənətkarlarının ipək məmulatları, o cümlədən darai (zolaqlı ipək parça), kamka (üzərində eyni rəngli naxış toxunmuş ipək parça), atlas, tafta və digər parçalar Bakı vasitəsilə Moskva dövlətinə aparılırdı[56].

XVI əsrdə Qərbi Avropa ölkələrindən, Fransa və İngiltərədən Şirvan şəhərlərinə, Bakıya, Şamaxıya, Dərbəndə, Şirvanın feodal əyanlarının istifadə etdikləri məxmər, al parça, atlas, zərxara, müxtəlif rəngli bahalı ingilis mahudları, qarazehi idxal olunurdu[57]. Şirvanın şəhərlərinə İrandan və Cənubi Azərbaycandan da mallar gətirilirdi. Yəzd, Kaşan, Təbriz, Ərdəbil kimi toxuculuq mərkəzlərindən Şirvan şəhərlərinə qızıl və gümüş saplarla işlənmiş bahalı zərxara, ipək parçalar gəlirdi. Azərbaycan Tarixi Muzeyinin ekspozisiyasında XVI əsrdə Bakıda istifadə olunmuş zərxara ipək parçaların nümunələri nümayiş etdirilir[58].

Külli miqdarda «Bakuyə» möhürlü mis pullar və sonuncu Şirvanşahların XVI əsrin birinci yarısında Şamaxıda kəsilmiş xırda gümüş sikkələri - Şirvan şəhərləri ilə Azərbaycanın digər şəhərləri arasında daxili ticarət getdiyini göstərir. İstər Bakının İçərişəhər hissəsində və Abşeronda, istərsə də Azərbaycanın digər şəhərlərində külli miqdarda belə sikkələr tapılmışdır[59]. Bu tapıntılar ölkədə qızğın daxili ticarətin mövcud olduğunu, şəhər həyatının inkişaf etdiyini təsdiqləyir. Eyni zamanda, Səfəvi şahlarının Bakı, Şamaxı və Azərbaycanın digər şəhərlərinin zərbxanalarında kəsilmiş gümüş sikkələri də tədriclə tədavülə daxil olurdu. XVI əsrin ikinci yarısından etibarən Qərbi Avropa tacir-səyyahlarının Şamaxı və Bakıya gəlmələri ilə əlaqədar müxtəlif Avropa dövlətlərinə məxsus talerlər də tədavüldə istifadə edilməyə başladı[60]. Türklər 1578-ci ildə Bakını, Şamaxını və Şirvanın digər şəhərlərini tutduqdan sonra Səfəvi şahlarının adından sikkə kəsilməsi dayandırıldı, tədavülə Osmanlı sultanlarının adı olan sikkələr daxil oldu. XVI əsrin 70-ci illərindən, səyyahların qeyd etdikləri kimi[61], Səfəvilərlə Türkiyə arasında hərbi əməliyyatların və daxili feodal çəkişmələrinin bərpa olunması ilə əlaqədar Bakı və Dərbənd yolu ilə beynəlxalq ipək ticarətinin - tənəzzülə uğraması, bunun nəticəsində isə şəhər həyatının zəifləməsi müşahidə edilir.

## § 5. XV-XVI əsrlərdə Şirvanda feodal bəxşişləri

Şirvanda feodal bəxşişlərinin araşdırılmasında mənbə Şirvanşahlar, türk sultanları, Səfəvi şahları və divan-ül sədarə (Sədarət divanı) adından fars və türk dillərində tərtib olunmuş XV-XVI əsrlərə aid fərmanlardır. Həmin sənədlərdən 7-si şeyx Əbu Səid Əbülxeyr, 11-i isə Bibiheybət məqbərəsinə aiddir. Göstərilən 18 fərman T. M. Musəvi[1], Bibiheybət məzarına aid olan 2 fərman isə İ. P. Petruşevski[2] tərəfindən çap olunmuşdur.

Alimliyi ilə məşhur olan dərviş Əbu Səid Abdal Bakuyi XVI əsrdə Bakıda yaşamışdır. Məhəmməd ibn Mahmud Amili «Kitab-i Nəfais əl-fünun fi Arais al-iyun»[3] adlı əsərində ondan bəhs etmişdir. Fərmanlara və A.A.Bakıxanovun məlumatına görə, Əbu Səidin Bakının qala divarlarından kənarda olan qəbri və hücrəsi torpaq altında qalmış, məscid və onun gəlmə qonaqlar üçün evi isə hərbi əməliyyatlar nəticəsində uçulub-dağılmışdır. Həmin binaların olduğu yer «Xəlifə damı» adı ilə tanınırdı və indiki «Təzəpir» məscidinin ərazisində yerləşirdi. 1817-ci ildə Əbu Səidin türbəsi və zaviyəsi bərpa edilmişdi[4]. XX əsrin əvvəllərində bu ərazidə indi fəaliyyət göstərən Təzəpir məscidi[*] tikilmişdir.

Şiələrin sitayiş etdiyi ikinci türbə - 600 ildən çox bir müddət ərzində Şirvanın erkən orta əsr abidələrindən olan Bibiheybət məqbərəsi Bakı yaxınlığındakı Şıxlar kəndindədir. Rəvayətə görə türbədə yeddinci imam Museyi Kazımın xəlifənin təqibindən Bakıya qaçan və burada ölən qızı dəfn olunmuşdur.

XIII əsrdə türbədən, məsciddən, sərdabə və məzarlardan ibarət olub, hasara alınmış bu abidə kompleksi tikildikdən sonra orada şeyxlər və dini təriqət üzvləri məskunlaşmışlar[5]. Göstərilən məqbərələrə dair XV-XVI əsrlərə aid sənədlər sosial təsisatların vəqf və soyurqalların səciyyələndirilməsi üçün çox əhəmiyyətli materialdır. Həmin qəbildən ilk sənəd Şah I Təhmasibin Bakı yaxınlığındakı Zığ kəndinin bütün sərvət və əmlakı ilə birlikdə Bibiheybət məqbərəsinə vəqf edildiyini təsdiqləyən 1547-ci il tarixli fərmanıdır. Lakin türk sultanı III Muradın 1591-ci il tarixli fərmanında Əmir Xəlilüllah vəqfinin əlavə gəlirindən Bibiheybət məqbərəsinin xidmətçisi Şərəfəddin Əliyə gündə dörd axça məbləğində maaş təyin olunduğu qeyd edilir. Vəqfin gəliri ziyarətə gələnlərin nəzir kimi verdikləri qoyun, pul və digər əşyalardan ibarət idi. Bu, Şirvanşah Xəlilüllah (1417-1465) zamanında həmin məzara vəqf torpaqlarının bağışlandığını göstərir. I Şah Abbasın 1607-ci il fərmanından Bibiheybət məzarına mütəvəlli təyin olunduğunu, Zığ kəndinin malucəhatının adı çəkilən məqbərənin soyurqal və müdafiəsinə verildiyini, üç neft quyusunun üşrdən, mütəvəlliyə, türbənin dərvişlərinə və Zığ kəndinin sakinlərinə məxsus 1500 baş qoyunun otarılması üçün çobanbəyi, mal-i bağ, vergilərindən, Duldərə torpağının pambıq və buğda əkinlərinin üşrdən azad olunduğunu

[*] Təzəpir məscidini — məscidin girəcəyində dəfn olunmuş Bakının kübar qadınlarından Nabat xanım Aşurbəyli Rzayeva tikdirmişdir.

öyrənirik. Şeyx Qulaməliyə Zığ kəndində öz xeyrinə malücəhat və Duldərədəki bağlardan, buğda və pambıq əkinlərindən, habelə üç neft quyusundan alınan bütün vergiləri yığmaq ixtiyarı verilmişdi; dərvişlər, onların əmələləri və rəiyyəti divanın və qoşunun xeyrinə ərzaq (ələfə) və iş (biyar və şikar) mükəlləfiyyətlərindən azad olunurdu. 1000 qoyunu olan şeyx, 500 qoyunu olan rəiyyət çobanbəyi vergisindən azad edilirdilər. Həmin vaxtdan bütün vergilər mütəvəllinin və məqbərənin xeyrinə toplanmalı idi[6]. Beləliklə, Zığ kəndinin torpağı məqbərənin vəqfi idi və həmin torpaqdan dövlətə çatası vergi soyurqal kimi məqbərəyə bağışlanırdı, məhz buna görə də Bibiheybət məqbərəsinə aid fərmanlarda Zığ kəndinin ərazisi hər dəfə soyurqal (5, 8, 9 nömrəli sənədlər) və vəqf (1, 3, 6, 7, 10, 12 nömrəli sənədlər) adlandırılır. Göstərilən fərmanlardan (4 nömrəli sənəd) görünür ki, vəqf əmlakı, eyni zamanda faktik olaraq, soyurqal demək idi, belə ki, o, birbaşa qohumluq xətti ilə irsi sahiblik xarakteri daşıyırdı, yəni mütəvəllilik vəzifəsi və onun vergi hüququ və inzibati imtiyazları irsən keçirdi. Bibiheybət məqbərəsi mütəvəlliliyi vəzifəsinin irsiliyi, bu qəbildən olan bir sıra fərmanlarda əksini tapmışdır. Şeyx Bünyad öldükdən sonra onun oğlu Qulaməli mütəvəlli təyin edilmişdi. Sultan III Muradın fərmanlarından aydın olur ki, bu vəqf hələ Şirvanşah I Xəlilüllah zamanında, yəni 1417-1465-ci illər dövründən mövcud olmuşdur. Bibiheybət abidə kompleksindəki məscid XIII əsrdə tikilmişdir[7]. Deməli, Bibiheybət məqbərəsinin mütəvəlliləri haqqında məlumatın yalnız XVI əsrin birinci yarısına aid olmasına baxmayaraq, onun 600 il bundan əvvəl mövcudluğunu güman etmək mümkündür.

Mütəvəllilərin varislik qaydası 300 ildən çox bir müddət ərzində müşahidə edilir. Fərmanlarda göstərildiyi kimi, mütəvəllilər, əslində, vəqfin sahibi idilər və dövlət onun bütün vergilərini məqbərəyə bağışlayırdı. Bu soyurqalın səciyyəvi cəhəti vergi imtiyazlarının vəqf ərazisinin asılı əhalisinə deyil, vəqfin və soyurqalın sahibinə aid olması idi. Soyurqal sahibinə indiki halda mütəvəlliyə rəiyyətdən şəxsi rentasından əlavə, onların digər vergilərlə birlikdə mərkəzi hökumətin xəzinəsinə (divana) ödəməli olduqları malücəhat payını öz xeyrinə toplamaq ixtiyarı verilirdi. Lakin maliyyə məmurları şahın fərmanlarına baxmayaraq, onları tez-tez pozur və soyurqal sahibinin yığmadığı vergiləri kəndlilərdən tutub alırdılar. II Şah Abbasın 1656-cı il tarixli fərmanında Zığ kəndi rəiyyətinin şikayəti ilə əlaqədar deyilirdi ki, «... qeyd olunan kəndin sərvəti və əmlakı imam övladı Bibiheybətin (ona və babalarına salam olsun) pak və nurani asitanəsinə soyurqal verilmişdir. Badkuyə rəiyyət və amilləri isə hökm və qaydalara zidd olaraq, hər il Şirvan ölkəsində soyurqal verilmiş mahaldan alınması məmul olmayan cüftbaşı, dəstgahbaşı və yurtanə adı ilə onlardan müəyyən məbləğ alırlar. Bu haqda [onlar] Şirvan bəylərbəyisi adına xeyirxah hökm verilməsini xahiş etdilər». Fərmanda daha sonra deyilir: «Badkuyənin rəiyyətləri, amilləri, tituldarları və darğalarının həmin yerə və qeyd olunan soyurqal mahalının vücuhatına hər hansı ünvanla qarışmaları, şərik çıxmaları, pay almaları məmul olmamışsa, məmul olduğu təqdirdə isə əgər Badkuyə rəiyyətlərinə aid olmamışsa, qərar versin ki, qeyd olunan kəndin

rəiyyətlərinin vəziyyətlərinə təcavüz etməsinlər, əziyyət verməsinlər...»[8]. Fərmanın məzmumundan məlum olur ki, söhbət ehtimal ki, dövlət vergilərinin toplanmasını icarəyə götürən Bakı icarədarlarından və inzibati polis funksiyaları daşıyan, XVII əsrdə isə divan üçün vergi yığmaqla məşğul olan darğalardan gedir. Sonuncu ifadədə göstərilir ki, soyurqal mahalında göstərilən vergiləri yığmaq məmul olduğu halda belə, onu Bakı icarədarları deyil, soyurqal sahibi toplamalı idi. II Şah Abbasın göstərilən fərmanı şeyxin vergi imtiyazlarını [müafi] təsdiq edərək, xəzinəyə gedən vergiləri ona güzəşt edirdi. Maliyyə məmurlarının və icarədarların Zığ kəndlilərindən qanunsuz olaraq topladıqları vergilər aşağıdakılar idi:

çüftbaşı - bir cüt öküz qoşqusundan alınan vergi,

dəstgahbaşı - Abşeronda xalça karxanalarından toplanan vergi[9],

yurtanə - tüstü vergisi (hər yurddan, evdən çıxan tüstü vergisi).

Məlumdur ki, XVII əsrdə və ondan əvvəl Abşeronda Xilə və Suraxanı kəndlərində XVI əsrə aid nümunələri dövrümüzədək gəlib çatmış gözəl xalçalar toxunurdu. Xilə kəndində hələ o vaxtlar xalça karxanası var idi.

Fərman tiyuldarların soyurqalın gəlirindən pay almalarını qəti qadağan edirdi. Lakin göründüyü kimi, məmurlar, belə cəhdlərə yol verirdilər. Şah I Təhmasibin 1547-ci il tarixli digər bir fərmanında göstəriş verilirdi ki, «... ölkənin hakimləri, tiyuldarları və darğalarının heç biri, heç bir adla qeyd olunan kəndin ətrafına dolanmayaraq, hər hansı həvalə və ya tələb etməsinlər»[10].

Bibiheybət vəqfinin sənədlərinə əsasən, soyurqal təsisatı haqqında aşağıdakı nəticəyə gəlmək mümkündür: əgər XIII-XIV əsrlərdə monqol istilahı soyurqal hökmdarın ona xidmət göstərmiş adama, sözün geniş mənasında, bəxşişi, hədiyyəsi demək idisə, XIV əsrin ikinci yarısından soyurqal xüsusi mülk növünə, hətta bağışlanmış əraziyə deyilirdi.

XV əsrdə soyurqal bəxşişi hökmdara hərbi xidmətlə bağlı olub, irsi xarakter daşıyırdı. Bütöv vilayətlər soyurqal olaraq bağışlanılırdı. Artıq XVI əsrdə şah I Təhmasib və onun varisləri dövründə soyurqal daha çox din xadimlərinə və bürokratiya nümayəndələrinə verilirdi. XVII əsrdə soyurqal sahibi olan din nümayəndələrindən hərbi xidmət tələb olunmurdu; ehtimal ki, onlar feodal qeyri-nizami döyüşçü dəstəsinə (çərik) müəyyən edilmiş sayda (müafi) soyurqal ərazisinin rəiyyətinə yox, soyurqal sahibinə məxsus olması səciyyəvi idi.

Soyurqal sahibinə vergi verən əhalidən, şəxsi rentasından əlavə, rəiyyətin başqa vergilərlə birlikdə mərkəzi hökumətin xəzinəsinə (divana) ödəməli olduğu malü-cəhat payını da öz xeyrinə toplamaq ixtiyarı verilirdi. Soyurqalın səciyyəvi cəhətlərindən biri də irsilik prinsipi idi. Səfəvilər dövründə soyurqallar kiçik torpaq sahibləri idi (məsələn, Abşerondakı Zığ kəndi).

Bibiheybət məqbərəsinə məxsus Zığ kəndinin vəqf əmlakı da soyurqal adlanırdı, belə ki, mütəvəlli vəzifəsinin irsiliyi və onun vergi və inzibati imtiyazları (müafi) bununla bağlı idi. Bibiheybət fərmanlarında soyurqal irsi sahiblikdir. Bu məqbərədə rəiyyətdən toplanan vergidən əlavə ziyarətə gələnlərin nəzirlərindən də

xeyli vəsait yığılırdı. Mütəvəllilərin əlində onlara müəyyən edilmiş maaşdan əlavə, istər natural, istərsə də pul şəklində böyük vəsait toplanırdı. Mütəvəllilər tədricən vəqf torpaqlarının və əmlakının tam səlahiyyətli sahibinə çevrilirdilər.

Vəqf institutunun öyrənilməsində Əbu Səid məqbərəsinə aid sənədlər çox mühüm əhəmiyyətə malikdir. 1591-ci ildən 1699-cu ilədək verilmiş yeddi fərmanda Şeyx Əbu Səid Əbül Xeyir məqbərəsinə mütəvəllilərin birbaşa qohumluq üzrə varislik hüququna ciddi riayət edilməklə təyin olunmasından danışılır, məqbərənin vəqf əmlakına dair məlumat verilir. Lakin 1491-ci ilə aid vəqfnamə mətni istisna edilməklə, daha erkən sənədlər qalmamışdır. Bu sənədlər sırasına daxil olan 1591-ci il fərmanından aydın olur ki, Şirvanın Osmanlı qoşunları tərəfindən işğal olunduğu dövrdə (1578-1607) Şibanidəki (Bakı yaxınlığında) vəqfə məxsus əkin yerindən gələn gəliri Osmanlılar mənimsəyirdilər. Türbənin ehtimal ki, hərbi əməliyyatlar vaxtı dağılmasına baxmayaraq, Şibani torpağından gəlir gəlməkdə davam etmişdir. Sultanın fərmanı ilə vəzir Həsən paşa məqbərənin zaviyədarı və əkin yerinin sahibi təyin edilir və vergi halında gələn gəlir paşanın sərəncamına verilirdi. Vəqfin gəlirinə 30 il Osmanlılar yiyələnmişdilər. Osmanlı paşalarının Şirvanda hökmranlığı dövründə əkin yerləri üçün vergilər əkinçilərdən məhsuldan pay kimi deyil, nağd pulla alınırdı. Bu qayda sədarət divanının 1607-ci il fərmanına əsasən I Şah Abbas dövründə də qalmışdır. Həmin fərmanda Əbu Səid məqbərəsinə onun I Şah Abbasın qoşunları Bakını aldıqdan sonra sədarət divanına xahişə gələn övladlarından Şeyx Sədinin mütəvəlli təyin olunmasından danışılır, onun əvvəllər də bu məqbərənin mütəvəllisi təyin olunduğu və Şibani əkin yerlərinin həmin məqbərəyə vəqf edildiyi təsdiqlənir. Fərmanda Şeyx Sədinin həmin məqbərənin mütəvəllisi təyin olunması təsdiqlənir və əkinçilərə göstəriş verilir ki, onlar ilbəil məhsul əvəzinə verdikləri pulu Şeyx Sədiyə ödəsinlər ki, o, həmin pulları şəriətə müvafiq qaydada xərcləsin. Fərmanda maliklərə və kəndxudalara əmr olunur ki, məqbərəyə vəqf edilən əkin yerini Şeyx Sədinin sərəncamına versinlər və bu yerin məhsulundan heç bir vergi tələb etməsinlər[11]. Bu sənədlərdən mütəvəlli vəzifəsinin irsi səciyyə daşıdığı görünür.

Sədarət divanının vəqf əmlakı və mütəvəlli vəzifəsi haqqında 1699-cu il fərmanı xüsusilə maraqlıdır. Həmin fərmanda I Xəlilüllahın oğlu şirvanşah Fərrux Yasarın 1490/91-ci il vəqfnaməsinin mətninin əsli qalmışdır. Bu, Şirvanşahların XV əsrdə müəyyən şərtlərlə türbəyə bağışladığı vəqf əmlakının sadalandığı dövrümüzədək gəlib çatmış yeganə vəqfnamə nümunəsidir. Vəqfnamənin mühüm əhəmiyyətə malik olduğunu nəzərə alaraq, onun mətnini bütünlüklə veririk: «Bu xoşsaatlı vaxtlarda xeyir-dua əldə etmək məqsədi ilə öz xalis malım hesabına Şibani əkinəcəyini, oradakı qatı neft quyusu ilə birlikdə, Şüvəlandakı beş üzüm bağı sahəsini və meşə yerini, habelə Bilgəhdəki üzüm bağı sahəsini satın alıb abad edərək, Badkuyə yaxınlığında dəfn olunan seçilmiş pəhrizkar rəhmətlik Şeyx Əbu Səidin müqəddəs məzarına şəriətə müvafiq qayda üzrə vəqf edib, açıqcasına dini mühafizəyə verdim. Onun müttəfiqliyini isə həmin pirin kişi övladlarına

tapşırdım. Bu şərtlə ki, qeyd olunan [pirin] kişi övladları həmin mahalın məhsulu hesabına əldə edilən vəsaiti məzara və öz iaşələri üçün, habelə məqbərənin işıqlandırılması üçün sərf edərək, artığını isə kasıblara və oranı məskən edərək, qonaq qalan dərvişlərə ziyafət versinlər. Hərbçilərə və varlılara, habelə vəsait sahiblərinə ondan bəhrə* və pay verməsinlər. Hakimlər, amillər, habelə divan və vəqf mübaşirləri qeyd olunan vəqflərin mütəvəllilərindən bir dinar [pul] və ya bir batman [məhsul] tələb etməsinlər. Vəqf qaydalarının dəyişdirilməsinə yol verməsinlər. Qeyd olunan şərtləri dəyişdirməyə çalışan və cəhd göstərən adamlara allahın, məlakələrin və bütün adamların lənəti nəsib olsun. Düzgün yola sövq edən həqiqətlə dolu ayənin məzmunundan özlərini qorusunlar və çəkinsinlər. [Hansı ki, orada deyilir]: «Bunu eşitdikdən sonra hər hansı adam onu dəyişdirərsə, günahı onu dəyişdirən adamların üstünə düşəcəkdir. Hərtərəfli olaraq bu qayda ilə rəftar edib, həmin vəziyyətin təsbid olunması və davam etməsi yolunda çalışaraq buyruqdan kənara çıxmasınlar»[14].

Sədarət divanının fərmanı böyük əhəmiyyətə malikdir, belə ki, həmin sənəddə Şirvanşahların XV əsrdə müəyyən şərtlərlə türbəyə bağışlanmış vəqf əmlakının sadalandığı dövrümüzədək gəlib çatmış yeganə vəqfnamə nümunəsi verilmişdir. Sənəddə vəqfin sinfi xarakteri aydın surətdə nəzərə çarpır. Vəqfnamə məqbərəyə verilən Şibani əkin yeri, Bilgəh və Şüvəlandakı üzüm bağları, meşə yeri feodal torpaq sahibliyinin xüsusi kateqoriyasını təşkil edir. O, şirvanşahın nəzdində zaviyə olan məqbərəyə vəsiyyət etdiyi tərpənməz əmlakdan, becərilən torpaqlardan, habelə qara neft quyularından ibarət idi. Gəlirin bir hissəsi xeyriyyə işlərinə, kasıbların və dərvişlərin yedirilməsinə sərf olunurdu. Vəqfin gəlirinin böyük bir hissəsi onun mütəvəllilərinə çatırdı. Dini vəzifələrin (indiki halda mütəvəlli şeyxləri) irsiliyi qaydasına görə, həmin vəqf irsi mülkiyyətə çevrildi. Vəqfin faktik sahibi olan mütəvəlli vəzifəsi isə (vəqfnamədə qeyd olunmuş şərtlə) adətən irsi olaraq Əbu Səid Əbül Xeyir nəslinin şeyx övladlarına keçirdi.

Ehtimal ki, bu vəqf möhtərəm sufi şeyxlərinin övladlarını dolandırmaq üçün təsis edilən xüsusi əhli vəqflərdən olmuşdur[15]; belə vəqflərdə, əslində, vəqfin sahibi olan mütəvəlli vəzifəsi irsən həmin nəslin başçısına məxsus idi. «Vəsiyyət olunan Allah mülkü sayılır, ancaq onun gəlirindən vəqfin vəsiyyət edildiyi din və ya xeyriyyə idarəsi, şəxs, yaxud nəsil istifadə edir». Bizim məlumatlarımız İ. P. Petruşevskinin aşağıdakı fikrinin doğruluğunu təsdiq edir: «Söhbət daşınmaz əmlakdan getdiyindən, özgəninkiləşdirilə bilməzlik və vəsiyyətçilərin qoyduğu şərtlərə - bu iki əlamətə görə vəqfə feodal torpaq sahibliyinin şərti forması kimi baxılmalıdır»[16].Nəzərdən keçirdiyimiz vəqflərdə mütəvəllilər vergi imtiyazlarından istifadə edirdilər və divana heç nə ödəmirdilər; divana məxsus bütün vergiləri toplamaq hüququ vəqf sahibinə keçirdi.

Gətirdiyimiz məlumatlar iki müxtəlif feodal təsisatının - soyurqal və vəqfin

---

* Bəhrə — Sudan istifadə üçün su sahiblərinə məhsulun on beşdə biri həcmində verilən vergi.

özünəməxsus və müştərək əlamətlərini aşkara çıxarır.

## NƏTİCƏ

VI əsrin I yarısında Sasanilər dövlətinin şimal-şərq ucqarlarında Şirvanşahlar dövləti adlı kiçik bir feodal qurumu yarandı. Bu dövlətin yaranması Sasani hökmdarı I Ərdəşirin (224-241), digər versiyaya görə isə imperiyada İran və Azərbaycanda feodalizmin inkişafı prosesinə təkan verən şimal vilayətlərinin mühafizəsi üçün qohumlarını onlara hakim təyin edən I Xosrov Ənuşirəvanın (531-579) adı ilə bağlanılır. Ərəb tarixçiləri həmin hakimlər arasında şah titulu bağışlanmış Şərvan şahın adını çəkirlər. Mənbələrə görə, ilk Şirvanşahlar fars mənşəli olmuşlar. Onların titulu tarixdə Sasanilər dövründən məlum olan Şərvan, yaxud Şirvan vilayətinin adından gəlir. Sərhəd əyalətləri hakimlərinin daşıdığı şah titulu iri torpaq mülkiyyəti sahibi və Sasani şahının vassalı olan həmin feodalların xeyli dərəcədə müstəqilliyini göstərir. Sasanilərin dağ keçidlərini V-VI əsrlərdə daim Cənubi Qafqaza və Şirvana basqın edən köçəri türk tayfalarından qorumaq üçün təyin etdikləri ilk Şirvanşahların adları barədə məlumatımız yoxdur. Biz ancaq onların nəslinin I Xosrov Ənuşirəvana, yaxud Bəhram Çubinə bağlandığını, mənbələrin məlumatına görə, ərəblərin Dərbəndi və Şirvanı istila edərkən, orada Şəhriyar, digər versiyaya görə isə ehtimal ki, titul olan Şəhr-Varaz («dövlətin qabanı» deməkdir) adlı hakimə rast gəldiklərini bilirik. Çəkilən ad və titul, görünür, eyni şəxs - Sasani şahından vassal asılılığında olan Şirvanşaha məxsusdur.

Mənbələrdə erkən Şirvanşahların hakimiyyətinin nə vaxt sona çatdığı və onların nə vaxtdan xəlifənin təyin etdiyi hakimlərlə əvəz olunduğu xəbər verilmir. Ehtimal ki, Xilafətin Şirvanı işğal etdiyi ilk dövrlərdə (VII əsr) ərəblər Şirvanşahları xəlifənin vassalı kimi hakimiyyətdə saxlamışlar. Lakin VIII əsrdə Şirvanı ərəb hakimləri idarə etməyə başlamışlar. Bəlazuri 797-798-ci illərdə hakimiyyət sürmüş əş-Şəmax ibn Şücanı Şirvanın hökmdarı (məliki) adlandırır. Ondan sonra h. 183 (799)-cü ildə Şirvan, Azərbaycan və Bab əl-Əbvaba Yəzid ibn Məzyəd əş-Şeybani hakim təyin edilir. O, h. 185 (801)-ci ildə Bərdədə ölmüşdür. H. 247 (861)-ci ildə xəlifə Mütəvəkkilin ölümündən sonra baş verən hərc-mərclikdən istifadə edən Şirvan hakimi Xalid ibn Yəzidin oğlu Heysəm özünü müstəqil elan etdi. Şirvanşah titulunu qəbul edərək, Məzyədilər sülaləsinin əsasını qoydu. Elmi ədəbiyyatda Kəsranilər və Dərbəndilər adlandırılan sonrakı Şirvanşahlar ərəb mənşəli olub, Məzyədilər xanədanının birbaşa varisləri və davamçıları olmuşlar. Məzyədi Şirvanşahlar yerli nəsl zadəganları ilə nikah vasitəsilə qohumlaşaraq, onlar tərəfindən assimilyasiyaya uğradılmış və öz ərəb mənşələrindən üz döndərmişlər. XI əsrdə Şirvanşahların iranlılaşması onların siyasi, sosial və mənəvi həyatının bütün sahələrinə nüfuz etmişdi. Artıq Azərbaycan mədəniyyətinin inkişafının vüsət aldığı XII əsrdən Şirvanşahları yerli

əhali tamamilə assimilyasiya etdilər. Onlar artıq öz ənənələri, öz məişət tərzi olan yerli hakimlər idi.

Şirvanşahlar öz ərazilərini qonşularının torpaqları hesabına genişləndirmək məqsədilə feodal ara çəkişmələri və işğalçılıq müharibələri aparırdılar. Onlar, həmçinin, öz müstəqillikləri uğrunda ərəblərlə, səlcuqlarla, xərəzmşahla, monqollarla və b. ilə mübarizə aparırdılar. Şirvanşahlar öz feodal dövlətlərində suveren hökmdarlar idi. Onlar XI əsrdən monqol işğalınadək öz adlarından sikkə kəsirdilər. Monqollar dövründə onlar bu hüquqdan məhrum olurlar və yalnız Cəlairilər dövründə yenidən anonim gümüş sikkə zərb edirlər. Sonralar, şirvanşah I İbrahim və onun oğlu Xəlilüllahın zamanında sikkələr adsız kəsilirdi. Fərrux Yasarın vaxtından isə sikkələr yenidən şirvanşahların adı ilə kəsilməyə başladı.

Şirvanşahların öz qoşunu var idi. Mənbələr Fərrux Yasarla Şah İsmayıl arasında Cabani yaxınlığındakı vuruşmada Şirvanşahın 20 min süvari və 6 min piyadadan ibarət qoşununun iştirak etdiyini göstərirlər.

Şirvan dövlətinin paytaxtı Şamaxı idi. XII əsrdən Bakı şəhəri iqamətgaha çevrildi və sonralar, XV əsrdə paytaxt tamamilə buraya köçürüldü. Şirvanşahlar müstəqil hakimiyyət sürür, yaxud tez-tez müstəqillikləri formal səciyyə daşıyırdı. Onların monqol hökmdarlarından vassal asılılığı daha güclü idi. Şirvanşahların bir sıra nümayəndələri - I Fəribürz, III Mənuçöhr, oğlu I Axsitan, I Şeyx İbrahim, Xəlilüllah görkəmli diplomat və dövlət xadimləri idi. Onlardan bəziləri - III Fəribürz, Kavus, I Şeyx İbrahim, Fərrux Yasar bacarıqlı sərkərdə olmuşlar, yadelli işğalçılarla vuruşmuş, Şirvan dövlətinin müstəqilliyi uğrunda mərdliklə mübarizə aparmışlar.

Şirvanşahlar elm, incəsənət və ədəbiyyata hamilik edirdilər. XII əsrdə Şirvanşahların sarayında poeziya və ədəbiyyat vüsət almış, Azərbaycan ədəbi məktəbi yaranmışdı. Onun içərisindən Nizami, Xaqani, Fələki və digər şairlər çıxmışdır. Rəsmi ədəbi dil fars dili idi. Ərəb dilindən ilahiyyatda və dini ayinlərdə istifadə olunurdu. Danışıq dili türk-Azərbaycan dili idi. Elmi əsərlər həm fars, həm də ərəb dillərində yazılırdı. Şirvanşahlar zamanında XII-XIII əsrin birinci çərəyində Şirvan şəhərlərində müdafiə istehkamları, sədlər, qalalar, qala divarları, bürclər tikilmişdi. Onlar məscid və xanəgahlar tikdirir, «müqəddəs şeyxlərə» sitayişə rəvac verirdilər. Bu dövr kənd təsərrüfatının yüksəlişi, şəhərlərin iqtisadi inkişafı, sənətkarlıq və ticarətin çiçəklənməsi, əmtəə, pul münasibətlərinin güclənməsi dövrü idi.

Şirvan xalqının yaradıcı qüvvələri feodal zülmü və ara müharibələrinə baxmayaraq, dövlətin iqtisadi və təsərrüfat həyatını tezliklə bərpa edir, bu isə feodal cəmiyyətinin irəliyə doğru hərəkətinə və inkişafına imkan yaradırdı. Dərbəndi Şirvanşahlar dövründə, I Şeyx İbrahimin hakimiyyəti zamanı şəhər mədəniyyəti, incəsənət və poeziyanın dirçəlişi nəzərə çarpır. XV əsrdən etibarən Şirvanşahlar dövlətinin təqribən 100 il davam edən müstəqillik və inkişaf dövrü başlayır. Şeyx İbrahimin oğlu Xəlilüllah paytaxtı Bakını abadlaşdırdı - gözəl

Şirvanşahlar saray ansamblını ucaltdı. Şirvanda möhkəm dövlət idarəçiliyi qanunlarına əsaslanan güclü dövlət aparatı, mürəkkəb inzibati idarə və özünün xəzinə aparatı olan vergi sistemi mövcud idi. Mürəkkəb xarici siyasi şəraitə baxmayaraq, Şirvanşahlar dövləti nəinki özünü tarmar və tamamilə məhv olmaqdan qoruya bilmiş, həm də Qafqazın və Yaxın Şərq ölkələrinin feodal dövlətlərinin taleyinə fəal təsir göstərmişdir. Şirvanşahlar dövləti on əsr ərzində öz müstəqilliyi uğrunda qəhrəmancasına mübarizə aparmasına baxmayaraq, 1538-ci ildən sonra faktiki olaraq aradan çıxdı. O, tarix səhnəsinə çıxan güclü Azərbaycan Səfəvilər dövləti qoşunlarının zərbələri altında süqut etdi və bu sülalədən təkcə adından başqa bir iz qalmadı.

## AŞURBƏYLİ SARA BALA BƏY QIZI

(1906-2001) - tarixçi, Bakıda neft sənayeçisi ailəsində dünyaya göz açmışdır. 1913-cü ildə müvəffəqiyyətlə imtahan verib "Müqəddəs Nina" Bakı qız tədris müəssisəsinin aşağı hazırlıq sinfinə qəbul olunmuşdur. Gimnaziya təhsilini başa vurmasına 1917-1920-ci illərin inqilabi hadisələri mane olmuşdur. 1920-ci ildə valideynləri ilə birlikdə İstanbula (Türkiyə) getmiş, orada Janna d'Ark fransız kollecində (Institusion sainte Jeanne d'Arc) oxumuş, buranı 1925-ci ildə uğurla başa vurmuşdur. Həmin il ailə Bakıya qayıtmış və S.Aşurbəyli Azərbaycan Dövlət Universiteti şərq fakültəsinin tarix-filologiya şöbəsinə daxil olmuş və buranı 1930-cu ildə bitirmişdir. Təhsil alması ilə yanaşı BXMŞ məktəblərində müəllimlik etmişdir.

Universiteti bitirdikdən sonra 1928-ci ildən 1931-ci ilə qədər Azərbaycan Tarix Muzeyində, Azərbaycanı Öyrənən Cəmiyyətin tarix-etnoqrafiya şöbəsində elmi işlə məşğul olmuş, daha sonra Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda elmi katib işləmişdir. 1933-cü ildən 1937-ci ilə qədər - əvvəlcə SSRİ EA Zaqafqaziya Filialı Azərbaycan şöbəsinin tarix bölməsində, daha sonra SSRİ EA Azərbaycan Filialının Tarix İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışmışdır.

1937-ci ilin əvvəlində qısa müddətliyə Leninqrad Şərqşünaslıq İnstitutunda işləmişdir. 1937-ci ildə Azərbaycan SSR Xalq Maarif Komissarlığı tərəfindən APİ-nin xarici dillər fakültəsinə fransız dili müəllimi göndərilmiş, eyni zamanda, bu sahədə öz ixtisasını artırmaq istəyərək, həmin fakültənin ingilis dili bölməsinə daxil olmuş, buranı 1941-ci ildə başa vurmuşdur. Həmin il Ə.Əzimzadə adına Azərbaycan Rəssamlıq Məktəbini də bitirmiş, Azərbaycan Dram Teatrında rəssam-dekorator işləmişdir. 1941-1944-cü illərdə Pedaqoji İnstitutda ingilis dilini tədris etmişdir. 1944-cü ildə iş yeri APİ-yə dəyişdirilmiş, burada fakültə dekanı və xarici dillər kafedrasının müdiri olmuşdur. Fakültə 1949-cu ildə ləğv edilənə qədər burada işləmişdir. 1944-cü ildə baş elmi əməkdaş əvəzi qismində Azərbaycan SSR EA Tarix İnstitutuna işə dəvət edilmiş və orada əvəzçiliklə 1947-ci ilin

oktyabrınadək çalışmışdır.

1949-1958-ci illərdə - Azərbaycan Dövlət Konservatoriyası xarici dillər kafedrasında baş müəllim işləyir. 1949-cu il mayın 27-də Leninqrad Şərqşünaslıq İnstitutunda dissertasiya müdafiə etdikdən sonra ona tarix elmləri namizədi alimlik dərəcəsi verilir. 1955-1958-ci illərdə Azərbaycan SSR EA Tarix Muzeyində orta əsrlər şöbəsinin müdiri olur. 1958-1961-ci illərdə Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutunda baş elmi əməkdaş işləyir. 1965-ci il dekabrın 10-da Tbilisidə dissertasiya müdafiə etdikdən sonra ona tarix elmləri doktoru alimlik dərəcəsi verilir. 1972-1974-cü illərdə respublika EA Tarix İnstitutunun orta əsrlər şöbəsinin müdiri olmuşdur. 1993-cü ildən ömrünün sonuna qədər Azərbaycan EA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi əməkdaşı işləmişdir.

S.B.Aşurbəyli Azərbaycan Rəssamlar İttifaqının üzvü idi, dəfələrlə müxtəlif sərgilərdə iştirak etmişdir. Rus, ingilis, fransız, alman, ərəb, fars və türk dillərini bilirdi. S.B.Aşurbəylinin 120-dən çox məqaləsi işıq üzü görmüşdür. Xarici ölkələrdə ingilis, fransız, türk və Çin dillərində 10-dək məqaləsi dərc edilmişdir. S.B.Aşurbəyli Şirvanın IX-X əsrlər xəritəsini hazırlamışdır. Onun tərəfindən bir neçə kitab fransız və ingilis dillərindən rus dilinə tərcümə edilmişdir. S.B.Aşurbəylinin rəsmləri dəfələrlə sərgilərdə nümayiş etdirilmişdir. Onlardan bəziləri xaricdə (Meksikada) saxlanılır. "Xalqlar dostluğu" ordeni (1986), Şöhrət ordeni (1996), "1941-1945-ci illər Böyük Vətən Müharibəsində rəşadətli əməyə görə" medalı (1946), "Əmək veteranı" medalı (1978) ilə təltif edilmişdir. Azərbaycanın əməkdar elm xadimidir (1982). Azərbaycan SSR Dövlət mükafatına (1986), Tağıyev mükafatına (1994), A.Bakıxanov adına mükafata (1994,1996), "İlin qadını" fəxri adına (1998) layiq görülmüşdür.

**Başlıca elmi əsərləri:**

Bombey professoru Modi Azərbaycan haqqında. "Maarif və mədəniyyət" məcmuəsi. 1925, N 2, səh. 37-38; Ə.Cəlil, Türk sənəti. İstanbul, 1928, kitabına resenziya - "Azərbaycanı öyrənmə yolu", 1930, N 4-5, səh. 91; Qədim Bakının memarlıq binaları. - "Azərbaycanı öyrənmə yolu", 1930, N 4-5, səh. 49-52 (latın əlifbası ilə); Из истории Баку (Мат-лы декабрьской (1944) сессии). - Изв.АзФАН СССР, 1945, N 1, с.76-77; Об истории сураханского храма огнепоклонников - В кн.: Памятники архитектуры Азербайджана. Сб. мат-ов. М.-Б. 1946, с.43-54, с табл.; Баку XVI-XVIII в. по описаниям путешественников. - Изв. АН Азерб.ССР, вып.1, 1947, N 1, с.63-72; Подводная крепость в Бакинской бухте (XIII в.) - Тр. Ин-та истор. и философ. АН Азерб.ССР, т. XII, 1955, с. 5-17; Ремесла и торговля раннесредневековых городов Азербайджана. - Тр. Музея истории Азербайджана, т.II, 1957, с. 149-165; Экономические и культурные связи Азербайджана с Китаем в период средневековья. - В сб. Материалы I Всесоюзн. конференции востоковедов в г. Ташкенте 4-11 июля 1957 г., Ташкент, 1958, с.233-255; О названии города

Баку. - Доклады АН Азерб.ССР, Т.IX, 1958, с.735-740; О датировке возникновения города Баку. - Доклады АН Азерб.ССР, т. XVII, 1961, N3, с. 252-258; Очерк истории средневекового Баку (VIII - нач. XIX вв.), Б., 1964, 336 стр; Государство Ширваншахов. Б., 1983, 343 стр.; Экономические и культурные связи Азербайджана с Индией в средние века. Б., 1990, 152 стр.; История города Баку. Период средневековья. Б., 1992, 406 стр.; Социально-экономическая и политическая история городов Ширвана XVI-XVIII вв. (10 п.л.). - Рукопись находится в архиве Института истории НАН Азербайджана.

**Onun barəsində:**

Azərbaycan Sovet Ensiklopediyası, I cild, B., 1976, səh.516; Sara xanım Aşurbəyli - 90 il. "Kim kimdir", 1996, N3; Sabir Gəncəli. Qadın, gözəllik və ülviyyət. Ensiklopedik toplu. B., 2001, səh. 236; AR Dövlət Arxivi, fond 387, siyahı 2, d.ba, v.2, iş 30, v.23; Materiallar S.Aşurbəylinin qohumu Ramiz Aşurlu tərəfindən təqdim olunmuşdur.

(Tamilla Kərimovanın rusca nəşr edilmiş «Azərbaycan Milli Elmlər Akademiyasının tarixindən» kitabından. Bakı 2005. səh. 314)

## ƏSİLZADƏ AŞURBƏYOVLAR NƏSLİ:

## ARİSTOKRATLAR, SƏNAYEÇİLƏR, MESENATLAR, MAARİFÇİLƏR

Hər böyük şəhərin həyatında elə adamlar, ailələr, soylar olur ki, onlarsız bu şəhərin tarixi imici və müasir siması sadəcə natamam olur. Köhnə Bakı haqqında söz açarkən, xüsusən də onun XIX-XX əsrlərin hüdudunda baş vermiş coşqun çiçəklənmə dövrünə toxunarkən, "neft fırtınasının" dalğalarında yüksəklərə qalxmış parlaq və özünəməxsus şəxsiyyətlər bolluğunda zadəgan Aşurbəyovlar nəsli ayrıca yer tutur.

Bu qədim və əsil-nəcabətli soyun təmsilçilərinə nüfuzlu neft sənayeçilərinin sırasında, iri təhsil müəssisələrinin himayədarları arasında, Bakı Şəhər Dumasının ən tanınmış üzvlərinin ("qlasnı"), maarifçilərin, mesenatların siyahısında, nəşriyyat işi sahəsində və ən səxavətli xeyriyyəçilərin cərgəsində rast gəlmək olar. Və hətta söhbət keçmişin əhli-kef, şuluqçu adamlarından düşəndə belə, şəhərin yaşlı insanlarının yaddaşında bu böyük və qollu-budaqlı nəslin bəzi nadinc təmsilçilərinin adları canlanır.

* * *

1872-ci ildə qopan neft fırtınasının qasırğası bu xeyli böyüyüb şaxələnmiş bəy nəslinin adi, dinc və özünə xas mühafizəkar həyat tərzinə soxulur, az qala bir saatın içində nəsillikcə Abşeron torpaq sahiblərini neft sənayeçilərinə çevirir. Onlardan biri Teymur bəy Qara bəy oğlu Aşurbəyov olmuşdur, onun Sabunçudakı mülkü neft çıxaran sanballı firmanın və sonralar onun oğulları tərəfindən uğurla

inkişaf etdirilən yeni ailə biznesinin təməlində dayanır.

Teymur bəy Aşurbəyov Sabunçuda geniş torpaqlara, təsərrüfat sahələrinə malik idi. "Neft fırtınası" zamanında o, neft göndəricilərindən birinə çevrilir. Son dərəcə səxavətli və geniş qəlbli bu insan öz sürülərini kasıb kəndlilər arasında bölüşdürür, görünür, onları "qara qızılla" müqayisədə o qədər də ciddi varidat saymırmış. Mömin, Allah adamı olan Teymur bəy eyni zamanda mütərəqqi düşüncəli bir insan olmaqla, öz övladları Əli bəy və Bala bəyə gözəl təhsil vermişdi.

Bir dəfə Tiflisdə özünün dostu, xalça və əntiq əşyalarla alver edən Sultanovun qonağı olarkən Teymur bəy onun 12 yaşlı qardaşı qızının gözəlliyinə elə valeh olur ki, dərhal onu öz kiçik oğlu Bala bəyə almaq arzusunu bildirir. Lakin hər şey öz vaxtında və tədricən olur: Bala bəy oxumaq üçün Tiflisə yola düşür. Burada o, gimnaziyanı, iqtisad kursunu bitirir, ən başlıcası da - İsmət xanım Sultanova ilə tanış olur və ona vurulur. Onların toyları əvvəlcə Tiflisdə, bir neçə gündən sonra isə Bakıda necə lazımdır o cür təmtəraq və zənginliklə edilir. Yeri gəlmişkən, yeni evlənənləri burada sürpriz Praçeçnı küçəsində (indiki Qoqol küç.28) filiqran bəzəkli, gümüşü qübbəli, dəbdəbəli apartamentləri olan əla bir ev gözləyirdi. Teymur bəy özü deyirmiş ki, "Tiflisdən gəlmiş gənc xanıma Sabunçuda yaşamaq layiq deyil". Odur ki, mülki mühəndis İosif Vikentyeviç Qoslavskinin layihəsi əsasında 1904-cü ildə bu möhtəşəm evi tikdirmişdi.

Teymur bəy Aşurbəyov səxavətli bir adam, mesenat kimi tanınırdı. O, Sabunçuda xəstəxananın və məktəbin tikintisinə, məscidlərin təmirinə və bərpasına, yoxsullara yardım üçün iri məbləğdə ianələr vermişdi. Öz vəsiyyətində onu Kərbəlada dəfn etmələrini xahiş etmişdi. Odur ki, arvadı Tutu xanım Aşurbəyova onun vəsiyyətini yerinə yetirmişdi. 1909-cu ildə Zabratdan olan 40 zəvvarın müşayiəti ilə ərinin cənazəsini Kərbəlaya aparmış, o müqəddəs məkanda torpağa tapşırmış və məzarın üzərində möhtəşəm bir məqbərə ucaltdırmışdır. Mərhumun vəsiyyətinə uyğun olaraq, daim məzar üzərində Quran oxuyan bir molla tutmuşdu. Kim bilir, bəlkə də həmin müqəddəs məkanda onun məzar-məqbərəsi indi də durur. Teymur bəy Aşurbəyovun - mehriban və ağıllı baxışları olan bu nurani qocanın yalnız bir fotoşəkli yadigar qalmışdır...

Əli bəy və Bala bəy Aşurbəyovlar öz atalarının başladığı işi genişləndirməklə, məşhur "Br.A-b i B-b Aşurbekovı" neftçıxarma şirkətini təşkil edirlər. Bu şirkətin Sabunçuda və Zabratda mədənləri vardı. 1910-cu ilin məlumatlarına görə, firma 24 neft quyusuna malik idi, onlardan 18-i fəaliyyət göstərir və neft verirdi, bundan başqa firmanın öz gəmisi də vardı. Qardaşların neft mədənlərində 50-dən çox adam çalışırdı. Əli bəy və Bala bəy "Q.Z.Taqiyev i K." səhmdar cəmiyyətinə də daxil idilər. Onları Tağıyevlə sıx işgüzar əməkdaşlıq və böyük şəxsi dostluq bağlayırdı. Təsadüfi deyil ki, Ə.Aşurbəyov Hacı Zeynalabdinin "Tacir Bankı"nın ilk həmtəsisçilərindən biri idi. Bankın nizamnamə kapitalı 5 mln. rubl təşkil edirdi. 1914-cü il üzrə "Baku" illik nəşrinin məlumatına

görə, əsası 1901-ci ildə qoyulmuş "Br.A-b i B-b Aşurbekovı" neft sənayesi firması ildə 1 milyon 684 min pud neft çıxarır, onun mədənlərində artıq 205 fəhlə çalışırdı. Bütün bunlar firmanın sanballı və iri bir müəssisə olduğu barədə danışmağa imkan verir.

Onu da söyləmək lazımdır ki, öz işgüzar keyfiyyətlərinə görə, Bala bəy Aşurbəyov (1882-1937) böyük qardaşından üstün idi. İşgüzar çevrələrdə o, sanballı tərəfdaş, etibarlı kompanyon kimi etimada malik idi. Əli bəy Aşurbəyova (1878-1940) gəldikdə, onun bir sevimli əyləncəsi vardı - səyahət etməyi xoşlayırdı. Böyük moda həvəskarı və kübar tərbiyəsi görmüş bu adam bir çox ölkələri gəzmişdi, bir neçə dildə sərbəst danışa bilirdi. Gözəçarpan zahiri görkəmi, gözəl maneraları ilə fərqlənir, başladığı işlərdə həmişə uğur qazanırdı.

Qardaşlar Qoqol küç.28-də yerləşən həmin evdə yaşayır, onların kontoru, eləcə də Aşurbəyovların işlər müdiri, eston milliyyətindən olan mədən mühəndisi Lanın apartamentləri də burada yerləşirdi. Qarışıq illərdə Bakıdan gedən bu mühəndis Estoniyanın dağ-mədən sənayesi naziri olmuşdu. Aşurbəyovların digər bir işlər müdiri istedadlı mühəndis-texnoloq, Peterburq Texnoloji İnstitutunun məzunu Fətulla bəy Rüstəmbəyov olmuşdur.

Teymur bəy Aşurbəyov kimi onun oğulları da öz xeyriyyəçilikləri ilə tanınırdılar. Gələcək ictimai xadimlər - Mir Əsədulla Mirqasımov, Hənifə Pirverdiyev, Ruhulla Axundov kimi məşhur adamlar Aşurbəyovların təqaüdçüləri idilər. Heç bir iri xeyriyyə tədbiri bu qardaşlar olmadan keçirilmirdi. Məsələn, Buxara əmirinin təşəbbüsü ilə Sankt-Peterburqda məscid binası inşa ediləndə Bakı milyonçuları, o cümlədən, Aşurbəyovlar onun tikintisinə çox böyük vəsaitlər ayırmışdılar. 1910-cu ildə məscid demək olar hazır olanda Bala bəy ödədiyi vəsaitdən əlavə, öz pulları hesabına məscidin ibadət zalı üçün dəbdəbəli büllur çilçıraq alıb bağışlamışdı.

Sara xanım Aşurbəylinin səyi ilə əsilzadə Aşurbəyovların geniş nəsil şəcərəsini bərpa etmək mümkün olmuşdur. Bu nəslin kökü 1743-cü ilə gedib çıxır. O vaxt İran hökmdarı Nadir şah öz sərdarı (hərbi naziri) və əmisi oğlu Aşur xan Əfşara Bakı yaxınlığında Sabunçu, Zabrat və Keşlə kəndlərində geniş torpaqlar bağışlamışdır. Aşur xanın torpaqları onun çoxsaylı varislərinin ailə mülkünə çevrilmişdir. Lakin Azərbaycan Rusiyanın tərkibinə daxil olduqdan sonra onların xan titulu ləğv edilir və Aşur xanın varisləri iri torpaq sahibləri olaraq bəy titulu alırlar. Öz xan əcdadlarının adını russayağı AŞURBƏYOV familiyası üçün əsas götürürlər.

Yeri gəlmişkən, Bala bəy Aşurbəyovun arvadı İsmət xanım bir neçə qadın xeyriyyə cəmiyyətinin, o cümlədən Müqəddəs Nina xeyriyyə cəmiyyətinin üzvü olmuşdur.

Qoqol küçəsindəki evlə yanaşı, B.Aşurbəyovun o vaxtkı Bondarnaya küçəsi 186 ünvanda (sonralar Dimitrov, indi Ş.Bədəlbəyli küç.) başqa bir evi də vardı. Mərdəkanda isə Aşurbəyovlar tərəfindən villa tikilmiş və zəngin bağ salınmışdı

(hazırda "Günəşli" sanatoriyası). Burada Əli bəyin və Bala bəyin bağ evində 1919-cu ildə Azərbaycan Demokratik Cümhuriyyətinin baş naziri Fətəli xan Xoyski dincəlmişdi.

1917-ci və sonrakı illərin inqilabi hadisələri Aşurbəyovlardan da yan keçmədi. 1918-ci ildə daşnakların törətdiyi qanlı mart hadisələri zamanı Bala bəyin ailəsi Sabunçuda gizlənməyə məcbur olmuşdur, evi isə qızların ev tərbiyəçisi madmuazel J.Qreylo xilas etmişdi. Bu qadın evin giriş qapısının üstündən fransız bayrağı asaraq, bununla evin böyük bir hissəsini talandan və dağıdılmaqdan qoruya bilmişdi. Xoşbəxtlikdən həmin vaxtlar Bakıda olmayan Əli bəyin apartamentlərini isə daşnaklar dağıda və talaya bilmişdilər. Yalnız aradan yarım il keçdikdən sonra Azərbaycan Demokratik Cümhuriyyətinin qurulması və Bakının daşnak qüvvələrindən təmizlənməsindən sonra Aşurbəyovlar ailəlikcə öz evlərinə dönə bilmişdilər...

O qədər də sabit keçməyən 1919-cu ilin ardınca 1920-ci ildə Qızıl Ordu öz dəmir pəncəsini irəli uzadaraq, yenicə doğulmaqda olan demokratiyaya və dövlətçiliyə öz qeyd-şərtsiz hökmünü verdi. Aşurbəyovlar şəhərdəki bütün mülklərindən, bağ evlərindən, mədənlərindən məhrum edildilər. Bu bir yana, yeni hakimlər hər iki qardaşı həbsxanaya atdılar. Yalnız Nəriman Nərimanovun köməyi ilə Bala bəy ailəsi ilə birlikdə 1920-ci ilin iyununda Bakıdan İstanbula gedə bilmişdi.

Əli bəyə gəldikdə, o düz yarım il Moskvada Lubyanka həbsxanasında yatmış, onu qoçu zənn edərək güllələnməyə məhkum etmişdilər. Əlbəttə, ölümə məhkum edilmiş və hər gün hökmün icra ediləcəyini gözləyən adamın vəziyyətini təsəvvürə gətirmək olar. Yenə də Nərimanovun himayədarlığı onun köməyinə çatmışdı.

Bala bəy Aşurbəyovun ailəsi İstanbulda beş il yaşadı. Taleyin bütün keşməkeşlərinə baxmayaraq, Bala bəy öz atası kimi hərəkət edərək övladlarına yaxşı təhsil verməyə çalışırdı. Onun qızı Sara xanım (tanınmış tarixçi), Sitarə xanım və Məryəm xanım şəhərdəki Janna d'Ark fransız kollecində, oğlu Rəşad bəy isə Türkiyənin ən mötəbər təhsil ocaqlarından olan Qalatasaray lisesində oxuyurdular.

Nostalgiya, Bakı həsrəti, eləcə də yeni iqtisadi siyasət nəticəsində bir qədər sabitləşmiş vəziyyət Bala bəy Aşurbəyovu 1925-ci ildə ailəsi ilə birlikdə Vətənə qayıtmağa məcbur etdi. Düzdür, onlar artıq köhnə evlərində deyil, Şah döngəsində yaxın qohumunun kiçik mənzilində yaşayırdılar. Bala bəyin işə düzəlmək cəhdləri də uğur qazanmadı: yeni iqtisadi siyasət dövrü uzun sürmədi, "dəmir pərdə" isə mühacirətə getməyə hər hansı imkanın qarşısını kəsdi.

1935-ci ildə Bala bəy Aşurbəyov yenidən həbs edilir. "Üçlüyün" çıxardığı qərar "əsaslı" idi: bu adam keçmişdə neft sənayeçisi və fabrikant olmuşdu...

Bala bəy Aşurbəyovu Orta Asiyaya sürgün edirlər. Həmin gündən onun barəsində nadir hallarda xəbər gəlirdi. Yalnız keçmiş həbsxana həkiminin

söhbətlərindən bəlli olur ki, kamerada onun yanına bir xəbərçi salınıbmış və bu adam hamının yanında Stalini ucadan söyürmüş. Əvvəlcə hamı ehtiyatlanıb susurmuş, amma Bala bəy sonda dözməyib: "Nə söz ola bilər ki? Axı o - diktatordur!". Bu kifayət etmişdir və 1937-ci ilin dekabrında Aşurbəyov güllələnmişdir.

Qardaşından sonra Əli bəy də çox yaşamadı. Bala bəyin həyatdan getməsi haqqında xəbər onun qəddini birdəfəlik əydi və o, 1940-cı ildə ürək tutmasından vəfat etdi.

Tibb İnstitutunun məzunu olan Rəşad bəyin taleyi də faciəli oldu: cəbhəyə yollandı və 1944-cü ildə Budapeştin alınması zamanı həlak oldu. Qohumların və doğmaların xatirələrinə görə, o da öz dərin biliyi, ziyalılığı və vüqarlı davranışı ilə seçilirmiş. Bacılar qardaşlarının həlak olması barədə xəbəri anaları İsmət xanımdan gizlədə bilirlər. İsmət xanım 1954-cü ildə öz toylarının 50 illiyi günündə dünyadan köçmüşdür. Son gününə qədər oğlunun qayıdacağını gözləyirmiş...

Aşurbəyovların çoxsaylı pleyadasında - mülkədarlar, tacirlər, sahibkarlar, sənayeçilər, mesenatlar arasında bir ad - İsa bəy Aşurbəyov ayrıca qeyd edilməlidir. Faciəli bir tale yaşasa da, son dərəcə maraqlı bir adam olan İsa bəy bu nəslin özünü siyasi sahədə sınamış çox az sayda təmsilçisindən biridir.

İsa bəy Aşurbəyov 1878-ci ildə doğulmuşdur. Onun atası Hacı Mehdiqulu bəy Aşurbəyov bu soyun yaşlı nəslinin tipik təmsilçilərindən biri idi. H.Z.Tağıyevlə birlikdə H.M.Aşurbəyov Bakı Quberniyası uşaq evlərinin hamilik təşkilatının fəxri üzvü olmuşdur. Sara xanım Aşurbəylinin şahidliyinə görə, Bakı əsilzadələrinin təmsilçisi qismində Hacı Mehdiqulu bəy Aşurbəyov II Nikolayın tacqoyma mərasimində iştirak etmiş və monarxa qızıl işləməli xəncər hədiyyə etmişdir.

İsa bəy Aşurbəyov Hacı Mehdiqulu bəyin yeganə oğlu idi. "Neft fırtınası" dalğasında varlanmış olan ata tək oğlunun təhsili üçün pul əsirgəməsə də, hər halda İsa bəyi kənar təsirlərdən imkan daxilində qorumağa çalışmışdır. Bəlkə də məhz buna görə coşqun ictimai fəaliyyət göstərmək arzusu illər keçdikcə İsa bəyi daha dərindən çulğalamışdır. Gənclik illərində o, ehtiraslı bir şəkildə sosial-demokrat ideyalarına bağlanmışdı. İnqilabi əhval-ruhiyyəli fəhlələrlə, peşəkar inqilabçılarla tanışlıq İsa bəyi 1905-1906-cı illər hadisələrinin burulğanına salmışdı. Bu illərdə o, öz mənşəyinə baxmayaraq, M.Muxtarovun emalatxanalarında, ardınca isə öz atasının mədənlərində açıq təbliğat aparır, bu əsnada jandarm idarəsi tərəfindən üç dəfə həbsə məruz qalır.

İsa bəy üçün inqilabi romantika dövrü çox sürməmişdir. Bolşeviklərlə prinsipial fikir ayrılığı onun sonrakı illərdə həmin düşərgədən uzaqlaşmasına gətirib çıxarmışdı ki, buna görə sovet tarixşünaslığı İsa bəyi birmənalı şəkildə "təsadüfi cığırdaşlar" deyilən düşərgəyə aid edirdi.

1912-ci ildə İsa bəy Aşurbəyov H.Z.Tağıyevin yanında - onun məşhur Bakı qəzeti "Kaspi"nin mətbəəsində qulluğa girir. Əsilzadə, neft sənayeçisinin oğlu İsa

bəy Aşurboyovun qulluğa daxil olması atasında narazılıq doğurmuş və bu hərəkət qohumlarla növbəti incikliyin səbəbi olmuşdur. Buna baxmayaraq, Bala bəy Aşurbəyovun maliyyə yardımı ilə İsa bəy mətbəəni iki il yarım ərzində icarəsində saxlayır və onu Staro-Poçtovı və Persidski küçələrinin (indiki S.Tağızadə və M.Muxtarov küçələri) tinindəki evinin zirzəmisində yerləşdirir, müəllimlər üçün dərsliklər, metodiki ədəbiyyat nəşrini təşkil edir. Birincilərdən biri olaraq İ.Aşurbəyov M.Ə.Sabirin əsərini nəşr edir, "Şəlalə" və "Vodopad" həftəlik müəllim jurnallarını (rus və Azərbaycan dillərində), "Baraban" satirik əlavəsini çap edir.

Lakin müəllimlərin əsərlərinin çap edilməsi və onların böyük qisminin pulsuz şəkildə yayılması İsa bəy Aşurbəyovu tam maliyyə böhranına gətirib çıxarır. Odur ki, tezliklə mətbəəni böyük bir borcla birlikdə H.Z.Tağıyevə qaytarmalı olur. Bu borclar yalnız sovet hakimiyyətinin gəlişi ilə ləğv edilir.

İsa bəyin ictimai fəaliyyəti öz davamını 1910-cu ildə seçilmiş olduğu Bakı Şəhər Dumasında, eləcə də Bakıda "Nicat" müsəlman cəmiyyəti-xeyriyyəsində, "Kapli moloka" adı altında uşaq ölümü ilə mübarizə cəmiyyətində tapır.

Birinci Dünya müharibəsinin başlanması ilə İsa bəy Aşurbəyov Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin tərkibindən Bakı qradonaçalniki tərəfindən təşkil edilən "Türk hərbi əsirlərinə yardım komitəsi"nin üzvü seçilir. Sonrakı illərdə baş verən siyasi hadisələrin burulğanı və imperiyanı saran qarışıqlıq İsa bəyi yenidən öz qoynuna alır. Həbs edilməsindən sonrakı istintaq protokolları onun ən müxtəlif hərəkatlar və partiyalarla: "Hümmət", "İttihad", "Difai" ilə əlaqələrindən söz açır...

Bu siyasi kaleydoskopda baş çıxarmaq İsa bəy üçün son dərəcə çətin olmuşdur. Lakin 1918-ci ilin martında daşnakların törətdikləri müdhiş qırğınlardan sarsılan İ.Aşurbəyov 1918-ci ilin sentyabrında türk qoşunlarının Bakıya daxil olması üçün özünün bütün nüfuzundan və əlaqələrindən istifadə edir. Onların şəhərdə yerləşmələri dövrü qısa olsa da, məhz bu hadisə İsa bəy Aşurbəyovun 31 dekabr 1937-ci ildə həbs edilməsinin səbəbi olmuşdur.

Həmin vaxtlar Stalinin repressiya maşını bütün gücü ilə işləyirdi. Həbs edilən adam barəsində hər hansı məlumat almaq sadəcə mümkünsüz idi. Üstündən dörd il keçəndən sonra böhtan və iftira əsasında İsa bəyin kiçik oğlu Davud da həbs edilir. Onlar 30-cu illərin amansız repressiyalarının qurbanı olan Aşurbəyovların kədərli siyahısını tamamlamışlar. Yalnız 1992-ci ildə İsa bəyin varisləri istintaq materialları ilə tanış ola bilmiş və aydın olmuşdur ki, İsa bəy Aşurbəyov 1938-ci ilin oktyabrında həmin vaxtlar üçün basmaqəlib və tipik olan "xarici dövlətlərin xeyrinə casusluq"dan tutmuş, "millətçi təşkilatlarda iştirak"a qədər ən müxtəlif ittihamlar əsasında ölüm cəzasına məhkum edilmişdir.

İsa bəy Aşurbəyovun son dərəcə qeyri-adi, parlaq, lakin heç də hamı tərəfindən başa düşülməyən şəxsiyyəti, zənnimizcə, gələcəkdə tarixçilər tərəfindən daha dərindən və təfsilatı ilə öyrəniləcəkdir. Təbiəti etibarı ilə romantik olan İsa bəy həmişə hansısa qeyri-real ideralların ardınca qaçan və, əlbəttə, onu əhatə edən aləmdə onu tapa bilməyən adam təsiri bağışlayırdı.

* * *

Bakı məscidləri... 1912-ci il üzrə "Bakinski sputnik" məlumat kitabında təkcə kiçik məhəllə məscidlərinin sayı 15-ə qədər göstərilir. Bunlar Məmmədyar və Hacı Zərbəli, Hacı Qurban və Hacı Cəbrayıl, Hacı Hüseyn və Hacı Tusverdi, Hacı Cavad, Tiley məscidi və başqaları idi. Təəssüf ki, onlardan yalnız bəziləri bizim günlərədək qorunub saxlanmışdır, qalanlarının adı yalnız yaddaşlarda yaşayır.

Köhnə Bakının ən möhtəşəm məscidləri sırasına böyük, ibadət zalının diametri demək olar 20 metrə çatan, incə işləməli portalı, eləcə də zəngin daxili bəzəkləri ilə Təzə Pir cümə məscidi aid edilir. Bütün bunlar Təzə Piri Bakının digər məscidlərindən fərqləndirir. Bununla birlikdə Təzə Pir təkcə ən bəzəkli məscid olmaqla qalmayıb, həm də onların arasında ən gənc məsciddir. Bu məscidin inşası 1914-cü ildə başa çatdırılmışdır.

Sara xanım Aşurbəylinin söylədiklərinə görə, hələ XIV əsrdə indiki Təzə Pirin yerində öz alimliyi və qonaqpərvərliyi ilə məşhur olan dərviş Əbu Səid əl-Bakuvinin zaviyəsi varmış. Ona məxsus olan kiçik neft quyusundan gələn gəlirlə bu dərviş təkcə öz yaşayışını təmin etmir, həm də çoxsaylı sərgərdan dərvişlərə kömək göstərir, onları himayə edirdi. Onun evini qapısı bu dərvişlərin üzünə həmişə açıq idi. Ola bilsin, bu səbəbdən Əbu Səid əl-Bakuvinin ölümündən sonra onun zaviyəsi pirə - ziyarət yerinə çevrilmişdir.

XX əsrin əvvəllərində pir xaraba vəziyyətə düşmüşdü. Varlı bakılı dul qadın Nabat xanım Rzayeva-Aşurbəyova onun keçmiş şöhrətini özünə qaytarmaq istəyir. Mülki mühəndis Zivər bəy Əhmədbəyovun layihəsi əsasında əvvəlki pirin yerində o, Təzə Pir adını almış yeni bir monumental məscid ucaltdırır.

Lakin əvvəlcə Nabat xanımın özü haqqında söz deyək. Bu qadın əsilzadə Aşurbəyovlar nəslindən idi və tanınmış Rzayevlər tacir familiyasının təmsilçisinə ərə getmişdir. Dul qalan və əlində iri varidat cəmləşən Nabat xanım onun xeyli hissəsini yoxsulların ehtiyacları üçün sərf etmişdir ki, bu da ona səxavətli xeyriyyəçi qadın şöhrəti qazandırmışdır. Rzayevlərin Balaxanski küçəsindəki (indiki Füzuli küç.33) çox böyük binasının qapısı həmişə yoxsulların üzünə açıq olmuşdur. Deyilənə görə, ev sahibəsi olmadıqda belə, onlar burada özlərinin çay, bir girvənkə qənd, bir dəst parça və üç manat puldan ibarət (o zaman üçün az məbləğ deyildi) ala bilirlərmiş.

Nabat xanım Sabunçuda məktəbin inşasında, Bakı - Şollar su kəmərinin çəkilişi kimi iri xeyriyyə aksiyalarında iştirak etmiş, onun vəsaiti hesabına Tatarski küçəsində (sonrakı Krupskaya küç.) hamam tikilmişdir. Lakin Bakıda möhtəşəm bir cümə məscidi inşa etdirmək Nabat xanımın ən böyük arzusu olmuşdur. Yeri gəlmişkən, onun tikintisi o dərəcədə böyük vəsait tələb etmişdir ki, H.Z.Tağıyev gələcək məscidin inşasında ona öz vəsaiti ilə yardımını təklif etmişdir. "Əgər sən bu dərəcədə varlısansa, onda özün bir məscid tikdir", - deyə Nabat xanım Tağıyevin bu təşəbbüsünün qarşısında ağıllı bir cavab vermişdir. Lakin buna

baxmayaraq, gələcək məscidin təməl daşını qoymaq şərəfi məhz Hacı Zeynalabdin Tağıyevə həvalə edilmişdir. Bu hadisə 23 iyul 1905-ci ildə olmuşdur.

Təzə Pirin tikintisinə o çağın ən yaxşı ustaları: bənna-daşyonan usta Hacı Abbas, üzlük ustalarından Hacı Xeyrulla və Məmmədhənifə, Salman Atayev və usta Salman, 1965-ci ildə vəfat etmiş usta Kərbəlayı Mirzə cəlb edilmişdilər. Məscidin interyerinə, onun naxışlı ornamentlərinə ustalardan Kərbəlayi Məcid və Kərbəlayı Sadıq tərtibat vermişdilər.

Memarların bu məharəti, eləcə də cümə məscidi üçün əlverişli məkan seçimi sayəsində Təzə Pir minarələrinin ikinci, daha yüksək yarusunun inşa edilmədiyinə baxmayaraq, bu cümə məscidi son dərəcə möhtəşəm görünüşə malikdir. Yeri gəlmişkən, məscidin qübbəsində son daşı da 1914-cü ildə yenə H.Z.Tağıyev qoymuş və bu münasibətlə bütün ustaları səxavətlə mükafatlandırmışdı. Təəssüf ki, Nabat xanıma öz arzusunun təcəssümünü bütün gözəlliyi ilə görüb seyr etmək nəsib olmayıb. Bu nəcib insan 1912-ci ildə 117 yaşında ikən dünyadan köçmüşdür. Yekun mərhələsindəki işlərə Nabat xanımın oğlu, anasının xeyriyyəçilik ənənələrini çox baxımdan davam etdirən Hacı Abbasqulu Rzayev rəhbərlik etmişdir. Nabat xanım kimi Hacı Abbasqulu da vəfat etdikdən sonra məscidin girişində dəfn edilmişdir. Allah onların ruhlarını şad etsin!

Onun qədər möhtəşəm və əzəmətli görünüşə malik digər bir Bakı məscidi keçmiş Kaspiyski (indiki Səməd Vurğun) küçəsi 76 ünvanda yerləşir. Bakılılar onu "Göy məscid" kimi tanıyır. Bununla bərabər, keçmiş illərdə bu məscid onun əsasını qoyan, iri Bakı taciri və mesenatı Hacı Əjdər bəy Aşurbəyovun adı ilə "Əjdər bəy məscidi" də adlanırdı. Nabat xanım kimi bu şəxs də həmin məşhur və tanınmış qədim Aşurbəyovlar nəslinə mənsub idi. Heç də təsadüfi deyil ki, Əjdər bəy və onun oğlu İsmayıl bəyin adına Rusiya İmperiyasının ən məşhur sahibkarları və səxavətli mesenatları sırasında "Romanovlar çar evinin 300 illiyi" nəşrində (1913-cü il) rast gəlinir. "Bir nəfər yoxsul şəxs belə, əgər yardım üçün ona müraciət etmişsə, rədd cavabı almayıb", - deyə biz bu kitabda oxuyuruq.

Əjdər bəy Aşurbəyovun neft mədənləri vardı. Onun özü isə 10 ildən çox Bakı Şəhər Dumasının üzvü ("qlasnı") olmuşdu. Şahidlərin xatirələrinə əsasən Əjdər bəy kimi bir adamın tək bircə sözü istənilən vekseldən və ya iltizamdan daha sanballı tutuma malik idi.

Əgər Təzə Pir məscidi ibadət zalının həcminə və bəzəklərinin zənginliyinə görə misilsizdirsə, Göy Məscid ilk öncə formasının əzəmətinə, klassik proporsiyalarına görə diqqəti özünə cəlb edir. Yeri gəlmişkən, Əjdər bəy məscidini də həmin Zivər bəy Əhmədbəyov layihələşdirmişdir. Onun təntənəli təməlqoyma mərasimi 2 mart 1912-ci ildə olmuş, o biri ilin sonlarına yaxın isə inşaat işləri başa çatdırılmışdır.

* * *

Diqqəti çəkən bir detal: Bakının dörd iri məscidindən ikisi əsilzadə Aşurbəyovlar nəslinin təmsilçiləri: Nabat xanım və Hacı Əjdər bəy Aşurbəyovlar

tərəfindən ucaldılmışdır. Bu məscidlər şəhərdəki dini binaların əksəriyyətinin unudulduğu və baxımsız hala düşdükləri illərdə belə fəaliyyət göstərirdi. Bütün həmin illər ərzində Aşurbəyov məscidləri bizim şəhərin tikinti ənənələrinə bu nəslin verdiyi böyük töhfələrin canlı xatirələri olmuşlar.

Aşurbəyovların ucaltdıqları möhtəşəm binalar, məscidlər, onların iştirakları ilə inşa edilən məktəblər və xəstəxanalar inqilabdan əvvəlki Bakı memarlığının indiyə qədər qızıl fondunu təşkil etməkdədir. Aşurbəyovlar, heç şübhəsiz, böyük var-dövlətə malik əsilzadə familiyalarından biri olmaqla bərabər, eyni zamanda köhnə Bakının sənayeçiləri və sahibkarları sırasında, əlbəttə, ən əsilli-nəsəbli familiya idi.

Təsadüfi deyil ki, sovet hakimiyyətinin qurulmasından sonra ən amansız repressiyalar məhz Aşurbəyovların üzərinə yönəldilir, ən ikrah doğuran donoslar onların barəsində yazılır, onlara münasibətdə ən ağlagələn və ağlagəlməz alçaqlıqlar edilir. Lakin bunlar da bu qədim əsilzadə nəslin övladlarının şəxsiyyətini sındıra bilməmişdir. Sovet dövründə var-yoxdan çıxarılan, mal-mülkləri əllərindən alınan Aşurbəyovlar nəsli öz sıralarından şəhərimizə gözəl alimlər, müəllimlər, istedadlı və qeyri-adi şəxsiyyətlər, ən başlıcası isə - əsl bakılıların ənənəsini illərin sınağından ləyaqət və şərəflə keçirib gətirən nəcib insan bəxş etdi.

Daha bir səciyyəvi detal: bu çoxsaylı və qollu-budaqlı nəslin demək olar heç bir təmsilçisi mühacirətdə dünyasını dəyişməmişdir. Hətta 20-ci illərin əvvəllərində Bakını tərk etməyə məcbur qalanlar, sonralar bu ayrılığa dözməyərək qayıtmışlar. Vətəndə onları təqiblər, məşəqqətlər, repressiya dəhşətləri gözləyirdi. Lakin bizim tariximizin ən amansız dövrlərində belə Aşurbəyovları sındırmaq mümkün olmayıb və düşünürük ki, Sara xanım Aşurbəylinin 90 illik yubileyi tək onun bir alim, tarixçi olaraq deyil, həm də indi həyatda olan bütün Aşurbəyovlar üçün, eləcə də bizim şəhərin tarixini və ənənələrini əziz tutan hər bir kəs üçün yeni bir mərhələnin başlanğıcı olacaqdır...

**Fuad AXUNDOV,**
*İnterpolun Milli Mərkəzi Bürosunun əməkdaşı,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü.*

## AŞURBƏYOVLAR BU GÜN VƏ SABAH

Nəslin qurub-yaratmaq ənənələrini davam etdirməklə, Sara xanım Aşurbəyliyə öz yubileyi günündə, Nabat xanım Aşurbəyovanın - Təzə Pir məscidinin əsasını qoyan nəcib insanın adı ilə "Nabat" adı verilən on altı mərtəbəli yaşayış kompleksinin təməlini qoymaq şərəfi nəsib olmuşdur.

Postsovet dövründə Aşurbəyovlar nəslinin övladları birincilər sırasında respublikada kooperativ hərəkatının beşiyi başında durdular, Azərbaycanda ilk əmtəə-xammal birjasını təsis etdilər, qəzet buraxır, televiziyada və təhsil sferasında

çalışırlar. Özü də bütün bunlar sovet hakimiyyəti illərində Aşurbəyovlar nəslinin nəinki bütün maddi bazalarından, o cümlədən onlarca mülklərindən, evlərindən, torpaq sahələrindən, neft mədənlərindən və müəssisələrindən tamamilə məhrum edilmələrinə, həm də özlərinin bir çox ən ləyaqətli təmsilçilərini itirmələrinə - repressiya edilmələrinə, İkinci Dünya müharibəsində həlak olmalarına, İstanbuldan Parisə qədər dünyanın çox yerinə səpələnmələrinə baxmayaraq mümkün olmuşdur. Nəslin bir çox qanadları öz mövcudiyyətlərinə son qoymuşdur.

Lakin gənc və yeniyetmə nəsil böyüyür və qüvvə toplayır. Aşurbəyovlar nəsli davam edir və onlar Azərbaycan tarixinə hələ çox şanlı səhifələr yazacaqlar.

## SARA XANIM AŞURBƏYLİ MÜASİRLƏRİN XATİRƏLƏRİNDƏ

Yəqin ki, böyük dostluq ilk görüşdən, ani bir təbəssümdən və əlsıxmadan başlanır. Sara xanımla mənim ilk görüşüm 1982-ci ildə Şirvanşahlar Sarayında, onun "Şirvanşahlar Dövləti" adında son dərəcə dəyərli kitabı işıq üzünə çıxdıqdan sonra olmuşdur.

O vaxtlar "Şirvanşahlar Sarayı kompleksi" dövlət tarix-memarlıq muzey-qoruğunun rəhbərlərindən biri olaraq, mənə müəllifi öz kitabının ilk təqdimat mərasiminə dəvət etmək şərəfi nəsib olmuşdu. Mənim fikrimcə, təqdimat məhz Şirvanşahlar Sarayında keçirilməli idi.

